MÜASİR AZƏRBAYCAN ƏDƏBİYYATI

MƏMMƏD SƏİD ORDUBADİ

# Qılınc və qələm

MƏMMƏD SƏİD ORDUBADİ

Ш6
0-49

2353398

# QILINC VƏ QƏLƏM

BİRİNCİ HİSSƏ

"ŞƏRQ-QƏRB"
BAKI-2005

*Bu kitab "**Məmməd Səid Ordubadi.** Əsərləri. Səkkiz cilddə. VII cild"
(Bakı, Azərnəşr, 1966) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

**894.3613 - dc 21**
**AZE**
**Ordubadi Məmməd Səid. Qılınc və qələm.** Birinci hissə. Bakı, "Şərq-Qərb", 2005, 344 səh.

"Molla Nəsrəddin" məktəbinin istedadlı nümayəndəsi kimi meydana çıxan Məmməd Səid Ordubadi Azərbaycanın sovet dövrü ədəbiyyatının klassiklərindən biridir. Uzun, dolğun və mənalı yaradıcılıq yolu keçən ədib bir sıra tarixi romanların müəllifi kimi daha çox şöhrət qazanmışdır. Hadisələrin təsvirində realizm prinsiplərinə hər zaman sadiqlik nümayiş etdirən Ordubadinin oxucularda böyük maraq və həvəs oyadaraq təsəvvürləri genişləndirən bu əsərləri ədəbiyyatımızda tarixi roman janrının inkişafı sahəsində mühüm təşəbbüsdür.

Yazıçının tarixi romanlarından sonuncusu olan "Qılınc və qələm"də böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin yaşadığı dövrün geniş, hərtərəfli mənzərəsi yaradılmışdır. Tarixi sənədliliklə bədii təxəyyülün ustalıqla əlaqələndirildiyi romanın birinci hissəsində iki qəhrəmana daha geniş yer verilmişdir. Bunlardan biri Nizami, digəri isə Fəxrəddindir. Kitabda Nizaminin fikri-bədii təkamülündə rol oynayan şəxsiyyətlərin bədii surətləri də diqqəti cəlb edir.

**ISBN 9952-418-81-4**

© "ŞƏRQ-QƏRB", 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# ÖN SÖZ

Ədəbiyyat tariximizin son dərəcə görkəmli simalarından olan hörmətli ədibimiz Məmməd Səid Ordubadi (1872-1950) Azərbaycanın sovet dövrü ədəbiyyatının ilk klassiklərindən biri kimi XIX əsrin axırlarında meydana çıxan, ilk şeirlərindən ta ömrünün sonlarında bitirdiyi roman və dramlarına qədər davam edən uzun, dolğun və mənalı bir yaradıcılıq yolu keçmişdir.

Ordubadi ilk təhsilin atası şair Hacağa Fəqirdən almış, sonra dörd il M.T.Sidqinin "Əxtər" məktəbində oxumuşdur. O, atasını erkən itirmiş, 14 yaşından Ordubadın ipək fabriklərində işləmiqdir. 1906-cı ildə Culfaya köçüb, İran inqilabına yardım göstərən cəmiyyətin üzvü olmuşdur. İnqilabi fəaliyyətinə görə təqib olunan Ordubadi 1914-cü ilin yanvarında Saritsına sürgün edilmişdir.

XX əsrin ilk onilliklərində çap etdirdiyi "Qəflət" (1906), "Vətən və hürriyyət" (1907) şeir kitabları, "İki cocuğun Avropa səyahəti" (1908), "Bədbəxt milyonçu, yaxud Rzaqulu xan Firəngiməab" (1914) romanları, "Baği-şah, yaxud Tehran faciəsi" (1910), "Əndəlisin son günləri, yaxud Qranadanın təslimi" (1914) dramları, "Qanlı sənələr" (1908), "Nisvani islam" (1911) publisistik kitabları, həmçinin qəzet, jurnal və məcmuələrdə dərc olunmuş onlarla şeir, felyeton, dram, məqalə və digər yazıları Ordubadini Azərbaycanda və onun hüdudlarından kənarda tanıtmışdı. Əsərdən-əsərə təkmilləşən, saflaşan Ordubadi yaradıcılığı xalqımızın mübarizə tarixində də müəyyən rol oynamışdır.

Siyasi-ictimai fəaliyyəti üstündə sürgün olunan ədibin yaradıcılığında inqilabi ideyaların təbliği güclənmişdir. Novoçerkassk həbsxanasında yazdığı "Ona..." şeri bu cəhətdən səciyyəvidir. Şeirdə insanlara edilən zülm və sitəmləri saydıqdan sonra şair intiqam gününün labüdlüyünü qəzəblə göstərirdi:

> Bitməzmi cəfa, axıra yetməzmi kəşakəş,
> Axırda yaxar zatını yaxdıqların atəş!
>
> ...Lakin onu bil, hər nə ki bidad edəcəksən
> Bir gün gələcək sən dəxi fəryad edəcəksən!

Sürgün illərinin bütün əzab-əziyyətlərinə məruz qalan şair azadlıq arzularını gah gizli, gah açıq bildirməkdən çəkinmirdi. 1916-cı ildə yazılmış, bir il sonra Bakıda "Qardaş köməyi" məcmuəsində dərc edilmiş "Huri-hürriyyətə" şerində "Can çıxsa da, mənzuri-xəyalımda camalın" deyə azadlıq pərisinə müraciət edən şair azadlıq gününün tez gəlməsini arzulayır.



Azərbaycanın sovet dövrü ədəbiyyatının ilk təşəkkül mərhələsində Ordubadi siyasi-ictimai mövzularda ən çox yazan və ümumiyyətlə, hadisələrə aydın-açıq münasibətini bildirən sənətkarlarımızdandır. Onun əsərlərində inqilabi hadisələr, beynəlxalq mövzular, azadlıq mübarizələrinin konkret təsviri, irtica qüvvələrinin ifşası mühüm yer tutur. İnqilab dövründə Saritsında, sonra isə Həştərxanda yaşayan yazıçı hadisələrin bilavasitə müşahidəçisi və iştirakçısı olduğundan əsərləri xüsusi reallıq, siyasi kəskinlik və aktuallığı ilə seçilirdi. Bu zaman ədib Bakıda çıxan qəzet və jurnallarda, xüsusilə "Tuti" jurnalı, "Hümmət" qəzeti səhifələrində şeir və felyetonlarını dərc etdirirdi. 1917-ci ilin yanvarında köhnə vəziyyətin hələ də davam etməsindən narahatlığını bildirən şair deyir:

> Hər bir işimiz köhnədir, bir təzə ki yoxdur,
> Alt-üst olaraq qalmışıq, əndazə ki yoxdur.

Ordubadinin əsərləri – şeirləri, felyetonları və məqalələri bu zaman xüsusi təsir qüvvəsi kəsb etmişdi. Çox zaman onun bir qəzet və ya jurnalda dərc olunmuş əsərini başqa mətbuat orqanları götürüb yenidən çap edirdilər. Məsələn, "Huri-hürriyyətə", "Zavallı Əcəmistan" şeirlərini buna misal göstərmək olar.

Həştərxanda Zaqafqaziya Müsəlman İşləri Komissarlığında və "Hümmət" qəzetində çalışdığı bir ildən artıq müddətdə Ordubadinin əsərlərində günün vacib məsələlərinin izahı böyük yer tuturdu.

Dağıstanda sovet hökumətinin qurulması xəbərini eşidən Ordubadi Qırmızı Ordu hissəsi ilə birlikdə ora gəldi. Ədib tərcümeyi-halında yazır: "...Petrovskiyə getmək əmrini aldıq. Paraxodumuzu hərbi gəmilər müşayiət edirdi. Çünki düşmən əmiləri hələ Kaspi dənizində idi... Mənə bir neçə vəzifə tapşırılmışdı. Mən əvvəlcə orada olan mətbəələri götürməyə başlamışdım... Temirxanşurada "Dağpoliqraf" təşkil etdim. Bundan əlavə, bir də ölkə komitəsi məni "Qırmızı Dağıstan" qəzetinin məsul müdiri təyin etdi. Qəzet üçün bina tapdım, başqa işlərini də hazırladım. Qəzetin başlığını da düzəltdim. Aprelin 29-da Temirxanşuranın küçələrində dalğalanan qırmızı bayraqlar Bakının alınması xəbərini verdi".

1920-ci il mayın 2-də Orbudabi Bakıya gəldi. Mərkəzi Komitə onu təcrübəli jurnalist kimi partiya orqanlarına işə göndərdi. O, "Əxbar", "Kommunist" qəzetlərində, "Füqərə füyuzatı", "Kəndli qəzeti", "Yeni yol" və s. jurnal və qəzetlərdə çalışdı, ədəbiyyat və incəsənətin inkişafına kömək edən tədbirlərdə fəallıq göstərdi.

20-ci illərdə M.S.Ordubadi əsasən mətbuat işçisi və şair kimi məşhur idi. Hər gün dövri mətbuat səhifələrində onun məqalə, şeir və "balaca felyeton"ları çıxırdı.

Bir dramaturq kimi də Ordubadinin 20-ci illər yaradıcılığı diqqəti cəlb edir. Bu dövr dramları ədibin dramaturgiya ilə müntəzəm məşğul olduğunu qeyd etməyə haqq verir.

"İşsizlər" pyesi "Tənqid-təbliğ" teatrının birinci açılış gecəsində oynanılan əsərlərindəndir.

1941-ci il iyunun 22-də başlanan müharibə yazıçıların da qarşısına yeni vəzifələr qoydu. Bütün yazıçılar kimi M.S.Ordubadi də dərhal yaradıcılığını bu yeni vəzifələrə uyğun qurmağa başladı. Bu zaman yazıçı qoca idi, onun yaşı 70-ə çatırdı, səhhəti də yaxşı deyildi: həbsxanalar, sürgünlər öz izini göstərirdi. Bununla belə yazıçı çox fəal çalışırdı: tez-tez ordu hissələrində, mitinqlərdə çıxış edir, əsərlər yazırdı.

Ədibin yaradıcılığında müasirliyə doğru böyük bir dönüş nəzərə çarpırdı. Müasirliyi, aktuallığı ilə bərabər onun əsərləri rəngarəngliyi, zənginliyi ilə də əlamətdardır. Şeirlər, hekayələr, felyetonlar, məqalələr, oçerklərlə yanaşı onun qələmindən çıxmış iri həcmli əsərlər – dramlar, librettolar, romanlar, ədəbi portretlər bunu sübut edir.

"İncəsənət və müharibə" məqaləsində ədib ədəbiyyatın rolundan və yazıçıların qarşısında duran mühüm vəzifələrdən bəhs edirdi: "Xalqların qələbə tarixində incəsənət və ədəbiyyatın nə qədər şərəfli rol oynadığı hər kəsə məlumdur. Tarix bu fikrin əksini söyləyənlərin, "Toplar guruldarkən muza susmalıdır" - deyənlərin nə qədər yanıldığını artıq çoxdan sübut etmişdir. Həyat yalnız öz qələmlərini və fırçalarını böyük tarixi döyüş günlərində süngülərlə yanaşı qoya bilən sənətkarları yaşatmışdır. Vətənin təhlükə qarşısında olduğu günlərdə vətən qəhrəmanlarını döyüşlərə ruhlandırmaq, qələbənin ölməz epopeyalarını yaratmaq həqiqi sənətkarların həmişə vətəndaşlıq borcu olmuşdur".

Müharibə mövzusunda yazdığı "Cəbhədən məktub" (1941) ilk şerində Ordubadi cəbhəyə təzə getmiş gənc döyüşçünün əhvali-ruhiyyəsini açmağa səy göstərmişdir. Şeirdən göründüyü kimi, ata-anasının öyüdlərini yadında saxlamış əsgər ilk döyüşünü, yaralanmasını, şərəflə vuruşmasını qürurla xəbər verir.

M.S.Ordubadi yenə də satirik şeir – felyetonlar yazmağa başladı. Onun faşizm əleyhinə "Canavarsan, canavar!", "Hitler cənnətində" kimi satiraları xalq içərisində geniş yayılmışdı.

M.S.Ordubadinin müharibə dövrü nəsrində adamların, cəbhədə vuruşan, ölüb-öldürməyə məcbur olan döyüşçülərimizin və arxada cəbhə üçün çalışan geniş kütlələrin vətənpərvərliyi, humanizmi, ən çətin şəraitdə belə özünü göstərən yüksək insani keyfiyyətləri əks olunmuşdur. "Serjant İvanov adına körpələr evi" (1941), "Dilruba" (1941) hekayələri, "Gənc çekistlər" (1942), "Kiçik şəhər" (1945) romanları bu cəhətdən qiymətlidir. Xüsusilə son iki



əsər ədəbiyyatımızda 1941-1945-ci illər müharibəsi mövzusunda yazılmış ilk romanlar kimi də əhəmiyyətlidir.

Tarixi mövzudan vətənpərvərlik məqsədilə istifadə edən yazıçı bir çox əsərlərini məhz bu ideyaya həsr etmişdir. "Maral" mənzum dramı bu baxımdan gözəl nümunə sayıla bilər. Mövzusu uzaq keçmişdən götürülmüş bu dramda adi vaxtda xalqdan uzaq olan, qoçaq sərkərdə Fəramərzi kəndli balası olduğu üçün rədd edən şahzadə Maral da, onun qardaşı zəif iradəli Astiaq şah da, xalqın başqa igid oğulları da vətən üzərində işğalçıların hücumu təhlükəsini gördükdə ayağa qalxır, bütün narazılıqları, keçmiş inciklər unudurlar. "Qara Məlik" (1941), "Camal" (1941), "Səttar xan" (1942), "Tarix və qələbə" (1942) və s. kimi oçerk – portretlərdə yazıçı xalqımızın tarixində ad çıxarmış qəhrəmanların vətənpərvərliyindən söz açır, onları nümunə göstərir.

1941-1945-ci illər müharibəsindən sonrakı illərdə M.S.Ordubadinin yaradıcılığında müasir mövzular mühüm yer tutur. Ədib müasirlərinin bədii surətini yaratmağı qarşısına məqsəd qoyduğunu özü də etiraf edərək yazırdı: "İndiyə qədər ən çox tarixi mövzularda iri əsərlər yazmışam. Lakin hər nə olursa-olsun mənə təzə həyatdan və təzə insanlardan yazmaq lazımdır. Yoxsa yoldaşlarda belə fikir oyanır ki, tarixi romanlar oxucunu başqa mövzulardan daha yaxşı cəlb edə bilir. Məncə, bu fikir tamamilə yanlışdır. İstər tarixi, istərsə bugünkü həyatımıza dair romanların müvəffəqiyyəti yazdığın mühiti lazımi qədər öyrənməkdən asılıdır. Məncə, hazırkı həyatın mövzuları tarixi həyatın mövzularından daha bədiidir. Buna görə də mən təzə həyatımızdan geniş bir mövzuda əsər yazmaq işinə başlamışam..." Həmin əsər ədibin ölümündən bir az əvvəl bitirdiyi "Təzə adam" romanıdır. Romanda xalqımızın müharibə dövründəki fədakarlığı, müharibədən sonrakı ilk illərdəki quruculuq işləri geniş əhatəsini tapmışdır.

M.S.Ordubadinin son əsərlərindən "Böyük quruluşda" pyesi dinc quruculuq mövzusunda yazılmışdır.

Yazıçının zəngin ədəbi irsi içərisində dünya ədəbiyyatından etdiyi tərcümələr də müəyyən yer tutur. A.S.Puşkinin "Baxçasaray fantanı", "Boris Qodunov", Bomarşenin "Sevilya bərbəri" və b. əsərlər ədibin bu sahədəki fəaliyyətinə nümunə göstərmək olar.

* * *

Ordubadi ədəbiyyatın bütün növlərində yazıb-yaratsa da, romanları ilə daha böyük şöhrət tapmışdır. Ədəbiyyatımızda tarixi romanın banisi olan Ordubadi sənətkarlıq bacarığını bütün parlaqlığı və dolğunluğu ilə təkrarsız romanlarında nümayiş etdirə bilmişdir. Tarixi keçmişi, xalqımızın tarixinin mühüm, əlamətdar hadisə və qəhrəmanlarını dərindən öyrənib, duyub, sənət-

karlıqla əks etdirən ədib roman sahəsində ədəbiyyatımızda özünəməxsus yol açmış, böyük iz qoymuşdur.

İlk tarixi romanı – "Dumanlı Təbriz" Azərbaycan nəsrinin ən yaxşı nümunələrindən olmaqla ədibə böyük şöhrət gətirdi. Dörd kitabdan ibarət bu roman-epopeyanı Ordubadi 20-ci illərin axırlarında yazmağa başlamış, 1933-1948-ci illərdə çap etdirmişdir. 1906-1911-ci illərin İran inqilabı, xüsusən Səttar xan hərəkatı əsərin baş mövzusu olsa da, ədib həmin dövrün hadisələri ilə kifayətlənməyərək mövzunun davamını 1917-ci il inqilabına qədər izləyir.

"Dumanlı Təbriz"in dörd kitabında oxucu külli miqdarda tarixi hadisə və qəhrəmanla tanış olur, xüsusən Səttar xan hərəkatının əsas mərhələləri, üsyançı kütlələrin nümayəndələri onun gözləri qarşısında canlanır. İnqilabın gedişini, onun səciyyəvi xüsusiyyətlərini, özünəməxsusluğunu, qüvvətli və zəif cəhətlərini, inqilabçıların sinfi tərkibini, bir sözlə, bu geniş hərəkatın əsas məziyyətlərini və nöqsanlarını oxuculara aydın, inandırıcı çatdırmaq üçün müəllif gərgin əmək sərf etmiş, böyük axtarışlar aparmış, bədii kəşflər, yollar tapmışdır. Müəyyən dərəcədə özünün də iştirak etmiş, bəzən görmüş, bəzən eşitmiş olduğu, tarixi sənədlərən öyrəndiyi, elmi-siyasi ədəbiyyatdan tapdığı hadisə, qəhrəmanları ədib, bir yazıçı baxımından düzgün, doğru qiymətləndirməyə çalışmış, buna müvəffəq də olmuşdur. "Dumanlı Təbriz" tarixilik baxımından doğru, real, bədiilik cəhətdən güclü, cazibədar romandır.

Xalqının tarixi keçmişi ilə həmişə maraqlanan, bu mövzuda müxtəlif janrlarda onlarla əsər yazan Ordubadi "Dumanlı Təbriz" romanı ilə qədimdən bəri üsyankarlığı, qəhrəmanlığı ilə tanınan Təbriz şəhərinin, Təbriz oğullarının əzəmətli heykəlini ucaltmışdır.

Təbrizin daxili həyatı və beynəlxalq aləmdə yeri romanda geniş və ətraflı, real və koloritli verilmişdir. Zahirən dumanlar altında uyumuş kimi görünən bu üsyançı şəhər əslində, yazıçının təsvirlərindən göründüyü kimi, qaynar bir qazanı xatırladır. Müxtəlif əqidəli, müxtəlif siniflərə mənsub inqilabçılardan, üsyançılardan başqa əsərdə xarici dövlətlərin nümayəndələri, cürbəcür adlar altında Təbrizə gəlmiş siyasi xadimlər, casuslar və s.-nin fəaliyyəti, xətti-hərəkəti daxilində vəziyyəti xeyli mürəkkəbləşdirmişdir.

Təbriz hərəkatının rəhbərlərinin, inqilab qəhrəmanlarının surətləri müəllifin böyük nailiyyəti kimi qiymətləndirilə bilər. Xalqın hədsiz məhəbbətini qazanmış, az müddətdə başına güclü qüvvə toplayaraq üsyana başlayan Səttar xan, onun yaxın silahdaşı Bağır xan, fədakarlığı ilə rəğbət qazanan Əli Davafüruş, Əmir Həşmət, Əkbər Əkbərov və başqalarının bədii surətləri bu qəbildəndir. Sıravi inqilabçılardan Əsəd Tütünçüoğlu, Həsənağa, Cavadağa və b. obrazlar da yaxşı yaradılmışdır. Romanda Mahru xanım, Zeynəb, Təhminə, Nabat xanım, Nina, İraida, Miss Hanna kimi yaddaqalan surətlər də az deyil. Mənfi tiplərin içərisində hərtərəfli işlənmiş, əsərdə hadisələrin gedişində mühüm rolu olan Sərdar Rəşid, Hacı Səməd xan, Mahmud xan, Rəfizadə, Şümşad xanım, Sarı Ağabala, tacirlər, xanlar, hökumət nümayəndələri də canlı təsir bağışlayır.



"Dumanlı Təbriz" birinci şəxsin dilindən danışılır, Əbülhəsən bəy adı ilə hadisələri danışan şəxs əqidəsi yolunda candan keçməyə hazır olan, geniş məlumatlı, mədəni bir adamdır. O, təsvir olunan hadisə gedişində çox mühüm rol oynamaqla mürəkkəb tarixi hadisələrin oxucular tərəfindən düzgün qavranılmasına da kömək göstərir, onları öz həmsöhbətlərinə danışıq, izah etmək yolu ilə oxucu üçün də aydınlaşdırmış olur. Əsərin sonunda əsil adının Nüsrət Hüseynov olduğu qeyd edilən Əbülhəsən bəy surəti də həyatdan alınmışdır. Lakin müəllif onu istədiyi kimi yaratdığından, artırıb-əksiltdiyindən bunu tarixi surət kimi təqdim etmir. Əbülhəsən bəy surətində o zamanlar İran inqilabına kömək edən Culfa təşkilatının üzvü Ordubadinin özünün də avtobioqrafik cizgiləri əksini tapmışdır.

Ordubadi bütün zəngin yaradıcılığında xalqımızın tarixi keçmişini, qəhrəmanlıq səhifələrini, inkişaf və azadlıq mübarizələrini ardıcıl olaraq tədqiq və təsvir edən, bu sahədə misilsiz nailiyyətlər qazanan sənətkarlarımızdandır. Vətənpərvər ədib özünün tarixi-inqilabi romanları ilə xalqımızı geniş miqyasda tanıtmışdır.

* * *

M.S.Ordubadinin tarixi romanlarından sonuncusu "Qılınc və qələm"dir.

Dahi Azərbaycan şairi Nizami Gəncəvinin həyat və yaradıcılığı ətrafında M.S.Ordubadi böyük tədqiqat aparmış, çox qiymətli əsərlər yazmışdır. Hələ 1925-ci ildə "Maarif işçisi" məcmuəsinin 8-ci nömrəsində dərc etdirdiyi "Fars ədəbiyyatında Nizami" məqaləsində Nizaminin yaşadığı mühitdən və şairin əsərlərindən bəhs edən Ordubadi, sonralar Nizaminin 800 illik yubileyinin keçirilməsində olduqca fəal və böyük səy ilə çalışaraq bu sahədəki tədqiqatını daha da genişləndirmişdir. 1939-cu ildən başlayaraq, onun müxtəlif qəzet və jurnallarda, eyni zamanda yubiley münasibətilə buraxılan "Nizami" almanaxlarında "Nizaminin dövrü və həyatı" (məqalələr silsiləsi, 1939), "Böyük şairin yaşadığı mühit" (1947), "Nizami dövründə ədəbiyyat" (1947), "XII əsrdə Azərbaycan ədəbiyyatı və onun klassik Şərq ədəbiyyatına təsiri" (1943) və sair kimi dəyərli elmi məqalələri çap olunmuşdur. Bunlardan əlavə, "Nizami" (1939) adlı opera mətnini və "Qılınc və qələm" romanını da yubiley münasibəti ilə yazmışdır. 1941-ci ildə romandan "Bahar" adı ilə bir parça "Revolyusiya və kultura" jurnalında dərc olunmuş, bundan sonra ayrı-ayrı parçalar çap edilmişdir. Bütövlükdə – "Qılınc və qələm" romanı Azərnəşr tərəfindən ilk dəfə 1946-cı ildə (I kitab) və 1948-ci ildə (II kitab)

çapdan çıxarılmışdır. Oxucuların böyük rəğbət və məhəbbətini qazanan roman ilk çapından sonra dəfələrlə nəşr edilmişdir. 1965-ci ildə əsər İ.Peçenevin tərcüməsi isə rus dilində çapdan çıxmışdı.

"Qılınc və qələm" haqqında Ordubadinin özünün qeydləri vardır, oxucular üçün maraqlı olacağını nəzərə alaraq həmin geydləri burada veririk. Ordubadi tərcümeyi-hal xasiyyətli yazılarının birində qeyd edir:

"Gəncliyimdən bugünkü günə qədər yazıçılıqda adət etdiyim bir xüsusiyyət vardır ki, o da bir mövzunun üzərində qapanıb qalmamaqdan ibarətdir. Çünki bir mövzu üzərində illərcə işləmək yazıçını həyatımızın tələb etdiyi təzə-təzə mövzular üzərində işləmək imkanından məhrum edir.

Buna görədir ki, 1927-ci illərdə "Dumanlı Təbriz" romanını yazmağa başladığım zaman "Gizli Bakı" və sair romanlar üzərində də işləyirdim.

1940-cı ilin birinci yarısında "Dumanla Təbriz" romanının son – dördüncü kitabını bitirib Azərnəşrə verdiyim vaxt, eyni zamanda 39-cu ildə başladığım böyük həcmli tarixi bir romanı da davam etdirirdim. Bu roman, böyük Azərbaycan şairi Nizaminin dövrünü, həyatını və ədəbi fəaliyyətini əhatə edir. Roman XII əsrin əvvəllərində Şərqdə böyük bir dövlət təşkil etmiş Səlcuq xanədanının süqut etməsi ilə, yerində Eldəniz oğularının Azərbaycan atabəyləri adında bir dövlət təşkil etməsi, Yaxın Şərq xəritəsinin tamamilə dəyişməsi, nüfuzdan düşmüş Bağdad xəlifəsinin mövqeyini mənimsəmək üzərində gedən mübarizələr, bu mübarizələr zamanında Azərbaycanın siyasi və iqtisadi vəziyyəti tarixi vəsiqələrlə təsvir edilir.

Romanda mühüm yer tutan məsələlərdən birisi də Nizaminin nə kimi bir şərait altında yaradıcılığa başlaması və Azərbaycan kəndlisinin nə kimi bir ağır vəziyyətdə yaşamasından ibarətdir.

Roman məşhur Gəncə şairəsi və musiqi alimi Məhsəti xanımın Gəncə ruhaniləri tərəfindən sürgün edilməsi və Aran ziyalılarının, başda Nizami olmaq üzrə Məhsəti xanımın Gəncəyə qaytarılması yolunda apardıqları mübarizə və sair bu kimi hadisələri əhatə edir.

Romanda Şirvan şahı Əbülmüzəffərin fars koloniyası vəzifəsi daşımaqla Azərbaycanda farslaşdırma siyasəti apardığı, Azərbaycan xalqı ilə Şimal xalqları arasında mövcud olan əlaqəyə mane törətməklə onu cənubdakı fars və ərəb nüfuzuna bağlamaq istəməsi xəyanətinə qarşı qoyulan mübarizələr göstərilməkdədir.

Nizami dövründə Şimali Azərbaycan ilə Cənubi Azərbaycanın ümumi düşmənə qarşı təşkil etdiyi müttəfiq müdafiə, Azərbaycanda xəlifə nümayəndələri olan atabəylərə qarşı qoyulan uzun müddətli üsyanlar və Nizaminin yalnız bir şair deyil, siyasi bir sima kimi məmləkət işlərindəki iştirakı, azərbaycanlıların Babək dövründən bəri ərəb xəlifələrinə qarşı bəslədikləri mənfi əlaqənin davamı tarixi vəsiqələrlə göstərilir.



Romanı 1941-ci ilin may ayında bitirib Azərnəşrə verməyi düşünürəm.

Bu romandan başqa Nizami yubileyi üçün dörd pərdədən ibarət bir opera mətni hazırlayıram. Opera Nizaminin həyat və mühitinə aiddir. Musiqisini gənc bəstəkar Əfrasiyab Bədəlbəyli yazır".

"Qılınc və qələm" Nizami dövründə geniş təbəqələrin vəziyyətini, ölkənin xarici əlaqələrini, əsrin ədəbiyyat və incəsənətini, sənətkarlarını, dövlət xadimlərini, xalqın-azadlıq mübarizələrini əks etdirən bir romandır. Ordubadi əvvəlki romanlarından fərqli olaraq daha uzaq keçmişdən bəhs etdiyindən burada ətraflı tədqiqat işi aparmışdır. Əsər külli miqdarda tarixi, elmi, ədəbi məxəzə istinadən yazılmışdır. Nizami haqqında, xüsusilə onun həyatı barədə məlumatın azlığı müəllifi bir çox halda öz yazıçı təxəyyülünə qanad verməyə vadar etmişdir. Tarixi sənədliliklə bədii təxəyyül romanda ustalıqla əlaqələndirilmişdir. Buna görə də deyə bilərik ki, digər tarixi romanlarına nisbətən "Qılınc və qələm"də yazıçı surətlərin tərsimində daha sərbəst hərəkət etmişdir.

Əsərdə Nizami Gəncəvinin surəti mərkəzi yer tutur. Lakin müəllif tək bununla kifayətlənməyərək Nizami dövrünün geniş, hərtərəfli mənzərəsini yaratmağa çalışmışdır. Burada Ordubadi romançılığının bir mühüm xüsusiyyəti – genişliyə, əhatəliliyə, çoxplanlılığa meyl özünü daha bariz şəkildə göstərir və bu, "Qılınc və qələm" romanını Nizami haqqında bioqrafik roman çərçivəsindən çıxarır.

Ümumiyyətlə, M.S.Ordubadi romanda bir şəxsin taleyi, bir hadisə, bir qısa dövrün konkret mənzərəsini verməklə qənaətlənmir, onun ilhamı bir qayda olaraq geniş meydan axtarır, əngin səmada qanad çalmağı sevir, məzmun dolğunluğu şərtilə genişlik,ənginlik də verir. "Qılınc və qələm"də də belədir. Müəllif Nizaminin həyat və fəaliyyətini müxtəlif dövrlə, xalq həyatı və məişəti ilə sıx əlaqədə təsvir etmiş, xalq həyatının geniş lövhələrini yaratmışdır. Buna görədir ki, roman baş qəhrəmanının adı ilə adlandırılmır, əsər həyat materialında mühüm yer tutun iki amilin – xalqın mənəvi və fiziki qüvvəsinin rəmzi olan "Qılınc və qələm" adlandırılmışdır.

Ən qədim zamanlardan Azərbaycan xalqının azadlıq və istiqlaliyyət uğrunda mübarizələrdə ad çıxarması, Azərbaycan qoşunlarının bütün Şərqdə şöhrət qazanması romanda iftixar hissi ilə qeyd olunur. İgid xalq qəhrəmanı Fəxrəddinin başçılığı ilə işğalçılara qarşı vətəni müdafiəyə qalxan Azərbaycan oğulları dar gündə qonşu xalqların da köməyinə gedir, həmişə də müzəffər qayıdırlar.

Mübarizə, müharibə, üsyan səhnələri hər yerdə Fəxrəddinin adı ilə bağlıdırsa, onun əsas məsləhətçisi Nizamidir.

Nizami ilə birlikdə şairə Məhsəti Gəncəvinin surəti də əsərdə böyük yer tutur. Məhsəti əsərin mükəmməl işlənmiş surətlərindəndir. Ədəbiyyatımızda

ilk dəfə olaraq "Qılınc və qələm" romanında XII əsr Azərbaycanının ədəbi mühiti, sənətkarların bədii surətləri yaradılmışdır. Xaqani Şirvani, Mücirəddin Beyləqani, Əbülüla Gəncəvi və digər sənətkarlar vasitəsi ilə edib dövrün şeir və sənət məsələlərini işıqlandırmışdır.

Romanda zəngin surətlər qaleriyası diqqəti cəlb edir. Azərbaycan atabəyləri – Atabəy Məhəmməd, Qızıl Arslan, Toğrul, Əbubəkr, Özbək surətləri baş qəhrəmanın siyasi-ictimai görüşlərinin, dövrün təsvirinə kömək edirsə, Səba xanım, Hüsaməddin və başqaları münaqişə xəttinin davamını təmin edir. Qətibə, Əmir İnanc, Toxtamış, digər saray adamlarının surətləri də dolğun təsir bağışlayır. Mənfi planda verilmiş saray ədəbiyyatı nümayəndələri Zəhir Bəlxi, Kəmaləddin Nizaminin fəlsəfi-estetik görüşlərində tənqid hədəfləri kimi verilmişlər.

Bütün əhvalat və şəxsiyyətləri, mürəkkəb hadisələri gərgin süjet xətti ətrafında birləşdirən müəllif cəlbedici, maraqlı, axıradək oxucunu ardınca apara bilən quruluş tapmışdır. Romanın sonunda məlum olur ki, Xarəzmşah Cəlaləddin Azərbaycanı işğal etdikdən sonra son Eldəniz hökmdarı Özbəyi Ələnciq qalasına saldırır, qalada iki əsir qoca bir-birinə öz sərgüzəştlərini danışır. Qocalardan biri Atabəy Məhəmmədin böyük oğlu Qütlüğ İnanc, digəri kəndli qızı Gözəldən olan kiçik oğlu Özbəkdir...

İctimai hadisələrin son dərəcə maraqlı təsvir dunduğu "Qılınc və qələm" Ordubadi yaradıcılığına xas macəraçılıq romanı üslubunda yazılmışdır. Maraqlı və yığcam quruluşlu bu əsər Ordubadinin zəngin ədəbi irsində, şübhəsiz, mühüm yer tutan, oxucularda Nizami və onun dövrünü öyrənməyə böyük həvəs oyadan romandır.



# Qılınc və qələm

## BİRİNCİ HİSSƏ

# XƏRABAT

Öz evlərinə qapanıb xısın-xısın ağlayanların sayı, küçələrə çıxıb şadlıq edənlərin sayından bir neçə qat artıq idi. Zahirdə şadlıq edən gəncəlilər bu şadlığı dərin bir kədər kimi qarşılayırdılar.

Azərbaycan hakimi Şəmsəddin Eldəniz[1] təzəcə ölmüşdü[2]. Onun yerinə oğlu Cahan Pəhləvan keçən gündən bəri Azərbaycan xalqının həyatı daxili müharibələrdə keçirdi. Cahan Pəhləvan Atabəy Məhəmməd iş başına keçdiyi zaman Azərbaycanın ən mühüm hissələri olan Marağa və Təbriz şəhərləri Ağ Süngər Əhmədin əlində qalmışdı. Buna görə də Atabəy Məhəmməd azərbaycanlıları, xüsusən aranlıları, səfərbərliyə alaraq Təbrizlə Marağanı qurtarmaq üçün uzunmüddətli bir müharibə təşkil etmişdi. Atabəy Məhəmməd Marağa və Təbrizi alandan sonra şəhərlərə qasidlər göndərib rəiyyətlərinə böyük qələbənin xəbərini elan edirdi.

Bu gün Atabəyin qasidi Gəncəyə gəlmişdi. Eyni zamanda illər uzunu cəbhələrdə yaşayan Aran ordusu Arana qayıdırdı. Gəncə hakimi Əmir İnanc bu qələbənin böyük bir şadlıqla qarşılanması üçün Gəncə xalqına qəti fərman vermişdi. Xalq cəbhədən qalib bir surətdə qayıdan ordunu qarşılamaq üçün küçələrə çıxmışdı. Lakin çoxları öz oğul və qardaşlarını qalib qayıdan ordunun cərgəsində görmürdü. Mizraqdan, nizə və qılıncdan salamat qurtaranların bir çoxu aclıqdan və xəstəlikdən məhv olmuşdu. Matəm və kədəri qələbənin saxta və aldadıcı pərdəsi ilə gizlətməyə çalışanlar küçələrdə böyük bir fəaliyyət göstərirdilər. Nə ağlamağa, nə də ölənlərdən danışmağa imkan var idi. Bu barədə Gəncə hakimi qəti tapşırıq vermişdi. Gəncə xalqına ancaq küçələrə çıxmaq və "Yaşasın Atabəy Məhəmməd! Yaşasın zəfər!" – deyə qışqırmaq icazəsi verilmişdi.

---

[1] Eldənizə Eldəgəz də deyilir.

[2] Hicrətin 568-ci ili.

Qəlbində ağlayanların hamısı yuxarıdakı kəlmələri təkrar edir və qışqırırdı, çünki bu kəlmələri təkrar etməyənlər təqib edilir və adları siyahıya alınıb hökumətə təqdim olunurdu. Evindən çıxmayanlar ağac və qamçı zərbələri altında küçələrə çıxarılırdı. Əynində təzə paltarı olmayanlar geri qaytarılır və təzə paltar geyindikdən sonra təkrar küçələrə çıxarılırdı. Ruhanilər, xətiblər dəstələrin qabağına düşüb Quranda yazılan zəfər ayələrini bir-birinin dalınca oxuyurdular. Hər kəs hökumət məmurlarının yanından keçdiyi zaman özünü şad göstərməyə və kədərini gizlətməyə çalışırdı, lakin hər kəs "yaşasın zəfər" sözünü ancaq hökumət məmurlarının və hökumətə casusluq edənlərin yanından keçəndə qışqırırdı.

Minlərcə azərbaycanlının məhvi üzərində qurulmuş olan bu qələbənin bütün xalqın yox, ancaq bir nəfərin qələbəsi olduğunu xalqın simasından sezmək olurdu.

Küçələrə çıxanların içərisində iki gənc – İlyasla Fəxrəddin də var idi. Gəncə mühitini titrədən bu süni şadlığı görüncə bu iki yoldaşın ürəyində Atabəy Məhəmmədə və onun Gəncə hakimi Əmir İnanca qarşı dərin bir nifrət oyandı. Gənc İlyas, küçələrdən sel kimi axıb Məlikşah meydanına tərəf gedən xalqı Fəxrəddinə göstərib dedi:

– Sən mənə, boğazdan yuxarı "yaşasın" deyən bu xalqın içərisində bir nəfər də olsa xoşbəxt olan və Atabəy Məhəmmədin xoşbəxt olmasını istəyən adam göstərə bilərsənmi?

Fəxrəddin çox yavaşdan cavab verdi:

– Öz hökmranlığını möhkəmlətmək üçün onlar nə iraqlılardan, nə də iranlılardan istifadə edə bilərdilər. Buna görə də hər bir müharibədə azərbaycanlılar iştirak etməli və məhv olmalıdırlar.

Gənc İlyas ətrafını gözdən keçirərək yavaşdan dedi:

– Azərbaycan xalqı qırılıb azaldıqca məmləkətdə ərəb-fars nüfuzu çoxalmaqdadır.

İlyasla Fəxrəddin bu sözləri danışa-danışa Toğrulbəy küçəsindən El Arslan və Məsudiyyə küçələrinə girir və Sultan Səncər camesinin qarşısındakı Məlikşah meydanına yaxınlaşırdılar.

Əhali meydanda durub Gəncə xətibinin gəlməsini gözləyirdi. İlyasla Fəxrəddin də məscidin qapısı qarşısındakı hovuzun yanında dayandılar və camaata qoşulub xətibi gözləməyə başladılar.

Fəxrəddin fikirli halda başını qaldırıb, İlyasa dedi:

– Bəli, indi bu saat gələcək, Təbriz və Marağa fəthini elan edəcək, əvvəlcə xəlifənin, sonra da Toğrul və Atabəy Məhəmmədin adına



xütbə oxuyacaqdır. Eyni zamanda, təzə bir müsibətin elanını da verəcəkdir.

İlyas Fəxrəddinə əyri bir nəzərlə baxıb soruşdu:

– Nə kimi müsibət?

– Atabəy Rey məmləkətinə hücum etməyə hazırlaşır. Rey hakimi səlcuqilər zamanından bəri Atabəylərə verdiyi vergidən boyun qaçırıbdır. Lakin bu müharibə qorxulu bir müharibədir. Çünki Rey hakimi öz ağzı ilə yox, Xarəzm şahlarının ağzı ilə danışır. Gec-tez onlar Rey məmləkətini öz əllərinə alacaqlar.

İlyas yenə də ona sual verdi:

– Sən buna nə cür baxırsan?

– Nə cür baxacağam? Azərbaycan torpağı deyil ki, müdafiə edək.

İlyas etiraz edərək dedi:

– Mən səndən bir qardaş kimi rica edirəm, bu fikrini başqalarının yanında demə, çünki tamamilə yanlış bir fikirdir.

Fəxrəddin təəccüblə soruşdu:

– Bu fikrin yanlışlığı harasındadır?

– Doğrudur, Rey bizimki deyil, Həmədan necə, bizimdir, ya yox?

– Bizimdir, Azərbaycanın qədim paytaxtıdır.

– Elə isə onu bilməlisən ki, Rey Azərbaycan atabəylərinin əlində olmazsa, Həmədanı saxlamaq mümkün deyil, çünki bir çox hadisələrdə reylilərin Qəzvini əldə etdiyi və Təbrizlə Həmədanın əlaqəsinə manеə törətdiyi görülmüşdür. Hayıf ki, mən qılınc və mizraq işlətmək işində savadsızam. Buna görə də sənə bir məsləhət görəcəyəm. İndi ki, qılınc və mizraq işlətməyə, ox və kaman işlərilə məşğul olmağa həvəsin vardır, onları yaxşı öyrən. Mən də qələm işlərində yüksək mərtəbə əldə etməyə çalışacağam. Bunların ikisi də bizə lazımdır.

İlyasla Fəxrəddin bu söhbətləri edərkən Gəncə xətibi öz müridləri ilə Gəncə hakimi Əmir İnanc da öz əsgər və qulamları ilə bərabər Məlikşah meydanına daxil oldular. Lakin bunlar xalq tərəfindən çox da təntənə ilə qarşılanmadılar.

İlyasla Fəxrəddin də əhaliyə qoşulub Səncər məscidinə daxil oldular. Xətib minbərə çıxıb, birinci növbədə, Atabəy Məhəmmədin Marağa və Təbriz altındakı müharibələrdə qazandığı qələbənin xəbərini verdi. Lakin bu xəbər xalqı tərpədə bilmədi; əhali bu xəbəri çox soyuqqanlılıqla qarşıladı. Xətib xəlifə və Atabəy Məhəmmədə dua etdiyi zamanda da xalqın bu iki ada qarşı bəslədiyi mənfi münasibət bir daha özünü göstərmiş oldu. Dualara qarşı deyilən:

235398

– Amin... Amin! – kəlmələri də ürəklərdən yox, boğazlardan çıxırdı. "Amin" səsləri o qədər zəif idi ki, camenin mərmər sütunları və qövsi tağları altında itib gedirdi. Ürəkdən "amin" deyənlər ancaq xətibin müridləri və Əmir İnancın nökərləri idi.

Bu vəziyyət həm Gəncə xətibinə, həm də Əmir İnanca çox piç təsir bağışladı.

Əmir İnanc xalqın soyuq münasibətini hiss edincə başını uzadıb Gəncə xətibinin qulağına nə isə pıçıldadı. Bu anda Fəxrəddin də ağzını İlyasın qulağına uzadıb:

– Müvəffəqiyyət! Müvəffəqiyyət! Xalqdakı dönüşü hiss edirsənmi? Bunu haramzadə hakim də hiss etdi. Xətibin qulağına, şübhəsiz ki, bu barədə pıçıldadı, – dedi.

Əmir İnanc xətibin qulağına pıçıldadıqdan sonra xətib təzə səfərbərlik haqqında bir söz danışmayaraq xütbəsini bitirdi.

Xətib minbərdən yerə düşməmiş, əhali hakimi və xətibi gözləməyərək məsciddən çıxdı. Bu hadisə də Əmir İnanca və Gəncə xətibinə qarşı bir hörmətsizlik kimi nümayiş edildi. Meydanda yığılan xalq bu barədə danışmağa və pıçıldaşmağa başladı.

Məscidin qapısında Əmir və onun əyanları üçün yəhərlənmiş atlar saxlandığı kimi, xətibin müridləri də ağ ulaqları hazır saxlamışdılar. Xətiblə Əmir məsciddən meydana çıxdıqları zaman yenə də pıçıldaşmaqda davam edirdilər.

Əmir xətibə olan hörmətini meydanda yığılan əhaliyə göstərmək üçün uzunqulağın üzəngisindən tutub xətibi mindirdi, sonra isə özü atına minib yola düşdü. Əmiri atlı nökərlər, əyanlar, xətibi isə yüzlərcə müridləri piyada olaraq müşayiət edirdi. Küçələr "Yol ver, çəkil! Başını əy!" səsləri ilə dolmuşdu.

Əmir İnanc Gəncə xətibini və Gəncənin əyanlarını Atabəy Məhəmmədin qələbə bayramı şərəfinə düzəlmiş ziyafətə dəvət etmişdi. Buna görə də şəhərin əyanları və xətibin müridləri xətibin və əmirin dalınca gedirdilər. Təntənə ilə keçən bu dəstə, hökumət sarayına getmək üçün yaxın bir yol seçməyə məcbur idi. Onlar Xərabat[1] küçəsinin tinindən keçərək, Əlmənsur[2] küçəsi ilə başıyuxarı qalmalı idi.

---

[1] Xərabat küçəsi – Şərqdə incəsənət xadimləri yerləşən məhəlləyə deyirlər.
[2] Əlmənsur küçəsi – xəlifə Mənsurun adı verilmiş küçədir.



Dəstələr birdən-birə dayandı. Keçməyə yol yox idi. Pir Osman[1] küçəsindən gələn dəstə Xərabat məhəlləsinin tinində durub ikimərtəbəli köşkün pəncərəsindən eşidilən musiqi və nəğmələri dinləyir və başqa küçələrdən gəlib keçmək istəyənlərə yol vermirdi.

Əmir atının, Gəncə xətibi isə uzunqulağının cilovunu çəkib dayandı. Minlərcə əhalinin heç birisindən səs çıxmırdı. Pəncərədən eşidilən incə nəğmələr, musiqi səsləri kütlələri özünə cəlb etmişdi. Oxunan rübailərin hər bir kəlməsini və çalınan udun naləsini eşitmək mümkün idi.

Əmir və xətib dayanıb durmuşdular. Onlar qadın barmaqlarında inləyən pərdələrdən, qadın dodaqlarından çıxan misralardan ayrılıb gedə bilmirdilər. Onlar da xalqa qoşulub mənliyini itirmişdilər; onlar da pəncərədən eşidilən səsləri öz qanına yeritmək və onu öz ruhunda həzm etmək üçün bütün varlıqları ilə qulaq asırdılar.

Əmir və xətibin dəstəsi dayandığı zaman köşkün pəncərəsindən belə bir mahnı ətrafa yayılırdı:

"Gər mülki tö Misr, Rum, Çin xahəd bud,
Afaq türa ziru nikin xahəd bud.
Xoş baş ki, aqibət nəsibi mənu tü,
Yek gəz kəfən, se gəz zəmin xahəd bud".[2]

Pəncərədən eşidilən bu rübai küçədə duranlar tərəfindən böyük bir maraqla qarşılandı. Hökumətin zülmündən təngə gəlmiş xalq hökumətə qarşı yazılan bu rübainin təkrar edilməsini tələb etməyə başladı. Səs-küy ucaldı və dəstələrin hamısından: "Bir daha! Bir daha!" sözləri eşidildi.

Əmir İnanc Hüsaməddinə[3] sual verdi:

– Bu ev kimin evidir?

Hüsaməddin baş endirib:

– Bu ev məşhur şairə Məhsəti xanımındır, – dedi.

---

[1] Pir Osman – Məhsəti xanımla müasir Gəncə şairlərindəndir.
[2] Əgər Misir, Rum və Çin ölkələrinə sahib olsan, əgər dünyanı öz hökmün altında saxlamağı bacarsan belə, yenə də yaxşılıq et, çünki sənin və mənim bu dünyadan alacağımız qismət on arşın kəfən və üç arşın torpaqdır.
[3] Hüsaməddin Azərbaycanın siyasi həyatında çox böyük rol oynamışdır. Məlik Toğrul və Qızıl Arslan dövrünün siyasi simalarındandır.

– Oxuyan kimdir?

– Oxuyan Məhsəti xanımın özüdür. Musiqi və nəğmə müəlliməsidir. Bir ay əvvəl cənab xətibin şikayət etdiyi əxlaqsız qadındır. Xalqın qızları bunun yanına gəlib, musiqi və nəğmə dərsi oxuyurlar.

Hüsaməddinlə Əmir İnancın söhbəti bitməmiş pəncərədən daha bir musiqi nəğməsi eşidildi:

"Yek dəst bə mushəfəm, yek dəst bə cam,  
Gəh nəzdü həlaləmü, gəhi nəzdü həram.  
Maim dər in günbədü nə püxtə, nə xam,  
Nə kafəru mütləq, nə müsəlmanü təmam".[1]

Bu rübai eşidildikdən sonra iki səs ucadan:

– Əhsən, yüz əhsən! – dedi.

Bunların birisi Fəxrəddin, o birisi isə İlyas idi.

Dəstələrin içərisində də gurultu eşidilirdi. "Yaşa, yaşa!" səsləri bir-birini təqib edirdi.

Xətib uzunqulağın başını çevirib Əmir İnanca yanaşdı və dedi:

– Kafirdir, ədəbsizdir! Bunu Gəncə xalqının başından rədd etmək lazımdır.

Bu anda Məhsəti xanım da "yaşa, yaşa!" – deyə qışqıranlara razılıq vermək üçün başını pəncərədən eşiyə çıxartdı. Onun ixtiyarlaşmış başının ağarmağa başlamış saçları, gülümsər və təbəssümlü gözləri, minlərcə rübainin xəzinəsi sayılan sinəsi görünərkən, xətibin müridləri belə gözlərini pəncərəyə dirəyib böyük şairə və müəlliməyə baxmağa başladılar. Xətib bu vəziyyəti görüncə müridlərinə əmr verdi:

– Daşa basın! Dağıdın bu fisq-fücurun yuvasını!

Pəncərə örtüldü, sanki bir günəş buludun altına çəkildi. Musiqi və rübai səslərini pəncərəyə və divarlara toxunan daşlar əvəz etdi. Lakin xalq dəstələri xətibin və Gəncə hakiminin bu kimi vəhşiliyinə qarşı öz nifrətini gizlədə bilmədi. Xətibin müridlərinə hücum etdilər. Onları döyüb Məhsəti xanımın qapısından kənara atdılar. Xətibin müridlərindən bir çoxu ölmüş və yaralanmışdı. Xətibin özü isə Əmir İnancın sarayında gizlənməklə yaxasını xalqın intiqamından qurtara bilmişdi...

[1] Bir əlimiz şərabda, o biri əlimiz isə Qurandadır, gah halala, gah da harama yanaşmaqdayıq. Çünki biz hələlik tamamilə ikmala yetişməmiş bir günbədin altında yaşamaqdayıq, buna görə bizə nə kafəri-mütləq, nə də kamil bir müsəlman demək olar.



Üç gün sonra İlyasla Fəxrəddin Pir Osman məhəlləsində görüşdülər. Fəxrəddin birinci növbədə İlyasın əlini sıxaraq sevincli bir səslə dedi:

– Biz düşünən kimi oldu. Kütlələr Əmir İnanca qarşı hörmət bəsləmirlər. İndi başqa bir məsələ də vardır.

– Nə kimi məsələ? – deyə İlyas soruşdu.

– Atabəyin təzə səfərbərliyinə əngəl törətmək məsələsi.

– Bu yalnız Gəncənin işi deyil, buna bütün Azərbaycanı hazırlamaq lazımdır. Sən getməsən də, Atabəy Cənubi Azərbaycanı səfərbərliyə ala bilər.

Fəxrəddin etiraz edərək dedi:

– Fikrinizlə şərik deyiləm. Rəhbərlik daima Şimali Azərbaycanın vəzifəsi olmuşdur. Paytaxt Həmədanda olduğu üçün Atabəy hökuməti zülmlərinin bütün ağırlığı Cənubi Azərbaycanın üzərinə düşür. Biz onlara rəhbərlik etmiş olsaq, onlar üsyana tez qoşula bilərlər. Buna görə də şimalda başlanmış üsyanın xəbərini Cənubi Azərbaycana yaymaq lazımdır. Üsyan etmək üçün bu gündən daha əlverişli gün əlimizə düşməyəcək.

İlyas bir az düşünərək dedi:

– Doğru deyirsən. Lakin üsyan əsaslı və siyasi bir məqsəd daşımadıqca, xalqı vaxt ikən o məqsədlər ətrafında səfərbər etmədikcə, ümumi üsyan məsələsindən danışmaq artıqdır. Üsyanın arxasında silahlı qüvvə lazımdır. Bu qüvvə olmadan, başıpozuq xalqla hökumət qarşısına çıxmaq savadsızlıqdır. Xüsusən Cənubi Azərbaycan barəsində ehtiyatlı olmaq lazımdır. Çünki Atabəylər İraq və Bağdad qoşunlarının köməyilə Cənubi Azərbaycanı bir neçə günün içərisində xarabazara döndərə bilərlər. İndi de görüm, elə bir hadisədə sənin köməyə getmək üçün silahlı qüvvən vardırmı?

Fəxrəddin dərin-dərin düşünəndən sonra bir ah çəkərək dedi:

– Təəssüf olsun ki, o qüvvə bizdə yoxdur. Lakin mən onu düzəldəcəyəm. Bunun üçün də mən bütün fikrimi silah işlətməyə vermişəm.

– Belə də lazımdır. Lakin biliksiz və siyasi düşüncəsi olmayan adamların silahları da qələbə qazana bilməz. Qəhrəmanlıq yalnız silah deyil, bilik də tələb edir.

Fəxrəddin İlyasa bir sual da verdi:

– Sənin Təbrizdə tanışın vardırmı?

– Vardır. Şəmsəddin İbn Süleyman bizimlə həmfikir bir gəncdir. Mən səni onunla tanış edərəm.

* * *

Günəş Sultan Səncər camesinin minarəsinin mavi rəng kaşılarını işıqlandırmağa başladığı zaman quşlar da günəşi salamlamaq üçün zərdəşti nəğmələri oxuyurdu. İlyas adəti üzrə otağından çıxıb, qərənfil güllərini sulamaq istəyirdi. O, qızılgüllərin ətrafında dolaşan bülbülləri rahatsız etməmək üçün qədəmlərini çox ehtiyatla götürürdü. Birdən qapı bərk döyüldü. Bu, İlyasın qaçırmamağa səy etdiyi quşların qaçmasına səbəb oldu.

İlyas çox narazı bir surətdə qapıya getdi, qapıda Fəxrəddini görüb:

– Öz ehtiyatsızlığın nəticəsində sakit bir cəmiyyətin rahatsızlığına səbəb oldun. Mən bu gündən etibarən qapının çax-çaxını çıxarıb atmalıyam. Mən quşlardan eşq və məhəbbəti öyrənirəm, onlar isə məndən ülfət və dincliyi öyrənir.

Fəxrəddin ağızucu dedi:

– Bəli, elədir. Lakin...

Fəxrəddin sözünü yarımçıq qoyub daha danışmadı.

– Nə üçün sözünü bitirmədin?

– Ah İlyas, ülfət və dincliyi yalnız sənin həyatində yox, bütün məmləkətdə qurmaq lazımdır. Hazırda Atabəy Məhəmmədin cəza dəstələri Məlikşah meydanında dar ağaclarını qurmaqdadır.

İlyas evə gedib paltarını dəyişmək istərkən:

– Burada təəccüb yeri yoxdur, – dedi. Bu olacaq idi.

– Bəla burasındadır ki, Məhsəti xanım yaşayan məhəlləni dağıdırlar. Məhsəti xanımı bir tərəfə qaçırmaq lazımdır. Bütün fəlakət ancaq onun ətrafında dolaşır.

Onlar evdən çıxdılar. Pir Osman məhəlləsinə tərəf yollandılar. Xərabat məhəlləsinin tininə yetişərkən, oranın hökumət qoşunları tərəfindən mühasirə edildiyini gördülər. Ətraf küçələr başıpozuq camaatla dolu idi. İrəli hərəkət etmək mümkün deyildi. Xətibin müridləri bütün təşəbbüsü əllərinə almışdılar. Məhsəti xanımı görmək və son kərə onunla görüşmək üçün şəhərin bütün şeir və musiqi maraqlıları Xərabat məhəlləsinin tininə yığışmışdılar.



Məhəllə qarət olunurdu. Evlər binasından sökülüb dağıdılırdı. Toz məhəllənin ətrafını bürümüşdü. Tozun içərisində nələr olduğundan kimsənin xəbəri yox idi. Oradan ancaq ağlamaq, qışqırıq, qamçı səsləri eşidilirdi.

Bir neçə saatdan sonra toz təbəqələri parçalandı, bir dəstə mürid tozdan ayrıldı. Onlar saçları bir-birinə qarışmış bir qadını, təhqirli söyüşlərlə söyə-söyə gətirirdilər. Qadın Məhsəti xanım idi. Lakin şairə öz vüqar və əzəmətini pozmamışdı. O, sıra ilə düzülən xalqın içərisindən ətrafa baxa-baxa gedir, göz gəzdirib öz dostlarını axtarırdı. Demək lazımdır ki, bir yığın mürid və mövhumatçılardan başqa, Xərabat məhəlləsi ətrafına yığılan xalq onun dostu idi. Məhsəti bir kərə üzünü xalqa tutaraq: "Vurun bu alçaq mövhumatçıları!" – desəydi, Gəncədə bir üsyan başlanacaqdı, ancaq Məhsəti qan tökülməsini istəmədi. O, gözlərini dolandırıb Əmir İnancı gördüyü zaman belini düzəldərək ona diqqətlə baxdı. Əmir İnanc atın üstündə durub məhəllənin dağıdılmasına tamaşa edirdi. Məhsəti xanım Əmir İnancın yanında durub bu rübaini oxudu:

Dünya bəməsəl çü kuzeyi zərrinəst,
Kəh ab dəru təlx, kəhi şirinəst.
To ğürrə məşov ki, ümri mən cəndinəst,
Çün əsbü əcəl həmişə ziru zinəst.[1]

Əmir İnanc heç bir cavab vermədi. O, əhalinin üsyanından qorxurdu. Məhsəti xanımı şəhərdən çıxarmağa məmur olanlar onu Əbubəkr kəndinin yanına qədər aparıb, oradan qayıtdılar. Məhsəti xanımın yanında ancaq sadiq və səmimi xidmətçisi Yəqub qalmışdı. Onlar çox yorulmuşdular. Dincəlmək üçün "Çadır bulağı" adlı çeşmənin başında oturdular. Qaranlıq düşürdü. Məhsəti xanım bir daha dönüb Gəncədən gəldiyi yollara baxdı və Yəquba müraciət etdi:

– Deyəsən uzaqdan qaraltılar görünür. Əmirin adamları olmasın?!

Yəqub bir neçə dəqiqə uzaqdan görünənləri nəzərdən keçirdi. Qaraltılar getdikcə böyüməkdə və canlı bir şəkil almaqda idi. Nəhayət,

[1] Bu dünya bir qızıl kuzə kimidir. O, suyu gah şirin, gah da acı saxlar. Sən heç də məğrur olma ki, mənim ömrüm bu qədər olacaqdır, çünki əcəlin atı daima yəhərli bir surətdə hazır durmuşdur.

bir azdan sonra gələnlərin Fəxrəddin və İlyas olduğu anlaşıldı. Məhsəti xanım onların əlini sıxaraq:

– Sizin gəlişinizdən sanki mən öz vətənimə qayıtdım. Nə edim? Bu fəlakətə özümüz səbəb olmadıq. Bizim əsas düşmənimiz gəncəlilərin düşdüyü mövhumatdır. Onlar hələlik musiqi sənətinin qiymətini xətiblərin tərəzisi ilə ölçürlər. Nə Əmir, nə də onun qoşunları bizə bir şey edə bilərdi. Bizi ancaq xalqın avamlığı və düşüncəsizliyi məğlub etdi. Lakin onlar mənim evimi dağıtsalar və mənim əsərlərimi cırıb yandırsalar da, xalqın qəlbini yarıb mənim rübailərimi oradan silməyi bacarmayacaqlar. Onlar məni qovsalar da, xalqın qulağını vətən etmiş səsimi bu məmləkətdən qova bilməyəcəklər.

Fəxrəddin və İlyas Məhsəti xanım üçün gətirdikləri yol tədarükünü, paltarları və yemək şeylərini Yəquba tapşırdıqdan sonra:

– Məktub göndər, biz də göndərəcəyik. Biz əminik ki, bu hadisələr sənin təbinə daha mühüm təkanlar verəcəkdir, – deyə ayrıldılar.

Məhsəti xanımla Yəqub yola düşdülər. İlyas durub Məhsəti xanımın dalınca baxırdı. Gedənlər qaranlığın qoynuna girib gözdən itərkən o:

– Gəncənin qəzəlxan bülbülü susdu, rübaimizin dahi sənətkarını bizdən ayırdılar, – deyərək Gəncəyə tərəf döndü.

* * *

Axşam idi. Əmir İnanc Gəncə çayına hakim olan uca köşkündə oturub dalını yumşaq balışlara söykəmişdi. O, çox diqqətlə, oynamaqda olan rəqqasələrin titrək döşlərinə baxdıqca əlindəki inci təsbehin dənələrini dolu kimi bir-birinin üstünə axıdırdı.

Sultan Səncər camesinin minarəsindən "Allahu əkbər" səsi eşidildi və "Allahu əkbər, kəbirən kəbira" – dedi.

Musiqi səsi kəsildi. Rəqqasələr Əmirin qarşısında baş vurub çəkildilər. Sanki azançının minarədən yüksələn "Allahu əkbər" səsi ancaq rəqqasələrə istirahət vermək üçün bir işarə idi.

Əmir İnanc qalxıb fəvvarəli hovuzun kənarında dəstəmaz almağa başladı. Xalqın borcunu verməyənlər Allahın borcunu verməyə hazırlaşırdılar. Namaz otağına keçdilər. Canamazlar rəqqasələrin oynadığı xalçaların üzərində açıldı, namaz qılanlar Allahı xatırlayaraq gözəl rəqqasələrin qədəmləri dəyən yerləri öpmək üçün səcdəyə düşdülər. Şam və xüfdən namazı bitdi. Namazdan sonra, canamazların yerində



şərab süfrələri açıldı. Namazlarında istədikləri huriləri əvəz etmək üçün gözəl qızlar, gənc saqilər salona daxil oldular. Musiqi dəstəsi öz işinə başladı, rəqqasələr yenə gəldilər. Allahın borcunu verib bitirənlər öz şəhvətlərini söndürməyə başladılar.

* * *

Gecədən çox keçmişdi, şərab büsatı da yığışmışdı. Əmir İnanc, sevgili qadını xəlifənin qızı Safiyə xatun və gözəl qızı Qətibənin yanında idi. Xidmətçi içəri girib:

– Hüsaməddin cənabları gəlib sizi görmək istəyir, – dedikdə, Əmir:

– Buyursun! – deyə yenə də gözəl Qətibənin saçlarını oxşamağa başladı.

Hüsaməddin içəri girib baş əydi və dedi:

– Araz çayını keçmək istəyən bir nəfər qasid tutulub Gəncəyə göndərilmişdir.

Əmir soruşdu:

– Qasid haradadır?

– Hazırdır, ya Əmir!

– Yanıma gətirin!

Hüsaməddin getdi, az sonra yanında Məhsəti xanımın xidmətçisi Yəqub salona daxil oldu. Əmir, Yəqubu başdan ayağa qədər gözdən keçirdikdən sonra dedi:

– Kimin tərəfindən qasidsən? Amma onu da bilməlisən ki, nicatın doğru danışmaqdadır.

Yəqub heç də təxir etmədən:

– Yalan demək üçün bir səbəb yoxdur. Mən Zəncandan Məhsəti xanım tərəfindən Gəncəyə göndərilmişəm. Məni tutmasaydılar da, bura gələcəkdim.

– Nə iş üçün göndərilmisən?

– Məhsəti xanımın anasına və İlyas adlı gənc bir şairə məktub gətirmişəm.

– Gətirdiyin məktublar hanı?

– Məktubları Araz çayından bu tərəfə keçdiyim zaman sizin adamlarınız aldı.

Hüsaməddin məktubları çıxartdı və:

– Ya Əmir, məktublar budur, – deyərək iki məktubu Əmirə uzatdı.

Əmir birinci məktubu açıb oxuduqdan sonra ucadan:

– Sübhanallah! – dedi, – bir qadın, özü də əxlaqsız bir qadın, gör nə kimi məsələlərlə məşğuldur!

Bu sözləri dedikdən sonra, Hüsaməddinə müraciətlə:

– Eşit, gör o xanəndə və şeir yazan əxlaqsız nə yazır, – dedi:

"Əziz dostum İlyas! Çox zəhmətlərdən sonra gəlib Zəncan şəhərinə çatdım. İkinci gün "Əxi Fərruxun"[1] ziyarətinə getdim. Əxi Fərrux o qədər sevimli və xoş əqidə, xoşsöhbət bir adamdır ki, mən onunla görüşdüyümün birinci saatında Gəncə ruhanilərindən gördüyüm təhqirləri tamamilə unutdum. Əxi Fərruxun əqidəsi xalqların dostluğunu qurmaq əqidəsidir. Bu əqidə haqqında hərtərəfli məlumat yığdım. Bunun Şimali və Cənubi Azərbaycanda inkişaf etdirilməsinə çalışmaq lazımdır. Bu əqidəni daşıyanlar arasında qardaşlıq əlaqəsi mövcuddur. Ona görə də bunlar özlərinə "Əxi" adı veriblər. Sənin barəndə cənab Əxi Fərruxla danışdım. Sənin şeirlərindən də ona oxudum. O sənin gələcəkdə zəki və məşhur bir şair olacağına inandı və mənə böyük ümidlər verdi.

Dostum İlyas! Mənim başıma gələn fəlakət sənin mətanətini qırmasın. Zəmanə bu məhvər üzərində uzun zaman davam edə bilməyəcəkdir. Bu günlər Zəncandan köçüb Bəlx şəhərinə gedirəm, oradakı şairlərlə görüşmək istəyirəm. Hərgah yolun düşərsə, bizim məhəlləmizə get, anamı axtar tap, ona təsəlli ver. O mənim şeir və musiqi sənətimdən bir həzz apara bilmədi; onu daima mənim səbəbimə təhqir etdilər. Məktubumun cavabını yazıb öz təzə şeirlərinlə bərabər Yəquba tapşır. Yazdığım rübailəri də sənin üçün göndərirəm. Fəxrəddinə salam!

Zəncan, *Məhsəti Gəncəvi*".

Məhsəti xanım ikinci məktubu da öz anasına yazmışdı.

Əmir İnanc məktubları oxuyub Hüsaməddinə acıqlandı:

– Məmləkət idarə edən adam sizin kimi olmaz! Ölkənin qadın və qızlarından başlamış gənclərinə qədər siyasi məsələlərlə məşğuldurlar. Bəs siz nə işdəsiniz?! Bu nə deməkdir? "Zəmanə bu məhvər üzərində çox da davam edə bilməyəcəkdir". Bunu kim deyir?! Şair və xanəndə bir qadın... Get bu saatda adına məktub gələn İlyası və məktubda adı çəkilən Fəxrəddini hüzurumda hazır et!

Hüsaməddin baş endirib getdi. Əmir yenə də qızı Qətibəni yanında əyləşdirib onun saçlarını oxşamağa davam etdi. Qətibə, Məhsəti xanımın məktub göndərdiyi gənc İlyasla çox maraqlanırdı. O, Məhsəti xanım kimi şöhrətli bir şairənin, öz gözəlliyilə bütün Şərq ölkələrində məşhur olan bir qadının, adi adamlara məktub göndərməyəcəyinə inanırdı. Buna görə də gözəl Qətibə İlyası cürbəcür simalarda təsəvvürünə gətirir və ona müəyyən bir şəkil verməyə çalışırdı. O, İlyası gah bir qəhrəman kimi düşünür, gah sakit və aciz bir tələbə kimi xəyal edirdi, lakin yenə də bu təşbihin üzərində dayanmayaraq öz-özünə deyirdi: "Yəqin ki, o çox gözəldir. Gözəl və mərifətli bir gənc olmasaydı, Məhsəti xanım ona məktub göndərməzdi". Bu düşüncələrdən sonra Qətibə yenə də İlyasa verdiyi şəkilləri öz qəlbində araşdırır, bir-bir təhlil edir və deyirdi: "Qəhrəmanlıq o qədər də qiymətli bir şey deyildir. Dünyada pəhləvanlar çoxdur. Pəhləvanlarda axmaqcasına bir qorxusuzluq vardır. Məncə, qəhrəmanlıq bambaşqadır. İnsanlar öz güclü qolları, qılınc və nizələri sayəsində özlərini qəhrəman hesab etsələr də, həqiqi qəhrəmanlıq bu deyildir. Qəhrəmanlıq kişinin mətanəti, ağlı, fərasətilə ölçülür. Kişinin bir qadın kimi gözəl olması da faydasızdır. Kişinin gözəlliyi, ona aid olan xüsusiyyəti azaldır. Məncə, ağıllı qızlar kişiləri gözəl olduqları üçün deyil, kişi olduqları üçün sevməlidirlər".

Qətibə bundan sonra:

"İndi İlyas gələcək, bağışlanmaq üçün atamın ayaqlarına düşüb ağlayacaqdır" – deyə düşünürdü. – "Hərgah o ağlarsa və yalvararsa, qəhrəman deyildir. Əbəs yerə Məhsəti kimi məşhur bir qadın onun adına məktub göndərmişdir".

Qətibə bunları düşündükdən sonra, atasına müraciət etdi:

– Ata, indi haman oğlan bura gətirilərsə, sən onu öldürəcəksənmi?

Əmir yenə də qızının başını sığallayaraq sual verdi:

– Birisi sənin baban xəlifənin hökmranlığına qarşı xəyanət düzəldərsə, sən özün ona nə edərsən?

Qətibə bir az düşünərək yavaşdan dedi:

– Mən onun özünü görməmiş və nə cür gənc olduğunu bilməmiş heç bir söz deyə bilmərəm.

[1] Əxi Fərrux qardaşlaşma məsləkinin rəhbərlərindəndir. Nizami onunla sıxı əlaqədə idi. Bunun üçün də Şirvan və Aran ölkələrinə Əxistan deyilir (yəni qardaşlar ölkəsi).

Qətibənin bu sözündən həm Əmir, həm də Qətibənin anası Safiyə xatun qəhqəhə ilə güldülər. Qətibə isə utandı və başını aşağı salıb heç bir söz demədi. Bir azdan sonra Hüsaməddin daxil olub Əmirə baş əydi və:

– İlyası tapıb gətiriblər, – dedi.

Əmir:

– Get yanıma gətir! – dedi və qadınına müraciət edərək: – Siz də durub gedin, – dedi.

Safiyə xanım durub getdi. Qətibə isə Əmirin yanında qaldı.

İlyası Əmirin otağına gətirdilər. O, qapının qabağında durub nə baş əydi, nə də salam verdi. Bu, Əmirə təsir etdi. O, acıqlı bir vəziyyət aldı və soruşdu:

– Məmləkətdən sürgün edilmiş Məhsətinin fikirlərini Gəncədə intişar edən gənc şair İlyas sənsənmi?

İlyas başını qaldırıb:

– Hazırda mən öz fikirlərimi intişar etmək üçün özümə köməkçi axtarıram. Başqalarının fikrini yaymağa vaxtım yoxdur, – dedi.

– Sən nə ilə məşğulsan ki?

– Mən öz şerimi və öz əqidəmi intişar etməklə məşğulam.

Əmir İnanc acıqlı bir surətdə gülərək dedi:

– Hələ tezdir. Çox gəncsən. Əqidə intişarı ilə məşğul olmağının vaxtı deyil.

– Əqidə daşımayan şeir şairin simasını göstərə bilməz.

– Elə isə nə üçün Məhsəti xanımın fikirlərinə tərəfdar çıxmırsan?

– Məhsətinin şeir və musiqi aləmindəki fikirlərinə tərəfdaram.

– Onda sən onun hökumət əleyhinə olan fikirlərinədəmi tərəfdarsan?

– Mən Məhsətinin hökumət əleyhinə olduğunu indicə eşidirəm. Lakin Əmir burasını bilməlidir ki, Məhsətinin buna haqqı vardır.

– Onun hökumət əleyhinə olmasına nə kimi bir səbəblə haqq qazandıra bilərsən?

– Məhsəti xanımın hökumət əleyhinə olmasında, şeir və sənəti əxlaq pozğunluğu kimi təbir edənlər müqəssirdir. Hökumət onu nə üçün sürgün etdi? Yalnız və köməksiz bir qadını xalqa incəsənət öyrətdiyi üçün sürgün etmək, onda hökumətə qarşı mənfi bir əqidə oyandırmazmı? Əqidələr belə doğur, Əmir həzrətləri! Hökumət bir nəfər xətibin haqsız tələblərini razı salmaq üçün böyük bir şəhərin məhəbbətini itirdi. Bir məhəlləni kökündən qazdırıb atmaq, xalqın



ürəyində hökumətə qarşı nifrət, haqsızlığa qarşı üsyan fikrindən başqa bir əqidə yarada bilməzdi. Mən də şairəm, mən də öz xalqımın iradəsini ifadə etməyə çalışıram.

Əmir İlyası diqqətlə dinlədikdən sonra:

– Əgər bu "xalqın iradəsi" sözünü bir də təkrar etsən, səni də Məhsətinin getdiyi yerə göndərəcəyəm.

– Məni həman yerə getməyə məcbur etmək lazım deyil. Həyat bu məhvər üzərində davam edərsə, siz sürgün etməsəniz də, xalq özü dağılıb gedəcəkdir. Yaxşı diqqət verin, Aranda kim qalmışdır? Xalqın bir hissəsi Abxaza, bir hissəsi də Şirvana köçübdür. Qalanlarını isə siz sürgün edirsiniz.

Qətibə qulunu atasının çiyninə qoyub İlyası dərin bir diqqətlə dinləyirdi. O öz qarşısında tam mənasilə ölüm və işgəncədən qorxu duymayan bir qəhrəman durduğunu hiss edirdi. O öz qəlbində: "Qəhrəmanlığın tələb edəcəyi hər bir xüsusiyyət bu gəncdə vardır. Belə bir gənci kim sevməz?! Hətta mənim özüm də belə bir qorxmaz adamı sevə bilərəm. Bunda özünü dünyaya tanıtmaq qabiliyyəti vardır. Mən bununla tanış olacağam. Bunun cəzalanmasına imkan verməyəcəyəm. Atam bunu cəzalandırmaq istərsə, ağlayacağam və onun qəzəbini soyudacağam" – deyirdi.

Əmir xeyli sonra başını qaldırıb böyük bir təəccüblə İlyasdan soruşdu:

– Kimin oğlusan?

– Babam – Məhəmməd, atam isə Yusifdir.

– Atan nə işdədir?

– O, mən uşaq ikən ölmüşdür.

– Demək ki, tərbiyəni anandan almısan?

– Anam da mən körpə ikən ölmüşdür.

– İndi kimin himayəsində yaşayırsan?

– Dayılarım vardır. Lakin öz himayəmdə yaşayıram.

– İndiyə qədər kimin himayəsində yaşayırdın?

– Dayılarımın.

– Onlar kimdirlər, adları nədir?

– Kürdlərin nücəbasından – Qafar ağa, Abdulla ağa və Seyfəddin ağa.

– Onlar hazırda nə işdədirlər?

– Onlar burada deyillər, Bağdadda yaşayırlar.

– Nə işdədirlər?
– Xəlifənin xüsusi mühafizə dəstələrinin rəisləridirlər.
– Dayıların xəlifənin sadiq qulları olduğu halda, nə üçün sən xəlifənin əleyhinə danışırsan?
– Mənim dayılarım xəlifənin qulları deyil. Nə ana, nə də ata nəslimizdə qul olmuşdur. Bizim dayılarımız xəlifə himayəsində yox, əksinə olaraq xəlifənin özü dayılarımın qılıncı himayəsində yaşayır.
Əmir:
– Bu da təzə bir xəbər! İndi bir az da Məhsəti ilə əlaqəndən danış.
– Əlaqə düzəltməyə çalışıram, təəssüf olsun ki, hələlik buna nail olmamışam.
– Sən bunu özün üçün bir iftixarmı bilirsən?
– Nə üçün də bu şərəfi daşımamaq? Məhsəti xanım olmasaydı, Şərqdə məşhur rübai sənətkarı Xəyyamın adı tək qalacaqdı.
– İndiyə qədər Məhsəti xanımdan neçə məktub almısan?
– Hələlik o cürə xoşbəxtlik mənim qapımı döyməmişdir.
Əmir gülərək dedi:
– Elə isə səni təbrik etmək lazımdır. Haman xoşbəxtlik qapını döyməyə başlamışdır. Məhsəti xanım sənin adına məktub göndərmişdir. Budur, haman məktub mənim əlimdədir.
– Madam ki, ölkə xalqının bir-birinə məktub göndərməyə ixtiyarı yoxdur, o zaman başqalarını hökumət əleyhdarlığı ilə təqsirləndirməyin özü də haqsızlıqdır.
Bu sözlərdən sonra nə İlyas, nə də Əmir danışdılar. Qətibə isə böyük bir həyəcanla işin nə ilə qurtaracağını gözləyirdi. İlyas nə ətrafına baxır, nə də öz yerindən qımıldanırdı. O, Əmirin böyük salonunda qoyulmuş tunc heykəllər kimi bütün ağırlığı ilə durmuşdu.
Xeyli sonra Əmir başını qaldırıb dedi:
– Səni məhv etmirəm, çünki səni məhv etmək xəlifənin ən yaxın adamlarını təhqir etməkdir. Kübar tayfaların içərisində sənin kimi itaətsiz adamlar çox az tapılar. Mən bu gün onlara məktub göndərəcəyəm. Sənin Aranda yaşamağın böyük bir nəslin rüsvayçılığına səbəb ola bilər. İndi gedə bilərsən. Lakin sənin Arandan bir tərəfə getməyinə icazə vermirəm.
Əmir sonra da Hüsaməddinə müraciətlə tapşırdı:
– Bunu nəzarət altında saxlarsınız. İndi isə evinə buraxın.
Qətibə sevindi və atasının başını sığallamağa başladı.



Fəxrəddin bir qapıdan içəri girdiyi zaman, Nizami də bu biri qapıdan dəhlizə çıxdı. İlyas Əmirin evindən küçəyə çıxdığı zaman artıq gecə idi. Çinarın dibində bir qaraltı durmuşdu. İlyas yolunu davam etdirərkən qaraltıdan belə bir səs eşidildi:
– İlyas, səni buraxdılarmı?
İlyas bu səsi eşidib dayandı. Səs ona tanış gəldi və sanki İlyasın bütün varlığına kəmənd atıb onu saxladı. O səs, İlyasın gənc sevgilisi Rənanın səsi idi. İlyas da, qaraltı da bir-birinə tərəf irəlilədi. O səs bir də eşidildi:
– İlyas səni buraxdılarmı?
– Bəli, buraxdılar, mənim sevgili dostum, buraxdılar. Gözəl Rənam, kədərlənmə!
Rəna başını İlyasın çiyninə söykəyib ağladı. İlyas isə onun saçlarından öpərək:
– Gedək, Rəna, qorxma, onlar mənə heç bir şey edə bilməzlər, – dedi.

## BAHAR

Gəncə çayının coşqun ləpələri bahar günəşinin qızıl saçlarını böyük bir həyəcanla çimdirməyə başlamışdı. Bahar fəzasına məxsus pənbə buludlar mayıs gülünün qırmızı yanaqlarını kirşanlamağa hazırlanırdı. Şimali Midiyanın lətif təbiəti bağçaların boyuna biçdiyi yaşıl və çiçəkli donu tikib, bitirmək üzrə idi.
Kəpəz dağından əsən külək fəzada nazlanan buludları Xanəgah kəndinin meşələrinə doğru sürdüyü zaman, şam ağacları da ağır-ağır başlarını əyirdi.
Yağış bir saat əvvəl dayanmışdı, buludların suvardığı çöllər, meşələr, bağ-bağçalar gülürdü.
Yasəmənlər dağınıq saçlarını yaşıl budaqların üstünə sərib qurudur, xanəndə bülbüllər qızılgülün yanağındakı tərləri silmək üçün gül budaqlarını tərpədir, lalələr isə piyaləsini qaldırıb, bahar cəmiyyətinin şərəfinə içmək istəyirdi. Nərgiz gülü şadlığından yaşarmış gözlərini silərək, bahar səhnəsinə tamaşa edir, bənövşələr başını çiyinlərinə qoyub düşünür, bəstəkar kəkliklər isə meşə səyahətinə çıxan gənc bir şairi qarşılamaq üçün salam musiqisini çalırdı.

Gənc İlyas adəti üzrə evdən çıxıb çayın kənarına gəlirdi. O, hər gün çay kənarındakı bağçaları, bağları gəzər və şairlər ilə görüşərdi.

O, çay tərəfinə getdiyi zaman Gəncə xalqı da xəlifə tərəfindən göndərilən fərmanı eşitmək üçün məscidə tərəf gedirdi. Xəlifədən gələn fərman Atabəy Məhəmmədin təsdiq edilməsini Gəncə xalqına xəbər verirdi. İlyas bu fərmana o qədər də əhəmiyyət vermirdi. O, dəstələri yarıb Məsudiyyə məhəlləsinə keçdi və Çobanlar qəbiristanının yanı ilə gedərək çayın kənarına endi. Şəhər xalqı məsciddə məşğul olduğu üçün çay kənarında gəzən səyahətçilərin sayı çox az idi.

İlyas ətrafı gözdən keçirərək öz-özünə dedi:

– Belə yaxşıdır. Burada azad düşünmək mümkündür. Bura gənc bir şairin yaradıcılığı üçün daha əlverişlidir.

Həmişəki yerinə gəldi, böyrü üstündə yıxılmış söyüd kötüyünün üstündə oturdu. Lakin meşənin boşluğuna baxmayaraq özünü rahat hiss etmirdi. Sanki onu amansız bir hadisə gözləyirdi.

İlyas bu gün hər tərəfdə bir qeyri-adilik hiss edirdi. Ətrafa yayılan bülbülün səsində də bir həyəcan duyur və düşünürdü; o səs bir şadlığın içərisindən yox, bir həyəcanın içərisindən süzülüb çıxan iniltilərə bənzəyirdi.

İlyas öz-özünə:

– Bülbülün səsinə hər kəsdən artıq şairlər tanışdır, – deyərək ayağa qalxdı, bütün diqqətini səfərbərliyə alıb, ətrafı gəzməyə başladı.

O, bülbülün dolaşdığı qızılgül budaqlarının ətrafına gəldi, çox ehtiyatla əyilib qızılgül kollarının dibini nəzərdən keçirdi və həyəcanlı quşu rahatsız edən səbəbləri öyrənmək istədi. Gənc şair qızıl gül kollarının dibində ilanların qıvrılıb yatdığını və bülbülləri rahatsız etdiyini bir neçə dəfə görmüşdü. Lakin bu dəfə İlyas qızıl gül kollarının dibində heç bir şey görmədi. Bülbül isə çırpınır və səslənirdi.

Külək şiddətlə əsirdi. Qızılgülün şaxələri bir-birinə qarışmışdı, tikanlar külək qarşısında şiddətlə yırğalanır və qızılgülün incə yanaqlarını cırmaqlayırdı.

Gənc şair bunu görərkən əlini uzadıb gülün budaqlarını bir-birindən ayırdı, araladı. İndi bülbül yaralı gülün ətrafında dolaşıb ağlarkən, şair də kənarda durub bu vəziyyətə tamaşa edir və öz-özünə deyirdi: "Əcəba, belə bir təbiətdə şair olmamaq mümkündürmü?!". Sonra gəlib yenə yerində oturdu, coşqun çaya tamaşa etməyə başladı. İki gündən bəri davam edən yağışlar nəticəsində Gəncə çayı daşmışdı.



Əbubəkr, Bazarcuq, İsfahan kəndlərindən gələnlərin soyunub çayı keçməsi şairi bir qədər məşğul etdisə də, onu əsas fikrindən ayıra bilmədi. Onun şüurunda, bahar, təbiət, şeir və sənət düşüncələri birinci yeri tuturdu. O, bahar möcüzələrinin qolları arasına girərək mənliyindən çıxmış və şeir ilahəsinin qolları arasında nazlanırdı. Nəhayət, əlini uzadıb qoynundan bir dəftər çıxartdı, qələmdanı da çıxarıb yanındakı daşın üzərinə qoydu, fikrində, zehnində bəsləyib bişirdiyi misraları kağıza köçürtdü və bahar təbiətinə nəğmələr bəstələdi.

Çay kənarında gəzənlərin sayı artırdı. Ətrafında dolaşanların ona diqqət verməsi və ara-sıra yanından keçərək yazılarına nəzər atması, şairin fikrini pozurdu. Buna görə də o, dəftəri büküb yenə də qoynuna qoydu, qələmdanı da bağlayıb qurşağından asdığı heybəsinə saldı. O, şeir yazdığı zaman yazısına baxmağa qoymazdı, hətta tamamlamadığı əsərini də bir kəsə oxumazdı.

Şair Kəmaləddin ilə Zəhir ona yaxınlaşdılar, görüşdülər, İlyasın əlini sıxdılar. Sonra Zəhir ona sual verdi:

– Təzə nə yazırdın?

– Bir şey yazmaq istəyirdim, lakin hələ bitirməmişəm. Bitməyən əsər haqqında danışmağı sevmirəm, bəlkə təzə əsər haqqında fikrim də dəyişdi.

Zəhir İlyasın bu fikri ilə razılaşmadı. O yenə sözündə dayanaraq:

– Biz də şairik, – dedi, – biz öz yazılarımızı hər kəsə oxuyur və onlardan məsləhət alırıq. Bəzən qulaq asanlar bizə fikirlər və məsləhətlər də verirlər, bununla bəzən şeirlərimiz bədiiləşir və zənginləşir. Lakin sən daima bu üsulun əleyhinəsən, öz şerini bir xəzinə kimi gizlədirsən. Bu isə iki şeydən birisidir. Ya xəsislik, ya da qorxaqlıqdır. Bunların heç birisi şairə yaraşan xasiyyətlərdən deyildir. Sən daima özündən yaşca artıq və sənətcə köhnə olan adamların nəsihətini eşitməlisən.

Zəhirin bu sözlərini Kəmaləddin də təsdiqlədi. Onlar söhbətlərini bitirdikdən sonra İlyas qalın qaşlarını dartaraq cavab verdi:

– Son sözlərini geri götür, mənim barəmdə xəsis sözünü işlətmək haqsızlıqdır. Mən elə bir şair olmaq istəyirəm ki, şeir süfrəmdən minlərcə şairlər qismət aparsınlar. Mən elə bir əsər yaratmaq istəyirəm ki, məndən sonra gələn şairlər mənim təsirimdən çıxa bilməsinlər. Mən qorxaq da deyiləm. Şeirlərimi hər yerdə oxuya bilərəm, lakin hər kəsin yanında oxuya bilmərəm, çünki hər kəsə hər şey lazım deyil.

Mən beş misra şeri götürüb küçə-küçə gəzdirən və oxuculardan təqdir və tərif gözləyən şairlərdən də deyiləm. Gizlətmək çirkinlik üçün deyil, mən şeir oxuduğum zaman ancaq öz təbimdən məsləhət alıram. Başqasının fikirləriylə misralar düzəltməyin əleyhinəyəm.

İlyasın bu sözləri onun ətrafında yığılanları razı salmadı. Onlar yenə də təzə yazılan şerin oxunmasını tələb etdilər. Əbül-Üla və Fələki də Zəhirin və Kəmaləddinin fikirlərinə qoşuldular. Əbül-Üla gülümsünərək dedi:

– Hərgah sən özün başqasının fikrindən öz şerində istifadə etmək istəmirsənsə, ona sözümüz yoxdur, lakin şerindən başqaları istifadə etməlidir. Hərgah sənətin yaxşı sənət isə, qoy başqaları da sənin yolunu davam etdirsin. Şerin bitməmişsə, qoy bitməsin, sonra bitirərsən.

Nəhayət, İlyas yaşca özündən böyük olan Əbül-Ülanın sözündən çıxmaq istəməyərək dəftərini qoynundan çıxarıb bitirmədiyi şerini oxudu.

### BAHAR

Nisan gülünün çöhrəsi bir bax, nə qədər şən,
Ərzin üzü bir zivər gülrəng ilə rövşən,
Güldükcə təbiət, çəmənin çöhrəsi güldü,
Gül ətri buluddan süzülüb ərzə töküldü.
Minlərcə gəlin şivəli gül doğdu çəmənlər,
Toy başladı nisan buludundan süd əmənlər.
Hər şaxədə bir bülbülü şuridə qəzəlxan,
Ən körpə çiçəklər, kələbəklər belə rəqsan,
Rəqsan bu təbiət yaradan möcüzələrdən,
Qoynunda qərənfillər açan nazlı səhərdən
Başlar yenə öz nəğməyi-Davuduna quşlar,
Oynar o tərənnümlə zümürrüdlü yoxuşlar.

İlyas şerini bitirib dəftərini qoynuna qoyduğu zaman gənc Mücirəddin onun alnından öpdü və üzünü şairlərə tutub dedi:

– Kim deyir ana dilimiz şeir dili deyildir! Bir baxın, öz dilimizdə yazılan şeir nə qədər mozun, nə qədər səlis, nə qədər də oynaq və bədiidir.

İlyas onun sözlərinə qüvvət verərək dedi:

– Əsərin incəliyi nə qədər ki dilin incəliyi ilə əlaqədardır, bir o qədər də şairin məharət və sənətkarlığı ilə əlaqədardır. Məharətli və



sənətkar şair hər dildə yazar; sənətkar olmayan şair isə öz dilində də yaza bilməz. Əcəba fars dilində yazan şairlərin hamısı sənətkardırmı? Yaxud da ərəb şairlərinin hamısı, Ümrəülqeys, Əbunəvvas və Əbülətahiyyə kimi sənətkar şairlərdirmi?

Əbül-Ülanın özü də İlyasın söylədiklərini təsdiq edərək dedi:

– Hər bir xalqın ruhunun ifadəsini ancaq onun öz dilində vermək olar. Ata və babalarımız: "Şairlər öz xalqının dilidir" sözlərini əbəs yerə deməmişdir. Xalqının içərisindən doğulan şairin hər bir şeri, öz xalqının iradəsini ifadə etməlidir. Şairin şeri içərisində yaşadığı xalqın simasını göstərən bir güzgü olmalıdır. Bir xalqın dəyərini ancaq onun şeir və ədəbiyyatının dəyəri ilə müqayisə etmək və ölçmək olar.

İlyas, Əbül-Ülanın əlini öpərək, şad bir surətdə dedi:

– Mənim də dediyim budur, qoca şair! İki adamın siması bir güzgüdə yerləşə bilməsə də, böyük bir xalqın mədəni siması bir rübaidə yerləşə bilər.

Öz dilində şeri olmayan bir xalqın nəyi ola bilər? Bir xalqın dil mədəniyyətini yaradan onun ədəbiyyatıdır. Şair həm şairdir, həm də öz xalqı danışan dilin müdafiəçisidir, dilin varlığını qoruyan əsgərdir.

Əmir İnanc sarayının şairlərindən Zəhir, İlyasın və Əbül-Ülanın dediklərinə qəti etiraz edərək dedi:

– Mən sizin dediklərinizlə razılaşa bilmərəm. Bir kərə bilmək lazımdır ki, şeir və ədəbiyyatda işlədilən dil başqa, adi dil, yəni xalqın danışdığı dil də başqadır. Şeir incə və yüksək fikirlərin məhsuludur. Buna görə də onu yüksək adamların malı etmək gərəkdir. Yüksək təbəqələrin ailə dilləri yüksək dildir, yəni fars dilidir, çünki fars dili həm ədəbi və yüksək bir zənginlik daşıyır, həm də hökumət dilidir, rəsmi dildir. Hərgah belə olmasaydı, Gəncə tarixini yazmaq üçün Əmir, İrandan cənab Kəmaləddini buraya dəvət etməzdi.

İlyas bu sözə qəhqəhə ilə güldü və cavab verdi:

– Bu cür fikirlər dost adamların başında yetişən fikir deyil. Əvvəla bunu anlamaq lazımdır ki, sizin dediyiniz yüksək dildə yazılan şeri xalqımız tərcümə vasitəsilə oxumalıdır. Lakin mən yazdığım şeirləri ölkənin ziyalı və əyanından başlamış kəndlisinə, çobanına qədər hamı oxuyur və mənim fikrimi anlayır. Bir şair üçün də bu kifayətdir.

Kəmaləddin söhbətə qarışaraq dedi:

– Məncə, yerli dildə də şeir yazmaq olar. Lakin məsələnin əsas nöqsanı burasındadır ki, yerli dildə yazılan şeirlər xaqan saraylarının

uca hasarlarını aşıb içəri girə bilməz və saray əhlinə yetişməz, yetişsə belə saray əhli onu oxumaq istəməz, bu da şairin şeir üzərində çəkdiyi zəhmətlərin hədər getməsinə səbəb ola bilər.

İlyas bu sözlərlə də razılaşmadı. O, çox ciddi bir vəziyyət alaraq dedi:

– Şair adlanan kimsə şeir yazdığı zaman onun xaqanları və padşahlar sarayının yüksək hasarlarını aşa bilib-bilməyəcəyi barəsində heç də düşünmür, çünki şeir yalnız uca hasarların içərisinə qapanan on-on beş nəfər üçün yox, minlər üçün yazılır. Fars dilində yazmaq məsələsinə gəldikdə, mən ancaq bunu deyə bilərəm: hərgah xaqanlar və saraydakılar bizim əsərlərimizi oxumaq istərlərsə, biz yerli dildə yazılan əsərlərimizi fars dilinə də tərcümə edə bilərik. Lakin bunu da bir kərə yadda saxlamaq lazımdır ki, azərbaycanlılar hər işdə güzəştə getsə də, öz dili barəsində güzəştə getməz.

İlyasın söhbəti çox ciddi şəkil aldı. Əbül-Üla və Müciəddin hissedilməz bir surətdə çəkilib getdilər. Nə Zəhir, nə də Kəmaləddin İlyası öz fikirlərinə tabe edə bildi. Buna görə də söhbətlərinə məsləhətverici bir don geydirməyə başladılar:

– Gənc şairsən, gözəl şeirlər yazırsan, qanın da isti, coşqundur; ilhamın pak və müqəddəs bir ilhamdır, lakin haman şeirlərini və bizə etdiyin söhbətlərini başqalarının yanında deyib oxuma! Bununla özünü Əmirin və xaqanın geniş ehsanlarından məhrum edə bilərsən. Ağlını başına yığ! Belə rəvan təbinlə sənin çiynin padşahların zəngin xələtlərini gözləyir. Xüsusən Şirvan şahı Əbülmüzəffər şeir maraqlısıdır. Lakin o yalnız fars dilində yazılan bədii şeirləri sevir.

İlyas bacardıqca sakit danışmağa çalışırdı, ancaq bacarmırdı. O, iki nəfər əcnəbi nümayəndəsinin yerli xalqın, hətta mədəniyyətcə belə onlardan bir neçə qat yüksəkdə duran xalqın, dilini və ədəbiyyatını təhqir etməsinə qarşı soyuqqanlılıqla baxa bilmədi və cavab verdi:

– Xələtlərdən məhrum ediləcəyim aydın bir məsələdir. Burada mübahisəyə ehtiyac yoxdur. Xələt yalnız əyilən və səcdə edən başlara qismət olur. Mənim başımı isə zamanımın dəhşətli küləkləri, qasırğaları belə əyməyə qadir deyildir. Yazıçı və şair olan zatın başı söyüd ağacı deyildir ki, ixtiyarını küləklərin əlinə verə bilsin. Bir də xələtlər şeirin qiymətinə yox, izzət və şərəfin qiymətinə verilir. Məndə isə xələtlərə satılmalı izzət və şərəf yoxdur.

Kəmaləddin acığından titrəyə-titrəyə dedi:



– Bu sözlərin heç birisi bir şairin ağzından eşidiləcək söz deyil. Bunlar bir üsyançı fikrinin məhsuludur.

İlyas gülümsünərək:

– Bu sözləriniz də doğrudur, – dedi, – şair üsyançı olmalıdır. Şair qoyun deyildir ki, qəssab bıçaq itilərkən başını aşağı salıb otlasın. Həmədan və Təbrizdə təzə atabəylərə bazarlar, kəndlər tikmək üçün vurulan qamçıların səsi hamıdan artıq şairi rahatsız etməlidir. Qoyun sürüsü kimi Şimali Azərbaycandan İraqa və Həmədana sürülən xalqın iniltilərini ancaq mənim qulağım eşidər və mənim qəlbim hiss edə bilər. Əcəba, cənab Zəhirlər və Kəmaləddinlər Arandan işə aparılanların ölüb-qalmalarından xəbərdardırlarmı? Hərgah xəbərdar deyilsinizsə eşidin, deyim: Eldəniz rübatını tikmək üçün Arandan aparılan altı min nəfərin ancaq min nəfəri qayıtmışdır. Onların ağlaya-ağlaya, qamçı və kötək gücünə öz torpaqlarından ayrılıb məcburi işə aparıldıqları sizdə nə kimi təsir buraxdı? Şübhəsiz ki, heç bir təsir buraxmadı, çünki siz onlara yabançısınız. Biriniz iranlı, o biriniz isə xarəzmlidir.

Bu mövzu üzərində başlanan söhbət çox uzun çəkdi. Zəhirlə Kəmaləddin vidalaşıb getdilər. İlyas yenə də gəlib yerində oturdu, böyrü üstünə yıxılan söyüd ağacına söykəndi və cibindən dəftərini çıxarıb şerini tamamlamağa başladı. O, suların coşqun dalğalarına, çayın sürət və həyəcanına baxmadığı zaman yanında bir nəfər beli bükülmüş qocanı gördü və diksinərək soruşdu:

– Nə istəyirsən?

Qoca gülümsünərək cavab verdi:

– Sənin sağlığını istəyirəm. Mən Əmir İnancın bağbanıyam, sənə məktub gətirmişəm.

İlyas qocaya təəccüblə baxaraq soruşdu:

– Əmir İnancdan mənə məktub?!

– Həyəcan lazım deyil, məktubu Əmirin özü yox, qızı göndəribdir.

İlyas yenə də böyük bir həyəcanla soruşdu:

– Əmirin qızımı?!

Bağban:

– Bəli, Əmirin qızı, Qətibə xanım sənə məktub göndəribdir, – dedi və əlləri titrəyə-titrəyə məktubu İlyasa uzatdı.

İlyas məktubu böyük bir həyəcan və tərəddüdlə bağbandan aldı, bağdan isə baş endirib getdi. İlyas məktubu açıb oxumağa başladı:

"Qəhrəman və şair!

Bu məktubu sənə göndərən qız, Əmir İnancın qızı və xəlifeyi-ruyi-zəminin nəvəsidir. Qəlbini sənə açan bu qız öz üzünü günəşə belə açmamışdır. Birinci kərədir ki, yabançı kişiyə məktub yazıram. Buna görə də məktubda buraxdığım ədəbi nöqsanları mənə bağışla. Mənim qəlbimi kişilərə açmaq istəmədiyimin əsas səbəbi onları müxtəlif mündəricə və mövzularda təbir etdiyimdir.

Sən özün bizim adətimizi bilirsən. Bu adətlər qızların kişilər ilə üz-üzə oturmasına imkan vermədiyindən, səninlə görüşmək səadəti mənə qismət olmamışdır. Şübhəsiz ki, bu məhrumiyyətin başqa-başqa səbəbləri də vardır ki, onların hamısını bu məktubda göstərməyə lüzum görmədim.

Mən bəzən kişiləri kitablardan öyrənməyi düşünürdüm, lakin çox tez bir surətdə bu fikrimdən daşındım, çünki insan təbiətini öyrənmək üçün kitab yazanların özləri də səhv edə bilərlər. Hər şeyi bilavasitə öyrənmək caizdirsə, insanları bilavasitə təhlil etmək və nəliyini təyin etmək lazım gəlir.

Bu fikirlərə əsaslanaraq kişiləri bilavasitə öyrənmək qərarına gəldim.

Mən Bağdadda təhsilimi bitirib Gəncəyə gəldiyim zaman sənin qüdrətli bir şair olduğunu eşitmişdim. Hətta Əbül-Ülanın cariyəsi[1] Səba xanım sənin on iki misralıq bir qəzəlini mənə vermişdi:

"O gözəl, incə, sevgilərdən şən,
Bir çiçəkdir, doğuldu şəbnəmdən".

Bu qəzəlini gündə bir neçə kərə oxuyuram. Bu şeirdə bədiilikdən başqa, yüksək mündəricə vardır. Burada gözəl insanları yaradan bir qətrə murdar su şəbnəm kəlməsi ilə ifadə edilmişdir. Bədii ədəbiyyatda ancaq bədii kəlmələr işlətmək lazım olduğunu sən, gənc şair, hamıdan əvvəl təyin etmişsən. Bu qəzəlin haqqında danışmaq üçün səni görmək istəyirdim. Bir dəfə səni Məlikşah meydanından keçdiyin zaman uzaqdan görmüşəm. Bir kərə də Ozanlar məhəlləsinə girdiyin zaman gördüm. İki kərə də Əbül-Ülanın evində olduğun vaxt danışmaq istəyirdim, lakin mümkün olmadı. Bu təsadüflərin heç birisində sənin şəxsiyyətini təyin etmək mümkün olmamışdı. Son dəfə atam

[1] Cariyə – qulluqçu



səni hüzuruna çağırdığı zaman səni lazımınca gördüm və şəxsiyyətinlə kifayət qədər tanış oldum. Doğrusu, xəyalımda sənə müxtəlif şəkillər verməkdən yorulmuşdum, haman tanışlıqdan sonra qismən dincimi aldım. O axşam mən qarşımda nümunəvi bir kişi siması görməyə müvəffəq oldum. İnan, İlyas! Anamın canına və babam xəlifənin müqəddəs varlığına and içirəm, mən haman axşam ancaq səni müdafiə etmək üçün mühakimə otağında oturmuşdum. Mən sənin barəndə çıxarılan hər bir mənfi qərarı dəyişdirəcəkdim. Səndən rica edirəm, həmin bu məktubun cavabını yazıb bağbanımız Salimin vasitəsilə mənə göndər. O məktub mənim qəlbim kimi hər bir kəsə gizlin qalacaqdır. Sən mənim məktubumu dostlarına göstərmə

Sənə daima bir dostluq hörməti bəsləyən Qətibə"[1].

İlyas Qətibənin məktubunu oxuduqdan sonra bir xeyli düşündü. Nəhayət, gülümsəyərək məktubu cibinə qoydu. O qalxıb getmək istəyirdi, çünki axşam yaxınlaşırdı, səyahətçilərin bir çoxu meşədən çəkilib gedirdi.

Rəna ağacların dalından çıxıb yavaş-yavaş İlyas oturan söyüd kötüyünün yanına doğru irəlilədi, sonra olduğu yerdə donub durdu. O utanırdı, başını yuxarı qaldırıb ətrafına baxmırdı. İlyas qalxıb getmək istərkən, Rənanın quruyub qaldığını gördü. Qızın məhbub çöhrəsində bir kədər var idi. Onun gözlərində İlyasa ilham verən o daimi gülüşlər artıq yox idi. Çöhrəsi tez-tez dəyişirdi. Çöhrəsinin rəngi yağışdan çıxmış fəzanın qövs-qüzehləri kimi rəngdən rəngə keçirdi. O, bahar buludu kimi dolmuşdu, yağmağa başlamasına az qalırdı. İlyas ona imkan vermək istəmədi, irəli gəlib onun hər iki çiynindən döşünə sallanmış qara saçlarını sığalladı və bu şeri oxudu:

Nədir bu qəmli baxış səndə, sevgilim Rəna?!
Dodaqlarında nədir ol sükut pürmənə?!

Rəna İlyasın bu sualından sonra başını utana-utana yuxarı qaldırıb İlyasın üzünə baxdı, lakin yenə də kədərlərinin səbəbini açıq deməkdən utandı, ancaq bu sözləri deyə bildi:

[1] Qətibə XI əsrin birinci yarısında Azərbaycan atabəylərinin siyasi həyatında böyük rol oynamış olan məşhur bir qadındır.

– Mən çoxdan bəri ağacların dalında durub səni dinləyirdim, – dedi, – hətta yazdığın təzə şeri də eşitdim.

İlyas Rənanın nə demək istədiyini və nə səbəbə görə kədərləndiyini dərhal bir şair duyğusuyla hiss etdi və onun saçlarını sığallayaraq:

– Kədərlənmə, mənim ruhum! – dedi, – sənin məhəbbətin yaşayan qəlbə başqa bir məhəbbət yol tapa bilməz. Onu yəqin et!

Nəhayət, nisan buludlarından damcılar axmağa başladı. Rəna ağladı və başını İlyasın çiyninə söykədiyi zaman ancaq bir kərə yavaşdan:

– O qız çox varlıdır, – deyə bildi.

Rənanın bu sözündən sonra İlyas iki əlilə onun başını tutdu, qara saçlarını kənara çəkərək qızın gözlərinə baxdı və:

– Ağlamağa heç bir səbəb yoxdur, – dedi. – O qız varlı deyildir. O, sənin malik olduğun təbii zənginliyin qarşısında bir dilənçi müqabilində də deyil. Mən sənin məhəbbətinlə padşahların xəzinəsində tapılmayan nadir incilər yaradacağam.

Rəna tutqun və titrək bir səslə əlavə etdi:

– Mən heç bir vaxt sənin zənginliyini istəmirəm.

İlyas soruşdu:

– Nə üçün, mənim ruhum?

– Çünki sən zəngin olduğun zaman yoxsul bir qızı atacaq və "səviyyəmiz bir deyil" – deyə zəngin bir qız axtaracaqsan.

– Səhv etmə, Rəna! Mən şerimin qiymətli incilərini sənə olan sevgi duyğularımın nəhayətsiz dənizlərindən əldə edirəm. Sənin sevgindən aldığım ilham tarixdə misli yazılmayan dastanların mövzusunu verir. Rəna, sən onu bilməlisən ki, əsrlərin tarixi sənin qara saçlarından süzülüb böyük-böyük kitabların vərəqlərinə töküləcək. Əmin ol, Rəna! Gəncənin yaşıl təbiəti arasında çırpınan bu qəlbim ancaq sənin sevgilərinlə şeir dünyasını fəth edə biləcək. Mənə inan, Rəna! Bu gənc şair sevgi dastanını səninlə başlayıb, səninlə də bitirməyə çalışır.

Nəhayət, Rəna İlyasa sual verdi:

– Bəs o məktub nə məktub idi?

– O bir parça kağızdır. Sənin məhəbbətindən aldığım ilhamlar isə zəngin bir kitabxanadır.

Rənanın qəlbi bir az sakit oldu. O başı İlyasın çiynində ikən dedi:

– Bu gün oxuduğun şeir əvvəlki şeirlərə nisbətən daha zəngindir.

İlyas yenə də onun saçlarını sığallayaraq:



– Əlbəttə, sən o şeri sevəcəksən, çünki şerin mövzusu sənə olduqca tanışdır.

İlyasın bu sözündən Rəna təəccüb etdi. O, İlyasın üzünə baxıb soruşdu:

– Necə yəni "həman şerin mövzusu sənə tanışdır?" – Əcəba, sən o şeri mənim yanımda bir neçə kərə oxumuşdunmu?

– Xeyr, oxumamışdım. Lakin o şeir bahara yazıldığı üçün səninlə əlaqədardır. Çünki sən də mənim həyatımın baharında bitən ilk çiçəksən. Daha açığı o şeir Rənadır. O şerin içərisində qocalmaz bir gənclik bəslənir.

Bu sözlərdən sonra Rəna əlini İlyasın əlindən çəkərək sürətlə çəkilib getdi, İlyas onu dayandırmaq üçün səslədi:

Ey gözəl mələkim, dur, məni dinlə,
Dünya yaradıram sənin eşqinlə!

* * *

İlyas Rəna ilə görüşüb vidalaşdı. Çayın kənarındakı söyüdlərin kölgəsi ilə çəkilib getmək istəyirdi. İlyas getməyə tələsirdi, çünki uzaqdan qız-qadın səsləri gəlirdi. Səslər get-gedə yaxınlaşırdı. Az keçmədən Əmir İnancın nökərləri meşədə göründü və bunun dalınca da cariyə və kənizlərin oxumaq səsləri eşidildi:

Güllü, çiçəkli Gəncə,
Al kəpənəkli Gəncə,
Əlvan-əlvan güllərdən
Qoynu bəzəkli Gəncə!..

İlyas bu nəğmələri eşidərkən qədəmlərinə sürət verdi. Bu nəğmələr Əmirin arvadının və yaxud qızının meşə səyahətinə çıxdığını bildirirdi. İlyas bu gün meşənin qoruq olduğunu bilmirdi. Buna görə də meşənin səyahətinə çıxmaq qorxulu idi. Qulamlar və nökərlər meşəni aralığa alıb ağacların altını bir-bir axtarırdı. Çünki bəzən belə hallarda kişilər Əmirin qızına, qadınına və gözəl cariyələrinə tamaşa etmək üçün meşədə və çayın kənarında gizlənirdilər. Meşədə gizlənənlər tapıldığı zaman döyülür, həbsə alınır və yaxud qulamlar tərəfindən cərimələnib buraxılırdı. Bunun üçün də İlyas meşədən kənar olmağa

çalışırdı. Ancaq bu zaman meşədə bərk axtarış gedirdi. İlyas çıxılmaz bir vəziyyətdə qalmışdı, onun meşədə ələ keçməsi böyük şübhələrə səbəb olacaqdı. Xüsusən Əmir İnanc İlyasın Qətibəyə tamaşa etmək üçün meşədə gizləndiyini eşitsəydi, onu cəzalandıracaqdı.

O biri tərəfdən də İlyas Qətibəyə rast gəlməməyə çalışırdı. Lakin qurtarmaq mümkün deyildi. O, hər tərəfə getsəydi, yenə də Qətibənin qulamlarına rast gələcəkdi. Heç bir tərəfdən çıxış yolu tapa bilmədiyindən, olduğu yerinə qayıtdı və həmişə oturduğu söyüd kötüyünün üstündə oturdu.

İki dəqiqə keçməmişdi, bir dəstə cariyə əllərində ud və çəng oxuya-oxuya meşəyə girdi. Bunların dalınca da bir dəstə qulam çiyinlərində taxt-rəvan gəldi. Taxt-rəvan yaşıl budaqlar və gül dəstələri ilə bəzənmişdi. Qətibə başında qiymətli daşlar düzülmüş qızıl tac olduğu halda taxt-rəvanın içində oturmuşdu. Əlvan ipəklər və cürbəcür qumaşlarla bəzənmiş Qətibə tovuz quşunun qanadları kimi parıldayırdı.

Taxt-rəvanı yerə qoydular. Gözəl cariyələr Qətibənin qolundan tutub taxt-rəvandan çıxardılar. Qulamlar çəkildi. Qətibənin ətrafında cariyələr və kənizlər qaldı. Qızlar çalıb oynamağa, qəhqəhələrlə gülməyə başlarkən İlyas da oturduğu yerdən bir tərəfə gedə bilmədiyindən həyəcanlı dəqiqələr keçirirdi. Qəhqəhə səsinə meşənin quşlarının da həyəcanlı səsləri qarışaraq meşədə qeyri-adi bir vəziyyət törəyirdi. Cariyələr Qətibənin yanında gələn iki nəfər xacəni qıdıqlayıb gülüşürdülər. Gözəl cariyələr xacələrin yaxasından tutaraq:

– Ölsən də, qalsan da sənə ərə gedəcəyəm, sənin eşqindən dəli divanəyəm, – deyərək zarafatlaşırdılar[1].

Qətibəni əyləndirmək və güldürmək üçün xacələr, cariyələrin əlində məzhəkə aləti kəsilmişdi. Cariyələr onları ağladana qədər oynadıb, Qətibəyə şikayətə gedincəyə qədər incitdilər. Nəhayət, Qətibə xacələri cariyələrin əlindən alıb buraxdı, indi də cariyələr qara kənizlərə yanaşıb onlarla əylənirdilər. Qətibənin Kafur adlı qulamı uzaqdan qışqırdı:

– Yabançı! Yabançı!

---

[1] Xacələr (axtalar) uşaqlıqdan axta olunmuş saray xidmətinə hazırlanan adamlara deyirlər. İran və ərəb aristokratiyası hökmdar və əyanları xacələri hərəm içərisində saxlayırlar. Xacələr çox hərəmli ailələrdə hərəmləri öyrənmək və onların yabançı kişilər ilə əlaqədə olub-olmadıqlarını təyin edib ağaya xəbər vermək, hətta casusluq və xəfiyyəçilik vəzifəsini də yerinə yetirirlər.



Bu səs eşidilən kimi, dərhal cariyə və kənizlərin içərisində sükut başladı. Əbül-Ülanın cariyəsi Səba xanım Qətibənin başına nazik ipəkdən toxunmuş bir niqab saldı. Taxt-rəvanın içərisindən bir kürsü gətirdilər, Qətibə acıqlı bir surətdə onun üstündə oturdu. Əmirin qızına baxmaq üçün meşədə gizlənən müqəssiri döydürmək üçün çubuqlar hazırlanırdı. Meşədə gizlənən naməhrəmləri Qətibənin özü cəzalandırmalı idi. Müqəssirin gətirilməsini əmr etdi.

Bir neçə dəqiqə keçəndən sonra qulamlar İlyası aralığa alıb gətirdilər. Səba xanım İlyası görən kimi tələsik Qətibənin qulağına pıçıldadı:

– İlyas, İlyas! Şairdir, haman şeri yazan şairdir:

"O gözəl, incə, sevgilərdən şən
Bir çiçəkdir, doğuldu şəbnəmdən".

Qətibənin bütün varlığı titrədi. O dərhal İlyası tanıdı və öz qəlbində dedi: "Nə gözəl, nə də əlverişli bir təsadüf. İndi mən gənc şairlə lazımi qədər danışıb qonuşa bilərəm".

Qətibə üzündən niqabını qaldırıb İlyasın üzünə baxdı. O, gənc şairin qəlbini dərhal, hətta birinci nəzərdə oğurlaya biləcəyinə inanırdı, çünki ərəb, türk və rum qanının bir-birinə aşılanmasından doğulan bu afəti birinci görüşdə sevməmək qabil deyildi. Gözəlliyin xarici xüsusiyyətlərini tamamilə mənimsəyən bu qız, əsrinin ən zəngin zinətlərini daşıyırdı.

Qətibə İlyasa sual verdi:

– Bu gün meşənin qoruq olduğunu bilmirdinmi? Əmirin qızına baxmaq üçün meşədə gizlənən naməhrəmlərin ağır cəzalara düçar olacağını eşitməmişdinmi?

– Son cümlənizi bilirdim, lakin meşənin qoruq olduğunu bilmirdim. İnsan hər şeyi bilməyə qadir deyildir. Bu barədə nə car çəkilmiş, nə də xəbər verilmişdi. Eyni zamanda, Əmir həzrətlərinin qızına baxmaq məqsədilə də meşəyə gəlməmişdim. Mən daima meşədə gəzirəm. Buna adət etmişəm, çünki təbiətin böyük möcüzələri bu yaşıllıqların içərisindədir. Yaşıl şaxələrdən doğan qırmızı yaqutlara tamaşa etmək, gəlin kimi nazlanan qızılgüllərin qarşısında təzim edən sərv ağaclarına baxmaq, çəmən qızlarına nəğmə oxuyan quşları dinləmək daima sənətim olmuşdur.

Qətibə özünü ağır tutaraq İlyasa bir sual da verdi:

– Demək ki, sən bu meşələrdəki möcüzələri öyrənirsən?

İlyas Qətibənin onu danışdırmaq istədiyini hiss etdiyindən ona belə cavab verdi:

– Xeyr, möcüzələri öyrənməklə bərabər, möcüzə yaratmaq üçün də meşələrdə gəzməyi sevirəm.

Bu sözlərdən Qətibə daha özünü saxlaya bilməyərək gülümsündü və soruşdu:

– Demək ki, sən peyğəmbərsən?

– Xeyr, peyğəmbərlər yaradılmışdır, mənsə yaradıram.

– Elə isə Allahmısan?

– Bəli, mən Allaham, lakin mən varlığından uca düşünən insanları yox, hər şeydən ucada duran şeri və ədəbiyyatı yaradıram.

Bu sözlərdən sonra Qətibə və onun yanındakılar qəhqəhə ilə güldülər. Sonra Qətibə İlyasla olan söhbətini davam etdirdi və ciddi bir vəziyyət alaraq dedi:

– Allaha şərik qərar verənlərin kafir olduğunu bilmirsənmi? Kafirin cəzası sənə məlum deyilmi?

İlyas bu sözlərə gülümsünərək dedi:

– Allaha şərik qərar verənləri cəzalandırmaq lazım gəlirsə, insanların bir çoxunu cəzalandırmaq lazım gələcəkdir. Həttа xanım həzrətlərinin ən adi nökərləri də bu cəzanı alacaqlar, çünki onların hər birisi Gəncədə özünü Allah bilir.

İlyasın bu sözündən sonra indiyə qədər gülənlərin siması birdən dəyişdi. Cariyələr, qulamlar, qullar və qara kənizlər belə bu gəncin qorxmaz bir adam olduğunu bildilər. Qətibə isə İlyasın bu cavabından titrədi və kimlə danışdığını təyin etdi. O, yanındakılara müraciət edərək dedi:

– Gedib meşəni gəzin. Mən bununla təklikdə danışacağam.

Hamı çəkilib getdi. Qətibə üzünü İlyasa tərəf çevirib:

– Otur! – deyə əmr etdi.

İlyas oturmayaraq:

– Mənim oturduğum müəyyən yer vardır.

– Buradan uzaqdırmı?

– O qədər də uzaqda deyil.

– Elə isə gedib orada oturaq.

Qətibə İlyasın dalınca düşüb böyrü üstündə yıxılmış söyüd ağacının yanına gəldi, ikisinə də yer var idi, oturdular. Çox yaxın oturdular, çünki vəziyyət bunu tələb edirdi. Qətibə İlyasdan soruşdu:



– Əcəba, bu qədər geniş meşəlikdə özünə buradan da gözəl bir yer tapa bilmədinmi?

– Burada oturduğum zaman təbiətin bir çox incəlikləri gözümün qarşısında durur. Siz o çaya yaxşı baxın, görün onda nə qədər ciddi bir təlaş vardır. O qabarıq dalğaların arzu və əməllərlə dolu olan bir qəlb kimi çırpındığını görürsünüzmü? Bir-birini ötüb keçmək istəyən ləpələrin müsabiqəsi məqsəd uğrunda çalışmaq istəyən hər bir gənc üçün təcrübə dərsi deyildirmi?

Qətibə üzünün o biri tərəfini də açaraq İlyasa dedi:

– Bu gün xoşbəxtlik mənə üz göstərdiyi üçün mən də birinci dəfə olaraq üzümü yad kişiyə göstərəcəyəm. Səndən utanmayacağam.

– Adi bir işdən ötrü utanmağın mənası yoxdur. Lakin bundan ikinci adamın zərər çəkməsini düşünmək lazımdır. Atanızın açıq gəzən qadınları görəcək gözü yoxdur. Məhsəti xanımın başına gələn fəlakətdən xəbəriniz olmadımı?

– Sən nə üçün məni Məhsəti xanımla müqayisə edirsən? Mən üzümü yalnız sənə göstərirəm, o isə bütün şəhərə göstərirdi. Həttа üzü örtülü gəzməyi də qanun və şəriət xaricində bilirdi. O hətta Gəncə xətibinin oğlu Əmir Əhmədi də bədbəxt etmişdi, halbuki Əmir Əhməd ibadətxanalarda həyat keçirən bir adam idi. Nəhayət, Məhsəti onu Xərabat məhəlləsinə cəlb etdi. O da üzü açıq gəzməyi Gəncə qızlarına vəsiyyət elədi, axırda bu qədər qanların tökülməsinə səbəb oldular.

İlyas qızın yersiz mühakimələrinə imkan verməmək üçün yanındakı gül ağacının bir budağını çəkib Qətibəyə göstərdi və soruşdu:

– Bu budaqdakı nədir?

Qətibə baxıb dedi:

– Qönçədir.

Bundan sonra İlyas o biri əli ilə gülün başqa bir budağını göstərib soruşdu:

– Bəs bundakı nədir?

Qətibə baxaraq:

– Bu da güldür, – dedi.

– İndi deyin görüm sizcə, bunların hansı birisi yaxşıdır? Gülün qönçəlikdə qalmasımı, yaxud pərdədən çıxıb gül olmasımı?

– Qönçənin gül olması daha gözəldir.

– Qönçənin gül olması yaxşıdırsa, nə üçün qız və qadınların daima qönçələr kimi pərdədə qalmasını tələb edirsiniz?

– Sən də üzü açıqlığı sevirsən?

– Sizin birinci görüşdə üzünüzü açıb göstərdiyiniz mənə böyük bir cəsarət verdi.

– Mən öz fikrimi ancaq öz şəxsiyyətimdə həyata keçirməkdəyəm. Heç şübhə yoxdur ki, bu fikri ümumiləşdirmək və yaxud qanun çərçivəsinə salmaq istərsəm, məni də Məhsəti kimi tənqid edəcəklər.

– Siz də üz açmağı Məhsəti xanımdan öyrəndiniz?

– Xeyr, mən ondan öyrənmədim.

– Bəs nə üçün üzünüzü açdınız?

– Qəlbimi açmaq istədiyim bir adamdan üz gizlətməyin nə mənası var idi. Ancaq, sən bir şeyi də bilməlisən ki, mən üzümü sənə açdığım zaman bunu haram bilirəm. Məhsəti isə bunu halal bilirdi.

İlyas sakit oldu, cavab vermədi, çünki Qətibə ilə çox da açıq danışmaq istəmirdi. Qətibə bir münasibət nəticəsində danışılan söhbətləri atasına da xəbər verə bilərdi. Sükut bir neçə dəqiqə davam etdi. Qətibə İlyasın uzun söhbətdən boyun qaçırdığını hiss etdiyi üçün çox əmniyyətverici bir surətdə dedi:

– Utanma və açıq danışmaqdan qorxma! Sən şairsən, bunu birinci görüşdə hiss etməli idin. Mən üzümdən pərdəni götürdüyüm zaman hər barədə pərdənin aralıqdan götürülməsinə icazə verdiyimi bilməli idin. Sənə göndərdiyim məktubun cavabını göndərməkdən qorxmamalı idin.

– Məktubunuz qorxulu məktub idi.

– Orada sənə bəslədiyim hörmətdən başqa bir şey var idimi? Xəlifənin nəvəsi tərəfindən göndərilən məktuba da qorxulu məktub demək olarmı?

– Qorxunun əsas cəhətini təşkil edən məsələ də elə sizin Əmirin qızı və xəlifənin nəvəsi olmağınızdır. Mən yoxsul bir şairəm. Sizin özünüzə də məlumdur ki, atanızın dövründə şairlərdən dəyərsiz və həqir bir adam yoxdur. Mənim sizə demək istədiyim bir çox məsələlər vardır ki, onları sizin fikrinizin tərəzisində çəkmək yaramaz. Mənfi bir nəticə verə bilər. Mənim demək istədiyim məsələlərin bir çoxunu sizin özünüz də bilirsiniz. Təbiətin ölçüsündən keçməyən heç bir şey yoxdur. Qadınların örtülü gəzməsi lazım olsaydı, təbiət bu lüzumiyyəti heç bir vaxt unutmaz və üzərindən keçməzdi. İndi sizin özünüz fikirləşin. Sizin üçün örtülü qalmaqmı və ya bu gözəl təbiətə açıq üz və açıq gözlə baxmaqmı yaxşıdır? Buna öz vicdanınızla cavab verin.



Qətibə heç də düşünmədən:

– Şübhəsiz ki, açıq gəzmək örtülü gəzməkdən daha yaxşıdır. Lakin hər kəsə görünmək, bilaistisna hər kəsin yanında açıq gəzmək qadının qiymətini azaldır. Örtülü şey nəzərləri açıq şeydən daha tez cəlb edə bilər. Bu fikir doğru deyildirmi?

– Hərgah xanım qız əşyadan bəhs edirsə, fikri doğrudur, lakin biz əşyadan daha çox, canlı insanlardan danışırıq. Bir məsələni qeyd etmək lazımdır. Canlı bir insanın örtülü gəzməsi insanlarda özlərinə qarşı maraq oyandırmaq əvəzinə, şübhələr oyandıra bilər, çünki özündə xəstəlik hiss edənlər və üzlərində bitən iyrənc yaranı göstərməklə kişiləri iyrəndirmək istəməyən qadınlar da çöhrəsini gizlədə bilər. Lakin gözəl bir qadının çöhrəsini gizlətməsi kişiləri təbiətin bəxş etdiyi nemətlərdən məhrum etmək deməkdir. Halbuki hər qədəm başında gözəl və sevimli simalara təsadüf etmək insanların ruhunu yüksəldir və kədərlərini unutdurur, daha açığı, təbiətin möcüzələrinə inandırır. "Özünü bilaistisna hər bir kəsə göstərən öz qiymətini azaldır" – fikri də yanlış fikirdir.. Örtülü şeyə qiymət verən olmaz. Şəxsən mən özüm meşələrdə gizlənərək sizi görmək istəyənlərə gülürdüm, bəzən onların döyüldüyünü, təhqir olunduğunu və ya cərimə edildiyini eşitdiyim zaman onlara acığım tuturdu. İndisə mən sizi açıq bir çöhrə ilə gördüyüm zaman sizi haqsız hesab edirəm.

Qətibə qaşlarını çatıb sual verdi:

– Mənmi haqsızam?

– Bəli, əfv edin, birinci haqsız sizin özünüzsünüz. Siz açıq olsaydınız, sizi görmək üçün meşələrdə gizlənənlər və bunun üçün də döyülən və təhqir edilənlər olmazdı. Çünki bəzi adamlarda yaşlı olduqlarına baxmayaraq çocuqluq xasiyyətləri davam edir, onlar hər şeyin içərisini öyrənməklə maraqlanırlar. Buna görə də qismən sizə haqq qazandırıram, çünki örtülü şeylərlə maraqlananlar çoxdur. Lakin gözəllik xəsisliyi sevməməlidir. Təbiət olduqca mahir bir sənətkardır, bunun üçün də mən təbiəti sevirəm. Təbiət, ərəb, türk və rum qanından düzəldilmiş bir gül dəstəsini bizə təqdim edibdir. Biz bu nemətlə doğrudan da maraqlanmalıyıq.

Qətibə nazlanaraq sual verdi:

– Şairin tərif etdiyi gül dəstəsini görmək olmazmı?

– Siz onu hər gün görürsünüz.

– Harada?

– Güzgüyə baxdığınız zaman.
– Demək ki, məndə türk, ərəb qanı ilə bərabər rum qanı da vardır.
– Bəli, vardır. Siz bunu bilmirdinizmi?
– Bilmirdim, rica edirəm, doğrusunu söylə. Bu həqiqətdirmi?
– Həqiqətdir.
– Rica edirəm, izah et.
– Sizin böyük nənəniz, Mütəvəkkil xəlifənin qadını Şəanin xanımdır. Onun şeir oxumaqda və şeir yazmaqda böyük bir şöhrəti var imiş.
Qətibə, İlyasın sözünü kəsərək:
– İnandım, inandım, – dedi, – məndə rum qızı Şəaninin qanından vardır. Mənim şeirə və musiqiyə olan marağım da bunun nəticəsi imiş. Sözünü davam etdir!
– Şəanin xanımın atası Şam tərəflərində mövcud olan bir deyrdə (monastır) ibadət edən məşhur keşişlərdən idi. Mütəvəkkil xəlifə Şam səyahətinə getdiyi zaman keşişə qonaq olmuş və Şəanin xanımı orada görüb sevmiş, ona evlənmişdir. Sənin baban xəlifə Müstərşidbillah Şəanin xanımın nəvələrindən birisinə evlənmiş və sənin anan Safiyə xanım da ondan doğulmuşdur. Bu yalnız sənin babana məxsus olmayaraq, bütün xəlifələr (Mənsur və Harundan başqa) ərəb qızından doğulmamışdır[1], əvvəldə olduğu kimi indi də xəlifə sarayları türk, gürcü və rum qızları ilə doludur.
İlyasın bu sözlərindən sonra Qətibə düşünməyə, İlyas isə ona və onun daşıdığı zinətlərə tamaşa etməyə başladı.
Qətibə gözəl idi; onda türklükdən qara saçlar, ərəblikdən təbəssümlü gözlər, rumluluqdan ağlı-qırmızılı yanaqlar ən gözə çarpacaq cəhətlərdən idi. O, söyüd kötüyünün üstündə əlvan bir rəsm kimi oturmuşdu. Tirmə çəpkəninin belini almaz və yaqutdan toxunmuş kəmərlə kip bir surətdə çəkmişdi. Çəpkənin yaxasındakı zümrüd və zəbərcəd düymələri, alnından tellərinə saçdığı badam şəkilli almaz cıqqa, ağ və incə topuqlarındakı inci xalxallar, iki tərəfdən döşlərinə taxdığı almaz ayparalar, onu tovuz quşunun qanadları qədər bəzəmişdi. Onun gözəl bir qadın olaraq heç bir nöqsanı yox idi.
– Bu, nə gözəl parçadır. Qətibə, söyləyin, bu harada toxunmuşdur?
Qətibə təəccüblə:
– Gəncədə, əcəba sən bilmirsənmi?
İlyas gülərək dedi:

[1] "Təzyinül əsvar" kitabı, birinci cild.



– Bilirəm, soruşmaqda başqa məqsədim vardır.
– Nə məqsədin vardır? – deyə Qətibə yenidən soruşdu.
– Elə bildim "bunu filan ölkədən mənə töhfə göndəriblər" deyib vətənimiz Gəncənin hər babətdə zəngin bir xəzinə olduğunu inkar edəcəksiniz.
Qətibə İlyasa cavab verməyib sükuta getdi.
İlyas sükutu pozaraq:
– Demək ki, siz şeiri və musiqini sevirsiniz, – dedi.
Qətibə də cavabında:
– Şeir və musiqi mənim ruhumun yeganə qidasıdır, – dedi.
– Oxuyandan, çalandan və şeir yazanlardan kimi çox sevirsiniz?
– Mən Bağdadda təhsil aldığım vaxt məşhur oxuyan, çalan və şeir yazan qadınlardan Türfə və Zəəf xanımı çox sevirdim. Bağdadın ən məşhur oxuyan və gözəl qadınlarından Dürrətülbağdadı ancaq bir kərə görüb və eşidə bildim.
– Siz Məhsəti xanımın çalıb oxumasından xəbərdarsınızmı?
– Eşitmişdim, lakin görmək mümkün olmadı.
– Siz onun Gəncəyə qayıdıb gəlməsinə kömək edə bilməzmisiniz?
– Sən onu sevməməyə söz verərsənmi?
İlyas gülümsəyərək:
– Mən onu indi də, gələcəkdə də bir sənətkar şair kimi sevəcəyəm. Gözəl qız, mən çox gəncəm, Məhsəti xanım isə olduqca ixtiyardır. Mən onu bir qadın kimi yox, bir şair kimi sevirəm:
– Mənim canıma and içə bilərsənmi?
– And içə bilərəm, lakin hansı bir əsasla mənə inana biləcəyinizi təyin edə bilmirəm.
– Məndə əsas vardır. Şair qəlbi daşıyan bir zat ona inanan bir qızı aldatmaq istəməz.
– Fikrinizlə şərikəm. İndi deyin görüm, Məhsəti xanımın qayıtması işinə kömək edəcəksinizmi?
– Söz verirəm. Sən de görüm, məktubumun cavabını nə üçün göndərmədin?
– Bizim ikimiz də gəncik, fərq burasındadır ki, mən azad və açıqda, siz isə örtülü və pərdə dalında yaşamısınız. Buna görə də mənim həyatdakı təcrübəm qismən artıqdır.
– Sənə göndərdiyim məktubu özün üçün bir həqarətmi bildin?
– Bəlkə də, mən fikrimi lazımınca ifadə edə bilmədim. Mən, yazdığınız məktubu özüm üçün həqarət kimi yox, sizin tərəfinizdən baş

vermiş bir ehtiyatsızlıq kimi təbir edirəm. Bağışlayın, bir az açıq danışmaq lazımdır. Sarayda xidmət edən adamların bir neçə üzü vardır. Onlar bir-birini öyrənməyi və öyrəndiklərini başqalarına xəbər verməyi özlərinə vəzifə hesab edirlər. Məktubunuzu mənə gətirən qoca bağban sizin sirlərinizi başqalarına da verə bilər. Kim bilir, bəlkə, indiyə qədər o sirlər bir neçəsinin əlinə keçmişdir. Buna görə də sizin ehtiyatsızlığınız məni həddindən artıq düşündürür. Məktuba cavab verməkdə təxir etməyimin bir səbəbi də budur. Bu barədə mənə inanın.

Qətibə düşüncəli başını yuxarı qaldıraraq:

– Məsləhətlərindən həddindən artıq məmnun qaldım, – dedi. – Məhsəti xanımı Gəncəyə qaytarmaqdan əlavə yenə də nə arzun olsa söyləyə bilərsən.

– Əsas arzum budur ki, məni bu qədər qiymətləndirməyəsiniz.

– Sən şairsən, dediklərini yaxşı düşün. Bir qızın qəlbinə belə bir tələbatı vermək mümkündürmü?

– Bunsuz da atanızın mənə qarşı fikri müsbət deyil. Bu görüş mənim bədbəxtliyimə də səbəb ola bilər. Rica edirəm, mənə olan əlaqəniz dostluq əlaqəsi çərçivəsindən kənara çıxmasın.

## HÜSAMƏDDİN

Qətibə başını əlləri arasına alıb Hüsaməddini diqqətlə dinləyirdi. Lakin Hüsaməddinin bir saatdan bəri ortalığa atdığı məsələlərin heç birisi Qətibənin eşitməmiş olduğu məsələ deyildi, çünki Hüsaməddin daima Qətibəni gördüyü zaman bu cür söhbətlərdən başlayırdı. O yenə də sözünü öz qəhrəmanlığından başlamışdı:

– Mən yalnız Araz ölkəsinin qəhrəmanı deyil, bütün Azərbaycanın tanınmış və sınanmış qəhrəmanıyam. Siz özünüz bilirsiniz ki, Əmir həzrətlərinin hökmranlığı ancaq mənim qılıncımın sayəsində möhkəm olur. Pozulan cəbhələr, boğulan üsyanlar, tökülən qanlar, yüzlərcə qurbanlar da buna şahiddir. Bunun səbəbinədir ki, atanız mənim xidmətlərimi sizin gözəlliyinizlə mükafatlandırmaq vədəsini vermişdir. Atanız indi də öz sözünün üstündə durubdur, lakin mən sizdə bu meyli görə bilmirəm. Siz mənə adi adamlara baxan kimi baxır və mənim qəhrəmanlığımı qiymətləndirmirsiniz. Çox təəssüf ediləcək bir haldır ki, mənim sevgimi, mənim səadətimi yoxsul bir şairin əlinə tapşırmaq istəyirsiniz.

Qətibə burada Hüsaməddinin sözünü yarımçıq qoyub dedi:



– Belə bir vədəni sənə atam da vermiş olsa səhv etmişdir. Bu çox köhnəlmiş bir işdir. Qədimdə belə işlər var imiş; padşahlar çıxılmaz bir vəziyyətdə qaldığı zaman belə bir elan verirlərmiş: "Hər kəs bu qalanı fəth etsə, filan pəhləvanın başını gətirsə, qızım onundur".

Sən Hüsaməddin də bunumu istəyirsən? Əvvəla, sən hələlik öz qəhrəmanlığını nə Aran, nə də Azərbaycanda bir kəsə göstərə bilməmisən. Hələ sən çox gəncsən, nə müharibələr görmüsən, nə də qalalar fəth etmisən. Sən ancaq Məhsəti xanım məsələsində baş verən üsyanlarda silahsız üsyançıların evlərinə girib dəfləri, udları, kamançaları sındırıb pəncərədən küçəyə atmısan. Bunların hamısı öz qiymətində bir xidmətdir. Lakin bu xidmətlər gözəl bir qızın – Qətibənin qiyməti deyil. Atam məni ucuz satmaq istəyirsə, bu günün özündə Bağdada qayıdaram.

Sənin qılıncın sayəsində möhkəmlənən bir hökuməti isə nə qədər düşünürəmsə görə bilirəm. Sən onu bilməlisən ki, böyük bir adama, yaxud böyük bir hökumətə arxalana bilməyən bir qılınc, kimin əlində olursa olsun, bir parça dəmirdir.

Mən yenə də sənə verdiyim köhnə nəsihətimi təkrar edəcəyəm. Sən Dilşadı sevməli və ona evlənməlisən. Mən onun Fəxrəddinlə görüşüb sevişməyinin əleyhinəyəm. O həm gözəldir, həm də oxuyub çalan və qanacaqlı bir qızdır. Sən bu nəsihətimi qəbul etsən, yenə də dostluğumuz davam edə bilər. Biləks, sənin mənimlə tez-tez görüşüb sevgi söhbətlərini təkrar etməyinə icazə verməyəcəyəm.

Hüsaməddin acıqlanaraq öz həsəb-nəsəbi haqqında danışmağa, soyadının ərəb xəlifələrinə böyük xidmətlər göstərdiyini saymağa başladı:

– Məni tanıyırsınızmı? Mən böyük Buğanın[1] nəvəsiyəm.

Qətibə öz etidalını pozmayaraq:

– Bəli, tanıyıram. Sən "Şərabi" ləqəbilə adlanan kişinin nəvəsisən!

---

[1] Buğa – hicri 234-cü illərdə Azərbaycanda xəlifələrə qarşı düzələn üsyanlar zamanı Mütəvəkkil xəlifə tərəfindən Azərbaycanı qanlar içində boğmaq üçün göndərilmişdi. Babək üsyanından sonra, təzə üsyanları idarə edən məşhur Məhəmməd ibn-Bəis Samiriyə şəhərinin məhbəsindən qaçıb Azərbaycana gəlmiş və orada bir hökumət təşkilinə başlamışdı. Xəlifə Mütəvəkkil, Bəisin üsyanını boğmaq üçün Həmduyə ibn-Əlini (ərəb tarixində məşhur olan fəzl Sədının nəvəsidir) böyük bir ordu ilə Azərbaycana göndərdi və Azərbaycan hökumətini ona tapşırdı. Mütəvəkkil Həmduyə ilə bərabər Zirək türki və ibn-Sisl adlarında iki məşhur komandanı da onun yanına qoşdu. Azərbaycanlılar bu ordunu Təbriz ilə Mərənd arasında lazımı qədər döydü. Nəhayət, Mütəvəkkil xəlifə türklərdən Buğanı böyük bir qoşunla Azərbaycana göndərdi. Azərbaycanlılar yenə də ibn-Bəisi ələ vermədilər. Nəhayət, bir xəyanət nəticəsində İbn-Bəis həbsə alındı (*Müəllif*).

– Rica edirəm, mənim babama "Şərabi" adı verməklə onu təhqir etməyəsiniz. Bu ləqəbi mənim babama azərbaycanlılar vermişlər. Çünki Azərbaycan ancaq mənim babamın qılıncı sayəsində Mütəvəkkilbillah xəlifəyə boyun əymiş. On beş xəlifə tərəfindən hörmət və ehtirama nail olan bu ailəyə qarşı nifrət bəsləmək üçün əsaslı bir sübutunuz varsa, mənə açığını söyləməlisiniz.

Qətibə yenə də soyuqqanlı bir surətdə cavab verdi:

– Hüsaməddin, sən ağıllı ol, bir tarix nə qədər yüksək və şərəfli olursa olsun, dəyəri olmayan varislər üçün heç mənziləsindədir. Mən səni dəyərsiz hesab etmirəm. Lakin bu dəyər bir qəlbi ələ alacaq və öz məhəbbətini bir qəlbə aşılayacaq mahiyyətdə deyil. Ağıllı qızlar ərə getdikləri zaman keçmişləri yox, gələcəyi nəzərdə tutmalıdırlar. Mən də o qızlardanam! Mən bir adamda gələcəyin xariqüladəliyini əldə edə biləcək mahiyyəti görməsəm, ona ərə getməyəcəyəm.

Sənə məsləhət görürəm, babalarının şöhrətilə yaşamaq fikrindən əl çək. Çünki tarixdə məşhur olan ailələrin hədd-hesaba gəlməyən varislərini tənbəl və dəyərsiz bir vəziyyətə qoyan ancaq babalarının şöhrəti ilə yaşamaq fikirləri olmuşdur.

Hüsaməddin Qətibədə özünə qarşı oyanan dönüşü Qətibənin İlyasla görüşməsi ilə əlaqədar bilərək:

– Mən o qədər də uşaq deyiləm, – dedi və başını aşağı salıb uzun zaman danışmadı.

Qətibə isə:

– Uşaq olmadığını bildiyim üçün hər bir məsələyə uşaqcasına yanaşmamağını tövsiyə etdim, – dedikdə Hüsaməddin hövsələsi darıxmış bir halda dedi:

– Qətibə, gəlin örtülü danışmayaq. Siz haman şairlə görüşdüyünüz gündən bəri fikrinizi, tövrünüzü, söhbət və hərəkətinizi dəyişdiniz. Siz sanki bir ay bundan əvvəlki Qətibə deyilsiniz. "Mən kişiliyin qəhrəmanlıq nümunələrini ancaq sənin şəxsiyyətində görürəm!" dediyinizi unutdunuzmu? Bir az bundan əvvəl sizin özünüz məni atanızın yanına elçi göndərməyə məcbur edirdiniz. Sizin özünüz izdivac məsələsinin tez bitirilməsinə tələsirdiniz. İndi nə oldu? Mən alçaldım, yaxud bu az müddətdə siz ucaldınız?

Qətibə hovuzun başından qalxıb qərənfil güllərini qoxulaya-qoxulaya dedi:



– Nə sən alçaldın, nə də mən ucaldım. Fikirlər və düşüncələr yüksəlir, səviyyələr dəyişir. İnsanlar hər gün düşündüyünü düşünərsə, həyat tərəqqi etməz, bugünkü insanlar dünənki insanlar deyil, dünən bizə çox uzaqdır, gələcək yüz il olsa belə o bizə çox yaxındır. Həyat, məişət keçmişin üzərində qurula bilməz, o dala getməkdir, ağıllı adamlar həyatı gələcəyin üzərində qurmağa çalışırlar. Mazilərimiz bəşəriyyətin gəncliyi dəfn edilən bir məzardır. Orada oturub məhv olan gəncliyə ağlamaq günah deyil, lakin onunla yaşamaq sadəlikdir. Biz gələcəklə yaşamalı və onu təminedici bir surətdə qurmalıyıq.

İndi mənə cavab ver görüm, sənin əlində mən tələb etdiyim gələcəyi qurmaq üçün nə kimi imkanlar vardır?

Hüsaməddin qəti cavab verə bilmədi, çünki xəlifənin nəvəsini yaşatmaq üçün onun əlində böyük bir sərvət yox idi. Buna baxmayaraq o, Qətibəyə sual verdi:

– Bəs dalınca kölgə kimi süründüyünüz o yoxsul şairin əlində nə kimi imkanlar vardır? Sizin tələb etdiyiniz xəyali bir gələcəyi haman yoxsul nə ilə təmin edə biləcəkdir? Bir sınıq qələmdanı və köhnə heybəsindəki bir dəstə qaralanmış kağızları iləmi?

Qətibə güldü:

– Sən məni başa düşmədin, – dedi. – Sənə əvvəlcə dedim ki, mən fövqəladəlik daşıyan adamları sevirəm. O, yoxsul olsa da, onda böyüklük var. Məni gələcəkdə onun səbəbinə hər kəs tanıya bilər. "Bu, filan məşhur şairin qadınıdır!" – deyə xalq məni barmağı ilə göstərər. Mən onun yaradıcılığında iştirak etdiyim üçün tarixə də düşə bilərəm. Bütün məsələ bu fikrin üzərində qurulmuşdur. Lakin bunu misal olaraq deyirəm. Mənim bu fikrim qəti deyil. Sən məni dünyaya tanıda biləcək bir qəhrəman ola bilsən, mən heç vaxt atamın sözündən çıxmaram.

Hüsaməddin cavab verməyə macal tapmadı, çünki cariyələr bağa çıxıb, Qətibəni səsləyərək:

– Atanız sizi nahar süfrəsinə dəvət edir, – dedilər.

## FƏXRƏDDİN

Müşavirədə İlyas Fəxrəddinlə görüşərkən, birinci növbədə xaqanın göndərdiyi məktubu göstərdi. Şirvan xaqanı Əbülmüzəffər məktubda İlyası Şirvan sarayına dəvət edir və yazırdı:

"Son şeirlərinizi oxudum, məndə böyük, unudulmaz bir təsir buraxdı. Xüsusən bahara yazdığınız şeir doğrudan da məndə həqiqi bir baharın nəşəsini yaratdı. Lakin məni düşündürən qorxulu bir məsələ vardır. O da Aran məmləkətinin düşdüyü ağır vəziyyətdən ibarətdir. Hazırda Aran və hətta Cənubi Azərbaycan belə hadisələr yuvasına dönmüşdür. Aranlılar və ümumiyyətlə azərbaycanlılar 515-ci illərdəki azərbaycanlılar olsaydılar, vəziyyət məni heç də düşündürməzdi. Hazırkı vəziyyətdə böyük şairin həyatına qarşı sui-qəsd edilməyəcəyinə əmin ola bilmərəm. Çünki Azərbaycan xalqının azadlıq duyğuları 515-ci illərdə olan şəkildə deyil. Onlardakı köhnə və ənənəvi azadlıq hissləri sönmüşdür[1].

Buna görə də böyük şairin Şirvan məmləkətinə köçməsini məsləhət görürəm. Siz burada şair, ədib və kübar adamların cəmiyyətində daha azad şeir yarada bilər və öz təbinizi inkişaf etdirərsiniz. Mən sizin kimi nadir və qiymətli bir zatın kölələr hökuməti rəiyyəti olmasına soyuqqanlılıqla baxa bilmərəm[2].

Hazırda Aranın bütün azadlıq sevənləri öz nicatını və məmləkətin azadlığını özlərinin tarixi yurdundan və doğma hökumətləri olan Şirvan şahlığından aramaqdadırlar. Zənn edirəm ki, bu həqiqət böyük şair üçün də aydındır. Birinci növbədə sizin kimi şairlər və nüfuz sahibi olan ziyalılar Azərbaycanın əcnəbi hökumətlər əlinə keçməsi əleyhinə mübarizə aparmalıdırlar. Siz bilirsiniz ki, Xarəzm şahlarının təb-

[1] 515-ci ildə səlcuqlardan Sultan Mahmud Bağdad xəlifəsinin əmrinə görə Azərbaycan hökumətini Marağa hakimi Ağ Süngər Əhmədliyə satmışdı. Lakin bunu azərbaycanlılar öz içərilərinə qəbul etmədilər. Ağ Süngərin gətirdiyi böyük bir ordunu Ərdəbil altında darmadağın etdilər. Nəhayət, Xəlifə Azərbaycan hökumətini türk əmirlərindən Cuyuş bəyə verdi. Cuyuş bəyin ordusu Təbriz altında azərbaycanlıların atlı qoşunları ilə üz-üzə gəldi. Azərbaycanlılar Cuyuş bəyi əsir tutub Təbriz qapısında dara çəkdilər (*Tarixi-Səlcuq*).

[2] 525-ci ildə Mahmud Səlcuqi vəfat etdi. Onun məmləkəti və bu cümlədən Azərbaycan da oğlu Məlik Davuda keçdi. 527-ci ildə Məlik Davud ilə Məlik Məsud arasında baş verən müharibələr nəticəsində, Azərbaycan böyük bir hərc-mərclik dövrü keçirdi. Nəhayət, Azərbaycan Məsudun pəncəsinə keçdi. Bir il sonra yenə də Məlik Davud Azərbaycanı xarabazara döndərdikdən sonra öz əlinə aldı. Yenə də 530-cu ildə türk əmirlərindən Qara Süngər çoxlu qan tökdükdən sonra Azərbaycanı Məlik Davudun əlindən aldı. 535-ci ildə Qara Süngər vəfat etdi. Səlcuqun kölələrindən Əmir Cavlı Toğrul Aran və Azərbaycan məmləkətini əlinə keçirdi. 541-ci ildə Toğrul Sultan Məsuda qarşı açdığı müharibədə fəciətən vəfat etdi, məmləkət Atabəy Eldənizin ixtiyarına keçdi.



liğatçıları sizin məmləkətinizin Xarəzm şahları əlinə düşməsinə çalışırlar. Siz xalqı başa salmalısınız ki, onlar sizə azadlıq deyil, əsirlik və köləlik gətirirlər.

Hökmran – Şirvan, *Əbülmüzəffəri xaqan*".

İlyas məktub barəsində öz fikrini Fəxrəddinə qabaqcadan demədi. O, əvvəlcə onun fikrini bilmək istəyirdi. Fəxrəddin məktubu oxuyub İlyasa qaytardı və ah çəkərək dedi:

– Gəncə hakimi ilə Şirvanşahlar arasında gedən müzakirədən xəbərimiz vardır.

Əbülmüzəffər Gəncə hakimini öz yerində qoymaq şərtilə məmləkəti ilhaq etməyə çalışır. Şübhəsiz ki, buna Gəncə hakimi də razı ola bilər, çünki o, təzə xanədanın özünə qarşı nə kimi vəziyyət alacağını bilmir. Xəlifə isə uzaqdadır. Hər halda Azərbaycan ziyalıları arasında birlik düzəldilmədən bugünkü hərc-mərclikdən çıxmaq və ümumi düşmənə qarşı mübarizə aparmaq mümkün olmayacaq. Birlik də mümkün deyil, birliyi düzəldə biləcək adamlar ayrılığa çalışır, onların hamısı axıb xaqanın nüfuzu altına gedir. Nəhayət, siz də xaqanın məktubunu aldınız.

Fəxrəddin bunu deyərək sualverici nəzərlə İlyasın üzünə baxırdı. O, İlyasın Şirvan sarayına getmək xəyalında olub-olmadığını bilmək istəyirdi. İlyas əlini onun çiyninə qoyub dedi:

– Əvvələ, bilməlisən ki, biz Aran məsələsini təklikdə həll edə bilmərik. Bu məsələ ümumazərbaycan məsələləri ilə birlikdə həll edilməlidir. Mən Aran məsələsini qaldırmağın hələlik tez olduğunu da qeyd etməliyəm. Aran ölkəsinin mövqecə əhəmiyyəti onun özbaşına yaşaya bilməsinə imkan verməz. Sən, Fəxrəddin, Aran istiqlaliyyəti məsələsini qoymaqda yanılırsan. Bu fikir Azərbaycanı parçalamaq deməkdir. Hərgah bu gün sən Aran istiqlaliyyəti əvəzinə Cənubi və Şimali Azərbaycanın birliyi məsələsini qoymaq istəsən, məni də özünlə bərabər görə bilərsən. Qüvvətli qonşular bizi təklikdə çox tez yeyə bilərlər. Dünən sən bir məsələni çox yersiz olaraq meydana atmışdın.

Fəxrəddin tələsik soruşdu:

– Hansı məsələni?

– Aran məmləkətində üsyan qaldırmaq məsələsini... Bu fikir çox gülünc bir fikir olduğu üçün danışmaq istəmədim.

– Üsyan fikri nə üçün də gülünc məsələ olsun?

– Nə üçün və kimə qarşı üsyan qaldırmaq lazımdır? Bu cür fikirlər hərc-mərcliyi daha da artırar, məmləkəti əcnəbilərin əlinə verə bilər. Hazırda bizə üsyan yox, bıləks möhkəm bir təşkilat lazımdır. Ancaq təşkilat vasitəsilə Cənubla Şimalın birliyini düzəltdikdən sonra istiqlal fikrini meydana sürmək mümkündür.

Keçən üsyanlar bizim üçün ibrət dərsi olmalıdır. Bir daha o səhvləri təkrar etdirməməliyik. Azərbaycan xalqı üsyançıdır. Buna söz ola bilməz. Lakin təşkilata bağlı olmayan hər bir üsyan bir məğlubiyyətin başlanğıcıdır. Azərbaycan xalqı, Toğrul bəy hökumət başına keçdiyi zaman bu acı təcrübənin nəticələrini görmüşdür[1].

Bütün Şimali Azərbaycan xəlifəni tanımadığı bir zamanda, xəlifə on üç yaşlı qızını altmış beş yaşlı Toğrul bəyə verməklə, məsələni öz nəfinə həll etdi. O, Cənubi Azərbaycanda səfərbərlik etdi, çünki Şimalın Cənubla olan qardaşlıq rabitələri möhkəm deyildi.

Bu acı təcrübələri Alp Arslan, Sultan Məlikşah, onun oğlu Məhəmmədlə qardaşı Börküyarığın arasında gedən mübarizələr zamanında da gördük. Buna görə də, Fəxrəddin, sənə qəti deyirəm: əvvəlcə birlik, sonra üsyan!

İlyas tarixi hadisələri bir-bir sayandan sonra Fəxrəddin etiraz etməyərək dedi:

– Saydığın vəsiqələrin hamısı öz yerində. Lakin bu gün əlimizdə olan fürsəti əldən buraxmaq siyasi bir xatadır. Heç olmazsa biz Gəncə hakimini buradan çıxarıb qovmalıyıq.

İlyas ona sual verdi:

– Nə vasitə ilə?

Fəxrəddin qəti cavab verməyərək, ancaq iki kəlmə deməklə kifayətləndi:

– Düşünmək lazımdır!

İlyas onu fikri üzərində dayanaraq dedi:

– Əmir İnancı buradan qovmaq üçün silah işlətmək lazımdır. Onun əlində qoşun vardır. Arxasında isə məmləkətin bütün xainləri durur. Bizim arxamızda kim vardır? Heç olmazsa Əmir İnancın qoşunları arasında iş aparılmışdırmı? Onlar bizim məqsədimizi bilirlərmi? Xeyr!

[1] Hicrətin 453-cü ilində səlcuqilərdən Toğrul bəyin hakimiyyəti zamanında Azərbaycanda böyük bir üsyan baş vermişdi. Xəlifəyə qarşı qoyulan bu üsyana Toğrul bəy soyuqqanlı bir surətdə baxırdı, çünki xəlifə Qaim Biəmrullah öz qızı Seyidəni Toğrula vermək istəmirdi. Lakin hicrətin 454-cü ilində nikah əqdi Təbriz xaricində baş tutduğu üçün Toğrul bəy dərhal üsyanı qanlar işində boğdu.



Heç olmazsa Aran xalqı arasında müəyyən fikrin intişarına çalışılmışdırmı? Yenə də xeyr! İndi Fəxrəddin desin görüm nə vasitə ilə Əmiri qovacaqdır?

Fəxrəddin cavab verdi:

– Əmir ilə xəlifənin arasını pozmaq lazımdır.

– Tutaq ki, Əmir ilə xəlifənin arasını pozdun. Bununla sən Aranın istiqlaliyyətinimi qazanacaqsan! Bu Əmir gedib, yerinə o biri Əmir gələcəkdir. Bundan başqa, Əmir ilə xəlifənin arasını pozmaq üçün vasitə lazımdır.

– Vasitə vardır. Ailəsində xəyanət düzəldəcəyəm.

İlyas etiraz edərək:

– Yox, Fəxrəddin, bu mübarizə üsulu deyildir. Mən birinin xoşbəxtliyini o birisinin bədbəxtliyi üzərində qurmaq tərəfdarı deyiləm.

Fəxrəddin İlyasın sözlərinə gülərək:

– Ümumi məsələlər üzərində iş aparıldığı zaman beş-üç nəfərin taleyi haqqında düşünmək gülüncdür. Siyasət qan və qurban tələb edir, – dedi.

İlyas buna cavab olaraq:

– Faydasız yerə qan tökdürmək həm cinayət, həm də axmaqlıqdır, – dedi. – Mən Şimal və Cənubun birliyini təklif edirəm.

Fəxrəddin etiraz edərək dedi:

– Sən, İlyas, xalqın avamlığını, təriqət və mövhumat içərisində çürüdüyünü heç də nəzərə almırsan. Cənubi və Şimali Azərbaycanın hər kəndində yüzlərcə təriqətlər vardır. Ərəblər və iranlılar xalqın siyasi düşüncəsini çürütmək üçün minlərcə təriqətlər, məzhəblər yaratmışlar. Bu qədər müxtəlif əqidə daşıyan və bir-birini kafir bilən belə bir xalqı asanlıqla barışdırmaq mümkündürmü?

– Xəlifələr mövhumatı xalq arasına nə məqsədlə yaymışdırsa, sən də o məqsədlə təriqət və mövhumata qarşı mübarizə aparmalısan.

İlyasın bu sözündən sonra Fəxrəddin bir ah çəkərək:

– Ah, bilirəm nə demək istəyirsən, İlyas, sənin fikrincə Azərbaycan hər əsr başında bir Babəkmi doğacaqdır? Babək bir nəfər idi, gəldi də, getdi də.

İlyas etiraz edərək:

– Səhv edirsən, tarixin xasiyyəti təkrardan ibarətdir. Bu ölkənin xasiyyəti Midiya dövründən bəri qəhrəmanlar yaratmaqdır. Sən məni dinlə, Azərbaycanın gələcək qəhrəmanlığı sənin adına yazılmalıdır.

* * *

Müşavirə yenə də bir qərar çıxarmadan dağıldı. İlyasla Fəxrəddin eşiyə çıxarkən, Fəxrəddin yavaşdan:

– Özüm işə başlayacağam. Mən Əmirin yanına yol tapa bilərəm, – dedikdə, İLyas:

– Sənin fikrini bilirəm, – dedi. – Sən Dilşadın məhəbbətindən sui-istifadə etmək istəyirsən. Mənə de görüm, sən o qızı sevirsənmi?

– Sevirəm, dəlicəsinə sevirəm!

– İndi ki, sevirsən, onu qorxulu işlərə məcbur etmə. Sənə tapşırıram, ehtiyatlı ol, o qızı itirə də bilərsən.

## DİLŞAD

Bu gecə Əmir İnanc həddindən artıq içmişdi. İstinin şiddəti də onun sərxoşluğunu artırmış və hissiz düşüb qalmasına səbəb olmuşdu. Rəqqasələr və saqilər bu vəziyyətdən istifadə edərək çəkilib yataq otaqlarına getmişdilər. Xidmətçi və cariyələrdən də bir çoxu gözə dəymirdi. Gecə saat 2-də cariyələr və qulamlar Əmiri sərxoş bir halda xalçanın üstünə qoyub yataq otağına gətirdiyi zaman Əmirin süfrəsindən qayıdan artıq şərabları da Əmirin saray qarovulları içib bitirmək üzrə idi. Saray həyatı büsbütün dayanmışdı. Otaqlarda yanan şamdanlar söndürülmüşdü. Piy çıraqlarının piltələri yanıb böyrü üstünə düşürdü.

Əmirin qapısında yanan fənərlərin piltəsindən qalxan sünbül biçimli alovlar minlərcə pərvanəni yandırıb səkidə mürgüləməkdə olan qarovulun başına tökürdü.

Uzun dəhlizlərdə heç kəs görünmürdü. Yalnız xacə Müfid əynində ağ gecə paltarı, qəbirdən xortlamış ölü kimi dolaşır və hərəm otaqlarının qapılarını güdürdü. Nəhayət, o da öz otağına çəkildi. Bağçanın və sarayın ətrafında dolaşan pasibanların səslərindən başqa bir səs yox idi.

Tez-tez: "Ahuy! Huşyar! Burdayam! İrəli gəlmə! Vurdum! Əlini qıfıla vurma!" səsləri eşidilirdi. Bu səslər ucaldıqda köpəklər də bu səslərə qoşulurdu.

Hamı yatmışdı, yalnız Dilşadı yuxu aparmırdı. O, Fəxrəddini bir neçə gündən bəri görmədiyi üçün rahatsız idi, çünki Fəxrəddinə göndərdiyi məktublardan da cavab yox idi. O, Fəxrəddinin görüş üçün bağçaya gələcəyinə inanmasa belə, yenə də yatmamışdı; o yenə də hovuzun başına gedib Fəxrəddin ilə danışdıqları yerə baxmağı qərara almışdı. Odur ki, yerindən qalxdı, yatağının içində bir qədər oturdu, sonra da qalxıb pəncərədən bağçaya baxdı, səsləri dinlədi. Bir az düşündükdən sonra qapını açıb dəhlizə baxdı, xacə Müfidi də orada görmədi. Fəxrəddin bu gecə Dilşad üçün hər gecədə olduğundan daha artıq lazım idi. O, Fəxrəddini görüb onunla mühüm bir məsələ haqqında danışmaq istəyirdi.

O, əllərini daraqlayıb pəncərədən bağçaya baxır və düşünürdü:

"Onun sevgisi həmişəlik deyil, niyə də o həmişəlik mənim sevgimə bağlansın? O bir qəhrəmandır, həm də gözəl və yaraşıqlı bir gəncdir. Mən kiməm? Əmirin cariyəsi, bir nəfər Biləqan kəndlisi... O məni nə üçün sevsin? Gözəlliyim üçünmü?"

Dilşad bunu düşünərək güzgünün qarşısına keçdi, qara gözlərinə, dağınıq saçlarına, uca və zərif əndamına baxdı, yenə də öz-özünə dedi: "Mənim kimi gözəllər azdırmı? Tanrının Süsən xanımı da məndən bir neçə qat gözəldir. Fəxrəddinin kübar ailəsi öz qəhrəmanlarının bir cariyəyə evlənməsinə əbədən razı olmayacaqdır. Onun özü də bunu düşünür, lakin gənc bir qızla müvəqqəti əylənməyin nə zərəri var imiş?! Bizim taleyimiz olsaydı, ailəmizdən ayrılıb saraylarda həbsxana həyatı keçirməzdik".

Dilşad libasını geyinməyə başlarkən, yenə də öz-özünə danışırdı: "Bu qiymətli libaslar mənim üçün bir kəfən qədər qorxuludur. Çünki bu zinətlərin bizə nə üçün geydirildiyini bilirik. Bu libaslar sərxoşların kef məclisində saqilik etmək və onların şəhvətlərini coşdurmaq üçün bizə verilmişdir. Əlbəttə, Fəxrəddin məni almaz. O, sərxoşlara saqilik edən bir qızı almaq həqarətini öz qəhrəmanlıq namusuna sığışdıra biləcəkdirmi? Yox, o mənimlə əylənir; mən görürəm: o mənimlə görüşdüyü zaman düşünür, hətta mənim alnımdan öpmək istədiyi zaman tərəddüd göstərir. Mən də özümdə elə bir vəziyyət hiss edirəm. Hətta, ona olan sevgim sanki bu həyatın müvəqqəti olduğunu mənə oxuyur. O, bəzən məni buradan qurtaracağını da mənə söyləyirdi, o, yalançı deyil, lakin sevgilər coşduğu zaman danışılan söhbətlərin və verilən vədələrin o qədər də əhəmiyyəti yoxdur. O məni buradan nə vasitələrlə qurtara bilər? Çox da ki, o qəhrəmandır, bir cariyədən ötrü bir hökumətlə müharibəyə çıxa biləcəkmi?".

Dilşad Fəxrəddinin sevgisi və verdiyi vədələri haqqında bir çox mənfi fikirlərdə, ümid verməyən dərin mühakimələrdə bulundu, lakin bunların heç birisi onun qəlbini bağçaya çıxmaq fikrindən daşındıra bilmədi.

Dilşad, Fəxrəddinin görüşə gəlməyəcəyini yəqin etsə belə, yenə haman görüş yerinə getməyə tələsirdi. Zatən Fəxrəddinin özündə də belə bir adət var idi. O da Dilşadın bağçaya çıxmadığını bildiyi halda yenə də qorxu və təhlükəni nəzərə almayaraq Əmirin bağçasına getməkdən çəkinməzdi. O daima Dilşadla görüşdükləri yerə qədər gəlib orada bir az dayanar, sonra da qayıdıb gedərdi.

Dilşad haman adətin təsiri ilə otağın qapısını ehtiyatla açıb uzun və qaranlıq dəhlizə çıxdı və daş pillələrdən düşüb ehtiyatlı addımlarla bağçaya tərəf irəlilədi.

Son dərəcə qaranlıq bir gecə idi. Lakin bu qaranlıq içindən ulduzların şəfəqləri görünür, onların hər biri uzaqlarda yanan bir şam kimi parlayırdı. Gecənin qara çətiri altında kölgələnən hər bir şey qaranlığın yeknəsəq libasına bürünüb yatmışdı. Dilşad hər tərəfə göz gəzdirirdisə, Şərqin şəvə rəngində olan gecəsindən başqa bir şey görmürdü. Gənc bir qızın dodaqları kimi qızaran qızılgül, ağ ipəkdən incə don geyən nəstərən, saçlarını ağ buludların teştində çimdirən yasəmənlər, hətta budağından qopub hovuzun içinə düşən ağ və qırmızıyanaq almalar da qara rəngə bürünmüşdü.

Hovuzun suları da qara, ağızlarından hovuza su buraxan aslan heykəlləri də qara, böyük fəvvarədən havaya qalxaraq inci şəddələri kimi hovuza tökülən qətrələr də qara idi. Bağçada suların səsindən başqa bir səs yox idi. Ancaq çinarın təpəsində oturub ara-sıra "haq-haq" çağıran haq quşu gecə görüşlərinin səhnəsini təzə-təzə açmağa başlayırdı. Dilşad ağacların arası ilə hovuzun ətrafını gəzirdi, lakin Fəxrəddini görmürdü, çünki hər bir sərv ağacı gecənin qaranlığında görüşə gələn bir gəncin qaməti kimi təcəssüm edirdi. Dilşad Fəxrəddini görməsə belə, Fəxrəddin Dilşadı görürdü. Dilşad gözlərini gecənin qara çöhrəsinə açaraq Fəxrəddini aradığı zaman, Fəxrəddin də göyün sinəsində qopan bir parça ulduzun ağaclar arasında çapaladığını zənn edirdi. Fəxrəddin on dörd gecəlik ayın qaranlığı yarıb bağçanı işıqlandırmaq istədiyini hiss etdiyi zaman, Dilşad hovuza yaxınlaşdı. Artıq fəvvarədən sıçrayan qətrələr şəbnəm kimi onun incə yanaqlarına düşürdü. Gəncə gecəsinə məxsus küləklər yavaş-yavaş şiddətini artırır və Dilşadın açıq saçlarını sünbül xuşələri kimi o çiynindən bu çiyninə töküdü. Dilşad Fəxrəddini aramaq üçün tələsdiyi zaman yarpaqlar da bu fürsətdən istifadə edərək tez-tez onun nazik çöhrəsindən öpür, ağacların şaxələri isə bir rəqib kimi əllərini uzadıb görüş sövdası ilə uçan gecə pərisinin nazik əndamını qıdıqlayırdı.



Birdən Dilşad bir səs eşitdi:

– Buradayam, Dilşad!

Dilşad o səsin qəlbindən qoparaq qulağında əks etdiyini zənn etdi, çünki o səsi neçə aylardan bəri bu hovuzun yanına gəldiyi zaman eşidirdi. Onun qulaqları yalnız gecələri deyil, gündüzləri də bu səsi əzbərləyirdi. Dilşad səs gələn tərəfə bir neçə qədəm də irəlilədi, nəhayət, dodaqlarından bilaixtiyar bu kəlmələr qopdu:

– Ah! Bu da bir yuxudur. İnsanlar gündüzlər fikirləşdiyini gecələr öz yuxusunda görmürmü?

Buna cavab olaraq Dilşad bu səsi eşitdi:

– Gözəl Dilşad, yuxu görmürsən, irəli gəl, buradayam.

Dilşad irəlilədi, Fəxrəddin hovuzdan bir az kənarda sərv ağacına söykənib durmuşdu. Onların özləri də hiss etmədən iki gözün bəbəyi bir-birinə zilləndi. Nəhayət, Dilşad dodaqlarını Fəxrəddinin dodaqlarından çəkərək:

– Bu gecə səni hər gecəkindən artıq görmək istəyirdim, sən mənə lazım idin, – dedi.

– Nə kimi bir hadisə vardır?

– Sən özün düşün, saray həyatı hadisəsiz olurmu? Bu gün eşitdiyim xəbəri bilmiş olsan, həyəcanın daha da artacaqdır.

Fəxrəddin onun dodaqlarından bir daha öpərək:

– Söylə, mənim Dilşadım, söylə! Bəlkə də səni kədərləndirəcək hadisənin qarşısını ala bildim.

Dilşad ağlayaraq:

– Kaş məni də Bağdada gedən qızlara qoşub aparaydılar. Mən elə düşünürdüm ki, vətənimdə qalıram, heç olmasa Biləqan üzərindən keçib gələn doğma ruzigar mənim də üzümə dəyəcəkdir. Nəfəs aldığım zaman vətənimin gözəl havalarını udacağam. İndi isə ruzigarlar zəhərlənib, mənim ciyərlərimə dolur. Vətən və yurdumun havası ilə uçan fikirlərimi bir cəhənnəm təhlükəsi qarşılayır. Məni sevmədiyim və görmək istəmədiyim bir adamın qucağına atmaq istəyirlər. Məni diri ikən torpağa basdırırlar.

Fəxrəddin həyəcanlı bir halda soruşdu:

– Bu nə sözdür, Dilşad, məgər Fəxrəddin ölübdür? Bu sözləri ancaq mən öləndən sonra danışmaq olar. Səni kimə vermək istəyirlər?

– Əmirin katibi mənə eşqini elan edir. Bu hadisə mənim üçün bir ölüm deyilmi?!

– Hansı katib? Adı yoxdurmu?

– Nə üçün yoxdur. O adam Mühakim ibn-Davuddur. Nifrət etdiyim xəsis və çirkin bir ərəbdir.

– İnana bilmirəm!

– İşin həqiqəti budur. Bunu Əmirin qadını Safiyə xanım istəyir. O mənim sarayda qalmağıma əsla razı deyil. O məni öz ərinə qısqanır, hər bir addımda məni təhqir edir. Mühakim ibn-Davud bu gün mənə yanaşaraq: "Sən mənim olacaqsan, mən səni sevirəm, sən sevməsən də eybi yoxdur" – dedi.

Dilşad bu sözləri dedikdən sonra şiddətlə ağladı.

Fəxrəddin sakit durub düşünürdü. Bu vəziyyət Dilşadın həyəcan və kədərinə səbəb oldu. Dilşad Fəxrəddinin bu hadisəyə laqeyd baxdığını və sakit durub düşündüyünü görüb, tutqun bir səslə dedi:

– Mən ona təslim olmayacağam. Gecələrin birində özümü hovuza atıb məhv edəcəyəm.

Fəxrəddin öz fikrini açıq deməyə qorxurdu. O öz qəlbində "mən bu hərəkətimlə Dilşadı məhv edə bilərəm" – deyirdi. Lakin onun bu sükutu qızın qəlbində olan ümidsizliyi bir daha artırır və onu intiharın qoynuna sürükləyirdi. Buna görə də Fəxrəddin öz qəlbindəki sirləri gizlədə bilmədi:

– Bilmirəm, sənə gizli bir sirri tapşırmaq mümkündürmü? Bilmirəm, sən bu sirri öz qəlbində saxlaya bilərsənmi? – dedi.

Dilşad bunun cavabında:

– Mənim sirr saxlamayan bir qız olmadığım üçün əlində əsasın vardırmı? – dedi. – Mən onu bilirəm ki, sənin bütün təşəbbüslərin xalqın səadəti üçündür. Sənə əbəs yerə qəhrəman demirlər. Səni xalqa sevdirən də budur. Sənin mənə verəcəyin sirləri qanımda və ruhumda gizlədib mühafizə edə bilərəm. Söylə, Fəxrəddin, söylə, mən o qədər də ağılsız qız deyiləm.

Fəxrəddin onun saçlarını sığallayaraq:

– Elədir, Dilşad, – dedi. – Sənə vermək istədiyim bu sirr sənin və mənim səadətim üçün olmaqla bərabər, böyük xalqın da səadəti üçün-



dür. O sirr bundan ibarətdir: sən müvəqqəti olaraq Mühakim ibn-Davudun sevgi elanlarına etiraz etməməlisən.

Dilşad acıqlı bir halda soruşdu:

– Bu nə deməkdir?! Özünü qəhrəman hesab edən bir gənc sevdiyi qızın başqasına nazlanmasını təklif edə bilərmi?!

Fəxrəddin tələsik dedi:

– Sən mənə axıra qədər qulaq asmadın. Sən onun qələmdanındakı hökumət möhürünü götürmək üçün imkan əldə edincəyə qədər onu özündən rədd etməməlisən.

– Hökumət möhürü bizim nəyimizə lazımdır? Onunla biz saxta vəsiqələrmi düzəltməliyik?

– Vəsiqələr düzəltmək lazım deyil. Sən o möhürü Mühakimin qələmdanından götürməlisən. Xacə Müfid Əmirin qadını Safiyə xanımın otağına girdiyi zaman möhürü onun ayağının altına buraxmalısan. Ancaq burada təmiz işləmək lazımdır. Möhürün sənin tərəfindən götürülüb yerə salındığını kimsə bilməməlidir. Müfid çox şeytandır, möhürü yerə buraxdığın zaman o səndən şübhələnməməlidir.

Fəxrəddin bu sözləri dedikdən sonra bir daha Dilşada sual verdi:

– Sən bunu öz öhdənə götürə bilərsənmi?

Dilşad fikrə getdi, bu da Fəxrəddinin qəlbində şübhələr oyanmasına səbəb oldu. Buna görə də o, sözünü davam etdirdi:

– Hərgah bu fikri həyata keçirmək sənin üçün çətindirsə, açığını söyləyə bilərsən. Onu bilməlisən ki, mən səni bunun üçün, yəni sənə bu cür vəzifələri tapşırmaq üçün sevmirəm, bunsuz da sən mənim üçün ən istəkli bir qızsan.

Dilşad başını onun sinəsindən qaldırdığı zaman mehriban bir səslə:

– Ürəyinə şübhə dolmasın, mənim ruhum! – dedi. – Mən qorxduğum üçün yox, sevindiyim üçün düşünürdüm. Mən səni anlayıram, dediklərini həyata keçirəcəyəm.

Onlar xoruzlar banlayana qədər hovuz başında oturub danışdılar. Ay Xanəgah kəndinin yüksək təpələri dalından kirşanlanmış alnını göstərdiyi zaman onlar da dodaqlarını bir-birinə uzadaraq vidalaşmaq istədilər, çünki ay çıxarkən hovuz ətrafındakı ördəklər və hətta tovuz quşları da səhər nəğmələrini başlayacaq idilər.

Dilşad otağının qapısını bağlayıb yatağına girdiyi zaman xacə Müfid də yerindən qalxıb, hərəmlərin və cariyələrin yatdığı otaqlara baxa-baxa dəhlizdə gəzirdi.

Əmir İnanc nə qədər qaba və şüursuz olsa da, yenə Şərqdə baş verən siyasi hadisələrin incəliklərini bir-birindən ayıra bilirdi. Beynəlxalq vəziyyət onun şəxsi həyatını da qorxu altına salmışdı. Şərqdə böyük bir hökumət təşkil etmiş səlcuq xanədanının sönməsi Şərqin siyasi vəziyyətini alt-üst etmiş və Şərqin coğrafi vəziyyətində bir çox dəyişikliklər yaratmışdı. Hökumətin səlcuqilərdən Eldəniz övladına keçdiyi zaman böyük bir səltənət qurmaq imkanını əldə edə bilməyən Xarəzmşah Əlaəddin Təkişi səlcuqilər məmləkəti hesabına olaraq məmləkətini genişləndirməyə başlayırdı. Artıq səlcuqilərin nüfuzu təsirində yaşayan xəlifə Xarəzm şahlarının nüfuzu altına keçirdi. Əmir İnanc öz hökmranlığında qalmaq üçün xəlifənin yardımına arxalana bilmirdi. Buna görə də o öz-özünə: "Xəlifənin mənim kimi yüzlərcə kürəkənləri vardır, – deyirdi. – Xəlifənin minlərcə cariyəsindən doğulan qızların hər birisi mənim kimi bir adamın evindədir. Kim bilir! Bəlkə, xəlifə Safiyə adlı bir qızı olduğunu tamamilə unutmuşdur? İndiki zamanda xəlifənin cariyələrdən doğulan qızlar barəsində düşünməyə vaxtı vardırmı? O, qızlarını hakimlərə verirkən hakimlərə kömək etmək məqsədilə yox, onlardan kömək almaq fikrini daşıyırdı. Bir halətdə ki, bir kömək ala bilməyəcəkdir, o zaman nə üçün də mənim qeydimə qalsın".

Əmir İnanc bu cür düşünməyə haqlı idi, çünki Nurəddin vasitəsilə öz qayınatası xəlifə Müstərşidbillaha göndərdiyi məktuba cavab ala bilməmişdi. Əmir İnanc çox düşündükdən sonra öz-özünə cavab verirdi: "Xəlifə nə etsin? Onun ruhani nüfuzu da sönməyə başlamışdır. Ölkələrin hakimləri özlərini padşah elan edir. Misirdə böyük bir səltənət quran fatimilər süqut etməklə yerinə əyyubilər xanədanı keçir, xəlifənin son nüfuzunu qırmaq üçün əyyubilər Fərat və Dəclə sahillərinə qədər enirlər. Eldəniz oğlanları İraq, Fars, Rey və sair ölkələri qarmalamaqdadırlar.

Mənim qorxum da Eldəniz övladındandır. Onlar iş başına öz sadiq nökərlərini qoymağa başlayacaqlar. İnanc xanədanı isə onlar üçün çox da sevimli deyil. Hələ bir neçə ay bundan əvvəl onlar Rey məmləkətini əmim oğlanlarının əlindən aldılar".

Əmir axşamdan bəri ancaq bu cür mövzular üzərində düşünürdü. Bu gecə öz adəti xaricində olaraq rəqqasələri də yanına buraxmamış,



"şərabınız xoşuma gəlmədi" – deyərək saqiləri də yanından qovmuşdu. Bu kimi hallarda o, istəkli qadını Safiyə və sevimli qızı Qətibəni də öz yanına buraxmazdı. O təkcə oturmuşdu. Xidmətçilər qorxularından siçan deşiklərinə soxulmaq istəyirdilər.

Əmirin bu kimi kədərli vəziyyəti bütün saray xalqına təsir etmişdi. Hər gün arı pətəyi kimi qaynaşan saray həyatı tamamilə sönmüşdü. Yüzlərcə cariyələrin qəhqəhələrindən titrəyən mərmər sütunlar indi xaraba qəbirlər üzərində quruyub qalan məzar daşları kimi qəmgin-qəmgin baxırdı. Hər axşam hərəm və cariyə mənzillərindən eşidilən musiqi nəğmələrinin yerində lal və kar bir vəziyyət hökm sürürdü, çünki belə zamanlarda gülənlər və şadlıq edənlər Əmirin qəzəbinə düçar olaraq qaranlıq zirzəmilərə atılır və cəzalanırdı. Əmir məxmər döşəyin üstündən qalxıb evi dolaşdı və pəncərənin tirmə pərdələrini qaldırıb bağçaya baxmağa başladı. Lakin bu mənzərə də onun əzici kədərlərini azalda bilmədi. Gələcək fikri onu bir əjdaha kimi təhdid edir, ümidsizliyə sürükləyirdi.

Xacə Müfid Əmiri rahatsız etməmək üçün qapını oğru pişiklər kimi açıb içəri girdi. Əmir pərdəni salıb pəncərədən ayrıldığı zaman Müfidi görüb sual verdi:

– Nə üçün gəldin? Bir hadisədənmi xəbər verəcəksən?

Müfid boynunu əyərək, dişlərini ağarda-ağarda əyildi və:

– Əmirə ərzim vardır, – dedi.

Əmir hövsələsi darıxmış və hər şeydən iyrənmiş bir halda dedi:

– Gətirdiyin xəbərlərin bir çoxu yalan xəbərlərdir. Görünür ki, əlinə həqiqət keçmədiyi zaman yalanlardan da istifadə edirsən.

Müfid belini düzəldərək Əmirin üzünə narazı bir nəzərlə baxaraq dedi:

– Əmir həzrətlərinə bir kəlmə də olsa yalan deməmişəm. Cariyəniz Lalənin qulunuz Mərcanla sevişdiyini, Tubanın Söhrabla əlaqədə olduğunu, Qonçanın Əbüssəlt ilə qəbahət işdə bulunduğunu sizə ərz elədiyim zaman yenə də buyurdunuz ki, "belə işlər ola bilməz". Lakin iki qız, bir də oğlan dünyaya gələndən sonra işin həqiqət olduğunu təsdiq etdiniz.

Əmir yenə də hövsələsi təng bir halda dedi:

– De görüm, indi nə xəbər gətirmisən?

– Gərək mənə aman və icazə verəsiniz.

– Aman və icazə verdim. Tez danış, uzunçuluq etmə!

Müfid icazədən sonra qoynundan hökumətin möhürünü çıxarıb Əmirə verdi. Əmir təəccüblə möhürə baxaraq dedi:

– Bu möhür haradan sənin əlinə düşdü?!

Müfid qorxa-qorxa cavab verdi:

– Oradan!

– Oranın adı olmazmı? Bu möhürü Mühakim ibn-Davudun qələmdanındanmı götürdün?

– Əlhəmdülillah, Əmirin nəsli nəcib, ailəsi müqəddəs, şərəf və həyaları günəşin çeşməsindən təmiz və işıqdır. Lakin bu möhürün haradan tapıldığını söyləmək qulunuz üçün çox çətindir. Bir daha mənə qəzəbinizdən aman verin!

Əmir hal-təbiisindən çıxdı və titrək bir səslə:

– Sübhanallah! Mənim sarayim sirlər yuvasına döndümü?! Bu şeytan oğlu şeytan yenə nə kimi xəbərlər gətirmişdir? Allah etməsin! Qızım Qətibə barəsində bir şey öyrənmişmi?! Hərəmlərim haqqında böyük bir xəyanətin izini açmışmı?!

Əmir bunları öz-özünə söyləyəndən sonra bir daha Müfidə müraciət etdi:

– Nə üçün təxir edirsən? Mənim həyəcanlarımı artırmaq, ürəyimi partlatmaqmı istəyirsən?

Müfid təzim edərək:

– Əstəğfürullah, Əmir həzrətləri!

Əmir Müfidin yaxasından tutub silkələdi:

– Danış! De görüm, bu möhürü haradan tapdın? Alçaq, mənimlə oynamaqmı istəyirsən?

– Bu möhürü Əmir həzrətlərinin möhtərəm xanımı Safiyə xanımın otağından tapmışam.

Əmir bu sözlərdən sonra möhürə bir daha baxdı və cibinə qoyandan sonra bir sual da verdi:

– Sarayda daha nə xəbər vardır?

– Bir də ki, Fəxrəddin məsələsidir.

– Fəxrəddinin nə məsələsidir?

– Xəlifə həzrətlərinə hədiyyə göndərmək istədiyiniz qızlardan birisini sevir.

– Onun sevməsi çox da mühüm bir xəbər deyil, qızın sevib-sevməməsini bilmək lazımdır. Qız da onu sevirmi?



– Bəli, Dilşad da onu sevir.

Əmir təəccüblə:

– Dilşad?!

– Bəli, Dilşad! Mən onun Fəxrəddini sevdiyini duymuşdum, buna görə də qıza çoxdan bəri göz qoyurdum. Bir neçə gün bundan əvvəl, Əmir həzrətləri gecə vaxtından qabaq istirahətə məşğul olmuşdu. Saray xalqı da yatmışdı. Mən Dilşadın yatmadığını hiss etdim. Buna görə də yataq paltarımı geyib dəhlizə çıxdım, onun qapının arasından məni pusduğunu təyin etdim və özümə aldırmadan yataq otağıma girib, qapını kilidlədim. O, şübhəsiz ki, kilidin səsindən mənim yatdığımı zənn etdi. Lakin mən bağlı qapını yox, açıq qapını kilidləməklə qapını bir az açıq qoymuşdum. Bir azdan sonra Dilşad yerindən qalxıb dəhlizə çıxdı və böyük bir ehtiyatla bağçaya düşüb, Fəxrəddini aramağa başladı. Hovuzun yanında onların görüşdüklərini gördüm.

– Sən onun Fəxrəddin olduğunu haradan bildin?

– Fəxrəddini səsindən tanıdım. O, "buradayam, Dilşad!" – deyə qızı səsləyirdi.

– Nə danışdıqlarını bilmədinmi?

Müfid sakit oldu, onun bu sükutu yenə də Əmirin həyəcanını artırdı, acığından Müfidi vurmaq istərkən, Müfid sözə başlayaraq ağlaya-ağlaya danışdı:

– Şeytan qızı şeytanı dörd saatdan bəri güdürdüm, özüm də sərxoş idim. Hovuzun kənarında oturub onların danışıqlarına diqqət vermək istəyirdim. Lakin ayılıb gördüm ki, səhərdir. Ördəklərin qanadlarından üzümə sıçrayan qətrələrdən diksinib ayıldım. Orada heç bir kəsi görmədim.

Əmir bunu eşitdikdə:

– Çıx get, nankor! Bir işi axıra qədər öyrənməyi də bacarmırsan! – deyərək ona acıqlandı.

Müfid gedəndən sonra Əmir bir daha hökumət möhürünü cibindən çıxarıb baxdı və öz-özünə danışmağa başladı: "Xəyanət o qədər genişləndi ki, mənim yataq otağıma qədər gəlib çıxdı. Dünyada başlanan qarışıqlıq mənim evimə də təsir etdi.

Qocalmışam, qadınımsa gəncdir. Bütün vaxtımı hökumət işlərinə sərf etdiyim üçün, öz ailəmə diqqət verə bilmədim, iş o yerə yetişdi ki, katibim də mənim ailəmə xəyanət etməyə cəsarət etdi. Böyük bir ölkənin işlərini öyrənməyi bacardım, lakin öz evimin içərisini öyrənə

bilmədim. Ancaq, mənim qadınım insafsızlıq etdi, o məni öz katibimə satmamalı idi. Xain qadın öz oynaşı Mühakimi saraya gətirmək üçün Dilşadı ona verməyə çalışırdı. O daha bunu görə bilməz. Ərə gedirsə, qoy mənim evimdən çıxıb getsin. Mən öz qadınımı öz evimdə ərə vermək namussuzluğunu qəbul edə bilmərəm".

Əmir evi bir neçə kərə dolaşdı, fikir və düşüncə onu dəli olmaq dərəcəsinə gətirmişdi. O, yenə də öz-özünə danışırdı: "Qadınımdır. Xain çıxdı. Ona talaq vermək və evdən çıxarmaq lazımdır. Lakin buna imkan tapa bilməyəcəyəm. O, xəlifənin qızıdır. Mənim taleyim xəlifənin iradəsindən asılıdır.

Əmirin qadını, xəlifənin qızı öz sarayında fahişəlik etməyə başlamışdır. Xalqın bu söhbətlərini eşitməkdənsə, namussuzluğu qəbul etmək daha yaxşıdır. Lakin o katibi, öz ağasına xain çıxan haramzadəni məhv etdirəcəyəm. O, ərəb qızı idi, mənsə bir türkəm, nəhayət, o yenə bir ərəbə satıla bilər".

Qapının pərdəsi qalxdı, qoca bağban Salim baş endirib dururdu. Əmir ona fikirli bir surətdə baxıb öz-özünə dedi: "Bu da bir xəyanətin xəbərini gətirmişdir".

Sonra bağbana müraciətlə:

– Danış görüm, Salim, danış! – dedi.

Salim bir daha təzim edib danışmağa başladı:

– Bir neçə gün bundan əqdəm sizin qoca nökəriniz yaramaz bir vəzifəni ifa etməyə məcbur oldu. Ailənizin namusuna və təmizliyinə heç bir söz ola bilməz. Lakin qızınız Qətibə xanımın bağlı bir məktubunu Gəncə şairlərindən İLyas adlı bir nəfərə aparmışam.

Əmir bağbana bir sillə vurandan sonra:

– Haramzadə, məktubu aparandan sonra mənə xəbər gətirirsən?! Cavabını da alıb gətirdinmi?

Salim titrəyə-titrəyə cavab verdi:

– Xeyr, sənə qurban olum, cavabını vermədi!

– Cavabı verərsə, düz-doğru mənim yanıma gətirərsən. Xain, ikiüzlü haramzadələr! Rədd ol burdan!

Salim getdi. Əmir evin ortasında durub başını əlləri arasına alaraq yenə də öz-özünə dedi: "Anası çıxan ağacların balası budaq-budaq gəzə bilər. Hər tərəfdə xəyanət! Düşmən mənim sarayımın içərisində işləyir. Bir gün məni öz yatağımda məhv edərlərsə, kimin xəbəri ola bilər?!".



Bir azdan sonra qapıçılar, aşpazlar, paltarçılar, keşikçilər və dərbanlar bir-bir Əmirin hüzuruna gəldi və bilib öyrəndiklərini xəbər verib getdi.

Əmir qəzəbini sakit edə bilmədi, cibindən möhürü çıxarıb baxdı və düşünməyə başladı. Mühakimin xəyanətləri onun gözlərində canlanmağa başladı, o öz sevgili qadınını Mühakimin qucağında görürkən:

"Mühakim! Mühakim!" – deyə qışqırdı.

Mərcan tələsik daxil oldu. Əmir Mərcanı görərkən:

– Tez get, Mühakim ibn-Davudu mənim hüzuruma çağır! – dedi.

Mərcan getdi. Əmir yenə də qadınının xəyanətlərini bir-bir xatırladı, – həyasız qadın! – dedi, – o mənə ərə gəldiyi zaman belə, məni sevmirdi. Xəlifə onu bu izdivaca məcbur etdi. O mənim qollarımın arasında yatdığı zaman belə yuxusunda başqalarının adını çəkirdi, özüm də hiss edirdim ki, o, məni öpdüyü zaman gözlərini yumaraq, başqasını xatırlayırdı. Mən ona yaxın getdiyim zaman o özünü başqasının qucağında hiss edərək nazlanırdı. Bu da nəticəsi... Vaxtilə bunu mənə ərə verəndə yalvarıb verdilər, çünki o zaman xəlifənin mövqeyi bir tükdən asılı idi. İndi isə mənim mövqeyim bir tükdən asılıdır. Haman tükün ucu bu xain qadının atasının əlindədir.

Əmir bu sözləri dedikdən sonra qismən sakit olmuşdu. O, qadınını haqlı çıxarmağa və öz vicdanını qane etməyə tələsirdi: "Məncə, xəyanətin əsas cəhəti katibdədir. O, qadındır. Qadın tayfasının avamlığını kim bilmir? Kişi ki var, qadının şeytanıdır. Onlar əfv ediləcək insanlardır. Lakin mənim süfrəmin başında oturan və mənim çörəyimi yeyən bir zat mənə qarşı bu xəyanəti rəva görməməli idi".

Bu anda qapı açıldı. Mərcan qulamla bərabər Mühakim ibn-Davud daxil oldu.

Əmir ona heç bir şey sezdirmədən:

– Mühakim, otur, – dedi, – lazımlı şeylər vardır, onları yazmalısan.

Mühakim ibn-Davud qələmdanı çıxarıb yazı taxtasının üstünə qoydu, qurşağından timarı[1] çıxartdı, kağızı kəsib götürdü, sonra da gözlərini Əmirin ağzına dikdi.

Əmir bir daha:

– Yaz, – dedi, – "Saray naziri Toxtamış cənablarına əmr edirəm: bir həftəyə qədər xəlifə sarayına göndəriləcək cariyələrin hazırlığını

[1] T i m a r, yaxud t u m a r – lülələnmiş kağızdır. Mirzələr onu qurşaqlarına taxırlar.

görüb yola salasan. Cariyələrdən Dilşad, Süsən, Zümrüd, Şahin, Solmaz, Şamama və Bahar da göndərilməlidir.

Verdiyim əmr qətidir".

Katib əmrnaməni yazıb qurtardıqdan sonra, Əmir alıb imza etdi və katibə qaytarıb dedi:

– Al, sən də möhrünü basıb imza et.

Katib qorxusundan özünü şaşırdı və əlini ciblərinə atıb möhürü axtarmağa başladı, qələmdanının içini bir neçə kərə gəzdi. Nəhayət, yalvarıcı bir halda Əmirə müraciət etdi:

– Möhürü evdə qoymuşam, icazə verin gedib gətirim.

Əmir:

– Doğrudur, möhürü evdə qoyubsan, lakin öz evində yox, başqasının evində... – dedi.

İbn-Davud təəccüblə soruşdu:

– Necə yəni başqasının evində?

– Bəli, başqasının, öz vəliyülnemətinin, səni bu mərtəbəyə çatdıran Əmir İnancın evində, alçaq, nankor katib! Mənim namusumu nəzərə almadın, heç olmasa namuslu bir ərəb kimi xəlifənin namusuna hörmət qoyaydın!.. Al, budur sənin möhürün! Mənim qadınımın otağında, mənim namusumu namussuz bir ərəbə satan axmaq qadının otağında salıb itirmisən. Nankor insan! Mən beş nəfər ərəbin böyük bir məmləkətdə ağalıq etməsinə çalışırdım. Bu da mənim əməyimin nəticəsi! Bu da mənim ərəblərdən aldığım mükafat!..

Mühakim ibn-Davud titrək bir səslə:

– Ya Əmir, icazə verin. Bu nə söhbətdir?! Mən?!

– Bəli, sən!

– Mən heç vaxt vəliyülnemətimin ailəsinə qarşı belə alçaqlığı etməmişəm. Bu mənə qarşı açıq bir böhtandır. Bu hadisəni yoxlamaq lazımdır.

– Kəs səsini! Al möhürü, kağızı möhürlə!

Mühakim ibn-Davud möhürü alıb əlləri titrəyə-titrəyə kağızı möhürlədi. Əmir yenə də ona qışqıraraq:

– Qaytar mənə o möhürü! Sən o möhürü daşımağa layiq deyilsən! – deyə Mərcanı səslədi:

– Mərcan! Mərcan!

Mərcan içəri girdi:

– Hazıram, Əmir!



– Get, bu saatda qulamlardan Heydəri, Poladı, Səfini bura çağır, söylə ki, qamçıları və çubuqları götürüb bura gəlsinlər.

Mərcan getdi, Mühakim isə özünü bu haqsız cəzadan qurtarmaq üçün ağlaya-ağlaya Əmirə yalvarırdı:

– Mənim bu xəyanətdən əsla xəbərim yoxdur, bu böhtanı kim isə mənim üzərimə atmışdır. Siz bu cəzanı həmişə mənə verə bilərsiniz. Yaxşı olar ki, bu işi yoxlatdırasınız.

Əmir bu yalvarışları eşitmirdi. Onun sözlərinə nə hə, nə də yox cavabını verirdi. Çünki qadınının otağından tapılan möhür onun üçün əsaslı bir sübut hesab olunurdu.

Qulamlar çubuq və qamçılarla içəri girdilər. Dərhal meşin xalçanı yerə sərib Mühakimi onun üstünə yıxdılar. Onu soyundurmağa başladılar. Mühakimin əynində tuman və köynəkdən başqa heç bir şey qalmamışdı. Onun başının və ayaqlarının üstündə oturdular. Əmir bir kərə əmr verdi:

– İki yüz əlli çubuq!

Mühakimin yalvarış və qışqırtı səsləri bütün sarayı bürümüşdü. Çubuqların yarısı vurulandan sonra onun qışqırtısı kəsildi, artıq o bayılmışdı, çubuqları ruhsuz bədənə vururdular.

Əmirin qadını adəti üzrə müqəssirin döyüldüyünü eşidərkən onu buraxdırmaq üçün qəfildən içəri girdi, tələsik irəli gəlib soruşdu:

– Bu kimdir? Təqsiri nədir?

Əmir İnanc qadınına tərs-tərs baxaraq dedi:

– Bu həyasız adam, öz vəliyülnemətinin namusuna təcavüz etmiş, bu adam öz ağasının qadınına xəyanət əlini uzatmışdır.

Safiyə xanım bu sözləri eşitdikdən sonra bir daha irəli gəlib qulamlara qışqırdı:

– Əl saxlayın, fəqirin öldüyünü hiss etmirsinizmi?!

Qulamlar dayandılar, lakin Mühakim hərəkət etmirdi. Safiyə xanım isə ona diqqətlə baxıb tanıdı və əllərini dizlərinə çalıb:

– Ax, bu zavallı Mühakimdir ki, – dedikdə, Əmir də:

– Bəli, Mühakimdir, sənin istəkli Mühakimindir. Onu bu cəzaya giriftar edən sənin alçaq və avamsızcasına məhəbbətindir. Tərbiyəsiz və axmaq qadın! Namuslu və kübar bir adama satılsaydın, yenə də dərd yarı idi. Kimə? Alçaq bir ərəbə satıldın! Sən mənim namusumu ancaq ərəbə sata bilərdin, çünki səndə ərəb qanı vardır.

Safiyə xanım bu sözlərdən heyrət etdi. Hətta bunların özünə aid olmadığını zənn edərək soruşdu:

– Mən səni heç də anlaya bilmirəm. Sən bununla nə demək istəyirsən? Satılan kimdir? Ərəb qanının burada nə kimi nöqsanı ola bilər? Açığını de görüm, bu sözləri deməkdən məqsədin nədir?

Əmir istehzalı bir surətdə möhürü göstərib dedi:

– Mənim məqsədimi ancaq bu möhürdən soruşa bilərsən. Bu möhür mənə hər şeydən sadiqdir. Mən ancaq bunun vasitəsilə uzun illər davam edən xəyanətlərin izini açmışam. Sən Safiyə, Aran məmləkətinin hökmdarını süfrəmin tör-töküntüsü ilə böyümüş bu alçağa satdın. Rədd ol mənim gözümdən!

Safiyə xanım heç bir söz demədi, qolunu gözlərinə tutub ağladı və Əmirin otağını tərk etdi. Katibin də huşdan getmiş bədənini meşin xalçanın üstündən götürüb dışarı çıxartdılar.

Əmir evi dolaşır, qadınına qarşı aldığı vəziyyətin və qulamların yanında onu təhqir etməyin yersiz olduğunu düşünürdü. Lakin iş işdən keçmişdi.

Əmir nə edəcəyini bilmirdi.

O, öz-özünə danışırdı: "Günün vəziyyətilə hesablaşmadım. Qadınım xaindir, ona söz ola bilməz. Lakin işi tədbirlə görmək lazım idi. Əcəba, bir az gözləyə bilməzdimmi?! Onların hər ikisini heç kəs hiss etmədən məhv edə bilməzdinmi?!

Bu əsnada Əmirin qoca vəziri və eyni zamanda saray naziri Toxtamış içəri girdi və Əmirə müraciət edib soruşdu:

– Əmir, bu nə hadisədir?

Əmir hadisəni əvvəldən axıra qədər Toxtamışa danışdı, Toxtamış isə göz qapaqlarını örtüb bir az düşündü, sonra başını qaldırıb dedi:

– Məsələ siz danışdığınız kimi deyil. Bu işdə xaricdən uzanmış bir əl işləməkdədir. Hadisəni çox gözəl düzəltmişlər. Siz gərək iqdamata başlamaqdan əvvəl mənimlə danışaydınız. Böyük səhv etmişsiniz. Xanım yol hazırlığı görməyə əmr vermişdir. Bu saat Bağdada yola düşməyə hazırlanır. Gərək siz vəziyyətlə hesablaşaydınız. Tutaq ki, belə bir xəyanət baş vermişdir. Əcəba, hökmdarların və şahların saraylarının hansı birisində bu kimi hadisələr yoxdur. Siz sakit işləyən dərmanları buraxıb, qamçıdan və çubuqdan nə üçün yapışırsınız? Bir kasa bal şərbətilə bu rüsvayçılığı örtə bilməzdinizmi?

Əmirin boğazı tutuldu, ancaq bir kərə bu sözləri deyə bildi:



– Toxtamış, əlac sənə qalmışdır. Bu xəbər Bağdada yetişərsə, mənim hökmranlığım məhv olub gedə bilər. Safiyəni başdan çıxar, qoy o məni bağışlasın, qoy mənim ailəmin pozulmasına səbəb olmasın.

Toxtamış fikirli bir surətdə onun üzünə baxaraq:

– Mən bacardıqca çalışacağam, lakin sən də bu sözləri onun öz yanında deyib üzr istəməlisən. Daima düşünmək, sonra da hərəkət etmək lazımdır. Mən bunu Əmir həzrətlərinə bir kərə deyil, bir neçə kərə demişəm.

Əmir onun əlindən tutub:

– Kömək et! – dedi. – Hadisələr, fitnələr mənim ətrafımı alıb. Qızım da yoxsul bir şairlə əlaqə düzəldibdir. O heç utanmadan mənim namusumu ayaqlar altına atır, yoxsul şairə məktub göndərir.

Vəzir soruşdu:

– Hansı şairə?

– Nizami təxəllüsü altında şeir yazan İlyasa. İndi çağırıb onu da döydürəcəyəm.

Vəzir yenə də nəsihətverici bir tövr ilə dedi:

– Onu döydürmək məsləhət deyil. Onu da mənə tapşırın, mənim özüm bu işi yoxlaram, hərgah belə bir məsələ vardırsa, mən kiçik xanıma nəsihət edərəm. İlyası döydürmək isə qorxulu bir məsələdir. Gəncədə onun böyük nüfuzu vardır. Dayılarını da çox gözəl tanıyırsınız.

## TOXTAMIŞ

"Müharibələr Bağdadın qulağının dibində gedir. Soltan Mahmud ilə Soltan Məsud arasında gedən bu müharibə Bağdad xəlifəsi Müstərşidbillahın taleyini həll etmək üçün mühüm bir hadisədir. Çünki bunların hər ikisi xəlifənin hüququnu azaltmaq və öz əllərində olan məmləkəti genişləndirmək üçün çalışır. Bunun üçün də fürsətdən istifadə edən əcnəbilər Azərbaycan məmləkətini fitnə və macəralar yuvasına döndərmişlər".

Bu sözləri Əmir İnancın qoca vəziri Toxtamış deyirdi. Əmir vəzirin fikirlərini qismən rədd və qismən də qəbul edirdi. Əmir Aran məmləkətini idarə etmək barəsində danışaraq deyirdi:

– Aran məmləkətini saxlamaq üçün Şirvan xaqanı Əbülmüzəffəri aldatmaq və Aranın Şirvana ilhaqını rəsmən olmasa da, hər il müəy-

yən vergi vermək şərtilə qəbul etmək lazımdır. Xəlifəni itirməmək üçün isə Bağdada verdiyimiz illik vergiləri göndərməliyik.

Toxtamış buna etiraz edirdi.

– Bu doğru bir fikir deyildir. Əmirin dediklərini həyata keçirmək lazım gəlirsə, Şimali Azərbaycanı Aran məmləkəti də daxil olmaq şərtilə qarət etmək lazımdır. Həm Şirvan şahlarını, həm də Bağdad xəlifəsini təmin etməyə müharibə və zəlzələdən təzə çıxmış məmləkətin imkanı yoxdur. Bu fikir Şimali Azərbaycanda təzə bir üsyan yaradılmasına səbəb ola bilər. Bunlardan başqa, həmin fikrin həyata keçirilməsi, Əmirin hökumətini gələcəkdə təhlükə qarşısında qoya bilər. Siz Eldəniz oğlanlarını çox da bacarıqsız hesab etməyin. Atabəy Məhəmmədin tədbirliyi və pəhləvanlığı bir tərəfdə dursun, Qızıl Arslan Şərqin ən məşhur siyasətçilərindən birisidir. Onlar hələ də Azərbaycan atabəyləri ölkəsinə düşmən olan fars məmləkətlərində vuruşurlar. Onlar hələlik Kirmanda Bəhram şahla vuruşurlar. Şübhəsiz ki, onlar qalib gələcəklər.

Mən bu gün Əmir Qaraquşdan müfəssəl bir məktub almışam. Bu məktub Bəhram şahın ya məğlub və yaxud da mütarikəyə razı olacağına bir sübutdur. Eldəniz oğlanları fars və İraqda qalıb çıxandan sonra, bir daha üzlərini Azərbaycana çevirəcəklər, o zaman onlar Əmir həzrətlərini məmləkəti Şirvanşahlara satmaq xəyanətilə töhmətləndirə bilərlər.

Əmir yenə də bu fikrə etiraz etdi:

– Qocasan, görünür, düşüncələrin də qocalır. Atabəy Məhəmmədin fars ölkələrindən qalib qayıtmasına o qədər də ümid yoxdur. Çünki Bəhram şahın ordusu Xorasanda dincini almaqda və hər cəhətcə özünü düzəltməkdədir.

Toxtamış Əmirə etirazla dedi:

– Doğrudur, mən qocalmışam, lakin fikrim qocalmamışdır. Fikrim bişmiş və kamala yetişmişdir. Mən Şərqin hazırkı vəziyyətini təqib edirəm. Mənim qardaşım Qaraquş Soltan Səncər zamanının ən görkəmli və tədbirli əmirlərindən idi. Hazırda o, Bəhram şahın hərbi müşavirlərindən birisidir. Mən onun fikrinə inanıram. Aranın və ümumiyyətlə, Şimali Azərbaycanın vəziyyəti barəsində onun fikrini bilmək istəmişdim. Məktubumda Şirvan məmləkətinə qoşulmaq, yaxud məmləkəti atabəylər üçün mühafizə etmək barəsində onun məsləhətini soruşmuşdum. Onun cavabını bu gün almışam, indi onu sizə oxumaq istəyirəm. Çünki Qaraquş vəziyyətlə dərindən tanışdır.

Qoca Toxtamış bunları deyərək məktubu oxumağa başladı:



*"Böyük qardaşım Toxtamış!*

Məktubunun cavabını çox sürətlə yazdım. Bəhram şah Bərdəsirin mühasirə xəttini yarmağa və Atabəy Məhəmmədə qalib gəlməyə müvəffəq olmayacaqdır, çünki Məlik Müəyyəd artıq Xorasandan qoşun və zəxirə göndərməkdən boyun qaçırmaqdadır. Artıq onlar İraq ilə düşmənçiliyin davam etdirilməsindən bir mənfəət gözləmirlər. Buna görə də məktub göndərib Bəhram şahın sülh əqidəsi üçün zəminə hazırlanmasını məsləhət görürlər.

Bəhram şah bu ağır vəziyyətdən qurtarmaq üçün hər gün Kirman əyanlarından bir neçəsini həbsə alaraq, Atabəylə əlaqədə töhmətləndirib məhv edir. Altı aydan bəridir ki, Bərdəsirin mühasirəsi davam edir, əsgərlər aclıqdan tələf olmaqdadırlar. Orduda şiddətli pozğunluq başlamış, hər gün qaçqınların sayı artır. Əsgərlərin başçıları belə qala divarlarından atılıb qaçmaqdan başqa bir iş görmürlər. Mən dünən bu barədə də Bəhram şaha nəsihət verib dedim ki: "İraq ordusuna dünyanın yolları açıqdır. Biz bir qiyə buğdanı min hiylə ilə ələ keçirdiyimiz halda onların payız və qış ərzaqları anbarda hazırdır. Onlar bu hazırlıqla altı aydan bəri davam etdirdikləri mühasirəni yarımçıq buraxmayacaqlar. İraqdan azuqə və heyvan gətirib ordunu təmin etmək lazım gəlsə belə, onlar bunu edəcəklər. Hələ Eldəniz övladının tülkünü araba ilə tuta biləcək qədər səbr və mətanətə malik olduqları da məlumdur. Kirman məmləkətinin iki hökmdarı bəsləyəcək qədər vüsəti vardır. Əlində qüdrət olduğu zaman sən qalib gəlmişdin. Madam ki, bu gün məğlubsan, boş yerə qan tökməyin nə mənası vardır?".

Bəhram şah bu nəsihətləri qəbul etdi, sülh və mütarikə hazırlıqları gedir. Buna görə də Azərbaycan məsələsini əvvəlki halında saxlamaq lazımdır. Çünki onlar yaxın bir zamanda üzlərini Azərbaycana çevirəcəklər.

*Qaraquş, Kirman"*.

Toxtamış məktubu oxuyub qurtardıqdan sonra Əmir İnanca müraciətlə:

– Vəziyyət bu halda ikən biz başqa bir çarə düşünməliyik, – dedikdə Əmir:

– Köçüb getməkdən başqa çarəmiz yoxdur, – dedi.

Toxtamış isə cavabında:

– Qaçmaq çarəsizlik deməkdir, – dedi. – Birinci növbədə xəlifədən kömək gözləmək fikrini xalq arasında yaymaq lazım deyil. Xalq

xəlifə adını eşitmək belə istəmir. Belə bir şayiəni yaymağın özü də gülüncdür. Çünki xəlifənin bir şəhərin hakimi qədər nüfuza malik olmadığını hər kəs bilir. Siz özünüz ərəb deyilsiniz, buna görə də hazırda ərəblərə yox, yerli xalqın azadlıq arzularına istinad edə bilərsiniz. Ziyalıları, iş bilənləri ələ almaq lazımdır. Bu gündən etibarən ərəb nüfuzu məsələsini yox, Şimali Azərbaycan istiqlalı məsələsini aralığa atmalısınız. Bu barədə biz Şirvan şahı Əbülmüzəffərin təcrübəsindən istifadə etməliyik. Onlar Azərbaycan istiqlaliyyəti şüarları altında Aran ölkəsini Şirvana ilhaq etməyə çalışırlar. Əbül-Üla və başqa şairlər əbəs yerə Şirvan saraylarına dəvət edilməmişlərdi. Onlar bu fikri həyata keçirmək üçün minlərcə dinar sərf edirlər. Həqayiq təxəllüslü şairə xaqan əbəs yerə öz ləqəbini ətə buyurub, Xaqani adlandırmamışdır. Əmir onu bilməlidir ki, Şirvan xaqanı hər bir şairi öz tərəfinə çəkdiyi zaman, onun oxucularını da öz tərəfinə cəlb edir. Amma biz...

Toxtamış sözünü yarımçıq qoyduğu üçün Əmir ona sual verdi:

– Necə yəni, amma biz?!

– Biz isə bu cür nazik nöqtələri nəzərə almırıq. Hətta biz bunun əksinə hərəkət edirik. Biz şairləri və iş bilən adamları özümüzdən uzaqlaşdırırıq. Məhsəti xanımı rüsvay etdik, sürgünə göndərdik. Bununla bütün Azərbaycan xalqının nifrətini qazandıq.

Bundan başqa Əmirin özü də gənc şair Nizamini təqib edir. Nə üçün? Çünki qızınız ona məktub göndərmişdir. O ki məktubun cavabını göndərməmiş, o ki sizin ailəni təhqir etməmişdir. Götürün tarixi oxuyun. Siyasətçilər bu cür qurbanları azmı vermişdir? Siz yaxşı düşünün. Bir zaman səlcuqilərdən Toğrulbəy lazım olduğu zaman, qardaşı Davudun qızı Arslan xatunu Qaim Biəmrullah xəlifəyə verdi. Yenə lazım gəldiyi vaxt özü altmış beş yaşında ikən xəlifə Qaim Biəmrullahın on üç yaşlı qızı Seyidəyə evləndi.

Əmir həzrətləri, siyasətlər əksəriyyətlə qız verib, qız almaq və qohum olmaq əsasında qurulubdur. Siz götürün səlcuqilərin tarixini oxuyun, Alp Arslanın vəziri Nizamülmülkün yazdığı "Siyasətnamə"yə baxıb siyasət öyrənin. Alp Arslan Abxaz və Azərbaycanı əldə saxlamaq üçün Abxaz hökmdarı Baqration Georginin qızı ilə evləndi, məmləkətin qərb hüdudlarını möhkəm etmək məqsədilə Rum imperatorunun qızını aldı. Xarəzm və Orta Asiyanı əlində saxlamaq məqsədilə Səmərqənd xaqanının qızı ilə izdivac etdi. Alp Arslan, eyni zamanda, Bağdad xəlifəsini əlində saxlamaq məqsədi ilə öz doğma



qızını hazırda Bağdad məscidlərinin qapısında durub dilənçilik edən və "Kor olmuş xəlifənizə ehsan edin!" – deməkdə olan bir xəlifəyə verməmişdimi?!

Toxtamışın bu sözündən sonra Əmir İnanc ona tərs-tərs baxaraq acıqlandı və sual verdi:

– Sənin fikrincə, mən də öz qızımı Toğrul bəylər və Alp Arslanlar kimi hər yetənin qucağına atmalıyam?

Toxtamış Əmir İnancın acıqlanmasını nəzərə almayaraq sözünə davam etdi:

– Əcəba, xəlifə Müstərşidbillah öz qızı Safiyə xatunu sizə verməklə Aran və Şimali Azərbaycanın mühüm bir hissəsini nüfuzu altına keçirmədimi? Sizin namus adlandırdığınız şey – çürük bir kəlmədir. O sözlər siyasətdə işlənən kəlmələrdən deyildir. Bir qızın buna yox, başqasına verilməsi, yaxud bir zənginin əlindən alınıb yoxsula verilməsi işində heç bir namussuzluq yoxdur. Heç bir ata öz qızı ilə evlənmir, qız gec-tez birisinin qucağına düşməlidir. İstər sən özün ver, istərsə özü getsin, bunda heç bir fərq yoxdur. Bir ölkənin müqəddəratı bir nəfərin, beş nəfərin namussuzluğu ilə də hesablaşmaz. Əmir bilməlidir ki, bu cür namuslu olmaqda namussuzluğun da iştirakı vardır. Məğlubiyyətin və bir ölkəni uduzmağın həqarəti bir qızı uduzmağın həqarətindən min qat ağırdır. Mən siyasi adamlara qısqanclığı məsləhət görmürəm. Zaman olduqca nazikdir. O hər kəsdən incəlik və həssaslıq tələb edir. Doğrudan da dünyada namus kəlməsi qiymətli bir şeydirsə, qalib olmaq üçün onda da güzəştə getmək lazımdır. Hökmdar olan zat xalqın ruhunu öyrənməlidir[1].

Toxtamış sözünü bitirdi. Əmir İnanc başını dərin fikirlərin pəncəsindən alaraq üzünü Toxtamışa tərəf çevirib dedi:

– Doğrudur, qoca vəzir, doğrudur!

Toxtamış, Əmir İnancın cavabından şadlanaraq dedi:

– İndi ki dediklərimi təsdiq edirsiniz, qızınızın gənc şairlə başladığı əlaqəyə qarşı tövrünüzü dəyişməlisiniz. Bu iş Əmirin şərəfinə

[1] Səlcuq hökmdarlarının saraylarında Şərqin məşhur şairləri yaşayırdı. Onlar tamamilə farsca yazırdı. Lakin Toğrul və Alp Arslan yazılan şeirlərin türkcə yazılmasına müvəffəq oldular. Xüsusən, Azərbaycanda keçirilən İran dilinin tamamilə məhv edilməsinə nail oldular. Alp Arslan başqa hökmdarlar kimi özü üçün fars və ərəb ünvanlarını və ləqəbləri taxmaq istəmədi. Özü daima türkcə danışıb, türkcə də yazırdı ("Siyasətnamə", Toğrul və Alp Arslan dövrünə aid hissə).

toxunsa belə, ümumi siyasətimizə toxunmur, biləks Əmirin mövqeyinin möhkəmlənməsinə səbəb olur.

Əmir yenə də ümidsiz bir tövr alaraq:

– Əcəba, bununla biz hazırkı vəziyyətin içindən çıxa biləcəyikmi?! – dedi.

– Başqa tədbirlər də vardır. Bizim ikimiz də ərəb deyilik. Tək səninlə mən xəlifənin nüfuzunu bərpa edə bilməyəcəyik. Xəlifə öz işini bizdən daha yaxşı bilir. Xəlifələr artıq hökmdarlara əmr vermək əvəzinə, onların əmrini gözləyirlər. Onların ağaca bağladılıb[1] döyülməsini sənin qayınatan çox yaxşı bilir. Dünən xəlifə tərəfdarlığı ilə xoşbəxt hesab edilənlər bugünkü dünyanın ən bədbəxt adamlarıdır. Artıq avam xalqı xəlifənin müqəddəslik şüarilə tələyə salmağın vaxtı keçibdir. Bizim şəxsi təşəbbüslərimiz lazımdır. Siyasətin vəzifəsi aldatmaq, avamın vəzifəsi aldanmaqdır. Sabahdan etibarən Gəncə ziyalılarını, Gəncə əyanlarını çağırıb Azərbaycan istiqlaliyyəti məsələsini müzakirə etmək lazımdır. Katib Mühakim ibn-Davudun barəsindəki dedi-qodulara nəhayət vermək lazımdır. Onun ərəb olduğu üçün məsul vəzifədən qovulmasına xalqı inandırmaq lazımdır. Şirvan xaqanının Aranı Şirvana ilhaq etməsinə qarşı mübarizə aparmaq lazımdır. Mübarizə ancaq təbliğat şəklində aparılmalıdır. Qızınızın gənc şairlə olan əlaqəsinin sıxlaşması üçün təşəbbüsdə olmalısınız. Fəxrəddinlə Dilşadın əlaqəsinə də soyuqqanlı baxmalısınız. Başqa işləri isə qoca vəzirə tapşırın. Mən Şimali Azərbaycanı sizin əlinizdə mərkəzləşdirməyə söz verirəm.

Əmir İnanc qoca vəzirin bütün dediklərinə razılıq verdi. Müşavirə çağırılmasını qərara aldılar.

## TOVUZ SALONU

Tovuz salonunun fövqəladə bir surətdə bəzənməsi çağırılmış müşavirəyə verilən diqqətin fövqəladəliyini göstərirdi[2]. Fövqəladəlik hər bir şeydə özünü göstərirdi. Cariyələrin libasında, qulamların baş örtüklərində, şərbətlərdə, saqilərin və xidmətçilərin geyimlərində bu fövqəladəlik gözə çarpırdı.

[1] Alibuyə hökumətlərindən Əlaüddövlə xəlifə Tayibillahı xəzinədən israf pul götürüb xərclədiyi üçün ağaca bağlatdırıb döydürmüşdü.

[2] Hökumət sarayının əlvan naxışlarla bəzənmiş salonu tovuz quşunun qanadlarına bənzəyirdi.



Əmir salona daxil olduğu zaman, vaxt ikən hazırlanmış əyanlar dərhal ayağa qalxıb təzim etdilər. Buna görə də müxalifətçilər əksəriyyət təşkil edə bilmədiklərindən əksəriyyətə qoşulmaq məcburiyyətində qalaraq, Əmirin ayağına qalxdılar. Əmir kürsünün üstündə oturub qısa bir xütbə oxudu. Xütbəsində xəlifənin adını çəkmədi. Bu hadisə məsələnin iç üzündən xəbəri olmayanlar və avamlar üçün şadlığa səbəb oldu, onlar Əmirin ömr və dövlətinə dualar yağdırmağa başladılar. Əmir məclisin ruhunu əlinə alaraq sözə başladı:

– İndiyə qədər Azərbaycan xalqı uca olan Allahın mərhəmətini bilavasitə, yəni xəlifeyi-ruyi-zəminin vasitəsilə alırdı. Lakin bundan sonra azərbaycanlılar bu mərhəməti bilavasitə əldə edə biləcəklər. Bundan sonra azərbaycanlılar xəlifənin himayəsində deyil, bilavasitə xudavəndi-aləmin himayəsində yaşayacaqlar, çünki əhali artıq öz azadlığını əlinə almaq səlahiyyətini qazanmışdır.

Buna görə də biz bir neçə həftədir ki, bu məsələ ilə dərindən məşğul olmaqdayıq, işçilərin bəzilərini yerli xalqdan olmadıqları üçün məsul işlərdən xaric etmişik. O cümlədən hökumətin möhürdarı Mühakim ibn-Davud, Rəbiət ibn-Qanim və Sadiq ibn-Hənbəl, Cabir ibn-Əta və sairləri işdən götürülmüşdür. Onların Azərbaycandan çıxıb getmələrinə əmr sadir etmişəm.

Salonda yenə də böyük bir şadlıq başlandı. Avamların cərgəsindən: "Əmirin ömrü, dövlət və şövkəti artıq olsun!" səsləri salonun zinətli tavanlarına əks etməyə başladı.

Əmir sözünü davam etdirdi:

– İndi biz gələcəyi düzəltməklə məşğul olduğumuz bir zamanda, keçmiş səhvlərin də islahına çalışmalıyıq. Gəncə xətibi və onun müridləri tərəfindən təhqir edilmiş böyük şairəmiz Məhsəti xanımı Azərbaycana qaytarmaq üçün Bəlx şəhərinə dörd nəfərdən ibarət bir heyət göndərmişəm. Şairənin düşməni Gəncə xətibini də Gəncədən sürgün etdim, müridlərin bir çoxu həbsə alınmış, digərləri qaçıb gizlənmişdir.

Başlıca olaraq Aran ziyalısı və Aran əyanları əcnəbi müdaxiləsinə imkan verməmək üçün hökumətin təşəbbüslərinə qoşulmalı və xalqa öz düşmənlərini tanıtmalıdırlar. Mənə belə gəlir ki, biz öz məmləkətimizi qonşularımızdan daha yaxşı idarə edə bilərik.

Əmir salondakıların "Yaşasın Əmir, yaşasın azadlıq" səsləri altında kürsüdən düşüb getdi, Toxtamış vəzir isə salondakıların bəzilərini Əmirin xüsusi otağına dəvət etdi.

Toxtamış bir çox təlaşdan sonra Əmir ilə Safiyə xatun arasında baş vermiş ixtilafı ləğv edə bilmişdi. Əmir Safiyə ilə Mühakimin əlaqə məsələsinə inansa da, belə çətin bir zamanda qadın və ailə məsələləri ilə məşğul olmaq istəməmişdi. Buna görə də Safiyə xatunla barışmış və necə olursa olsun, bu hadisəni unutmağa çalışmışdı. Əmir axşam yeməyindən sonra adəti üzrə yenə də öz ailəsi içərisində vaxt keçirirdi. O yenə də Qətibənin saçlarını tumarlayır, onun başından öpür və onu nazlandırırdı. O, əlini atıb kitabın arasından bir parça kağız götürdü, Qətibəyə göstərdi və soruşdu:

– Gözəl qızım, sən şeiri və ədəbiyyatı sevirsənmi?

– Mən yalnız başqalarının şeirini oxumaqla kifayətlənməyərək, özüm də şeir yazmağa həvəslənirəm. Bağdadda oxuduğum zaman iki şeyi çox sevirdim. Onlardan birisi fəlsəfə, ikincisi isə şeir və ədəbiyyat idi. Müəllimənin məni şeirlə məşğul olmaqdan çəkindirmək istəməsinə baxmayaraq, yenə də kitablarımın arası Məknunənin[1] şeirləri ilə dolu olardı. Türfə xatunun şeirlərini məndən artıq sevən olmazdı[2]. Nədənsə Azərbaycana qayıdandan sonra ərəbcə şeirlərə olan marağım tamamilə sönmüşdür.

Əmir bir daha onun alnından öpərək dedi:

– Çünki ərəbcə şeirlər sənin doğma dilində deyildir.

Safiyə xatun buna etiraz edərək dedi:

– Ərəb lisanı onun ana dilidir. Onun yerli dil və ədəbiyyatla heç bir əlaqəsi yoxdur. Dini kitabların ərəbcə olduğunu və Quranın göydən ərəbcə nazil olduğunu qeyd etmək lazımdır. Xüsusən, Yer üzünün xəlifəsi də ərəbdir.

Əmir Safiyənin dediklərinə etiraz etmədi, çünki təzə ixtilaf çıxarmaq istəmirdi. Buna görə də söhbəti şeir üzərinə çevirib:

– Son zamanlar yerli dildə gözəl şeirlər yazılır, xüsusən gənc şairlərin təbiət təsviri haqqındakı yazıları məni tamamilə heyrətə gətir-

---

[1] M ə k n u n ə – Şərqin ən məşhur şairəsidir. Bəni Abbas xəlifələrindən Mehdinin cariyəsidir. O, sənətkar bir şairə olmaqla bərabər məşhur musiqi sənətkarı idi. Ruhanilər ona musiqi elmi ilə məşğul olmağı qadağan etmişdilərsə də, o yenə də öz sənətindən əl çəkməmişdi.

[2] T ü r f ə x a t u n – Abbasilər dövrünün məşhur qadınlarındandır. Həm şeir yazar, həm də oxuyardı.



mişdir. Eşit, gör nə qədər incə, nə qədər mozun, nə qədər səlis və bədii şeirlər yazırlar.

Əmir bunu deyərək şeiri Dilşada verdi. Dilşad şeir oxumaqda saraydakı cariyələrin içərisində şöhrət qazanmışdı. Dilşad həvəslə ayağa qalxaraq şeiri oxudu:

Fələyin geydi yaşıl don qocaman piri yenə,
Gəncliyin şaxəsi rərq oldu yaşıl nur içinə.
Bir təbəssümlə gülün çöhrəsi həngam bahar –
Qızarar çıxsa tamaşasına gənclər, qocalar.
Quşların eşq tərənnümləri başlar yenidən,
Yeni bir eşq ilə baş qaldırar əbnayi-çəmən.
Gənc, yaşıl şaxə düzər qırmızı yaqutu hava,
Zümrüdün qəlbinə yüz inci saçar badisəba.
Qırqovul pərləri reyhanlara vermiş yeni rəng,
Bülbülün ləhn-pürahənginə bir bax nə qəşəng.
Dindirən bülbülü insan gülünün çöhrəsidir,
O həzin nalə xəzandidə turacın səsidir.

Dilşad şeiri oxuduqdan sonra əzbərləmək üçün özündə saxladı.

Qətibə isə:

– Nə qədər mödzun və oynaq bir şeirdir! – dedi və əlini atıb bir parça kağız çıxartdı.

– Məndə daha yüksək məzmunlu bir şeir vardır, – dedi və şeiri Dilşada uzatdı.

Dilşad Əmirə müraciətlə:

– Əmir həzrətləri, oxunmasına icazə verərmisiniz?

– Oxu, mənim kədərlərimi ancaq şeir və musiqi unutdura bilər.

Dilşad yenə də ayağa qalxıb şeiri oxudu:

Fəqirəm, bəxtiyaram, sanmayın kim tirə bəxtim var,
Məhəbbət mülkünün soltanıyam öz tacü-təxim var.
Cahanın, yummuşam göz sərvətindən, xələtindən mən,
Fəqirəm, feyz alır yüzlərcə hatəm şər süfrəmdən.
Bulanmaz xatirim, dərya qədər fikrimdə yekrəngəm,
Mən ölçülməz mühitəm, öz mühitimdə həmahəngəm,
Nə dərdim! İncilərdən incədir hər beytim, hər fərdim,
Qəzəlxan bülbüləm, hər bağçadan bir türfə gül dərdim.

Alar sərmayə şairlər tükənməz söz xəzinəmdən,
Bir əflakəm, düşər bir gün günəş dünyaya sinəmdən.
Dənizlər yerləşir sinəmdə sönməz bir təlatüm var,
Mənim öz sənətim, öz sərvətim, öz kainatım var.

Əmir bütün fikrini səfərbərliyə alaraq Dilşadın ağzına baxırdı. O, şeir oxunub bitdikdən bir neçə dəqiqə sonra, şeirdən bir misra təkrar edərək: "Məhəbbət mülkünün soltanıyam öz tacü-təxtim var" – dedi və: – kimin şeiridir? – deyə Qətibəyə müraciət etdi.

Qətibə sakit oldu, cavab vermədi, utandı, rəngi qızardı və başını aşağı salıb dizi üstə qoymuş olduğu əllərinə baxmağa başladı. Əmir İnanc şeirlə maraqlandı. O, bu şeirin Nizami tərəfindən yazıldığını yəqin etdi, çünki yerli şairlər cərgəsində xələt və sərvətə boyun əyməyən bir adam varsa o da ancaq gənc şair Nizami idi. Buna görə də Qətibənin saçlarını oxşayaraq soruşdu:

– Gözəl qızım, bu şeir kimin şeiridir?

Qətibə qara gözlərini qorxu ilə Əmirə tərəf çevirib soruşdu:

– Şeirin sahibini desəm acıqlanmazsan ki?

Əmir təəccüblə sual verdi:

– Əcəba, sən məni bu qədər də mədəniyyətsizmi bildin?!

– Xeyr! Ancaq mənim şairlə tanış olmağım bəlkə də sənin xoşuna gəlmədi.

– Mən çox şadam ki, qızım məmləkətin şair və ədibləri ilə tanış olur. Bu mənim müqəddəs arzularıma müvafiqdir.

Qətibə bu sözü Əmirdən eşidəndən sonra:

– Bu şeir Nizaminin şeiridir, – dedi. – Lakin əvvəlki şeirin kimin tərəfindən yazıldığını bilmədim. Atam mənə onu deyə bilməzmi?

– Əvvəlki şeir də Nizami tərəfindən yazılmıdır. Mən öz qızımı təbrik edirəm. Sənin şairlə olan tanışlığın tarixi bir qələbə qədər əhəmiyyətlidir. Bu tanışlığı davam etdirməyi bir daha sənə tapşırıram.

Safiyə xanım indiyə qədər sakit oturmuşdu. Söhbət bu yerə çatdığı zaman başını qaldırıb acıqlı-acıqlı Əmirə baxdı və dedi:

– Çox rica edirəm ki, qızıma bu cür məsləhətlər verməyəsən. Heç zaman qızımın eşq-məhəbbət düşkünlərinə qoşulub şeirbazlıq etməsinə yol verə bilmərəm.

Əmir nəsihətverici bir vəziyyət alaraq dedi:

– Siyasət bunu tələb edir.



– Namusu siyasətə çəpər etmək doğru fikir deyil.

– Ailənin xoşbəxtliyi bundadır.

– Xoşbəxtliyi namussuzluq üzərində qurmağın özü bir bədbəxtlikdir. Sənin çürük fikirlərin ailəmizdə təzə bir bədbəxtliyin yaranmasına səbəb olacaqdır. Xəlifə nəvəsinin meşələrdə şeir oxuyanlara qoşulmasına imkan verən bir adam, namus və şərəfin qədrini nə biləcəkdir?! Sərapərdələrdə oturub namusla yaşamayan bir qızı hansı bir kübar ailənin içərisinə buraxarlar?

Əmir Safiyə xatunun bu sözlərinə qəhqəhə ilə güldü:

– Avam qadın, sən namus sözünü tamamilə başqa mənada işlədirsən. Namus heç bir zaman qadınların şəxsiyyətində işlənməmişdir. Namus və kübarlıq heç bir vaxt sərapərdələrdə doğmamışdır. Əsil namus siyasət səhnəsində doğulur. Siyasətdə uduzanlar, namus da daxil olmaq şərtilə, bütün varlığını itirmiş olurlar. Hazırda oynadığımız qumarın bir üzündə namus, o biri üzündə isə qələbədir. Namus qələbədən asılıdır. Qələbəni uduzduğun zaman namusu da uduzursan. Mənim qadınım bilməlidir ki, namussuzluq sözü dünyada yoxdur. Həyatın hər bir şəklində zühur edən məğlubiyyət – namussuzluqdur. Məğlub olanların sərapərdələrdə oturan, xalqa görünməyən və zəmanə afəti sayılan gözəl qızlarının, örtülü bir xəzinə deyil də, biləks xalqa görünməkdən utanan bir eybəcərdən daha iyrənc olacaqlarını bilməlisən. Mənim gözəl qadınım yenə də bilməlidir ki, qələbənin günəşdən yüz qat artıq olan şəfəqləri o qədər göz qamaşdırıcıdır ki, qaliblərin ailəsində olan namussuzluqları görmək üçün heç bir gözə imkan verməz. İndi mənim fikrimi anladınmı?

Safiyə başını qaldıraraq:

–Bəli, anladım, – dedi, – namusun nədən ibarət olduğunu bildim.

Əmir Dilşadı yanına çağırıb əlini onun saçlarına çəkdi və:

– Sən də mənim ailəmi bir qəhrəmanla başladığın məhəbbətlə xoşbəxt etməlisən, – dedi. – Fəxrəddin ağıllı, kübar və məğlubedilməz bir qəhrəmandır. Hələlik onu öyrən. Bəxt elə bir şey deyil ki, birinci qədəmdə onu sınamaq mümkün olsun. Məhəbbət bir ağacın tumurcuğu kimidir. Onun çiçəklənməsi və meyvə şəklinə düşüb yetişməsi lazımdır. Bunu qızım Qətibəyə də, sənə də tapşırıram. Tanış olmaq ərə getmək deyil, tanışlıq sözü bir-birini öyrənmək deməkdir.

# BAĞİ-İRƏM[1]

Bu gün Azərbaycan istiqlaliyyətinin şərəfinə verilən ziyafət Bağİ-İrəmdə təşkil olunmuşdu. Bu ziyafətə istiqlaliyyətə inananlar da, inanmayanlar da dəvət olunmuşdu.

"Müqəddəratımızı öz əlimizə aldıq!" – deyə sevinənlərlə yanaşı olaraq, "Əmirin vəziyyətini möhkəmlətmək üçün düzələn bu macəra çox da uzun sürməz!" – deyənlər də var idi. Ziyafətdə iştirak edənlər hovuzlardakı qız heykəllərinə, onların döşlərindən vuran fəvvarələrə, Azərbaycanın hər tərəfindən gətirilmiş cariyələrə, cariyələrin tovuz quşu qanadından daha bəzəkli olan libaslarına tamaşa etdikləri zaman, Nizami ilə Fəxrəddin də Qərənfil xiyabanında gəzərək söhbət edirdilər.

Nizami, Fəxrəddinin şübhələrini dağıtmaq üçün onu bir tərəfə çəkərək yavaşdan dedi:

– Bu ziyafət və bu istiqlaliyyət şənliklərinin hamısı bir oyun və bir siyasi əyləncədir. Azərbaycandan ərəblərin qovulması da bu əyləncənin müəyyən bir şöbəsidir. Xəlifə tərəfindən Gəncəyə göndərilmiş xətibin sürgün edilməsi də yalan və uydurmadır. Xətibə müəyyən xərclik verib, Kəbə ziyarətinə göndəriblər. Mühakim ibn-Davudun sürgün edilməsi də saray intriqalarından doğan bir hadisədir. Eyni zamanda, Əmirin oynadığı bu oyun öz mündərəcəsilə hazırkı zamanımız üçün əlverişlidir; çünki xalqın Şirvan şahlığına qoşulmaq fikirlərini ancaq bu yol ilə dağıtmaq mümkün idi. Bu oyun avam xalq üçün nə qədər inandırıcı olursa olsun yenə də savadsız və düşünülmədən düzələn bir macəradır. Çünki Azərbaycan istiqlaliyyətini avam Azərbaycan miqyasında həyata keçirmək lazımdır. Əmir İnanc bu macərası ilə həm aldadır, həm də adlanır. Burada bizim qazana biləcəyimiz bir şey varsa, o da Məhsəti xanımın Gəncəyə qayıda bilməsindən ibarətdir.

Əmirin vəziri Toxtamış ziyafətə gələnlərə göz qoymuşdu. Onun təyin etdiyi və tapşırıq verdiyi müəyyən adamlar, dəstələrə bölünüb qonaqların içərisinə girir və onların fikirlərini öyrənirdilər.

Toxtamış, Nizami və Fəxrəddinin heç bir dəstəyə qoşulmayaraq uzaq bir xiyabanda gəzdiklərini gördüyü zaman dərhal Hüsaməddini çağırıb tapşırıq verdi:

[1] Bağı-İrəm – qədim Gəncədəki hökumət bağıdır.



– Əziz qonaqlara arkadaşlıq et. Onları əyləndir.

Hüsaməddin, Nizamiyə və Fəxrəddinə sezdirməmək üçün dərhal Qərənfil xiyabanının bu biri tərəfində gəzməyə və qərənfillərdən dərib dəstə tutmağa başladı. O, Nizamiyə yanaşdığı zaman qərənfilləri uzadaraq dedi:

– Gənc şairin qərənfil gülünə olan marağını eşitdiyim üçün bunları dərib təqdim etmək istədim.

Nizami:

– Təşəkkür edirəm, – dedi. – Mən daima qərənfil gülünü sevəcəyəm, qocalsam da bu sevgi qocalmayacaqdır, çünki qərənfil gülü daima gəncliyin qoxusunu verir.

Hüsaməddin onlara qoşuldu, lakin heç bir şey öyrənə bilmədi. Nizami onun gəldiyini hiss edərkən, söhbətin mövzusunu dəyişmişdi. Ziyafətdə İran şairi Kəmaləddin də iştirak edirdi. O, yazdığı bir şeirində Əmirin ədalətini, səxavətini mədh etdiyi üçün ziyafətdə olanlar hamısı onun ətrafına yığılmışdı. Kəmaləddin öz şeirini bitirdikdən sonra Əmir Nizamiyə müraciət edərək dedi:

– Mən gənc şairin şeirləri ilə hər bir kəsin şeirindən artıq maraqlanıram.

Nizami təşəkkür edib dedi:

– Bu qədər böyük bir ziyafətdə oxunacaq layiqli şeirim yoxdur. Xüsusən yaşlı və böyük şairlərin iştirak etdiyi bu məclisdə bizim şeir ouxamığımız küstaxlıqdır.

Qətibə və Dilşad pəncərənin qarşısından asılmış tənzif pərdənin dalında oturub Nizamini dinləmək istəyirdilər. Lakin Qətibə, Nizaminin belə bir ziyafətdə şeir oxuyacağına heç də inanmırdı. Ziyafətdə iştirak edənlər isə Nizamiyə müraciətlə:

– Rica edirik! Bir şey oxuyun, – deyə təkrar edirdilər.

Hətta Fəxrəddin də Nizaminin qulağına pıçıldayıb:

– Mənim xatirim üçün bir şeir oxumalısan, – dedi. – Qoy sənin sükutuna qorxaqlıq və bir məğlubiyyət kimi məna verməsinlər.

Əmirin özü də Nizaminin şeir oxumaqdan boyun qaçırdığını hiss edincə:

– Mən şair deyiləm, lakin bu qədər gözəl bir baharı görüncə hər bir insan şair olmaq istəyir, şeir yazmağa, şeir oxumağa və şeir eşitməyə həvəslənir, – dedi. – Rica edirəm, ziyafətimizi zinətləndirin.

Nizami ayağa qalxdı və hazırkı vəziyyətə dair bir şeir oxudu:

Öylə bir aləmdəyəm, dinara dəyməz mərifət,
Elm-ürfan əhlinə zindan kəsilmiş məmləkət.
Bir zamandır kim qovulmuş səhnədən ərbab hal,
Feyz alan yox şerimizdən hər tərəf bir qilü-qal.
Məhv olub ülfət, başərdən əlhəzər söylər başər,
Ruzigarı nabəkarın sülhü doğmuş şuri şər.
Məmləkət beytülhəzəndir, qalmamış həmdərdlər,
Hökmürandır hər tərəfdə bir yığın naməndlər.
Möhtərəmlər düşdü qiymətdən, dənilər möhtərəm,
Ehtirasındanmı yazsın qanlı xaqanın qələm?!
Gül deyil yerlərdə, qandır, bir biyabandır çəmən
Oğlu ölmüş bir qadın zülfündən oxşar yasəmən.
Bülbülün fəryadı eşqindən deyildir, nalədir,
Qanə dönmüş sinələrdir çöldə sanma lalədir.
Min fəlakət var önündə hər müqəddəs niyyətin,
Gülməmiş ruxsarı bir an madəri-hürriyyətin.

Nizaminin şerindən alınan təsir ziyafətdə gözlənilməz bir vəziyyət yaratdı. Əmirin üsul-idarəsinə qarşı bir düşmən kimi hücum edən gənc şair öz böyüklüyünü və qorxmazlığını ziyafətdə olanların hamısına göstərdi. Nəhayət, Əmir özünə aldırmadan dedi:

– Şairin dili öz xalqının iradəsidir. O, şerində məmləkətin və xalqın nə qədər ağır bir vəziyyət keçirdiyini qeyd etdi. Mənim özüm də həmin bu ziyafəti şairin göstərdiyi vəziyyətləri aradan qaldırmaq üçün təşkil etmişəm. Bütün nöqsanlar orasındadır ki, indiyə qədər xalq öz məmləkətini özü idarə edə bilməmişdir. Xalqın müqəddəratı başqalarının əlində olmuşdur. Zənn edirəm ki, azadlıq əldə edildikdən sonra yenə də biz Azərbaycanın gözəl təbiətindən istifadə edə biləcəyik. Artıq bizim bağlarımızın bülbülləri xalq matəmi dastanını yox, öz eşqnaməsini tərənnüm edəcəkdir.

Qətibə də Nizaminin kəskin şerini eşitdikdən sonra Dilşadın qulağına yavaşdan dedi:

– Qəhrəmandır, qorxmaz və cəsarətli bir gəncdir. Lakin təəssüf ki, o, atamın dostu deyil.

Dilşad da Qətibənin qulağına bu sözləri pıçıldadı:

– O qəhrəman olmasaydı, Gəncə qəhrəmanı onunla yaxın dost olmazdı. Ancaq bunu da qeyd etməlidir ki, o, sənin atanın düşməni deyil. Bunu demək üçün bir şeyə əsaslanmaq lazımdır.



Qətibə cavab verdi:

– Mənim əlimdə olan əsas bundan ibarətdir ki, o cür adamlar mənim atam kimi adamlarla dost ola bilməzlər.

Əbül-Ülanın cariyəsi Səba xanım, Qətibənin Nizami barəsindəki sözlərini eşitdikdən sonra öz-özünə düşündü: "Mən bu yetim uşağın böyük bir şair olacağını bilsəydim, onun qətibələr kimi kübar ailə qızları tərəfindən seviləcəyini anlasaydım, onu çoxdan əlimə alaraq istifadə edə bilərdim. İndi də gec deyil. Madam ki, Qətibə onu sevir, məndən bacarıqlı bir vasitəçi tapa bilməyəcəkdir".

Səba xanım bunları dedikdən sonra Qətibəyə sual verdi:

– Bu şairin oxuduğu şeirlər xoşuna gəldimi?

Qətibə bu sualdan sonra Səba xanımın üzünə şübhəli nəzərlə baxaraq soruşdu:

– Bu sualdan məqsədin nədir? Şerin mənim xoşuma gəlib-gəlməməsi sənin nəyinə lazımdır?

Səba xanım özünü itirməyərək:

– Elə-belə soruşurdum. Mən şairi çoxdan bəridir tanıyıram, – dedi.

– Haradan tanıyırsan?

– Bu hələ yetim bir uşaq olduğu zaman Əbül-Ülanın evinə gedib-gələrdi. Lakin bir hadisə nəticəsində oradan uzaqlaşdı.

Qətibə maraqlandı və tez soruşdu:

– Nə kimi hadisə?

– Əbül-Üla bir qızını Xaqaniyə verəndən sonra kiçik qızı Mahtab xanımı da həmin bu şairə vermək istədi. Şair bu təklifdən boyun qaçırdığı üçün aralıqda inciklik çıxdı.

Qətibə bu sözlərdən sonra:

– Yaxşı da elədi ki, boyun qaçırdı. Mahtab xanım haranın qızıdır ki, bu cür qiymətli bir adama sahiblənə bilsin, – dedi.

Səba xanım da cavabında:

– Mənim də dediyim budur, – dedi. – Mən buna heç də razı deyildim. Bu cür adamın bir tükünü yüz nəfər Mahtab xanım kimi adamlara dəyişmərəm. Mən öz ağamın şairə qarşı bəslədiyi uyğunsuz münasibətini heç də nəzərə almayaraq, o gənclə əlaqəmi kəsməmişəm. Hətta onun ailə qurması işinə də kömək edəcəyəm. Qoy bundan ötrü ağam məni cəzalandırsın.

Qətibə, Səba xanımın bu söhbətlərindən çox şirin ümidlər aldı və onun vasitəsilə Nizamini ələ almaq və məqsədə nail olmaq arzularına qapıldı. O, Səba xanıma yaxınlaşmaq üçün belə bir çarə düşündü və Səba xanıma dedi:

– İndi ki, sən bu şərəfli insanla tanışlığı davam etdirmək istəyirsən, ağanın sənə cəza verməsi barəsində heç də düşünmə. Sənin mənim yanımda xidmət etməyə meylin olarsa, mən sabahın özündə səni Əbül-Ülanın ailəsindən çıxarıb öz yanıma gətirdərəm.

Səba xanım gələcəkdə Qətibədən çox böyük mənfəətlər əldə edə biləcəyini yəqin etdi və Qətibəyə yalvararaq:

– Ölüncə xanımın xidmətindən boyun qaçırmaram, – dedi. – Məni haman ailədən qurtarmaq, vicdan əzabından qurtarmaq deməkdir, çünki mən heç bir zaman bu möhtərəm şairi Mahtab xanımın eşqinə razı edə bilməyəcəyəm, onlarsa bunu məndən tələb edirlər.

Qətibə, Səba xanımın son sözlərindən diksinərək soruşdu:

– Yenədəmi onlar bu möhtərəm şairin yaxasını buraxmaq istəmirlər?

– Rica edirəm, bunu heç kəs bilməsin. Onlar məni məhv edərlər. Onlar öz dəyərsiz qızlarını acı dərman kimi, bu sağlam gəncin boğazına tökmək istəyirlər.

Qətibə bir kərə:

– Hələ mən ölməmişəm! Mahtab xanım kimdir ki, mənim qabağımdan şikar aparsın?! Bir gün sonra sən mənim xidmətimdə olacaqsan. Nə iş görəcəyin barəsində sonra danışarıq.

Söhbətlər burada bitdi, çünki İrəm bağçasında verilən ziyafət qurtarmışdı.

Dilşad, Səba xanımın Qətibə ilə başladığı yaxın tanışlığına heç də razı deyildi. Çünki onun Gəncədə olan cariyələr arasında söz gəzdirdiyini bir neçə kərə eşitmişdi. Səba xanım Qətibədən ayrılıb getmək istədikdə Qətibə xanım ipək dəsmala bağlanmış yüz dinar qızılı onun əlinə tapşırdı.

Bağ boşalmışdı, Əmir qoca vəzirin qolundan tutub bağda dolaşdığı zaman vəzir Nizaminin çıxışına işarə edərək:

– Düşmən böyük düşməndir, – dedi. – Qorxmaz düşməndir. Ağıllı düşməndir.



## MÜŞAVİRƏ

Əmir İnancın Azərbaycan istiqlalı barəsində buraxdığı müraciətnaməni ifşa etmək və bu istiqlalın nədən ibarət olduğunu xalqa anlatmaq üçün geniş bir müşavirə təşkil edilmişdi.

Müşavirədəki müxtəlif fikirlərdən birisi də Fəxrəddinin Aranın istiqlaliyyətini elan etmək barəsindəki təkliflərindən ibarət idi. O, Əmir İnanc tərəfindən buraxılan müraciətnamə məsələsinə keçərək dedi:

– Bu müraciətnamə hər nə məqsədlə buraxılıbdırsa, onunla işim yoxdur. Lakin bu gün məmləkətdə istiqlaliyyət elan etməyin vaxtı yetişmişdir. Aran ölkəsi öz böyüklüyü etibarilə Şirvan şahlığından heç də kiçik deyil. Şirvanın genişlənməyə imkanı yoxdursa, bizim buna imkanımız vardır. Biz öz sərhədimizi Araz, Kür çayları sahillərinin o biri tərəfinə də keçirə bilərik. Zaman elə bir zamandır ki, fikrimizə manea törədə biləcək dövlətlərin də başı qarışıqdır. Biz sabahın özündə Əmir İnancın da qulağından tutub buradan xaric edə bilərik.

Fəxrəddin uzun-uzadı danışdı, fikirləri müşavirədə iştirak edən avamlar və dünyagörüşü dar olanlar tərəfindən təqdir edildi, hər kəs bu istiqlaliyyət münasibətilə bir-birinin əlini sıxıb təbrik etdi. Lakin bu təbrik və bu alqışlara baxmayaraq Fəxrəddinin ortalığa atdığı fikirlər haqqında qərar təklif edən yox idi. Fəxrəddin çıxılmaz bir vəziyyətdə qalmışdı. Nəhayət, o, müşavirə otağını bir neçə dəfə o tərəf bu tərəfə dolaşandan sonra üzünü Nizamiyə tutub soruşdu:

– İlyas, sən danışmayacaqsanmı?

Nizami özünü düzəltdi, xırda və yumru gözlərinin qapaqlarını qaldırdı, qəliz qaşlarını çataraq Fəxrəddinin üzünə baxdı və bir neçə saniyə sükutdan sonra dedi:

– Mən sənə yüz kərə demişəm ki, insan öz şəxsinə aid məsələlərdə nə qədər ehtiyatsız olursa olsun, yenə də ümumi məsələlərin müzakirəsində ehtiyatla hərəkət etməlidir. Sənin təklif etdiyin istiqlaliyyət sözü elə bir sözdür ki, onu bir dəqiqənin içərisində elan etmək olar, lakin həyata keçirmək olmaz, çünki bunun üçün möhkəm bir təşkilatın on illərcə hazırlıq aparması lazımdır. Əvvəla, istiqlalı müdafiə üçün ölkənin rəqiblərinə qarşı mütəşəkkil və qüvvətli bir ordu lazımdır. Təzə bir hökumət təşkili üçün təcrübəli və siyasətşünas hökumət

ərləri lazımdır. Sən Fəxrəddin, yaxşı bilirsən ki, hicrətin 541-ci illərindən başlayaraq Şərqi təzədən bölüşmək üçün qanlı müharibələr gedir. Bu bölgüdə iştirak üçün vaxt ikən hazırlamaq lazım idi. Hərgah Fəxrəddinlər xəlifənin nüfuzdan düşməsini əsas tutaraq istiqlaliyyət elan etmək istəyirlərsə, tamamilə yanılırlar. Xəlifənin itirdiyi nüfuzu başqaları əldə etmişdir. Şərqin təzədən bölüşdürülməsi mərəkəsində beş qüvvətli hökumət qan tökməkdədir. Bu hökumətlər yalnız Şərqi deyil, Şərqdə mövcud olan xəlifə nüfuzunu da aralığa qoyub təqsim edirlər. Bir tərəfdən Soltan Mahmud, Soltan Məsud ilə çarpışır. Xarəzm şahları Azərbaycan atabəyləri ilə Rey və İraq üstündə bir-birlərinin boğazını üzürlər. Misirdə fatimilər hökuməti süqut etmiş və onların yerində dəhşətli bir hökumət təşkil edən Əyyubilər, Fərat və Dəclə sahillərinə qədər axıb gəlməkdədirlər. Hazırda Şərqin təqsimində iştirak etmək üçün mübarizə aparmaqda olan beş hökumətin altıncısı olmaq lazım gəlir. Bizim əlimizdə belə bir imkan olsaydı, yalnız Aran istiqlaliyyətini deyil, ümumiyyətlə Şimali və Cənubi Azərbaycanın istiqlaliyyətini elan edərdik. Fəxrəddinin özü bilir ki, mən şairəm, siyasət xadimi deyiləm, lakin məsələ xalqın müqəddəratı üzərinə gəldikdə mən siyasi bir adam olmağı da bacararam. Biz, Fəxrəddinin göstərdiyi xətti-hərəkətlə irəli getsək, fars və ərəb cahangirlərinin keçmişdə və bundan sonra aparacaqları xətti-hərəkətə kömək vermiş olacağıq. Bir də xırda hökumətlər təşkil etmək, Azərbaycanı parçalamaq, gələcək üçün düşündüyümüz birliyi geriyə atmaq deməkdir. Bunsuz da xalqlarımız dinlərə, məzhəblərə, təriqətlərə ayrılmışdır. Bu kimi təfriqələr bir daha davam edərsə, düşmən hər parçanı bir bucaqda basıb yeyə bilər. Təbiidir ki, biz min illərdən bəri yüz yerə parçalanmış vahid insan qardaşlığını təşkil edə bilməyəcəyik. Çünki əsrlərin tarixi dəhşətləri insanları bir-birilə uyuşa biləcək vəziyyətdən tamamilə uzaqlaşdırmışdır. Bəlkə də gələcəyin böyük dahiləri insan və fikir birliyi məsələsini meydana atıb müvəffəqiyyət qazanacaqdır. Lakin hələlik bizdə o qüvvət, o əhatə və o qədər dərin təşkilatçılıq yoxdur. Bunun üçün biz özümüzdə bu acizliyi hiss edərkən, heç olmazsa Cənubi və Şimali azərbaycanlıların qardaşlığı məsələsini düzəltməyə başlayaq, çünki buna onların qəmiyyəti də icazə verir. İçərimizdə ərəb və İran mədəniyyəti sözünü tez-tez təkrar edənlər öz millətinin, öz qəmiyyətinin qədim mədəniyyət tarixini unudan adamlardır. Biz bu qəbil adamlara ya anlaqsız, yainki əcnəbi puluna satılan adamlar kimi baxırıq. Qabaqca üzümü Hacib ibn-Malikə tutub deyirəm, o öz çıxışında "bizə ərəblərlə əlbir işləmək lazımdır" – deyirdi. O bilməlidir ki, ərəblər hələ indi də azərbaycanlıların, daha açıq desək, Midiya xalqının qurduğu hökuməti qura bilməmişlər. Mən özüm də müsəlmanam, hətta həqiqi müsəlmanam, lakin bunu deməliyəm ki, ərəblər bizə yalnız din gətirdilər, mədəniyyət gətirmədilər. İran mədəniyyəti məsələsinə gəldikdə, onlar da hənuz Midiya mədəniyyətinin irsilə yaşamaqdadırlar.

Əlbəttə, danışılan sözlərin və ortalığa atılan müxtəlif fikirlərin hamısına cavab verə bilmədim. Mən ancaq bunu demək istərdim ki, Şimali Azərbaycanla Cənubi Azərbaycan birliyi düzəlmədən, bu iki məmləkətdə azadlıq arzusu etmək doğru deyildir. Buna görə də birinci növbədə, Azərbaycan xalqının təriqət-çıxışında "bizə ərəblərlə əlbir işləmək lazımdır. Mən onu yəqinliklə deyə bilərəm ki, Midiya dövlətinin dağılması səbəblərini axtarmış olsaq, yenə də onu əqidələrin və təriqətlərin törətdiyi ixtilaflarda tapa bilərik.

Əvvəl iranlılar, sonra da ərəblər Azərbaycan xalqının birliyini pozmaq üçün cürbəcür təriqətlər yaratdılar. Hazırda təriqət mübarizələri ciddi bir şəkil almaqdadır. Bunun üçün də Cənubi və Şimali Azərbaycanı Əxi Fərrux Zəncaninin meydana atdığı qardaşlıq təriqəti ətrafına yığmalıyıq. Çünki bu təriqət dini bir təriqət deyildir. Heç olmasa bu təriqətdə birlik ünsürləri vardır. Bununla da biz Cənubun və Şimalın qardaşlıq əsasını qoya bilərik. Hazırda isə Əmir İnancın Şirvanşahlığına qarşı apardığı təbliğatda bitərəf qalmalıyıq, çünki bu məsələlərin hamısı bir neçə günlük ömrə malikdir.

Sözlərimin bir çoxu Fəxrəddinə aiddir. Bir daha ona tapşırmalıyam ki, ehtiyatlı olmalıdır, biləks öz başını çox sadə bir məsələdən ötrü sındıra bilər. Bizə Aranda hökumət qurmaq lazım deyil, bir kərə bilmək lazımdır ki, böyük dövlətlərin arasında təşkil edilmiş kiçik dövlətlər müəyyən bir siyasətin nəticəsində yaradılır.

Müşavirə Nizaminin fikirlərini təsdiq etsə də, Fəxrəddin yenə də öz fikrində qaldı. Nizami Əmir İnancın sarayının ətrafında gizlin gözətçilər qoymağı və onun xariclə olan əlaqəsini öyrənməyi təklif etdi. Bu təklifi bir səslə qəbul etdilər. Bu vəzifə Fəxrəddinə tapşırıldı.

İlyas, çayın kənarındakı söyüd kötüyünün üstündə oturub çaya baxırdı. Çünki Xanəgah kəndindən Gəncəyə gələnlər çaydan keçib gəlməli idilər. Çayda su o qədər də çox deyildi. Lakin İlyasın nəzərində çayda bir coşqunluq var idi, dalğalar yenə də qartal kimi qanad açaraq bir-birini təqib edirdi. Çay nə qədər susuz və sakit olursa olsun, İlyas yenə də ondakı coşqunluğu heç bir zaman unuda bilmirdi, çünki o, öz sevgilisi Rənanı çayın ən coşqun bir günündə görmüş və coşqun bir ürəklə də sevmiş idi. Buna görə də o, daima çayın kənarında oturduğu zaman fikri keçmişlərə qayıdardı.

Şair, neçə gündən bəri Rənanın görüşə gəlmədiyini xatırlayıb çaya baxırdı. Çayın o biri sahilində Xanəgah kəndindən şəhərə gələnlər yığın-yığın durub çaydan nə cür keçməyi fikirləşirdilər. Heyvanı olanlar, heyvanı olmayan kəndlilərin şeylərini qucaqlarına alıb sudan keçirirdilər. Suya yıxılıb qalxanlara, üst-başı islananlara gülənlər, hətta sudan öz şeylərini keçirə bilməyənlərdən ağlayanlar da var idi. Körpü çox uzaqda idi. Bazar isə çayın körpü olmayan tərəfinə yaxın idi. Buna görə də kəndlilərin hamısı şeylərini axşam bazarında satmaq üçün körpüsüz yerlərdən çayı keçməyə tələsirdilər.

Keçmiş, İlyasın gözü qarşısında canlandı:

Çaydan heyvanlı və heyvansızların hamısı keçmişdi. O tərəfdə yalnız gənc bir qız qalmışdı, o öz şeylərini çaydan keçirə bilmədiyindən əlacsız qalıb ağlayırdı. Qızın bu ağır vəziyyəti İlyasa toxundu, o dərhal çayın o biri sahilinə keçib qıza dedi:

– Ağlama! Mən sənin şeylərini sudan keçirməyə gəlmişəm.

Qız gözünü yaşını silərək İlyasa dedi:

– Sizə zəhmət olmazmı?!

– Burada heç bir zəhmət yoxdur. Həm də mən özüm də su ilə əylənməyi sevirəm.

– Məncə, belə deyil, sizi bu zəhmətə öz mərhəmətiniz məcbur edir. Bilmirəm, siz hamının haqqındamı belə mərhəmətlisiniz?

– Mərhəmətli olmaq hər kəs üçün lazımdır. Lakin bir çoxlarında mərhəməti yarada biləcək xüsusiyyətlər yoxdur.

Qız, İlyasın nə dediyini anlamadı, onun üzünə sualverici nəzərlərlə baxdığı zaman, İlyas bunu dərhal hiss etdi və fikrini kəndli qıza izah edərək dedi:



– İnsanlarda öz həmcinsi olan insanlara qarşı bir insanlıq əlaqəsi olmalıdır. İnsanlar bir-birini sevməlidirlər. Bunsuz yaşamaq olmaz. Həmcinsinə qarşı sevgi bəsləyənlər və insanların çətinliyə düşdüyünə qeydsiz baxa bilməyənlər, insanların ən yaxşısı və mərhəmətlisidir. Demək ki, mərhəməti yaradan şey, vicdan və insafdır. Kimdə vicdan, insaf və öz həmcinsinə qarşı sevgi varsa, o mərhəmətlidir.

İlyas bu sözləri qızla bərabər çayı keçdiyi zaman deyirdi. Çayı keçdilər. Qız sahildə dayanıb ayaqqabılarını geydi, şeylərini götürüb getmək istərkən, İlyasa tərəf dönərək:

– Siz burada tez-tezmi gəzirsiniz?

İlyas:

– Hava müsaid olduğu zaman hər axşam bu bağçalarda, bu meşələrdə gəzirəm, – dedi.

Qız təəccüblə:

– Əcəba, hər gün bu yerə gəlmək sizi yormurmu? – deyə soruşduqda, İlyas da:

– Xeyr, gözəl qız yormur. Madam ki, mən bu yerə yorğunluğumu çıxarmaq və dincəlmək üçün gəlirəm, o zaman nə üçün də yorulum, – dedi.

– Şəhərdə ağır işdəmi çalışırsınız?

– Ağır işlərdə çalışmıram, lakin ağır iş insanı heç bir vaxt yormaz. İnsanı yoran başqa şeylərdir.

– Siz onları mənə deyə bilməzsinizmi?

– Nə üçün deyə bilmərəm? Lakin sən şəhərdə yaşamasan mənim deməyimlə həman yorucu şeyləri öyrənə bilməzsən. Gəl mən sənin şeylərinə kömək edim. Səni bazarın yaxınlığına qədər yola salım, bizim evimiz də o tərəfdədir.

İlyas bu sözləri dedikdən sonra qızın bazara gətirdiyi şeyləri götürüb onunla bərabər yola düşdü. Qız yenə də yolda İlyasa sual verdi:

– Siz şəhərdəki yorucu şeylər haqqında mənə danışmaq istəmirsinizmi?

– Nə üçün istəmirəm? Şəhərin həyatı çox yorucudur. Şəxsi həyat üzərində qopan gurultular, yemək və qazanc üstündəki vuruşmalar, aldadanların şadlığı, aldananların göz yaşı, haqqını müdafiə edənlərin məğlubiyyəti, qaliblərin bayram təntənələri, daha açığı əzilənlər və onlara gülənlərin acı və dəhşətli görünüşləri tamamilə məni yoran

işlərdəndir. Buna görə də tez-tez bu tərəflərə gəlib qulaqlarıma, gözlərimə və fikrimə dinclik vermək istəyirəm.

Gənc qız bu sözləri eşidəndən sonra İlyasa müraciət etdi:

– Rica edirəm, dur bir az dincini al, yoruldun, bu ağır şeyləri daşımaq buna adət etməyən şəhər gəncləri üçün çətindir. Biz kəndliyik, ağırlığa öyrənmişik.

İlyas yenə də fikirli başına hərəkət verərək dedi:

– Doğrudur. Şəhərin daşıdığı ağırlıq başqa, kəndin daşıdığı ağırlıq isə bir başqadır. Bunların arasında böyük bir fərq vardır. Şəhərin daşıdığı ağırlıqların bir çoxu hissedilməz və ölçülməz ağırlıqlardır. Bu barədə danışmaq lazım olsa, sən bazara yubanarsan.

Qız yenə də sual verdi:

– Siz sabah burada olacaqsınızmı?

– Olacağam. Hər gün olacağam!

– Mən də sabah gələcəyəm.

– Gəl, yenə də sənə kömək etməyə hazıram.

– Mənim adım Rənadır. Kəndimiz buraya çox yaxındır. Xanəgah kəndindənəm. Bəs sizin adınız nədir?

– Mənim adım İlyasdır.

Qız əlini İlyasa uzadıb vidalaşmaq istərkən, İlyas diksindi və keçmişin şirin və nəşəli xatirələrindən ayrıldı. Bir daha çaya baxdı. O tərəflərdən, ta uzaqlardan belə gələn yox idi.

İlyas bir daha qəlbində:

– O bun gün də gəlmədi, – dedi, – əcəba, onun gəlməməsinə səbəb nədir? Xanəgah kəndindən bura qədər olan beş addım yolu gəlmək çətin idimi? O ki son günlər görüşdüyümüz zaman xəstə deyildi. Onun məndən çəkilib getməsinin başqa bir səbəbi olmalıdır. Mən onu heç bir zaman öz sevgimə bağlamaq üçün məcbur etməmişdim, hələ mən görüş yerinə bir az gec gələndə o şikayətlənirdi. İndi necə oldu ki, üç gündən bəri mənim tərəfimə üz çevirmir?! Mən onun bu qədər laqeyd bir qız olduğuna inana bilmirəm. Hər halda bu işi təhqiq etməliyəm. Ata-anası çox qocadır. Bəlkə də onlara bir bədbəxtlik üz vermişdir, elə isə, nə üçün mən özüm onu arayıb axtarmıram?

Bəlkə də qızın ata-anası onun tez-tez görüşə gəlməsinə mane olur? Lakin buna da inana bilmirəm, çünki onlar mənimlə Rənanın arasında başlanmış sevgidən şadlanırlar, onlar daima məni gördükləri zaman "indi bizim oğlumuz da var" deyə sevinirdilər. Bəs necə oldu



ki, Rəna mənim görüşümdən ayaq çəkdi? Mənim ona laqeyd deməyə haqqı yoxdur, çünki mənim özüm də laqeydəm. Onlar köməksiz bir ailədir. Oğulları yox, işləyə bilən ailə üzvləri də yoxdur. Ailənin bütün ağırlığı və təsərrüfat işlərini sahmana salmaq vəzifəsinin hamısı tək bir qızın öhdəsindədir.

İlyas Xanəgah kəndlilərindən bir nəfər taparaq Əhməd kişinin ailəsindən xəbər tutmaq istədi, odur ki, düz-doğru qəbiristanın yanına gəldi. Xanəgah kəndinə gedənlərin ancaq buradan keçib getdiklərini bilirdi. İlyas anasının qəbri üzərində də bir az oturdu və qəbir daşını gördüyü zaman anasının ölərkən verdiyi vəsiyyətləri xatırladı. Sanki anası onu qolları arasına alaraq:

– Səni sevməyən qız dünyanın gözəli olsa da onunla evlənmə, oğlum! – deyirdi.

İlyas ağladı, gözünün yaşından bir neçə qətrə də qəbrin daşına düşdü. Qəmli bir halda qəbrin üzərindən qalxdı, qəbiristandan çıxıb Xanəgah kəndinə doğru yol elədi. O yenə də keçmişlərin xatirəsilə əylənir, ağır addımlarla yol gedir və Rənaya yazdığı şeirləri əzbərləyirdi:

> Nədir bu qəmli baxış səndə, sevgilim Rəna,
> Dodaqlarında duran bir sükuti-pür məna!
> Nədən qəriqi kədərdir üzarü pürxəndən?
> Xəzanmı hiss elədin, ey nəcib gül, məndən?

İlyas bu misraları təkrar edə-edə getdiyi zaman birdən-birə qızların qəhqəhə səslərini eşitdi, diksinib dayandı, başını qaldırıb baxdıqda özünü Xanəgah kəndinin altındakı bulağın başında gördü. Bulaqdan səhəngini doldurub qayıdan, su aparmağa gələn, inəyini çöldən gətirən qız və qadınlar tez-tez İlyasın yanından gəlib keçirdi. Axşam idi, üfüqlər küsən bir qızın baxışı qədər tutqun idi. Artıq gəlib-gedənləri seçmək, tanımaq olmurdu. İlyas bir qədər söyüd ağacına söykənib durandan sonra yenə öz-özünə dedi:

– Burada durmağın nə mənası vardır?! O məni görməkdən xoşlansaydı, gəlib məni tapardı. Mənim bura gəlməyimin nə əhəmiyyəti var idi?

İlyas bu düşüncələrin içərisində söyüd ağacından ayrıldı və üzünü şəhərə tərəf çevirdi. Bu zaman bir qız da inəyini qabağına qatıb evə aparırdı. Onun bütün boy-buxunu, yerişi, görünüşü Rənaya bənzəyir-

di. İlyas dərhal dayandı, o artıq əvvəlki fikrindən daşındı, qıza bir daha diqqətlə baxdı, qızın başındakı ağ ipək kəlağayı axşam qaranlığına baxmayaraq onun Rəna olduğunu söyləyirdi. Buna görə qeyri-ixtiyari olaraq İlyasın ağzından bu sözlər çıxdı:

– Odur, Rənadır! Özüdür!

İlyas bu sözləri dedi, amma onu səsləməyə cəsarət etmədi. Lakin təxir etmək də yaramazdı: qız uzaqlaşır və axşam qaranlığının içərisində itirdi. Yenə də onun adını çəkməyə cəsarət etmədi və yavaşdan səslədi:

– Sənsənmi?!

Qız dərhal dayandı, bir neçə saniyə səs gələn tərəfə baxdı və sonra etinasız bir surətdə cavab verdi:

– Bəli, mənəm! Nə işin var idi?

Bu səs İlyasın qulaqlarına yol tapmadan bütün varlığına və qanına girdi. Qız duran tərəfə irəlilədi, ona yaxınlaşdı, diqqətlə baxdı. Tanıdı, o, Rəna idi, lakin bir neçə gün bundan əvvəl gördüyü Rənaya bənzəmirdi. Əvvəllər onu görürkən boynuna sarılan, başını sinəsinə söykəyib nazlanan, əllərini əlinə alan Rəna deyildi. O sanki heç tanımadığı bir adamın qarşısında durub cavab gözləyirdi. Bir neçə dəqiqə heç birisi danışmadı, nəhayət, Rəna inəyin uzaqlaşdığını görüncə İlyasa sual verdi:

– De görüm, sənin bu tərəflərdə nəyin qalmışdır?

– Özün fikir elə, Rəna, mənim qəlbimin burada qaldığını bilmirsənmi? Bunu bir daha soruşmağa nə lüzum vardır?

– Mən heç bir şey bilmirəm, bilmək də istəmirəm.

– Sən məni bu uzun müddətdə tanıya bilmədinmi? Məni öyrənə bilmədinmi?

– Kişiləri öyrəndim deyən qızlar ancaq özlərinin aldandığını öyrənmiş olurlar.

– Sən bu cür sözləri bir tərəfdə qoy qalsın. Zənnimcə, bu cür sözləri danışmağın vaxtı keçibdir. Görünür ki, mənim xəbərim olmadan bir hadisə üz vermişdir, yaxud bir söz eşidibsən, eləmi?

Rəna çox saymaz bir halda:

– Hamının eşidib bildiyi bir şeyi mənim eşitməyə haqqım yoxdurmu?

– Hamının bildiyi və eşitdiyi bir çox sözlər vardır ki, onlara inanmaq məcburi deyildir. Sən bizim ikimizə aid olan sözləri ancaq məndən eşit. Bizim gələcəyimiz haqqındakı hər bir məsələni ancaq ikimiz



həll edə bilərik. İndi mən bildim ki, neçə gündən bəri məndən üz çevirməyinin səbəbi nədir.

– Hərgah sənin öz yaxın adamların bir həqiqəti mənə söyləmiş olursa nə deyərsən? İnanmağa haqqım var, ya yox?

– Rəna, nə üçün belə düşünürsən? Mənim bu məmləkətdə sizdən başqa kimim vardır? Əcəba, mənim kimliyim sənə və atana məlum deyildirmi? Mən heç də sənin aralıq sözlərinə etibar edəcəyinə inanmırdım. Hərgah sən hər yetənin sözünə qulaq assan, o zaman mən tək qalmağa məcbur olacağam.

– İndi artıq sən tək deyilsən, sən daima Əmirin sarayında ziyafətlər və işrətlərdə vaxtını keçirməkdəsən.

İlyas öz sözlərini deyib bitirə bilmədi, onlar artıq Rənanın qapısına yetişmişdilər. Buna görə də İlyas əlini Rənaya tərəf uzadaraq:

– Elə isə salamat qal! – dedi.

Rəna da onun əlini tutub:

– Sən də salamat qal, – dedi, lakin onun əlini buraxmadı.

Onlar durub bir-birinə baxırdılar. İlyas evə girmək istəmirdi. Çünki Rənanın ata-anasından utanırdı.

İnək qapıya yetişərkən öz balasını xəbərdar etmək üçün mələdi. Rənanın anası inəyi qarşılamaq üçün dərhal evdən dişarı çıxdı və Rəna ilə İlyasın durub bir-birinə baxdıqlarını gördü. Qadın İlyası görürkən təəccüb etdi, çünki bu birinci dəfə idi ki, İlyas axşam vaxtı Xanəgah kəndinə gəlmişdi.

İlyas Rənanın anasını görürkən:

– Salam! – deyib durdu.

Qadın isə:

– Əleykəssəlam, küçədə nə üçün durmusan, gəl içəri, Əhməd də səni görmək istəyir, – dedi.

İlyas fikirli-fikirli addımlayıb darvazadan həyətə girdi. Rəna dərhal qollarını çırmayıb inəyi sağmaq üçün getdi. İlyas, Əhməd kişinin onu görmək istəməsində əhəmiyyətli və ciddi bir məsələ olduğunu anladı.

Şübhəsizdi ki, Əhməd kişi də qızı Rəna dediyi sözləri deyəcəkdi. İlyas içəri girdiyi zaman Əhməd kişi namaz üstündə idi, buna görə də İlyas salam verməyərək ayaq üstündə durub Əhməd kişinin namazdan qurtarmasını gözlədi. Əhməd kişi şam namazını bitirdi, İlyas salam verdi, qoca onun salamını alandan sonra, yanında yer göstərib:

– Oğlum, gəl otur, xoş gəlib, səfa gətirmisən, – dedi.

İlyas da razılıq etdi, başını aşağı salıb oturdu. Əhməd kişi sanki mühüm bir məsələ üzərində düşünürdü, tez-tez əllərini bir-birinə sürtür, ara-sıra əlini saqqalına və başının təpəsinə çəkir və əsəbiləşməmək üçün tez-tez "sübhanallah" kəlməsini təkrar edirdi. Nəhayət, İlyasın üzünə baxaraq başına hərəkət verməklə sözə başladı:

– Oğlum, İlyas, mən elə düşünürdüm ki, qoca vaxtımda iki xoşbəxtliyi birdən qazanacağam: sən də kimsəsiz bir oğlansan, bizim də oğul övladımız yoxdur, var-yox tək bir qızımız vardır. Sevinirdik, düşünürdük ki, yurdumuz boş qalmayacaqdır. Sən də xoşbəxt olacaqsan. Biz də qoca vaxtımızda ayağımızı rahat uzadıb öləcəyik. Xatircəm olacağıq ki, yurdumuzda bir nəfər çıraq yandıran vardır. Ancaq bütün arzularımız boşa çıxdı. Fələk biz düşünən kimi düşünmədi, arzularımız əksinə nəticə verdi. Səninlə qohumluğumuz baş tutmadan böyük bir bədbəxtliyə rast gəldik. Nə edək, bəlkə də qismətimiz belə imiş, hər halda axırımız xeyir olmadı.

İlyas, Əhməd kişinin dediklərini axıra qədər dinləyə bilmədi. Həyəcanlı və təəccüblü bir halda soruşdu:

– Mən sizi bədbəxt edə biləcək heç bir hərəkət göstərmədim, bəlkə siz əsli və əsası olmayan sözlər eşidibsiniz. Rica edirəm, məsələni lazımi qədər təhqiq edin.

Əhməd kişi İlyasın bu sözündən sonra əlini qoynuna aparıb bir məktub çıxartdı və:

– Al oxu, gör bu şayiələrə inanmağa haqqım var, ya yox? – dedi.

İlyas məktubu alıb oxudu, məktubu Əmir İnancın qızı Qətibə imzalamışdı.

"Əhməd kişi, bu məktubu alandan bir həftə sonra Xanəgah kəndindən köçüb getməlisən. Bu müddətin içərisində köçüb getməsən səni, ailəni də həbsə aldırıb, sürgün etdirəcəyəm. Sənin qızına heç bir vaxt oğlanlarla görüşmək və xalqın əxlaqını pozmaq ixtiyarı verilməmişdir.

*Qətibə*".

İlyas məktubu oxuyub Əhməd kişiyə qaytardı. Lakin nə cavab verəcəyini bilmədi. Ancaq bir kərə titrək səslə:

– Əmin olun, nə mən, nə də Rəna əxlaqsızıq! – dedi.

Əhməd kişi cavabında:



– Bilirəm, oğlum. Ona söz və şübhə ola bilməz. Lakin bir qızla tanış olduğun zaman əlində imkan olub-olmadığını düşünməlisən. Madam ki, sən Əmir kimi bir adamın qızı ilə tanışsan, onlarla əlaqədəsən, onların evinə gedib gəlirsən, onun qızı ilə yazışırsan, o zaman ikinci bir qızın yaxasını buraxmalı idin. Əvvələn bu yazıq qızın gənc qəlbini həmişəlik yaraladın, ikinci də, mənim bu qoca vaxtımda dərbədər düşməyimə səbəb oldun. Özüm üçün bir kasıb koma düzəltmişdim, bir parça əkin yerim, bir balaca bağçam da var idi. İndi iki inəyi, iki nəfər də qadın və qızı qabağıma qatıb buradan Əlibəyli kəndinə köçməliyəm, bəlkə də, orada özümə bir yuva tapdım!

Əhməd kişinin bu sözlərindən sonra sanki dünya fırlanıb İlyasın başına dəydi. O, Əhməd kişiyə sual verdi:

– Qətibə bu məktubu sizə kimin vasitəsilə göndəribdir?

– Sənin öz yaxın adamınla: Əbül-Ülanın cariyəsi Səba xanımla.

– Mən sizi əmin edirəm ki, bu məktubdan Əmir İnanc qızı Qətibənin xəbəri yoxdur, bunu Səba xanımın özü düzəldibdir.

Əhməd kişi:

– Ola bilməz! – dedikdə, İlyas:

– Ola bilər, çünki Əbül-Ülanın ailəsilə mənim əlaqəm pozulmuşdur. Əbül-Üla Şirvan şahının sarayına köçəndən sonra bizim hamımız ona nifrət etmişik, onlar bunun səbəbini məndə görürlər. Buna görədir ki, haqqımda fitnələr və böhtanlar toxuyub düzəldirlər. Siz əmin olunuz ki, Qətibənin bu məktubdan xəbəri yoxdur. Bu yazı onun yazısı deyil, Səbanın öz xəttidir. Məktubu Qətibə yazmış olsaydı, öz nökəri ilə göndərərdi. Siz öz yerinizdə rahat oturun. İndi o zaman deyil, Əmirin bu cür işlərlə məşğul olmağa vaxtı yoxdur. O, xalq ilə hesablaşmağa məcburdur. Nə onlar, nə də mən qohumluq haqqında düşünürük. Mənim onların evinə gedib gəlməyim başqa bir məqsəd üçündür. Bəlkə də, bunun səbəbini siz gələcəkdə biləcəksiniz. Hazırda Əmir öz mövqeyini əlində saxlamaq üçün yerli xalqa yaltaqlanmağa başlamışdır.

İlyasın bu sözlərindən sonra Əhməd kişinin qəlbi bir az sakit oldu, arvadını otağa çağırıb, məsələni ona da anlatdı, hər ikisi bu xəbərdən razı qaldılar, lakin Rəna otağa gəlmirdi, utanırdı. Əhməd kişi onu səslədi:

– Rəna, otağa gəl! Qonağa qarşı etinasızlıq yaramaz! – dedi.

Rəna əlində süfrə otağa girdi və şam yeməyi hazırlığına başladı. İlyası da şam yeməyinə saxladılar.

Qətibə, Səba xanımı Əbül-Ülanın qadını Cahan Banudan almaq üçün o qədər də vaxt sərf etmədi. Çünki onsuz da qoca şairin ailəsi söz gəzdirən və macəraçılığı sevən bu fitnəkar cariyənin əlindən qurtarmağa çalışırdı. Səba xanımın fitnələri səbəbinə Gəncədə yaşayan bütün ziyalı ailələr Əbül-Ülanın ailəsilə əlaqəni kəsmişdi.

Səba xanımın fitnəkarlığı o dərəcəyə çatmışdı ki, hətta bir çox gənclərdən pul və hədiyyələr alıb Əbül-Ülanın kiçik qızı Mahtab xanımla onları tanış edəcəyini vədə eləmişdi.

Buna görə də Cahan Banu xanım Qətibənin göndərdiyi üç min dinar gümüş pul müqabilində Səba xanımı Qətibəyə hədiyyə göndərmişdi. Səba xanımın Qətibəyə olan birinci xidməti Nizaminin sevgilisi Rənanın atasına aparıb verdiyi məktub idi. Məktubdan əldə edilən müvəffəqiyyət Qətibəni öz gələcəyinə inandırmışdı, o bu müvəffəqiyyəti təhqiq etmək üçün hər gün öz cariyələrindən birisini Nizaminin Rəna ilə görüşdüyü yerə göndərir və Rənanın görüş üçün gəlmədiyini öyrənir və şadlanırdı.

Artıq Qətibənin yanında Səba xanımdan artıq hörmətli və etimad ediləcək bir cariyə yox idi. O, daima Səba xanımla oturar, onunla dərdləşər, onunla gəzər və onunla da yatardı.

Səba xanım gecələrin birində Qətibənin eşq və sevda sərsəmləmələrindən ibarət olan söhbətlərinə cavab verərək deyirdi:

– Mən öz möhtəşəm xanımım Qətibənin xatiri üçün öz müqəddəs arzularımdan da keçə bilərəm. Mən qəlbimdə bəslədiyim qiymətli cavahirləri belə xanımın yolunda qurban verməyə hazıram. Mən o böyük və inadlı şairi Rəna kimi dəyərsiz bir qızın sevgisindən qoparıb xanımın saçları ilə kəməndə sala bilərəm. Bu işi başladım. Gördüyüm işlər qələbə ilə nəticələndi, artıq gənc xanım şairi öz əlində əsir görməyə əmin ola bilər.

Qətibə hiyləgər Səbanın bu qədər yağlı və şirin vədlərindən sevindi və yatağından qalxıb Səba xanımın boynunu qucaqladı, onun üzündən öpdü və boynundakı qiymətli incini çıxarıb Səba xanımın boynundan asdı. Səba xanım sevindiyindən hönkür-hönkür ağladı və Qətibəyə dua edərək:

– Məndə bu qədər ehsanın əvəzi yoxdur, – dedi. – Allah səni bəladan saxlasın, sağlıq olursa, sən məndən bir çox şeylər öyrənəcəksən.



Qətibə, Səbanı özü üçün göylərdən nazil olmuş bir nemət hesab edirdi, çünki o, macəranı sevir və macəraçı cariyələrə ta uşaqlıqdan hörmət bəsləyirdi.

Səba xanım varlı və dövlətli yerə düşdüyünü və Fəxrəddindən intiqam ala biləcəyini, Qətibə isə bu macəraçının yardımı nəticəsində Rənanı məhv edib gənc şairə sahiblənməyi düşünürdü.

Səba xanım gözünün yaşını sildikdən sonra:

– Mən heç də Dilşadın burada böyük bir mövqe tutmasından razı deyiləm, – dedi.

Qətibə cavabında:

– O barədə heç də düşünmə! Onun sarayda qalmasına inanma, atam onu da, Süsən xanımı da xəlifə üçün bəsləməkdədir, – dedi.

– Əcəba, Dilşad Fəxrəddinə ərə gedəndən sonra atan onu xəlifə həzrətlərinə göndərəcəkdir?

Qətibə onun üzündən bir daha öpərək anlatmağa başladı:

– Atamın xəlifəyə yazdığı məktubda Süsənin də, Dilşadın da adını oxumuşam. Buna görə də Dilşadın Fəxrəddinə ərə gedə bilməyəcəyinə tamamilə əminəm.

Səba şad bir vəziyyət alaraq:

– Elə də olmalıdır. Qəlbi yaralayanların qəlbi yaralanmalıdır, – dedi.

Qətibə soruşdu:

– Əcəba, Fəxrəddin sənin qəlbini sındırmışdırmı?

– O mənim gəncliyimi əbədi olaraq zəhərləmişdir. O mənimlə illərdən bəri əyləndi. Mənsiz şad bir nəfəs almayacağını söylədi. Dünyaya yalnız məni görmək üçün baxdığını təkrar-təkrar danışdı. O, daima mənim gözlərimdən öpdüyü zaman dünya işığına ancaq mənim gözlərimlə baxdığını deyirdi. O mənim qara saçlarımla əyləndiyi zaman ona zindan kəsilən bu dünyaya ancaq mənim saçlarımla bağlandığını iddia edirdi. O məni görmək üçün gəldiyi zaman Əbül-Ülanın astanasını Kəbə evinin astanası kimi öpməyə hazır idi. Mən də onu sevirdim. Mən gündüzləri onu düşünür, gecələri isə yuxumda onunla əylənirdim. Buna haqlı idim, çünki bu eşqin tarixi çox uzun idi. Mən çox da tələsən qızlardan deyildim. Çünki o məni öz eşqinə inandırmışdı. Mən onun ikiüzlü eşqinə aldanmaqda haqlı idim, çünki elə bir qəhrəman, elə bir yaraşıqlı gənc çox az ələ düşərdi. Mən özümü dünyanın ən məşhur bir qadını bilir və bu arzularla uçurdum: onun

gələcəkdə məşhur bir qəhrəman olacağına heç bir kəs şübhə etmir. Hətta mən onun eşqi və sevgisi üçün burada ondan da layiqli, yaraşıqlı bir gəncin otəyini buraxdım. O isə məni bir dəyərsiz, elmsiz cariyəyə satdı. Mənim eşqimi onun eşqi ilə əvəz etdi. Artıq mənim heç bir ümidim qalmadı, ümid edəcəyim bir şey varsa, o da intiqamdır. Lakin burada mənə bir kömək lazımdır.

Qətibə bir az düşündü və məhzun bir surətdə dedi:

– Səni anlayıram, düşdüyün vəziyyət olduqca ağırdır. Səni ancaq mən duya bilərəm. Bir hiss mənə deyir ki, məni də gələcəkdə sənin aqibətin gözləyir. Görünür ki, gələcəkdə mən də özümə kömək axtarmalı olacağam.

– Nə qədər canım sağdır, hər nə işin olsa, buyura bilərsən. Qəlbin bir kəsdən intiqam tələb edərsə, sənin yolunda ölümə getməyə hazıram.

– Mən də sənə Fəxrəddindən alacağın intiqamda kömək etməyə söz verirəm. Mənə inana bilərsən. Ax, hiyləgər qız! Fəxrəddini sevdiyin üçünmü şairi mənə güzəştə getdin?

– Şairlik böyük bir vergidir. Qəhrəmanlıq isə möcüzədir. Buna görə də Fəxrəddin çoxdan bəri mənim qəlbimə girmək üçün yol axtarırdı. İndi isə mənim qəlbim onun sevgisinə açıqdır.

– Mən Dilşadı saraydan çıxarıb Bağdada göndərəcəyimə söz verirəm. Fəxrəddinlə görüşüb razılaşmaq isə sənin öz işindir. Mən bunun üçün heç bir çarə edə bilməyəcəyəm, çünki Fəxrəddinlə görüşüb danışmaq imkan xaricindədir. Mən özümü rüsvay edə bilmərəm.

Səba xanım Qətibənin boynunu qucaqlayıb öpdü:

– Sən ancaq mənimlə rəqabət edə biləcək Dilşadı aralıqdan çıxarmağı öhdənə götür. Son məsələ haqqında nə cür hərəkət etməyi mənim özüm bacara bilərəm.

– Fəxrəddinlə görüşəcəksənmi?

– Yox, o mənim ilə görüşməyə özü məcbur olacaqdır.

– Onu sən nə cür məcbur edəcəksən?

– Sən icazə verəndən sonra, burası çox da çətin deyil.

– Mən mane deyiləm.

– Mən Dilşadın dilindən ona bir məktub göndərəcəyəm. O məktubda Səba xanımla görüşməyi tapşıracağam.

– Bu fikri bəyənirəm. Bu vasitə ilə görüşə bilərsən, ancaq onu öz sevginə razı edə bilməzsən, çünki o, Dilşadı qəlbən sevir.



– Qəlbən sevdiyinə inanıram. Lakin qəlb fikrə hakim deyil. Qəlbi özbaşına qoymazlar. Dilşad gözəldirsə, mən də gözələm, eyni zamanda mən ürəklərlə oynamağı da bacarıram.

– Mənim üçün belə bir adam lazımdır. Mən daima səninlə dost olacağam. Mən hər yerdə olursam, sən də mənim yanımda olmalısan.

Çox uzun danışdılar. Səba xanım kağız və qələm hazırlayıb yazmağa başladı. Qətibəni yuxu aparmışdı. Bir qədər yatıb ayıldıqdan sonra Səba xanımın oturub yenə də yazdığını görüb soruşdu:

– Əcəba, nə qədər çətin bir şey yazırsan ki, saatlarla məşğulsan?

– Yazmaq çox asandır. Lakin düşünərək yazmaq çox çətindir. Bir az da dayan, sonra məktubu sənə oxuyaram. Mənim nə qədər fitnə və möcüzəkar bir qız olduğumu görərsən.

Səba xanım bu sözləri deyərək, bir qədər də məşğul oldu, qələmi yerinə qoyub Qətibəyə tərəf döndü və dedi:

– İndi eşit, gör nə yazmışam:

"Bu məktub adı Dilşad, özü naşad olan bir cariyədən sevgisi və eşqi məlum olmayan bir qəhrəmana yazılır. Mənə vəfa və sədaqət öyrətdiyin halda, özün bunun əleyhinə işlədin. Mənim qəlbimdən geri götürdüyün cavahirləri başqalarının başına səpməyə başladın. Gözümüzün bəbəyində, bir-birimizin çöhrəsinə baxdığımız zaman, sənin qəlbini öyrənə bildim. Mən baharın lalələri qarşısında eşqin camını içməyə başlayırdım, lakin mən piyaləni doldurmadan bahar gəlib keçdi. Mən bəzi sözləri eşitməməyə çalışıram. Onlar bir külək kimi gəlib keçir, lakin o külək qəlbimdə yanan odları alovlandırır. Ürək sındı, onu bir daha soruşma, qanadları sınan quşa bir daha daş atmaq qəhrəmanlara yaraşmaz. Mən qəlbimi sənə açmaqda və öz sevgimi elan etməkdə yanılmışdım. Ayrılıq dərdindən xəbərdar olmayan adamlara qəlbin qapısını açmaq olmazmış. Dünyada eşq bundan ibarət imişsə, onunla yaşamaq çox çətindir. Əgər yar sənin kimi daşqəlblilərdən ibarətsə, onunla dirilik mümkündürmü?!

Sənə demək istədiyim əsas sözlərimi və səndən sənə edəcəyim şikayətləri bu məktubda yazmağa cəsarət etmədim. Hərgah nə demək istədiyimi bilmək istəsən, Səba xanımı tapıb danış və nə deyəcəyimi ondan soruş.

*Bədbəxt Dilşad*".

Səba xanım məktubu Qətibəyə oxuduqdan sonra büküb cibinə qoydu:

– Görüşdüyüm zaman ona nə deyəcəyim haqqında düşünmək lazımdır. Bu barədə xanıma ayrıca danışaram.

Onlar hələ yatmamışdılar ki, xacə Müfid qapını barmağı ilə vurub dedi:

– Xanımlar yatmalıdırlar. Gecədən çox keçibdir.

## XƏLİFƏNİN MƏKTUBU

"Damad-müəzzəm!

Zamanın hadisələri xəlifeyi-ruyi-zəminin arzuları üzrə həll olundu. Xəlifə nüfuzu əleyhinə üsyan və qiyam edənlərin hamısı bir-birini əzib məğlub etdi. Onlar nəticədə xəlifənin himayəsini qəbul etməyə məcbur oldular. Gün çıxan məmləkətlərdə də baş verən ixtilaf Allah tərəfindən kömək olunmuş xəlifənin rəy və fərmanı ilə həll olundu.

Əmirin tərəfindən göndərilən dörd məktubu almışam. Lakin bir-birini təqib edən hadisələr damad-müəzzəmin məktubuna müsbət cavab verməyə imkan vermirdi.

Bir həftə bundan əvvəl Atabəy Məhəmməd Bəhram şah müharibəsindən qələbə ilə Həmədana girmişdi. O, bu gün xəlifənin ayaqlarından öpmək üçün Darüssəlamə[1] gəlmişdi. Bu gün onun atabəyliyini və qardaşı Qızıl Arslanın Təbriz hökumətinə namizədliyini, Əmir-müəzzəmin isə Aran ölkəsindəki hökmdarlığını təsdiq etdim. Şirvan şahlığı ilə nə kimi əlaqə saxlamağın barəsində ayrıca məktub göndərəcəyəm. Şirvan şahlığının toxunulmazlığı haqqında Sultan Toğrul və onun Atabəyi Məhəmməddən təminat alınmışdır.

Bir daha qeyd etmək lazımdır ki, illər uzunu davam edən hadisələr nəticəsində Bağdad xəzinəsi tamamilə boşalmışdır. Arandan Darüssəlamın Beytülmalına[2] göndərilməyən dörd illik təxsisat göndərilməlidir.

Məmləkətlərə təzə təyin edilmiş atabəylərə, əmirülüməralara, soltanlara və hökmdarlara hədiyyə vermək üçün ağ irqə mənsub, yəni

[1] Darüssəlam – Bağdadın adıdır.
[2] Beytülmal – xəzinə deməkdir.



ərəb olmayan cariyələr lazımdır. Xüsusən xas qulamlara böyük ehtiyac vardır. Mümkün olduğu qədər gözəl cariyələr və qulamlar göndərəsən. Keçən məktubların birisində "Əmirəlmömininin üçün sarayda Süsən və Dilşad adlı iki gözəl cariyə bəsləyirəm" – deyə yazmışdın. Onları mümkün olursa təcili surətdə göndərəsən. Sarayda olan cariyələr qocaldığı üçün səfirlər və elçilərin məclislərində xidmət etməyə layiq deyildirlər. Bağdadda gözəl cariyələr yoxdur. Hətta Fənahsın "Qadın və qızlar dünyası" adlanan müəssisəsində də xəlifəyə layiq qızlar və qulamlar tapılmır. Əvvəlcə vədə verdiyin cariyələri göndərməlisən. Onları burada Fənhasın tərbiyəxanasında hazırlatdırıb saraya almaq mümkündür.

Baqi Allahın mərhəməti və xəlifeyi-ruyi-zəminin himayəsi damad-müəzzəmin haqqında şamildir.

Darüssəlam. *Əmirəlmöminin xəlifə Müstərşidbillah*".

Əmir İnanc məktubu alan kimi şadlığından nə edəcəyini şaşırdı. Dərhal vəziri Toxtamışı yanına çağırıb məktubu ona oxudu. Toxtamış:

– Əmiri təbrik edirəm. Bu xəbər xudavəndi-aləmin böyük bir hərəkətidir, – dedi. – Lakin Əmir bu məktubu heç bir kəsə göstərməməli və danışmamalıdır. Çünki məktubun məzmunu Aran istiqlaliyyəti məsələsini kölgədə buraxır.

Əmir Toxtamışın sözünü təsdiq etməklə bərabər məktuba cavab vermək haqqında onun məsləhətini soruşdu. Toxtamış bununla da razılaşmayaraq dedi:

– Cavab yazmaq məsləhət deyil, çünki yolların hamısı bizə yabançı olanların əlindədir. Bizim xəlifəyə göndərəcəyimiz məktub başqalarının əlinə düşə bilər. O zaman bütün tədbirlərimiz əks nəticə verər.

Əmir Toxtamışın nəsihətləri ilə razılaşmadı və Toxtamışa etiraz edərək dedi:

– Əmirəlmömininin məktubunu cavabsız buraxmaq ona qarşı böyük həqarətdir.

Toxtamış yenə də bu fikir ilə razılaşmadı:

– Cavabın təxirə düşməsi xəlifə üçün təhqir deyildir, çünki xəlifənin özü də Azərbaycanın nə vəziyyətdə olduğunu bilir. Bir də budur ki, xəlifəyə quru bir məktub göndərməyin heç də mənası yoxdur.

Xəlifənin məktubda göstərdiyi məsələlərə cavab verməк lazımdır. Məmləkətin bu vəziyyətilə xəlifəyə pul göndərmək ağılsızlıqdır. Gəncədən Araz kənarına qədər olan torpaqların hər qarışı bir adamın əlindədir. Atabəylərin qoşunu məmləkəti işğal edəndən və yollarda əmin-amanlıq başlanandan sonra cariyələri də, xəzinəni də, məktubu da göndərə bilərik.

Məktubun azərbaycanlıların əlinə düşərsə, sənin Azərbaycan istiqlaliyyətinə xəyanət etdiyini və böyük bir xalqı aldatdığını ifşa edərlər. O zaman həyatın da təhlükə altında qala bilər. Xüsusən xalq xəlifənin adını eşitmək istəmədiyi bir zamanda sənin xəlifə ilə əlaqədə olmağın böyük bir qorxunun zəminəsini qoya bilər. İndi daha o vaxt deyil, xəlifə nüfuzunu Qurana və dinə əsaslandırmaq istəyənlər öz-özünü aldadır. Hazırda nüfuzu yalnız qoşun və qılınc vasitəsilə saxlamaq mümkündür.

Əmir Toxtamışın tədbirlərilə razılaşmadı, o, xəlifənin məktubunu cavabsız qoymağı yenə də Əmirəlmömininə qarşı ədəbsizlik hesab etdi. Nəhayət, məktubu yazdırdı.

"Bu gün Darüssəlamdan xəlifeyi-ruyi-zəmin, Əmirəlmöminin həzrətlərinin mübarək məktubunu alıb gözlərimizə sürtməyə və öpməyə nail olduq. Xudavəndi-aləmə hədsiz şükürlər etdik ki, Əmirəlmöminin öz nökərlərini yadından çıxarmamışdır. Üç ildən bəridir ki, Darüssəlam ilə əlaqəmiz kəsilmişdi, lakin qəlbən və ruhən Əmirəlmöminin həzrətlərinin nüfuz və iradəsi ilə sıxı bir surətdə bağlı idik.

Şimali Azərbaycanın vəziyyəti olduqca çətin bir şəkil alıb. Xalq artıq yerli hakimləri tanımaq istəmir. Əmirəlmöminin həzrətlərinə hamıdan əvvəl Şirvan şahlığı ilə Aran havalisi arasında mövcud olan əlaqə haqqında yazmağı lazım bilirəm.

Şirvan şahlığı Aran havalisinin başsızlığından istifadə edib bu ölkəni öz məmləkətinə ilhaq etmək istədi. Bu məqsədə əsasən də Gəncənin nüfuzlu adamlarını öz tərəfinə çəkib böyük hədiyyələr, xələtlər, ehsanlar verir, hətta şair Əbül-Üla belə hazırda xaqanın sarayında yaşayır. Əmirəlmömininin aciz nökərləri Aran ilə Şirvanın birləşməsi işini gələcəkdə xəlifə nüfuzuna qarşı zərərli hesab edib bu ilhaqa əngəl törətdilər. Bu təşəbbüsümüzə Arandakı Azərbaycan vətənpərvərləri də kömək etdi.

Şimali Azərbaycanda hökumətə qarşı ciddi bir üsyan hərəkatı hiss olunurdu. Aralıqda hökuməti məmləkətdən xaric etmək, ərəb nümayəndələrini sürgün eləmək və sair bu kimi fikirlər genişlənməkdə idi. Biz isə onlara istiqlaliyyət vədəsi verməklə bu fikirləri onların başından çıxardıq. Hərgah Əmirəlmöminin nökərləri bu təşəbbüsündə xəlifənin müqəddəs iradəsinə qarşı bir günah mürtəkib olubdursa, xəlifə öz mərhəmətilə nökərlərini bağışlasın. Hazırda Şimali Azərbaycanda xalq qardaşlığı məsələləri olduqca böyük dairədə inkişaf edir. Xalqın ziyalıları, başda şair Nizami olmaq üzrə Zəncanlı Əxi Fərruxun qardaşlaşdırma əqidəsini xalq içərisinə yayırlar, onlar bununla müxtəlif əqidə və müxtəlif təriqətlər daşımaqda olan xalqı vahid bir əqidə ətrafında cəm etməyi düşünürlər. Bu məsələ daha qorxulu məsələdir.

Azərbaycan xalqı dinə və hökumətə qarşı üsyan etmək işinə Babəkin zamanından alışmışdır. Bu barədə Azərbaycan xalqı ən qorxulu xalqdır. Bunlar son illər dinə, mövhumata, üləmaya və ruhanilərə bir hökumət nümayəndəsi deməyə başlayıblar. Gəncə xətibinin əleyhinə böyük bir üsyan başlanacaqdı. Onu sürgün etmək bəhanəsilə bir qədər xərc verib Kəbə ziyarətinə göndərdim. Əmirəlmöminin həzrətlərinin xatiri-şərifi kədərlənsə belə, bir məsələni də gizlədə bilməyəcəyəm. Azərbaycan əhalisini sakit etmək üçün "ərəb nüfuzunu ölkədən təmizləyirik" deyə bir neçə nəfər ərəbi də zahirdə Azərbaycandan çıxardım. Onlardan birisi də katibim Mühakim ibn-Davud idi. O, xəlifeyi-ruyi-zəminin hüququna qarşı xəyanət əli uzadıb, sarayda xəlifə üçün tərbiyə edilən Dilşad adlı qıza sevgi elan edirdi, buna görə də onu cəzalandırıb, sonra da Azərbaycandan xaric etdim. Bu tədbirlərimiz də çox gözəl nəticə verdi...

Beytülmala olan borclarımız haqqında deməliyəm ki, maliyyə vəziyyəti çox ağır bir şəkil alıb. Əhali çox dikbaşdır, bəzən kəndlərdə və şəhərlərdə olan vergi yığanlarımızı ən sadə bir kəndli döyüb qovur. Adamlarımız aylarla vergi yığmağa gedə bilmir. Vergi yığanlardan bir çoxunun başını yarıb geri qaytarırlar.

Hərgah Əmirəlmömininin müqəddəs məktubunda göstərildiyi kimi yaxında işlər yoluna düşərsə, vergiləri tamamilə bir neçə ayın içərisində yığıb beytülmala olan borcları göndərə bilərəm.

Cariyələr və qulamlar göndərmək barəsində də bir neçə söz yazmaq istəyirəm. Əvvəlcə burada qız yığmaq üsulu vergi əsasına tətbiq olunurdu. O zaman Əmirəlmöminin həzrətlərinə layiq olan qızları siyahı edib atalarına çox ağır vergilər qoyurduq. Onlar ağır vergini verə bilmədiyi üçün qızını Əmirəlmöminin həzrətlərinə kəniz vermək

şərəfinə nail olurdu. Lakin indi nəinki ağır vergi, hətta yüngül vergi də qoymaq mümkün deyil.

Hazırda xəlifəyə layiq olan qırx nəfər qızın siyahısı vardır. Aralıq sakit olan kimi onları yığıb Süsən və Dilşadla bərabər Əmirəlmöminінin hüzuruna göndərəcəyəm. Hələlik Azərbaycandan kənara qız göndərmək çox qorxulu bir işdir. Xüsusən Dilşadı şəhərin ən nüfuzlu adamlarından Fəxrəddin də sevir, mən də məmləkətin məsləhətini nəzərə alıb ona söz vermişəm. Əmirəlmöminin himayəsi üstümüzdə olursa, tez bir zamanda Fəxrəddin başqaları ilə bərabər aradan qaldırıb, Dilşadı hüzura göndərəcəyəm.

Əmirəlmömininin sadiq qulu *İnanc*".

Məktubun üstünü möhürləyib Əmir İnancın nökərlərindən Hacibə tapşırdılar. Hacib gecə ikən heç bir kəsə bildirmədən, Qarabağa, oradan da Araz çayını keçib Bağdada getməli idi.

## XƏLİFƏNİN QASİDİ

Əmirin qapısında vurulan fənərlərin içindəki piy çıraqları hələlik yanırdı. Piy çıraqlarının işıqları qapıda gəzən gözətçinin kölgəsini təşkil edə bilməyəcək qədər zəif idi. İşığın əhatə edəcəyi məsafə bir neçə qədəmdən artıq deyildi. Bir-birinə rəqib kəsilən və sönük piltənin bozumtraq alovunu qucaqlamaq istəyən qısqanc pərvanələrin son dəstələri qırılır və dəli bir sevgiyə qurban verilirdi.

Qarovul, çiynində nizə o tərəf bu tərəfə gəzir və bəzən nizəsinə söykənərək mürgüləyirdi. Fəxrəddin öz adamları vasitəsilə Əmirin qarovullarına hiss etdirmədən sarayı və saray bağçasını mühasirəyə aldırmışdı. Fəxrəddinin özü də bir neçə yoldaşı ilə bərabər sarayın bağça qapısını nəzarət altına almışdı, çünki gecələri sarayla olan əlaqə ancaq bağça qapısından idi. Nədənsə bu gecə Əmirin sarayından bir nəfər də olsa dişarı çıxmamışdı.

Səhərə az qalırdı. İşvəkar qadınlar kimi üzünün bir tərəfini göstərən ay da mavi havada gəzdiyi zaman su üzərində üzən yarımçıq qarpız qabığını təsvir edirdi.

Ayın ziyası olduqca zəif idi. Ətrafında dolaşan xırda ulduzların işığına belə qalib gələ bilmirdi.



Ay çıxan kimi Mahmudlu və Əbubəkr kəndinin köpəkləri ağzını fəzaya tutaraq bir ağızdan ulaşmağa başladılar. Əmirin sarayını güdən qarovullar "səhərdir!" – deyə çəkilib getmək istərkən, saray qarovulçuları da köpəklərin ulaşmasını eşidərək, səkiyə söykənib yatmışdılar. Fəxrəddin bağça qapısından ayrılmamışdı. Bir az sonra Əmirin bağça qapısında bağlanmış köpəklərin də səsi eşidildi. Bir dəqiqə keçmədən bağça qapısı açıldı, qapıdan bir nəfər çıxıb köpəyə yanaşdı, köpək isə onu görən kimi səsini kəsərək yaltaqlanmağa başladı.

Köpək sakit olandan sonra qapıdan ikinci bir nəfər çıxıb düzdoğru çay kənarına düşməyə başladı. Köpəyi sakit edən adam yenə də bağçaya girib, qapını bağlayaraq getdi.

Fəxrəddin yanındakı yoldaşları ilə bağçadan çıxaraq, çaya tərəf düşən adamı təqib etməyə başladı. Naməlum adam çayı keçmək üçün körpüyə yanaşmadı, çayın kənarına düşən kimi soyunub çayı keçdi. Bu, onu təqib edənlərin şübhələrini bir daha artırdı. Onlar da çayı keçib iki hissəyə ayrıldılar; bir hissəsi Musa dəyirmanının üstündən aşıb onu qarşılamaq üçün yol başladı, o biri hissə isə onu təqiblə yoluna davam etdi.

Naməlum adamın keçib getməsi üçün ancaq bircə yol var idi. O, Xanəgah kəndinin ayağındakı qəbiristanın qərb tərəfindən keçib getməyə məcbur idi.

Fəxrəddinin adamları Musa dəyirmanının üstündən aşıb naməlum adamın yolunu kəsmişdilər.

Naməlum adam yetişdi, ona çox diqqətlə baxdılar, o heç də sarayda yaşayan adama bənzəmirdi. Hər halda saraydan çıxdığı üçün qarovullar da onu saxlamalı və yanında nə apardığını yoxlamalı idilər.

Şeyx Saleh məqbərəsinin yanından keçərkən onun başına bir palaz atıb məqbərənin içinə gətirdilər. Onu arxadan təqib edənlər də gəlib yetişdi. Naməlum adamı son köynəyinə qədər soyundurdular və yanında olan şeyləri götürüb yola düşdülər.

Hacib, tamamilə bir tuman-köynəkdə qayıdıb Əmirin sarayına gəldiyi vaxt hələ işıqlanmamışdı. O, bağça qapısına yanaşa bilmədi, çünki qapıda bağlanan sərt köpək onu yırtıb dağıda bilərdi. O, saray qapısına yanaşıb mürgüləməkdə olan qarovulu oyatdı və:

– Tez məni içəri burax, məni bu halda görməsinlər! – dedi.

Qarovul onu başından ayağına qədər gözdən keçirdi. Gözlərini ovub ona diqqətlə baxdı və azərbaycanca soruşdu:

– Nə istəyirsən, bu nə haldır?

Hacib qarovulun ərəbcə bilmədiyini görüncə, çox həyəcanlı bir surətdə:

– Ənəlüryan, ənəl Hacib ibn-Tahir! – dedi. Qarovul yenə də bir şey anlamayaraq sakit-sakit baxmağa başladı. Bu sükut bir neçə dəqiqə çəkdi, nəhayət, qarovul nə düşündüsə qapını vurub qarovulbaşını çağırdı, qarovulbaşı ərəb olduğu üçün Haciblə danışdı, məsələni aydın etdi və Hacibi içəri aldı.

Əmir hələ yatağından qalxmamışdı; o, gecəki sərxoşluğun xumarlığı altında nazlanırdı. Gözəl cariyələr yataq otağına girib hər günkü vəzifələrinə başlamışdılar.

Əvvəlcə Zərifə ilə Hümeyra adlı iki gözəl cariyənin birisi Əmirin sağında, ikincisi isə solunda oturub, onun ayaqlarını və qılçasının yumşaqlarını ovur və onu nazlandırırdılar.

Zərifə ilə Hümeyra vəzifələrini bitirdikdən sonra Saniha ilə Gülnar adlı cariyələr Əmirin yatağına yanaşaraq onun hamam libasını geyindirməyə başladılar. Bu çox uzun çəkmədi. Əmir yataq otağından dəhlizə çıxandan sonra onu gözləməkdə olan on səkkiz nəfər gözəl və gənc cariyə onu aralığa alıb çimdirməyə götürdülər. On səkkiz cariyə Əmiri bir saatın zərfində çimdirib qurtardı. Yenə də Saniha ilə Gülnar hamama girib Əmirin namaz paltarlarını verdilər və geyindirib namaz otağına gətirdilər. Əmir namaza başlamaq istərkən gənc və gözəl cariyələr çəkilib getdilər. Bunlar getdikdən sonra Həyat xatun adlı qoca bir qadın içəri girib səccadəni xalçanın üstünə və Nibirə xatun gəlib canamazı səccadənin üstünə açdı, Əmir səhər namazına başladı.

Səhər namazı yarım saat çəkdi. Yarım saatdan sonra Şeyx Hadi Ülqari əlində Quran namaz otağına girib Əmirə yasin surəsini oxudu. Bir saatdan sonra Həyat xatunla Nibirə xatun içəri girib canamazı və səccadəni yığdılar.

Süfrə xidmətçiləri içəri girib süfrəni Əmir oturduğu döşəyin qarşısında saldılar. Bu anda qırx beş nəfər gözəl cariyə otağa girdi və əlvan yeməkləri süfrənin üzərinə döşəməyə başladı. Saqilər əllərində piyalələr daxil oldu, iki nəfər qulam rətli[1] gətirib süfrənin ortasında qoydu. Bunların dalınca da, şərabçılar içəri girib ağızları yaşıl ipəklərlə sarınmış şüşələri açıb rətlin içinə tökməyə başladılar.

[1] Şərab tökülən böyük vazlara deyilir.



Əmir süfrəyə əlini uzatmırdı, o bəzi qonaqları gözləyirdi. Əmirin vəziri Toxtamış və qoşun komandanlarından Hüsaməddin içəri girdilər, onlar süfrəyə oturunca Əmir "bismillah" dedi və səhər yeməyi başlandı. Musiqiçilər, onların dalınca da rəqqasələr otağa daxil oldular. Saqilər gümüş sinilərdə düzülmüş zərif piyalələrlə rətlə yanaşdılar. Şərabçı əlində gümüş abgərdən piyalələri doldurduğu zaman çalğıçılar işə başladı. Əmirin on nəfərdən ibarət rəqqasəsi də bir anda yerindən sıçrayaraq, Əmirə təzim etdilər və rəqsə başladılar. Rəqqasələrin göstərəcəyi bədii incəliklər Əmirin əlindəki piyaləsi ilə həmahəng olmamışdı ki, xidmətçi içəri girib səsləndi: – Hacib! Hacib.

Hər şey olduğu yerində qaldı. Piyalələr, rəqqasələr, saqilər, şərabçılar, süfrəyə yemək gətirən cariyələr – hər şey, hər şey sükuta büründü. Ancaq qoca vəzir Toxtamış xidmətçiyə müraciətlə:

– Get, Hacibi bura çağır! – dedi.

Sonra Əmir də cariyələrə əmr etdi:

– Süfrəni yığışdırın, hamınız da buradan gedin! – Otaq boşaldı, heç bir kəs qalmadı. Toxtamış Əmirə tərəf dönüb qəmgin və nəsihətverici bir halda dedi:

– Bu iş bir hadisəsiz deyildir. Mən Əmirə dedim ki, məktuba cavab yazmaq məsləhət deyil. Hər işdə olduğu kimi indi də mənim dediklərimi eşitmədin. Hazırkı vəziyyətin nə qədər qorxulu olduğunu nəzərə almaq lazım idi.

Hacib içəri girdi, o çılpaq idi, ancaq üstünə bir əba salmışdı. Əmir ona sual verdi:

– Bu nə hadisədir?

Hacib titrək bir səslə dedi:

– Çox şükür edirəm ki, mənim özümü öldürmədilər. Mən hələ şəhərdən o qədər də uzaqlaşmamışdım, kiçik bir kəndin altındakı qəbiristandan keçib, böyük bir məqbərəyə yaxınlaşırdım. Birdən başıma bir palaz atılıb məqbərəyə tərəf gətirildiyimi gördüm.

Əmir tələsik soruşdu:

– Məktubu almadılar ki?!

– Bütün hadisələr həmən məktubu məndən almaq üçün qurulmayıbdırmı?

Toxtamış yenə də başına hərəkət verib öz-özünə dedi:

– Bütün məmləkət göz olub bizi təqib edir, biz isə sarayın içərisinə soxulub, kor-koranə bir surətdə iş tuturuq.

Əmir də təəssüfedici və acizləşmiş bir halda əlini dizinə çırparaq dedi:

– Zəmanənin işinə baxın, vaxtilə mənim hər bir hərəkətim Aran məmləkətində bir hadisə kimi hər yerə və hər kəsə təsir yetirirdi, indi isə beş-altı nəfər adı-sanı məlum olmayan adam hər gün mənə qarşı bir hadisə yaradır.

Toxtamış Əmirə ürək verərək:

– Şaşırmağa və baş itirməyə dəyməz, hadisələrə qarşı hadisələr qoymaq lazımdır. İş-işdən keçibdir.

Əmir Hacibə sual verdi:

– Sən həmən adamları səsindən tanıya bilərsənmi?

– Bəli, tanıya bilərəm!

– Onlar səni danışdırdılarmı?

– Xeyr, danışdırmadılar.

– Bəs sən onların səsini haradan eşitdin?

– Öz aralarında danışırdılar.

– Nə danışırdılar?

– Ərəbcə danışırdılar. Bəzisi məni öldürməyi təklif edirdi, bəziləri isə yaramaz, bunun nə təqsiri vardır? – deyə mane olurdu.

Toxtamış:

– Bu da bir hiylədir! – dedi. – Gəncə kimi yerdə ərəblər gecə vaxtı başını evindən dişarı çıxara bilməz. Onların şəhərin altında qasidi qarət etməsinə kim inana bilər? Hadisə təşkil edilmiş bir hadisədir. Yerlilərin işidir. Burada ərəbcə danışan yüzlərcə yerli vardır. Hər dildə danışırlar-danışsınlar, yenə də səslərindən tanımaq mümkündür. Şübhəli adamların siyahısını tutmaq, onları başqa bir iş üçün çağırıb danışdırmaq və danışdıran zamanda Hacibi pərdənin dalında qoymaq lazımdır.

Əmir Toxtamışın fikrinə qarşı acı bir təbəssümlə dedi:

– Şübhəli adamları siyahıya almaq və onların şübhəli olduqlarını təyin etmək o qədər də çətin deyildir. Lakin bununla biz nə edə bilərik? Kimə gücümüz çatar? Tutaq ki, Nizami və Fəxrəddin şübhəli adamlardır. Bugünkü vəziyyətlə əlimizdən nə gələr?

– Bunları təyin etmək indi üçün də lazım olmasa, gələcək üçün lazımdır, çünki zaman daima bu əyri məhvərin üzərində davam edə bilməz. Bu gün gücümüz yoxdursa, sabah olacaqdır. Hələlik xarici düşmənlərimizlə müdarə etməliyik. Lakin içəridəki düşmənləri azad



buraxmaq olmaz. Buradan eşiyə xəbər aparanlar vardır. Bu da bizim öz səhvlərimizdir, çünki cariyələrin Fəxrəddin və sair bu kimi adamlarla əlaqə saxlamasına bizim özümüz imkan verdik.

Əmir özünü düzəldib:

– Doğrudur, – dedi və xacə Müfidi çağırıb fərman verdi: – Bundan sonra Dilşadın Fəxrəddinlə əlaqədə olduğunu eşidərsəm, səni qatır quyruğuna bağlatdırıb Gəncə küçələrində sürütdürəcəyəm. O, buradan rədd edilənə qədər heç bir yerə buraxılmamalıdır. Eşitdinmi? Onu həbsdə saxlarsan. Ancaq öz otağında saxlamalısan. Yeməyinə də, geyinməyinə də diqqət göstər, onun çəkisi bir ovqiyə[1] azalsa, gözəlliyindən bir iynənin gözü qədər təğyir tapsa müqəssirsən. O xəlifəyə göndəriləcəkdir.

## FƏXRƏDDİN VƏ SƏBA

Dilşadın həbsə alınması xəbəri hər kəsdən artıq Səba xanımı şadlandırdı. Fəxrəddin Dilşadın tərəfindən və Səba xanımın əli ilə yazılmış saxta məktubu neçə gündü ki, almışdı. Məktubda "Səba xanımla görüşüb təfsilatı ondan soruş" yazılması Fəxrəddini heyrətə gətirmişdi. O, Dilşadın ətrafında bədbəxt bir hadisə oynanıldığını yəqin etdiyindən, Səba xanımla çox tez görüşməyə tələsirdi. Səba xanım bunu hiss etdiyi üçün Fəxrəddinin gözünə görünmür və onun görüş üçün maraq və həyəcanının artmasına çalışırdı. Lakin Dilşad həbsə alınandan sonra Fəxrəddinlə görüşmək üçün əlverişli bir fürsət ələ keçdiyini anladı və bu məqsədlə axşam çağı bütün zinətlərini üstünə taxaraq saraydan çıxdı. Fəxrəddinin çinarların kölgəsilə keçərək, saray qapısına baxdığını gördü və etina etmədən keçib getdi.

Neçə günlərdən bəri Səba xanımı görmək üçün bütün vaxtını sərf edən Fəxrəddin Səba xanımı dərhal tanıdı. O, Səba xanımı bir neçə kərə görmüş, hətta onun sevgiyə dair tələblərini də eşitmişdi. Buna görə də Səba xanımı izləməyə başladı. Çox uzun-uzadı və dolaşıq küçələrdən keçib getdilər. Fəxrəddin cümə axşamı olduğunu bilmirdi, buna görə də Səbanın bu qədər uzun yolları getməsinə heç bir məna verə bilmirdi. Nəhayət, onlar qəbiristana gəldilər. Səba xanım Şeyx

[1] Ovqiyə – çəki adıdır.

Salehin məqbərəsinə girib, ziyarətnamə oxumağa başladı. Fəxrəddin də onunla yan-yana durmuşdu.

Ziyarətnamə bitdikdən sonra Fəxrəddin Səba xanıma sual verdi:

– Səba xanım, sən bu məqbərənin ziyarətinə tez-tezmi gəlirsən?

Səba xanım təəccüblə dönüb Fəxrəddinə baxdı, sanki onu tamamilə görməmişdi, buna görə də:

– Fəxrəddin, sən çoxdanmı burada idin? – deyə soruşdu.

– Sən ziyarətnaməni başlayan dəqiqədən burada idim. Ziyarətnaməni mənim üçün də oxudun?

– Mən səninlə burada görüşməyi heç də sevmirəm. Dostun dost ilə qəbiristanda görüşməsi xoşbəxtlik ümidləri vermir.

– Mən daima sənin xoşbəxt olmanı istəyirdim. Xoşbəxt olduğunu eşitdim.

– Hansı xoşbəxtliyimi eşitmisən?

– Əmirin cariyəsi olmaq şərəfini mənimsəyən bir qız, özünü xoşbəxt hesab etməzmi? Ancaq sənin qədər gözəl bir cariyənin evdən çıxmasına Cahanbanu xanımın nə cür razı olduğunu təsəvvürə gətirə bilmirəm.

– Təsəvvürə gətirə bilmədiyinin səbəbi Əbül-Ülanın ailəsində baş verən hadisəni bilmədiyindəndir.

– Nə olmuşdur ki?

– Mahtab xanımla Nizaminin evlənmək hadisəsini eşitmədinmi?

– Eşitdim. Nizami Mahtab xanımın izdivacından boyun qaçırmadımı?

– Qaçırdı. Lakin Əbül-Ülanın ailəsi Nizaminin Mahtab xanımı sevməməsinin səbəbini məndə gördülər. Zənləri də doğru idi, çünki mən Nizami kimi gənc bir şairin axmaq və adi bir qıza evlənməsinə razı ola bilməzdim. Nəhayət, Əmir İnanc xəlifəyə gözəl cariyələr hədiyyə göndərmək istədiyi üçün məni də Əbül-Ülanın ailəsindən ağır bir qiymətə aldı. Bununla da mən iki xoşbəxtliyə birdən nail oldum: o qilü-qallı ailədən qurtardım, həm də xəlifə saraylarında həyat keçirmək şərəfinə nail oldum. Qoy məndən gözəllərini axtaranlar da öz hesabını aparsınlar.

Fəxrəddin onun nə demək istədiyini anlayırdı. Buna görə də onun qəlbini ələ almaq üçün dedi:

– Elə düşünmə, Səba xanım. Sənin gözəl və sevimli bir qız olduğunu heç kəs inkar etməz. Hərgah sən gözəl olmasaydın, böyük şair Əbül-Üla səni öz evində saxlamazdı.



Fəxrəddin onu başqa bir məqsədlə görmək istədiyindən, söhbəti əski sevgilərin üzərinə keçirmək istəmədi. Səba xanım isə olduqca ehtiyatla davranır, Dilşad barəsində bir kəlmə də olsa danışmırdı. O əvvəlcə Fəxrəddinin söhbət açmasını gözləyirdi. Buna görə də getməyə hazırlaşaraq:

– Məni bağışla, səninlə vaxt keçirmək, məncə, hər şeydən qiymətlidir, lakin Əmirin qızı bir saat da olsa mənsiz sarayda qalmağı sevmir.

Səba xanım bunu deyərək ayrılmaq istərkən Fəxrəddin onu dayandırıb dedi:

– Mən Dilşaddan bir məktub almışam. Məktub olduqca anlaşılmaz bir məktubdur. Lakin Dilşad məsələnin təfsilatını öyrənmək üçün sənə müraciət etməyi tapşırmışdır.

Səba xanım məzəmmətedici bir tövr alaraq başına hərəkət verib dedi:

– Mənim başıma gətirdiklərindən o bədbəxtin də başına gətirdin?

Fəxrəddin heyrətli bir vəziyyətlə:

– Əcəba, mən ona qarşı nə kimi bir fənalıq etdim ki, – deyə soruşdu.

Səba xanım:

– Mənə qarşı nə kimi fənalıq etmişdinsə, Dilşad üçün də onu etdin! – dedi.

– Fənalığın bir adı olmazmı?

– Nə üçün də olmasın? İllər uzunu bir adamla əylənərək, sonra onu rədd etmək və başlı-başına buraxmaq fənalıq deyilmi?

– Onu kim deyir ki? Mən onu ruhum qədər sevdiyim bir halda rədd edə bilərəmmi?!

– Qəhrəmansan, lakin qadınlar haqqındakı rəftarın ən adi rəhmsiz və ədəbsiz kişilərin rəftarından fərqli deyil. Yazıq qıza göndərdiyin məktub bir qəhrəmanın işidirmi?

Fəxrəddin həyəcanla soruşdu:

– Hansı məktub?

– Bir neçə gün bundan qabaq Dilşada yazdığın məktub. "Dilşad, məndən sevgi gözləmə!" – deyə yazdığın məktub. Nə olub, gözəl Dilşad qocaldımı? Ya sənə bir xəyanətdə bulundumu? Yox! Sən desən də mən inanmaram, çünki Dilşadın məsumluğu bütün sarayda məlumdur.

– Mən ona məktub göndərməmişəm, bu kökündən böhtandır. O, gərək buna inanmasın.

– Sən Dilşadı sevdiyin və onunla görüşdüyün zaman mənə də nəsihət verib deyirdin ki, "Sən gərək yalan şayiələrə inanmayasan". Axırda necə oldu? Nə üçün cavab vermirsən? Mən sənə nə yamanlıq etdim? Mən çirkinmi idim, əxlaqsızmı idim?

Fəxrəddin Səba xanımın cavabını verə bilmədi, onu buraxdığının səbəbini deyib açıqlandırmaq istəmədi, çünki belə bir vəziyyətdə heç bir zaman ona: "Mən səni əxlaqın pozğun olduğu üçün, söz gəzdirən və macəraçı olduğun üçün buraxdım" deyə bilməzdi. Ancaq yenə də bayaq dediklərini təkrar etdi:

– Mən ona elə bir məktub göndərməmişəm. O haman məktubu mənə göndərsin.

– Mənim onların heç birisilə işim yoxdur, ancaq qız ağlaya-ağlaya sənə bu sifarişləri göndəribdir: əvvəla, o deyir ki, "Mən sənə heç bir xəyanət etmədiyim üçün belə məktubun göndərilməsi yersizdir. Öz qəlbini sənə vermiş bir qıza qarşı bu cür rəftar xəyanətdir. Eybi nədir? Onda sevmişdim, indi isə unutmağa çalışıram".

Fəxrəddin:

– Sübhanallah, nə qədər böyük bir xəyanət! O məktubu kim yazmış olar? Məncə, heç bir məktub ona göndərilməmişdir. O, məndən uzaqlaşmaq üçün məktubu bəhanə etmişdir. Hərgah onun fikri budursa, açıq yazmalıdır.

Fəxrəddin bu mövzu üzərində çox uzun danışdı. Səba xanım isə heç bir qəti yol göstərmədi. Nəhayət, Fəxrəddin yalvarıcı bir surətdə:

–Səba xanım, hər nə olubsa keçibdir. İndi isə səndən bir ricam vardır.

Səba etinasız bir tövr alaraq soruşdu:

– Rican nədir?

– Mənim məktubumu Dilşada yetirəsən.

– Mənim saraya getdiyimin tarixi o qədər də uzun deyil. Hərgah Əmir mənim saraya məktub aparacağımı bilərsə, onda mənim fəryadıma kimlər çata bilər?

– Məktub uzun bir məktub olmayacaqdır. Bir parça kağız üzərində yazılan bir neçə kəlmədən ibarət olacaqdır.

– Sənə inana bilmirəm, gedib başqalarına xəbər verərsən, nəhayət, Əmirin qulağına yetişər.

Fəxrəddin bütün müqəddəslərə, sədaqətə, vicdana and içəndən sonra Səba xanım məktubu aparmağa razı oldu. Fəxrəddin bir çox təşəkkürdən sonra bu məzmunda bir məktub yazıb verdi:



"Mənim ruhum Dilşad!

"Yazdığın məktub yetişdi. Sifarişlərini aldım. Sənə göndərilən məktuba inanma, təfsilən yaz, görüm orada nə eşidibsən. Mən heç bir zaman səni atmayacağam.

*Fəxrəddin*".

Səba xanım məktubu alıb cibinə qoyduqda, öz qəlbində deyirdi:

– Buna intiqam deyərlər. Mən bu məktubu Əmirin qabağına qoyub sarayda olan sirlərin Dilşad tərəfindən Fəxrəddinə xəbər verildiyini isbat edərəm.

## SEVGİ FƏLSƏFƏSİ YERİNƏ HƏYAT FƏLSƏFƏSİ

Nizami Fəxrəddinlə bir yerdə çağırdığı müşavirəni bitirib küçəyə çıxmışdı. O, yenə Fəxrəddinin ehtiyatsız qədəmlər atacağından qorxur və ona qəti göstərişlər verirdi.

– Xəlifəyə göndərilən məktubun barəsində məsələ qaldırmaq lazım deyil. Biz əvvəldən də Əmirin oynadığı bu oyunlardan xəbərdarıq. Atabəy hökumətinin siması bəlli olana qədər Əmir İnancın məsələsini təxirə salmaq lazımdır.

Fəxrəddin Nizamini öz evinə qədər müşayiət idi; onlar qapıda xacə Müfidin durduğunu gördülər. Xacə Müfid dərhal bir məktub çıxarıb Nizamiyə uzatdı və Nizamidən cavab gözləmək üçün boynunu çiyninə qoyub durdu. Məktub çox qısa idi:

"Möhtərəm şair, yazdığım şeir haqqında məsləhət və göstəriş vermək üçün günorta azanı mənim yanıma gəlməyini rica edirəm.

*Qətibə*".

Nizami daha evinə girmək istəmədi, çünki günortadan bir az da keçirdi. Buna görə də xacə Müfidə tərəf dönüb:

–Gedin, mən gələrəm! – dedi.

Müfid getdi. Nizami məktubu cibinə qoyub:

– Heç bilmirəm bu macəraçı qızın əlindən yaxamı nə cür qurtarım, – dedi.

Fəxrəddin:

– Biz saraya yol tapmaq üçün başımızı sındırırıq, sən ora getməkdən nə üçün boyun qaçırırsan? – dedi. – Bir neçə gün bundan əvvəl Dilşada bir məktub göndərmək üçün iki saat Səba xanıma yalvarmışam. Lakin onların özləri sənə məktub göndərib çağırır, sən isə getmək istəmirsən.

Nizami Fəxrəddindən bu sözləri eşidəndən sonra acıqlı bir surətdə ona sual verdi:

– Səba xanımla məktubmu göndərdin?

– Elə bir şey yazmamışam. Məktubunu aldığımı və göndərdiyi sifarişlərin yetişdiyini xəbər vermişəm.

– Mən sənə tapşırdım ki, sənin adına göndərilən məktuba etibar etmə. Mən bilirdim ki, o məktub Səba xanımın macərasıdır. Sən nə üçün o əxlaqsızla görüşüb öz sirlərini onun əlinə verdin? Sən indiyə qədər Səba xanımı tanımadınmı? Onunla sevgi elan etdiyin zaman başına nə kimi oyunlar açdığını unutdunmu? İndi o sənin məktubunu aparıb Əmirin qabağına qoyacaq, onunla da Dilşadın saraydan sənə məktublar göndərdiyini isbat edəcəkdir. Sənin tədbirsizliyin və ehtiyatsızlığın üzündən bədbəxt qız da Əmirin ağır cəzalarını çəkməyə məcbur olacaqdır. Sənin bu hərəkətin xəlifənin qasidi Hacibin soyulması məsuliyyətini öz öhdənə götürmək kimidir.

Fəxrəddin cavab verə bilmədi; o öz xətasını anladı, nəhayət, başını qaldırıb yavaşdan dedi:

– Hərgah Səba məni aldatmış olsa, mən onu məhv edərəm.

Nizami Fəxrəddinin cavabında:

– Öldürmək buraxılmış xətanı islah etmək deyildir. Fəxrəddin, sən bir kərə onu bilməlisən ki, qəhrəmanlığı təşkil edən ünsürlərin başlıcası tədbir və düşüncədir. Tədbiri olmayan qəhrəman öz başını çox tez sındıra bilər. Bu qədər tədbirsizliklə bir xalqın müqəddəratını ələ almaq böyük məsuliyyətsizlikdir. Sən bir yaxşı düşün, macəraçılığı yüz kərə imtahandan çıxmış Səba xanıma kim inana bilər? Bundan sonra nə ümumi, nə də xüsusi işlərin haqqında məndən məsləhət istəmə, çünki sən məsləhətləri qiymətləndirmirsən.

Nizami bu sözləri deyib Fəxrəddindən ayrıldı. Bir qədər yol gedəndən sonra dönüb geriyə baxdı, Fəxrəddinin olduğu yerdə dayanıb fikrə getdiyini görərək, öz-özünü məzəmmət etdi:



– Mən onunla çox iti danışdım, halbuki o mənim səmimi dostumdur. O sevdiyi adamın yolunda ölümə gedən bir gəncdir. Onu yalnız buraxmamalıyam. Onun alnında yorulmaz və düşmənə arxa çevirməz bir qəhrəmanlığın müjdələrini oxuyuram. O aslan ürəklini nə üçün incitdim? Bəzən həqiqi sevgilər ağıllı və tədbirli adamları belə tədbirsizliyə və ehtiyatsızlığa məcbur etməzmi?

Nizami Əmir İnancın saray qapısına yetişincəyə qədər Fəxrəddin barəsində düşünür və onun qəlbini sındırdığı üçün peşmançılıq çəkirdi.

Qətibə xanım şairi öz bağçasında qəbul etdi. Nizami hovuzun yanına gəldiyi zaman Qətibə hovuzun kənarında salınmış ipək xalçanın üzərindəki yumşaq bir döşəyin üstündə oturmuşdu. O, yanındakı kağıza nə isə yazırdı. Nizamini görən kimi yaşıl atlasdan tikilmiş donunu yığışdırıb ayağa qalxdı. Ağ və kiçik ayaqlarını topuğuna bağlanmış zümrüd xal-xalların qızıl zəng paraları səslənməyə başladı. Qətibə öz yanında salınmış döşəyi göstərib:

– Oturun, möhtərəm şair! – dedi.

Şair oturdu, Qətibə isə ondan sonra öz döşəyinin üstündə oturdu və əlavə etdi:

– Rahatsız etdiyim üçün üzr istəyirəm. Madam ki, mən bir şairlə tanışam, bu tanışlıqdan da istifadə etməli və öz şeirlərim haqqında məsləhət almalıyam. Mən şairlə tanış olmamışdan əvvəl şeir yazmaqla məşğul idim, lakin şairlə başladığım tanışlıq mənim bu istəyimə daha artıq təkan vermiş oldu. Neçə gündür ki, bir əsərin üzərində işləyirəm. Bu gün haman əsəri şairə göstərmək istədim. Bu gün həm nahar yeməyini birlikdə yeyər, həm də yazdığım şeirlərlə tanış olarsınız.

Qətibə bu sözləri deyəndən sonra şairin cavabına imkan vermədi, dərhal öz şeirlərini xalçanın üstündən götürüb:

– Şair icazə verirsə, şerlərimdən bir neçəsini oxuyaram, – dedi.

Nizami isə:

– Buyurub oxuyun! – dedi.

Asudə dili budi və xoş şad məra
Gəz qəm nəfəsi nəyamədü yad məra
Yek ruz bəbazaru qəza bugzəştəm
Ma vəqəyi in çinin dər ifda məra.[1]

[1] Asudə və şad qəlbim var idi. Bir nəfəs də olsa qəm və qüssə yadıma gəlməzdi. Bircə gün qəzanın bazarından keçmək ilə bu hadisələr başıma gəldi.

* * *

Ey sərvi xuraman sərü saman, kiyi?
Vey qibleyi can dilbərü cananu, kiyi?
Aləm bətəmaşayi tə bər xastə ənd,
Axır tə əzin miyanə xahanu kiyi?![1]

Nizami Qətibənin yazdığı rübailəri diqqətlə eşidəndən sonra:

– Çox təəssüf edirəm ki, siz rübai vəzninin sənətkarı sayılan Məhsəti xanımı görmədiniz. Siz ondan çox şey öyrənə bilərdiniz, – dedi.

Qətibə də cavabında:

– Səni inandırıram, Məhsəti xanım gələn kimi ondan həm şeir, həm də musiqi dərsi alacağam. Bunu mən Bağdadda dərs oxuduğum zaman arzulayırdım, – dedi.

– Mədəni qadın üçün musiqi elmini bilmək birinci məsələdir. Şeir yazmaq isə qiymətsiz bir nemətdir. Sizin sənətkar bir şair və məşhur bir musiqiçi olmağınızı arzu edirəm.

Nizami danışdığı zaman Qətibə rübailərə baxıb düşünürdü. Nizami isə Qətibənin onu şeirləri göstərmək üçün yox, başqa bir məqsəd üçün dəvət etdiyini fikirləşirdi. Nəhayət, Qətibə öz qara və cadugər gözlərini Nizamiyə tərəf çevirib dedi:

– Mənim qəlbimi oxuya bilsəydin, ancaq o zaman şairləri, xüsusən Nizamini nə qədər dərin və səmimi surətdə sevdiyimi bilərdin. Mən bu sevgimlə hər kəsin şair və hər qızın şeir maraqlısı olmasını arzu edirəm. Bu bir şərəfdir. Lakin bu qədər böyük bir şərəfə nail olmaq çətindir.

Şair onun bu gözəl arzularını təbrik edərək dedi:

– Dünya bir müsabiqədən ibarətdir. Sanki təbiət insanları bunun üçün də həyat səhnəsinə atmışdır. İnsanların içərisində sənətkar olmayan və qalibiyyət arzusu daşımayan heç bir kəs yoxdur. Hətta ağılsızlarda, məcnunlarda belə üstünlük düşüncələri vardır. Qol qüvvətinə malik olan pəhləvanlarda, ürək və cəsarətə malik olan qəhrə-

[1] Ey yerimәkdə olan sərv, de görüm sən kiminsən? Ey canın qibləsi, sən kimin qəlbini vuran və canına sahiblənənsən?

Bütün xalq sənin tamaşana çıxıbdır, de görüm tamaşaya çıxanlar arasından kimi intixab edəcəksən?



manlarda, az və ya çox sərmayəyə malik tacirlərdə, bunların hamısından sonra azadpərvər insanlarda da belə bir düşüncə, yəni üstün olmaq düşüncəsi vardır. Bunların hər birisi arzu daşıdıqları və arzularına nail olmaq üçün çalışmaları nəticəsində bir sənətkar hesab olunur. Dediyim odur ki, arzu qələbənin zəminəsidir. Hərgah Qətibə xanım bir musiqi sənətkarı, yaxud bir şair və ədib olmaq arzusunu daşıyırsa, bu qələbənin başlanğıcıdır. Lakin bizim burada saydıqlarımızdan başqa adamlar da vardır. Lakin o cür şəxsiyyətləri təbiət çox az-az yaradır. Bu kimi insanlar nə qol qüvvəti, nə də cəsarət işlədən pəhləvan və qəhrəmanlar deyil. Onlar sənət və qələbəni ticarət və kəsbkarlıqlarda yox, fikir, düşüncə və şüur qüvvətində aramaqdadırlar. Bunlar əşyanın təbiət və həqiqətini aramağa çalışırlar. Siz nə qədər şeir və musiqini sevirsinizsə, hikmət dostları da əşyanın nəliyini təyin etməyi və yaşadığı aləmi öyrənməyi sevir. Bu qəbil insanlar – dünyaya gözü örtülü gəlib, gözü açıq yaşamaq istəyənlər, məncə, insanların ən diqqətlisi və sənətkarı olaraq, nə şair, nə yazıçı, nə tacir, nə pəhləvan və qəhrəmanlardır. Dünyanın ən məşhur adamları bizim bu varlığımızı həddzatında öyrənənlər, insanların düşüncə və zehinlərini avaraçılıqdan qurtara bilən və bəşəriyyətə həqiqi yolu göstərənlərdir.

Qətibə şairin söhbətlərindən maraqlandı, o şairi yalnız misraları, qafiyələri bir-birinə uyğun düzən sadə bir şair kimi yox, gənc bir alim kimi tanımağa başladı. O özünü düzəltdi, alnına bağladığı yaşıl ipək dəsmalın düyünlərini sahmana salaraq dedi:

– Mən fəlsəfəni heç də sevməzdim. Bu söz mənim savadsız ağzıma yaraşmasa belə deməliyəm ki, fəlsəfə bəzən insanları bədbinliyə düşürə bilər. İnsanın şüurunda avaraçılıq doğa bilər.

Doğrusu budur ki, mən səni buraya başqa bir məqsəd üçün çağırmışdım. Lakin söhbətlərimiz elmi bir şəkil aldığından əvvəlki söhbətlərimizi axıra da qoya bilərik. Məncə, buna sən də etiraz etməzsən.

Nizami qızın elmi söhbətlərlə maraqlandığını görüb onun sadə bir qız olmadığını təyin etdiyindən:

– Heç bir etirazım yoxdur, – dedi. – Dünyada elə adamlar da vardır ki, onlar yalnız elmi söhbətlərdən mənəvi qidalar alırlar.

Qətibə söhbətini davam etdirərək dedi:

– Bilirsən, möhtərəm şair! Mən Bağdad məktəblərində fəlsəfə dərslərini diqqətlə keçmişəm. Lakin fəlsəfədən kifayətedici bir qənaət ala bilməmişəm, çünki fəlsəfə alimləri də öz aralarında qəti bir fikrə

gələ bilməmişlər. Bir çoxları bütün fikirlərin əsas mənşəyini hisslərdə görür, bəziləri də maddədən başqa bir həqiqətin mövcud olmadığı fikirlərini meydana atır, daha başqaları həqiqətə vasil olmadan bütün sərf edilən təlaşları mənfəətsiz görür, fikrində tamamən ümidsizliyə düşür və tədqiqat vasitələrindən ibarət olan fikri qüvvələri tamamilə kifayətsiz hesab edirlər. Buna görə də filosoflardan bir çoxu ilhama qapılaraq, bu sayədə də Allah ilə doğrudan-doğruya münasibət əldə edilməsinə inanmışdır. Bu səbəblə də təbii əşyanı öyrənə bilməyənlər, ilahi və namütənahi yaxud cövhər-vahid deyilən Allahı öyrənməyə və onun nəliyini təhqiq etməyə çalışmışlar. Belə qarışıq fikirlərin bataqlığında qurdalanan və başını sındıran alimlər qəti fikir əldə edə bilmədiyi bir zamanda mənim kimi aciz bir tələbə nə edə bilərdi? Bu qədər dolaşıq fikirlərin içərisindən intixab etdiyim yeganə bir fikir vardırsa, o da ölüm və axirət işlərinin müəmma şəklində qalması və müəyyən edilməməsindən ibarətdir. Filosoflar mənim bu fikrimi özləri üçün təhqir hesab etməsinlər. Onlar həyat dediyimiz sərbəst bir fəaliyyətin bir anda dayanması və hərəkətdən düşməsi səbəblərini bizə göstərə bilmədilər. Dünyanı illərdən bəri anlaşılmaz və həlledilməz fəlsəfə tapmacalarının çuxurlarında üzdürən hikmət xadimləri şüurun, hərəkətin, əlhasil şəxsiyyət və mənəviyyatın bir anda yox olub getməsi səbəblərini az da olsa xalqa söyləyə bilmədilər. Vücudumuzda yaranan əzəmətlər, arzular, əməllər, sevgilər, hətta dərin nifrətlər belə nə üçün birdən-birə heç olur? Nə üçün də hikmətçilər, fəlsəfəçilər həyat dediyimiz bu mənalı varlığın nə olduğunu şərh edə bilmədilər?! Məncə, təhqiqat və tədqiqat üçün götürdükləri yol doğru deyildi.

Nizami bağçaya girdiyi zaman tez çıxmağa tələsirdi, cənnət kimi bağça onun üçün cəhənnəmdən daha əzablı idi. Bunun başlıca səbəblərindən birisi Əmirin sarayına gəlib-gedənlərə əhalinin yaxşı nəzərlərlə baxmaması idi. Şairin nifrətinə səbəb olan cəhətlərdən birisi də Rənanın bu əlaqədən razı qalmaması idi. Səba xanım sarayda olduğu üçün böhtan və iftiraları genişləndirə bilərdi. Buna görə də Nizami əvvəlcə bağçadan çıxıb getməyə çalışırdı. Lakin Qətibənin elmi söhbətlərə başlaması şairi məşğul etdi. Ərəb, türk və rum qanından yoğurulmuş bu gözəlin adi bir qız olmaması şairdə dərin bir maraq oyandırdı, o, söhbətin davam etməsinə çalışdı.

Nizami Qətibəni dinlədikdən sonra:



– Fikirlərinizin bəziləri ilə razılaşa bilərəm, – dedi, – lakin söhbətinizdə razı ola bilmədiyim cəhətlər də vardır. Mən o fikirlərinizdən bir qənaət ala bilmədim. Əvvəlcə, sizin razı qala bilmədiyiniz, daha açığı, sizin üçün müəmma şəklində qalan cəhətlərdən başlayaq: siz deyirsiniz ki, əgər həyat heç olacaqsa, bizim bu qədər arzularımız, əməl və ümidlərimiz və bunlar üçün təlaşımız nə üçündür? Sizin fikrinizi yoran bunlar deyildirmi?

Qətibə bir ah çəkərək:

– Bəli, bunlardır. Lakin bunlardan başqa mənim həll edə bilmədiyim müəmmalar da vardır.

– Sizi düşündürən bütün müəmmaları öyrənib saymaq üçün qəlbə girmək lazımdır.

Qətibə bir daha ah çəkərək:

– Sən mənim qəlbimə yol tapa bilmisən. Lakin fəlsəfə müəmmalarını həll etmək üçün yox...

Nizami bunu eşidərkən qızın hansı pərdədə çalmaq istədiyini dərhal hiss edərək cavab verdi:

– Gəlin biz elmi söhbətləri davam etdirək:

– Nə sözüm ola bilər? Buyurun, fəlsəfə müəmmalarını həll etməyə çalışaq, bəlkə, bu vasitə ilə mənim də arzularım müəmma şəklindən çıxa bilsin. Şair, sən mənə o ruh dediyin şeyin qaranlıqlarını işıqlandıra bilməyəcəksən, biz ikimiz də bu yolda savadsızıq. Mənə de görüm, insaniyyət, ədalət, həqiqət, dirilik, mənəviyyat hamısı yalandırmı? De görüm, möhtərəm şair, dünyada vücudu doğru olan şey nədir? Bizi qorxudan axirət xəyalı, bir rahətin nəşələrini doğuran cənnət, diri ikən insanın əsabını öldürən cəhənnəm vardırmı? De görüm, gənc şair, onları kimlər gedib gəzdi? Onların varlıq xəbərini bizə kimlər gətirdi? Hərgah hər şey boş, quru bir düşüncədən ibarətdirsə, bu meyl, bu maraq haradan doğur? Hətta ruh dediyimiz şey müəmma deyilmi?

Qətibə bunları çox məhzun bir halda şairdən soruşdu. Sevgiyə ümid bağlamayan qızın bədbinliklər içərisində çapaladığını şair çox tez hiss etdi və onun "ruh dediyimiz şey müəmmadan ibarət deyilmi?" sualına cavab verdi:

– Həmin sizi yoran müəmmalar, sizin həll edə bilmədiyiniz tapmacaların hamısı sizin ruh dediyiniz şeyin qaranlıqlarından doğmaqdadır. Filosofları, xüsusən Şərq filosoflarını avaraçılıq səhnəsində yoran

müəmmaların əsasını da həmin ruh məsələsi təşkil edir. Gözəl qız fəlsəfənin bu qədər dərinliyinə getməməlidir. Ümidsizliyi və bədbinliyi də doğuran həman ruh məsələsidir.

Qətibə yenə də sual verdi:

– Səni də yoran bu məsələ deyilmi?

– Xeyr, bu kimi məsələlər məni nə məşğul edir, nə də fikrimi yormağı bacarır. Məni dinləyin, hərgah vaxtınız varsa, bu kimi fəlsəfələr haqqında mən də öz fikrimi açıq söyləyim.

Qətibə tələsik bir halda:

– Rica edirəm! Rica edirəm! Mənə bugünkü görüş bir sevgidən alınan nəşədən daha artıq zövq verdi. Bilmirəm, bu kimi görüşlər davam edə biləcəkdirmi?

– O, vəziyyətdən asılıdır. Mən də gözəl qızın fikirlərindən zövq aldım. Buna görə də danışmağa icazə istədim. Məncə, hər şeydən əvvəl gözəl qızın fikrini alt-üst edən yeganə bir məsələ vardırsa, o da ölüm məsələsidir. Belə deyilmi?

– Həqiqətdə də belədir!

– Siz dediniz ki: "Ölüm nədir ki, bütün ucalıqları məhv edir?!". Bu sualı sizin qarşınızda qoyan haman ölümü düşünməkdir. İnsanlar ölümü düşünə-düşünə bu qədər mövzuları və qarmaqarışıq olan həyat fəlsəfələrinin föhrüstünü düzəldirlər. Doğrudur, bu varlıqda gördüyümüz şeylər cürbəcür və rəngarəngdir. Kainatda gördüyümüz şeylərdə hərc-mərclik vardır, hətta əşyanın cinsi də, şəkli də müxtəlifdir. Əşya o qədər hesabsız və o qədər əhatəedilməzdir ki, onu saymaq və əhatə etmək mümkün deyil, indiyə qədər onu heç bir kəs ölçə bilməmişdir. Zahirdə baxıldığı zaman əşya bir-birinə bənzəməyən bir çox ünsürlərdən ibarətdir. Biz bunların tək-tək adlar verməyərək bir kəlmə ilə ona təbiət deyirik. Lakin sizin və mənim kimi adamlar ona baxanda orada bir ahəng və bənzəyiş görə bilmir. Lakin elm və təcrübəmiz artdıqca bir-birinə bənzəməyən bir yığın əşyanın arasında sıxı bir münasibət olduğunu görə bilirik. Bir-birinə bənzəməyən müxtəlif rəng, müxtəlif şəkilli əşyaya bu münasibəti verən haman təbiət dediyimiz şeydir.

Bədbinlərin – "Həyat heçlikdir" – deyə meydana atdıqları fikir tamamilə yanlış bir fikirdən ibrətdir. Çünki həyat dediyimiz şey tək bir şəxsiyyətin həyatı yox, qoynunda yaşadığımız təbiətin həyatı deməkdir. Dünyaya namütənahi deyənlər də yanılırlar. Nəhayətsiz heç bir



şey yoxdur. Lakin biz yorulub axıra qədər gedə bilmədiyimiz yollara nəhayətsiz deməyə adət etmişik. Bilmirəm, gözəl qız mənim bu fikirlərim ilə razılaşırmı?

Qətibə narazı bir nəzərlə Nizamiyə baxıb belə dedi:

– Qismən razılaşdım. Qismən də razılaşdım. Əşyanın arasında bir münasibət olduğuna inana bilmədim. Hərgah həyat təbiətdən ibarətdirsə, hərgah əşyanın arasında bir münasibət vardırsa, nə üçün təbiətin məhsulu olan insanların heç birisində fikir birliyi, zövq, maraq birliyi, ixtisas və əqidə birliyi yoxdur?! Nə üçün bir-birilə münasibətdə olan əşyanın təsirində yaşayan insanlar bir-birinə qarşı mənfi vəziyyət almaqdadır?!

Nizami başına hərəkət verərək güldü:

– Bu müəmma o qədər asan bir müəmmadır ki, onu bizim kimi savadsızlar da həll edə bilər. Bu barədə dərin bir düşüncə də lazım deyil. Təbiət ancaq hər şeyin işarətini verir, ona əsas mənanı verən bizik. Əqidə və fikirlərin müxtəlif olması məsələsinə gəldikdə o da ictimai mühitdən, bəzən hökumət və din quruluşundan asılıdır. İxtisas və maraqların bərabər olması da mühitin təbii və iqtisadi ehtiyaclarından asılıdır. Təbibə ehtiyacı çox olan məmləkətlərdə insanın təbibliyə olan marağı hər şeydən artıqdır. Elə də dəmirçilik, xarratlıq, dərzilik və başmaqçılıqdır. Nə şairlik, nə yazıçılıq, nə hikmət və nə də fəlsəfəçilik insana təbiətin bölgüsündən yox, mühitin ehtiyacından verilən bir ixtisasdır. Lakin bunu da qeyd etmək lazımdır ki, bir insan bacaran işi o biri insan da öz təlaşı nəticəsində bacara bilər. Bunun kimi sevgi də bir təsadüfün nəticəsidir. Burada da xarici bir qüvvətin təsiri yoxdur. Bu gün bir təsadüfün nəticəsində sizi sevən insan, sabah, başqa bir təsadüf nəticəsində başqasını sevə bilər. İndi gözəl qız desin görüm sözlərimdən qənaətləndimi?!

Qətibə mövzunu dəyişərək dedi:

– İndi ki, şair məni gözəl qız deyə səsləyir, elə isə nə üçün mənə o cür ürək sıxıcı bir məktub göndərmişdir?!

Nizami fikrə getdi, çünki o, Qətibəyə heç bir məktub göndərməmişdi. Dərhal Səba xanım tərəfindən təzə bir macəra yaradıldığını anladı və özünə aldırmayaraq cavab verdi:

– Bəzən insan birisinə məktub yazdığı zaman müxtəlif hisslərin təsirinə də düşə bilər. Bəzən fikirlər mövzulara təsir yetirir. Şeirdə də belə hallara təsadüf edirəm. Çox zaman yazmaq istəmədiyim mövzu-

lar sevimli mövzuları sürüb aralıqdan çıxarır. Mən bundan sonra hər yazdığım məktubu, yaxud hər bir qaraladığım əsəri bir neçə gün saxlayıb sonra oxumağı və göndərməyi qərara almışam.

Qətibə heç bir söz demədi, ancaq əlini aparıb kitabın arasından bir məktub çıxarıb Nizamiyə verdi:

– Al, oxu. Görünür ki, bu məktubu ikinci kərə oxumadan göndərmişsən.

Nizami məktubu alıb oxudu:

"Gözəl qız!

Siz məni Gəncənin əyyaş gəncləri ilə müqayisə etməyin. Mən gündə bir gənci sevən qızları sevə bilmərəm.

*İlyas*".

Nizami məktubun Səba xanım tərəfindən düzəldilməsinə heç də şübhə etmirdi. O, Səba xanımın macərasız yaşaya bilməyəcəyini bilirdi. Buna görə də onu Qətibənin gözündə qaralamaq üçün dedi:

– Mən heç də təsəvvürümə gətirə bilmirəm: bu məktub sizə yazılmadığı halda nə üçün gətirib sizə veriblər. Bəlkə də, bu bir səhv olaraq sizin əlinizə düşübdür.

Qətibə sanki yatmışdı, ayıldı və öz-özünə:

– Mənim taleyimə bax. Hədiyyələr, xələtlər içərisinə qərq etdiyim bir cariyə də ruhumu zəhərləməyə başlamışdır.

Qətibə bunları dedikdən sonra Nizamiyə yalvarıcı bir surətdə dedi:

– Rica edirəm, bu məktubu kimə yazdığını söylə! Söylə, məni şübhədən qurtar.

– Onu siz tanıya-tanıya nə üçün məndən soruşursunuz? Bu macəra sizdən daha artıq qızıl almaq üçün düzəldilən bir macəradır.

Qətibə:

– İndi anladım, – dedi, – məktubun məni tamamilə təbii haldan çıxarmışdı, çünki mən gündə bir gənci sevən qızlardan deyildim. Bu məsələni təhqiq etmək üçün səni çağırmışdım. İndiyə qədər etdiyimiz söhbətlərin hamısı bu məsələyə giriş axtarmaq üçün idi. Sənə söyləmək üçün bir çox sözlər əzbərləmişdim. Lakin səni görən kimi onları unutdum. Çünki deyəcəyim sözlərin mövzusu sənin özündən ibarət idi.



Qətibə sevgi dastanlarını o qədər də uzada bilmədi. Çünki Əmir və qadını Səfiyə xatun nahar yeməyi üçün bağçaya gəlirdilər. Nizami bunları gördüyü zaman qalxıb getmək istədi, lakin nə Əmir, nə də Səfiyə xatun razı oldu. Hətta Əmir Nizaminin qolundan tutub dedi:

– Qətibənin əziz və möhtərəm qonağı həm bizim üçün, həm də bütün Aran xalqı üçün əzizdir. Siz ölkənin iftixarısınız. Şerinizdən aldığımız nəşələri özümüz üçün xoşbəxtlik hesab edirik.

Səfiyə xatun da öz növbəsində şairə yanaşıb deyirdi:

– Qətibə sizin çox maraqlı bir şerinizi hər zaman mənə oxuyur. O misraların hər birisində sizin böyüklüyünüz nəzərə çarpır.

"O gözəl, incə, sevgilərdən şən,
Bir çiçəkdir doğuldu şəbnəmdən".

Nə qədər zəngin, nə qədər də maraqlıdır.

## QISQANCLIQ

Əmir İnanc süpəhsalar[1] Hüsaməddini yanına çağırıb danışır və deyirdi:

– Mən məmləkəti sizin əlinizə tapşırdığım zaman işlərin inanılmış adamlar əlində olduğuna inanırdım. Lakin mənim ümidlərim tamamilə boşa çıxdı. İndi iki həftədən artıqdır ki, xəlifəyə göndərilən qasid qarət olunmuşdur. Lakin siz heç bir təşəbbüs etməmişsiniz. Hacibdən alınan məktubun kimin əlində olmasını təyin edə bilməmişsiniz. Mənim hazırda sizi fəaliyyətsizlikdə təqsirləndirməyə haqqım vardır. Mən özüm qapanıb saray içərisində qalmışam, adamlarım isə eşikdə öz kefindədir. Məmləkətin tamamilə üsyançı xalq əlində qalmasının qeydinə qalan yoxdur. Sizin fəaliyyətsizliyiniz nəticəsində Gəncənin bir neçə addımlığında xəlifənin qasidini tutub soyundururlar. Xəlifənin məktubu düşmən əlinə keçəndən bəri yenə də hər tərəfdə mənim və xəlifənin əleyhinə olan dedi-qodular artmışdır. Bu cür məmləkət idarə etmək olmaz, gedib yaxşı bir düşün. Aran şəhərlərinin hamısında özbaşınalıq hökm sürür, hazırda Kəştasifi, Mahmudabad, Bacərəvan,

[1] Süpəhsalar – qoşun başçısı, sərkərdə deməkdir.

Bərzənd şəhərləri tamamilə özünü sərbəst hesab edir. Əcəba, siz şəhərlərdən, kəndlərdən döyülüb qovulan məmurların dağılmış başlarını, qaralmış və qançır olmuş üzlərini, ağac və kötəklə sındırılan qabırğalarını gördüyünüz zaman utanmırsınızmı?

Əmir, Hüsaməddini o ki, lazımdır danladı, təhqiredici sözlərlə söydü; nəhayət, Hüsaməddin də icazə istəyib danışdı:

– Əmirin buyurduqlarının hamısı doğrudur. Məmləkətdə başsızlıq hökm sürməkdədir. Şəhərlərdə, kəndlərdə məmurların döyülüb qovulduğunu da görməkdəyik. Lakin bunların hamısı üçün bizi təqsirləndirmək qismən haqsızlıq, qismən də vəziyyətdən xəbərdar olmamaqdır. Eşikdə baş verən fitnələrin zəminəsi saray içərisindən qoyulmasaydı, biz fitnəçiləri çoxdan bəri əldə edərək cəzalandırardıq.

Əmir acıqlandı və oturduğu yerdən qalxıb soruşdu:

– Fitnələrin zəminəsi saray içərisindənmi doğulur?

– Bəli, saray içərisindən doğulur. Bir halda ki, Fəxrəddinlər yaxın günlərə qədər bütün vaxtını saraydakı cariyələrlə keçirirdi, bir halda ki, Əmir Dilşadı Fəxrəddinlərə vədə verib hər gün öz yanına çağırırdı, o zaman biz fitnəçiləri və qarətçiləri hansı tədbirlərlə əldə edə bilərdik? Bir zamanda ki, Əmirin əzəmətli qızı Qətibə xanım yoxsul bir şairlə əlaqə saxlayır, ona ərə getmək istəyir, bir zamanda ki, Əmir həzrətlərinin özü və möhtərəm xanımı da haman şairlə bir süfrədə nahar meyli buyururlar, o zaman eşikdə olanlar nə iş görə bilər? Biz fitnəçiləri tutub həbsə almaq istəsək, əvvəlcə, Əmirin sarayından başlamalıyıq. Xəlifəyə məktub göndərilməsi xəbərini saraydan Fəxərrədinə xəbər verməsəydilər, xəlifənin qasidinə belə bir rüsvayedici fəlakət üz verməzdi.

Əmir təəccüblə sual verdi:

– Saraydan xəbər verməsəydilər?

– Bəli, saraydan Fəxrəddinə bu barədə məktub göndəriblər.

– Onu sən sübut edə bilməzsən, özünü təmizə çıxarmaq üçün başqalarına çirkab səpmə.

– Əmir həzrətləri öz nökərlərinə inanmalıdırlar.

Hüsaməddin bunu deyərək əlini qoynuna apardı və bir kağız çıxarıb Əmirə uzatdı:

– Buyurun, oxuyun!

Əmir kağızı alıb ucadan oxudu:



"Mənim ruhum Dilşad!

Yazdığın məktub yetişdi. Sifarişlərini də aldım. Sənə göndərilən məktuba inanma! Təfsilən yaz görüm, orada nə eşidibsən? Mən heç bir zaman səni atmayacağam.

*Fəxrəddin*".

Əmir Hüsaməddinə sual verdi:

– Bu məktub sənin əlinə haradan düşdü?

– Məktubu Qətibə xanımın cariyəsi Səba gətiribdir.

– Sənin əlinə nə üçün düşüb?

– Səba xanım Əmirə olan sədaqətini göstərmək istəmişdir. Məktubu sizə təqdim etmək üçün mənə vermişdir. İndi Əmir həzrətlərinin özü bizim vəziyyətimizi mühakimə etsin. Eşikdəki nökərləriniz nə edə bilərdi? Bütün fitnə və fəsadların səbəbi haman Fəxrəddin və onun yoldaşı Nizamidir. Onların özləri bir kərə Azərbaycan xalqına müraciət edib: "Sakit olun!" – desəydi, məmləkətdə bir nəfər belə cınqırını çəkməyə cəsarət etməzdi.

Əmir Hüsaməddinin söz arasında başqa bir söz demək istədiyini və onun qısqandığını dərhal hiss etdi.

– Ağlını başına yığ, ərə getmək quru bir sözlə olmaz. Bizim qızımız ərə getdiyi zaman Bağdadın və xəlifənin xəbəri olmalıdır. Bunların hamısı mənim apardığım müəyyən bir siyasətin nəticəsidir. Sən bilirsən ki, Dilşadın da, Qətibənin də məsələsi həll edilmişdir. Dilşad yaxında xəlifə üçün hədiyyə göndəriləcək, Qətibə isə xoşbəxtliyini səninlə quracaqdır. Ona əmin ola bilərsən. Fəxrəddin artıq Dilşadı görə bilməyəcəkdir. Dilşadı bu məktubdan qabaq həbs etdirmişəm. Sənin özün bilirsən ki, bizə kömək gələcək yer yoxdur. Buna görə də qoşun gücü və cəza qanunları işlədə bilmirik. İndi yeganə bir çarə varsa o da müdara etmək və vaxt qazanmaqdan ibarətdir. Get işlərinə diqqətlə bax, cariyəm Səba xanımı yanıma göndər.

Hüsaməddin baş endirib getdi. Əmir isə onun dalınca acı-acı güləək dedi:

– Axmaq və xəyalpərəst adam, mən qızımı hər sənin kimi sadə bir sərkərdəyə vermək istəsəydim, Fəxrəddin kimi bir qəhrəmana verib öz hakimiyyətimi də onun vasitəsilə möhkəm edə bilərdim. Lakin mən bir məmləkətin hökmdarına layiq olan qızımı hər küçə adamına ərə vermərəm.

Səba xanım tovuz quşu kimi bəzəkli bir halda içəri girdi, o cürbəcür macəralarla əldə etdiyi qiymətli daşlarını, inci və mərcanlarını üstünə tökmüşdü. Əmir Səba xanımı birinci kərə idi ki, görürdü. Əmir onun enli ağ çöhrəsinə, qara və məğrur gözlərinə, iki gül yarpağı kimi bir-birinin üstünə düşən dodaqlarına, almazlar içərisində şəfəqlənən incə əllərinə, yaşıl zümrüddən xal-xal taxmış zərif topuqlarına baxdıqca qanı qaynadı və öz-özünə:

– Nə qədər zəngin bir gözəlliyə malikdir, – dedi, qalxıb döşəyin üstündə özünü düzəltdi və:

– İrəli gəl, gözəl qız! – deyə onun əlindən tutub özünə tərəf çəkdi. Zatən Səba xanım Əmirin hüzuruna dəvət olunduğu vaxt həmin bu arzunu daşıyırdı, bunun üçün də bəzənmiş və zəngin daşlarını üzərinə tökmüşdü. Səba xanım Əmirin bu qədər dərin məhəbbətini gördüyü və arzusuna çatdığı zaman özünü saray cariyələri içərisində birinci xoşbəxt hesab edirdi, çünki Əmir ancaq nadir və fövqəladə gözəlliyə malik olan cariyələrlə əlaqədə olardı.

Xacə Müfid əlində aftaba-ləyən Əmirin otağına girdiyi zaman saray cariyələri Səba xanımın böyük bir şərəfə nail olduğunu yəqin edir və dəhlizlərdə gəzib Səba xanımın Əmirin otağından çıxacağını güdürdülər.

Xacə Müfid vəzifəsini bitirib aftaba-ləyənlə bərabər eşiyə çıxdığı zar ın Əmir İnanc bir daha Səba xanımın dodaqlarından öpərək deyirdi:

– Sən mənim cariyələrimin içində ən sevimli və gözəl bir qızsan. Bundan sonra bu kimi şərəflərə tez-tez nail olacaqsan. Ələ gətirdiyin məktubla mənə böyük bir xidmət göstərdin, hər gün görüb və öyrəndiklərini gəlib mənə məlum edərsən. Sənin üçün əlahiddə bir bina hazırlanmasına əmr edəcəyəm, sənə kənizlər, qulamlar və xidmətçilər hədiyyə verəcək, sənin üçün başqa bir saray düzəldəcəyəm.

Əmirin bu sözündən sonra Səba xanım özünə məxsus bir sənətkarlıqla qolunu gözlərinə hayil edərək hönkür-hönkür ağladı və tutqun bir səslə dedi:

– Əmir həzrətləri öz həqir cariyəsini başqa bir binaya atmaqla öz ziyarətindən uzaqlaşdırır. Mən isə hər saat əmiri görmək və onun şərəfinə nail olmaq istəyirəm.

Əmir bir daha onun dodaqlarından öpərək:



– Əmin ol, nə qədər ki, bu gözəllik səninlə vardır, Əmirin hüzurunda qazanmış olduğun şərafət də səninlə vardır. Lakin sən bilirsən ki, saray həyatının içərisində hər şeydən artıq həsədlər, fitnələr, dedi-qodular vardır. Səni bunlardan qurtarmaq üçün başqa bir binada rahat yaşatmağı düşünürdüm. Özüm isə daima sənin xariqülado olan təbiətinin tamaşasına çox tez-tez gələcəyəm.

Səba xanım Əmirin dediklərindən yenə də razı qalmadı, çünki o, macərasız, dedi-qodusuz, fitnə və fəsadsız yaşaya bilməzdi. O gözəl olduğu qədər də macəraçı və iftiraçı idi; o, bir gün də olsa, böhtan və iftira toxumadan yaşaya bilməz.

Əmir isə onu sarayda saxlamağı imkan xaricində bilirdi, çünki bu hadisədən sonra qadını Safiyə xatunun da məsələyə müdaxilə edəcəyi və Əmirdən narazı qalacağı şübhəsiz idi. Xüsusən Səba xanımdan daha əvvəl Əmirin Səba xanıma verdiyi "şərəfə" nail olmuş başqa cariyələr də var idi. Onlar heç bir vaxt Səba xanımın Əmirin sarayına dünən gəldiyinə baxmayaraq, bu gün böyük şərəf qazandığına soyuqqanlılıqla baxa bilməyəcəkdilər. Lakin bu cür fikirlər Səba xanımı heç də qorxutmurdu, o hər necə olursa, sarayda yaşamağı və üstün bir ad daşımağı düşünürdü. O bilirdi ki, Əmirin xüsusi binalarda yaşayan cariyələri həbsxana həyatı keçirirlər. O, sarayın qilü-qallı və macəralarla dolu olan həyatını xüsusi binalara, qulamlara, cariyələrə, kənizlərə dəyişmək istəmirdi.

Səba xanım hələ Əbül-Ülanın evində yaşadığı vaxt qilü-qallı və macəralar içindən süzülüb çıxan həyata öyrənmişdi. O, Əbül-Ülanın özü və qadını Cahanbanu xanımın xəbəri olmadan onların kiçik qızları Mahtab xanımı bir neçəsinə nişanlandırıb hamısından zəhmət haqqı almışdı. Eyni zamanda Mahtab xanımın özü də Səba xanımın macərasından xəbər tutmamışdı.

Səba xanım Əmirin sarayına gəldiyi zaman özü üçün həm şöhrət, həm də böyük sərvət qazanmağı düşünürdü. O, Əmirin qızı Qətibəni də Əbül-Ülanın qızı Mahtab xanım kimi istədiyi adamlara göstərmək və istədiyini almaq fikrində idi. Buna görə də onun üçün sarayda yaşamaq xüsusi bir binada yaşamaqdan əlverişli idi.

Xüsusən Əmir tərəfindən sevildiyini və "şərəfə" nail olduğunu görüncə, onun şöhrət və sərvət əldə etmək arzuları yeni bir qüvvətlə alovlanmağa başladı.

Lakin təzə binaya köçürülmək məsələsi Səba xanımı çıxılmaz bir çərçivə içərisinə salmışdı. Onu ancaq Qətibə bu məngənədən çıxara biləcək idi. Lakin ona ümid bağlaya bilmirdi, çünki Nizaminin adından Qətibəyə yalan məktub gətirdiyi gündən bəri Qətibənin gözündən düşmüşdü.

Səba xanım bu acı düşüncənin təsiri altında ilan kimi qıvrılırdı. Lakin yenə də öz qəlbində:

– Qətibəni aldatmaq, çox da çətin deyil. Qəlbini bir sevgiyə verən qızlar öz ağıllarını da verirlər. Ağılsızları isə aldatmaq asandır – dedi.

Səba xanım Əmirə baş endirib otaqdan çıxdığı zaman Əmir də onun boy-buxununu nəzərdən keçirərək dalınca öz-özünə deyirdi:

– Kişilər şəhvətlərinin, qadınlar isə quru şöhrətin əsiridirlər. Mən yüzlərcə bədbəxtin cərgəsinə birisini də əlavə etdim; mənim əlaqədə olduğum cariyələr qadınım tərəfindən bir cinayətkar kimi təqib olunurlar.

Səba xanım Əmirin otağından uzun və geniş dəhlizə çıxdı. O, qiymətli xalçaların üzərindən məğrur qədəmlərlə keçdiyi zaman orada qəribə bir mənzərəyə təsadüf etdi. O ancaq dəhlizdə yeridiyi zaman hərəm həyatının bəzi şəkillərini görməyə başladı. Hərəmdə və sarayda yaşayan cariyələrin hamısı başını qapının arasından çıxarıb Səba xanıma baxırdılar. O, dəhlizin hər iki tərəfindən ona zillənmiş gözlərin müşayiəti altında ötüb keçirdi.

Cariyələrdən bəziləri isə dəhlizdə gəzir və öz aralarında nə isə danışıb gülüşürdülər. Bunların içərisində Səba xanımdan daha əvvəl Əmirin "şərəfinə" nail olmuş iki gözəl cariyə də var idi ki, onlardan birisi ərəb qızı Zəbyan, ikincisi isə İsfahandan alınmış Gülpeykər xanım idi.

Səba xanım dəhlizin yarısını getmişdi ki, birdən-birə gurultulu bir qəhqəhə səsi eşitdi. Gülənlər qapıların arasından baxan cariyələr idi. Bu qəhqəhələr Səba xanımı yerindən tərpədə bilmədi, çünki bu qəhqəhələrin bir həsəd nəticəsində doğulduğunu bilirdi, o bu qəhqəhələri eşitdikdə, özündə bir üstünlük hissi duyur və qürurunu daha da artırırdı.

Dəhlizin yarısında Gülpeykər xanım sağdan, Zəbyan xanım soldan Səba xanıma yaxınlaşdılar. Əvvəlcə Zəbyan xanım ona sual verdi:

– Xanım "şərəfə" nail ola bildimi?



Səba xanım cavab vermədi, məğrur-məğrur onların üzünə baxaraq keçib getmək istədikdə, Gülpeykər xanım ona sual verdi:

– Böyük xanım "şərafətə" nail oldumu?

Səba xanım onun sözünü cavabsız buraxmayaraq:

– Şərəfi ancaq şərəfli olanlar qazana bilərlər, – dedi. Bu zaman qızların birisi Səba xanımın sağ, o birisi isə sol əlindən tutub o biri əlləri ilə də onun nazik çöhrəsini cırmaqlamağa və didməyə başladılar. Onun boynunda və başında olan zinətləri qırıb yerə tökdülər. Üstündəki qiymətli və qumaş libasları cırıb dağıtdılar. Onlar Səba xanımın üzünü didib cırmaqladıqca qapıların arasından baxan cariyələr də bir əlini o biri əlinə vurub:

– Bir də! Bir də! Elə ha... Elə ha!.. – deyirdilər.

Səba xanımın qışqırtısına bütün saray xalqı dəhlizə yığıldı. Qışqırtı səsinə Əmirin qadını Safiyə xatun və qızı Qətibə də dəhlizə gəldilər. Səba xanımın yanaqları və dodaqları cırılmışdı. Gözlərini və göz bəbəklərini cırmaqlamışdılar. Bir neçə qulam və xacə Müfid Səba xanımı cariyələrin əlindən alıb apardığı zaman belə yenə onlar Səba xanımdan əl götürməyərək, vururdular. Ayıltmaq və yaralarını bağlamaq üçün həkimin yanına apardılar. Zəbyan xanımla Gülpeykər xanımı da hərəm həbsxanasına apardılar.

Bu qədər rüsvayçılıqdan və çığır-bağırdan sonra Əmir yenə də qadını Safiyə xatun və qızı Qətibənin yanında bəraət qazandı. Safiyə xatun Əmirin otağına girib acıqlandı:

– Sən bu rüsvayçılıqdan nə zaman əl götürəcəksən?

Əmir də:

– Məsələni layiqincə öyrənmək lazımdır, – dedi.

– Hansı məsələni?

– Namuslu cariyə böyük bir xəyanətin üstünü açıbdır. Dilşad sarayda olan bütün sirləri yazıb Fəxrəddinə göndərirmiş. Al oxu, gör Fəxrəddin ona öz məktubunda nə yazır.

Əmir məktubu çıxarıb Safiyə xatuna verdi və əlavə etdi:

– Namuslu qız məktubu mənə təqdim etmək üçün yanıma gəlmişdi. Onu burada saxlayıb müəyyən tapşırıqlar verirdim.

Qətibə bunu eşidəndən sonra ağladı:

– Yazıq və bədbəxt cariyəm, – deyərək onu yoxlamaq üçün həkimxanaya qaçdı.

Xəlifəyə göndərilərkən Fəxrəddin tərəfindən əldə edilən məktubun surəti çıxarılıb divarlara yapışdırıldıqdan sonra kəndlərdə, şəhərlərdə Əmirə qarşı təzə çıxışların xəbəri gəlirdi.

Əmir başını itirdi, öz vəziri Toxtamışı hüzuruna çağırıb soruşdu:

– Divarlara yapışdırılan məktub haqqında nə kimi tədbirlər gördün?

Vəzir Əmirin həyəcanını yatırmaq üçün dedi:

– Əmir əmin olmalıdır ki, təhlükənin qarşısı alınmışdır.

Əmir təəccüblə, inanmayacaq bir vəziyyət alaraq soruşdu:

– Bu qədər böyük təhlükənin qarşısı nə kimi vasitələrlə alına bilər? Görünür ki, sən yenə də məni eşikdəki hadisələrə qarşı iğfal edirsən. Xalqın mənə qarşı yağdırdığı lənətlərini dua və səna şəklində göstərməyə çalışırsan[1].

Toxtamış yenə də xəlifənin müqəddəs naminə and içərək Əmiri iğfal etməyəcəyini söyləyirdi. Əmir isə təhlükənin qarşısının nə vasitə ilə alındığını soruşurdu. Vəzir Əmirin təlaş və həyəcanını söndürmək üçün əlini qoynuna uzadıb bir kağız çıxararaq Əmirə verdi və:

– Aran əhalisinə bu məzmunda bir müraciətnamə buraxılmışdır, – dedi.

Əmir müraciətnaməni alıb oxudu:

"Aran əhalisinə:

Bu günlərdə Aranda düzəlmiş gizlin bir təşkilat tərəfindən Azərbaycan istiqlaliyyətinə qarşı xəyanət əli uzanmışdır. Əldə edilən müvəssəq məlumata görə bu təşkilat iş başından qovulmuş farslar və ərəblər tərəfindən düzəldilmişdir. Təşkilatın başında Əmirin sabiq katibi Mühakim ibn-Davud durur. Haman xain, hökumətin xüsusi möhürünü də özü ilə bərabər götürüb gizlənmişdir. Həmin bu təşkilat xalqın nifrətini Əmir hökumətinə qarşı çevirmək məqsədilə gizlin məktublar düzəldib hökumətdən oğurladıqları möhürlə möhürləyir. Buna görə də hökumət Azərbaycan və xüsusən Aran əhalisinə mü-

[1] Aclıqdan və məmurların zülmündən cana doymuş Azərbaycan xalqı Əmirin sarayının qarşısına gəlib ona lənətlər yağdırıb qışqırdıqları zaman Əmir Toxtamışı yanına çağırıb eşikdə nə kimi hadisə baş verdiyini soruşduqda Toxtamış: "Əlhəmdülillah məmləkət əmin-amanlıqdır. Çox ucuzluq və bolluqdur. Buna görə də xalq Əmirin qapısına yığışıb onun ömür və dövlətinə dua edir", – demişdi.



raciət edib həqiqəti anlatmağı özünə borc bilir. Şəban ayının 25-dən etibarən hökumətin möhürü ilə buraxılan məktub və vəsiqələrin hamısı etibardan saqitdir. Bundan əlavə, Əmir bütün namuslu rəiyyətlərə müraciət edib deyir: "Hər kəs sabiq katib Mühakim ibn-Davudun başını gətirərsə, hökumətdən min qızıl hədiyyə alacaqdır".

Əmir müraciətnaməni oxuyub, təşəkkür izharedici bir səslə dedi:

– Ürəyim qismən sakit oldu. Səni bura başqa bir məsələ üçün də çağırmışdım. Məhsəti xanımın böyük bir təntənə ilə şəhərə gətirilməsi də xalqın alovlanmaqda olan nifrətlərinə su səpə bilər. Onun qafiləsi bu gün İsfahan kəndində[1] olacaqdır. Sənə tapşırıram, xalqın məhəbbətini qazanmaq üçün böyük bir istiqbal təntənəsi düzəldərsən. Hökumətə məxsus taxt-rəvanları bəzədib əlli nəfər atlı ilə istiqbala göndərərsən. Qulamlar, cariyələr, bayram libaslarını geyib istiqbala getməlidir. Şəhərin ən görkəmli yerində onun üçün bir bina hazır etdirmək lazımdır. Burası belə... İndi de görüm xəlifəni vəziyyətdən xəbərdar edək, ya yox? Bəlkə də, xəlifə bu hadisələrdən xəbər tutdu, onda biz nə cavab verə bilərik?

Toxtamış yenə də başı titrəyə-titrəyə güldü və dedi:

– Hərgah Azərbaycan əhalisinə yazdığımız bu müraciətnaməyə ikicə nəfər inanan olsa, onun birincisi xəlifə olacaqdır. Xəlifələrin özləri nə qədər müqəddəs və uca olsalar da, ağıl və düşüncələri də o qədər gödəkdir.

Əmir də Toxtamışın sözünü təsdiq edərək əmr verdi:

– Mənim ağlıma belə bir tədbir də gəlir. Bir əmrnamə yazıb şəhərlərə göndərmək lazımdır. Əmrnamədə əhaliyə xəbər verməlisən ki, bundan əvvəl məmləkətdən xaricə sürgün edilənlərin hamısına əfvi-ümumi verilir. Hər kəs öz vətəninə qayıda bilər, istiqbaldan sonra heç bir kəs sürgündə qalmamalıdır.

Toxtamış bu fikrə razılıq verməyərək dedi:

– Əmir həzrətləri bu fikrin nəticəsində nadinclərin artmasına çalışmış olacaqdır.

Əmir isə onun bu sözlərinə cavab verib:

– Nadinclər şəhərin içindədir, gözümüzün qabağındadır. Sürgündə olanların əksəriyyəti isə nadinclərin gözünü qorxutmaq üçün sürgün

[1] İsfahan kəndi – Qarabağ ilə Gəncə arasında böyük bir kənd imiş.

edilmişdir. Sən məni eşit, bu təşəbbüslər xalqa verdiyimiz istiqlalın doğru olmadığı barəsindəki şübhələri dağıdar. Fürsət əlimizə keçəndən sonra sürgündən gələnləri yenə də həbsə ala bilərik, lakin bu dəfə sürgünə deyil, başqa bir yerə göndərərik.

O ki qaldı Dilşadın məsələsinə, zənnimcə, Fəxrəddini iştibahə salmamaq üçün Dilşadı həbsdən azad etməliyik.

Vəzir bir az fikir edəndən sonra başını qaldırıb çox yavaş bir surətdə pıçıldadı:

– Dilşadla Fəxrəddinin yazışması işindən şübhələnirəm. Burada başqa bir əlin iştirak etdiyini zənn edirəm. Bu barədə dərin düşünmək lazımdır. Bu işdə işləyən üçüncü əlin sahibi saray içərisindədir. Onun son zamanlar Əmir tərəfindən şərəfə nail olmuş Səba xanım olduğundan şübhələnirəm. Onun barəsində yığdığım məlumat mənim bu fikirlərimi doğruldur.

Əmir təəccüblə:

– İnana bilmirəm, – dedikdə, vəzir öz fikrini bir daha açıq dedi:

– Sizə gətirilən məktubun Fəxrəddin tərəfindən yazıldığı şübhəsizdir. Lakin Dilşadın Fəxrəddinə məktub göndərməsi şübhə altındadır. Sizə sual verirəm, nə üçün Fəxrəddin Dilşada göndərdiyi məktubu Səba xanımla göndərdi?

Məktubda yazılır ki: "Yazdığın məktub yetişdi. Sifarişlərini də aldım. Sən təfsilən yaz görüm, orada nə eşidibsən? Mən heç bir zaman səni atmayacağam".

İndi buradan məlum olur ki, sifarişləri aparan haman Səba xanımdır. Bu bir. İkinci də, Fəxrəddinin Dilşada yazdığı "təfsilən yaz görüm, orada nə eşidibsən? sözləri də Dilşada Fəxrəddinin dilindən düzəldilmiş bir məktub olduğunu nişan verir. Heç şübhə yoxdur ki, hərgah belə bir məktub düzəldilmişdirsə, yenə də Səba xanımın tərəfindən düzəlmişdir.

Üçüncüsü də budur ki, Səba xanımla Fəxrəddinin Şeyx Saleh məqbərəsində saatlarca danışdıqlarını görüb mənə xəbər gətirmişlər.

Dördüncüsü də, Səba xanımın Fəxrəddinlə keçmişdə sevgi əlaqələri bəslədiklərini nəzərə almaq lazımdır. Bütün bu macəra Səba xanımın Fəxrəddindən intiqam almaq fikirlərindən doğmuşdur. Əmir həzrətləri qoca vəzirin məsləhətlərini eşitməli və Səba xanımın yaxasını buraxmalıdır. Hərgah onun əxlaqı düzgün olsaydı, o qədər xariqüladə bir gözəlliyə malik olan qızı, üç min dirhəm gümüş pula verməzdilər.



Əmir bir az düşünəndən sonra:

– O qız yonulmamış bir almaz parçasıdır, – dedi.

Toxtamış Əmirə təzim edib gedəndən sonra, Əmir xacə Müfidi çağırıb Dilşadın hüzura gətirilməsini əmr etdi.

Xacə Müfid Dilşadı Əmirin hüzuruna gətirdi, lakin onu Əmirin otağında yalnız buraxmadı. Çünki Əmir bəzən xəlifə üçün alınan cariyələrə də təcavüz edər və nəticədə "qız xəstəlikdən öldü" – deyə xəlifəyə məlumat verərdi.

Dilşad çox zəif idi. Üzü, səhər açılaraq axşam vaxtı solmağa başlayan gül yarpağı kimi təbii rəngini itirmişdi. O, ayaq üstündə dura bilmirdi. Buna görə də Əmir onu tez buraxmaq üçün qısa suallar verirdi:

– Sən Fəxrəddinə məktub göndərmişdinmi?

– Mən heç vaxt və heç kəsə məktub göndərməmişəm.

– O sənə məktub göndərmişdirmi?

– Göndərməmişdir.

– Sən ona sifariş göndərmişdinmi?

– Əmirin başına and içərəm ki, nə məktub, nə də sifariş göndərmişəm. Hərgah belə hadisə vardırsa, mənim əleyhimə düzələn iftiradır.

– Mən səni həbsdən azad etməyi əmr etmişəm, sabah qızım Qətibə ilə taxt-rəvana oturub şairə Məhsəti xanımın istiqbalına gedəcəksən.

Əmir bunları dedikdən sonra xacə Müfidə:

– Bunun bütün zinətlərini özünə qaytar! – dedi.

## İSTİQBAL

Məhsəti xanımı istiqbal edən dəstələrin bir başı İsfahan kəndində, o bir başı isə Gəncənin yaxınlığındakı Xanəgah kəndində dayanmışdı. Gəncə şəhəri belə bir təntənəli istiqbal mərasimini ancaq hicrətin 511-ci illərində, Soltan Səncər birinci kərə Gəncəyə gəldiyi gün görmüşdü.

İstiqbal edənlər bir neçə dəstələrə ayrılmışdı, bunların içərisində nəzəri-diqqəti cəlb edə biləcək dəstə, yalnız şairlərin, yazıçıların, oxuyan və çalanların, ümumiyyətlə incəsənət xadimlərinin dəstəsi idi.

İstiqbala gedən kişilərin hamısı atlı idi. Ən qabaqda atlı dəstələrinin önündə şair Nizami və onun uşaqlıq və gənclik yoldaşı Fəxrəddin gedirdi. Bayraq və tuğ yox idi, lakin silahlı dəstələr səfərə çıxmış bir ordunu andırırdı.

Qadınların istiqbalçı qafiləsi taxt-rəvan və kəcavələrdə gedir və hər kəsin nəzərini özünə cəlb edirdi.

Xalqın nəzərini cəlb edən ən maraqlı dəstə Məhsəti xanımın şagirdləri tərəfindən düzəldilmiş dəstə idi. Bu dəstədə gedənlər öz musiqi alətlərini də yanlarınca götürmüşdülər. Ud, kamança, dəf və sairə götürənlərlə bərabər Məhsəti xanımın rübailərini əzbərləyib oxuyanlar da tez-tez gözə çarpırdı. At və kəcavə ilə istiqbala gedənlərdən başqa piyada gedənlər də var idi. Yolun iki tərəfində gedən gəlin və qızların dəstələri düzləri lalə zəmisi kimi qızartmışdı.

İstiqbala gedənlər yalnız gəncəlilərdən ibarət deyildi, Tiflisin altından başlayaraq Şəmkir, Yurt, Ağsivançay[1], Yam və sair kəndlərin camaatı da təntənəli istiqbalda iştirak edirdi. Lakin hökumət tərəfindən düzəlmiş istiqbal dəstəsi nə qədər təntənəli olursa olsun dəstələrin dalınca gedirdi. Hüsaməddin ətrafında bir dəstə hökumət atlısı olaraq hökumətin düzəltdiyi istiqbalçı dəstəni idarə edir və xalqın Məhsəti xanıma qarşı göstərdiyi bu məhəbbətin hökumətə qarşı bir nümayiş olduğunu düşünürdü. O, Məhsəti xanımın Gəncəyə qayıtması üçün hökumətin verdiyi qərarı böyük və siyasi bir səhv hesab edirdi. Çünki bu istiqbal xalqı hökumət düşmənlərinin ətrafında səfərbər edirdi. Gəncə şəhəri tamamilə boşalmışdı. Şəhərdə qalanlar yalnız ruhanilər və onların müridləri idi. Gəncədə qalanların əksəriyyəti vaxtilə Məhsəti xanımın Gəncədən köçürülməsində iştirak edənlər, ona daş atanlar və tüpürənlər idi. Belələri sübh namazını əda etmək üçün Səncər və Səlcuq camelərinə gedib günorta azanına qədər məsciddən kənara çıxmamışdı. Onlar kafirliyin qaranlığına bürünmüş dünyanın işıqlığa çıxması üçün Allaha yalvarır və ağlayırdılar.

Zahirdə hökumət tərəfindən təqib edilən müridlər isə evlərinə qapanaraq bu təntənənin gurultularını eşitməməyə çalışırdı.

Dəstələr irəliləyirdi. Hər kəs irəli keçərək Fəxrəddin və Nizamini görməyə can atırdı, danışıqlar ancaq bu iki simanın ətrafında gedirdi. Hər kəsin ağzından bu sözləri eşitmək olurdu:

– Birisinin kəskin şeri, o birisinin isə kəskin qılıncı vardır.

– Birisinə müharibə meydanında, o birisinə isə ədib və yazıçılar, şairlər və alimlər məclisində tamaşa edəsən.

Gəncənin bazar-dükanı tamamilə bağlanmışdı. Məlikşah meydanının ətrafındakı hücrələr, hətta Məsudiyyə karvansarasındakı alış-

[1] Ağsivançay – hazırkı Ağstafadır.



verişçilər də istiqbal dəstəsindədir, çünki bu dəstənin başında xalqın sevdiyi Nizami və Aran mülkünün qəhrəmanı Fəxrəddin gedir.

– Mən bunlarla bərabər ölümə gedərəm, çünki bunlar özləri üçün yox, xalq üçün canlarından keçən adamlardır.

– Onların xalq üçün canlarından keçməsi kifayət deyil, xalq da bunların yolunda canından keçməlidir.

Hökumət və əyanların ailəsinə mənsub olan taxt-rəvanlar hamıdan dalda, hökumət atlılarının mühafizəsi altında gedirdi. İçərisində dəbdəbəli xanımlar əyləşən taxt-rəvan və kəcavələrin ipək pərdələri gah qalxıb, gah da örtülürdü, oradakılar bu təntənəyə tamaşa etmək istədikləri kimi istiqbalçı gənclərdən də bir çoxu orada oturan qızları və xanımları görməyə çalışırdı. Qətibə əyləşən taxt-rəvanın yanına sürüb Qətibə ilə danışmaq istədi. Qətibə pərdəni örtmək istərkən, Hüsaməddin:

– Bir sualım vardır. Rica edirəm, pərdəni salma! – dedikdə Qətibə dayandı.

– De görüm, nə sualın vardır?

– Siz yenə də hər gün meşəyə gedirsinizmi?

– Hər gün yox, lazım olduğu zaman.

– Haman söyüd kötüyünün üstündə oturmağa davam edirsinizmi?

Qətibə son sualdan güldüyü zaman Hüsaməddin acıqlandı:

– Bu sualda gülməli nə vardır?

– Bu sualın əvvəldən axıra qədər gülməlidir. Sən elə bilirsən ki, məni maraqlandıran haman söyüd kötüyüdürmü? Mən haman kötüyü yox, onun üstündə yaradılan bədii bir dünyanı sevirəm. O dünyanı yaradan xaliqi sevirəm. Əcəba, sağlam hissedici bir qəlbə malik olan hər bir insan o bədii aləmlə maraqlanmazmı? Ondan aldığı mənəvi qidaları öz qanına buraxmazmı?

– Yetər-yetər, bu kimi sərsəriyana fikirlərə malik olduğunuz böyük ailənin şərəfi üçün bir ləkə deyildirmi?

– Hüsaməddin, çox təəssüf edirəm ki, mənim bu sevgim birtərəflidir. O mənim sevgimə müsbət bir cavab versəydi, dünyada bir kəsə məlum olmayan bizim ailəmizi bütün ölkələr tanıyacaqdı, ancaq o zaman bizə şərəfli bir ailə demək olacaqdı.

– Bu təbii bir haldır. O səni sevmədiyi üçün də sən onu sevirsən. Qızlarda bu xasiyyət bir xəstəlikdir. Həmin bu xəstəlik nəticəsində qızlar həqarətə boyun əyir, izzəti-nəfsini və şərəfini uduzur.

Qətibə yanıqlı bir halda dedi:

– Zənn edirəm ki, sənə qəti cavab verməyimin zamanı gəlmişdir. Bir kərə onu bilməlisən ki, sənə bəslədiyim ehtiram sənin atamla olan sıxı əlaqənin səbəbinədir. Əks surətdə sənin qabalıqlarını heç bir zaman həzm edə bilməzdim. Sən elə düşünmə ki, bu ehtiram səninlə ailə qurmaq düşüncəsinə kömək edə bilər. Qızlar sevdiyi üçün xəstə hesab olunmur, səlahiyyətli və məşhur adamları sevmək, yüksəkliyə çatmaq üçün atılan birinci addımdır. Həqarət və şərəfsizlik, qadının istehzalı gülüşlərini sevgi nişanələri kimi təbir etmək imkan xaricində olan işləri əldə etmək və xəyalpərəstlik etməkdən ibarətdir. Sən o şairi çox da həqir hesab etmə; o, gəncdir, fəqət bizim kimi gənclərdən deyil. O, gəncdir, lakin bir alim qədər yaşlıdır. Sən onunla oturub danışmamışsan, onun simasında sənin və mənim şüurumun əhatə edə bilmədiyi bir əzəmət vardır. Onun həyata aid düşüncəsi, onun təbiətə dair nəzəriyyələri, onun fəlsəfi görüşləri ölçülməyəcək qədər böyükdür. Onun təbiətindəki kübarlıq, onun başında və fikrində yer tutan əyilməzlik dünyanın heç bir qəhrəman və heç bir hökmranında ola bilməz. O sadə bir şair deyil, o həyat təcrübələrini dərk etmiş olan və insanların ruhunu oxuya bilən bir ruhiyyatçı qədər mahirdir. Sənə gəldikdə sadə, savadsız, keçmişi unudan, gələcəyi xatırlamayan bir adamsan. Sən bir əsgərsən, tək bir qılıncın vardır. O kimi qılınclar isə bir hökmdarın kölgəsində işlədiyi zaman insana ad qazandıra bilər. Əks təqdirdə o sadə bir dəmirdir. O pas alar, qaralar, korlaşar, dəmirlik qiymətini də itirə bilər. Lakin sənin həqir saydığın gənc şairin yaratdığı şeirlər xalqın dilində əzbərləndiyi və oxunduğu üçün getdikcə seyqəllənir və parlayır. Bunun üçün də sənin o şairə ədavət bəsləməyin artıqdır. Çünki o gənc heç bir vaxt mənə sevgi elan etməmişdir. Bir də budur ki, əbəs yerə mənim sevgimə mane olursan. O şair məni rədd etsə belə, sən mənim sevgimlə xoşbəxt ola bilməyəcəksən. Hələlik o məni sözləri və hərəkətlərilə təhqir etmişdir. O, mənim qəlbimi sındırmamışdır. Sənin onu cəzalandırmaq fikrin də boş fikirdir, çünki onun arxasında Aran məmləkətinin məşhur qəhrəmanı Fəxrəddin durmaqdadır. Bəlkə də, bir gün gələcəkdir ki, mənim özüm o şairi cəzalandırmağa məcbur olacağam, o zaman mənim bu fikrimə kömək etmək istəsən, təşəkkür edirəm. Lakin hazırda onu təhqir etmək, məni təhqir etmək kimidir. Sənə bir kərə demişəm, yenə də deyirəm: qəlbin hansı bir qızı sevirsə, məndən gizlətmə. Sevdiyin harada və kimin əlində olursa, ələ gətirməyi öhdəmə götürürəm.



Hüsaməddin öz tövrünü dəyişərək:

– Məni öz sözlərinizlə təhqir etməyin. Mən xəyalpərəst və istehzalı gülüşlərə sevgi mənası verən adamlardan da deyiləm. Mən sizin öz sevgi işarəsi verən hərəkətlərinizə və Əmirin mənə verdiyi vədlərə əsasən öz sevgimi elan etmişdim. Mən sizin ehtiramınıza da möhtac deyiləm. Sizdən məni evləndirməyi də rica etmirəm. Məni Fəxrəddinlə qorxutmayın. Hərgah mən o şairi məhv etmək istəsəm, Fəxrəddinləri hesaba almaram. Sağlıq olursa, kimin adlı-sanlı qəhrəman olduğunu görərsiniz. Hələlik Azərbaycan məmləkəti Hüsaməddini tanıyan qədər Fəxrəddini tanımamışdır.

Qətibə etidalını pozmayaraq Hüsaməddinin cavabını verdi:

– Mən sənin qəhrəmanlığını əlindən almaq və inkar etmək istəmirəm, lakin sənə demək istəyirəm ki, bir qəhrəman alınmaz bir qalanı fəth edə bilərsə də, bir qəlbi fəth edə bilməz. Xüsusən bir qızın, hətta səni sevməyən bir qızın qəlbini... Hələlik sənin qəhrəmanlıq tarixinin səhifələrində qalalar fəth etmək hadisələri də qeyd olunmamışdır. Ağlını başına yığ, Səba xanımın dediyinə görə şairin sevdiyi Rənanı sən də sevirmişsən. Mən Səba xanımı bu işin üstünə salaram. O qız hər şeyi bacarar, qızın ata-anasını da razı edər.

Hüsaməddin etirazla dedi:

– Yox, Qətibə, siz belə məsləhətləri mənə verməyin, siz bu xidməti mənim xatirim üçün deyil, şairi sevgilisindən ayırıb öz sevginizə bağlamaq üçün mənə təklif edirsiniz. Siz məni inkar etsəniz belə yenə də məndə qəhrəmanlığa məxsus bir düşüncə vardır. Hərgah şair qızı sevirsə, qoy sevsin, mən başqasının sevgisinə mane olmaq istəmirəm. Öz sevgimi başqa sevgilərə dəyişmək istəmirəm. Səba xanımın iş düzəltməsinə gəldikdə, onun nə oyun oynamaq istədiyi mənim üçün aydındır. O əvvəlcə Əbül-Ülanın qızı Mahtab xanımdan mənə məktub aparıb gətirirdi. Nəhayət, məktubların özü tərəfindən düzəldiyini bildim, bundan əli üzüldükdən sonra özü mənə sevgi elan etməyə başladı və Mahtab xanım məsələsində məndən əldə etdiyi hədiyyələri özümə qaytarmaq istədi. Lakin mən ona dedim ki, Qətibəni sevirəm, o zaman o sizin barənizdə də mənə ümidlər verdi, mən də ona inandım, çünki sizin öz hərəkətləriniz də mənə haqq qazandırırdı. Sonralar o sizin yanınıza gələndən sonra mənə Rənanı tərifləməyə başladı, hətta o qızdan mənə məktublar da gətirdi, ancaq mən daha ona inanmadım, çünki son oyunların Qətibə tərəfindən təşkil olunduğunu bilir-

dim. Dilşadın bədbəxtliyinə də səbəb sizin Səba xanım oldu. Fəxrəddinə məktub göndərərək onu iğfal edib, Dilşada məktub gətirmək macərası da onun işidir. Lakin o, bu oğlanı o qızla, o qızı bu oğlanla birləşdirmək istərkən, özü Əmir həzrətləri ilə birləşdi, özü Əmirin hərəmləri cərgəsinə daxil oldu.

Qətibə ona acıqla qışqırdı:

– Kəs səsini! Bu sözü bir də danışma, yoxsa anam eşidib özünü öldürər. Mənim atam xəlifənin damadıdır, Səba kimi cariyələri öz şərəfinə nail etməz. Sən ancaq öz sevgi düşüncələrini buraxdıqdan sonra mənim mərhəmət və mükafatıma nail ola biləcəksən. Sən məndən umduğun sevgiyə nail ola bilməyəcəksən. Bu kimi fikirlər, bizim tanışlıq və dostluğumuzu da məhv edə bilər. Mənim bir tərəfim ərəbdir. Ərəb qızının sözü bir olar. Sənə bir kərə "yox" demişəm, yenə də deyirəm: yox!

Hüsaməddin də qəti olaraq dedi:

– Mən də sizə deyirəm: nə babanız xəlifədən, nə də atanızdan qorxuram. Sizə elan edirəm: yeddi padşahın birisindən boşanıb o birisinə getsəniz də, sizi xoşbəxt olmağa qoymayacağam. Qətibə, siz bu sözümü unutmayın, siz mənim olmasanız da, heç kəsin də olmayacaqsınız, sizin xoşbəxtliyiniz mənə qismət olmazsa, bədbəxtliyiniz mənim əlimlə olmalıdır.

Qətibə bunun cavabında:

– Heç kəsin əlində olmasam belə, sənin əlində də olmayacağam; gəl ikimiz də öz iqbalımızı sınayaq, – dedikdə, Hüsaməddin də:

– Eybi yoxdur, gəlin sınayaq, – deyərək atın başını çevirdi. Qətibə də taxt-rəvanın ipək pərdəsini saldı.

* * *

Fəxrəddin Dilşadın taxt-rəvanla Məhsəti xanımın istiqbalına getdiyini eşidib sevindi. Onunla çoxdan görüşməmişdi. Səba xanımın düzəltdiyi macəranı aydınlaşdırmaq üçün özü Dilşadla danışmaq istəyirdi. Nizamidən ayrılıb geriləndi. Atın başını taxt-rəvanlar gedən tərəfə çevirib Dilşadın taxt-rəvanını axtarırdı. Ən geridə gedən taxt-rəvanın abı atlas pərdəsi qalxdı, oradan bir əl eşiyə çıxıb yaxına gəlmək işarəsi verincə, Fəxrəddin həmən əli qolbağından tanıdı və atını irəli sürdü.



Dilşad pəncərədən Fəxrəddini görüncə ağladı və:

– Ah, Fəxrəddin! Sən mənim üçün nə işlədin?! – dedi.

Fəxrəddin onun cavabında dedi:

– Özünü ələ al, mənim ruhum, vaxt azdır, məsələni aydın etmək lazımdır. Sən onu bil ki, o məktubu sənə mən yazmışam.

– Hansı məktubu?

– Mənə göndərdiyin məktuba cavab olaraq yazdığım məktubu.

– Mən heç vaxt səndən məktub almamışam. Sənə məktub da göndərməmişəm.

– Sən Səba xanımla mənə sifariş göndərməmişdin?

– Mən Səba xanıma heç bir söz deməmişəm, sənə də sifariş göndərməmişəm. Sən nə fikirlə ona inanıb məktub verdin? Haman məktubu gətirib Əmirə verdilər. Neçə müddətdir ki, həbsdəyəm. O həyasız cariyə məni məhv etdi. Sən onun sevgisini rədd etdiyin üçün, o, sənin intiqamını məndən aldı.

Bu sözlərdən sonra Fəxrəddinin damarlarında qan qaynamağa və beyni alovlanmağa başladı, eyni zamanda ağılsız və sadə bir hərəkətdə bulunduğu üçün utanmağa və öz-özünə nifrət etməyə başladı.

O, yalnız qısa bir cümlə ilə:

– Məni bağışla, Dilşad, – dedi, – hər nə olubsa keçibdir, indi artıq kədərlərin və ayrılıqların sonu yetişmişdir.

Dilşad ah çəkdi:

– Ah, Fəxrəddin, sən yenə də aldanırsan. Kədərlər və ayrılıqlar ancaq indi-indi başlanır. Əmir fürsət əldə edən kimi məni xəlifəyə göndərəcəkdir, sən bunu anlaya-anlaya həm məni, həm də özünü iğfal edirsən.

– Sən Əmirin bir də müvəffəqiyyət qazanacağına inanma. Hökumət Eldəniz oğlanlarının əlində möhkəm olsa belə Əmir İnancın hökumət başında qalacağına inanmıram. Onlar hökumətlərinin gələcəyini təmin etmək üçün iş başına öz adamlarını qoymağa çalışacaqlar. Səlcuq şahzadələri, dövlətlərinin süqut etdiyinə baxmayaraq, Kirmanda, İraqda, hətta Musildə belə hökumət düzəltməyə başlayıblar. Buna görə də Eldəniz oğlanları ehtiyatla hərəkət etməyə məcburdurlar. Onlar səlcuqlar dövründən Azərbaycanda hökumət sürən adamları, heç şübhə yoxdur ki, iş başında qoymazlar. Hazırda Şərq ölkələrində baş verən siyasi hadisələr də bizə xoşbəxtlik ümidi verir. Çünki xəlifə səni əldə edənə qədər yaşaya bilməyəcəkdir.

Dilşad yenə də Fəxrəddinin verdiyi ümidlərə inana bilmədi və:

– Fəxrəddin, xoşbəxtlik üçün hadisələrdən ümid gözləmək sadəlikdir, – dedi. – Məni gözləməkdə olan bədbəxtlik çox yaxındır. Hərgah mənə nicat vermək fikrin varsa, məni saraydan götürüb bir tərəfə qaçır. Biləks vaxt keçir.

– Əmin ol, bizim bədbəxtliyimizə səbəb olmaq istəyənlər xoşbəxt olmayacaqlar. Mən bu xoşbəxtliyi onların qəbirləri üzərində quracağam, mən səni saraydan bir oğru kimi yox, bir qəhrəman kimi azad edib Biləqana göndərəcəyəm. Sən öz ata-ananı görüb, bütün kədərlərini unudacaqsan. Dilşad, yalnız sən deyilsən, mən sarayın o mənhus hasarını yıxıb yüzlərcə bədbəxti oradan qurtaracağam. Sən mənə inan. O hasarı, o təntənəli, fəqət zülm və sitəmlərlə dolu olan sarayı yıxıb yerində qəbiristan yaratmasam, mən Fəxrəddin deyiləm. Mən sənə nicat verməklə yüzlərcə bəzəkli və qiymətli daşlara donatılmış əsirlərin boynundakı ö gözəgörünməz zəncirləri də qıracağam. Ancaq sən bunu bir kimsəyə danışma, saray xalqı əsir olsa da, gözəgörünməz sitəmlərin altında əzilməklə bərabər yenə də qorxulu xalqdır, çünki orada rahat yaşamaq üçün başqasının rahətini əlindən almağa məcburdurlar. Oradakı xoşbəxtlik ən iyrənc bir bədbəxtliyin üzərində qurulubdur.

Dilşad Fəxrəddinin bu sözlərini təsdiq edərək dedi:

– Doğrudur, Fəxrəddin. Orada qısqanclıq və intiqam fitnələrindən başqa heç bir şey yoxdur. Xüsusən Əmir tərəfindən sevilən cariyələr Əmirin baş hərəmi Safiyə xatun tərəfindən təhqir edilirlər. Sən onu bil ki, cariyələrin sarayda eşitdiyi söyüşləri dünyanın ən ədəbsiz və əxlaqsızlarının ağzından da eşidə bilməzsən. Məni bağışla, Fəxrəddin, sarayda fahişə olmayanlar belə fahişə həyatı keçirirlər. Onlar Əmirin şəhvətini coşdurmaq və "şərəfə" nail olmaq üçün cürbəcür oyunlar düşünməyə məcburdurlar. Burada yaltaq olmamaq da çətindir. Xacə Müfiddən başlayaraq ən adi bir xidmətçiyə qədər hamının cariyələr üzərində hökmü vardır. Çünki onların Əmirə apardığı xəbərlər ancaq özlərinin düşünüb toxuduqları xəbərdir. Sarayda söz gəzdirməyən, yalançı olmayan, bir-birini satmayanların yaşaması mümkün deyil. Safiyə xatun məni ərinə qısqandığı üçün, öz xüsusi xacəsi Zürrəsi[1] mənim üzərimdə gözətçi qoymuşdur. O, çox iyrənc bir ərəbdir, onu

[1] Zürrəs – ikibaşlı mənasındadır.



hər dəfə gördükdə bayılmaq dərəcəsinə gəlirəm. İndi özün düşün gör mən nə qədər iyrənc bir adamın iradəsindən asılıyam. Sən mənim bu həyatıma acıyıb onu dəyişdirməsən, mənim intihar etməkdən başqa bir çarəm qalmayacaqdır.

Fəxrəddin yenə də Dilşada ümidlər və vədlər verib ayrıldı, çünki daldan gələn olduqca təntənəli bir taxt-rəvan yetişmək üzrə idi. Bu taxt-rəvanı dörd nəfər atlı gətirirdi. Sonradan məlum oldu ki, bu taxt-rəvanda Səba xanım gəlirmiş, onu müşayiət edən atlılar isə Əmirin xas atlıları idi; bununla da hər kəs Səba xanımla Əmirin arasında qırılmaz bir əlaqənin mövcud olduğunu təyin etdi. Saraydan istiqbala gələnlərin çoxu Səba xanımın yenə də təzə bir macəraya hazırlandığını düşünür və qorxurdu.

Pəncərə açıq olduğundan Fəxrəddin Səba xanımı tanıdı. Səba xanım ona əhəmiyyət vermədi, çünki onun Dilşad ilə görüşdüyünü görüb macəranın ifşa edildiyini anlayırdı.

Səba xanım bunun üçün də taxt-rəvanını Dilşadın oturduğu taxt-rəvanın dalınca sürüb, onun kimlərlə danışdığını təqib edirdi. O, Fəxrəddinin atının başını görüncə qorxusundan bədənindəki damarlar belə çəkişməyə başladı. Çünki o, ifşa edilmiş xəyanətin Fəxrəddin tərəfindən əfv edilməyəcəyini bilirdi. O, Fəxrəddinə qarşı tutduğu etinasız vəziyyətini davam etdirə bilmədi. Atlılardan birisini Fəxrəddini çağırmaq üçün göndərdi, lakin Fəxrəddin onun dəvətinə etina etmədi.

Nizaminin başında gedən istiqbal dəstəsi "Əli bulağı" adlı çeşmənin yanında Məhsəti xanımın karvanı ilə qarşı-qarşıya gəldi. Qabaqca Nizami ilə Fəxrəddin atlarından düşdülər. Bir anda Məhsəti xanımın oturduğu taxt-rəvanı yüzlərcə şairlər, yazıçılar, musiqiçilər, şeir və musiqi həvəskarları aralığa aldı. taxt-rəvan Məhsəti xanımın şagirdlərinin və dostlarının gətirdiyi gül dəstələrinin içində qaldı. taxt-rəvan dayandığı vaxt istiqbalçılar onu musiqi tərənnümləri ilə salamladılar. Fəxrəddin ilə Nizami onun qolundan tutub taxt-rəvandan düşürdülər. Məhsəti xanım qollarını Nizaminin və Fəxrəddinin boynuna salıb onları öpdü və:

– Mənim dünyada bundan şad bir günüm olmamışdır, – dedi və həyəcandan səsi tutuldu. Bir azdan sonra yenə də sözünü davam etdirib dedi:

– Daima ölümlə mübarizə aparır və üstümə gələn əcəli qapımdan qaytarırdım, çünki mən bir an da olsa öz vətənimdə azad bir nəfəs

almaq və dostlarımla danışıb, görüşüb ölmək istəyirdim. Bu arzum yerinə yetdi, indi ölsəm də dərdim yoxdur.

Mücirəddin Məhsəti xanıma çox diqqətlə baxırdı; çünki hökumət onu Gəncədən sürgün etdiyi zaman saçlarında ağ tüklər çox az idi. İndi isə onun saçları tamamilə ağarmışdı. Qara ipək donunun üzərinə tökülmüş ağ və təmiz saçları bu qoca şairənin gözəlliyində yeni və gənc bir mənzərə açırdı. Buna görə də Mücirəddin ona yazdığı şerində deyirdi:

> Bu şux nəvəd salədə halət yenə qalmış,
> Geysuyi-səfidində təravət yenə qalmış.[1]

Hökumət tərəfindən istiqbala gələn dəstə yetişdi. Hüsaməddin atından düşüb Qətibənin taxt-rəvanına yanaşdı. Qulamlar dərhal pilləkəni qoydular, Hüsaməddin taxt-rəvanın qapısını açaraq Qətibəni endirərkən, taxt-rəvanın ətrafına yığışanlar, ipək və qiymətli xalçalarla bəzənmiş bir qəfəsin içindən bəzəkli bir tovuz quşunun endirildiyini zənn edirdilər. Qətibə taxt-rəvandan ayağını yerə qoyduğu zaman onu yüzlərcə kəniz və cariyə aralığa aldı. Qətibə Məhsəti xanım duran yerə qədər kənizlərin və cariyələrin içərisində gəldi. Bir neçə qədəm qalmış onlardan ayrılıb Məhsəti xanıma yanaşdı.

Əvvəlcə baş əyib təzim etdi, sonra da əlindən öpüb geri çəkildi və onun Gəncəyə qayıtmasını təbrik edərək dedi:

– Sizi azad və doğma vətənimizə qayıtmağınız münasibətilə təbrik edirəm. Atamın və anamın tərəfindən sizə səmimi salam vermək üçün vəkil edilmişəm. Eyni zamanda, sizin vətənə qayıtmağınız münasibətilə bütün Aran xalqını təbrik edirəm. Bu gün, musiqi və şeir həvəskarlarının tarixi bir bayramıdır. Mən özüm də qəlbən və ruhən bu bayramda iştirak etdiyimə fəxr edirəm.

Qətibə bu sözləri dedikdən sonra Məhsəti xanımın əlini bir daha öpdü və geri çəkilmək istərkən, böyük şairə onun alnından öpərək razılıq izhar etdi.

Qətibə geri çəkilib Fəxrəddinlə Nizaminin yanına gəldi və onları da təbrik edərək dedi:

[1] Məhsəti xanımın həyatı, müasiri olduğu Soltan Səncər və Ömər Xəyyamın həyat tarixi ilə ölçüldüyü zaman yüz ilə qədər yaşadığı təxmin edilməkdədir (*Müəllif*).



– Bu bayramı hamıdan artıq siz alqışlamalısınız. Buna görə də mən sizi xüsusi olaraq təbrik edirəm. Bu bayram mədəni xalqın da bayramıdır. Bir məmləkətdə hər şey həddindən artıq ola bilər, lakin dəyərli adamların sayı heç bir vaxt ehtiyac və həyatın tələb etdiyi qədər olmamışdır. Buna görə də siz və biz bütün varlığımızla çalışıb böyük sənətkarın daha uzun illər yaşamasını təmin etməliyik.

Nizami və Fəxrəddin Qətibənin göstərdiyi bu məhəbbətin nə qədər səmimi olduğuna əhəmiyyət verməyərək ona təşəkkür elan etdilər. Dəstələr Gəncəyə tərəf hərəkət etməli idi. Bütün Gəncə və Şəmkir əhalisi yollarda durub Məhsəti xanımı görmək istəyirdi. Məhsəti xanımın qolundan tutub taxt-rəvana qaldırdılar.

Hökumət tərəfindən istiqbal üçün gedən dəstəyə başçılıq edən Hüsaməddin, Məhsəti xanımın qafiləsini Əmir küçəsinə doğru aparmaq istərkən, Məhsəti xanım razı qalmayaraq dedi:

– Rica edirəm, yenə də məni doğulduğum, böyüdüyüm və öyrəndiyim məhəlləyə aparın! İncəsənət işçiləri yaşayan məhəlləyə, daha açığı Xərabat məhəlləsinə aparın, məni ancaq o məhəllədə yaşamaq şad edə bilər.

Nizami Məhsəti xanımın qulağına nə isə yavaşdan dedi. O saat Məhsəti xanımın üzünü bir kədər bürüdü. Onun tövrü dəyişdi. Nizamidən eşitdiyi sözlər bir daha onun qulaqlarında təkrar olundu:

– Artıq Xərabat məhəlləsi yoxdur, sizi Gəncədən sürgün edən zaman xətibin və Əmir İnancın əmri ilə müridlər Xərabat məhəlləsini söküb yer ilə yeksan etdilər.

Nə Məhsəti xanımın özü, nə də Nizami və Fəxrəddin hökumətin düzəltdiyi binada mənzil etmək tərəfdarı idilər. Onlar hökumətin bu təşəbbüsünə müvəqqəti bir oyun kimi məna verirdilər. Buna görə də onlar Məhsəti xanıma Nizaminin evini mənzil etməyi qərara almışdılar. Vaxt ikən hazırlıq görülmüşdü. Məhsəti xanıma xidmət üçün Fəxrəddinin evindən xidmətçilər və cariyələr təyin edilmişdi.

Məhsəti xanımı istiqbal edən dəstələr Nizaminin evinin qapısında durdular. Fəxrəddin ilə Nizami qoca şairənin qolundan tutub taxt-rəvandan düşürdülər. O, vidalaşarkən dedi:

– Zənn edirəm ki, bu görüş son görüşümüz olmayacaqdır. Böyük sənətkarın ziyarətinə tez-tez nail ola biləcəyik.

Məhsəti xanım istiqbalçılarla vidalaşıb qapıdan içəri girdiyi zaman, həyətdə onu xidmətçilər və cariyələr qarşıladı.

Nizami isə şad bir surətdə nəfəs alaraq öz-özünə:

– Nə qədər böyük bir səadət, – dedi. – Böyük sənətkarın xidmətində olmaq və ölüncəyə qədər onu öz doğma anamız kimi sevmək səadəti bizə nəsib oldu...

Bundan sonra Fəxrəddinin anası və Nizaminin yaxın qonşuları Məhsəti xanımı aralığa alıb onu öz otağına apardılar.

## "FƏRMAN-HÜMAYUN"

Bəhram şahla Atabəy Məhəmməd arasında gedən müharibələr bitmişdi. Kirman şəhəri altında bağlanan müqavilə ilə Kirman məmləkətinin böyük bir hissəsi Atabəy məmləkətinə ilhaq olunmuş və Toğrulun səltənəti bir daha möhkəmləndirilmişdi.

Fars ölkələrində məşğul olan ordular paytaxta qayıtmış və oradan da ölkə daxilində mövcud olan başıpozuqluğu təsviyə etmək üçün lazımi yerlərə göndərilmişdi.

Şimali Azərbaycana da ərəb, fars və iraqlılardan ibarət böyük bir ordu gəlmişdi. Xüsusən Aranın paytaxtı olan Gəncə şəhərinə Atabəy Məhəmmədin xas alaylarından ibarət böyük bir qüvvə gəlmişdi.

Bu qoşunun gəlməsi, onun inzibati işlərə başlaması Atabəylərin tərəfindən düzəldilmiş təzə qanunların elan edilməsi, vergiləri verməkdən boyun qaçıran kəndlərə göndərilən vergi məmurlarının qoşun dəstələri ilə getmələri, gələcəkdə nə kimi hadisələr vücuda gələcəyini aydınlaşdırmışdı.

Bunsuz da Əmir İnancın vaxt qazanmaq üçün Azərbaycan xalqına verdiyi istiqlal vədələrinin mündəricəsi məlum idi, çünki zahirdə Şirvan şahı Əbülmüzəffərə qarşı qoyulan təbliğat işlərinin Şirvan şahı ilə Əmir İnanc arasında müştərək düzəldiyinə dair vəsiqələr də əldə edilmişdi. Arana gətirilən qoşun dəstələrindən başqa, Şirvan şahının ixtiyarına da xalis farslardan ibarət böyük bir dəstə qoşun gəlmişdi. Atabəy Məhəmmədin gördüyü bu tədbirlərin mündəricəsi də bəlli idi. Şimali Azərbaycan, Atabəyin qoyduğu təzə qanunları qəbul etmədiyi zaman Şirvan şahlığında yerləşən qoşunlar Şirvanın öz xüsusi qüvvəsilə birlikdə Şimali azərbaycanlıları arxadan vuracaqdı. Atabəy Məhəmməd ilə Şirvan şahı Əbülmüzəffər arasında hərbi ittifaq bağlandığı xəbərləri də aralıqda gəzirdi.



Nəhayət, şayiə şəklində dolaşan xəbərlər bir həqiqət kimi görünməyə başladı.

Günəş hələ bir cida boyu qalxmamışdı, şəhər xalqı yerindən təzə-təzə qalxırdı, hökumətin carçıları küçələri dolaşıb bu sözləri qışqırırdı:

"Səlcuq camesinə yığışın!

Xəlifənin fərmanı oxunacaqdır, hey..."

Cümə günü idi. Məlikşah meydanı Gəncə əhalisi ilə dolmuşdu. Cümə bazarında iştirak etmək üçün Dehi, Püsəran, Xursənək, İsfahan, Yurt, Rud, Aqsuvan və Yam kəndlərindən gələnlər də Məlikşah meydanına yığışaraq xəlifədən gələn fərmanın nədən ibarət olduğu ilə maraqlanırdı. Arana qoşun gəldiyini görərkən "istiqlalı müdafiə üçün gəlibdir" – deyən sadə ürəklilər, indi də "Xəlifə istiqlalımızı təsdiq etdiyi üçün fərman göndəribdir" – deməyə başlamışdılar. Məsciddə boş yer yox idi, qırx sütunlu, geniş məscidin qadınlar bölməsində də minlərcə adam yerləşmişdi. Məsələnin həqiqətini bilənlər də, bilməyənlər də fərmanı eşitməyə tələsirdilər. Gəncə və ziyalıları da məsciddə idi.

Fəxrəddin və Nizami hamıdan əvvəl məscidin əyan və ziyalılara məxsus bölməsində oturub Əmirin əyan və Gəncə qazısının intizarını çəkirdilər.

Fəxrəddin Nizaminin qulağına pıçıldayıb:

– Hərgah məsciddə bizdən biət almaq istəyərlərsə, təklifimiz nədir? – deyə soruşduqda, Nizami:

– Baxıb görək, fərmanda nə yazılır, o zaman təklifimiz aydınlaşar, – dedi.

Əmir İnanc və Gəncə xətibi, Əmirin qoca vəziri Toxtamışla bərabər məscidə girdilər. Əmir və vəziri Toxtamış hökumətə məxsus bölmədə oturdular, xətib isə birbaş xalqın cərgələrini yarıb minbərə çıxdı. Qısa bir xütbə oxudu. Xütbəni Xəlifə Müstərşidbillah, Soltan Toğrul və onun atabəyi Cahan Pəhləvan Məhəmmədin adları ilə başlayıb onların adları ilə də bitirdi.

Xətib xütbəsini bitirdikdən sonra, Hüsaməddin əlində üstünə yaşıl atlasdan örtük çəkilmiş gümüş sini minbərə yaxınlaşdı. Xətib əlini uzadıb sininin üstündən örtüyü götürərək:

– Allahüməsəlli əla-Məhəmməd və ali-Məhəmməd! – dedi, bunun dalısınca da məsciddən yüksələn salavat səsi Məlik meydanına əks etməyə başladı.

Meydanda yığılan xalqdan da salavat gurultuları eşidildi. Nəhayət, xətib ayaq üstündə durub "salavat" kəlməsini təkrar edənlərin yerə oturmasını əmr etdi. Xətib ərəbcə yazılmış fərmanı oxumağa başladı. Sonra da Əmirin qoca vəziri ayağa qalxıb fərmanı qısa bir surətdə yerli dilə tərcümə etdi:

"Allah-təbarək-taalanın böyük iradəsi və peyğəmbər-zişənimizin himayəsi, islam milləti və islam məmləkətlərinin himayə işlərini xəlifələrə həvalə edibdir. Buna görə də biz, dini-islamın müdafiəsi, Qurani-şərifin hökmlərinin bütün dünyada nəşr edilməsi, islam ölkələrinin əmin-amanlığı, məmləkətlərin abad edilməsi işini səlahiyyətlər olan soltanların öhdəsinə tapşırmalıyıq. Dünya səltənətini Məlikşahın xələfi olan Soltan Toğrula, onun atabəyi Cahan Pəhləvan Məhəmmədə tapşırmağı qərara aldım.

Bütün İraq, Fars və Azərbaycan xalqına tapşırılır ki, Əmirəlmöminin etimadını qazanmış, Soltan Toğrula və Eldənizin dəyanətli xələfi olan Cahan Pəhləvan Məhəmmədə bilavasitə biət etsin. Həmədan sabiqdə olduğu kimi Toğrul səltənətinin paytaxtıdır. Azərbaycan hökuməti, Təbriz paytaxt olmaq şərtilə Atabəy Məhəmmədin qardaşı Qızıl Arslana tapşırılır. Şirvan xaqanı Əbülmüzəffər Şirvan şahı təsdiq olunur. Aran ölkəsinin idarəsi Atabəy Məhəmmədə tabe olmaq şərti ilə Əmir İnanca həvalə olunur".

Toxtamış fərmanı oxuduqdan sonra onu əlində yuxarı qaldırıb məsciddə oturanlara dedi:

– Fərmanı Əmirəlmöminin xəlifəyi-ruyi-zəmin Müstərşidbillah həzrətlərinin özü imza edib və xilafət möhürü ilə möhürləmişdir.

Vəzir bu sözləri dedikdən sonra fərmanı yenə də gümüş sininin içinə qoydu və yaşıl atlası üzərinə çəkərək Əmirin qarşısına gətirdi. Əmir ayağa qalxdı, çünki xəlifənin təklif etdiyi biəti qəbul edənlər bir-bir gəlib fərmanı öpməli və Əmirə biət edib keçməli idilər.

Ən əvvəl xətib və Əmir divanxanasının məsul xidmətçiləri bir-bir gəlib fərmanı öpüb keçdilər. Lakin məscidə yığılan camaatın gözü Fəxrəddində, Nizamidə və sairlərdə idi. Heç kəs yerindən hərəkət edib fərmanı öpməyə və "biət edirəm" deməyə cəsarət etmirdi.

Toxtamış dərhal vəziyyətin ağır olduğunu hiss edərək əyanlara müraciət etdi:

– Xalq öz rəhbərlərinin xəlifə nümayəndələrinə biətini gözləyir. Ağalar buyurub biət etsinlər.



Yenə də heç kəsdən səs çıxmadı.

Fəxrəddin Nizaminin qulağına pıçıldayıb soruşdu:

– Təklifiniz nədir?

Nizami Fəxrəddinə cavab vermədən əvvəl Toxtamışın cavabını verib dedi:

– Biz ərəb olmasaq da, ərəbcəni bir ərəb kimi bilirik. Biz bunu bilməyə məcbur idik. Xəlifə həzrətlərinin göndərdiyi fərmanın məzmunu burada xalqdan Toğrula və Atabəy Məhəmmədə biət yığmağa icazə vermir.

Nizaminin bu sözlərindən sonra məsciddə tamamilə təzə bir vəziyyət törəmiş oldu. On minlərcə adam əlini qulağının dalısına süpər edib, minbərin yaxınında gedən söhbətləri eşitməyə tələsirdi. Toxtamış Nizaminin sözünə cavab verib dedi:

– Mən cavan şairin sözlərinə çox təəccüb edirəm, onun xalqın şüurunda şübhə yaratmaq üçün meydana atdığı bu əsassız fikrinin mənasını anlamıram. Əvvəla, fərmanda biət edilməsi sözləri çox açıqcasına qeyd edilmişdir. İkincisi də, ağsaqqallar, yaş və sərvət cəhətcə yüksəkdə duran ağalar oturan yerdə həyat meydanına təzə atılan bir gəncin üləma və əyanlar hüzurunda diliuzunluq etməsi ədəbsizlikdir.

Toxtamış bu sözləri dedikdən sonra məscid xalqından:

"Doğrudur, doğrudur, vəzir çox doğru buyurur!" kimi səslərin yüksələcəyini ümid edirdi. Lakin məsciddə oturanlardan cınqırını çəkən belə olmadı. Ancaq Fəxrəddin ayağa qalxıb danışdı:

– Mən öz sözümlə nə əyanları, nə də özümüzdən yaşlıları təhqir etmək istəmirəm. Lakin bunu demək istəyirəm ki, Azərbaycanda mövcud olan bugünkü yüksək mədəniyyət və bütün Şərqdə özünü tanıtdırmış olan şeir və musiqi sənəti, vəzir cənablarının göstərdiyi qocalara deyil, hazırkı Azərbaycan gəncliyinə minnətdardır. Vəzir cənabları sağ-soluna göz gəzdirdiyi zaman gənc Nizamini, gənc Mücirəddini, İzzəddini və sairləri görəcəkdir.

Yaşlılara və özümüzdən qocalara olan hörmət və pərəstişimizi heç kəs inkar edə bilməz. Lakin bunu qeyd etmək lazımdır ki, onların fikirlərinin məhsulu olan bu ictimai həyatın özü də qocalmış və gevşənmişdir. Yeni ictimai həyat, yeni mədəni quruluş gənc əllərlə təşkil edilməkdədir. Gənclər qocalardan sonra doğulduqları üçün onların həyat və dünyagörüşləri də gəncdir. Zənn edirəm öz yerini gənc nəslə tapşırmış olan qoca atalarımız da bunu təsdiq edər.

Məsciddən səslər ucaldı:

– Yaşasın Fəxrəddin! Yaşasın gənc fikirlər!

Əmir, Toxtamışın qulağına nə isə pıçıldayandan sonra o çox mülayim bir tövr alaraq:

– Biz heç bir zaman hazırkı mədəniyyətin gənc nəslə minnətdar olması həqiqətini inkar edə bilmərik. Lakin gənclərin də xalqı iğfal etməsi və xəlifənin fərmanını təhrif etməsi mədəniyyətsizlikdir.

Nizami bir daha ayağa qalxıb məscid xalqına müraciət edib dedi:

– Mən heç bir zaman həqiqəti təhrif etməmişəm, biləks, təhrifçilərin düşməni olmuşam. Hərgah vəzir cənabları bu sözlərimi özü üçün təhqir hesab etməzsə, o zaman cəsarətlə deyə bilərəm ki, xəlifə həzrətlərinin fərmanını təhrif edən cənab vəzirin özüdür. Xəlifə öz fərmanında nə deyir? Yaxşı qulaq verin, o barədə sizə izahat verim.

Xəlifə fərmanında hər kəsin anlaya biləcəyi bir surətdə deyir:

"Bütün İraq, Fars və Azərbaycan xalqına tapşırılır ki, Əmirəlmöminin etimadını qazanmış Soltan Toğrula və Eldənizin dəyanətli xəlifi olan Cahan Pəhləvan Məhəmmədə bilavasitə biət etsinlər".

Bilavasitə sözü nə deməkdir? Yəni başqasının vasitəsilə deyil, şəxsən onların özünə biət etsinlər.

Nizami bu sözlərdən sonra üzünü xətibə tutub əlavə etdi:

– Zənn edirəm ki, bu həqiqəti xətib cənablarının özü də inkar etməz.

Xətib çıxılmaz bir vəziyyətdə qaldı, lakin belə açıq bir həqiqəti də inkar edə bilməzdi, buna görə də xətib ayağa qalxaraq üzünü məsciddəkilərə tutub ucadan:

– Gənc şairin dediyi doğrudur! – dedikdə xalq dəstələrlə qalxıb, məsciddən çıxdı.

Nizami ilə Fəxrəddin də öz yoldaşları ilə bərabər Əmirlə vidalaşıb ayrıldılar.

* * *

Otaqda Nizami ilə özündən başqa heç bir kəs yox idi, buna görə də Fəxrəddin üsyan barəsindəki fikrini açıq söyləmək üçün fürsət əldə etdi və Nizamiyə sual verdi:

– Doğrusu, mən sənin bəzi hərəkətlərin barəsində şübhələnirəm, mənim buna haqqım var, ya yox?



– Əvvəlcə, hansı məsələlər barəsində şübhələndiyini açıq deməli, sonra şübhələnməyə haqlı olub-olmadığını soruşmalısan.

– Mən daima üsyan fikrini meydana atdığım zaman məni səbrə, sakitliyə dəvət edirsən. Əcəba, səbrin və sakitliyin bir nəhayəti olmayacaqdırmı?

Nizami Fəxrəddinin üzünə acıqlı baxdı, Fəxrəddin Nizamidən bu cür baxışı birinci kərə gördüyündən, dərhal səhv etdiyini anladı və səhvini düzəltməyə çalışaraq əlavə etdi:

– İlyas, sən elə bilmə ki, mən səni fəaliyyətsizlikdə, üsyan və azadlıq tərəfdarı olmamaqda töhmətləndirmək istədim.

– Mən səni anlayıram. Başqa cür də düşünmürəm. Lakin daima səni səbrə və sükuta dəvət etdiyim kimi başqa tövsiyələr də vermişəm. Madam ki, haman tövsiyələrin heç birisi yerinə yetirilməmişdir, o zaman üsyan barəsində olan fikirlərin heç birisinə şərik deyiləm.

Fəxrəddin yenə də soruşdu:

– Hansı tövsiyələri deyirsən? Heç də xatırıma gəlmir.

– Sənə də, başqalarına da, üsyandan söhbət açıldığı zaman demişəm ki, xalqı üsyana hazırlamaq lazımdır. Hərgah üsyanda sən və mən, bir də bizimlə həmfikir olan beş-on nəfər iştirak edəcəkdirsə, bu günün özündə qılınclarımızı əlimizə alıb üsyana başlamaq olar, lakin belə üsyanın çox mənasız bir sonu olar və haqlı olaraq sonra hər kəs deyər ki, öz tədbirsizlikləri və axmaq hərəkətləri üzündən özləri də məhv oldu, başqalarını da ölümə verdilər. Mən bunu istəmirəm, mən istəyirəm ki, min il bundan sonra da bir nəfər Gəncə üsyanının tarixini oxuduğu zaman desin ki, "üsyan olduqca ağıllı, düşüncəli və tədbirli bir surətdə təşkil edilmiş üsyan idi. Orada yalnız şəhər xalqı deyil, bütün kəndistan da iştirak etmişdi". Mənim verdiyim tövsiyələr budan ibarətdir. Biz buna hazırlanmalıyıq. Hazırda Gəncədən kəndliləri səfərbərliyə alıb biyara göndərirlər. Kəndlilər isə heç etiraz etmədən başını aşağı salıb gedirlər. Onlar elə bilirlər ki, həyatda bu da bir qanundur. Lakin heç bir kəs onları başa salmaq istəmir, heç kəs onlara yanaşıb demir ki, biyara getmək ancaq ümumi işlərdə lazımdır. Xalq ancaq xalq üçün işləməlidir. Məsələn, körpüləri düzəltmək, yolları düzəltmək, sel aparmış arxları bərpa etmək üçün xalqın biyara getməsinin hey eybi yoxdur. Lakin minlərcə azərbaycanlını qamçı və ağac gücünə səfərbərliyə alaraq təzə Atabəyə malikanə düzəltmək, kənd-

lər, bazarlar[1] tikmək qanunsuzluq, zülm və insafsızlıqdır ki, bunu da xalqa anlatmaq lazımdır. Əvvəlcə xalqın şüurunda üsyan fikirlərini doğurmaq, sonra isə ona təkan vermək və təşkilat içərisinə almaq lazımdır. Fəxrəddin məni lazımınca anlamalıdır. Mən sənin cəsarətini, qəhrəmanlığını qiymətləndirirəm. Buna görə də xırda və düşünülməmiş hadisələr nəticəsində tələf olmanı istəmirəm. Çox qısa demək lazımdır. Xalq nə üçün üsyan etdiyini və nə üçün də ölümə getdiyini bilməlidir. Biz bunu iki il bundan əvvəlki üsyanlarda təcrübədən keirmişik. O zaman kəndlidən "nə üçün üsyan edirsən?" – deyə soruşanda "camaat edirdi, mən də etdim" – demişdi.

Üsyanda mündəricə olmalıdır. Mündəricəsiz üsyanla təsadüfi hadisələrin heç bir fərqi yoxdur. Xalqın ruhundakı xüsusiyyətləri də nəzərə almaq lazımdır. Təzə hökumət elan olunduğu zaman xalqın ruhunda mövcud olan hökumət əleyhdarlığı öz əhəmiyyətini itirə bilər. Çünki xalqın xasiyyəti təzə şeylə maraqlanmaqdır. Xalq hələ təzə hökumətdən öz istədiklərini gözləyəcək və ondan təzə həyat umacaqdır. Hökumət də öz növbəsində xalqın ruhunu oxşayacaq və onu inandırmaq üçün yüz faiz yol tapıncaya qədər özünü yaxşı aparacaqdır. Biz, o tərəf bu tərəfdə hökumətə qarşı qoyulan nifrətlərə arxa verə bilmərik. Bu narazılıq yalnız köhnə xanədana qarşı idi. Təzə hökumət gəldiyi zaman narazıların sayı azalacaqdır. Azərbaycanda mövcud olan başıpozuqluğu yaradanlar xəlifə tərəfdarları idi. Çünki xəlifələr səlcuq hökmdarlarının nüfuzu təsirindən qurtarmağa çalışırdılar. Xalqı səlcuq xanədanına qarşı qaldırmaqla onların süqutunu istəyirdilər. İndisə onlar artıq buna nail olduqlarından başıpozuqluğun təsviyəsi üçün çalışacaqlar. Başıpozuqluğun ikinci səbəbi də Xarəzmşahların və iranlıların Azərbaycan daxilində apardığı təbliğatdır. Atabəy Məhəmmədin Bəhram şah üzərindəki qələbəsi və Xarəzm hüdudlarına göndərdiyi qüvvətlərin nəticəsində məmləkət daxilində olan əcnəbi təbliğatına da nəhayət veriləcəkdir.

Xırda çıxışların tərəfdarı deyiləm. Əvvələ, bu çıxışlar hökuməti ayıq salır, onun böyük üsyanları boğmaq üçün hazırlanmasına səbəb olur. İkincisi də, nəhayətsiz çıxışlar Azərbaycan mədəniyyətini pozur. Kəndin və şəhərin iflas etməsinə səbəb olur. Hazırkı mədəniyyəti

[1] Həmədan ilə Soltaniyyə arasında Atabəy Məhəmməd Bazarça ilə bərabər bir də böyük kənd tikdirmişdir (*Həmdulla ibn Müstofi Qəzvininin coğrafiyasından*).



pozmaq və bu inkişafı dayandırmaq bizim üçün böyük bir məğlubiyyətdir. Bu mədəniyyətə xidmət edən və bunun düşmənlərinəqarşı mübarizə aparan hər hansı bir hökumət olursa – bizim öz hökumətimizdir. Əks təqdirdə biz onun düşməniyik.

Fəxrəddin Nizamiyə etiraz edərək dedi:

– Yenə də bir şey anlamadım, çünki üsyan edib-etməmək barəsində qəti bir söz demədin. "Mədəniyyətimizə xidmət edən və onun düşmənlərinə qarşı mübarizə aparan hər hansı bir hökumət olursa, o bizim öz hökumətimizdir" sözləri ilə nə demək istədiyini anlamadım.

– Burada gizlin və anlaşılmayacaq heç bir şey yoxdur. Üsyan üçün silah hazırlamaqdan əvvəl xalqın əhval-ruhiyyəsini hazırlamaq lazımdır. Hökumət məsələsinə gəldikdə, bu da aydındır. Təzə xanədan ərəb-fars nüfuzunu Azərbaycandan qovmaq üçün bizimlə əlbir işləməlidir. Çünki farslarla ərəblər birinci növbədə bizim dilimizi əlimizdən almağa çalışırlar. Onlar çox yaxşı bilirlər ki, ana dili olmayan bir xalqın milli mədəniyyəti də ola bilməz. Təzə xanədan köhnə xanədandan irs qalan casusları, yaltaqları, öz xalqını satanları ətrafına yığıb onlara istinad etməməlidir. Hökumət ancaq xalqın arzu və iradəsinə istinad etməlidir. Əgər belə olmazsa, əgər təzə xanədan köhnə xanədanın irslərindən istifadə edərsə, o zaman mən onun əleyhinə olacağam. Təzə xanədan Gəncə hakimini Arandan götürməzsə, mən bütün varlığımla çalışıb ona qarşı xalq üsyanını qoyacağam.

Fəxrəddin bu sözdə qalxıb Nizamini öpdü və:

– Mən səhərdən bəri səndən bu sözləri gözləyirdim, – dedi.

Bu söhbətlərdən sonra Fəxrəddin Əmir İnanca qarşı düzəltmək istədiyi üsyanın nədən ibarət olacağı və nə cür başlanacağı haqqında danışdı. O hələ sözünü bitirməmişdi ki, qapı vuruldu və sonra Əmir İnancın sərkərdəsi Hüsaməddin dörd nəfər silahlı nökərlə bərabər otağa daxil oldu.

Hüsaməddin:

– Salam əleyküm! – deyə baş əydi və əlavə etdi: – İcazə versəydiniz sizinlə bəzi məsələlər haqqında danışardım. Lakin şairi rahatsız edəcəyimə əvvəlcədən üzr istəyirəm. – Bunu deyərək Hüsaməddin Fəxrəddinin üzünə baxdı, heç şübhə yox idi ki, onun şairlə nəzakət dairəsində danışmasının səbəbi Fəxrəddinin orada olması idi. Fəxrəddin isə ona heç də etina etmirdi. Lakin Nizami onun cavabını verərək dedi:

– Əyləşin, siz mənim bu həqir evimə xoş gəlib səfa gətiribsiniz.

Hüsaməddin oturdu və nökərlərinə tərəf dönərək:

– Siz həyətdə durub məni gözləyin, – dedi.

Hüsaməddin oturub şairin evini və evindəki yoxsul şeyləri gözdən keçirirdi.

Əmir İnancın qızı Qətibəni özünə məftun edən şairin var-dövləti bir neçə köhnəlmiş palaz, bir dəst yorğan-döşək, kitablar, kağızlar, yemək üçün qablardan ibarət idi. Sarı samanla suvanmış olan palçıq divarlı otaqların birində böyük şairə Məhsəti xanım? o birində isə şairin özü yaşayırdı.

Hüsaməddin otaqları lazımınca nəzərdən keçirəndən sonra Nizamiyə tərəf dönüb:

– Siz mənə məktub göndərmişsinizmi? – dedikdə Nizami təəccüblə:

– Mən sizə heç bir məktub göndərməmişəm. Siz bir qoşun sərdarı, mənsə yoxsul bir şair, bizim aramızda nə kimi məktublaşma ola bilər?

Hüsaməddin əlini qoynuna atıb bir məktub çıxartdı:

– Alıb oxuyun, bu məktubu mənə yazan siz deyilsinizmi?

Nizami məktubu alıb oxudu:

"Möhtərəm Hüsaməddin!

Sizin Arandakı şöhrət və şücaətiniz mənə məlumdur. Lakin sevgi və məhəbbət işlərində nə şöhrət, nə də şücaət bir iş görər. Mən sizi xəbərdar edirəm: Əmir İnancın qızı Qətibənin yaxasından əl götürünüz. Başqasının iqbalına şərik olmaq qəhrəmanlara və şöhrətli adamlara yaramaz. Doğrudur, mən yoxsul bir şairəm, lakin xoşuma gəlməyən adamla mübarizə etməyi də bacararam".

Nizami məktubu oxuyub güldü və Fəxrəddinə dedi:

– Heç anlamıram, Əbül-Ülanın bu həyasız cariyəsi məndən nə istəyir?

Sonra o, Hüsaməddinə cavab verib dedi:

– Möhtərəm Hüsaməddin, sizdən üzr istəyirəm, Səba xanım sizi rahatsız edibdir. Hərgah bu məktubu mən sizə yazmış olsaydım, nə qorxardım, nə də üzr istərdim. O həyasız belə bir məktub da Qətibə xanımın dilindən mənim gələcək həyat yoldaşımın adına göndəribdir. İndi bir neçə kəlmə də mənim Qətibə ilə olan əlaqəmdən danışaq. Siz ağıllı adamsınız, çox da gənc deyilsiniz və yaxşı bir düşünün, bütün varı palçıq evdən və bu evdəkilərdən ibarət olan bir şair Qətibə kimi



zəngin bir qızla evlənmək xəyalına düşərmi? O mənim nəyimə lazımdır? Əcəba, siz məni o qədər namussuz, o qədər şərəfsizmi hesab edirsiniz? Mən Qətibəyə evlənib Əmir İnancın süfrəsinin başındamı sülənəcəyəm?! Siz ki, o qızın dəli sevgisini bilirsiniz. Görürsünüz ki, mən ondan qaçıram, görürsünüz ki, o mənə rahatlıq vermir. Meşədə, bağda, küçədə, meydanda – harada görürsə məni evinə dəvət edir. Nə edim? Mən şairəm, bir gəncin ümidlərini qırmağın ən böyük bir günah olduğunu anlayıram. Həm də Səba kimilərin fitnə-fəsadından qorxuram. Çünki Səba xanım kimi saray cariyələri belə bir məsələni çıraqla axtarırlar. Onlar bu kimi hadisələri alış-veriş şəklinə qoyub pul qazanırlar. Siz Hüsaməddin, Səba xanımı tanımırsınızmı? Onun Əbül-Ülanın qızı Mahtab xanımı bir vaxtda səkkiz nəfərə nişanladıb hamısından hədiyyə və zəhmət haqqı aldığını eşitməmişsinizmi?

Hüsaməddin:

– Bunların hamısını bilirəm, – dedi və əlavə etdi: – demək ki, siz mənim sevgimə maneə törətməyəcəksiniz?

– İnanın, Qətibə gözəldir, elmli, biliklidir, şöhrətlidir. Lakin bunların heç birisi mənim üçün deyil. Sizə bir şair kimi söz verirəm, mən onu sevməyəcəyəm. Mən ancaq iki kərə onun əlini sıxmışam. Bunu da məndən öz nəzakətim tələb etmişdir. Kim bilir, bəlkə təsadüf olursa bir daha onun əlini sıxmaq məcburiyyətində qalaram. Lakin bunu sevgi hissləri kimi məna etməyin.

Fəxrəddin mənim uşaqlıq yoldaşımdır. O məni özüm qədər tanıyır, o bilir ki, Qətibənin sevgisi nə qəlbimə, nə də vicdanıma yerləşir.

Hüsaməddin Nizaminin əlini sıxaraq dedi:

– Mən vicdanlı bir zatın evində oturduğum üçün vicdanla da danışmalıyam. Sizin bu qədər alicənablığınıza bir xidmət etmək istəyirəm. Siz öz sevgili Rənanızı tez bir zamanda evinizə gətirin, çünki Qətibə sizi onun sevgisindən azad etmək üçün Rənanı da Bağdada göndəriləcək qızların siyahısına salmışdır. Zənn edirəm ki, siz onu evinizə gətirəndən sonra, Əmir ərə getmiş bir qızı ərindən alaraq Bağdada göndərməkdən utanar...

Sonra o, Fəxrəddinə tərəf döndü:

– Gənc bir qəhrəman olduğun üçün səni də sevirəm, – dedi. – Əmirdən ayıq ol, Dilşad da sənin deyil. Rica edirəm, danışdıqlarımız burada qalsın.

Sonra Hüsaməddin ayağa qalxaraq, Nizami və Fəxrəddinlə vidalaşıb, otaqdan çıxdı.

# ŞAİRİN SON SÖZÜ

Axşam çağı idi. Günəşin istiliyi axşam küləkləri qarşısında məğlub olaraq, get-gedə təsirini itirirdi. Səyahət vaxtı keçirdi, çay kənarına səyahət üçün gələnlər çəkilib gedirdi. Şair də qalxıb çayın kənarı ilə şərqə doğru döndü. Musa dəyirmanının ətrafındakı söyüdlükdən qalxıb Sancər meydanına tərəf getdi. Bu zaman onu arxadan bir nəfər səslədi:

– Möhtərəm şair, bir az ayaq saxlayın.

Şair dönüb arxasına baxdıqda Qətibənin qoca bağbanı Salimin gəldiyini görüb dayandı.

Salim başı titrəyə-titrəyə Nizamiyə yaxınlaşaraq dedi:

– Bağışlayın, sizi rahatsız edəcəyəm.

Nizami gülümsəyərək dedi:

– Siz qoca kişisiniz, bilirsiniz ki, Allah bəndələrini rahatsız etmək günahdır.

Salim baş endirib:

– Məni bu savab ilə qol-boyun olan günaha məcbur edən vardır, – dedi. – Siz onu tanıyırsınız. Xanım orada oturub sizi görmək istəyir.

– Harada?

– Həmişəki yerdə.

– Necə yəni həmişəki yerdə?

– Daima sizin oturub yazı yazdığınız o söyüd kötüyünün yanında.

– Xanımınız mənim meşədə olduğumu haradan bildi?

– Xanım hər gün sizi təqib edir, hətta siz gedəndən sonra orada durub sizi xatırlayır. Dünən xanım orada durub sizin yoldaşlarınızla şeir oxuduğunuzu eşidirdi. O sizin Rəna ilə görüşdüyünüzü də gördü. Buna görə də sizi xəbərdar edirəm: o çox acıqlıdır. Bir az ehtiyatlı olun. Onun qəlbini ələ alın, həyəcanını sakit etməyə çalışın. O sizin Rənanızı da məhv edər.

Şair Qətibənin bağbanına qulaq asa-asa gedirdi. Qətibənin bu sevgi macərasından yaxasını nə vəchlə qurtaracağı barəsində düşünürdü. Rənaya qarşı düzələn sui-qəsd Nizamini hər şeydən artıq düşündürürdü. Qətibə oturan yerə bir neçə qədəm qalmış qoca bağban dayandı. Nizami isə Qətibəyə doğru irəlilədi. Qız şairi gördüyü zaman bütün vücudu titrəməyə başladı. Şair birinci dəfə idi ki, Qətibəni bu vəziyyətdə görürdü. Qız ayağa qalxıb bir neçə qədəm irəlilədi, lakin



vücudunda baş verən zəlzələ onun qədəm atmasına mane oldu, dayanıb titrəməyə başladı.

Qətibə yalnız yerimək deyil, Nizamiyə salam verməyə və danışmağa belə cəsarət etmirdi. Çünki o öz sevgisinin ümidsizliyə təsadüf etdiyini yəqin edirdi. O bilirdi ki, birtərəfli sevgi heç bir zaman müvəffəqiyyət qazana bilməz. Onun salam verməməsinə və danışmamasına səbəb Nizaminin dilindən çıxa biləcək "yox, sevmirəm" kəlmələrini eşitməkdən qorxması idi. Lakin o öz xariqülada gözəlliyindən ümidini kəsməmişdi. Nizami kimi şairin bu qədər yüksək bir gözəlliyə xor baxmayacağına inanırdı. O, öz qəlbində deyirdi: "Ərəb, türk və rum qanından yaradılan bu möcüzə gənc şairin qəlbini əsir edə bilər". O elə düşünürdü ki, dünyanın qəlbini çırpındıran bu gözlər gənc şairin də qəlbini çırpındıra biləcəkdir. Qətibə elə fikir edirdi ki, şeir, payız narı kimi titrəyən döşlər, gül yarpağına istehza yağdıran dodaqlar, gülümsər qara gözlər və sairə gözəlliklər üzərində qurulduğu üçün şair də bu ilham mənbəyini əlindən buraxmayacaqdır. Buna görə də Qətibə baş örtüsünü götürüb bir neçə qədəm daha şairə tərəf irəlilədi, daş-qaşa, incilərə, ipəklərə bürünmüş bu gözəl, canlı bir xəzinə kimi şairə yaxınlaşdı.

Qətibə öz gözəlliyi, öz əzəməti və dəbdəbəsi ilə hərəkət edib şairə doğru gəldiyi zaman, Nizami də üstünə bir kabus və bir qorxunun yaxınlaşdığını hiss edir və nə vəchlə öz qəlbinə hakim ola biləcəyi barəsində düşünürdü. Lakin o bu qorxunu özündən rədd etmək üçün o qədər də çətinlik çəkmədi, bir an keçmədən sanki Rəna gəlib onunla Qətibənin arasında hayil olub durdu, şair gözlərini açdığı zaman artıq Qətibəyə deyil, Rənaya baxırdı.

Nizami Hüsaməddinlə olan söhbətin Qətibəyə yetişdiyini yəqin edirdi. Qızın bütün baxış və duruşu da bunu göstərirdi. Heç şübhə yox idi ki, Qətibə bu gün Nizamidən qəti cavab almağa gəlmişdi. Bu isə şair üçün hər bir məsələdən çətin idi.

Nəhayət, Qətibə qara gözlərinin qapaqlarını böyük bir tərəddüdlə qaldırıb şairin üzünə baxdı, yavaşdan:

– Axşamın xeyir olsun! – dedi və əlini Nizamiyə uzatdı.

Şair, qızın əlini əlinə aldığı zaman onun külək qarşısında titrəyən incə bir şaxə kimi titrədiyini hiss etdi. Buna görə də utana-utana qızın salamının cavabını verməyə məcbur oldu:

– Əleykəssalam, möhtərəm qız, mən bu əlin daima xoşbəxt olmasını istəyirəm, – dedi.

Qız əlini Nizaminin əlindən çəkmək istəmirdi, o bununla öz sevgisini şairin qəlbinə aşılamağı düşünürdü. Eyni zamanda şairin: "Mən bu əlin daima xoşbəxt olmasını istəyirəm" dediyinə qarşı cavab hazırlayırdı. Lakin bu çox da asan deyildi, çünki o qarşısında duran şairin bir qala qədər sarsılmaz olduğunu anlayırdı. Buna görə onun arzu qanadları qırılır, o yüksək aləmlərə uçmaq istərkən özünü yenilməz və sevgisində inadlı olan bir gəncin qarşısında görürdü. Qətibə bu fəthedilməz qalaya sahiblənmək istərkən, özündə bir acizlik hiss edirdi; çünki o, Nizaminin qadın gözəlliyi qarşısında sarsılmaz olduğunu bir neçə kərə sınaq etmişdi.

Lakin, buna baxmayaraq o, son qüvvətini meydana qoymuşdu. O həm gözəl idi, həm də gözəlliyindən bir silah kimi istifadə edirdi: əlini şairin əlindən çəkmək istəmirdi, bütün naz, qəmzə, utanmaq, qısqanmaq, rəng verib rəng almaq, hətta göz yaşları axıtmağı... Hamısını təcrübədən keçirirdi. Nəhayət, o, özünü ələ alaraq şairə sual verdi:

– Söylə, şair, söylə! Sən bu əl sahibini xoşbəxt etmək üçün qəti bir söz deyə biləcəksənmi?!

Qətibə bu sözləri dedikdən sonra, yenə də utandı, başını aşağı salıb, güləbətin naxışlı başmaqlarına baxmağa başladı. O, axşamın kəskin sərinliklərinə baxmayaraq tərləmişdi, hər iki tərəfdən yanaqlarına düşən qara saçları yağışda yeni çıxmış yasəmənləri xatırladırdı.

Şairin vəziyyəti isə çıxılmaz və ağır idi. O öz-özünə düşünür və deyirdi:

– Bu dünyada sevgi xəstəliyinə tutulmuş bir qıza "yox, sevmirəm" deməkdən daha çətin bir şey təsəvvür etmək olarmı? "Sevmirəm" sözü dəlicəsinə sevən bir qıza zəhər içirmək qədər qorxulu deyilmi? Bu söz qız qəlbi üçün sağalmaz bir yara deyilmi? Bu kəlmə Qətibə kimi məğrur və gözəlliyinə inananlar üçün də unudulmaz bir təhqir idi. Əcəba, həyatdakı bütün incə hissləri özündə mərkəzləşdirən qəlbin nə kimi bir maddə olduğunu təbiblərdən, filosoflardan daha yaxşı öyrənən bir şair sevgisini elan edən bir qızı nə kimi bir vicdanla rədd edə bilər?!

Şair düşünür, qıza demək üçün sakitedici bir cavab axtarırdı: o cavab "yox" kəlməsilə "bəli" kəlməsini ifadə etməyəcək orta bir kəlmə olmalı idi.

Qətibə də düşünürdü, o da öz qəlbində Nizaminin verəcəyi cavabı ölçüb biçirdi. O, fikrində gah şairin böyük əsərlərinin ilhamı kimi təcəssüm edir, onunla məsud bir həyat qurub yüksəklərə qalxır, gah ümidsizliyə enərək təhqir və həsrətlər içərisində çapalayırdı. Cavab vermək istəyən və cavab almaq intizarını çəkənlər bir kərə başlarını qaldırıb, bir-birinin üzünə baxdılar, çünki sükut və intizar adi çərçivəsindən kənara çıxırdı.



Şair qızın ikinci kərə sual verməsinə imkan buraxmamaq üçün sükutu pozaraq dedi:

– Möhtərəm qız mühüm bir cəhəti unutmamalıdır. Ayaq üstə görüş və ayaqüstü danışıqlar əbədi bir səadətin təşkili üçün çox azdır. Ailə qurmaq insanların həyatında mühüm bir hadisədir. Bu hadisə təsadüfi olmayaraq təbiidir. Bu kimi zəruri hadisələrə qarşı ehtiyatlı və düşüncəli olmaq lazımdır. Həyatı bir-birinə aşılamaq üçün xasiyyət birinci şərtdir. Xasiyyətlərin bir-birilə barışmaması, eyni zamanda onların bir ailə təşkili münasibəti ilə bir-birilə daima qarşı-qarşıya durması, bəzən iki zidd qüvvənin təsadüfündən alınacaq mənfi nəticələri doğurmuş olur. Gözəl qıza bunu da deməliyəm ki, nə qızlar, nə də oğlanlar bir-birlərini sevdikləri zaman qəlbin ixtiyarını kəməndə salıb gözlərin sərəncamına verməməlidirlər. Sevgini qəlbə aşılayan gözlərdir. Gözlər bəzən qəlbi aldada bilər. Biz daima çalışaraq qəlbin, gözün və ağlın vəzifələrini düzgün bir surətdə təqsim etməliyik. İnsan bu üç ünsürün doğru bir surətdə fəaliyyət icra etməsi nəticəsində xoşbəxt ola bilər. Bu cəhətləri nəzərə alaraq bizim ikimiz də bu ünsürün bir-birinə təcavüz etməsinə imkan verməməliyik. Çünki gənclik zamanında insanların gözləri ilə ürəkləri birləşib ağlın qarşısında haqq-hesab verməkdən boyun qaçırır və özbaşına işləməyə başlayırlar. Bunun üçün də alim adamlar deyir ki, insanlar gənclik zamanı ağıl ilə hissiyyata fərq qoya bilməzlər. Həyat səhnəsinə atılmaq, dünyanı daha tez öyrənməyə can atmaq, ictimai mühitin qanunlarını mənimsəmək üçün tələsmək gəncliyin ən sevimli xüsusiyyətlərindən birisidir. Lakin ailə həyatı qurmaq işində tələsmək həyat qanunlarını təhrif etməkdir.

Bəzən gənclər öz səadətlərini qurmaq üçün bəşəri münasibətləri unudur. Onlar bir çox hadisələrdə öz səadətlərini başqalarının bədbəxtliyi üzərində qurmaq istəyirlər. Bu cür gənclər sevgi xəstələridir. Onlar öz ağızlarının şirin olması üçün başqalarına zəhər içirmək istəyirlər. Gözəl Qətibədən bir ricam vardır: bu barədə bir qədər də fikirləşək. Yenə də görüşüb danışaq. Siz elə bilməyin ki, bu dünya sizin gözünüz gördüyü kimi maneəsiz bir düzəngahdır. Əksinə, dünya çox

eniş-yoxuşludur. Həyat dolaşıq yollar, keçilməz cığırlar, qorxulu gədiklər, uçurumlar və çala-çuxurlar arasında qurulmuşdur. Bu qədər təhlükəli yolları keçmək üçün tapmaq istədiyimiz yoldaşı, lazımi diqqətlə, ağıl və düşüncə ilə öyrənməliyik. Əlverişli olmayan həyat və yol yoldaşı insanı uçurumlar, çala-çuxurlar qarşısında yalnız qoyub qaça bilər, bunu bir çoxlarının həyatında görmüşük. Hər şeydən sonra biz meşə torpağından göyərmiş göbələk deyilik; Allah öz yerində qalsın, ata-analarımız bizim yaradanlarımızdır. Onlara yanaşmaq, onların məsləhətlərini almaq, hər şeydən əvvəl lazımdır.

Qətibə bu sözdə başını qaldırıb yalvarıcı bir surətdə dedi:

– Şair, mənə inan, nə atam, nə də anam mənim xoşbəxtliyimə mane ola bilər. Sən özün bilirsən ki, onlar bu işdən xəbərdardırlar.

Nizami çox gözəlcəsinə bilirdi ki, o, Qətibənin sevgisinə razılıq versə belə, bu hadisə yenə də baş tutmayacaqdır, çünki Əmir İnanc xalqa rəhbərlik edən şəxsiyyətlərin hər birisini bir vasitə ilə aldatmağa və bununla da sabiq nüfuzunu əldə etməyə çalışırdı.

Əmir İnanc Qətibənin Nizamiyə hüsn-rəğbət göstərməsinə yol verməklə bərabər, onu Hüsaməddinə də vəd edirdi; Dilşadı Bağdada göndərməyə hazırlandığı halda Fəxrəddinin də başını aldadır və Dilşadın Fəxrəddinlə olan tanışlığına manea törətmirdi.

Lakin Qətibə atasının bu siyasətindən xəbərdar deyildi, buna görə də şairi, ata-anası tərəfindən manea törədilməyəcəyinə inandırırdı.

Qətibə titrək və həyəcanlı bir səslə:

– Mən bu gün şairdən qəti cavab almaq qərarına gəlmişəm, – dedikdə Nizami dərin bir fikrə qərq oldu. Bunun üçün Qətibə soruşdu:

– Nəyi düşünürsən?

– Bir qəlbi tikmək üçün başqa bir qəlbi yıxmağın mümkün olub-olmamasını düşünürəm. Təbiət bir qəlbin iki tərəfə bölünməsi imkanını yaratsaydı, mən heç də vicdan əzabı çəkməzdim.

Qətibə şairin nə demək istədiyini dərhal hiss edərək söylədi:

– Bir qəlbin iki tərəfə bölünməsinə hansı qız razı ola bilər?!

– Mən çox təəssüf edirəm ki, gənclərdən bir çoxunun qəlbi özündə olmadığı zaman, gözəl qızlar onların qəlbini tələb edirlər. Nə edəsən, qəlb elə bir şey deyil ki, birinin əlindən alıb, o birisinə verəsən.

– Doğrusunu söylə, sən qəlbini mənə verməyəcəksənmi?

– Birisinə doğru demək üçün başqasına yalan deməyə məcbursan. Lakin mən bunu vicdanıma sığışdıra bilmirəm. Doğrusu budur.



– Mən səni gözəl, yaraşıqlı bir gənc olduğun kimi, sənətkar bir şair olduğun üçün də sevdim.

– Zənnimcə, yoxsul bir şairə bu qədər böyük əhəmiyyət vermək yersizdir. Mənə verdiyiniz bu qədər əhəmiyyət, göstərdiyiniz səmimi hörmətlər məni daha da rahatsız edir. Özünüz söyləyin! Mənə qarşı bu qədər sevgi və ehtiram bəsləyən bir qızı mən necə aldada bilərəm?

Qətibə Nizaminin əlini yenə də əlinə aldı və dedi:

– Mən istəyirəm ki, o nəfis şerlərin ilhamı məndən alınsın. Sənin ilham dənizindən çıxan nadir incilər, bir kəndli qızının boynundan yox, Qətibənin boynundan asılsın. Daha doğrusu, sənin bütün Şərqdə qazana biləcəyin şöhrətin şəriki olmaq istəyirəm. Mən sənin yaratdığın xəzinənin divarları sarı samanla suvanmış palçıq otaqlarda çürüməsini istəmirəm. Mən səni daxmalardan, həqir otaqlardan çıxarıb ali saraylar, kaşanələr, malikanələr, təntənə və dəbdəbələr sahibi etmək xəyalındayam. Mən istəyirəm ki, bütün Şərqdə məşhur olan nəcib Qətibənin dünyası səninlə bir daha şərəflənsin. Sən bundan sonra xəlifə babamın – müqəddəs Müstərşidbillahın şairi sifətilə Bağdad dünyasını ələ alacaq, tarixin məşhur şairi Əbü Nəvvas və Əbülətahiyələrin əldə etmiş olduğu şərəfi qazanacaqsan. Bundan sonra sənin şerlərini lal, kar meşələr yox, bəni Abbas xəlifələrinin təntənəli sarayları eşidəcəkdir.

Qətibə zənginliklərdən, saraylar və malikanələrdən danışdığı zaman Nizami düşünür və xəfif-xəfif gülürdü. Lakin Qətibənin onu tez-tez yoxsul deyə təkrar etməsi, xüsusən onun evinin fəqirliyindən danışması, hətta Rənanın adını çəkdiyi zaman "bir kəndli qızı" deyə onu təhqir eləməsi Nizaminin acığına gəldi və ona bu məzmunda bir şeir oxudu:

"Fəqir bəxtəvərəm, şairəm, zəbərdəstəm,
Cahan kiminsə qoy olsun, mən onda sərbəstəm.
Həqiqət əhliyəm, hər eybdən mübərrayam.
Əgər dağılsa bu dünya, mən ayrı dünyayam.

* * *

Əgər həyat üçün aləm həyata yalvarsa,
Dağılsa, yansa bəşər, kainata yalvarsa,
Fəqət mən ölsəm, əzilsəm də iczə idl açmam,
Qəza gəlirsə də, gəlsin, mübarizəm, qaçmam".

Qətibə dərhal şairin acıqlandığını hiss edərək onu sakit etməyə çalışdı:

– Sən mənim sözlərimə əbəs yerə mənfi məna verirsən; mən səni yüksəltmək istərkən təhqir etmək istəmədim. Nə edim? Madam ki, sən məni rədd etmək üçün bəhanə axtarırsan, o zaman mənim dediklərimi təhrif edə bilərsən. Həm də ki, şairsən, yaradıcısan...

Qətibə yarım saatdan artıq danışdı. Sevgi dastanlarını cürbəcür qafiyələr və məzmunlarda oxudu, o ağladı, güldü, nazlandı, acıqlandı, yenə də şairdən müsbət bir cavab ala bilmədi. Nəhayət, əlini Nizaminin əlindən çəkərək, göz yaşları ilə ayrılmaq istərkən, Nizamidən bu sözləri eşitdi:

– Qızlarda baş verən bu kimi hallar keçici hallardandır. Onlar sürətlə sevdiyi və düşünmədən insana bağlandıqları kimi, sürətlə, düşünmədən insandan ayrılar və unudarlar.

Nizami ayrılıb getdi. Qətibə isə olduğu yerində quruyub qalmışdı. Bir az keçəndən sonra o qayıdıb söyüd kötüyünün üstündə oturdu, düşünməyə, beyni qızmağa və düşüncələri alovlanmağa başladı. Sevgisi böyük bir intiqam hissilə alovlanır, bu qədər alçalmasına qarşı özözünə nifrət edirdi.

Hüsaməddin uzaqda dayanıb, Qətibə ilə Nizami arasında gedən söhbətlərə qulaq asırdı. O, Qətibənin yalvarışların Nizaminin ona verdiyi cavabı eşidir və ümidləri yenidən canlanırdı. Hüsaməddin, Nizaminin ailə təşkili barəsindəki fikirlərinə xüsusi qiymət verdiyi üçün öz-özünə belə düşünürdü:

– Şair doğru deyir. Bir qəlbi birisindən alıb o birisinə vermək çox çətindir.

Lakin bu fikir Hüsaməddini tamamilə qane salmırdı, çünki o özü dəlicəsinə sevir və bütün bu fəlsəfə onu təmin etmirdi.

Hər halda o, Nizamidən razı idi. Bir neçə gün əvvəl Nizaminin verdiyi sözlərdən onun səmimi olduğunu hiss etmişdi.

O şad bir halda Qətibənin yanına gəldi, adəti üzrə qıza baş əyib:

– Axşamınız xeyir olsun! – dedi.

Qətibə cavabında:

– Çox razıyam! Get xəbər ver qulamlar taxtımı bura gətirsinlər, – dedi.

– Meşənin sıx yeridir. Ağacların şaxələri taxtın çiyində aparılmasına imkan verməz. Yaxşı olardı ki, bir neçə qədəm söhbət edə-edə gedəydik.



Qətibə ayağa qalxdıqda Hüsaməddin ona dedi:

– Mən zənn edirəm ki, xanımın bugünkü səyahəti həmin bu söyüd kötüyü ilə əbədi olaraq vidalaşmaq üçün idi.

Qətibə cəld ona tərəf dönüb:

– Sən özünü bir qəhrəman hesab edirsən, – dedi. – Lakin yaralanmış bir adama yara vurmaq mərdlik və qəhrəmanlıqdan uzaq bir işdir.

– Mən sizə yara vurmaq istəmədim. Ancaq sizin səhvlərinizin nə kimi bir nəticə verdiyini sizə anlatmaq istədim. Şair çox gözəl dedi. Təbiət bir qəlbin iki tərəfə bölünməsi imkanını yaratmamışdır.

– Mənim üçün fəlsəfə danışma, təbiətin imkan vermədiyi heç bir şey yoxdur, hər şeyi insan yaradır.

– Siz mənim nəsihətlərimə inansaydınız, bugünkü görüşü təşkil etməzdiniz. Şair də sizi bu qədər açıqcasına rədd eləməzdi. İndi mənə deyin görüm yenədəmi onu sevəcəksiniz?

– Xeyr, sevməyəcəyəm, inanın, indi o mənim düşmənimdir. Mən ona öz Rənası ilə xoşbəxt yaşamağa imkan verməyəcəyəm. Hətta mümkün olarsa, onu məhv etdirib öldürəcəyəm. Lakin onun qəbrində oturub ölənə qədər ağlayacağam. Mən nə sevgini, nə də təhqiri unudacağam. Sən də mənim yaxamdan əl çək. Mən babamın müqəddəs ridasına and içirəm, heç bir kəsə sevimli qadın olmayacağam. Onunla yaşaya bilmədim, heç bir kimsə ilə də yaşaya bilməyəcəyəm, çünki insan ömründə ancaq bir kərə sevə bilər. Mən bundan sonra hər kəsə baxsam, onu qucaqladığımı hiss edəcəyəm. Hər kəslə olsam, sanki onunla olacağam. İndi sən də məndən uzaqlaş, çünki mən nə sənin, nə də onun deyiləm.

Hüsaməddin Qətibənin bu sözlərinə istehza ilə güldü:

– Yüksəkliyi aşağılarda arayan adamlar özünü daima aşağılarda görməlidir, – dedi.

Qətibə bunun cavabını verməyə imkan tapmadı, çünki qulamlar onun taxtını irəli gətirmişdi. O, bir saat bundan əvvəl bu taxtın üzərinə oturub böyük bir ümidlə meşəyə gəldiyi halda, indi ümidsiz və təhqir olunmuş bir surətdə taxta oturub meşədən çıxırdı. Əlvan ipəklər və zərzivərlə bəzənmiş taxt Qətibə üçün qorxulu bir tabutun qənaətini verirdi.

Kənizlər və cariyələr taxt qabağında qəhqəhə ilə güldüyü zaman, Qətibə qəlbdən ağlayır və acılar içində qıvrılırdı.

O, meşədən çıxdı. Lakin bu son gediş deyildi. O sonra hər gün yenə də meşəyə gəlir və haman söyüd kötüyünün üstündə oturub düşünür və keçən günləri xatırlayırdı.

Eldəniz oğlanları Azərbaycanı idarə etməyə başlamışdılar. Cənub-qərbi Azərbaycandakı itaətsizlik, Marağa hakimi Qara Süngərin məğlubiyyəti nəticəsində təsviyə olunmuşdu. Qızıl Arslan Təbrizdə oturub Şimali Azərbaycan məsələləri ilə məşğul olduğu zaman, yerli hakimlər yerlərin vəziyyəti barəsində hökmdara bir çox əsassız məktublar göndərirdi. Onlar öz mövqelərində qalmaq üçün məmləkətdə mövcud olan narazılıqların səbəbini gizlədirdilər. Buna görə də Nizami Qızıl Arslandan şeir və ədəbiyyata dair aldığı məktubun cavabında məmləkətin vəziyyətini yazmış və narazılıqların səbəbini qismən aydınlaşdırmışdı.

Nizami öz məktubunda məmləkətdə mövcud olan üsyanların yararsız olan hökumət üsul-idarəsi nəticəsində yaradıldığını və məmləkətin islahata möhtac olduğunu, xalqın etimadını itirmiş yerli hakimlərin isə dəyişilməsi lüzumunu qeyd etmişdi.

Məktubda qeyd edilən əsas məsələlərdən birisi də milli mədəniyyətin təriqət və məzhəb mübahisələri təhlükəsinə məruz qalması və mədəni vasitələrin yerli hakimlər tərəfindən dağıdılması işlərindən ibarət idi.

Məktuba cavab yox idi, bir çoxları məktubda "üsul-idarəyə toxunmaq lazım deyildi, hökmdara məsləhət verməsk ehtiyatsızlıqdır" - deyə üzdə də olmasa, dalda Nizamini tənqid edirdi. Məktub yazıldığı zaman Nizamiyə məsləhət verən və yazılan məsələlərə tərəfdarlığını elan edənlər, indi "bizim əsla xəbərimiz yoxdur, qoy özü də cavabını versin", - deyə hər yerdə danışırdılar. Nizaminin ətrafında yalnız Fəxrəddin qalmışdı, o daima Nizamiyə dedi-qodular haqqında söhbət açdığı zaman deyirdi:

– Biz bu məktubu göndərməkdə heç xəta işləməmişik. Qızıl Arslan bu məmləkəti sevirsə, bizi təqdir etməlidir. Məktubda, məmləkət və hökumətin səadətindən başqa bir şey tələb etməmişik. Əgər hökmdarın bundan acığı gəlirsə, qoy gəlsin. Biz məmləkətin və xalqın vəziyyətini heç bir zaman gizlətməməliyik. Mən məktubda göstərilən məsələlərin hamısına şərikəm. Sən məni tanıyırsan, Fəxrəddin səni heç bir zaman yalnız buraxmayacaqdır.

Bu kimi məsələlər Nizami ilə Fəxrəddin arasında tez-tez danışılırdı, nəhayət, günlərin birində Fəxrəddin Məhsəti xanımın kefini



soruşmaq üçün Nizaminin evinə gəldiyi zaman şairi həddindən artıq şad gördü. Məhsəti xanımın xəstəliyi də sanki səhhətə üz qoymuşdu. Rəna ilə Nizami onu təmiz hava almaq üçün həyətə çıxarmışdılar. Məhsəti xanım Rəna üçün təzə fikirləşdiyi rübailəri oxuyurdu.

Nizami Fəxrəddini gördüyü zaman:

– Bir az da yubansaydın, dalınca adam göndərəcəkdim, – dedi.

Fəxrəddin şad bir xəbər gəldiyini anladı. O əvvəlcə gəlib Məhsəti xanımın əlindən öpdü, Rənanın kefini soruşdu, sonra Nizamiyə tərəf dönüb:

– Gözlərin mənə böyük bir şadlığın xəbərini verir, – dedi.

Nizami qoltuğundan böyük bir dəftər həcmində bir məktub çıxarıb Fəxrəddinə verdi:

– Al, oxu, qoy mühafizəkarlar, qorxaqlar əmin olsunlar ki, Nizaminin yazdığı məktublardan heç bir kəs zərər çəkməz.

Onlar məktubu oxumaq üçün Məhsəti xanımı da götürüb otağa gəldilər. Fəxrəddin əlləri titrəyə-titrəyə məktubu oxumağa başladı:

"Möhtərəm şair!

Məktubunuzu alıb gözlərimə və dodaqlarıma sürtdüm. Bir şairi görmüş və onunla üz-üzə oturub söhbət etmiş qədər sevindim. Məktubun cavabı təxirə düşdü. Bunu bir etinasızlıq kimi mənə etməyin. Hər halda bu təxir sizi düşündürməmiş deyil. Məmləkətin vəziyyətinə və Azərbaycan xalqının əhvali-ruhiyyəsinə aid yazdığınız bu məktubun, dövlət quruluşu nöqteyi-nəzərindən böyük bir əhəmiyyəti vardır. Sizin başınıza and içirəm, məktubunuz mənim bütün varlığımı titrətdi. Məktubda göstərdiyiniz məsələlərin hamısı sanki iki qəlbin, iki düşüncənin məhsuludur. Şair bilməlidir ki, o qədər düşüncəli, o qədər mədəni surətdə yazılmış məktuba cavab vermək üçün tələsmək olmazdı. Mən sizin hökumət quruluşuna aid fikirlərinizi çox diqqətlə oxudum. Zatən, səlcuq hökmdarlarından müəyyən və möhkəm bir hökumət quruluşu olmamışdır. Buna görə də onlar xalqların mədəni və ictimai vəziyyətləri ilə hesablaşa bilməzdilər. Azərbaycanlılar səlcuq hökmdarları qarşısında milli müqəddərat məsələsini qoya bilməzdilər. Hərgah hökmdarlar bu hüququ Azərbaycan xalqına vermək istəsə belə, bunu bacarmazdılar. Çünki səlcuq xanədanının müəssisi Toğrul bəy öz qardaşı İbrahim Yənalı Azərbaycan məmləkətinə hakim təyin etdiyi zaman ona müəyyən bir hökumət quruluşu ilə iş

aparmasını göstərməmişdi. O zaman Azərbaycan məmləkətindən fars və ərəb nüfuzunu qovmaq məsələsi də qoyula bilməzdi; çünki Qaim Biəmrullah Toğrul bəyin hökumətini təsdiq etdiyi zaman (hicri 430), Hibətullah adlı bir ərəbi də müavin, daha açığı, nəzarətçi sifətilə onun yanına qoşmuşdu. Buna görə də nə Azərbaycan, nə Xarəzm, nə də İraq və Əcəmdə milli dil və mədəniyyət, milli müqəddərat məsələsi qoyula bilməzdi.

Toğrul bəyin Qaim Biəmrullah ilə apardığı müdarə siyasəti məmləkətlərdə xəlifə nüfuzunun davam etməsinə imkan yaratdı. Hələ o, qardaşı Davudun Arslan xatun adlı qızını Qaim Biəmrullaha verib, özü isə Qaim Biəmrullahın qızı Seyidə ilə evlənməklə başqa ölkələrlə birlikdə Azərbaycanın siyasi və ictimai vəziyyətini ağırlaşdırdı. Siz məktubunuzda Toğruldan Alp Arslanın Azərbaycandakı islahatına işarə edirsiniz. Doğrudur, mən onun islahat işlərilə çox maraqla tanış oldum. Lakin hər bir islahat və yaxud hər bir mədəni təşəbbüs, hökumət quruluşuna istinad etməlidir. Quruluş mədəniyyətə müsaidə verməzsə, quruluş islahata imkan yaratmazsa, islahat heç bir müsbət nəticə verə bilməz.

Toğruldan sonra böyük və cahangir bir hökumət təşkil etmiş olan Alp Arslanda da müəyyən və əsaslı bir hökumət üsul-idarəsi yox idi (hicri 455). O, Yəməndən Oqsusə qədər geniş bir məmləkətə hökmran olduğu halda, məmləkəti öz ailə üzvləri arasında təqsim etməsi və yerlərdə olan hakimlərin bir mərkəzə tabe olmaması, Alp Arslanın düşündüyü islahatın həyata keçməsinə imkan verməzdi. Lakin mən belə düşünmürəm. Biz ümummərnləkət miqyasında vahid bir üsul-idarə və müəyyən hökumət quruluşu tətbiqinə müvəffəq olmasaq da, yerlərin siyasi və ictimai vəziyyətinə istinadən hər yer üçün ayrı-ayrı üsul-idarə təşkili barəsində düşünməliyik. Mən bu barədə şairi əmin edirəm. Hərgah Toğrul buna razılıq verməsə belə, biz Azərbaycan atabəyi olduğumuz üçün Azərbaycanda müəyyən bir hökumət quruluşu tətbiq etməliyik. Azərbaycan xalqı bizi öz hökuməti kimi tanımazsa, müdafiə etməz.

Siz məktubunuzda, Azərbaycanda mövcud olan təriqət mübarizələrinə işarə edirsiniz. Bu məsələ məni də düşündürür. Bizim çətinliklərə rast gəlməmiz məsələsi və bundan ibarətdir. Bu günlərdə İsfahanda başlamış sünni-şiə vuruşmaları yuxarıdakı iddiamı təsdiq edir. Vuruşmalara nihayət vermək üçün elmi yollardan istifadə edə bilmədim. Çünki bu üsyanın başqa ölkələrə sirayət etməsi ehtimalı məni qorxutdu. Buna görə də sünni-şiə vuruşmalarını qanla boğmaq məcburiyyətində qaldım. Lakin sizin məktubunuzu aldığım zaman təcili surətdə Bağdad xəlifəsi Müstərşidbillaha məktub göndərib Babək üsyanına dair vəsiqələri istədim. Buna görə də vəsiqələr əldə edilmədən və bunlarla tanış olmadan təriqətlərin məhv edilməsinə aid fikrimi sizə yaza bilmədim.



Yazıları göndəriblər, neçə gündür ki, onları oxuyuram, Babək üsyanının məzmunu, onun inkişaf yollarını və üsyanın məğlub edilməsi səbəblərini öyrənirəm. Vəsiqələrdən aldığım qənaət budur:

İstər Məmun xəlifənin, istərsə ondan da sonra Mötəsim xəlifənin katibləri Babək üsyanının cərəyanı və onun inkişafı yollarını yazarkən dini hissiyyata qapılıb, həqiqəti tamamilə təhrif ediblər.

Lakin mən Babək üsyanından sonra Azərbaycanda baş verən bütün üsyanların tarixini oxuyurkən bu üsyanların hamısında Babək üsyanında mövcud olan ünsürlərin olduğunu görürəm.

Xəlifə kitabxanalarında saxlanan bu yazılar nə qədər təhrif edilmişdirsə, yenə də Babək üsyanının məzmununu tamamilə örtməyə müvəffəq ola bilməmişlər. Yazıların hər bir səhifəsində Babəkin əsas fikirləri parlamaqdadır. Babək xalqların birliyini yaratmaq üçün dinə, təriqətə və mövhumata hücum etməkdən başqa bir yol intixab edə bilməmişdir.

Bağdaddan gətirilən vəsiqələrin içərisində çox qiymətli və tarixi vəsiqələr də vardır ki, onlar birinci Məmun xəlifənin yazılarıdır. Bu əlyazmalarının mühüm bir qismi Məmunun Babək üsyanına dair yazdığı xülasələridir. Məmunun xülasələrində Babək üsyanındakı səhvlərin səbəbləri aydınlaşdırılır. Eyni zamanda, Məmun bəni Abbas xəlifələrinin xəyanətlərini sayaraq yazır ki, onlar xalqı elm və mədəniyyətlə deyil, din, məzhəb, təriqət və mövhumat vasitəsilə kor edib özlərinə bağlamaq istəyirdilər.

Məmun deyir ki, xalqı sağlam bir hökumət quruluşu ilə birləşdirmək əvəzinə dinlə birləşdirmək təşəbbüsü xəlifələrin ən böyük xətalarındandır.

Məmun deyir ki, "Ərəb və yəhudi alimlərinin islam dininə uyğunlaşdırdıqları din fəlsəfələrini, xəlifələr bütün islam dünyasına yaymağa və nəşr etməyə çalışmışlar. Buna görə də islam xalqında dini düşüncə, siyasi və mədəni düşüncələrə qalib gəlmişdir".

Məmun öz xülasələrində Babək üsyanına səbəbiyyət verən cəhətləri aydınlaşdıraraq deyir ki, "Yunanıstanda olduğu kimi islam məmləkətlərində də milli mədəniyyət yerində din mədəniyyəti qurmaq fikri meydana atıldı. Ölkələri Həsəbaniyyə təriqəti yolu ilə yunan İskəndəriyyə məktəbinin məhsulu olan təsəvvüfün dərin çuxurlarına saldılar".

Bəni Abbas xəlifələrinin hökumət quruluşunu tənqid edən bu huşyar və ağıllı xəlifə deyir ki, "xəlifələr ilahiyyat-islamiyyət fəlsəfəsini Yunanıstandan alıb ərəb dünyasına yaydıqları kimi, onu İran və Azərbaycan xalqlarına da eyni şəkildə yedirməyə çalışdılar. Onlar xalqın əhvali-ruhiyyəsilə hesablaşmayaraq, mədələrin bu ağır və ürək bulandırıcı qidanı həzm edib-edə bilməyəcəyini yoxlamadılar.

Bu səbəblə də Babək və onun ətrafındakı ziyalılar İslam dininin doğurduğu yüzlərcə təriqətin Azərbaycanda mövcud fikir sərbəstliyinə əngəl törətməsinə soyuqqanlılıqla baxa bilmədilər. Heç şübhə yoxdur ki, onlar məzhəb ixtilaflarının mədəni düşüncəyə düşmən olduğunu bizdən daha əvvəl dərk edə bilmişlərdi. Məmun xəlifə ölkələrini təbəqələrə və mədəni səviyyələrinə əsasən müəyyən hissələrə ayırdığı zaman, Cənubi və Şimali Azərbaycanın vəziyyətinə toxunaraq xülasələrində belə yazır:

"Xüsusən Azərbaycan məmləkəti qədriyyə, cəbriyyə və mötəzilə təriqət və məhzəblərinin cövləngahı kəsildi[1]. Buna görə də mən Babəkin üsyanından xəbər tutduğum zaman qəlbən sevindim, lakin bu üsyan inkişaf etdikdən sonra babəkçilərin buraxdıqları böyük səhvlər məni düşündürməyə başladı. Babək və onun ətrafındakılar mübarizəni təriqət və məzhəb əleyhinə deyil, din əleyhinə başladılar. Halbuki onlar bir təriqəti o biri təriqətin köməyi nəticəsində məhv edə bilərdilər. Üsyan, dini və nəzəri əsaslar üzərində qurulmalı idi. Lakin Babək bunu qılınc və qoşun qüvvəti əsasında qurmaq istədi. Babəkçilər hər bir təriqət və məzhəbin özünə məxsus fəlsəfəsi olduğunu və bu fəlsəfələrin xalqın şüurunda kök saldığını nəzərə almadılar. Buna mən çox təəssüf etdim. Çünki təriqət və məzhəblər təsviyə olunduğu zaman din bir hökumət quruluşu şəklində qalacaqdı və ağlı başında olan xəlifələr onun mədəniyyət üçün əlverişli olmayan tərəflərini tədrici bir surətdə meydandan çıxara biləcəkdilər.

[1] Məhəmməd Şəhərstaninin "Miləl və Nəhl" adlı əsəri; qazi İzzədinin "Məvaquf" adlı əsəri.



Mən elə zənn edirəm ki, o zaman Babəkin ətrafında onun əsas məqsədini həyata keçirə biləcək, təriqət və məzhəbləri elmi surətdə rədd edə biləcək alimlər olmadığından, o qalibiyyəti ancaq silahda aramağa başlamışdı. Şübhəsizdir ki, belə bir mübarizədə silah təkbaşına qalib gələ bilməzdi".

Möhtərəm şair, bu qədər tarixi və acı təcrübələri nəzərə aldığımız zaman, islahat dediyimiz işlərdə çox ehtiyatlı olmalıyıq. Baxınız Məmun xülasələri Babəkin səhvləri haqqında nə deyir?!

"Babək üsyanının məğlubiyyət səbəblərindən birisi də onun dinə qarşı üsyan şəklində çıxaraq siyasi bir üsyan şəkli almasındadır. Hərgah indi də olmasa, gələcəkdə o məğlub ediləcəkdir. Babək elə düşünür ki, xəlifələr dini və təriqəti olduğu kimi müdafiə etməyə çalışır, buna görə də silahını din əleyhinə çevirdiyi zamanda xəlifə hökuməti üzərinə də çevirmişdir. Mən əvvəlcə bu üsyanı təbrik etdiyim halda, indi onunla mübarizəyə qərar vermişəm".

Möhtərəm şair, bu səbəblə də mən məktubunuzda işarə etdiyiniz islahat məsələsinə çox diqqətlə yanaşmaq istəyirəm. Yazdıqlarınızın hamısını tarixin məhək daşından keçirib cavab vermək istədim. Bu səbəblə də Babək üsyanı tarixini tamamilə nəzərdən keçirmək lazım gəldi. Mən Məmun xəlifənin, öz vaxtının ağıllı bir islahatçısı olduğuna inanıram. O ikinci kərə xilafəti əlinə aldığı zaman[1] din, təriqət və məzhəb məsələlərini bir daha nəzərdən keçirib islah etmək istədi. Sizin özünüzə də məlum olduğu üzrə Məmun Quran hökmlərinin islam xalqı üçün məcburi qanun olmadığı məsələsini meydana atmışdı. Lakin Məmunun bu gözəl fikri islam ölkələrində iki zidd hərəkətin yaradılmasına səbəb oldu. Onlardan birisi dinçilərin və təriqət müəssisələrinin Məmuna qarşı düşmənanə hərəkətindən, ikincisi də Azərbaycan ziyalılarının dərin bir ifrata qapılaraq din və hökumətə qarşı üsyan etmələrindən ibarət idi. Bu hərəkətlərin hər ikisi Məmunun islahat fikirlərini boğdu, məsələni nəticəsiz buraxdı.

İndi Azərbaycanı təzədən qurmaq işində bu təcrübələr bir rəhbər olmalıdır. Sizin islahat üçün göstərdiyiniz təklifləri Atabəy Məhəmmədə yazacağam. Zənn edirəm ki, əlahəzrət Sultan Toğrul da buna manea göstərməz.

[1] IX əsr miladın 15-ci ilində.

Sonra, Gəncə hakimi Əmir İnancın məsələsinə aid yazdığınız sətirlərdə deyirsiniz ki: "Mən, yoldaşım və bir də böyük şairə Məhsəti xanımdan ibarət olan üç nəfər, bir inəyin südü ilə gözəl bir surətdə yaşadığımız halda, Əmir İnanc bütün Aran məmləkətini bir inək kimi sağıb yeyirsə də yenə də doymur".

Möhtərəm şair, hərgah Əmir İnanclar bir inəyin südü ilə kifayətlənsəydilər, o zaman onlar da Nizami olardılar, daha onlara Əmir İnanc deməzdilər.

Məktubunuzla bərabər göndərdiyiniz bəzi əsərlərinizi aldım. Orada diqqətimi cəlb edən parçalardan birisi də Soltan Səncərlə qoca qadının hekayəsi oldu. Doğrudan da bu balaca hekayəniz göndərdiyiniz məktubun mündəricəsilə uyğundur. Həqiqətdə də səlcuqlar Azərbaycan məmləkətini, qoca qadının dediyi kimi, ağır və çıxılmaz bir vəziyyətə saldılar. Hazırda Azərbaycanı abad bir məmləkət şəklinə salmaq üçün sizin kimi ziyalı adamların ciddi köməyi lazımdır. Möhtərəm şair! Siz əhalini anlatmalısınız ki, hazırda hökumətə qarşı üsyan qaldırmaq və üsul-idarəni tamamilə rədd etmək Azərbaycan məmləkəti üçün böyük bir təhlükə yarada bilər. Çünki məmləkətin qonşularında məmləkətə qarşı böyük bir sui-qəsd hazırlanır.

Yenə də sizdən məktub gözləyirəm. Nəsibim olursa, görüşüb əlinizi öpmək səadətinə nail olaram. Hələlik uzaqdan salam göndərirəm.

Təbriz, *Qızıl Arslan*".

Məktub oxunduqdan sonra Fəxrəddin şad bir tövr alaraq dedi:

– Məktub olduqca qənaətbəxş bir məktubdur.

Nizami isə fikirli bir surətdə məktubu büküb yazı heybəsinə qoyarkən:

– Məktub o qədər də səmimi deyildir, – dedi.

Fəxrəddin təəccüblə soruşdu:

Nə üçün? Qeyri-səmimilik bunun harasındadır?

– Bu məktub ancaq siyasət və dünyagörüşü cəhətcə savadsız adamların gözünü örtə bilər. Qızıl Arslan Babək üsyanından danışdığı vaxt deyir ki: "Mən, Babək üsyanından sonra Azərbaycanda baş verən bütün üsyanların tarixini oxuyurkən, bu üsyanların hamısında Babək üsyanında mövcud olan ünsürlərin olduğunu görürəm".



Qızıl Arslan burada ya Babək üsyanının hansı ünsürlərdən mürəkkəb olduğunu bilmir, yainki Babəkdən sonra Azərbaycanda baş verən üsyanların mündəricəsilə tanış deyildir. Onun, Məmunun xülasələrindən alıb bizə məsləhət üçün göstərdiyi parçalar isə ya təhrif olunmuş və yaxud da başqa bir məqsəd daşımaqda olan müəyyən adamların fikridir, çünki Babək üsyanı bütün mahiyyəti ilə islam dini əleyhinə başlanmışdı. Şübhəsizdir ki, xəlifəlik islam dini əsasında qurulduğu üçün, xəlifələr bu dini müdafiə etməyə başlayacaqdı.

Qızıl Arslanın Məmundan alaraq bizə aşılamaq istədiyi yanlış fikirlərin birisi də Babəkin dinə qarşı yox, təriqətlərə qarşı üsyan etməsinin zəruri olduğunu isbata qalxışmasıdır. Bu nə qədər gülünc bir səhvdir. Babək təriqətlərə qarşı elmi və fəlsəfi mübarizə açdığı zaman təriqət mübahisələri bir daha alovlanmağa başlayacaqdı. Lakin dinin əsasına qarşı qoyulan üsyan ən doğru bir yol idi, çünki dünyada bir təriqət yoxdur ki, o, dinə istinad etməsin, dinin yıxılması bütün təriqətlərin yıxılması deməkdir. Qızıl Arslan məktubunda Babək üsyanının hökumət əleyhinə çevrildiyi üçün məğlub ola bildiyini göstərməklə bizi qorxutmaq istəmişdir.

Məktubda məni qənaətləndirəcək bir cəhət vardır ki, o da Qızıl Arslanın "Azərbaycanlılar bizi öz hökumətləri kimi tanımazsa, müdafiə etməz" deməsidir. Onlar ağıllı və siyasət bilən adamlar olarsa, ancaq yuxarıdakı iddialarını həyata keçirdikdən sonra Azərbaycan hökuməti hesab ediləcəklər.

Bizim təbii hüdudlarımız tamamilə Azərbaycan atabəylərinin əlindədir. Zənnimcə, onlar Şirvan şahlığı məsələsini təsviyə edə bilərlər. Qızıl Arslanın milli mədəniyyət barəsində qoyduğu məsələlər də əsas məsələdir. Müəyyən və möhkəm bir quruluşla idarə edilməyən və bir mərkəz ətrafında yığılmayan kiçik-kiçik məmləkətlərdə islahat aparmaq olmaz. Qızıl Arslanın səlcuqilərin hökumət quruluşları barəsindəki fikirləri tamamilə doğrudur.

Hər halda mən ikinci məktubumda, onun bəzi səhvlərini qeyd edəcəyəm, zənn edirəm ki, o bundan inciməz.

Fəxrəddin də:

– Bütün fikirlərinlə razılaşıram! – dedi.

On dörd gecəlik ay, bu qara xəyanəti görməmək üçün başını qara buludların yorğanına çəkib gizlənmək istəyirdi.

Mavi fəzanın hovuzunda çimən ulduzlar da qara qətifələrə bürünərək öz yatağına çəkilirdi. Daima pəncərələri döyməyə adət edən Gəncə küləkləri şəhər xalqını bu qara hadisədən xəbərdar etməmək üçün öz şiddətini dayandırmışdı. Gecə olduqca sakit və durğun idi. Hər şeydə bir sükut hiss edilirdi. Sanki bütün təbiət Əmir İnancdan sükut əmrini almışdı. Saray da yatmışdı. Nə həyətdə, nə də dəhlizdə cınqırını çəkən var idi. Cariyələr otaqlarının çıraqlarını söndürmüşdülər. Uzun və geniş dəhlizin baş tərəfində yanan piy çırağı da sönürdü. Lakin xacə Müfid adəti üzrə oğru pişiklər kimi dolaşıb, saray xalqı yatan otaqların qapısını qoxulayırdı. O, Dilşadın otağının qapısında durdu, onun otağının açarını əlindəki başqa açarların içərisindən asta-asta tapmaq istərkən Dilşad oyandı, titrəməyə başladı, çünki gecənin bu vaxtında xacə Müfid heç bir zaman könülaçan bir xəbər gətirməzdi. Bu vaxt cariyələr ya istintaq edilməyə, ya cəza verilməyə, ya da Əmir sərxoş olduğu zaman onu əyləndirməyə aparılırdı.

Xacə Müfid otağa girərkən Dilşad ceyran kimi ürkərək otağın bucağına qısıldı. O, qaranlıq otaqda titrəyərək xacə Müfidin nə üçün gəldiyini bilməyə tələsirdi.

Xacə Müfid şamı yandırıb Dilşadın bucağa qısıldığını görərkən adəti üzrə güldü. O, gözəl cariyələrin bu vəziyyətindən daima ləzzət alırdı, hətta cariyələr cəzalandığı zaman tökdükləri göz yaşından o nəşələnərdi. Bunun üçün də istədiyi zaman istədiyi cariyələrin haqsız və təqsirsiz cəzalanmasına səbəb olur və ruhi bir ləzzət alırdı. Dilşadı qorxudan da həmin bu məsələ idi.

Xacə Müfid irəli gəldi, əlini uzadıb Dilşadın açıq saçlarını sığallamaq istədikdə qızın əndamı titrədi, əti çimçəşdi. Xacə Müfid bu nəvaziş və bu gülüşləri Dilşadın həyəcanını heç də azaltmadı. Çünki xacə Müfid cariyələri döydürməyə və cəzalandırmağa da belə gülərüzlə aparırdı. İndi Dilşad onun bu saxta nəvazişlərini görərkən cəzalandırmaq üçün aparılacağına şübhə etmirdi. Xacə Müfid hər nə edirsə etsin, Dilşad yenə də onun ağzına baxır və əmrinin intizarını çəkirdi. O, qorxusundan şəkil kimi quruyub divara yapışmışdı.



Lakin xacə Müfid qızın həyəcan və intizarını nəzərə almayaraq, çox laqeyd hərəkət edirdi, çünki belə hallarda cariyələri intizarda qoymaq özü də bir cəza idi.

Xacə Müfid əlində şam, bir şey itirmiş adamlar kimi, Dilşadın otağını gəzdi, qızın paltarlarını, zinət şeylərini gözdən keçirdi, hər şeyin yerində olub-olmamasını yoxladı. Adətən gözəl cariyələrə verilən qiymətli paltarları, qiymətli daş-qaşları tez-tez yoxlayırdılar ki, onlar başqa bir kəsə verilməsin. Şeylərin hamısı öz yerində idi. Xacə Müfid onların hamısını Dilşadın yatacağı ilə yanaşı duran kürsünün üstünə yığıb, Dilşada baxdı, yenə də gülməyə və onun saçlarını sığallamağa başladı. Dilşadın bağrı çatlamaq dərəcəsinə gəlmişdi; o qışqırmaq istəyirdi. Nəhayət, xacə Müfidin dodaqları hərəkətə gəldi. Çox yavaşdan, hətta eşidilməz bir tərzdə dedi:

– Qorxma, götür nə deyirəmsə yaz!

Dilşad birinci dəfə idi ki, xacə Müfidin dilindən "qorxma" sözünü eşidirdi. Buna görə də xacə Müfidin bu sözü onun həyəcanını deyil, təəccüb və heyrətini artırdı. Ona görə ki, xacə Müfid bütün ömründə heç bir kəsin həyəcanının sakit olmasına imkan verməzdi, o, daima cariyələri qorxu və həyəcanlar içərisində yaşatmağı sevərdi. O, gözəl cariyələrin ürək çırpıntısı içərisində qıvrıldıqlarını hiss edərkən, daima ruhən, qəlbən şadlanardı. Xüsusən o, cariyələrin gözəl olanlarını heç də sevməzdi, buna görə də onun cəzasına düçar olanların hamısı gözəl cariyələr idi. Onun özü xacə olduğu üçün qadınlara nifrət edirdi. Qadınlar onun birinci düşməni idi. O, özünün məhrum olduğu bir nemətin məhvini və başqalarına qismət olmamasını istəyirdi. Dilşadı Müfidin "qorxma" deməsi deyil, gecədən çox keçdiyi üçün Əmirin yanına getməmək əmniyyəti sakit edirdi, çünki Əmirin hüzuruna istintaqa getmək və ya işgəncə verilmək üçün aparılmaq zamanı keçmişdi. Əmirin özü də, saray xalqı da sərxoş olub çoxdan hərə öz yatağına çəkilmişdi. Əmirin rəqs və şərab salonunun çilçıraqları da söndürülmüşdü. Buna görə də işgəncə verilmək üçün aparılmayacağı Dilşadı sevindirirdi. Çünki Əmir cariyələri cəzalandırdığı zaman rəqqasələr rəqs edər, saqilər şərab paylar, xanəndə qızlar oxuyar, müqəssir cariyə isə Əmirin oturduğu kürsünün ayaqlarına atılıb döyülərdi. Əmir isə çalğı tərənnümlərinə həmahəng olan o ağlayış və yalvarış səslərindən nəşə alardı. Dilşadı isə görünür, başqa bir hadisə gözləyirdi.

Xacə Müfid bir daha irəli gəlib əllərini onun saçlarında gəzdirərək:

– Otur, otur, ağılsız və vəhşi ceyran, – dedi. – Gözəl olduğun qədər də ağılsızsan. Bu da təbiidir. Təbiətdə bərabər olan heç bir şey yoxdur. O bir şeyi insana artıq verəndə, o biri şeyi azaldır. Lakin insanda gözəllik yerinə ağıl olsaydı, başı səninki kimi bəla çəkməzdi. Sənin ağılın azlığı bir çox acı təcrübələrdən sonra da gözünün açılmasına imkan vermədi. Bu da təbiidir, gözəl qızlar öz zahiri gözəlliklərinə güvənərək ağlın və fərasətin gözəlliyinə əhəmiyyət verməzlər. Sən də elələrindənsən. Sənin təqsirin gözəlliyindən bir neçə qat böyükdür. Çünki öz vəliyülnemətinə xəyanət etdin. Sən bu hərəkətinlə özünü ən yaramaz bir qız kimi göstərdin. Xəlifənin qadını Safiyə xatunun namusunu ləkələmək və onu Əmirin gözündən salmaq istədin. Sən, Fəxrəddinin göstərişi ilə Əmirin katibi Mühakim ibn-Davudun möhürünü qələmdanından oğurlayıb, öz xanımın Safiyənin otağına atdın. Bu iş sənin işin idi. Sən bu xəyanətinlə xəlifə ilə Əmir həzrətləri arasında ixtilaf çıxarmaq istəyirdin. Əmiri də, onun qadınını da bədbəxt edirdin. Sən bir də kişilərin sevirəm demələrinə aldanma, onlar az bir mənfəətdən ötrü başqasının varlığını sata bilərlər. Fəxrəddinin son hərəkəti də bunu göstərdi. İndi de görüm, bütün bu təqsirlərin cəzası nədir? Sən bilirsən ki, bu cür işləri üçün Tərxan xanımı çuvala salıb hovuza atdılar. Sənin öz gözünün qabağında Lamiə xanım kimi gözəl bir qızı Mərcan kimi iyrənc bir qara qulun otağına atdılar. Halbuki sənin təqsirin onların təqsirindən bir neçə qat artıq idi. Sən gərək Güləndam kimi gözəl bir cariyənin yanaqlarına dağ basıldığını yadından çıxarmayaydın. Lakin sən nə qədər ki, öz bədbəxtliyinə çalışırsan, xoşbəxtlik yenə də inad göstərib, sənin yanından çəkilmir. Bəxtin səni daima əfvedilməz günahların cəzasından azad edir.

Xacə Mufid çox danışdı, yoruldu, nəhayət, sağ əlini belinə qoyub kürsülərin birinin üzərinə oturdu. Dilşad isə sükutdan istifadə edib danışdı:

– Mənə cəza verildiyi zaman, həbsə alındığım zaman demişəm, yenə də deyirəm. Mənim bu işlərin heç birisindən xəbərim yoxdur. Əbəs yerə məni və Fəxrəddini bunun üçün təqsirləndirirsiniz.

Xacə Müfid başı aşağı olduğu halda altdan yuxarı gözlərini qaldırıb Dilşada baxdı və dedi:

– Ay şeytan balası, şeytan! Sən bilirsən ki, mən saraydakıların hamısını beş barmağım kimi tanıyıram. Cariyələrin başında nə qədər



tük olduğunu belə bilirəm. Bunların hamısı keçib gedibdir. Sən Zübeyrə və Tahirə kimi buzlu hovuza salınıb döyülmədin, çünki sən xoşbəxt idin. İndi də xoşbəxtsən. Çünki Əmir səni Fəxrəddinə vermək üçün razı olubdur, mən də bu məsələni səninlə danışmaq üçün gecənin bu zamanı yanına gəlmişəm.

Dilşad şadlığından qışqırmaq istədi. Sevindiyindən hönkür-hönkür ağladı, xacə Müfid isə:

– Otur, dediklərimi yaz! Gecə keçir, otaqları gəzmək və yoxlamaq lazımdır, – dedi.

– Nə yazım?

– Əmirin bu izdivaca riza verməsini Fəxrəddinə xəbər verməlisən.

– Bu məktubu yazmaq mənim üçün bir qorxu və bir təhlükə təşkil etməzmi?

– Bunu sənə xacə Müfid deyir. Burada nə qorxu var, nə təhlükə. Götür, yaz!

– Qələmdan və kağız yoxdur.

– Buyur, mən gətirmişəm.

Xacə Müfid cibindən qələmdan və kağızı çıxarıb Dilşada verdi. Dilşad xacə Müfidin dediklərini yazıb bitirdi, xacə Müfid isə:

– Oxu, görüm, nə yazdın! – deyə əmr verdi.

Dilşad oxudu:

"Əziz və möhtərəm Fəxrəddin!

Bilərək və bilməyərək buraxdığım səhvlərə baxmayaraq, Əmir həzrətləri yenə də mənim xoşbəxtliyimə mane olmaq istəmədi. Əmir də, onun möhtərəm hərəmi Safiyə xatun da mənim günahlarımı öz nəcib və müqəddəs ürəkləri ilə bağışladılar. Əmirin verdiyi əmrə görə Ramazan ayı çıxan kimi bizim xeyir işimiz baş tutacaqdır. Məktubu sənə hazırlıq görmək üçün yazıram. Demək, iyirmi günlük bir müddətdən sonra, bizim həyatımız birləşəcəkdir. Səni təbrik edirəm, sən də məni təbrik edə bilərsən.

Sənin *Dilşadın*".

Xacə Müfid məktubu alıb bükdü və gülə-gülə cibinə qoydu. Dilşad hər bir əziyyət və işgəncənin bitdiyini zənn edirdi. O, sevindiyindən xacə Müfidin əllərini öpür və ayaqlarına düşmək istəyirdi. Lakin

bu şadlığın müddəti bir neçə dəqiqədən artıq olmadı. Xacə Müfid ayağa durduğu zaman:

– Gecə keçir, indi hazırlanmaq lazımdır, – dedikdə, Dilşad təəccüblə soruşdu:

– Nə üçün indidən hazırlanmaq? Hazırlanmaq üçün əlimizdə olan iyirmi günlük imkan kifayət deyilmi?!

– Bu hazırlıq başqa hazırlıqdır. İndi də sənə başqa bir xoşbəxtliyin müjdəsini verəcəyəm.

– Hansı xoşbəxtliyin?

– Əmir həzrətləri səni öz qayınatası Müstərşidbillaha hədiyyə göndərir. Səni cəzalardan qurtaran səbəblər də bundan ibarət idi. Dur, hazırlan, köçmək vaxtına çox az qalır.

Dilşad bu xəbərdən titrəyib oturdu, ağlaya-ağlaya dedi:

– Bu xəbər mənə veriləcək cəzalardan daha dəhşətlidir. Rica edirəm, mənə rəhm edin, məni məhv etməyin, bu səfəri bir və təxirə salın.

– Heç də mümkün deyil. Bağdada göndərilən bir sən deyilsən, Süsən də gedir. Qırx nəfər başqa cariyə də göndərilir. Əmir məsələnin təxirə salınmasına icazə verməmişdir.

– Bəs məktubu nə üçün yazdırdın? Vicdansız, şeytan, haramzadə...

Xacə Müfid bu söyüşdən gülərək dedi:

– Bu dünya belədir. Məlaikələr və peyğəmbərlər kimi yaşamaq yerdəkilərə nəsib ola bilməz. Yerdə ancaq bizim kimilər yaşaya bilər. Lakin şeytan olmadan xoşbəxt yaşamaq hələlik yer əhlinə nəsib ola bilməmişdir. Vicdansız deyə məni söyməkdə haqlısan, ancaq onu bilməlisən ki, vicdan da, ruh da, qan da hamısı ağanın xidmətindədir. Vicdan göstərişilə yaşamaq bir adam Allah qədər qüvvətə malik olmalıdır. Vicdan daşımaq, tabe olanlar üçün mümkün deyil. Əmir belə əmir edir. Onun qarşısında əyilən zahirdə mənim başım isə, batində mənim vicdanımdır. Lakin bu vicdan hər kəsə yamanlıq etsə də, sənin haqqında yaxşılıq edir. Elə ki, sənin təmiz bətnindən dünyaya cahanı idarə edəcək xəlifələr gələcək, o zaman mənim nə qədər sənə mehriban olduğumu yəqin edəcək və mənə dua-xeyir verəcəksən. Əmirəlmöminin xəlifə həzrətləri sənin bu nar məmələrinlə əyləndiyi zaman sən xacə Müfidi xatırlayacaqsan, çünki onlar mənim nəzarətim altında bəslənmişdir. Mən sənin incə dodaqlarının qara qulların dodaqlarında çeynənməsinə imkan verməmişəm, sən o dodaqları xəlifənin dodaqlarında gördüyün zaman bu fəqirə dua edəcəksən. Hələ qönçə ikən sənin gülünü dərmək istəyirdilər. Gül olduğun zaman Əmir həzrətləri səni şərəfləndirmək istəyirdi. Mən mane oldum, çünki sənin gülünü adi adamlar dərə bilməzdi, bu qiymətli gülü xəlifə həzrətləri öz tacına taxmalı idi. Sən niyə də şad olmayasan?! Hazırda iqbal öz nicat əlini uzadıb səni kədərlərin, işgəncə və cəzaların pəncəsindən qopararaq, müqəddəs bir həyatın qoynuna və xəlifənin nurani qucağına doğru aparır; o qucaqda həm dünyanın, həm də axirətin səadəti vardır. İndi çox danışmaq vaxtı deyil, dur, hazırlaş, mən bir azdan sonra qayıdacağam. Lazım olan şeylərini bir yerə yığ. Başqa cür düşünmək yersizdir. İnsan hadisələrin nökəridir, hadisələrsə qəza və qədərdir, ondan boyun qaçırmaq olmaz. Sən hələlik həyatı anlamırsan, ancaq birinci olaraq xəlifənin hərəminə daxil olduğun zaman sənin həyatın başlanacaqdır. Xəlifənin şərəfinə nail olaraq qadınlıq dövrünə qədəm qoyduqdan və sədəfdən saf olan bətninə insan şəbnəmi düşdükdən sonra dünyaya nadir dürlər, incilər atdığın zaman qoca xacənin verdiyi öyüd və nəsihətlərin qiymətini biləcəksən. Sevgi yalan bir kəlmədir. O, gənclik dövründəki dəliliyin ibtidai bir şəklidir.

Xacə Müfid gedəndən sonra Dilşad dəhşətindən dəli olmaq dərəcəsinə çatırdı. Bu xəbəri Fəxrəddinə nə vasitə ilə yetirəcəyini düşünürdüsə, bir çarə tapa bilmirdi. Dilşad ağlayır və qəlbində Fəxrəddinə acıqlanıb deyirdi: "Sən məni doğrudan da sevsəydin, indiyə qədər buradan alıb aparardın, görünür, xacə Müfidin dedikləri tamamilə doğrudur. Sən məni sevsəydin, mən bu gecəki hadisənin qarşısında tir-tir titrəməzdim".

Dilşad bunları düşünərkən xacə Müfid əlində bir bağlama içəri girdi, onu kürsünün üstündə qoyub dedi:

– Bunlar sənin yol paltarlarındır. Bu cavahiratı, bu inciləri, bu almazları da xəlifə hüzuruna getdiyin zaman üstünə taxmalısan.

Xacə Müfid Dilşada soyunub yol paltarlarını geyinmək üçün imkan verdi, qapını örtüb dəhlizə çıxdı. Dilşad soyunub yol paltarlarını geydiyi dəqiqələrdə, yenə Fəxrəddini xəbərdar etmək barəsində düşünürdü. Geyindi, Fəxrəddinin yadigar verdiyi gərdənbəndi bir dəsmala büküb qoynuna qoydu.

Xacə Müfid otağa girib, onun şeylərini bağlayaraq götürdü və dedi:

– İndi dalımca gəl, burada özünü yaxşı aparmadınsa, xəlifə sarayında yaxşı apar. Bağdadı Gəncə hesab etmə, orada həyat tamamilə

başqadır. Orada gözəllik nə qədər qiymətlidirsə, ağıl və fərasət də qiymətlidir. Səndən daha gözəl şəkilləri rəssamlar çəkə bilər. Sən hərgah xəlifənin qəlbini ələ ala bilsən, bütün Bağdadı əlinə almış olacaqsan. Lakin özgənin sözünə baxsan, gözü dağınıq olsan, xəlifəyə məxsus cavahiri başqalarının boynuna salmaq istəsən, səadətini həmişəlik itirəcəksən.

Xacə Müfid otaqdan dəhlizə çıxdı. Saraydan küçə qapısına gələnə qədər Dilşada bu nəsihətləri verirdi. Küçəyə çıxdıqları zaman Dilşad qapıda bir neçə taxt-rəvanın dayandığını gördü. Taxt-rəvanları silahlı qulamlar və atlılar aralığa almışdı, çünki Əmir İnanc Fəxrəddinin Dilşadı qaçırmağa hazırlaşdığını eşitmişdi.

Xacə Müfid Dilşadın şeylərini birinci taxt-rəvana qoydu, sonra qızın qolundan tutub taxt-rəvanın pillələrindən yuxarı qaldırdı. Taxt-rəvan ipək pərdə və nəfis xalçalarla bəzənmişdi. Dilşad orada iki dəst yorğan-döşəyin qoyulduğunu görüb Müfidə sual verdi:

– Burada kim gedəcəkdir?

– Burada bir sən, bir də sənə xidmət etmək üçün məşşatə[1] gedəcəkdir.

Bir azdan sonra məşşatə də taxt-rəvana çıxdı. Xacə Müfid məşşatəyə müraciət edib tapşırıq verdi:

– Əmir həzrətləri bu qızı sənə tapşırır. Buna çox ciddi diqqət verməlisən. Bunun yeməyi, içməyi və bütün ehtiyacları öz vaxtında yerbəyer edilməlidir.

Müfid bu sözləri deyib taxt-rəvandan düşdü.

Taxt-rəvanlar yola düşdü. Bütün şəhər yatmış, ay isə Kəpəzin arxasına çəkilmişdi. Küçələrdəki qarovulların hərəsi bir bucağa qısılıb mürgüləyirdi. Hər ehtimala qarşı taxt-rəvanların pərdələri salınmışdı. Lakin Dilşad taxt-rəvanların ətrafında gedən atlılara hiss etdirmədən, pərdənin yanını qaldırıb hansı küçə ilə getdiyini öyrənməyə çalışırdı.

Taxt-rəvanların karvanı Məsudiyyə adlı xərabə karvansaranın qarşısından keçirdi. Gəncə səfilləri və şəhər dilənçiləri yan-yana düzülərək, divarların dibində yatmışdılar. Dilşad bu yerdən keçərkən

[1] Məşşatə – bəzək və tualet işləri ilə məşğul olan qadındır. Şərqin kübar və aristokrat ailələrində xanımları bəzəmək üçün bəzəkçi qadınlar saxlamaq adət idi. Hərəmxanalarda hər qadının öz bəzəkçisi olmalı idi.



Fəxrəddinin ona yadigar verdiyi süleymanini[1] dəsmalın içərisində dilənçilərin üstünə atdı. Qəlbi qismən sakit oldu, çünki qiymətli şeyi bölüşdürmək üçün dilənçilərin arasında ixtilaf çıxacaq və belə bir qiymətli şeyin dilənçilərin əlinə nə vasitə ilə düşdüyü ətrafa yayılacaqdı.

Süleymaninin üzərində "Fəxrəddindən sevgili Dilşada yadigar" sözləri yazılmışdı.

## ARAN[2]

Gəncə şəhərində böyük bir həyəcan var idi. Azərbaycanda mövcud olan itaətsizliyi ləğv etmək üçün göndərilən İraq və fars qoşunundan 5 min nəfər də Aran ölkəsində yerləşdirilmişdi. Atabəy Məhəmməd tərəfindən göndərilən bu dəstə Əmir İnancın göstərişi ilə hərəkət edir, vaxtilə vergidən boyun qaçıran kəndliləri cəzalandırır və qarət edirdi. Həbslərin və sürgünlərin sayı-hesabı yox idi. Minbərlərdə xəlifə Toğrul və Atabəy Məhəmməd adına xütbə oxutdurmamaq üstündə üsyançı kəndliləri qırıb məhv edirdilər. Lakin Gəncə şəhərində mövcud olan itaətsizliyi təsviyə etmək mümkün olmamışdı; çünki Gəncə ziyalıları və orada toplanmış xalq rəhbərləri, özlərinin yerli hökumət tərəfindən aldadıldığını yəqin edincə, acıqlanmış və itaətsizliyə başlamışdılar.

Vaxtilə, – sürgün edilmişdir – deyə şöhrət tapan Gəncə xətibi Məkkədən qayıdıb şəhərə gəlmişdi. Xalqın intiqamından qorxub Şirvanşahların himayəsinə pənah aparan müridlər Gəncəyə yığışıb, əllərində ağac, dəstələrlə küçələri gəzir və qabaqlarına keçənləri döyüb təhqir edirdilər. Alimlər, şairlər, incəsənət işçiləri camaat gəzən yerlərə, məscidlərə və səyahət yerlərinə getməkdən məhrum edilmişdilər. Müridlər Məhsəti xanımın Gəncədən köçürülməsi üçün yenə də Əmir İnanca müraciət etməyə başlamışdılar. Lakin Əmir İnanc Azərbaycan hökmdarı Qızıl Arslanın şeir və ədəbiyyata qiymət qoyduğunu, Məhsəti və Nizamiyə hörmət bəslədiyini eşidincə xətibə məsələni

[1] Şərq əfsanələrində Süleyman peyğəmbərin səba mələkəsi Bilqeys üçün hədiyyə göndərdiyi qiymətli boyunbağına Süleymani adı verilmişdi.

[2] Məşhur coğrafiya alimi Qəzvini "Nüzhətlqlub" adlı əsərində yazır ki, Azərbaycanda Aran deyilən məmləkət Şərqdə ikinci Beynənnəhreyndir. Azərbaycanda Araz çayı ilə Kür çayının arasındakı şəhərlər Aran şəhərləridir. Mərkəzi Gəncə şəhəridir.

anlatdı, müridlərin bu təcavüzünə imkan verə bilməyəcəyini xatırlatdı. Xətibin Gəncəyə qayıtmasilə xalqın hökumətə qarşı bəslədiyi nifrətin alovları bir daha artmış oldu. Əmir Gəncədə təzə bir üsyan çıxmasına imkan verməmək və biət almaq üçün Gəncə xalqına rəhbərlik edənləri məscidə dəvət etmişdi. O, xalqı həm qorxutmaq, həm də təzə xanədana itaət etdirmək üçün nəsihət vermək istəyirdi. Məscidə Fəxrəddin də dəvət edilmişdi. Dilşadın ona göndərdiyi məktub onun Əmirə qarşı mövcud olan şübhələrini azaltmışdı. O, məktubun Dilşad tərəfindən yazıldığına inanırdı. Məktub Dilşadın öz xəttilə yazılmışdı. Fəxrəddin Əmirin çağırdığı müşavirədə iştirak etsəydi, Əmirin əleyhinə çıxış etməməli idi. Onun çıxışı hər halda Dilşadın vəziyyətini ağırlaşdıracaq, bəlkə də, Əmir onların izdivacına verdiyi razılığı geri götürəcək idi. Fəxrəddin bunları düşünürdü.

O, Dilşada olan sevgi və duyğularını nə qədər səfərbər edirsə-etsin, Əmir İnancın bu sevgiyə verdiyi imkanları nə qədər qiymətləndirirsə qiymətləndirsin, yenə də Əmir İnancın və onun Atabəyi Məhəmmədin Azərbaycandakı hərəkətləri ilə barışa bilmirdi. O, xalq azadlığının ərəb mizraqları, fars və İraq qılıncları altında məhv edilməsinə soyuqqanlılıqla baxa bilmirdi. O, bu vəziyyət qarşısında acizləşmişdi. Qəhrəmanlığına baxmayaraq yazıq və həyatın bütün imkanlarını uduzmuş adamlar kimi nə edəcəyini bilmirdi. Əmirin əleyhinə hərəkət etmək fikrini qərarlaşdırdığı zaman sanki Dilşad gəlib gözünün qarşısında durur:

– Fəxrəddin, özünü ələ al, Əmir öz sözünü geri götürərsə, mən məhv olaram, – deyirdi.

Lakin Dilşadın saçlarını sığallayıb, fikrində: "Dilşad, mənə inan, sənin sevgin mənə hər şeydən artıqdır", demək istədiyi zaman, dilənçi halına gətirilən minlərcə ailələrin qız və qadınları Fəxrəddinin gözünün önündə təcəssüm edir və xalqın kürəyində səslənməkdə olan qamçı və mizraq səsləri Dilşadın yalvarış səslərini örtürdü.

Nizami, məscidə bərabər getmək üçün Fəxrəddinin yanına gəldi. O, Fəxrəddini öz təbii halında görməyərək soruşdu:

– Səni təbii halında görmürəm.

– Doğrudur, fikirliyəm.

– Nəyin fikrini edirsən?

– Xoşbəxtliyimiz baş tutur.

– Hansı xoşbəxtliyiniz?



– Dilşad ilə olan xoşbəxtliyimiz.

– İzdivac məsələsinimi deyirsən?

– Bəli, onu deyirəm. Sonra, o, sadə bir xoşbəxtlikmidir?

– Baş tutarsa, böyük xoşbəxtlikdir.

– Ona mən də inanmırdım. Lakin indi inanıram.

– Təzə xəbərmi var?

– Var, çox da gözəl xəbər!

– Ayıq ol ki, bu xəbər Səba xanım gətirən xəbərlərdən olmasın.

– Yox, bu xəbər deyil, Dilşadın özünün yazdığı məktubdur. Gizlin bir söz yoxdur, alıb oxuya bilərsən.

Fəxrəddin cibindən Dilşadın məktubunu çıxarıb inandırıcı bir tövr ilə Nizamiyə uzatdı. Nizami məktubu alıb çox diqqətlə oxudu, məktubu əlində saxlayaraq qaşlarını qoşalaşdırdı və bir az fikir etdikdən sonra:

– Məktub Dilşad tərəfindən yazılmışdır, buna şübhə yoxdur. Lakin bu məktub bir səbəbsiz deyil.

– Səbəb odur ki, Əmir bununla məni xəbərdar etmək istəmişdir. Bu da ki, hazırlıq görmək üçündür.

– Yox, Fəxrəddin, inana bilmirəm. Mən səni bu qədər də avam və sadə bilmirdim. Sən Əmir İnancı tanımırsanmı? Onun xəlifəyə yazdığı məktubu oxumadınmı? Vaxt qazanmaq üçün Dilşadı sənə vədə verdiyini başa düşmürsənmi? Necə olur ki, Əmir İnanc mövqeyini möhkəm etdiyi və arxasında hədsiz-hesabsız bir qoşun durduğu zaman heç bir təzyiq olmadan özü məktub göndərib, Dilşadı sənə verir? Mən bunu bir hiylə hesab edirəm, mənə inan, bu məktub böyük bir hadisə ilə əlaqədardır. Mən istərdim ki, dostum qılınc və mizraq qəhrəmanı olduğu kimi, tədbir və düşüncə qəhrəmanı da olaydı! Özünü şaşırma, mən elə bilirəm ki, Dilşad Gəncədə deyildir. Məktub isə səni iğfal etmək üçündür.

– Dilşad məni iğfal etməkmi istəyir?! Buna kim inana bilər?!

– Səni Dilşad iğfal etmək istəməz, biləks onu iğfal edib bu məktubu yazdırarlar.

Fəxrəddin fikrə qərq oldu, bu fikrin təsiri ilə də ağzından bu sözlər çıxdı:

– Gedəcəyəm də, bildiyimi danışacağam da – dedikdə Nizami dərhal onun nə barədə düşündüyünü anladı və gülərək dedi:

– Xalq susduğu zaman sənin danışmağın sükutu pozar, xalqın fikrinə təkan verər, lakin rəhbərlər susduğu zaman xalq düşmənin haqlı

olduğu qənaətinə gələrək, rəhbərləri ata da bilər. Cəbhədə qılınca, məclisdə gözəl və dəyərli nitqə malik olanlar qəhrəmandır. Bizcə, xalqın gələcəyi və müqəddəratı nə qədər dəyərsiz və yoxsul olursa olsun, o yenə tək bir şəxsin zəngin müqəddəratından dəyərli və qiymətlidir. Halbuki bu kimi iclaslarda bütün Şərqdə nümunəvi və yüksək bir mədəniyyətə malik olan Azərbaycan xalqının müqəddəratı həll edilir. Bizim mədəniyyətimizi sönmüş və geri qalmış fars və ərəb mədəniyyətilə bir qaba yerləşdirmək istəyənlərlə açıq danışmaq lazımdır. Biz irəlidəyik, bizi bir daha geri qaytarıb ərəb mədəniyyətinin qabığına soxmaq istəyənlər səhv edirlər. Bunu onlara anlatmaq lazımdır Bu isə açıq danışmaqla mümkündür. Ərəblər bizə din gətirdilər, qəbul etdik, təriqətlər, məzhəblər gətirdilər, qəbul etdik, lakin dillərini, mədəniyyətlərini qəbul etməyəcəyik, çünki bizim mədəniyyətimiz öz dilimizin əsasında qurulmuşdur. Biz təriqətləri və onların doğurduğu tükənməz mövhumatı ancaq mədəniyyətimizin vasitəsilə təsviyə etməliyik. Düşmənlərimiz bizi iranlılarla müqayisə etməməlidir. Onlar istilaçı İskəndəri peyğəmbər deyib göylərə qaldırdıqları halda, biz bunun əksinə olaraq ərəblərlə dörd yüz ildən bəridir vuruşuruq və müharibəmiz indi də davam edir. Mən əminəm ki, nəhayət, qalib də gələcəyik. Dur ayağa, vaxtdır, məscidə getmək lazımdır. Bütün Aran ölkəsinin gözü bizim ağzımızdadır. Qalx, deyirəm, qalx!

Nizaminin nəsihətləri Fəxrəddinin qanında heç bir zaman duymadığı bir coşqunluq yaratdı. Şad və qüvvətli bir ürəklə evdən çıxıb məscidə gəldilər.

Məsciddə əhali əlindən yer yox idi. Aran şəhərlərinin hamısından nümayəndələr gəlmişdi. Nizami və Fəxrəddin məscidə daxil olduğu zaman, hamı ayağa qalxdı. Şairə və qəhrəmana qarşı bu ehtiram hökumətə qarşı açıq bir nümayiş şəklini aldı. Gəncə qazisi Əmir İnancın tapşırığına görə minbərə çıxdı. Xəlifənin, Toğrulun və Atabəy Məhəmmədin adına uzun bir xütbə oxudu. Sonra da camaatı xəlifənin, Toğrulun və Atabəy Məhəmmədin itaətinə çağırdı. Xütbəsində hökmdarın ədalətindən, Atabəy məmləkətlərinin abadlığından danışandan sonra üsyan məsələlərinə keçərək dedi:

– Bəzi quldurlar, qaçaqlar və soyğunçular hökumətə yağı olduqları üçün, Allah bəndələrinin rahətini pozurlar. "Təzə qanun verin!" deyib qışqıranlar öz sözlərini açıqdan demək istəmirlər. Onlar "Təzə qanun verin" deyəndə köhnə qanunun ləğv edilməsini istəyirlər. Burası



bütün Aran xalqına məlumdur ki, peyğəmbər-zişanin tətbiq etdiyi qanunlardır. Lakin avam xalq onların "təzə qanun" sözü ilə nə demək istədiyini bilmir. Hərgah bilsəydilər, onların sözlərinə baxmazdılar, onları döyüb xalq arasından çıxarardılar. Lakin nə olubsa keçib gedibdir. İndi xəlifənin və Atabəyin mərhəməti Aran xalqına şamil olubdur. Xəlifə bütün günahkarları bağışlamış və şəhərlərdə sakitliyi bərpa etmək üçün öz qoşunlarını göndərmişdir.

Qazidən sonra Əmirin özü də, vəziri Toxtamış da danışdılar. Danışıqlar mövzu və mündəricə etibarilə bir-birindən o qədər də fərqli deyildi.

Rəsmi şəxslərin danışıqları bitdikdən sonra əmir yenə də Aran nümayəndələrinə müraciətlə Soltan Toğrula və Atabəy Məhəmmədə biət etmək məsələsini qoydu. Lakin biət etmək üçün nə yerindən tərpənən, nə də danışmaq istəyən yox idi.

Fəxrəddin danışmaq üçün icazə istədikdə Əmir çox məmnuniyyətlə ona söz verdi, çünki Əmir Dilşad tərəfindən göndərilən məktubla Fəxrəddinin hökumət əleyhinə olan fikrini dəyişdiyini zənn edirdi.

Fəxrəddin ayağa qalxıb minbərin yanına getdi və danışmağa başladı:

– Burada danışılan məsələlərin hamısına ayrı-ayrılıqda cavab vermək lazım deyil, çünki hər kəs eyni bir məsələ haqqında danışdı. Mənə belə gəlir ki, danışanların hamısı ilhamını bir mənbədən almışdır. Buna görə də mən danışan cənabların çox müəmmalı olan fikirlərini qismən izah etməyə çalışacağam. Zənnimcə, bu izahatdan sonra təzə xanədana biət etmək məsələsi və bunun hansı şərtlə mümkün olacağı öz-özünə həll ediləcəkdir.

Əvvələ, bunu demək istəyirəm ki, xəlifənin fərmanı gəldiyi zaman bizim biətdən boyun qaçırmağımızın səbəbi var idi. Çünki biət etmək qayibanə şəkildə doğru olmazdı, xalq biət etdiyi zatı görüb tanımalı idi. Hazırda isə məsələ aydındır. Hökmdarın özünü görməsək belə, biət məsələsini müzakirəyə qoya bilərik. Çünki təzə xanədan bu bir neçə ayın ərzində öz simasını göstərmişdir.

Mən Aranın hər tərəfindən bura toplanmış nümayəndələrə müraciət edərək onlara sual verirəm:

– Bizə nə kimi hökmdar, nə kimi bir üsul-idarə lazımdır?

Fəxrəddinin bu sualına heç kəs cavab vermədi. Fəxrəddin öz nitqini davam etdirib dedi:

– Cavab verən yoxdursa, mən verdiyim sualın cavabını özüm verə bilərəm. Bizə nə kimi bir hökmdar və nə kimi bir üsul-idarə lazımdır?!

Azərbaycan xalqı öz tarixini bilməyəcək qədər küt və savadsız xalq deyildir. Bizim mədəniyyət və tariximizin inkişaf dövrünə aid olan vəsiqələr, istilaçı ərəblər və cahangir iranlıların vurduğu zərbələrə baxmayaraq tamamilə aradan qaldırılmamışdır.

Cahangirlərin qılınc, mizraq, ox və nizələrlə tabe edə bilmədikləri bu ölkə, xarici ölkələri öz sənaye məhsulları ilə doyuran və dünyanın hər tərəfindən tacirlər cəlb edən mədəni ölkə olmuşdur. Azərbaycan şəhərləri vaxtilə dünya ticarətinin bitməz bir anbarı vəzifəsini daşımışdır.

Bacerəvan-Kəştasfi[1], Məhmudabad, Bərzənd kimi böyük ticarət bazarları cahangirlərin at təpikləri altında sürtülüb yerlə yeksan oldu. Artıq Qərb ölkələrindən Qara dəniz vasitəsilə Qarabağ, Gəncə və Şamaxıya gələn tacirlərin əvəzinə, cənubdan əli qılınclı ərəblər və farslar gəlməyə başladı. Biz azərbaycanlılar öz evimizdə rahat yaşamaq əvəzinə dörd əsrdən bəri ərəblər, farslar, səlcuqilər və sairələrlə ölüm-dirim müharibəsi aparırıq. Hazırda bizə elə bir hökumət lazımdır ki, Azərbaycan xalqının arzularını həyat keçirsin və xalqın öz vətənində rahat yaşaması üçün imkan yaratsın. Hazırkı xanədan iş başına keçdiyi gündən bəri xalqın arzularını həyata keçirə biləcək heç bir təşəbbüs etmədi. Biz yenə də kəndlərə və şəhərlərə cəza dəstələrinin göndərildiyini gördük, yenə də haman qamçıların və haman ağacların səsini eşitdik.

Burada qazi cənabları Azərbaycan üsyançılarını quldur, qaçaq və yolkəsən deyə adlandırdı. Məncə, cənab qazi öz fikrini müqəddəm və müəxxər dedi. O, yolkəsənlər və quldurlarla mübarizə aparan üsyançılar demək əvəzinə, yolkəsən və quldur üsyançılar – dedi.

Mən zənn edirəm ki, təzə xanədan Azərbaycan xalqının nə uğrunda mübarizə apardığını təyin etdikdən və xalqın sevmədiyi hakimləri Azərbaycandan rədd etdikdən sonra biət məsələsini Azərbaycan xalqının qarşısında qoya bilər. Biz böyük bir mədəniyyəti saxlamaq, Azərbaycanı azad bir məmləkət kimi yaşatmaq, sənətin və ədəbiyyatın boğulmasına imkan verməmək üçün əlimizdən gəldiyi qədər çalışmalıyıq. Mənə belə gəlir ki, xalqın nə istədiyini mərkəzi hökumətə doğru bir surətdə yetirsələr, bir daha qılınclarımızı qınından çıxarmağa ehtiyac qalmaz.

[1] Qəzvini, cild I.



Fəxrəddin sözünü bitirdikdən sonra Nizami Əmir İnanca müraciət edib danışmaq istədi. Əmir İnanc onun nə demək istədiyini çox gözəl bilirdi, onun hökumət lehinə bir kəlmə də olsa söyləməyəcəyini bilirdi. Lakin ona söz verməməyə cəsarət etmədi, çünki Fəxrəddinin çıxışı xalqı onsuz da hökumət əleyhinə hazırlamışdı. Buna görə də Əmir istər-istəməz Nizamiyə söz verdi. Nizami sözünü bu misralarla başladı:

Gər məlik, inəst dər in ruzigar,  
Mən bə tö viranə dəhəm səd həzar.[1]

"Sel dünyanı tutubdur. Ağıllı adamlar sel gəldiyi zaman evindən dişarı çıxmaz. Mən bu vəziyyəti gördüyüm zaman qapımı tamamilə bağlayıb bir tərəfə çıxmaq istəmirəm. Lakin bunu mən bacarmıram, çünki mənim qapım hər kəsin üzünə açıq olmalıdır. Lakin hava olduqca küləklidir"[2].

Hökumət və xanədan dəyişməsilə məmləkət əhli bir şərtlə barışa bilər. O şərt – üsuli-idarənin dəyişməsindən ibarətdir. Qamçını bunun əlindən alıb başqasının əlinə tapşırmaq xalqın həyatında təzəlik törədə bilməz. Hərgah özünü bizə hökmdar sayanlar bizim üçün yüksək bir mədəniyyət gətirə bilmirsə, o zaman bizim mədəniyyətimizə də toxunmamalıdırlar.

Mən çox təəccüb edirəm ki, bu gün yenə də biət almaq məsələsi meydana atılmışdır. Biz əlimizi kimlərə uzatmalıyıq?! Hansı əlləri öpüb biət etməliyik?! Biz heç vaxt dodaqlarımızı qardaşlarımızın qanına batırmaq istəmirik, çünki biət üçün öpəcəyimiz əllər Azərbaycan xalqının qanı ilə boyanmışdır. O əllər qandan qurumayır, çünki hər gün təzə qanlar tökürlər. Bu qanları dayandırmaq və bugünkü xəyanətləri unutdurmaq üçün birinci növbədə xəyanətin başında duranları cəzalandırmaq lazımdır. Xalqın ruhuna, əzəmətinə, mədəniyyət və yüksəlişinə uyğun bir üsul-idarə yaradılmadan xalqın etimadını qazanmaq olmaz.

[1] Əgər ruzigarın padşahı budursa, mən sənə yüz minlərcə xaraba verə bilərəm.  
[2] "İskəndərnamə"dən

Nizami uzun nitqdən sonra oturdu. Əmir, Fəxrəddin və Nizamiyə cavab vermək istədisə də, fürsət tapa bilmədi; çünki biət etməmək üçün xalqın çox hissəsi məscidi buraxıb Məlikşah meydanına çıxmışdı.

## ŞƏRƏFLİ AİLƏ

Məhsəti xanım xəstəlik yatağında idi. Neçə gündü ki, süfrə başına gələ bilmirdi.

Nahar vaxtı idi, Rəna süfrəni açıb Nizamini nahar yeməyinə çağırdı. Nizami yenə də səliqə ilə qələm və kağızını yığışdırıb yanındakı heybəyə qoydu və pilləkənlərdən qalxıb süfrə başına gəldi. Süfrə olduqca yoxsul idi. Orada süddən və arpa çörəyindən başqa heç bir şey yox idi. Nizami oturdu, nahar yeməyinə başlarkən Rəna ona sual verdi:

– Mən çoxdandır ki, bir şeyi səndən soruşmaq istəyirdim, amma cəsarət etmirdim, bilmirəm sən o suala cavab vermək istəyəcəksənmi?!

– Nə üçün cəsarət etmirdin?! Mənim səndən başqa özgə bir sirr yoldaşım vardırmı?! Danış, utanma, bilmədiyin şeylərin hamısını məndən soruş.

Rəna Nizaminin sözlərindən cəsarət alaraq sözə başladı:

– Mən hər yerdə eşidirəm ki, Nizami Gəncə şairlərinin hamısından qüvvətlidir və sənətkar şairdir. Lakin nədənsə sən onların hamısından yoxsul və fəqir bir həyat keçirməkdəsən. Əbül-Ülanın dövlətinə, cəlalına bax. Qapısındakı qulamların, cariyələrin və nökərlərin sayı-hesabı yoxdur. Onun arvadı Cahanbanu və qızı Mahtab xanım küçəyə çıxdıqları zaman xalq elə bilir ki, Əmirin qadını Safiyə xatundur gəlir.

Hələ Fələki şairi demirəm. Onun da dövlət və sərvətinin sayı yoxdur. Onların tövlələrində məmləkətin ən cins atları bağlanıbdır. Həqayiq təxəllüslü şairi o qədər göyə qaldırıblar ki, nəhayət, Şirvan xaqanı ona öz adını vermişdir. Hazırda xalq hər yerdə Xaqaninin hörmət və dövlətindən danışır. O şairlər hamısı sürülərə, ilxılara malik olduğu halda, sənin gümanın ancaq arıq bir inəyə gəlir. Onlar malikanələrə, bağlara, uca və təntənəli saraylara malikdirlər. Biz isə palçıq və suvaqlı bir damın sahibiyik. Mən ancaq bunların səbəbini bilmək istərdim. Lakin mən səndən çox xahiş edirəm ki, mənim bu sualıma



başqa məna vermə, elə düşünmə ki, mən bu yoxsul həyatımızdan şikayətlənirəm. Çünki mən bu evə gəlməmişdən əvvəl də bu evi və bu evin sahibini çox yaxşı tanıyırdım. Yuxarıda saydıqlarımın heç birisi mənə zalım deyil, mən atamın evində də belə bir həyat keçirirdim.

Nizami yeməyə başlamamışdı, Rənanın danışıqlarını diqqətlə dinləyirdi. Çünki Rəna onun evinə gəldiyi gündən bəri, onunla bu qədər ciddi danışmamışdı. O, əlini uzadıb Rənanın gözləri üzərinə düşən tükləri barmaqları ilə yuxarı daradı və dedi:

– Mənim ruhum və mənim şadlığım Rəna! Verdiyin sualların cavabı çox sadədir. Şahlar və hökmdarlar xələtlərin kimlərə verilməsi üçün çox düşünürlər. Sən hökmdarın hüzurunda durub başını əyməsən, daldan çiyninə xələt salmazlar. İndi mənə cavab ver görüm, Rəna, sən mənim başımın hər bir qatil, alçaq hökmdarın qabağında əyilməsinə razı ola bilərsənmi?

Rəna ağladı, gözlərinin yaşı qarşısında qoyulan qurumuş arpa çörəyini islatmağa başladı və tutqun bir səslə dedi:

– Sənin başına and içirəm, mən o başın əyilməsinə razı deyiləm. Mənim pərəstişlərimə səbəb olan yeganə bir şey varsa, o da sənin başının əyilməzliyidir.

Nizami onun gözlərinin yaşını silərək alnından öpdü və sözünü davam etdirdi:

– O xələtlərin rəngi bir çoxlarını aldadır. Lakin o xələtlərin kəklik ovlayan ovçuların gəzdirdiyi "dalva[1]"lardan heç bir fərqi yoxdur. Şahlar və xaqanlar, cah-calal və dəbdəbə düşkünü olanları haman xələtlərlə ovlayırlar. O kimi xələtlər şərəf və vicdanı dəfn etmək üçün bir kəfən vəzifəsini görür. Şairlərin əllərində olan malikanələr, bağ-bağçalar, xanəgahlar, qulamlar, kənizlər və cariyələr, pul müqabilində alınmamışdır. Əmirlər, şahlar, hətta xəlifələrin özü də yuxarıda adlarını saydığım şeyləri şərəf, izzət-nəfs, namus və vicdan müqabilində verirlər. Layiqsiz və xain hökmdarları tərif edən şairlər sarayların zinətli sütunları altında bəslənən toratanların vəzifəsini bitirirlər. Özlərinin yazdıqları mədhnamələrlə avam xalqın şüurunu aldadıb ovlayaraq xaqanların və xəlifələrin pəncərəsinə tapşırırlar. Onlar

[1] Dalva – əlvan və xırda-xırda kəsilmiş parçalardan düzəlmiş bir pərdədir. Ovçular kəklik ovlağında onu açıb arxasında oturur, kəkliklər əlvan pərdənin başına yığışan zaman ovlamağa başlayırlar.

yazan mədhnamələr də Azərbaycan kəndlisini qırıb məhv edən silahların cərgəsində işlənir, qarət və talanlarda, haqsızlıq və xəyanətlərdə onların qələmləri də iştirak edir. Mənim gözəl və səmimi Rənam, indi əsrimiz elə bir əsrdir ki, ancaq hökmdarların qarşısında qul kimi əyilənlər qul və cariyələr sahibi olurlar. Lakin ağıllı və şərəfli başlar xalqın xainləri və xalqın düşmənləri qarşısında əyilməz. O başlar yalnız xalqın əməl və arzuları və məmləkət xalqının iradəsi qarşısında əyilə bilər. Mən bu başı həmən günə saxlamışam. Həqayiq təxəllüsünü almaqla şadlanmamalıdır. Həqayiq təxəllüsü daşıyan Əfzələddin, xaqandan Xaqani təxəllüsünü almaqla şadlanmamalıdır. Artıq o, Həqayiq təxəllüsünü daşıdığı zamana qayıtmaq istəsə belə, bacara bilməyəcək. Çünki saraydan xalqın içərisinə ağ bir üzlə qayıtmaq çox çətindir. Sarayın bir qapısı da zindana və həbsxanaya açılır. Gözəl Rənam! Bax, Əbül-Üla, Xaqani bir-birini nə qədər rüsvayçı bir surətdə həcv edirlər. Cariyə və kəniz düşkünləri sarayda birincilik qazanmaq üçün bir-birinin boğazını üzməkdədir. Xaqaninin qayınatası Əbül-Üla öz gənc damadını küçə söyüşləri ilə söyür. Çünki birinci saraya girmiş, ikinci isə saraydan çıxarılmışdır. Gözəl Rəna! Gəl bu arpa çörəyilə bir kasa südə qənaət edib bu qədər iyrənc qiylü-qalın içərisinə girməyək. Sən mənim sənətimin xaqanlar və soltanlar xidmətində durub rəzil bir vəziyyət almasına razı olma.

Nizami bu son sözləri dediyi zaman Rəna hönkür-hönkür ağladı və:

– Mənə inan, İlyas! Mən heç vaxt sənin alçalmağına razı deyiləm, – dedikdə, Məhsəti xanım da öz otağından çıxıb nahar süfrəsi başına gəlirdi. O, Rənanın ağladığını gördüyü zaman təəccüblə Nizamiyə sual verdi:

– Bu nə deməkdir, İlyas?! Mən heç güman etməzdim ki, sən bu tezliklə Rənanı ağlada biləcək bir hərəkət edəcəksən.

Məhsəti xanım gəldiyi zaman Nizami və Rəna ayağa qalxmışdı. Məhsəti xanım Rənanın başını köksünə alaraq:

– Eybi yoxdur, ailə həyatında şübhələr və deyişmələr də ola bilər. Mən sizin ikinizə də qulaq asıb ixtilaflı bir məsələ varsa həll edərəm, – dedi. – Bir vaxt mən də çox ağlamışam. Bəzən səbəbsiz, bəzən də şübhələr nəticəsində ağladığım olmuşdur. Hətta bir gün yazdığım iki rübai o qədər müvəffəqiyyətli idi ki, mən sevindiyimdən ağladım. Gənc ərim Əmir Əhməd içəri girib məni ağlar görərkən, o da özünü saxlaya bilməyərək hönkür-hönkür ağladı. Lakin indi mən təəccüb



edirəm ki, Rəna kimi bir qadın ağladığı halda, İlyas kimi bir şair nə üçün ağlamır?!

Məhsəti xanım Rənanın və Nizaminin alnından öpərək:

– Oturun, bəzən kədərləri yumaq üçün göz yaşları da lazım olur, – dedi.

Rəna cavabında:

– Mən bir daha bu cür sualları verməməyə söz verirəm, – dedikdə, Nizami Rənanın ağlamasının səbəblərini əvvəldən axıra qədər Məhsəti xanıma danışdı və əlavə etdi:

– Mən özüm Rənanın bu kimi suallar verməsindən maraqlanıram. Çünki o, ancaq bu vasitə ilə mənim yoxsulluğumun səbəbini bilər.

Məhsəti xanım Nizamiyə nəsihət verərək dedi:

– Sən yoxsul deyilsən. Çünki, vicdanca yoxsul olmaqdansa, məişətcə yoxsul olmaq daha yaxşıdır.

Fəxrəddin qapını açıb otağa daxil oldu. Salam verdikdən sonra Məhsəti xanımın əlini öpüb oturdu. Rəna qalxıb onun üçün də yemək gətirdi. Lakin Fəxrəddin yeməyə etina etmədi. Rəna onun bu etinasızlığından narazı qalaraq:

– Nə üçün yemirsən? Etinasızlığına səbəb süfrəmizin yoxsulluğudurmu? – dedikdə Fəxrəddin də:

– Rəna xanım, öz vicdanıma and içirəm ki, etinasızlığım süfrənizin yoxsulluğundan deyil; çünki bu süfrənin başında iki böyük dünya diz çöküb oturmuşdur. Fəxrəddin kimdir ki, bu süfrəyə etinasız baxsın?! Sizin hamınızın şərəfinə and içirəm, dünən nahardan bəri boğazımdan bir qətrə su da getməmişdir.

Nizami ona sual verdi:

– Səfərdə olduğun üçünmü?

– Xeyr, səfərdə deyildim, səfərdə olanın barəsində düşünürdüm. Bəxt heç zaman mənim üzümə gülmədi. İqbalım məni aldatdıqca anladım və nəhayət, ayılarkən bir ümidsizliklə qarşı-qarşıya durdum.

Məhsəti xanım onun nə demək istədiyini dərhal anlayaraq sual verdi:

– Dilşaddanmı bir xəbər aldın?

Fəxrəddin qəmgin bir halda:

– Bəli, Dilşaddan xəbər aldım. Lakin o artıq yoxdur, ancaq onun adı dilimdə qalmışdır. Bilmirəm, onu unuda biləcəyəmmi?! Bu da mənim üçün bir kədər oldu.

Nizami təəccüblə onun üzünə baxıb soruşdu:

– Əcəba, sən onun buradan gec-tez aparılacağını bilmirdinmi?! Bunu sənə Hüsaməddin xəbər verməmişdimi? Dilşadın adından sənə məktub gəldiyi zaman bunun kölgəsində bir xəyanətin gizləndiyini sənə təkrar-təkrar söyləməmişdimmi?!

– Lakin hara aparıldığını bilmirəm.

– Bağdaddan başqa hara apara bilərlər? Xəlifəyə göndərilən məktub öz əlində deyildirmi?

– Şübhəsizdir ki, qız burada deyil, o burada olsaydı, onun qiymətli boyunbağısı korların və dilənçilərin əlinə düşməzdi.

– Hansı boyunbağı?

– Mənim Dilşada hədiyyə verdiyim boyunbağı.

Fəxrəddin bunu deyərək boyunbağını çıxarıb Nizaminin yanına qoydu və:

– Budur, adım da üstündə yazılmışdır. Bir neçə gecə bundan əvvəl Məsudiyyə karvansarasının qabağından keçən taxt-rəvanların birisindən boyunbağını bir dəsmala bağlı olaraq korların, dilənçilərin üstünə atmışlar. Korlar və dilənçilər boyunbağını bölüşmək üçün barışa bilməmişlər, nəhayət, satmaq üçün zərgər Qəvaməddinin yanına gətirdikdə, o, boyunbağını tanımışdır, çünki mən bu hədiyyəni onun özünə sifariş vermişdim.

Rəna və Məhsəti xanım bu xəbərdən kədərləndilər. Nizami isə ona təsəlli verdi:

– Əvvəlcə insan səhv buraxmamağa çalışmalıdır. Lakin səhvi buraxdıqdan sonra özünü itirməməlidir. Çünki çaşqınlıq ikinci bir səhvə səbəb ola bilər. Sən heç bir zaman yoldaş, arkadaş və qohum-qardaş məsləhətini eşitmirsən. Səni məğlub edən olarsa, ancaq bu kimi nöqsanların səbəbinə məğlub edəcəkdir. Dünyada heç bir vaxt təkbaşına iş görənlər qalib gələ bilməmişdir. Dünyada özünü hakim-mütləq sayan padşahlar belə təkbaşına iş görməmişdir. Onlar da vəzirlərin məsləhətini eşitmişdir. Sənə yüz kərə dedim ki, o qızın vasitəsilə qorxulu təşəbbüslərə başlama. Sənin tutduğun işlər ancaq bu cür nəticə verə bilərdi. Hərgah sən onu sevmirdin, hərgah sən onu yalan sevginlə aldadaraq Əmir İnanca qarşı apardığın mübarizədə alət etmək istəyirdinsə, kədərlənməyə heç bir ehtiyac yoxdur. Lakin sən onu sevə-sevə bu qorxulu məsələyə cəlb etdiyin üçün kədərlənməlisən. Çünki sən onun döyülməsinə, həbs edilməsinə, cürbəcür işgəncələr görməsinə, nəhayət, buradan sürətlə aparılmasına səbəb oldun! Bu təşəbbüsdən nə kimi faydalar əldə etdin? Mühakim İbn-Davudu döydürməkdən başqa nə qazandın? Sən bununla heç bir təqsiri olmayan bir qəlbi təhqir etdin. Əmirin qadını olanda nə olar?! O bizə nə etmişdi?! Bunların hamısı keçibdir. Bu məsələ üzərində buraxılan səhvi düzəltmək mümkün deyil, gələcək haqqında düşünmək lazımdır.



Fəxrəddin bu nəsihətlərə cavab olaraq:

– Doğrudur, İlyas, mənim səhvlərim çox böyükdür. Hazırda nə etməliyəm? Dilşadı qurtarmaq üçün nə kimi çarə düşünə bilərəm? Buradan çıxıb Bağdadamı gedim? Gedib nə edəcəyəm?! Orası Gəncə deyil ki, minlərcə tanışım olsun, – dedikdə, Nizami:

– Səbir etməlisən. Dünyanın peşəsi hadisələr doğmaqdır. Görürsən ki, vəziyyət tez-tez dəyişir. Xüsusən bizim vətənimiz heç bir zaman hadisəsiz yaşamayıb, yenə də yaşaya bilməyəcəkdir, çünki mövqeyimiz belədir. Heç bir tərəfə hərəkət etməyi məsləhət görmürəm. Mənə qulaq as! Özünü ələ al! Bu hadisə sənin mətanətini artırmalıdır. Hadisələrin süzgəcindən süzülüb çıxan adamlar dünyada qalib yaşaya bilər. Sən bu hadisələr nəticəsində özün üçün müəyyən yaşamaq yolunu təyin edə biləcəksən. Dilşadın buradan aparılmasına onu tamamilə itirmiş kimi məna vermə. O, burada olanda da sənin əlində deyildi, indi də sənin sərəncamında deyil, vəziyyət heç də dəyişməmişdir. Sənə verilən tək-tük görüş imkanları da müəyyən bir siyasətin nəticəsi idi. İndi siyasi vəziyyət tamamilə Əmirin nəfinə olaraq dəyişdi, artıq onun qızından və cariyələrindən istifadə etməyə ehtiyac yoxdur. Lakin bu həmişəlik deyil, biz onu yenə də diz çökdürəcəyik. Lakin sənə yenə də tapşırıram Əmir İnanca qarşı əlaqəni dəyişdirməməlisən. Bizim xırda təşəbbüslərimiz, onun böyük təşəbbüs etməsinə səbəb olar, onu ayıq sala bilər. Dilşadın qurtuluşu barəsində dərin düşünmək, faydalı tədbirlər görmək lazımdır. İndi isə Rəna xanımın qəlbini sındırma, buyur, bizimlə nahar elə.

Fəxrəddin süfrəyə əlini uzadırkən:

– Nə qədər şərəfli bir ailədir, – dedi.

## VAHİD AZƏRBAYCAN

Qızıl Arslan Şimali Azərbaycanın bəzi hissələrini gəzdikdən sonra məmləkətin vəziyyəti barəsində Atabəy Məhəmmədə uzun bir məruzə məktubu göndərmişdi. O, məktubu yazırdı:

"Üsyanların əsas səbəbi üsul-idarənin köhnəlməsi və qanunların qabalığıdır. Məmləkətin xalqı iki hissəyə ayrılmışdır. Acizlər, əzilənlər mühacirətdədirlər. Qolunda və qəlbində qüvvət hiss edənlər isə üsyan cəbhəsindədir. Səlcuqilər Azərbaycanda hökumət qurduqları yüz ilin müddətində islamın zühurundan bəri ərəblərin qurduqları üsul-idarədən istifadə etmişlər. Hazırkı vəziyyətdə peşəkarları şəhərə, kəndlini isə torpağa təhkim etmək imkan xaricindədir. Səlcuqilər dövründə və hazırkı hökumətin iş başına keçdiyi birinci illərdə yerli hakimlər xalqın etimadını tamamilə itirmişdir.

Yerli hakimlər torpaq sahiblərinə azad hərəkət ixtiyarını vermişdir. Onlar Osman xəlifə vaxtından həyata keçirilən əşr[1] qanunlarına kifayətlənməyərək, kəndlilərdən istədikləri qədər bəhər tələb edirlər. Buna görə də kəndliyə torpaq əkmək qazanc vermir. Onların bir hissəsi şəhərə qaçır, bir hissəsi də üsyana qoşulur.

Məmləkətdə müəyyən torpaq qanunu olmadığından hər bir mülkədarın özünə görə torpaq qanunu vardır.

Şəhər peşəkarlarından alınan vergilərin hədd-hesabı yoxdur. Çünki peşəkarlardan alınan vergilər hökumət xəzinəsi ilə əlaqədar olmayan vergilər cərgəsinə salınmışdır. Bunun üçün vergilərin miqdarını yerli hakimlər təyin edir. Bu qərarla da peşəkarlardan alınacaq verginin miqdarı yerli hakimin illik məsarifinin miqdarından asılıdır.

İsrafçı və təntənə düşkünü olan hakimlər peşəkarlardan alınacaq vergini ildə bir kərə deyil, bir neçə kərə tətbiq edirlər. Bəzən yerli hakimlərin mətbəx məsarifini ödəmək üçün bir şəhərin sənaye vergisi kifayət etmir.

Belə bir soyğunçuluğun nəticəsində şəhər sənayesi məhv olur, peşəkarlar işini dayandırmağa məcbur olurlar.

Mən Cənubi Azərbaycanın dağlıq tərəflərini gəzdiyim zaman əhalidən bir çox ərizələr aldım. Onlardan əhəmiyyətli olanlarını ayırıb Atabəy həzrətlərinə göndərdim. Çox acı və eyni zamanda hökumət quruluşu nöqteyi-nəzərindən qorxulu məsələlərə təsadüf etdim. Bu məsələlər: əhalini mərkəzi hökumətlə əlaqələndirəcək vasitələrin olmaması və hökumətin istinad edə biləcəyi vasitələrin yoxluğundan ibarətdir.

[1] Əşr – yəni onda bir. Kəndli on pud taxıldan bir pud vergi verməli idi.



Rəiyyət yerli hakimdən başqa bir hökumət tanımır, çünki idarə etdikləri ölkənin bütün ixtiyarı hakimlərin əlindədir. Asdırmaq, kəsdirmək, köçürmək və sair ixtiyarların hamısı onlara tapşırılmışdır. Vergi işlərini nəzərdən keçirdiyim zaman belə bir qənaətə gəldim ki, vergi işləri səlcuqilər dövründə bundan daha müntəzəm, daha əlverişli imiş. Çünki o zaman rəiyyət üç xəzinəyə vergi vermək məcburiyyətində deyildi. Səncər şahın öldüyü gündən bəri Azərbaycan yüz kərə əldən-ələ keçmişdir. Rəiyyət tamamilə vergi vermək qüvvətini itirmişdir. Ümid edirəm ki, Atabəy həzrətləri mənim bu səmimi olan məktubumu nəzərə alıb Azərbaycanın bir neçə il vergilərdən azad olunmasına əmr və fərman sadir edəcəkdir.

Vergilər bağışlandıqdan sonra mərkəzi hökumətdə bu müddətdə vergi işlərini nizama salmaq və onu mərkəzləşdirmək üçün hazırlıq aparmalıdır. Yeri gəlmişkən Atabəy həzrətlərinin tapşırığı üzrə əldə edilən məlumatı da göndərirəm.

Biz rəiyyətpərvərlik nöqteyi-nəzərindən bu xalqı təşkil edə bilərsək, bu qüvvəti hər hansı böyük bir düşmənin qarşısına çıxara bilərik. Azərbaycanın mövqeyi və əhalisinin müharib olması Atabəy hökumətinin möhkəm edilməsi üçün əsas bir vasitə ola bilər. Buna görə də mən müstəqil Azərbaycan hökuməti təşkil etmək təklifini meydana sürməkdə özümü haqlı hesab edirəm. Məmləkəti öz xalqının əlinə vermək lazımdır. Burada hökumət idarə edə biləcək kişilər az deyildir. Lakin hansı ölkənin hakimini soruşursan "Əbü filan, əbü filan" deyə cavab verirlər. Yerli xalq onlara bir hakim kimi yox, bir soyğunçu kimi baxır.

Azərbaycan xalqının mədəni səviyyəsi ərəblər və farslara nisbətlə olduqca irəlidədir. Onları ərəb və fars hakimlərinin itaətinə məcbur etmək, ərəblər dövründən qalan qanunların ibtidai çərçivəsində yerləşdirmək çox çətindir. Azərbaycan xalqının tarixi əcnəbi hakimiyyətinə qarşı üsyanlar əsasında qurulmuşdur. Bunları nəzərə alaraq biz Azərbaycan xalqına onların öz hökuməti kimi, hətta doğma hökuməti kimi görünən bir hökumət təşkil etməli və Atabəy ölkələri üçün təzə

qanunlar düzəldiyi vaxt Azərbaycanın xüsusiyyətini nəzərə almalıyıq. Fars və İraqda həyata keçiriləcək qanunları Azərbaycanda həyata keçirmək mümkün deyildir. Çünki bir xalqın içərisində qanunlar tətbiq edilən zaman ölkənin mövqeyini, tarixini, əhalisinin əhval-ruhiyyəsini nəzərə almaq lazımdır.

Əsas nöqsanlardan birisi də səlcuqilər dövründən qalan hakimlərin hələ də iş başında qalmalarıdır. Çünki köhnə adamların hökumət başında qalması təzə işlərin həyata keçirilməsi üçün çətinlik törədə bilər. Vergi qanunları dəyişildiyi zaman varidatın mərkəzləşdirilməsini və bununla yerlərə təyin olunan hakimlərin dövlət xəzinəsindən maaş almasını nəzərdə tutmaq lazımdır. Belə olursa yerli hakimlər dövlət xəzinəsinə vergi almaq bəhanəsilə rəiyyəti soya bilməzlər. Ancaq beləliklə məmləkətdə vahid vergi üsulunu həyata keçirmək olar.

Mən neçə aydan bəridir ki, yerli hakimlərin müxtəlif adlarla kəndlilərdən aldıqları müxtəlif vergilərin miqdarı ilə tanış oluram. Bu miqdar hakimlərin hökumət xəzinəsinə göndərdiyi verginin miqdarından doqquz kərə artıqdır. Beləliklə, hakimlər xalqdan aldıqları verginin bir faizini hökumətə, doqquz faizini isə öz ciblərinə qoyublar.

Azərbaycan, səlcuqilər dövründə bütün digər məmləkətlərə nisbətən ən böyük vergi vermiş bir ölkədir. Halbuki hökumət xəzinəsinə yetişən bu vergi rəiyyətdən alınan vergilərin onda biridir[1]. Cərimə və rüşvətlər bura daxil deyildir. Çünki bunlar hakimlərin öz xüsusi işləri olduğu üçün bizim hesaba almağımız mümkün deyil. Rüşvətin və qarətin bu qədər genişlənməsinə səbəb ümumi cəza qanunları və hökumət məhkəmələrinin olmamasıdır. Yerli hakim cəriməni müəyyən bir ölçü ilə almaq üçün bir yerdən göstəriş almır, cərimə və cəza miqdarını hakimin özü təyin edir. Şəriət məhkəmələri hakimlərin əlində alət olub qalır. Bəzən bunlar hökumətdən aldıqları göstəriş üzərinə işləyirlər.

Hakimlərin gəlir mənbələrindən birisi də ərəblər vaxtından qalan diyə, yəni qan bahası məsələsidir. Adam öldürənlərə cəza verilmir, çünki qatillər qanın bahasını verib günahlarını təmizləyirlər. Bunu da

[1] Həmdulla ibn Mustofi Qəzvini hicrətin 740-cı ilində yazır ki, səlcuqilər dövründə Azərbaycan ölkəsinin gəliri bizim zamanın on min tüməni idi. Bunun üzərinə, Qızıl Arslan dediyi kimi, doqquz kərə də əlavə edilsə, yüz min tümən qızıla çatır.



hakimlər və yerli ruhanilər təqdir edir, çünki qatildən alınıb ölü sahibinə veriləcək qan bahasından hakimin və şəriət mollasının da müəyyən gəliri vardır. İnsan qırğınının qabağını almaq üçün adam öldürənləri cəzalandırmaq və qan bahası verilməsi işini qanundan kənar hesab etmək lazımdır. Bəzən ölənin vərəsələrinə verilmək üçün qatildən alınan qan bahası yerli hakimin və onunla əlbir işləyən ruhanilərin cibinə tökülür.

Əhalinin narazılığına səbəb olan qanunsuzluğun birisi də budur ki, ailələrin toxunulmazlığı təmin edilməmişdir.

Hökumət işlərinin öz məhvəri üzərində gedə bilməməsinin bir səbəbi də ruhanilərin hökumət işlərinə müdaxilə etməsidir. Hələ ərəblər zamanından indiyə qədər islam ölkələrində hökumətlə ruhaninin vəzifəsi ayırd olunmamışdır. Bu hadisə islam ölkələrində dəhşətli bir xəstəlik kimi getdikcə dərinləşir. Nə qədər ki, ruhanilər tamamilə hökumət işlərini öz əllərinə almamışdır, bu xəstəliyin qarşısını almaq lazımdır. Əlbəttə, mən ruhanilərin tamamilə hökumətdən ayrılmasını təklif etmirəm. Çünki Quranın əsas qanun götürüldüyü bir məmləkətdə ruhaniləri hökumətin idarə işlərindən uzaqlaşdırmaq mümkün olmaz. Hökumət məhkəmələrində ruhanilərdən nümayəndə saxlamaq əvəzində ruhanilərdən təşkil edilən məhkəmələrdə hökumətdən nümayəndə çağırılır. Atabəy həzrətlərinin icazəsi olsaydı, ruhanilərin vəzifəsini təyin etməyə çalışardım.

Qarşımızda duran çətin məsələlərdən birisi də təriqətlərlə aparacağımız mübarizə məsələsidir. Azərbaycanı təzədən qurmaq, xalqın şüurunu yenidən mədəni-maarif sahəsinə çevirmək üçün birinci növbədə təriqətləri kökündən ləğv etməliyik. Bunu da qeyd etməliyəm ki, bütün təriqətçiliyin və müridçiliyin yuvası Şirvan şahlığıdır. Azərbaycana təriqət mübahisələri, məzhəb vuruşmaları daima Şirvan vasitəsilə gəlməkdədir.

Ərəb və farslar yerli xalqın mədəni və siyasi şüurlarını çürütmək üçün onlara təriqət və məzhəb xəstəliklərini aşılamışlar. Təriqətlər, dinlər, məzhəblər, cürbəcür əqidələr Azərbaycanda mədəni qanunların əleyhinə olaraq ailə pozğunluğu törədir. Qadınların həyatında tətbiq edilən siğə və mütə qanunları gələcək sağlam ailə təşkili üçün mühüm bir qorxu təşkil edir.

Gürcüstan səfəri barəsində əlahəzrət Toğrulun fikrinə şərik ola bilmirəm. Gürcüstanda vahid bir xalq yaşamaqdadır. Bu xalqla səmimi

dostluq əlaqəsi yaratmaq məmləkətin işğalından daha mənfəətli olar. Vəhdət təşkil edən bir xalqı əsirlikdə saxlamaq və yabançı bir nüfuza bağlamaq çox çətindir. Biz Gürcüstanı atabəylər məmləkətinə ilhaq etdikdən sonra Azərbaycanın qonşusunda tarixi bir ixtilafa səbəb ola bilərik. Bundan da əlavə, Gürcüstan səfərinin müvəffəqiyyətlə qurtarması üçün lazım olan ünsürlər mövcud deyildir. Gürcüstan xalqını biri digərinin əleyhinə qaldırmaq və yabançı hökumətin mövqeyini möhkəmləndirmək üçün də heç bir vasitə yoxdur. Gürcülər vahid bir millət kimi bizim dostumuz da ola bilər, bir düşmən kimi qarşımıza çıxmağı da bacararlar. Gürcülərin də azərbaycanlılar kimi milli azadlıq duyğuları uzun illərin hadisələrinə təslim olmamışdır. Hər halda biz üzümüzü Orta Asiyaya tərəf çevirməliyik, orada bizim qələbəmizi təmin edə biləcək ünsürlər çoxdur. Xarəzm şahı kimi rəqibimizi azad buraxaraq qoşunlarımızı rəqib olmayan ölkələrə saldırmaq hökmdarlıq nöqteyi-nəzərindən qəbul ediləcək tədbir deyildir. Azərbaycan qırx il heç bir rəqib hiss etmədən səlcuqilərin əlində yaşadı isə də onlar bir neçə came, meydan və küçəyə öz adlarını verməkdən başqa bir iş görmədilər. Biz isə belə olmamalıyıq. Hərgah Qara dəniz gürcülərin əlindədirsə, Xəzər dənizi də bizim əlimizdədir. Biz Xəzər dənizini Gürcüstan tacirlərinə açıq elan etsək, onlar da Qara dənizi bizim ticarətin üzünə açıq edərlər.

Hələlik bu qədər. Böyük və möhtərəm qardaşım əlahəzrət Atabəyin səhhətini və qalibiyyətini istəyirəm".

## ATABƏY MƏHƏMMƏD

Atabəy Məhəmməd Qızıl Arslanın məktubunu Kirmandan Həmədana qayıtdığının ikinci günündə aldı. O, məmləkətin vəziyyətini çox da yaxşı hiss etmirdi. Bağdaddan gələn xəbərlər xəlifənin təzə bir qüvvətə istinad etməyə hazırlandığını bildirirdi. Əyyubilərin Misirdə böyük bir səltənət qurmuş fatimilərə qalib gəlməsi xəlifədə təzə bir ruh oyandırmışdı. O, xilafəti türklərin təsirindən qurtarıb əyyubilərin nüfuzuna tapşırmaq istəyirdi.

Xəlifənin Atabəy ölkələri içərisində dolaşan təbliğatçıları əyyubilərin lehinə olaraq geniş təbliğat aparırdı. Musildə, Xarəzm şahlarının sərhəd şəhərlərində atabəylərə qarşı sui-qəsd hazırlanırdı.



Atabəy Məhəmməd belə bir zamanda Qızıl Arslanın məktubunu aldı, məktubda qoyulan məsələlərdən Atabəyin tükləri qabardı və dərhal qısa bir məktub yazıb təcili qasidlə Təbrizə göndərdi:

Əziz və möhtərəm hökmdar!

Məktubunu aldım. Göstərdiyin məsələlər barəsində yaxından danışmaq lazımdır. Məktubumu alan kimi bir neçə günlüyə Həmədana gəlməlisən.

*Atabəy Məhəmməd.*

Qızıl Arslan məktubu alan kimi Həmədana hərəkət etdi. O, Atabəy Məhəmmədin məktubla razılaşmayacağını bilirdi, lakin öz əqidəsində möhkəm durmağı və Azərbaycanda lazımi islahatın tətbiq edilməsi məsələsini bir daha şifahi olaraq Atabəy Məhəmməddən tələb etməyi qərara almışdı.

Atabəy Məhəmməd Qızıl Arslanın özünün təzə tikdirdiyi "Atabəy Məhəmməd Rübati" adlı malikanəsində qəbul etdi. Qızıl Arslanın şərəfinə verilən təntənəli ziyafət bitdikdən sonra Atabəy Məhəmməd Qızıl Arslanı öz xüsusi otağına çağırıb:

– Otur, qardaşım! – dedi və gülərək sözünə davam etdi: – Məktubun o qədər qorxulu məktubdur ki, onu həyata tətbiq deyil, ələ alıb oxumaq belə qorxuludur. Hər nə olursa olsun, məktubu əvvəldən axıra qədər oxudum. Yazdıqlarını həyata keçirmək mümkün olsaydı, qardaşın da buna razı olardı. Lakin hazırkı vəziyyət və hazırkı şərait daxilində elə çətin arzuları meydana atmaq, dünyada oturub cənnət üçün düşünmək deməkdir. Əziz qardaşım, məmləkətimizin, hüdudlarında baş verən hadisələr bizim daxili islahat haqqında düşünməyimizə imkan vermir. Mən bilirəm ki, sən məmləkətin düşdüyü bu qədər ağır vəziyyətə soyuqqanlılıqla məktubunda islahat deyə göstərdiyin ən xırda bir məsələni həyata keçirmək istəsən, vəziyyət daha da ağırlaşacaqdır. Sən bilirsən ki, xəlifə öz siyasi və ruhani nüfuzunu itirmişdir. Daha açığı, xəlifəlik öz dövrünü yaşamışdır. Vaxtilə onun məmləkətlərə təyin etdiyi ən adi hakimlər belə özü üçün taxt-tac hazır etdirmişdir. Xəlifə hazırda ancaq bunları bir-birinin əleyhinə qaldırmaqla başını dolandırır. Lakin məmləkətə sahiblənmək üzərində bir-birini boğmaqda olan hökmdarlar Bağdad çuxurlarına düşüb qoxumaqla xəlifə adlanan bu diri meyiti basdırmağa cürət etmir, yaxud bunu istəmir, çünki hər kəs bir-birindən qəsb edəcəyi məmləkətin qəbaləsini

xəlifənin möhürü ilə rəsmiyyətə salmağa çalışır. Xəlifələrin özləri isə belə alış-verişləri göydə axtarırlar. Onlar şəhvətpərəst, sərxoş adamlardır. Hər cür sazişə gedə bilərlər.

Əldə etdiyim məlumata görə xəlifə neçə müddətdən bəri Səlaheddin Əyyubi ilə xəlvəti müzakirə aparır. Xəlifə sərxoş da olsa Səlaheddinin böyük bir nüfuza malik olduğunu bilməmiş deyildir. O bu gün İraqda, Musil və başqa yerlərdə işə başlarsa, bütün kürdləri bizim əleyhimizə qaldıra bilər. Belə bir vəziyyətdə xəlifə hüququnun azalması, təriqət məsələlərinin aradan qaldırılması məsələsini qoymaq məmləkəti bikərəlik hərc-mərcə düşürmək kimidir.

Məmləkətdə təzə vergi üsulunu tətbiq etdikdə yüz minlərcə müftəxora maaş vermək, onlar üçün maliyyə idarəsi düzəltmək lazımdır. Hazırkı üsul dairəsində hər hakimdən müəyyən vergi almaqla da hökuməti idarə edə bilərik. Elə də torpaq qanunlarıdır. Torpaq qanunları dəyişdiyi zaman bütün mülkədarlar bizim əleyhimizə üsyan qaldıra bilər.

Məhkəmələrdə ruhanilərin nüfuzunu azaltmaq fikrini bir kərəlik burax. Bu yol elə qorxulu bir yoldur ki, Məmun kimi bacarıqlı bir xəlifə bu yolun yarısından qayıdıb qaçdı.

Sən məktubunda göstərdiyin məsələlərin hansı birisini həyata keçirsən rəqiblərimiz dərhal ondan istifadə edəcəkdir. Sən Şərqdə təkfir olunmaq çirkabının nə qədər zərərli olduğunu bilmirsən. Bir kərə ruhanilər və xəlifə bizi dindən kənar hesab edərsə heç bir qüvvət bizim mövqeyimizi saxlaya bilməz.

Azərbaycan xalqının bir neçə illik vergisini bağışlamaq məsələsinə etirazım yoxdur, əlverişli bir zamanda bu barədə təşəbbüs edərik.

Köhnə hakimlərin məsələsi tədricilik tələb edən məsələlərdəndir. Onların hər birisinin minlərcə nüfuz sahibi tərəfdarları vardır.

Gürcüstan məsələsi elə də qorxulu bir məsələ deyildir. O məsələ həll olunduğu zaman Şirvan məsələsi də həll olunar. Çünki Gürcüstan bizim əlimizdə olduqdan sonra Şirvan şahlarının istinad edə biləcəyi bir yer qalmır. Orta Asiyadan bizə qorxu yoxdur. Çünki Orta Asiya hökmdarlarının içərisində olan boğuşmalar bizim üçün böyük qələbələrin müjdəsini verir.

Sənin məktubunu oxuduqdan sonra Azərbaycanı lazımi qədər səyahət etmək və öyrənmək qərarına gəlmişəm. Bəlkə də səyahətimdən sonra, məktubundakı məsələlərdən bəzilərini bir daha müzakirəyə qoyarıq.



Lakin sənə bir daha tapşırıram, xəlifə hər nə olursa olsun onun rizasını əldə etmək lazımdır. Ona göndərilən cariyələri saxlamaq lazım deyildi, getmələrinə icazə verməklə çox yaxşı iş gördün.

Şirvan şahlığı ilə müdara etmək lazımdır. Özün bilirsən ki, xəlifə şahlığın ləğv edilməsi təklifini rədd etdi.

Farslar və ərəblərin iş başından götürülməsini tədrici bir surətdə həyata keçirməsək, kütləvi qovuluşlar Bağdadda yaxşı təsir bağışlamaz.

İranlılar və ərəblər bir zaman hakim olduqları üçün dilləri də hakim dil olub qalmışdır. İndisə məmləkətdə hakim sənsən, sənin dilin də hakim dil olmalıdır. Sənə tapşırıram, xələtlərin Azərbaycan dilində danışanların çiyninə salınmalıdır.

Sən məktubunda mühüm bir məsələni qeyd etməyi yadından çıxarmırsan. O məsələ, ərəb və farsların əlindəki ucsuz-bucaqsız torpaqlar və malikanələr məsələsidir. Onlar ölkələri işğal etdikləri zaman sulu, bərəkətli, qiymətli yerləri öz aralarında bölüşmüşlər. Yerlilərdən bir çox kəndlər və malikanələr, rübatlar, pənəyirlər və bazarçaları zorlayıb əllərinə keçirmişlər. Bu yerləri tədrici surətdə xalisə[1] torpağı şəklinə salmalısan. Bunu ərəb və farsların əlində olan malikanələrin qonşusunda olan yerli mülkədarların vasitəsilə həyata keçirə bilərsən. Qonşu kəndlilər istərsə onlar malikanələrindən məhsul ala bilmədiyi üçün satmağa məcburiyyət hiss edər və az bir qiymətə olsa da, satıb gedə bilərlər.

Məktubunda yazılan başqa məsələlər haqqında tək-tək danışmaq istəmirəm. Buna görə də qəti olaraq tapşırıram:

Hər hansı bir qanun Qurandan alınmışsa, ona toxumamalısan. "Qan bahası" və sairlər də bura daxildir.

## FİTR BAYRAMI

Gəncə hakiminin ürəyi iki hiss ilə çırpınırdı, birisi şadlığından, ikincisi isə qorxusundan idi. Bir tərəfdən Bağdad xəlifəsi göndərilən qızların yetişməsini Əmirə yazıb razılıq vermişdi. Xəlifə xüsusi olaraq Dilşadın gözəlliyindən şadlandığını qeyd etmişdi.

[1] Xalisə – mülkədarlara məxsus olmayaraq hökumətə məxsus olan torpaqlardır.

Lakin Əmirin aldığı ikinci xəbər onun qorxusuna səbəb olmuşdu. Atabəy Məhəmmədin Azərbaycan səyahətinə çıxması xəbəri gələndən bəri Əmir öz müqəddəratının nə cür həll ediləcəyi barəsində düşünürdü. O bilirdi ki, Atabəy ayağını Şimali Azərbaycanın sərhədinə qoyan kimi ona minlərcə ərizə veriləcəkdi. Çünki o, xalqın hazırlıq gördüyünü çox yaxşı bilirdi.

Əmir özü də hazırlığa başlamışdı. O qızıl kisələrinin ağzını açıb özünə tərəfdar tapmaq uğrunda xərcləyirdi. Atabəy Məhəmmədə veriləcək şikayət məktublarının əvəzində minlərcə razılıq məktubları da hazırlanırdı. Məddahlara[1] istədikləri qədər pul və xələt verilirdi. Adları yazıçılar və şairlər cərgəsində olmayanlar belə Əmirin yanına gətirilib mədhnamə yazmaları tapşırılır və nə zaman və harda oxuyacaqları təyin edilirdi.

Xətiblərə, qazilərə müəyyən vəzifə tapşırılırdı. Əmirə qarşı düşmən hərəkətdə bulunanlar bir-bir siyahıya alınırdı.

Əmirin qoca vəziri gecə-gündüz çalışıb iftira, böhtan, fitnə yaratmaq üçün böyük bir təşkilat düzəltmişdi.

Atabəyi istiqbal etmək üçün düzələn dəstə tamamilə Əmirin tərəfindən dəsturüləməl almış müəyyən adamlardan ibarət idi. Xanəgah kəndindən Əmirin sarayına qədər olan yolun hər iki tərəfi qoşunlar tərəfindən mühasirəyə alınacaq və mümkün olduğu qədər heç bir kəsin Atabəyə yaxın gəlməsinə imkan verilməyəcək idi.

Şəhərin dilənçiləri həbsə alınıb uzaq kəndlərə sürgün edilmişdi. Şəhərin xarabaları təmizlənir və xarabalıqları Atabəyə göstərməmək üçün onu abad küçələrdən dolandırıb saraya gətirmək nəzərdə tutulurdu.

Eyni zamanda, Fəxrəddin də Atabəyin Azərbaycan səyahətinə çıxmasından böyük ümidlər gözləyirdi. Onun fikrincə, Atabəy Şimali Azərbaycanda, xüsusən Aran məmləkətində olan xarabalıqları gördüyü zaman islahat işlərinə başlayacaq və müqəssirləri cəzalandıracaq idi. Bu fikirlə də Fəxrəddin xalq arasında geniş təbliğat işinə başlamışdı. O, qızları cariyəliyə alınanlar ilə evi və əmlakı Əmir tərəfindən qarət edilənlərdən ibarət böyük bir istiqbal dəstəsi təşkilinə başlamışdı.

Fəxrəddin zərərdidə kəndliləri və Əmirin adamları tərəfindən malları alınan tacirlərin hamısını Gəncəyə çağırmışdı.

[1] Tərifnamə yazanlar.



Fəxrəddin bu təşəbbüsləri haqqında məlumat verdiyi zaman Nizami deyirdi:

– Mən bu təşəbbüslərin heç birisinin əleyhinə deyiləm. Lakin bizim ölkəmizin düşdüyü bu vəziyyəti bir parça kağız üzərində verilən o ərizələr heç bir zaman düzəldə bilməyəcək.

Ərizələrlə xalqı düşdüyü ağır vəziyyətdən xilas etmək tarix boyu heç bir müsbət nəticə verməmişdir və indi də verməyəcəkdir. Hökmdarları diz çökdürəcək yeganə bir qüvvə olmuşsa və varsa, o yalnız xalqın birliyidir.

Bu gündən etibarən bütün xalqın birliyini yaratmağa çalış. Xalqı öz şəxsi malını istəməyə yox, məmləkətin hüququnu tələb etməyə öyrət. Səadət və azadlıq ancaq bununla qazanılır. Lakin əvvəldə dediyim kimi yenə də təkrar edirəm: xırda çıxışların tərəfdarı deyiləm. Gələcək üsyanımız hökuməti qorxutmaq məqsədilə yox, məhv etmək məqsədilə düzəldilməlidir.

Xırda çıxışlarda bulunmaq isə, düşməni vaxtından qabaq duyuq sala bilər. Gözləyək, Atabəy Məhəmməd Gəncəyə gəlsin, şübhəsiz ki, o burada bir neçə gün deyil, həftələrlə qalacaqdır. Onun Əmirin evində mənzil edəcəyi də şübhəsizdir. Çünki indidən orada hazırlıq aparılır. Məlumdur ki, Atabəyin bu səyahəti və xüsusilə Gəncəni ziyarət etmək istədiyi Əmirə xəbər verilmişdir. Atabəy Məhəmmədin bir qadını vardır. Amma Atabəy hərəmi üçün bir-iki qadın kifayət deyil, Əmirin qızı isə həm gözəldir, həm də xəlifənin nəvəsidir. İndi məni anladınmı?

Fəxrəddin gülərək:

– Bəli, anladım, – dedi.

Nizami sözünü davam etdirdi:

– İndi ki, mənim fikrimi anladın, bir nəsihətimi də yadından çıxarma. Hazırda sən Əmirin əleyhinə açıqdan-açığa təbliğat aparırsan. Əmir bu təbliğata başqa bir rəng verməklə səni həbsə ala bilər. "Atabəy həzrətlərinə sui-qəsd hazırlayırsan" – deyə səni təqsirləndirər. Bu barədə bir az ayıq olmağın yaxşıdır.

Fəxrəddin Nizaminin bu fikri ilə də şərik oldu, ehtiyatla dolanacağına və Əmirin adamlarına görünməyəcəyinə söz verdi.

* * *

Ramazan ayının 29-cu günü idi. İftar açıldıqdan sonra Əmir şəhərdə və müəyyən adamlar ətrafında çalışan xəfiyyələri qəbul etdi. Gətirilən xəbərlərin əsasını Fəxrəddinin Əmirə qarşı hazırladığı düşmənanə hərəkət təşkil edirdi. Əmir çox rahatsız idi. Mərcanı göndərib Toxtamışı yanına çağırdı. Xəfiyyələr gətirdikləri xəbərləri Toxtamış üçün də təfsilən danışdılar. O, bir az fikrə getdi. Sonra dedi:

– Həbs etmək olmaz. Çünki o tək deyildir. Eyni zamanda onu azad da buraxmaq olmaz, onlar Atabəyin qılığına girə bilərlər. Bu gün ramazan ayının 29-cu günüdür. O, bizim göndərdiyimiz məktubu almamış deyil. Heç şübhə yoxdur ki, o, Dilşadın buradan aparıldığını da bilmir. Hərgah onu saraya gətirmək mümkün olsaydı, burada üstünə böhtan ataraq heç kəsin xəbəri olmadan onu sarayda həbsə alardıq.

Bu tədbir Əmirin xoşuna gəldi və o əlavə etdi:

– O, Dilşadın aparıldığını bilsəydi, indiyə qədər bir təşəbbüs edərdi. Mənə elə gəlir ki, o, ramazan ayının çıxmasına müntəzirdir. Çünki izdivacın ancaq ramazan ayından sonra baş tutacağını xəbər vermişdik. Buna görə də, izdivac məsələsini müzakirə etmək üçün onu saraya dəvət etməliyik.

Toxtamış başına hərəkət verərək:

– Bilirəm, o bizə inanıb saraya gələcəkdirmi? – dedikdə, Əmir:

– Bəlkə Səba xanım bu barədə dəyərli bir fikir söyləyə bilər?! – deyə soruşdu.

Mərcanı göndərib Səbanı çağırdılar. Səba xanım daima gecənin bu vaxtı "şərəfə" nail olmaq üçün Əmirin hüzuruna çağırılırdı. Mərcanın gəlişindən sevindi və:

– Get, gəlirəm, – dedi.

Mərcan gedəndən sonra, Səba xanım sürətlə qalxıb çimdi. Ağ dəsmalı ətirlə isladıb bədənini başdan ayağa yudu. Almaz və zümrüddən düzəlmiş məmədanlarını taxdı, nazik ipəkdən tikilmiş yataq köynəyinin üstündən məclis paltarlarını geydi, bütün qiymətli daşlarını üzərinə töküb güzgünün qarşısında dayandı. Güzgüdə göz bəbəklərinin hərəkətini bir neçə kərə imtahandan keçirdi, baxışlarını yoxladı, qaşlarını o tərəf bu tərəfə dartaraq müəyyən bir vəziyyət aldı. Sonra da Əmirin yanında danışacağı nazlı ifadələri əzbərləməyə başladı. Bu halda dəhlizdə gəzməkdə olan xacə Müfid Səba xanımın otağından səs gəldi-



yini eşitdi və otaqda kişi tayfası olduğunu zənn edərək dərhal qapını açıb içəri soxuldu, Səba xanımın güzgünün qarşısında durub danışdığını və əzilib-büzüldüyünü görüncə gülərək dedi:

– Siz kişilərin şeytanlarısınız. Siz onları aldadırsınız, onlar da bunu anlaya-anlaya sizə aldanırlar.

Səba xanım da utanaraq güldü:

– Buna görə də mən aldatmağı, həm də yaxşı aldatmağı öyrənirəm, – dedi və xacə Müfidin qabağına düşüb uzun dəhlizdən nazlana-nazlana uzaqlaşdı. Qapını açıb Əmirin otağına girdi. Düşündüklərinin əksini görüncə salam verib qapının yanında dayandı və cariyəlikdən tələb ediləcək bir tövr alaraq donub durdu. Gələrkən o, Əmirin otaqda tək olduğunu və qapını açan kimi onun qolları arasına atılacağını düşünürdü.

İndi o, sakit dayanmışdı. Əmir başını qaldırıb Səba xanıma dedi:

– Qoca vəzir icazə verir, gəl orada otur, vəzirin sənə bəzi tapşırıqları vardır.

Səba xanım oturdu, otaqda olanların hamısına getmək icazəsi verildi. Otaqda Əmir, qoca vəzir, bir də Səba xanım qalmışdı. Toxtamış Səba xanıma müraciət edib, yavaşdan söylədi:

– Sən elə bilmə ki, qadınlıq gözəl olmaqla tamamlanır. Gözəlliyi canlandıran hərəkətdir. Bu hərəkət olmazsa, rəssamlar sizdən də gözəl qadınlar yarada bilərlər. Qadını ağıllı kişilərə sevdirən əsas cəhət onun gözəlliyi deyil, özünü sevdirməyi bacarmasıdır. Sən bunu bacarırsan, hərgah bacarmasaydın, Əmir həzrətləri tərəfindən "şərəfə" nail ola bilməzdin. Mənim dediyim bu həqiqəti Əmirdən də soruşsan deyəcəkdir ki:

"Səba xanım nə qədər gözəldirsə, bir o qədər də özünü sevdirməyi bacarır və Əmirin şərəfini qiymətləndirdiyi üçün böyük sirlərin üstünü aça bilmişdir".

Hazırda Əmir öz gözəl cariyəsinə təzə və müqəddəs bir vəzifə tapşırmaq istəyir, o vəzifə, Fəxrəddinə aiddir.

Səba xanım Fəxrəddinin adını eşidərkən keçmişləri bir anda gəlib gözünün önündən keçdi. O gah özünü Fəxrəddinin qolları arasında görür, gah da dodaqlarını Fəxrəddinin dodaqlarına yapışdırıb: "Mən sənin qolların arasında olduğum üçün dünyanın ən xoşbəxt qadınıyam" – deyirdi.

Səba xanım düşünür, vüsalından gülür, ayrılığından göz yaşları axıdır, nəhayət, Fəxrəddinin əllərini öz saçlarında hiss edirkən şad bir nəfəs alırdı. Lakin birdən-birə Fəxrəddinin son dediyi:

"Get Səba, bir də mənə yaxın gəlmə, mən gündə birini sevən qızları sevə bilmərəm!" cümlələrini xatırladığı zaman diksinir və qəlbində gizlənən intiqam duyğuları coşurdu. Səba xanım həmin fikrin təsiri ilə başını qaldırıb:

– Hər cür vəzifə tapşırmış olsanız, yerinə yetirməyə hazıram – dedi.

Toxtamış bu sözlərdən sonra məqsədini açıb söylədi:

– Fəxrəddin bizə sarayda lazımdır. Onu bura gətirməyi bacararsanmı?

Səba xanım Toxtamışa belə bir sual verdi:

– Fəxrəddin sizə gündüz lazımdır, yainki gecə?

– Xeyr, onun saraya gəlməsini heç bir kəs bilməməlidir. Əlbəttə, belə olan təqdirdə, gecə gətirilməsi lazımdır.

Səba xanım bir ah çəkərək:

– O, Dilşadın aparıldığını bilməsəydi, bu vəzifəni yerinə yetirmək o qədər də çətin olmazdı, – dedi.

Əmir də, Toxtamış da and içərək:

– Bu məsələ gizlində saxlanmışdır, heç bir kəsin xəbəri yoxdur, – dedikdə, Səba xanım gülümsəyərək dedi:

– Doğrudur, lakin Dilşadın boyunbağısının dilənçilər əlinə düşməsi, nəticədə onun zərgərlər vasitəsilə Fəxrəddinə yetişməsi, Dilşadın buradan aparıldığı üçün böyük bir sübutdur. Fəxrəddin bunu anlamayacaq qədər uşaq deyildir.

Səba xanımın bu sözündən sonra Əmir həyəcanla soruşdu:

– Sən bu xəbəri kimdən eşitdin?

– Bu xəbəri Nizaminin evindən öyrənmişəm.

– Sən Nizaminin evinə gedib-gəlirsənmi?

– Xeyr, mən özüm gedə bilmirəm. Nizami özü də buna yol verməz. İki nəfər dilənçi qadın vardır. Onlara böyük ehsanlar verirəm. Onları Nizaminin evinə ehsan istəmək üçün göndərirəm. Bu xəbəri onlar mənim üçün gətirdilər. Gələcəkdə onların vasitəsilə daha böyük işlər görəcəyəm.

Toxtamış da, Əmir də bir səslə:

– Afərin sənə, Səba xanım! – dedilər.

Səba isə sözünü davam etdirib:

– Sabaha fitr bayramıdır, – dedi. – Cahanbanu xanımın evində böyük ziyafət vardır. Hərgah Nizami və Rəna orada olmasa da Fəxrəddinin orada iştirak edəcəyi şübhəsizdir. Mən, Əbül-Ülanın təşkil



etdiyi fitr bayramı ziyafətində bir daha baxtımı sınaram. Bəlkə də müvəffəqiyyət qazandım. Hər halda məsələdə çətinlik vardır. Çünki Fəxrəddin mənim əlimdən bir neçə zərbə yemişdir. Çarə yoxdur. Əmir həzrətlərinin əmri can qiymətinə olsa da yerinə yetirilməlidir. Hərgah o qəhrəmandırsa, mən də Səba xanımam. Mən onu bu otaqda Əmirin qarşısında diz çöküb yalvarmağa məcbur edəcəyəm.

Toxtamış Səba xanımın cəsarətindən məmnun qaldı, ona xeyir-dua verib getdi.

Xacə Müfid qapının dalında durub Səba xanımın Əmirin otağından çıxmasına müntəzir idi. Nəhayət, sühur[1] vaxtına bir az qalmış Səba xanım Əmirin otağından çıxdı. Xacə Müfid onu görərkən:

– Gözəl xanımın "şərəfə" nail olduğunu təbrik edirəm! – dedi və qabağa düşüb onu otağına yola saldı. Bir azdan sonra kənizlər və xariyələp əllərində boğça Əmiri çimdirmək üçün hamama apardılar. Əmir sabah ramazanın son gününü oruc tutacaqdı.

* * *

Ramazan ayının 30-da axşam qaranlığı düşəndə üç nəfər şahid xətibin hüzuruna gəlib şəvval ayını gördüklərinə iqrar etmişdilər. Ayın birində gündüz saat 2-də Əmirin qapısında duran taxt-rəvan saraydan hörmətli bir adamın çıxacağını bildirirdi. Orucunu təzəcə sındıranlar Əmirin qapısından dişarı çıxacaq bu "naməhrəm" qadına baxmamaqdan çox da çəkinmirdilər. Bir çoxları "Əmirin qızı Qətibə xanım taxt-rəvana minəcəkdir" – deyə özləri üçün əlverişli mövqelər tutmağa tələsirdi. Çünki Qətibə başqa hərəm qızları kimi üzünü örtməz və küçə xalqına görünməkdən çəkinməzdi. O, taxt-rəvanda getdiyi zamanlarda da pərdələrin salınmasına icazə verməzdi.

Taxt-rəvan hərəkət etməmişdi. Ətraf küçələr və döngələr xalq ilə dolmuşdu. Lakin bu cür hadisələri tez-tez görənlər bugünkü taxt-rəvana əhəmiyyət vermirdilər, çünki taxt-rəvanlar Əmirin qadınını yaxud qızını bir tərəfə apardığı zaman ətraf küçələrin hamısında qoruq[2] elan olunurdu.

[1] Sühur – obaşdan vaxtı deməkdir.

[2] Qoruq – qorunma deməkdir. Hərəm küçəyə çıxdığı zaman camaatın küçələrə çıxmağa ixtiyarı olmazdı.

Xacə Müfid sarayın qapısından çıxdı, onun dalınca da iki nəfər kəniz və iki nəfər qara zənci qulun müşayiətilə bir qadın çıxdı. Qadın zinətlərinin üzərinə nazik və qara bir ipək salmışdı. O özünü xalqa bildirməmək üçün çöhrəsini bərk-bərk gizlədirdi, çünki xalq onun adi bir cariyə olduğunu bilsəydi, onun mindiyi taxt-rəvanın dalısınca qafilə təşkil etməzdi. Lakin, buna baxmayaraq, adamların bir çoxu bilirdi ki, cariyələrdən hər hansı birisi Əmirin "şəfərinə" nail olursa, ona taxt-rəvanla getməyə icazə verilir. Taxt-rəvanın dalısından nərdivanı götürüb yerə qoydular. Xacə Müfid Səba xanımın qolundan tutub taxt-rəvana çıxardı. Sonra kənizlər də taxt-rəvana çıxdılar. Qulamlar isə nərdivanı yığıb taxt-rəvanın dalısına bağladılar. Sonra qulamlar hər birisi bir atın cilovundan tutub çəkməyə başladılar. Küçə xalqı taxt-rəvanın dalınca dəstələrlə gedirdi, lakin taxt-rəvanın pərdələri bir kərə də olsa qaldırılmadı. Küçə camaatı Səba xanımın taxt-rəvanını Əbül-Ülanın qapısına qədər müşayiət etdi.

Səba xanım bu gün öz köhnə ağası Əbül-Ülanın evinə bir cariyə kimi yox, bir xanım təntənəsilə daxil olurdu. Çünki Əbül-Ülanın ailəsi onun Əmir tərəfindən şərəfləndiyini və hərəm namizədi olduğunu bilməmiş deyildi. Xüsusən Əbül-Ülanın kiçik qızı Mahtab xanım Səba xanımla hər kəsdən artıq maraqlanırdı, çünki o, ancaq Səba xanımın vasitəsilə zəngin və məşhur bir adama ərə gedəcəyini düşünürdü.

Əbül-Ülanın ziyafətində Fələki, Mücirəddin və bir neçə daha başqa şair və ədib iştirak edirdi. Nizami və onun qadını Rəna isə Məhsəti xanım xəstə olduğuna görə onu evdə tək qoyub gələ bilməmişdilər.

Fəxrəddin hamıdan sonra gəldi. O, Səba xanımın bu ziyafətdə iştirak edəcəyini bilmirdi, əks təqdirdə o ziyafətə gəlməkdən boyuün qaçırardı. Lakin o, içəri girərkən Səba xanımı görüb Dilşadı xatırladı və ondan Dilşad haqqında bir xəbər bilmək istədi. Amma dərhal onu danışdırmamaq qərarına gəldi, çünki onun Dilşadın adından yalan sifariş gətirməsi və ondan məktub alıb Əmirə təqdim etməsi, nəticədə Dilşadın həbsə alınıb cəzalandırılması Fəxrəddinin yadından çıxmamışdı.

Lakin Fəxrəddin öz qərarında dura bilməyəcəkdi. Səba xanımı görüb danışmamaq heç bir kəsə mümkün deyildi. Onun daima "mən daşı danışdıraram" deməsi heç də əsassız deyildi.

Fəxrəddin Səbanın cəzblərini rədd etmək üçün Mücirəddin ilə başladığı söhbəti uzatmağa çalışırdı. Səba xanım və Mahtab xanım bir neçə başqa qız və cariyələrlə tez-tez Mücirəddin ilə Fəxrəddinin yanından o tərəf bu tərəfə keçir və aralığa eşqə, məhəbbətə dair söz atırdılar. Çünki ziyafətdə olanların içərisində yalnız Fəxrəddinlə Mücirəddin subay idilər.



Səba xanım Fəxrəddinin yanından keçdiyi zaman bu sözləri deyirdi:

– Mən bir məhəbbətin sərxoşuyam, şərab verin. Məni götürüb atəşin içərisinə atın, lakin bu yanan əyrimə su verin, şikayət etsəm də, acıqlansam da mənim işim onunladır. Qoy cavab versin.

Qızlar Mücirəddinə və Fəxrəddinə baxıb güldülər, Mücirəddin isə Fəxrəddini dümsükləyib:

– Al gəldi, Fəxrəddin, Səba xanımın işi səninlədir, – dedi.

Fəxrəddin Səba xanıma əhəmiyyət vermədi. Nəhayət, Səba xanım yenə də qızlarla qayıdıb Fəxrəddin və Mücirəddin oturan kürsünün yanında dayanaraq söhbətə başladı. O sanki Mahtab xanıma aid olan bir kinayədən danışırdı:

– Mən o qədər də sadə adamlardan deyiləm ki, öz nişanələrimi qasidin əlinə tapşırım, qasid isə öz məqsədindən ötrü verdiyim nişanələri əlində bəhanə aləti qayırsın – dedikdə Fəxrəddin təkan yedi, söhbətini şaşırdı, çünki o, Səba xanımın nə dediyini bilirdi. O bir neçə kərə ağlını doldurub Səba xanımı danışdırmaq istədi, lakin danışdırmamaq üçün özünə söz verdiyini xatırlayaraq, dinmədi. Mücirəddin isə bunu hiss edərək:

– Əylənməyin nə zərəri vardır? Şeytan da olsa maraqlı şeytandır. Çağırıb bir qədər danışdırsaq nə olar?! – dedikdə Fəxrəddin də:

– Şeytandan daha iyrənc bir ad tapılsaydı, onu yanımıza haman adla çağırardıq. Bəlkə də mən şair olmadığımdan, gözəlləri sizin qədər duymaq qabiliyyətinə malik deyiləm. Lakin bunun barəsində əldə etdiyim qənaət mənim üçün hər şeydən böyükdür. Bu şeytan hər barədə gözəldir, yeganə bir eybi varsa, o da bunun şeytanlığıdır. Mən bunu heç bir zaman əlimdən buraxmazdım. Üç min dirhəm o qədər də böyük bir pul deyildi, o pulu versəydim, Cahanbanu bəyim bunu mənə güzəştə gedərdi. Lakin bu dünya gözəlini qiymətdən düşürən onun şeytanlığıdır. Bundan gördüyüm yamanlığın bircə faizini hər kəsdən görsəydim, indiyə qədər onu məhv etmişdim. Bir neçə kərə bunu məhv etməyə qalxmışam, fürsət də düşüb, lakin təbiətin bu gözəl məşəlini söndürmək istəməmişəm, çünki bunun gözəlliyini görüb şeytanlığını tanımayanlar mənə lənət oxuyacaqdılar. Onun indiyə qədər diri qalmasının səbəbi də budur.

Səba xanım üçüncü kərə Fəxrəddinin önündən keçdiyi zaman artıq öz gözəlliyini tərif edirdi:

– Deyirlər ki, gül tikanların içərisindən göyərməkdədir. İndi ki, belədir, nə üçün gül olan məclisə tikanları buraxırlar? Mən dediyim adamın çöhrəsi daima gözümün önündədir. Mənə qiymət qoymayanlar, mənim gözəlliyimi iqrar etməyənlər də haqlıdır. Çünki mənim musiqidən nəşədar olan səsim, qəmginlərin qulağında bayquş səsindən daha qəmlidir. Qəmginliyin şərbətini dadan adamların dimağında şəkərin şəhdi belə ilanın zəhərindən də acıdır. Mənim baxışlarım sübhün nəsimindən təmiz olsa belə, yaralı ürəklər üçün əqrəbin nişindən zərərlidir. Bu təbii bir haldır; qəmli, kədərli adamların gözündə ən qiymətli cavahir, adi bir daşdan daşa alçaqdır. Lakin burada nə səhər nəsiminin, nə şəkər şəhdinin, nə də mənim nəşədar səsimin və almaz kimi şəfəqlənən göz bəbəklərimin bir zərrə də olsa nöqsanı yoxdur.

Mənim şirin sözlərim özünü itirmiş adamların ayağı altında qalan zəhərli tikanlar misalındadır. Mənim kölgəm sağlam fikirli adamlara təzə bir can bağışlasa da, xəstə adamlar üçün ağır bir yükdən ibarətdir.

Bir vaxt var idi ki, onsuz ağlaya-ağlaya yuxuya getdiyim üçün yuxuda görərdim ki, məni su aparır. Nə etməli? "Eşq-eşq" deyə bir adamın adını əzbərləyərdim, lakin eşqə düşəndən sonra onun nə olduğunu anladım. "Yar-yar" deyərək sevinirkən onun kim olduğunu bildim. Əgər eşq bu isə, kimə lazımdır? Əgər yar mən gördüklərim isə, onlarla kim yaşaya bilərdi?

Lakin bu dünyadan kamını almayan bir tək mən deyiləm. Çoxları xəyalın təsəvvürə gətirə bilmədiyi uca aləmlərə uçmaq istədilər, lakin qanadlarında qüvvət hiss etməyərək uça bilmədilər.

Fəxrəddin Səba xanımın bu sözlərindən sonra sakit oturmağı bacarmadı. Çünki Səba xanımın son sözləri, Fəxrəddinin Dilşadı sevdiyinə və arzusuna yetişə bilmədiyinə işarət idi. Buna görə Fəxrəddin artıq davam etməyərək ona cavab verdi:

– Qanadlarımda qüvvət hiss edirəm. İstədiyim ucalıqları fəth etmək üçün qüdrətim vardır, lakin haman ucalıqların qarşısında qara qanadlarını açıb yüksəlişimə mane olan şeytanlara rast gəlirəm.

Səba xanım irəli gəldi. Fəxrəddinlə danışmaq üçün bəhanə əldə etdi və acıqlı bir tövr alaraq dedi:

– Fəxrəddin, səni mənə və Dilşada etdiyin haqsızlıqlar səbəbinə söyməliyəm və məzəmmət etməliyəm. Əcəba sən məndən hansı təqsirimin səbəbinə küsdün?



Fəxrəddin başqalarının yanında söhbət açmaq istəmədiyindən, onlar bağçaya düşdülər. Fəxrəddin:

– Sənin özün söyləməyə layiq ikən başqasını söyləməyə haqqın vardırmı?! – dedi. – Sən mənə və Dilşada nə yamanlıq qaldı ki, etmədin?! Məni və onu məhv edən sən olmadınmı?

– Qız əsla məhv olmamışdır. Sənin məhv olduğunun səbəbi isə öz xasiyyətindir. Behiştdən hurini, mələyi yerə endirib sənin sərəncamına versələr belə, yenə də sən yaşamağı bacarmayacaqsan. Çünki səndə bir qızın qəlbini əyləndirəcək dil yoxdur. O şeyləri ki, qız səndən tələb etməlidir, onu sən qızdan tələb edirsən. Əcəba, məndən son dəfə küsməyinin səbəbi nə idi?

– Sən nə üçün mənə Dilşaddan yalan sifariş gətirdin? Nə üçün mədən aldığın məktubu Əmirə verib qızın cəzalanmasına səbəb oldun?!

– O məktub səbəbinə mənim özüm azmı cəzalandım? Madam ki, məsələnin əsasından xəbərdar deyilsən, yersiz tənqidlərini də qoy qalsın. Nə Dilşadın, nə də mənim bu işlərdən xəbərimiz yox idi. Əvvəla, sənin dilindən məktub düzəldib Dilşada verən Mərcandır. Onu da öyrədən Süsəndir. Mənim təqsirim nədir?! Madam ki, sən hər qıza bir cür söz verir və hamını sevmək istəyirsən, onların bir-birini qısqanmağa və macəra yaratmağa haqları vardır. Buna görə də Süsən sənin tərəfindən düzəltdiyi məktubu Dilşada verib onun qəlbini səndən iyrəndirmək istəmişdi. Mənim Dilşaddan, sənə sifariş gətirməyimə gəldikdə, o da mənim işimdir, o sifarişdən Dilşadın xəbəri yox idi. Mən o sifarişin vasitəsilə səndən bir məktub alıb ona aparmaq və Süsənin yazdığı məktubun sarayda düzəldiyini Dilşada isbat etmək istəyirdim. Daha açığı, Dilşadın kədərlərini təskin etməyi düşünürdüm. Əcəba, belə bir təşəbbüs sənin fikrincə, bir xəyanətdirmi?!

Qaldı ki, mənim vasitəmlə Dilşada göndərdiyin məktubun Əmirin əlinə düşməsi tamamilə doğrudur. Lakin sən bunu bilməli idin ki, məktub nə vasitə ilə Əmirin əlinə düşmüşdür.

Fəxrəddin acıqlı:

– Mən haradan bilərdim? Mən ki, sarayda yaşamıram, – dedikdə, Səba xanım cəld cavab verdi:

– İndi ki, bilmirsən, onda məni çağırıb deməli idin ki, nə üçün mənə xəyanət etdin? O zaman mən də məsələni açıb başdan ayağa qədər sənə danışardım. Mən səndən məktub aldığım və Dilşada aparmaq istədiyim gün, Süsənin tapşırığı ilə Mərcan məni güdürmüş. Mən

sәninlә Şeyx Saleh mәqbәrәsindә uzun-uzadı danışdığım zaman, Mәrcan sözlәrimizin bir çoxunu eşidibmiş. Mәn sәndәn mәktubu alıb saraya girdiyim zaman mәni bir baş xacә Müfidin otağına apardılar. Üstümü axtarıb sәnin mәktubunu tapdılar. Bundan sonra başıma nәlәr gәtirildiyini danışmaq istәmirәm. Ancaq boğazımda vә gözümün üstündәki yara yerlәrinә baxa bilәrsәn.

Sәba xanım bu sözlәri dedikdәn sonra ipәk çarqatını kәnara ataraq boynundakı yara yerlәrini göstәrdi. Fәxrәddin isә qismәn Sәba xanıma inanmağa başlarkәn, Sәba bunu hiss edәrәk sözünü davam etdirdi:

– Mәn o yaxşılıqları nә sәnin, nә dә Dilşadın xatirinә etmirdim. Mәnim xasiyyәtimi yaxşı bilirsәn, mәn heç vaxt dinc otura bilmirәm. Süsәnin bu işlәrini ifşa etmәk istәrkәn, özümü cәzaya giriftar etdim. Yazıq Dilşad da әziyyәt çәkdi. Eybi yoxdur, hamısı keçib gedibdir. Dilşad da sağdır, sәn dә sağsan. Xeyir işinizin baş tutmasına da az qalır. Bir şirinlik yüz acılıqları unutdura bilәr.

Fәxrәddin Sәba xanımın bu sözlәrindәn acıqlanaraq dedi:

– Mәnә istehza edirsәnmi?

– Sәnә istehza etmәyә haqqım vardır. Nә üçün qıza verdiyin hәdiyyәni geri qaytarmırsan?

– Hansı hәdiyyәni?!

Sәba xanım mәzәmmәtedici bir tövr alaraq soruşdu:

– Ah, Fәxrәddin, bütün Gәncәnin bildiyi bir mәsәlәni mәndәn nә üçün gizlәdirsәn?

– Hansı mәsәlәni?!

– Boyunbağı mәsәlәsini. Süsәnin Dilşaddan oğurlatdırıb Mәsudiyyә qabağındakı dilәnçilәrin içәrisinә atdırdığı boyunbağı mәsәlәsini... İndi nә üçün sәn onu qızın özünә göndәrmirsәn?! Sadә bir boyunbağı Dilşaddan qiymәtlidirmi?!

Fәxrәddin düşüncә dәnizlәrinә qәrq oldu. Dilşadın Bağdada göndәrilmәdiyini, sarayda yaşadığını yәqin etdi vә Sәba xanıma müraciәtlә:

– Bu xәbәr sәnә qarşı olan mәnfi fikirlәrimin hamısını dağıtdı. İndi mәnә de görüm, Dilşad mәnim haqqımda nә düşünür?

– Sәn nәyi gözlәyirsәnsә, Dilşad da onu gözlәyir. Ramazan ayı qurtardı. Әmir dә öz sözünü geri götürmәmişdir. Bu barәdә Dilşada xәbәr verilmişdir. Sәnin özünә dә xәbәr vermәk üçün sәni saraya dәvәt elәyәcәklәr. Bәlkә dә sabah sәnә mәktub göndәrdilәr, o zaman



saraya gәlәrsәn. Әmir sizә izdivacın şәrtlәrini xәbәr verәr, toy hazırlığına başlarsınız. İndi de görüm mәndәn razı qaldınmı?!

– Yerdәn göyә qәdәr razıyam. Mәn yazıq Dilşadı Gәncәdәn getmiş bilirdim.

– Sәn Әmir haqqında çox iftira getmә, o sәnә verdiyi sözü heç bir vәchlә geri götürmәz. İnanmırsansa, gәl bu axşam saraya gedәk, Dilşadı görәndәn sonra sözlәrimә inan.

– Yox, sәnә inanıram. Әmirin icazәsi olmadan saraya getmәrәm.

– Bu da gözәl fikirdir. Qoy sabah Әmirin öz dәst-xәttilә yazılmış mәktubu alıb gәtirim. Ancaq bilmirәm harada görüşәk.

– Bilmirәm. Sәnin üçün hara әlverişlidir?

– Elә yer olsun ki, bizim görüşdüyümüzü bir kimsә görmәsin.

– Onda gәrәk axşam qaranlığında olsun. Axşam vaxtı çay kәnarına gәlәrsәn. Orada bir az tәxir etdikdәn sonra Musa dәyirmanının yanındakı söyüdlükdә görüşәrik.

Buna Sәba xanım razı oldu, vidalaşıb ayrıldılar.

## LEYLİ VӘ MӘCNUN DASTANI

Şirvan xaqanı tәrәfindәn Gәncәyә bir heyәt gәlmişdi. Atabәy Mәhәmmәdin Gәncә sәyahәtinә çıxmasını eşidәn Şirvan xaqanı Atabәyi istiqbal etmәk üçün aparılacaq hazırlıqda iştirak etmәk arzusunu irәli sürmüşdü. Buna görә dә hәlә Atabәy Tәbrizdәn Şimali Azәrbaycana hәrәkәt etmәmişdәn әvvәl Şirvan xaqanı başda Nәcmәddin olmaq üzrә Gәncәyә böyük bir heyәt göndәrmişdi ki, bununla da xaqan Atabәyә qarşı bәslәdiyi dostluq duyğularını nümayiş etdirmәk istәyirdi. Heyәtin sәdri Nәcmәddin Gәncәyә gәldiyinin ikinci günü, Nizamiyә belә bir mәktub göndәrmişdi:

"Möhtәrәm vә sәnәtkar şair!

Şirvandan Gәncәyә olan bu qısa sәfәrimizdә iki böyük zatın ziyarәtinә nail olmaqla şәrәf vә sәadәt әldә edәcәyik. Onlardan birincisi Atabәy Mәhәmmәd hәzrәtlәrinin ziyarәti, ikincisi isә möhtәrәm şairin ziyarәtidir. Möhtәrәm şair icazә versәydi, xaqanın sifarişlәrini yerinә yetirmәk mәqsәdilә görüşәr vә sәadәtә nail olardıq.

Şirvan şahı tәrәfindәn gәlmiş heyәtin sәdri

*Nәcmәddin*".

Nizami məktubu alandan sonra onların qəbulu üçün müəyyən vaxt təyin elədi. Eyni zamanda, evin sahmana salınması üçün Rənaya tapşırıq verdi. Heyətin qəbulunda iştirak etmək üçün bəzi lazımlı adamlarına və dostlarına da xəbər göndərdi. Bunların cərgəsində Fəxrəddin də var idi.

Fəxrəddin dəvət edildiyi vaxtdan bir neçə saat irəli gəlib heyətin qəbulu zamanında lazım olacaq şeylərin hazır edilməsində iştirak etmək istədi. Çatmayan şeylərin öz evlərindən gətirilməsinə əmr verdi, bazardan pul ilə alınacaq şeyləri aldırıb hazır etdirdi. Rəna və Nizami Fəxrəddinin köməyindən həddindən ziyadə razı qaldılar.

Nizami və Rəna Fəxrəddinə diqqətlə baxdıqları zaman onda keçmiş kədərlərdən bir zərrə də olsa nişanə görmədilər. O, Dilşad gedəndən bəri bir gün də olsa şad üzlə Nizaminin və Rənanın üzünə baxmamışdı. Bu gün isə gülür, danışır və şadlıq edirdi. Nizami onda bir xəbər olduğunu dərhal hiss etdi və soruşdu:

– Bu şadlığın səbəbini desəydin, dostların da şadlanardı.

Fəxrəddin şad bir ürəklə Nizaminin əlini sıxdı:

– Bu şadlıq gələcək bir bəxtiyarlığın başlanğıcıdır. Ancaq dünən mənə məlum olmuşdur ki, Dilşad Bağdada göndərilməmişdir. Saraydadır.

Nizami təəccüblə soruşdu:

– Bu xəbəri sənə gətirən kimdir?

Fəxrəddin Əbül-Ülanın ziyafətində olduğunu, orada Səba ilə görüşdüyünü və aralıqda gedən söhbətləri tamamilə Nizami üçün danışdı və:

– Bu axşam o, Əmirin məktubunu gətirəcək və mən onunla bərabər saraya gedəcəyəm, – dedikdə Nizami də:

– Onunla saraya deyil, ya ölümə, yainki həbsxanaya gedəcəksən, – deyə cavab verdi. – Yenə də sən aldandın. Lakin məni dərdə salan bir cəhət varsa, o da məsələni qabaqcadan gəlib mənə xəbər verməməyindən ibarətdir. Sən indi nə kimi bir zaman olduğunu bilirsənmi?! Əmir Atabəyin gəlməsi münasibətilə öz mövqeyindən əmin deyil. O, Atabəyə şikayət verənlərin təşkili işində çalışanların hər nə bahasına olursa olsun xalqın arasından götürməlidir. Onların birincisi mənim qəhrəman, lakin avam dostum Fəxrəddindir. Səbanın son macərası sarayda səni məhv etdirmək üçündür. Dilşad isə çoxdan Bağdaddadır.

– Ola bilməz!



– Ola bilər! Sən mənə inan. Səba xanım təzə, lakin olduqca qorxulu bir xəyanət hazırlamaq istəyir. Buna inanmırsansa, al məktubu oxu! Qızıl Arslan əsir aparılan qızların adını və yerlərini mənə göndərdiyi son məktubunda qeyd etmişdir.

Fəxrəddin məktubu alıb baxdı və Nizaminin dediklərini təsdiq etdi.

– O həyasızı məhv edəcəyəm. O sağ qaldıqca macəralar törətməyə çalışacaqdır, – dedikdə yenə də Nizami:

– Bir az ehtiyatlı olmalısan, – dedi.

Söz bununla bitdi, çünki heyətin gəldiyini xəbər verdilər.

Fəxrəddin və başqaları qonaqları həyətdə istiqbal edib otağa gətirdilər. Nizaminin özü isə heyəti evin qapısında qarşılayıb:

– Şairin bu yoxsul evinə şərafət və səadət gətirdiniz. Xoş gəldiniz, səfa gətirdiniz, – dedi və əyləşmələri üçün yer göstərdi. Nəcməddin və heyət üzvləri oturdular. Nizami sözə başlayaraq:

– Atabəy həzrətlərinin Gəncəyə gəlməsi xəbəri bizə, xaqan həzrətlərinin nümayəndələrilə görüşmək şərəfinə nail olmaq imkanı verdi, – dedikdə, Nəcməddin də:

– Atabəy həzrətlərinin Gəncəyə gəlmək xəbərindən əvvəl də xaqan həzrətləri sizin hüzurunuza bir heyət göndərməyi düşünürdü, – dedi. – Bu səfərimizdə xaqan həzrətləri Gəncədən qiymətli bir cavahir aparmaq üçün bizə tapşırıq vermişdir.

Nizami çox qısa cümlələrlə cavab verib dedi:

– Xaqan həzrətlərinin şairə bu qədər böyük əhəmiyyət verdiyinə təşəkkür edirəm.

– Xaqan həzrətləri öz səmimi ricasını yetirmək üçün bizi möhtərəm şairin yanına göndərmişdir. Xaqanın mübarək rəyi buna əlaqə tutmuşdur ki, möhtərəm şair Leyli ilə Məcnunun müaşiqəsini bir dastan şəklində yazsın.

– Xaqan həzrətlərinin arzularına əməl etməyə hazıram.

– Lakin, xaqan həzrətlərinin arzusu budur ki, möhtərəm şair yazdığı dastanı Azərbaycan dilində yazmasın, onu yüksək təbəqəyə mənsub bir dildə, fars dilində yazsın. Çünki xaqan həzrətləri Azərbaycan dili ilə tanış deyil, o ancaq fars dilində danışıb oxuya bilir. Şübhəsizdir ki, siz xaqanın nə kimi dil və nə kimi bir şeirlə maraqlandığını bizdən yaxşı bilirsiniz.

Nizami məclisdə iştirak edən azərbaycanlıların həyəcanını hiss edərək, münaqişə çıxmasına imkan verməmək üçün dedi:

– Mən xaqanın fikrini çox gözəl anlayıram. Şübhəsizdir ki, xaqan fars dilinin yüksək təbəqəyə mənsub bir dil olduğunu qeyd etməkdə çox haqlıdır. O yüksək təbəqəyə mənsub bir dil deyərkən saray xalqını nəzərdə tutmuşdur. Xaqan saray xalqını, öz həzrətləri də daxil olmaq şərtilə, yüksək təbəqə hesab edir. Bu tamamilə doğrudur. Saray xalqı başqa bir təbəqə, saray xaricindəkilər isə tamamilə başqa bir təbəqədir. Sizə də, bizə də məlumdur ki, Şirvan sarayında yaşayanlar da, xaqanın özü də azərbaycanca danışa bilmirlər. Bəlkə, belə də məsləhətdir. Bunların hamısı ilə bərabər, mən Leyli və Məcnun dastanını başqa bir nöqteyi-nəzərdən də fars dilindi yazmaqla maraqlanıram. Çünki bu zamana qədər fars oxucuları dastan şəklində heç bir ədəbiyyat görməmişlər. Firdovsinin əsəri böyük bir dastan olmaqdan qabaq bir tarix əsəri sayıla bilər. Orada olan müaşiqələr bədii olsa belə, tam bir sevgi macərası qənaətini vermir.

Mən elə bilirəm ki, xaqan həzrətləri fars dilində yazan şairlərə göstəriş və rəhbər olmaq üzrə birinci olaraq fars dilində dastan yazılmasını mənə həvalə etmişdir.

Məclisdə olan azərbaycanlıların çöhrəsindəki qırmızılığın çəkilməsi şübhələrin sönməsini hiss etdirirdi. Bunu Nəcməddin də hiss edirdi, o bu sifarişin azərbaycanlıların milli şərəfinə toxunacağını bilməmiş deyildi. Lakin o, Nizaminin verdiyi izahatla şübhə və nifrətlərin söndüyünü hiss edərək şadlandı və xaqanın ikinci sifarişini şairə bildirdi:

– Xaqan həzrətləri sizin malik olduğunuz əzəmətin yoxsul bir binaya yerləşə bilməyəcəyini nəzərə alaraq şairin Şirvan sarayına köçürülməsinə əmr vermişdir. Şairi orada səadətlər, sərvətlər və xələtlər gözləməkdədir. Sizin rəvan təbiniz orada daha da genişlənəcək, siz ancaq orada cahanşümul bir şair dərəcəsinə çatacaqsınız. Siz, ancaq saray içərisində yazdığınız əsərlərlə dünyaya öz günəşinizi sala biləcəksiniz.

Siz sarayda bütün təbii ehtiyacların təsirindən çıxmaqla bütün fikrinizi şeir yaradıcılığına verə biləcəksiniz.

Böyük şairin bu qədər qilu-qal içərisində keçən günləri sakit bir həyatın qucağında xariqələr, möcüzələr dolu şeirlər yaratmağa sərf olunacaqdır.

Məncə, şeir gülər və səadətli bir həyatın qucağından doğmalıdır. Şair xalqa qoşularaq günlərin siyasi hadisələri ilə vaxtını keçirməməlidir.



Məclisdə iştirak edənlərdən bir çoxu elə bilirdi ki, Nizami xaqanın bu dəvətini qəbul edib Gəncədən Şirvan şahının sarayına köçəcəkdir. Məclisdəkilər səbirsiz bir intizarla şairin Nəcməddinə verəcəyi cavabı gözləyirdi. Nəhayət, Nizami gülər bir üzlə cavab verdi:

– Şübhəsizdir ki, xaqan həzrətləri məni yüksəltmək üçün öz sarayına dəvət etməkdədir. Buna görə də təşəkkür etməyə və xaqan həzrətlərinə uzun ömürlər və tükənməz dövlətlər diləməyə borcluyam. Əvvəlcə Nəcməddin cənabları mənim evimin yoxsulluğuna işarə edib dedi ki:

"Xaqan həzrətləri sizin malik olduğunuz əzəmətin yoxsul bir binaya yerləşə bilməyəcəyini nəzərə alaraq şairin Şirvan sarayına köçürülməsinə əmr vermişdir".

Hərgah mənim kimi yoxsul şairdə qiymət və əzəmət vardırsa, həmin əzəmət bu yoxsul evdə doğulmuşdur. Bu palçıq divarlar həmin əzəmətin beşiyidir. Bu əzəməti həmin beşikdə böyüdərək dünyalara tanıtdırana qədər bu evdən ayrılmayacağam.

Doğrudan da, məndə bir əzəmət vardırsa, o mənim deyil, Azərbaycan xalqınındır, çünki mən bu məmləkətin oğluyam. Doğrudur, məni xaqanın sarayında xələtlər gözləyir. Bu saydıqlarınız sərvət və xələt maraqlananlar üçün çox qiymətlidir. Lakin bunların heç birisi şair mədəsinin həzm edəcəyi qidalar deyildir.

Siz deyirsiniz ki, mənim təbim Şirvan şahının sarayında daha genişlənəcəkdir. Lakin geniş kütlələrin içərisindən ayrılıb sarayların uca hasarları daxilinə qapanan bir təbin genişlənə biləcəyinə heç də inana bilmirəm. Şair öz ilham mənbələrindən ayrıldığı zaman, kütlələrin içərisindən çıxıb dörd divarın içərisində nazlandığı və mürgülədiyi zaman onun təbi nə vasitə ilə genişlənə bilər?! O, haradan ilham ala bilər?!

Cahanşümul şair olmaq üçün cahanın hadisələri içərisindən süzülüb çıxmaq lazımdır. Bir şairin təbi nə qədər işıqlı olursa olsun, saray içərisindən bir günəş kimi dünyaya işıq sala bilməz. Bəzən saray içərisindən doğan günəşlər geniş təbəqələri işıqlandırmaq qabiliyyətindən məhrum olur. Çünki camaat öz arasından doğan günəşi sevir. Çobanlar günəşi çiçəkli və yaşıl meşələrin arxasından gözləyir, gəmiçilər günəşin bir-birini təqib edən dalğaların arxasında axtarır, kəndlilərimiz isə günəşi yaşıl düzlərin və çəmənlərin üzərində yüksələrkən görür və şadlanırlar. Buna görə də saray divarları dalısından çıxan günəş bizim xalqımızı heç bir zaman isidə bilməz.

Cənab Nəcməddin buyurdu ki, "Siz sarayda bütün təbii ehtiyacların təsirindən çıxdığınız üçün bütün fikirlərinizi şeir yaradıcılığına verə biləcəksiniz". Lakin bilmirəm ki, xalqımın ehtiyaclarını görmədiyim, o ehtiyacdan doğan dərdləri onlarla bərabər bölüşdürmədiyim, ehtiyac qazanında bu xalqla birlikdə qaynamadığım zaman mən yaradıcılıq üçün mövzu və ilhamı haradan alacağam?!

Şairlərin saray xaricində olması xaqanlar üçün saray içərisində olmalarından daha əlverişlidir. Çünki şair saray içərisində gördüklərini yazarsa və onu geniş təbəqələr arasına yayarsa, bu xaqanların nüfuzunun azalmasına səbəb ola bilər. Lakin xalq arasında yaşamaqla ümumi dərdləri yazıb xaqana bildirmək, həm xalq üçün, həm də xaqan məmləkətinin abadlığı üçün əlverişli olar.

Doğrudur, sarayda rahat yaşayıb möcüzələr, bərcəstə şeirlər yaratmaq mümkündür. Lakin haman bərcəstə və möcüzə dediyiniz şeirlər xaqanın buyurduğu kimi yüksək təbəqənin ruhunu oxşaya bilər.

Məncə, sarayın xaricində olan azadlıq, saray içərisində olan azadlıqdan daha yüksəkdir. Bir də ki mən uşaqlıqdan hazırkı məişətə öyrənmişəm. Mənim üçün saray həyatı, azadlığını itirmiş bir quşcuğazın qızıl qəfəsdən aldığı nəşədən heç də yüksək ola bilməz.

Xaqan həzrətlərinə salam yetirib mənim tərəfimdən ərz edərsiniz ki, hərgah Şirvan xaqanı Azərbaycan dilini öyrənməyə tənəzzül etməmişlərsə, biz əksinə, həm farsca danışa bilir, həm də farsca şeir yazmağı da bacarırıq. Sağlıq olursa, Leyli və Məcnun dastanını yazıb bitirdiyim zaman bir daha görüşərik.

Uzun saatlar davam edən bu söhbətlər əsnasında sərin və ətirli şərbət içilirdi.

Nəcməddin və heyət üzvləri bu qədər səmimi qəbuldan razı qalaraq vidalaşıb getdilər.

Fəxrəddin qalxıb Nizaminin üzündən öpərək dedi:

– Sənin dilin, sənin ifadən mənim qılıncımdan da kəskindir.

Axşam idi, Fəxrəddinin Səba xanımdan Əmirin məktubunu almaq və saraya getmək üçün söz verdiyi vaxt gəlib çatmışdı. O qalxıb getmək istədikdə Nizami ona bir daha tapşırdı:

– Ehtiyatlı ol! O qız çox hiyləgərdir. Kim bilir, bəlkə səni Musa dəyirmanının yanında məhv etdirəcəkdir.

Fəxrəddin bir daha:

– Onu bacara bilməzlər, – deyə vidalaşıb getdi.



* * *

Əmir nahar yeməyindən sonra sərxoş idi. O, Səba xanımı qəbul etmək, Fəxrəddinə göndəriləcək məktubu yazmaq və Səba xanıma tapşırıq vermək üçün rəqqasələri çox tez buraxmışdı.

Səba xanım axşama bir az qalmış xacə Müfidin gətirdiyi sifarişə görə Əmirin otağına dəvət olundu. O, təzə tikdirdiyi libaslarını və yanlarına inci və zümrüd düzülmüş köynəyini geydi, üzərində almaz cıqqalar vurulmuş qızıl araqçını başına qoydu. Yaqutdan, zəbərcəddən düzəldilmiş telbasan, gövbasanları saçlarına taxdı, qiymətli daşları, boyunbağıları üstünə düzdü, ağ və incə topuqlarına zümrüdlü xalxallarını taxdı, böyük bir təntənə ilə Əmirin otağına daxil oldu. Qırx şamlı avizələrin şəfəqi Səba xanımın üzərindəki qiymətli daşlara düşdüyü zaman sanki Əmirin qarşısında bahar fəzasının qövsü-qüzehindən paltar geymiş bir gəlin durmuşdu.

Əmir heç bir zaman Səba xanımı bu gözəllikdə görməmişdi. O qalxıb Səba xanımı qolları arasına alaraq öpdü və dedi:

– Sən nə qədər gözəlsən! Səndən ilham alan bir qəlbin şeir mənbəyi olmaması qabildirmi?!

Səba xanım Əmirin qucağında nazlandığı zaman:

– Elədir, mənim ağam! Elədir, mənim varlığımın hakimi, elədir! – dedi. – Qoca şair Əbül-Üla məni əbəs yerə iyirmi min dirhəm qızıla almamışdı. O daima bir şeir mövzusu üzərində işlədiyi zaman məni yanına çağırıb əyləşdirər və fikirləşdikcə mənim üzümə baxır və yenə də yazardı.

O məni aldığı zaman birinci gün yazdığı şerinin məzmunu yadımdadır. Nə gözəl də yazmışdı. O deyirdi: "Səba, sən onu bil ki, mən səni öz göz bəbəyim kimi gözlərimdə gizlədəcəyəm. Səni naməhrəmlərə göstərməyəcəyəm. Səni gözümün yaşlarilə böyüdəcəyəm. Sənin mozun qamətin, sərv ağacına bənzəsə belə, güllər və çiçəklərlə bəzənəcəkdir. Lakin qorxuram ki, bir gün göz yaşları kimi mənim gözlərimdən çıxıb qaçasan".

Əmir bu sözləri eşitdikdən sonra onu qucaqlayıb:

– Sən onun göz bəbəyindən qaçaraq mənim qucağıma düşdün. İndi mən səni bəsləyəcəyəm. Qocalmış bir şair sənin qədrini, qiymətini bilməzdi.

Səba xanımın Fəxrəddinlə görüşə getməsi vaxtına az qalırdı. Buna görə də xacə Müfid aftaba-ləyəni boşaltmaq üçün otağa girdiyi zaman Əmir ona əmr etdi:

– Dəhlizdəkilər aftaba-ləyəni görməməlidir. Pərdənin dalına qoy, sonra da gedib Toxtamışı mənim hüzuruma çağır.

Xacə Müfid getdikdən sonra Səba xanım da qalxıb saçlarını və üst-başını sahmana salmağa başladı. Yenə də daş-qaşların hər birisini öz yerinə nəsb etməyə məşğul oldu. Lakin Əmir sərxoş olduğu üçün Səba xanıma libaslarını geyməyə imkan vermirdi. Yarım saatdan bəri Toxtamış qapının dalında durub icazə gözləyirdi, nəhayət, xacə Müfid içəri girib Toxtamışın qapı dalında durduğunu söylədiyi zaman Əmir Səba xanımın dodaqlarını buraxdı.

Toxtamış daxil oldu. Səba xanıma tapşırıq verməyə başladı:

– Sənin ağıllı qız olduğuna inanıram. İstədiyin zaman sənə tapşırılan vəzifəni layiqilə ifa etməyinə şübhəm yoxdur. Lakin məni qorxudan iki şeydir. Onlardan birisi sənin gözəlliyin, ikincisi də keçmişdə sənin onu sevdiyindir.

Səba xanım Toxtamışın bu fikrini rədd etmək üçün cavab verdi:

– Daha iki cəhəti də nəzərə alaraq cənab vəzir qorxmamalıdır. Onlardan birisi Fəxrəddindən intiqam almaq istədiyim, ikincisi də Əmir həzrətlərinin şərəfinə nail olduğumdur. Mən heç bir zaman bu şərəfi adi bir rəiyyətin sevgisilə əvəz etmərəm.

Toxtamış başına hərəkət verdikdən sonra gülərək dedi:

– Biz sizi çox yaxşı tanıyırıq. Qadının bədəninə kişi əli, xüsusilə gənc bir kişinin əli dəyincə o hər bir şeyi unudur.

– Mən bu xidməti, Əmirin mənə verdiyi şərəfin müqabilində ifa edəcəyəm; sözümdə sadiq qalacağam. Əmir həzrətlərinin başına and içirəm. Çox qadın görübsünüz, lakin Səba xanım o qadınların heç birisinə bənzəməz. Siz Fəxrəddini bu gecə Əmir həzrətlərinin ayaqları altında görəcəksiniz. Onu Əmir həzrətlərinin qulamları qamçılayıb döydükləri zaman mən özüm də bir tərəfdə durub tamaşa edəcək və arzularıma çatdığım üçün şadlanacağam.

Səba xanım Əmirin başına, xəlifənin müqəddəs sarığına and içdikdən sonra Toxtamış sakit oldu, Fəxrəddinə bu məzmunda bir məktub yazdılar:

"Möhtərəm Fəxrəddin!

Ailənizin nəcabəti və özünüzün şəxsən əsil və qəhrəman olduğunuz sizi ikinci bir şərəfə nail edir. Bir ay bundan əvvəl sizə yazılan məktubda təyin etdiyimiz vədə bitmişdir. Buna görə də izdivac məsələsinin müzakirəsi üçün saraya gəlməyiniz lazımdır. Atabəy həzrətlərinin Gəncəyə gəlməsindən qabaq toy məsələsini bitirməliyik. Çünki Atabəy həzrətləri gələndən sonra başımız başqa məsələlərlə məşğul olacaqdır.

Məktubu sizə Səba xanım verəcək, ona etimad edə bilərsiniz.

*Əmir İnanc*".

Məktubun başını bağladılar. Əmir möhrünü də imzasının altına basdı. Səba xanım məktubu götürüb Əmirin otağından çıxdı. Hələ qaranlıq düşməmişdi ki, o, saray qapısından çıxdı. Kimsəyə hiss etdirməmək üçün bağça qapısından çıxıb çayın kənrına düşdü.

Toxtamışın tapşırığına görə Əmir inanılmış xidmətçilərdən dörd nəfər yanına çağırdı və tapşırıq verdi:

– Bağçanın qapısına yaxın yerlərdə gizlənməlisiniz. Bu gecə Səba xanımla bərabər, yainki Səba xanımsız bir nəfər saraya gələcəkdir. Bağça qapısında duran keşikçi qapını açıb onu bağçaya buraxacaqdır. Siz ona görünməməlisiniz, ancaq dəhlizə girdiyi zaman başına palaz atıb dərhal həbsxanaya gətirərsiniz. Səs çıxarmasına və saray xalqının xəbərdar olmasına imkan verməməlisiniz. Palazı başından götürmədən əvvəl onu tərk-silah edərsiniz. Mən onu görmək üçün gəldiyim zaman qollarını bağlarsınız. O qorxulu və qüvvətli adamdır. Buna görə də onu həbsxanaya saldığınız zaman lazımi qədər döyərsiniz. Çünki o xəstə halına gətirilməzsə kimsəni yaxınına buraxmaz. İndi gedin, bağçada olun! Vəzifədə səhlənkarlıq göstərsəniz öz başınızla cavab verəcəksiniz.

Xidmətçilər getdi. Əmir bu tarixi gecənin şərəfinə bir ziyafət təşkil etmək üçün əmr verdi; qoca vəzir də Əmirin bu fikrini təqdir etdi. Saqilər, rəqqasələr, gözəl carıyələr, qəşəng və gənc qulamlar işə başladı. Ziyafət gecə saat ikiyə qədər sürdü. Lakin nə Səbanın, nə də Fəxrəddinin saraya gəlməsi haqqında heç bir xəbər çıxmadı. Bu hadisə Əmirin və Toxtamışın rahatsızlığına səbəb oldu. Əmir şərab piyaləsini içib yerə qoyduğu zaman Toxtamışa müraciətlə dedi:

– Deyəsən vəzirin dedikləri doğru çıxdı...

Toxtamış da şərabdan üz-gözünü turşudub acı bir ifadə ilə cavab verdi:

– Dünyadakı yaranmışların hamısı faili-muxtardır. Onlar bir işi həyata keçirmək istədiyi zaman keçirər, istəməzsə keçirməz. Bu xasiyyət kişilərdə, heyvanlarda, hətta kiçik qarışqalarda da vardır. Bu xa-

siyyət ancaq qadınlarda yoxdur. Qadınların ixtiyarları öz əllərində deyil, onlar kişini, xüsusilə sevdikləri kişiləri gördükləri zaman özlərinə məxsus olan hər bir hüquq və ixtiyarı kişilərin sərəncamına verirlər. O, birinci gecə sevgilisinin qucağına tələsən bir gəlin kimi bəzənib Fəxrəddinin görüşünə getdi. Fəxrəddin isə gəncdir. Səba xanım da Dilşaddan çirkin deyil, onların bir-birinə güzəştə gedə bilmələri nə üçün mümkün olmasın?

Toxtamış düşünür, Əmir isə piyaləni piyaləyə bənd edib içirdi.

İntizar gecə saat üçə qədər davam etdi. Nə Səba xanımdan, nə də Fəxrəddindən bir xəbər olmadı. Bağçadan eşidilən hər bir səda Əmirin və Toxtamışın qulağında bir bayram müjdəsi kimi səslənirdi.

Əmir yalnız Fəxrəddinin gəlməməsi haqqında düşünmürdü. Onun fikrində Səba xanımın gecikməsi də mühüm bir yer tuturdu. O, Səbanın yabançı əllərə düşməsindən və şərəfinin ləkədar olmasından qorxurdu. O öz-özünə: – Dünyanın gözəlini öz əlim ilə geyindirib yola saldım. Bu axmaqlıq və sadəlik deyilmidir? – deyirdi.

Toxtamış da fikrə qərq olaraq mırıldanıb bu sözləri deyirdi:

– Bizim sadəliyimiz orasındadır ki, belə mühüm bir işi adi bir cariyəyə tapşırdıq. Onların xasiyyətləri, başlarındakı tükün miqdarı qədər müxtəlifdir. Mən əbəs yerə demirdim ki, göydə ulduzların sayını öyrənmək nə qədər çətindirsə, qadının xasiyyətini öyrənmək də bir o qədər imkansızdır... O bizim bu qədər intizar içində çapaladığımızı nəzərə alırmı? Onun üçün gənc bir adamla oturub əylənmək Əmirdən də, Əmirin ona bağışladığı şərəfdən də qiymətlidir.

Əmir Toxtamışı sakit edərək dedi:

– Sən Səba xanıma inanmalısan, o mənə əbəs yerə and içməzdi. Hərgah sənin dediklərin doğru olursa, mən, onu bu gecənin özündə saçlarından asdırram.

Saat üçə qədər Toxtamış Əmirin fikirlərilə razılaşmadı. Toxtamışın dediklərinə isə Əmir etiraz etdi. Çünki Əmir Səba xanımın özünə qarşı bəslədiyi sevgi və hörmətə hər şeydən artıq inanırdı.

Birdən dəhlizdən ayaq səsləri gəldi. Əmir və Toxtamış şadlıqlarından dəli olmaq dərəcəsinə gəldilər. Bir azdan sonra xacə Müfid qapını açıb daxil oldu və baş endirib dedi:

– Səba xanım xidmətçilərlə bərabər gəlibdir.

Əmir:

– Xidmətçilər dayansın, Səba xanımı içəri burax! – deyə əmr verdi. Əmir də, Toxtamış da Səbanın müvəffəqiyyətlə qayıtmamasını yəqin



etmişdilər. Lakin Səba içəri girəndən sonra Əmirin və Toxtamışın vəziyyəti bir daha dəyişdi. Çünki Səba xanım tamamilə bir tuman və bir köynək ilə qayıtmışdı. O, Əmiri gördüyü zaman ağlayıb bayıldı.

Xacə Müfid su gətirdi, yarım saatdan sonra Səba xanım ayılıb Toxtamışı və Əmiri başı üzərində görüncə bir daha bayıldı. Nəhayət, gecə saat beşdə onu tamamilə ayıltdılar. Əmir ona sual verdi:

– Bu nə vəziyyətdir? İndiyə qədər haradaydın?

Səba xanım ağlaya-ağlaya söhbətə başladı və başına gələnləri danışdı:

– Mən bir az yubanmışdım. Özüm də Fəxrəddinin məni Musa dəyirmanı yanındakı söyüdlükdə o qədər durub gözləyəcəyinə inanmırdım. Çayın kənarından çox böyük bir sürətlə yuxarı qalxdım. Söyüd ağaclarının altı çox qaranlıq idi. Göz-gözü görmürdü. Bir neçə dəqiqə orada durdum, kimsəni görmədim, irəli getmək olduqca qorxulu idi. Qorxub, geri qayıtmaq qərarına gəldim. Qayıtdım, daşların arasından çayın kənarına düşmək istəyirdim, söyüdlükdən o qədər də ayrılmamışdım. Lakin bunu da demək istəyirəm ki, gəldiyim yolu itirmişdim. Hər halda o yol ilə çayın kənarına düşmək mümkün idi. Kolların içərisindən keçdiyim zaman "Teyyubə xanım gəldi" – deyə bir səs eşitdim. Bu səsin dalınca bir neçə nəfər tanımadığım adam ətrafımı aldı, məni əl üstündə kolların arasına gətirdilər. Məni bir nəfərin yanında yerə qoydular, o adam qollarını boynuma saldı və məni öpərək soruşdu:

– Gözəl Teyyubəm, harada qalmışdın? Sən bir saat əvvəl gələcəyin üçün mənə vədə verməmişdinmi?!

Mən qorxurdum, bütün vücudum əsirdi, qorxa-qorxa and içib dedim:

– Mən Teyyubə deyiləm, mənə toxunmayın, mən Səba xanımam, Fəxrəddinin sevgilisiyəm, onunla görüşmək üçün gəlmişəm.

Onlardan birisi?

– Elə isə xoş gəlib səfalar gətirmisən. Bu gecə Fəxrəddinin şərəfinə bizə qonaqsan, – deyərək əlini atıb şeyləri görərkən qarışqa kimi vücuduma darışdılar. Uşaqlar çiçəkləri yoluşduran kimi üst-başımı yoluşdurdular. Cavahirlərimi alandan sonra mən yenə ağlayıb onlara yalvarırdım. Lakin məni buraxmadılar, gecə saat ikiyə kimi yanlarında saxladılar. Sonra isə bütün libaslarımı aldıqdan sonra, nəhayət, məni yola saldılar.

Əmir acıqlandı, və:

– Alçaq cariyə, səni saçlarından asdıracağam, – dedikdə Səba xanım ağladı və başından dəsmalı ataraq başını göstərdi.

– Əmir həzrətlərinə xidmət göstərmək istərkən saçlarımı da qurban verdim. Saçlarıma düzdüyüm zümrüd və inciləri gecə qaranlığında soyub götürə bilmədiklərindən onları saçlarımla bərabər kəsib götürdülər və gedərkən dedilər:

"Get Fəxrəddinə xəbər ver ki, hərgah qəhrəmandırsa, qoy gəlib sənin namusunun intiqamını bizdən alsın".

Əmir bir sual daha verdi:

– Bəs apardığın məktub?!

– Məktubu da, hətta Əmir həzrətlərinin Nizamini zəhərləmək üçün verdiyi zəhəri də cibimdən tapıb götürdülər.

Əmir qalxıb Səba xanıma bir sillə vurdu:

– Bəs mənim şərəfim?!

Səba xanım bu sözə cavab verə bilmədi, çünki beş saat tamam, naməlum adamların içərisində gecələmişdi.

Nəhayət, Toxtamış məsələyə müdaxilə edərək dedi:

– Hərgah bu cinayəti icra edənlər Fəxrəddin tərəfindən təyin edilən adamlar olsaydı, o zaman hadisənin nəticəsindən qorxmağımız lazım gələcəkdi. Hərgah Səba xanım onların tamamilə yabançı və Fəxrəddinə düşmən adamlar olduğuna inanırsa, burada bir qorxu yoxdur. Aparılan qiymətli şeylərdən Əmirin xəzinəsində çoxdur, tüklər də bir ayın içərisində saç qərarına gələ bilər. Saxta saç düzəltmək də mümkündür. O ki qaldı şərəf məsələsinə, bu da gülünc bir işdir, çünki onlar Səba xanımın nail olduğu şərəfi yox, Fəxrəddinin şərəfini ləkələmişlər. Ola bilsin ki, onlar Səba xanımın Əmirin şərəfini daşıdığını bilsəydilər bu cinayəti etməzdilər.

Əmirin acığı söndü. Vəzirin dedikləri onun başına girdi. Xacə Müfidi çağırıb dedi:

– Səba xanımın paltarlarını gətir! Onun nə istəyi varsa heç bir kəsə bildirmədən düzltməlisən.

Xacə Müfid getdi. Toxtamış Səba xanıma müraciət edərək onun həyəcanını təskinedici bir surətdə dedi:

– Həyatda bu cür hadisələr çox ola bilər. Lakin insan heç vaxt öz mətanətini itirməməlidir. Sən sabahdan etibarən Fəxrəddini görmək üçün çalışmalısan. Onun nə üçün səni gözləmədiyini öyrənməlisən. Hərgah bu ciyanət onun düzəltdiyi bir cinayət deyilsə, onu saraya gətirmək üçün çalış. O ki qaldı Nizami məsələsinə, öz dilənçilərini əldən buraxma. Zəhəri apardılarsa, qoy aparsınlar. Ondan Əmir həzrətlərində çoxdur. Bu günlərdə Nizami ailəsinin işini bitirməlisən. Onun özü də, Rənası da, himayəsində yaşamaqda olan şairə Məhsəti xanım da bu yaxın günlərdə məhv olmalıdır.



Səba xanım sevindiyindən ağlayaraq:

– Bütün varlığımla bu vəzifələri yerinə yetirəcəyəm, – dedi.

## HİYLƏ

Atabəy Məhəmmədi istiqbal etmək üçün düzələn təntənə olduqca mütəşəkkil keçdi. Atabəyi görmək və ona şikayət etmək, hətta əlini yuxarı qaldırıb ərizəsini göstərmək heç bir kəsə mümkün olmadı. Qarabağdan Gəncəyə qədər olan yolların ətrafında düzülüb təzə hökmdarı ziyarət etmək arzusunda olan on minlərcə əhali hələ Atabəy gəlib keçmədən öz evlərinə, öz kəndlərinə qayıtmağa məcbur oldular. Çünki Qarabağdan Gəncəyə qədər olan yol üzərindəki kəndlilərin bir çoxu həbsə alınmışdı.

"Atabəyə sui-qəsd etmək üçün gizlin bir cəmiyyət var imiş" – deyə hər tərəfə şayiə buraxılmışdı. Bu şayiələrin dalınca da "gizli cəmiyyətin üzvüdür" – deyə yüzlərcə adamların həbsə alınması bütün Aran xalqını qorxu altına almışdı.

Püsəran, Bazarcıq, Bərdə, Xürsənək, İsfahan və Xanəgah tərəflərində yaşayan xalq tamamilə başını öz daxmasına çəkib Atabəyin gəlib keçməsini gözləyir və şübhə altına alınmamaq üçün dişarı çıxa bilmirdi.

Vaxtilə Əmirin əlindən şikayət etmək üçün ərizə yazdıranlar indi qorxularından qaçıb gizlənmiş və ərizələrini də yandırmışdılar.

Əmir bu qədər müvəffəqiyyətə baxmayaraq yenə ehtiyatını əlindən buraxmamışdı. O, Atabəyin keçib gəldiyi yolları silahlı qoşunla polad hasar içərisinə almışdı.

Atabəy keçdiyi yollarda bir nəfərin də olsa gözə görünməməsindən təəccüb edərək Əmirin vəziri Toxtamışa sual verdi:

– Bütün yol uzunu təsadüf etdiyimiz abadanlıqda insan yaşamırmı? Mən Qarabağdan Gəncəyə qədər gəldiyim otuz dörd fərsəng yolda bir nəfər də olsun görə bilmədim. Əcəba bunun səbəbi nədir?!

Toxtamış qocalmış və əyilmiş başını bir daha əyərək:

– Belədir, əlahəzrət, belədir! – dedi. – Lakin onların yol üzərində görünməməsindən bu nökərinizin ürəyi qismən sakit olur. Çünki bir neçə gün bundan qabaq əlahəzrətin həyatına sui-qəsd etmək məqsədilə düzəldilmiş gizlin bir təşkilat ifşa edilmişdir. Allah-taala həzrətlərinə çox şükür olsun ki, Əmir həzrətlərinin gözüaçıqlığı sayəsində əlahəzrəti düzəlmiş xəyanətin bədbəxtliyindən qurtara bildik.

Toxtamışın bu sözləri Atabəy Məhəmmədi hər şeydən artıq düşündürdü, çünki qardaşı Qızıl Arslan Azərbaycan xalqının atabəylərə hüsn-rəğbət bəslədiyini dəfələrlə ona yazmışdı.

Toxtamış Atabəyin fikir dəryasına qərq olunduğunu hiss edərək, onun Azərbaycan xalqı haqqındakı şübhələrini bir daha dərinləşdirmək istəyərək dedi:

– Üsyançı kəndlərin hamısına cəza dəstələri qoyulmuşdur. Bunu Atabəy həzrətlərinin mübarək xatırlarına kədər yeritmək üçün deyil, əlahəzrəti öz məmləkətinin vəziyyəti ilə xəbərdar etmək üçün ərz edirəm.

Atabəy həzrətləri Aran məmləkətinə qədəm qoyduğu gün böyük bir üsyan başlanacaqdı. Əmir cənabları hadisənin qabağını bir ildırım sürətilə aldı. Bunların hamısı Əmir cənablarının təzə xanədanə olan səmimiyyət və sədaqətinin məhsuludur.

Atabəy fikrə getsə də, Toxtamışın azərbaycanlılar haqqında verdiyi məlumata inana bilmirdi.

Atabəyin qafiləsi Gəncə şəhərinə gəldiyi zaman Atabəy taxt-rəvanı saxlatdırıb at istədi. Əmir baş endirib dedi:

– Əlahəzrətin əmri nökərləri üçün qanundur. Lakin əlahəzrətin at üstündə şəhərə girməsi qorxuludur.

Atabəy bu sözlərlə razılaşmayaraq:

– At gətirin! – dedi.

Dərhal at gətirdilər. Atabəy taxt-rəvandan düşüb ata mindi. O, Gəncəni görməmişdi, şəhərlə həddindən artıq maraqlanırdı. Lakin Atabəy hər tərəfə baxsa da İraq atlılarından başqa heç bir kəsi görə bilmirdi. Ancaq saraya yaxınlaşdığı zaman müəyyən adamlardan ibarət bir istiqbal dəstəsi gördü. Bunlar mülkədarlar, ruhanilər, hökumət məmurları və sairlərdən ibarət idi. Atabəyin qafiləsinin dalısınca və qarşısınca iki mindən ibarət fars atlıları gedirdi. Atabəylər daima türk ölkələrinə səfər etdiyi zaman farsları yanlarınca götürər, fars məmləkətlərinə səyahət etmək istədikdə isə mühafizə dəstələrini türklərdən düzəldərdilər.



Əmir və onun vəziri belə bir tədbir görmüşdülər: Atabəy şübhələnməsin deyə ona ərizə vermək üçün müəyyən adamlar yaxın olan küçələrdə durub Atabəyi görərkən əllərini yuxarı qaldıraraq öz ərizələrini göstərirdilər. Atabəyin adamları ərizələri yığır və ağzı bağlı bir sandıqçaya salırdılar.

Atabəyə verilən ərizələrin məzmunu Əmirin ədaləti və onun məmləkət əhalisinə göstərdiyi məhəbbəti, üsyançıları məhv edib məmləkətdə əmin-amanlıq bərpa etməsi və Əmirin Aran hökumətində saxlanması arzularından ibarət idi.

Ərizələrin çoxunu Azərbaycanda böyük kəndlərə və malikanələrə sahiblənmiş ərəb və farsların türklər əleyhinə verdikləri şikayətnamələr təşkil edirdi. Fəxrəddin və sairlər nə qədər cəhd etdilərsə də irəli keçmək və bircə dənə də olsa ərizə vermək imkanını əldə edə bilmədilər.

Atabəy bu kimi müəmmalı vəziyyətin içərisində saray qapısına çatdı və atından düşüb saraya daxil oldu.

O, üç gün heç bir kəsi qəbul etmədi, səhərdən axşama kimi verilən ərizələri oxutdurub onlardan ölkənin vəziyyətini öyrənmək istədi. Lakin bütün ərizələrdə Əmirin ədalətindən, böyüklüyündən başqa heç bir məlumat verilmirdi.

Axşamları isə Atabəy vaxtını Əmirin düzəltdiyi ziyafətdə, eyş-işrətdə, saqilər, mütrüblər, rəqqasələr, gözəl cariyələr, çalanlar, oxuyanlar, nədimlər, məzhəkəçilər və təlxəklərlə əylənməkdə keçirirdi.

Atabəy nə Gəncə əyanlarının, nə də qonşu hökumətlərdən gələn heyətləri qəbul etməmişdi. O əvvəlcə vəziyyəti öyrənib sonra xalq nümayəndələri və qonşu hökumətlərdən gələn heyətləri qəbul etmək istəyirdi. Lakin bu da mümkün deyildi. Çünki Əmir onu xarici dünyadan ayırıb saraya salmış və qapısını bağlamışdı.

## TƏSADÜF

– Sən heç vaxt ruhdan düşmə, bu hadisəyə məğlubiyyət adı vermək olmaz, çünki mübarizə hələ bitməmişdir. Son cəbhəyə kimlərin sahib olacağı bəlli deyildir. İki döyüşən qüvvət növbətlə qələbə əldə

edə bilər. Lakin mübarizənin sonunda hər kəs qazandığı qələbəni əlində möhkəm saxlamağı bacarsa, həqiqi qalib odur. Əmir isə əldə etdiyi qələbəni hələlik möhkəmləndirə bilməmişdir. Mən elə zənn edirəm ki, bu qələbə, nəhayət, onun ifşa edilməsilə nəticələnəcəkdir.

Nizami bu sözləri Fəxrəddinə deyirdi. Lakin Fəxrəddin bir daha qələbə əldə edə biləcəyinə əmin deyildi. Onun fikrincə, Atabəy məmləkətin vəziyyətini öyrənmədən və xalqın həyatı ilə tanış olmadan Arandan gedəcəkdi.

Buna görə o, şübhələrini Nizamiyə açmaq istədi:

– İndi Əmir bizdən çox asanlıqla intiqam ala biləcəkdir. Madam ki, Atabəy üç günün müddətində bir kimsəni qəbul etməmiş və xalqın nümayəndələrini yanına çağırmamışdır, deməli biz bundan yaxşı heç bir nəticə gözləyə bilmərik.

– Sən, xalqın əlində qalan ərizələri yığıb saxla, qorxudan yandırılmış ərizələrin təzədən yazdırılmasına çalış. Heç şübhə yoxdur ki, Atabəyə verilən ərizələrin hamısı bizim əleyhimizə olmasa da Əmirin leyhinədir. Atabəy mütləq məni öz yanına dəvət edəcəkdir. Mən sənə söz verirəm, mənə inan, əlində yığılıb qalan ərizələri Atabəyin şəxsən özünə verəcəyəm. Əmir mənə heç bir şey edə bilməz. O məni məhv etməyi bacarsaydı, Atabəyin bura gəlməsini gözləməzdi. Gec-tez mən Əmirlə üz-üzə gəlməyə məcbur olacağam. İndi çox əlverişli bir gündür. Onun xəyanətlərini üzünə çırpmaq lazımdır. Sən mənə inan, Atabəyin Əmirə qarşı bəslədiyi müsbət fikirləri tamamilə dağıdacağam. Lakin mən yalnız bir şeydən qorxuram.

Nizami bu sözləri dedikdən sonra sudu. Fəxrəddin isə onun bu son sözlərindən şübhələnərək soruşdu:

– Səni qorxudan səbəbləri mənə söyləyə bilməzsənmi?!

Nizami Fəxrəddinin bu sualından sonra qalxıb otaqda bir qədər gəzindi və dedi:

– Bizim mübarizəmizin çətinliyi orasındadır ki, mübarizə apardığımız adam hər bir alçaqlığa getməyə qabildir. Əsrimizdə bu cür adamlar çoxdur, onlar xain, dəyərsiz, qabiliyyətsiz olduqları üçün yüksəlməyi ancaq alçaqlıqda axtarırlar. Bizim mübarizə apardığımız Əmir də bu qəbil adamlardandır. O bu gün Toxtamışın tədbirləri nəticəsində yaxasını şikayətçilərin əlindən qurtardısa da, bu müvəqqətidir. Onu Azərbaycanda heç bir qüvvət yaşada bilməz. Onu burada saxlaya bilən bir qüvvət varsa o da gənc və gözəl qızı Qətibədən ibarətdir.



Fəxrəddin bu sözə etiraz edərək dedi:

– Ola bilməz! Qız çox gəncdir. Atabəy isə yaşlıdır.

– Sən tarixi unutma. Xəlifə Qaim Biəmrullah öz on üç yaşlı qızı Seyidəni altmış beş yaşında olan Toğrul bəyə nə məqsədlə vermişdisə, bizim Əmirimiz də öz iyirmi iki yaşlı gözəl Qətibəsini altmış yaşında olan Atabəy Məhəmmədə haman məqsədlə verə bilər. İndi məni anladınmı? Məni qorxudan cəhət də bundan ibarətdir. Hazırda biz, alçaqlıq və həyasızlığın həqiqətlərə üstün gəldiyi bir əsrdə yaşamaqdayıq! Nə edəcəksən?! Biz hər nə olursa olsun bütün həyasızlıq və alçaqlıqlara qarşı həqiqətlə müqabilə edəcəyik; indi məğlub olsaq da, tariximiz qalib çıxacaqdır. Sənə bir vəsiyyət edəcəyəm: heç bir zaman "gedin, qorxmayın, dalınızca gəlirik" – deyənlərə inanma, eləiəri bir çətinlik hiss etdiyi zaman ya qayıdıb qaçar, yainki düşmənə satılaraq səni arxadan vurar. Bu xəyanəti ancaq yuxarı təbəqə içərisindən gözləməlisən. Aşağı təbəqəni qəsbkarlara qarşı mübarizənin qabaq cərgələrində görəcəksən. Onlar öz haqları və öz rəhbərləri yolunda ölməkdən qorxmazlar. Çünki onlar keçirdikləri həyatda hər gün bir neçə kərə ölüb yenə də dirilirlər. Ölüm onlar üçün o qədər də dəhşətli deyildir.

Fəxrəddin Nizaminin əlini sıxaraq:

– Belədir böyük şair! – dedi. – Lakin bizim arxalandığımız yoxsullar da qəsbkarlara öz avamlıqları üzündən tez-tez aldana bilərlər. Əmir isə hər gün mənim üçün bir hadisə törədir. Səba kimi bir əxlaqsızı mənə qarşı qoyubdur.

Nizami heyrətlə qaşlarını çataraq soruşdu:

– Səbanın hərəkətlərini sən bir hadisəmi hesab edirsən?!

– Onun məni saraya aparmaq istəməsi məgər qorxulu bir hadisə deyilmidir?!

– Çox əcəb, o səni saraya dəvət etdi, sən də boyun qaçırdın. Burada nə kimi bir hadisə vardır?!

– Vardır. Böyük hadisə baş verdi. Haman gecə mən onunla görüşməyə getmədim. Görüş üçün bir neçə adam göndərdim. Onlar isə Səba xanımı soymuş, qiymətli şeylərini əlindən almış, özünü təhqir etmiş, hətta saçlarını belə kəsmişlər.

– Sən hansı bir ağılla bu işi tutdun?! Qadını təhqir etmək, qadının saçlarını kəsmək kimə yaraşar?! Bunu özünə qəhrəman adı verən bir adam vicdanına sığışdıra bilərmi?!

Fəxrəddin, acığın gəlməsin, belə görürəm ki, biz keçmiş çocuqluq və gənclik günlərimizin xatirəsilə kifayətlənərək ayrılmağa məcbur olacağıq. Mən bir qadına qarşı edilən bu cür rəhmsiz hərəkətlə razılaşa bilmərəm.

Fəxrəddin hər dəfə olduğu kimi yenə də sakit durmayıb cəsarətlə cavab verdi:

– Sənə bir sual verirəm: o həyasız qadın məni aldadıb saraya aparmaqda məqsədi nə idi? O məni ziyafətəmi aparırdı? Əcəba, saraya girən kimi mən məhv edilməyəcəkdimmi?! Məni öldürmək istəyən bir xainə nə cəza verə idim? Mən onu hələ öldürməli idim, lakin saçlarını kəsdirməklə bu dəfə ona xəbərdarlıq etdim.

– Sənin dediklərin doğrudur. Orada səni məhv edəcəklərdi, getmədin, çox da ağıllı iş gördün. Lakin sən Səba xanımın Əmirdən gətirdiyi məktubu alıb cibinə qoymalı idin, sonra da ona nəsihət verib deməli idin ki, "mən sənin xəyanətinə qarşı səni öldürüb məhv etməli idim, lakin səni bağışlayıram, bir daha belə işlər görmə! Bu cür işlər sənin əbədi olaraq bədbəxtliyinə səbəb olar".

Məncə, Səba xanım səndən gördüyü bu alicənablığa qarşı utanar və bir daha bu cür xəyanətlərə iqdam etməzdi.

– Yox, onun əxlaqı pozulmuşdur. Onu heç bir nəsihət və heç bir cəza doğru yola gətirə bilməz. Onun şəxsən mənim əleyhimə olmasının səbəbi bəllidir. Əmir də bundan istifadə edərək ona bu vəzifələri tapşırır. O isə Əmirin dediklərini ifa etməyə məcburdur. Belə olduqda mən özümü müdafiə etməyə və düşmənə öz yerini göstərməyə haqlı deyildimmi?!

Nizami daha danışmırdı. Səba məsələsinin bu kimi bir təhqirlə həll olunduğu onu təbii halından çıxarmışdı. Fəxrəddin isə pərişan bir xatırla durub pəncərədən həyətə baxırdı. O, böyük bir həyəcan içində idi. O bu səhvi nəticəsində Nizami kimi bir səmimi yoldaşını itirəcəyindən qorxurdu.

Lakin Fəxrəddinə təsəlli verəcək bir cəhət var idi. Nizami küsməyi bacarmaz və kin saxlamağı sevməzdi. O bir neçə kərə Fəxrəddinə acıqlanmış, bir-iki gün onu danışdırmamışdısa da, lakin sonra yenə də özü çağırıb barışmışdı. Amma onun bu son səhvi Nizamini təbii halından çıxarmışdı. O, bir dəqiqə də olsa saç kəsilməsi məsələsini yadından çıxara bilmirdi. Tez-tez evi dolaşır və deyirdi:

– Kimə söyləyəsən? Bir qadını təhqir etmək bəs deyilmiş, üstəlik bir saçlarını da kəsdirdin!



Fəxrəddin danışmırdı, o, pəncərədən həyətə baxıb düşünürdü.

Bu anda bir dilənçi qadın küçə qapısından həyətə girdi. Həyətdə kimsə yox idi. Qadın ocağın başına tərəf irəlilədi. Bir daha o tərəf bu tərəfə baxıb qoynundan nə isə çıxartdı və tələsik ocaq üstündə qaynamaqda olan qazançaya tökdü.

Dilənçi qayıdıb həyətdən çıxmaq istərkən birdən Fəxrəddin dəli kimi yerindən sıçrayaraq qışqırdı:

– Dayan, haramzadə! – O cəld həyətə atıldı və dilənçinin qolundan tutub otağa çəkdi.

Dilənçi qorxusundan titrəyirdi. Fəxrəddin onu üzü üstə yerə atıb xəncərini çəkdi:

– De görüm qazançaya atdığın nə idi?

Dilənçi qadın yalvarmağa başladı:

– Rəhm et! Öldürmə. Bu mənim işim deyildi.

Fəxrəddin isə sakit olmayaraq təkrar edirdi:

– De görüm qazançaya atdığın nə idi?

Nizami dilənçinin və Fəxrəddinin danışıqlarından heyrətə düşmüşdü. O, məsələnin nədən ibarət olduğunu və mübahisənin nə kimi bir cinayət üstündə başlandığını bilmirdi. Buna görə də Fəxrəddinə müraciət edib qışqırdı:

– Bu nə deməkdir?! Mənim evimdə zavallı dilənçini nə üçün incidirsən?

Fəxrəddin ona cavab verməyərək dilənçiyə təpindi:

– Doğrusunu söyləməsən, heç bir nəsihətə baxmayıb səni öldürəcəyəm.

Dilənçi bu dəfə Nizamiyə yalvarmağa başladı:

– Məni öldürməsin, hər nə varsa, əvvəldən axıra qədər deyəcəyəm. Allah o qızın evini yıxsın, mənim bu cür işlər nəyimə lazım idi?!

Nizami soruşdu:

– Hansı qızı deyirsən?

– Adını bilmirəm. Amma özünü tanıyıram. Əbül-Ülanın evində olduğu zaman mənə olmazın ehsanlar etmişdi. İndi də əli böyük yerlərə çatıbdır. Hər cümə axşamı qəbiristanda mənə rast gələndə yenə də ovuc dolusu pul verib kefimi xəbər alırdı. Bir gün yenə də o məni qəbiristanda görüb bir ovuc pul verdi və dedi ki, sənə bir iş tapşıracağam. Hərgah yerbəyer edə bilsən, səni dilənçiliyin əlindən qurtaraca-

ğam. Nə kimi bir iş tapşıracağınnı soruşdum. Dedi ki, "mən bir torpağa cadu oxutdurmuşam, onu aparıb filankəsin xörəyinə tökməlisən".

Mənim günahım bundan ibarətdir, vəssalam.

Nizami Fəxrəddinə müraciətlə:

– Sən bunun qazançaya bir şey tökdüyünü gördünmü? – deyə soruşdu.

– Bəli, gördüm, qazançaya tökdüyü cadu torpağı deyil, sizi zəhərləmək üçün hazırlanmış zəhərdir. İndi bu saat onun zəhər olub-olmadığını bilərsən.

Fəxrəddin bunu deyərək cibindən çıxardığı zəhərləri açıb dilənçiyə göstərdi:

– Qazançaya tökdüyün torpaq bu torpaqdan idimi?

Qadın ağlaya-ağlaya:

– Bəli, bu torpaqdan idi, – dedi.

Fəxrəddin Nizamiyə tərəf döndü:

– Bu zəhərlər Səba xanımın cibindən çıxmış şeylərin içərisində idi. O səni də, Rəna xanımı və Məhsəti xanımı da məhv edəcəkdi. İndi deyin görüm mən onu öldürməməkdə səhv etmişəm, ya yox?!

Bu onun şəxsi təşəbbüsüdür. Onu heç bir kəs buna məcbur etməmişdir.

## QƏBUL RƏSMİ

Atabəy Məhəmmədin Gəncəyə gəldiyinin üçüncü günü carçılar Gəncə bazarında bu sözləri car çəkirdilər:

"Hər gün səhər saat doqquzdan günortaya qədər Atabəy Məhəmməd həzrətlərinin təyin etdiyi hökumət məmurları əhali tərəfindən veriləcək ərizələri qəbul edəcəkdir. Bir həftənin müddətində hər kəsin ərizəsi varsa, gətirib verməlidir. Verilən ərizələri şəxsən Atabəy həzrətlərinin özü oxuyacaqdır".

Qəbul rəsmi səhər saat 9-dan başlamışdı. Eyni zamanda Atabəyin məmurları saray qapısından bir az kənarda kürsü qoyub oturmuşdular, gətirilən ərizələri ağzı möhürlənmiş sandığın deşiyindən içəri salırdılar.

Əmirin böyük salonu döşənmişdi. Atabəy Məhəmməd bir neçə gün qonşu hökumətlərdən gələn heyətləri qəbul etdi. Şirvan, Gürcüstan və Abxazdan gələn heyət üzvlərini qəbul etdi, gətirilən hədiyyələri, xalıları və gözəl atları nəzərdən keçirdi.



İkinci gün Gəncə xətibi və Gəncə ruhaniləri Atabəyin hüzuruna qəbul olundular. Şairlərdən ancaq Əbül-Üla çiynində qiymətli bir xələt olduğu halda Atabəyə təqdim edilərək yazdığı mədhnaməni oxudu.

Əbül-Ülanın mədhnaməsindən Atabəy o qədər də xoşlanmadı, bir kəlmə də olsa danışmadı və şairi mükafatlandırmadı. Ancaq məclisə göz gəzdirib Əmirə müraciət etdi:

– Bəs Gəncənin sənətkar şairi Nizami hanı? Onun şerləri Xarəzmşahlar, Şirvanşahlar, Qızıl Arslanlar sarayında oxunduğu halda, iki addım məsafədə olan Əmir sarayında onun səsi eşidilmir?!

Mən Təbrizdə Qızıl Arslan sarayında qonaq qaldığım gün o, süfrə başında sənətkar şairin iki misrasını oxudu. Nə qədər mozun, nə qədər şairanə idi:

Fəqirəm, bəxtiyaram, sanmayın kim tirə baxtım var,
Məhəbbət mülkünün soltanıyam, öz tac-taxtım var.

Bəs hanı Soltan Səncər xəzinəsinin qiymətli cavahirlərini yaradan Məhsəti xanım?! Hanı Azərbaycan mülkünün Xəyyamı?! O da burada yoxdur! Qızıl Arslan Məhsəti xanımdan bir neçə rübai oxuduqdan sonra məndə belə bir qənaət hasil oldu ki, Məhsətini oxuyan Xəyyamı, Xəyyamı oxuyanlar isə Məhsəti xanımı oxumuş kimidir.

Mən Şimali Azərbaycan səyahətinə gəldiyim zaman hər şeydən əvvəl Xaqani, Nizami və Məhsəti xanımla görüşməyi qərara almışdım. Nədənsə mənim arzum əleyhinə olaraq sənətkar şairlərin heç birisini bu məclisə dəvət etməmişlər. Şair olmayan məclisdə xalq da yoxdur. Buradakılar isə məncə, daima Əmirin sarayında vaxt keçirən şəxsiyyətlərdir.

Mənə qalırsa, Əmir bu səhvini çox tez bir surətdə düzəltməlidir. Mədəniyyəti yaradan, məmləkətin nöqsanlarını hamıdan əvvəl hiss edən, xalqın arzu və iradəsini bədii bir şəkildə ifadə eləyən ancaq şairlərdir.

Əmir qalxıb baş endirdi, danışmaq üçün icazə aldı.

– Atabəy həzrətlərinin buyurduqları doğrudur. Lakin şeir dünyasının tacdarı Əbül-Üla olan məclisdə gənc Nizaminin və gənc Xaqaninin şeir oxumağa cürəti yoxdur. Məhsəti xanım isə çox qoca və bərk xəstədir.

Atabəy Əmirin sözünü ağzında yarımçıq qoyub dedi:

– Siz elə bilməyin ki, mənim vaxtım fars və İraq-ərəbdə gedən müharibələrə məşğul olduğu üçün Azərbaycandan xəbərim yoxdur. Aldığım məlumata görə qoca şair Əbül-Üla özündən sonra şeir dünyasına yol açan gənc Nizami və gənc Xaqanini görmək istəmir. Buna görə də mən Əmirin sözünü bir cəhətdən təsdiq edərək deyirəm ki, bəli: Əbül-Üla olan məclisə nə Xaqani, nə də Nizamilər gəlmək istəməz!

Bunun qüsuru yenə də məmləkətin iradəçilərindədir. Qocalara keçmişləri, gənclərə isə gələcəyi üçün qiymət verilsəydi, hər kəs öz əməyinin qədərincə mükafat alardı. Bu gün minlərcə fərsəng yoldan Gəncənin ziyarətinə gələn Atabəy öz məmləkətinin dəyərli simalarını öz məclisində görmək səadətindən məhrum edilməzdi.

Əmir həzrətləri elə bilməsin ki, hökmdarlar yalnız qılıncla məşğul olmalıdır. Mən Əşrəfsani Səmərqəndi ilə görüşdüyüm zaman qoca filosof birinci görüşdə məndən gənc Nizamini soruşdu. Seyid Həsən Əşrəf Qəzvini çox ixtiyar bir şair olduğuna baxmayaraq uzaqdan-uzağa Nizaminin və Xaqaninin müridi kəsilmişdir.

Mənim sarayımda aylarca qonaq qalan həkim Suzəni Səmərqəndi, Camaləddin, Əbdürəzzaq İsfahani, Həkim Muxtari, Şəhabəddin, Məhəmməd ibn Rəşid Qəznəvi, Nizami Əruzi Səmərqəndi, Şah Səncan, Xacə Cəlal Dərəkani və sairlərinin dilindən ancaq Nizami və Xaqaninin sənətkar şair olduğuna dair mədhlər eşitdim. Lakin Azərbaycanda bunun əksinə təsadüf edirəm. Burada mədəniyyətin qocalmış fikirlər əsasında qurula biləcəyi zehniyyəti yenə də bir səhv olaraq davam edir, qocalar öz səhvlərini düşünməyərək mövqelərini gənc qüvvələrə təslim etmək istəmirlər. Şəxsən mən, bir hökmdar kimi, öz fikrimi deyirəm: mən nə həcv, nə də mədh yazan şairləri xoşlamıram.

Atabəy bu sözləri dediyi zaman üzünü Əbül-Ülaya tutub sözünə davam edirdi:

– Azərbaycan bizim məmləkətlərimizin içərisində ən mədəniyyətli və irəlidə gedən bir ölkədir. Siz alimsiniz, özünüz tarixi yaxşı bilirsiniz. Şərqə, xüsusən İran kimi böyük bir məmləkət elm və mədəniyyəti verən İslamdan qabaq bu yerlərdə yaşayan babalarımız olmuşdur. Şübhəsiz ki, tarixdə oxuduğumuz o yüksək mədəniyyət yaşadığımız məmləkətə xaricdən gətirilməmişdir. Bu mədəniyyət, bu elm, yurdumuzda yaşamış alimlərin və filosofların fikrindən doğan qiymətli bir məhsuldur. Əbüləbbas ləqəbini daşıyan məşhur filosof Əhməd ibn Məhəmməd bu yurdun oğludur. Əbübəkr Tahiri kimi, Əbü Məhəmmədi Mürtəiş kimi alimlərə tərbiyə verən Bərdə alimidir. Azərbaycan xalqının təbiətindəki qəhrəmanlıq, Azərbaycan filosofu Əhməd ibn Məhəmmədin yazdığı fəlsəfi əsərlərində də əks etmişdir. Onun əlimdə olan əsərindən sizə bir neçə nümunə deyəcəyəm.



O deyir ki: "Sən heç vaxt cəzalanmaq qorxusu üzündən susan adamlarla məsləhətləşmə".

O deyir ki: "Görüşündən müsbət bir nəticə əldə edə bilmədiyin adamın sözündən də müsbət bir nəticə ala bilməzsən".

Lakin mən qocaman şair Əbül-Ülanın gənc şairə, hətta öz damadı olan Xaqaniyə yazdıqları həcvləri Qızıl Arslanda gördüyüm zaman məyus oldum. Əbül-Ülanın, Əbüləbbasların yurdunda yaşamaq səlahiyyətinə malik olmadığını təyin etdim. Sizin Xaqaniyə yazdığınız həcvin bərabərini Xaqani sizə yazsaydı, o gəncdir, səhv etmişdir, bağışlamaq olar, deyərdik. Lakin ixtiyar bir şair, öz damadına, öz övladına qarşı bu cür rüsvayçılıq yaradırsa, buna nə ad qoya bilərik?! Məncə, belə bir şair mədəni Azərbaycanın şairi olmaq səlahiyyətinə layiq deyil.

Qoca şair məndən rəncidəxatir olmasın. O mənə yazdığı mədhnaməni oxuduğu zaman ətim çimçişirdi. Özüm-özümə deyirdim ki:

– Əcəba, bir insanı, bir şəxsiyyəti bu qədər də təhrif etmək olarmı?! Çünki insanlara layiq olmadıqları sifəti verib tərif etmək – təhrif etmək deməkdir.

Şair burasını birkərəlik bilməlidir ki, mədhnamələri ancaq axmaq adamlar sevə bilərlər. Sən mənim gördüyüm işləri təsvir etsəydin, bunun məmləkət üçün xeyirli və yainki zərərli olduğunu qeyd eləmiş olsaydın, şerinə ictimai bir qiymət vermək olardı.

Sən alim bir şairsən. Özünə aydındır ki, xəlifə nüfuzu hökm sürən məmləkətlərin içərisində Azərbaycan hamıdan artıq diqqət-nəzərini cəlb edir. Bu məmləkətdə olan siyasətin, iqtisadi və ictimai həyatın özü də başqa məmləkətlərdən fərqlidir.

Bu məmləkətin üsyançısı da, qəhrəmanları da, başqa məmləkətlərə nisbətlə mədəni, ağıllı və bacarıqlı olmuşlar. Yurdumuzun Babəki, daha əvvəl Astiyaqı, Fərhadı, Şərq dünyasını kökündən dəbərtmiş olan tarixi simalardır. Onların övladının şüurunu həcvlər və mədhnamələrlə korlamaq istəyən şairlər, məncə, xələtlərə yox, cəzalara layiqdir.

Atabəy bundan sonra Əmirə və xətibə tərəf üz tutub dedi:

– Bu gün hökmüm altında olan bütün məmləkətləri beş barmağım kimi tanıyıram. O məmləkətlərin heç birisində Məhsəti xanım kimi

aləmşümul şöhrətə malik olan bir qadın nəzərimə dəyməmişdir. Lakin siz onu nə kimi bir mükafatla qiymətləndirdiniz?! Ona "əxlaqi pozğun" deyərək evini daşa basdınız, bünövrəsindən yıxdınız, onun ağarmış saçlarından utanmayaraq üzünə tüpürdünüz. Mədəniyyət tariximizə silinməz bir ləkə vurdunuz. Mənim hökm sürdüyüm bir məmləkətdə bu cür rüsvayçılığın baş verməsi xanədanımızın tarixində bir ləkə olub qalacaqdır.

Atabəy Məhəmməd sözünü bitirdi. Əmir yenə ayağa qalxdı, icazə alıb danışdı:

– Atabəy həzrətləri xalqın avamlığını bilməmiş deyil. Məhsətini qara camaat tökülüb sürgün etmişdi, qara camaat da gedib təntənə ilə Gəncəyə gətirdi.

Atabəy Əmirin sözləri ilə razılaşmadı, qəti olaraq əmr verdi:

– Səhvləri düzəltmək lazımdır. Məmləkət idarəsi başında duran adamlar hər kəsin öz qiymətini verməlidir. Rəqqasəlik, xanəndəlik, rəssamlıq, nəqqaşlıq, şairlik və sairlərin hamısı bir mədəniyyətin məhsuludur. Lakin şairin əməyinin qiymətini rəqqasəyə vermək, şeir mədəniyyətinin qarşısına hasar çəkməkdir. Belə hallarda yazıçı və şair gülünc bir vəziyyətdə qaldığı üçün özlüyündə:

– Yazıçılığı, şeiri buraxıb rəqqasəlik etsəydim, daha xoşbəxt olardım – deyə düşünərdi.

Mən dünən gecə Əmirin rəqqasələrinin daşıdığı daş-qaşı, zər-zivəri gördüyüm zaman, Nizami və Məhsəti xanımın bir arıq inəyin südü ilə yaşadıqlarını xatırladım, başımda tüklərim qabardı.

Təbiidir ki, Nizami və Məhsəti ehsanlar üçün şeir yazan sənətkarlar deyildir. Lakin bizdən qədrdanlıq tələb olunur. Mədəniyyətin inkişafı bunu hər bir hökmdardan tələb edir. Şairə verilən qiymət onun aclığı üçün yox, sənəti və yaradıcılığı üçün verilir.

Əmir cənabları bu saat öz adamlarını göndərib Nizamini və Məhsəti xanımı öz dostları və tanışları ilə bərabər bura dəvət etməlidir. Yüksək təbiətli bir zatı görmək nə qədər maraqlıdırsa, onun həmsöhbətlərini görmək də o qədər maraqlıdır.

Atabəy bu sözlərdən sonra, Şirvan şahı tərəfindən gəlmiş heyətin sədri Nəcməddinə müraciət edib:

– Mənim səmimi salamlarımı Əbdülmüzəffər həzrətlərinə aparıb deyərsiniz ki, iki məmləkət arasında olan səmimi dostluq əlaqəsi tarixi əsaslar üzərində daha da inkişaf edəcəkdir. Mən Şimali Azərbaycana gəldiyim zaman qardaşım Qızıl Arslan xüsusi bir sifariş vermişdir ki, o da Nizami, Xaqani və Məhsəti xanıma səmimi salamlar yetirməkdən ibarətdir. Şirvana getdiyiniz zaman Qızıl Arslanın salamını gənc şair Xaqaniyə yetirin.



## MUĞAN

Dördüncü gün Atabəy Məhəmməd Nizami ilə Məhsəti xanımı və həqiqi Azərbaycan nümayəndələrini qəbul edəcəkdi. Atabəy verilən ərizələrlə məşğul olduğu üçün rəsmi qəbul vaxtı iki saat təxirə salınmış və bu barədə nümayəndələrə xəbər verilmişdi. Saat 11-də Atabəy qəbul salonunda göründü, yığılmış nümayəndələri gözdən keçirib salamladı və Əmirə müraciətlə:

– Torpaq üstündə şikayət verənlər burada hazır deyilsə, hazır edilmələrinə əmr verin.

Əmir baş endirib:

– Hamısı buradadır, əlahəzrət, – dedi.

Atabəy sözünü davam etdirib soruşdu:

– Qabaqca mənə verilən ərizələrin hamısı torpaq sahiblərindən idi. Mənə elə gəlir ki, indi torpaqlarda yaşayanları da dinləmək lazımdır. Dünən verilən ərizələr içərisində mülkədarlar tərəfindən verilən ərizələrə cavab verə biləcək vəsiqələr vardır. Lakin mən bununla kifayətlənə bilmirəm, kəndlinin özünü danışdırmaq daha da faydalı olar.

Hüsaməddin qəbul salonuna daxil olub baş endirdi:

– Nizami və Məhsəti xanım gəlir.

Salon bir-birinə dəydi. Şair Əbül-Üla Gəncə xətibi ilə yan-yana oturmuşdu. Onlar salonda oturanlara göz gəzdirib nə kimi bir vəziyyət aldıqlarını yoxladılar. Hər kəsin üzündə bir şadlıq əlaməti hiss etdilər. Yalnız, Əmiri özləri kimi qəmgin və narazı bir çöhrədə gördülər. Əmir də onların vəziyyətini hiss edərək qaşları ilə, çiyinləri ilə işarə verdi. Bu işarə "nə etməliyik, məcburiyyət vardır" sözlərini ifadə edirdi.

Xidmətçilər salon qapısının ipək pərdəsini qaldırdılar. İki böyük zat içəri girdi. Onlardan birisi gənc şair Nizami, o birisi isə qoca şairə Məhsəti xanım idi. Birisinin saç və saqqalı qapqara idi, o birisinin saçları isə işıqlanmağa başlamış dan yeri kimi parlayırdı. Atabəy onlara baxdığı zaman iki böyük dünyanın onun oturduğu taxta tərəf irəlilədiyini hiss edir və düşünürdü.

Məhsəti xanım həm qocalıq, həm də xəstəliyinə cəhət olduqca zəif idi. Onun bir qolundan Nizami, o biri qolundan isə Fəxrəddin tutmuşdu.

Atabəy, artıq taxtının üstündə oturmağı bacarmadı, sürətlə yerindən qalxdı. Atabəy ayağa qalxdığı zaman kimin öz kürsüsü üstündə oturub qalxmamağa cəsarəti var idi?!

Əmir də dərhal ayağa qalxdı, qonşu dövlətlərin nümayəndələri, Gəncə ruhani və əyanları, hətta Əbül-Üla və Gəncə xətibi də ayağa qalxdılar.

Atabəy onların daha da irəli gəlib baş endirmək, yaxud salam vermələrinə razı olmadı. Dərhal irəli gedib qabaqca Məhsəti xanımın əlini öpdü, sonra da Nizaminin əlini sıxıb görüşdü. Fəxrəddinə tərəf dönüb Nizamidən soruşdu:

– Bu cənabı tanımıram.

Nizami cavab verdi:

– Bu cənab Aran əsilzadələrindən, Aranda öz qılıncları ilə şöhrət qazanmış Soltanlı tayfasındandır. Adı Fəxrəddindir. Aran xalqının nümayəndəsi sifətilə əlahəzrətə təqdim olunmaq üçün gəlmişdir, mənim məktəb yoldaşım və gənclik sirdaşımdır.

Atabəy Fəxrəddinin əlini sıxıb:

– Ziyarətinizdən məmnun və məhzuz oldum, – dedi. Sonra Nizami və Məhsəti xanıma tərəf dönüb əlavə etdi:

– Məni bağışlayın. Qardaşım Qızıl Arslanın salamını sizə yetirmək üçün özüm yanınıza gəlməli idim. Lakin sizi bu tarixi məclisdə görüb qardaşımın salamını yetirmək istədim. Qızıl Arslan sizin rahətinizi təmin etmək üçün mənə dəfələrlə tapşırıq vermişdir. O, iki nəfər sənətkarın bir ineklə güzəran etdiklərini çox təəssüflə mənə söyləmişdir. Eyni zamanda sizin heç bir kəsdən mükafat və xələt qəbul etmədiyinizi də əlavə eləmişdir. Lakin cəsarətlə demək istəyirəm ki, yoxsulluq və ehtiyac şairin yaradıcılıq qüdrətini azalda bilər. Əyləşin, rica edirəm.

Atabəy bunları söylədikdən sonra Nizamini sağında, Məhsəti xanımı sol tərəfində əyləşdirdi.

Atabəy Məhəmməd söhbət arasında Nizamiyə müraciətlə:

– Mən Həmədandan Şimali Azərbaycan səyahətinə çıxdığım zaman sizin yazdığınız şerləri öz ağzınızdan eşitmək arzusunda idim. Bu gün həmən arzularıma nail ola bilərəmmi?



Nizami:

– Mən heç vaxt mədhnamələr yazmamışam, sizin də mədhnamələr sevmədiyinizi bilirəm. Qardaşınızın məktublarından bunu hiss etmişəm, – dedi.

– Mən arzu edərdim ki, siz bir şerinizi mənə oxuyasınız.

– Hansı şeri?

– "Fəqirəm, bəxtiyaram" sərlövhəli şerinizi.

– Etirazım yoxdur.

Nizami bu sözü söylədikdən sonra ayağa qalxdı. Bütün nümayəndələr qulaq kəsilərək şairin səsini eşitmək və onun sənətcə böyüklüyünü görmək istəyirdi. Nəhayət, şair şerini başladı:

### FƏQİRƏM BƏXTİYARAM

Fəqirəm, bəxtiyaram, sanmayın kim tirə baxtım var,
Məhəbbət mülkünün soltanıyam, öz tac-taxtım var.
Bu dəhrin yummuşam göz sərvətindən, xələtindən mən
Fəqirəm, feyz alır yüzlərcə hatəm[1] şer süfrəmdən.
Bulanmaz xatirim, dərya qədər fikrimdə yekrəngəm,
Bir ölçülməz mühitəm, öz mühitimlə həmahəngəm.
Nə dərdim? İncilərdən incədir hər beytim, hər fərdim,
Qəzəlxan bülbüləm, hər bağçadan bir türfə gül dərdim.
Süleymanlar gəlib sərmayə alsın söz xəzinəmdən,
Bir əflakəm, düşər bir gün günəş dünyayə sinəmdən.
Deyil fərzanə baş, əhsan üçün təzim edən başlar,
Dağam, sinəmdə çoxdur tacları təzyin edən başlar.
Dənizlər yerləşir sinəmdə, qorxum yox təlatümdən.
Fəqirəm, bəxtiyaram, bir yenilməz kainatam mən.

Nizami şerini oxuyub yerində oturdu. Atabəy isə başına fikirli bir surətdə hərəkət verərək:

– "Fəqirəm, bəxtiyaram, bir yenilməz kainatam mən" – deyə bir daha təkrar etdi, sonra Nizaminin əlini bir daha iki əllərilə tutub sıxdı və Məhsəti xanıma dönərək ona müraciət etdi:

– İndi də ölkəmin fəxri olan möhtəşəm qadının səsini eşitmək istərdim.

---

[1] Taili Hatəm – Şərq tarixində məşhur səxavət sahibidir.

Məhsəti xanım yerindən qalxdı, üzünü məclisə tutub bu rübaini oxudu:

Ma mərdü meyim, dər Xərabatu müqim,
Nə mərdü səccadəim, nə mərdü kilim,
Qazi nəxürəd mey ki əzan darəd bim,
Dürdüyyi xərabat beh əz malü yətim[1].

Məhsəti xanım bu rübaini yetim malını süpürləyib yeyən və hazırda Atabəyin məclisində əlində təsbeh oturan Gəncə qazisi haqqında dedikdən sonra, üzünü vaxtilə onu Gəncədən sürgün etdirən xətibə tərəf tutub aşağıdakı rübaini oxudu:

Ey sahibi fitva, zi to pürkar tərim!
Ba in həmə məsti zi tö huşyar tərim.
Tö xunu kəsən xurivü ma xuni rəzan,
İnsaf büdeh, küdamü xunxar tərim?![2]

Sonra xətibin nəhayət dərəcədə xəcalət çəkdiyini hiss edincə bu rübaini də əlavə oxudu:

Çün mavu şüma, müqabili yekidigərim
Beh zan nə bünəd ki pərdeyi həm nədərim.
Ey xacə, tö eybü mən məqu, ta mən niz
Eybü tö nə qüyəm, ki yek-əz yek bətərim[3].

Məhsəti xanımın bu rübaisindən Atabəy Məhəmməd də, qazi də, xətibin özü də gülüb bir səslə "Əhsən!" dedilər. Atabəy qalxıb bir daha Məhsəti xanımın əlini öpdü.

---

[1] Bizim özümüz mey içənlərik, yerimiz də Xərabət məhəlləsidir. Nə səccadə, nə də kilim üstündə oturub ibadət edənlərdən deyilik. Qazi şərab içməyir, çünki günahdan qorxur. Lakin Xərabətdə içilən şərab piyalələrinin dibini yalamaq yetim malını yeməkdən yaxşıdır.

[2] Ey fitva sahibi, bizim bacarığımız səndən daha artıqdır. Bu qədər sərxoş olduğumuza baxmayaraq yenə də səndən huşyarıq. Sən insan qanı içirsən, biz isə meynənin qanını içirik. Sən özün insafla de görüm, bizim hansı birimiz çox qan içənik?

[3] Çünki biz və siz bir-birimizin müqabiliyik. Yaxşı olar ki, bir-birimizin pərdəsini yırtmayaq. Ey xacə, sən mənim eyiblərimdən danışma, mən də sənin eyiblərini açmayım, çünki biz bir-birimizdən bədtərik.



Məhsəti xanım xəstə olduğu üçün Atabəy Məhəmməd onun və qonşu hökumətlərin nümayəndələrinin getmələrinə icazə verdi. Sonra katibinə əmr verdi:

– Sənə tapşırdığım torpaq ixtilafı haqqında verilən ərizələri gətir.

Katib dərhal qalxıb ərizələri gətirdi. Atabəy ərizələri məclisə göstərib dedi:

– Bu ərizələrdə yazılana görə aranlılar Muğanda olan üç kəndin sahiblərinə vergi (bəhrə) vermək istəmirlər. Bu barədə Şimali azərbaycanlıların nə kimi qanuni haqları ola bilər?! Mən burala ikən torpaq məsələləri ilə məşğul olmaq istəmirəm. Buradan qayıdandan sonra Qızıl Arslanla torpaq məsələləri barəsində məsləhətləşəcəyəm.

Məclisdə bu suala səs verən olmadı. Nizami Fəxrəddinin üzünə baxdı. Fəxrəddin bu baxışdan dərhal danışmaq lazım olduğunu anlayaraq ayağa qalxmaqla Atabəyə sual verdi:

– Atabəy həzrətləri lütfən o kəndlərin adını bilməzmi?

Atabəy kəndlərin adını saydı:

– Ərəbli, Ərəb şahverdi, Ərəb ban oğlan kəndləridir, – deyib əlavə etdi:

– Ərizələrdə göstərildiyinə görə mülk sahibləri yüz minlərcə dirhəm sərf edib bu kəndləri saldırmışlar. Bu kəndləri suvarmaq üçün yenə də neçə yüz min qızıl dirhəm xərc qoyub böyük arx çəkdirmişlər.

Fəxrəddin yenə də sual verdi:

– Rica edirəm ərizə sahibləri buyursun görək Muğana onlar hansı arxı çəkdirmək üçün neçə yüz min qızıl dirhəm xərcləmişlər?!

Atabəy ərizə verənlərin danışmalarına icazə verdi. Onlar Muğana Gavur arxını çəkdiklərini söylədilər. Bunlara cavab vermək üçün söz Fəxrəddinə verildi. Fəxrəddin ayağa qalxıb danışdı:

– Əvvəla, bunu demək istəyirəm ki, bu ağaların iddia etdiyi kəndlərin tarixi ərəb istilasından çox əvvəldir. Bu kəndlər skiflər, bəlkə də midiyalılar dövründən Muğanda mövcud olan kəndlərdir. Çünki burada olan köhnə məzarlar, qəbiristanlar və tökmə təpələr də bunu bizə isbat edir. Ərizədə göstərilən "Ərəbli", "Ərəb şahverdi", "Ərəb ban oğlan"[1] kəndləri Aran xalqına öz babalarından irs qalmış kəndlərdir.

Atabəyə məlum olduğu üzrə fatehlərin ayağı dəyən yerlərdə bütün münbit və məhsuldar torpaqlar onların öz varisləri və öz sərkərdələri

---

[1] Qafqaz oçerki, V.P.Poqojev, Peterburq, 1310-cu il, səh. 323.

arasında bölüşdürülmüşdür. O kəndlərin ağaların pullarilə tikildiyi iddiasına gəldikdə isə haman kəndlərin köhnə adları göstərir ki, onlar ərəblər tərəfindən bina olunmamışdır.

Əvvəlcə, onların "Ərəbli" dedikləri kəndin köhnə adı "Aran" kəndidir. Orada olan kitabələr və sairələr də bunu isbat edir. Lakin ərəblər aranlıları oradan köçürüb, ərəbləri yerləşdirdikdən sonra kəndin adını dəyişib "Ərəbli" qoymuşlar.

"Ərəb şahvedi" kəndi əvvəlcə "Şahverdi" kəndi idi, ərəblər yerliləri sürgün edib kəndi özlərininkilərə verdilər. O zamandan bəri kəndin adı "Ərəb şahverdi" qaldı. Elə də – "Ban oğlan" kəndi. Orada da ərəblər yerləşəndən sonra kənd "Ərəb ban oğlan" adlanmışdır. Atabəy həzrətlərinə ərz etmək istəyirəm ki, bu gün Azərbaycan mülkədarlarının əlində ata-babalarından qalmış minillik torpaq qəbalələri vardır. Hərgah, doğrudan da, bu ağalar iddia etdikləri kəndləri ikinci bir adamdan almışlarsa, onların əllərində qəbalələri olmalıdır. Yaxud kəndləri özləri saldırmışsa, yenə də kəndin salındığı yeri bir adamdan almaq lazım gəlirdi. Yalnız bu üç kənd deyil, bir çox kəndlər vardır ki, onların xalqını qovub yerində ərəb və fars fatehlərini yerləşdiriblər.

Ümumiyyətlə, əvvəlcə burada əlahəzrətin hüzurunda Muğan məsələlərini qoymaq lazımdır. Mən bu uzun məsələyə keçmədən qabaq ağaların Muğana "Gavur arxı" çəkdikləri iddiasına cavab verəcəyəm. Gavur arxının tarixi hər kəsə məlumdur.

Muğan birinci dəfə ərəb fatehləri zamanında dağıdılmamışdır. Ondan əvvəl də fatehlər bu bərəkətli ölkəni dağıdıb bölüşmüşlər. Ağaların iddia etdiyi haman bu arx, Miladdan 320 il əvvəl Makedoniyalı İskəndər zamanında yenidən bərpa edilmişdir[1]. Bu vəsiqələri bir tərəfə buraxaq.

Hərgah Gavur arxı bu ağaların özü və babaları olan ərəb fatehləri tərəfindən çəkilsəydi, ona "Gavur arxı" adını qoya bilməzdilər. Bu adın özü də göstərir ki, bu arx islamiyyətdən əvvəl bizim babalarımız tərəfindən qayırılmışdır. Çünki ərəblər bizim babalarımızı "kafir" deyə çağırırdılar.

Atabəy Məhəmməd:

– Əhsən! – deyərək Fəxrəddini təqdir etdi.

[1] Qafqaz oçerki, səh. 310.



Fəxrəddin Atabəydən Muğan məsələsinə aid sözünə davam etməyə icazə istədi.

Atabəy:

– Gənc natiq, səni çox məmnuniyyətlə dinləyirəm, – deyə ona icazə verdi.

– Əlahəzrət Muğanın tarixini oxumamış deyildir. Muğan Azərbaycan kəndlisinin əlində olmazsa, iqtisadi həyatı lazımi məhvər üzərində aparmaq mümkün olmayacaqdır. Muğanın hazırda böyük bir hissəsi Şirvan şahlığının əlindədir, qalan yarısını isə dörd-beş nəfər ərəb fatehlərinin nəvələri mənimsəmişdir. Əlahəzrət Muğanın Şirvan şahlığı əlində olan hissəsi haqqında da sərəncam etməlidir.

Atabəy gülümsəyərək:

– Şirvanın Muğandan istifadə etməyə haqqı vardır, – dedi. Tarix boyu onlar bu torpaqdan istifadə edib, yenə də etməlidirlər. Şirvan hissəsinə düşən Muğan heç bir vaxt aranlıların əlində olmamışdır.

Fəxrəddin:

– Əlahəzrət, icazə verin! – deyərək sözünü davam etdirdi: – Mən hazırkı rəsmiyyətə salınmış Şirvan haqqında danışmıram.

– Bəs nədən danışırsınız?! – deyə Atabəy təəccüblə soruşdu:

– Mən elə zənn edirəm Azərbaycan xalqının şikayəti ancaq torpaq üzərindədir. Mülkədarların iştahası heç bir qanuna tabe deyil. Yerli hökumətə gəldikdə mülkədarların tərəfindədir. Kəndlilərin ağır vəziyyətindən danışanlar üsyançı adlanır. Əmir tərəfindən təqib edilir, ədiblər və şairlər belə ölüm və zəhərlə qorxudulur.

Atabəy başını aşağı salıb dinləyirdi, Fəxrəddin sözünü bitirdikdən sonra katibinə müraciət edib dedi:

– Zənn edirəm verilən ərizələr haqqında danışmaq yersizdir, çünki ərizələrin hamısının məzmunu cənab Fəxrəddinin buyurduqlarından ibarətdir. Muğanda olan ixtilaflı malikanələr haqqında qeydlər götürün, bu barədə Qızıl Arslana tapşırıqlar verəcəyəm. Əmirin uyğunsuz hərəkətləri və ədiblərin, şairlərin zəhərlə təqib edilmələri barəsində isə ciddi təhqiqat aparmaq lazımdır.

## SON ÇARƏ

Əmirin son çarəsi əvvəlcə düşündüyü məsələdən ibarət idi. O, ifşa edilmişdi. O, hökumətdə qalmaq üçün nə qədər düşünürdüsə də özündə müsbət bir tərəf görə bilmirdi. Onun xalq şikayətinə yol verməmək tədbirləri, Atabəyə mədhnamə yazdırması tamamilə əks nəticə verəndən sonra qadınını yanına çağırıb çox qəmgin bir halda dedi:

– Ata-babaların sözüdür: "Yaxşı şeyi yaman gün üçün saxlarlar". Çox yerində deyilmiş sözlərdir. Sən qızın özünə də tapşır, bir daha bunun kimi əlverişli fürsət heç kəsin əlinə düşməz. O ki qaldı atan xəlifəyə, o da çox qocadır. Onun da başını dəmirə tutmayıblar. O, dünya durduqca yaşamağı bacarmayacaqdır. Buna görə də biz arxamızı daha möhkəm, daha yıxılmaz bir sütuna söykəməliyik. Hökuməti əlinə alan və təzə xanədan təşkil edən Eldənizlərin məhv olması bu gün və ya sabahın işi deyil, onlar hələ çox zaman yaşaya biləcəkdir. Biz mühüm bir cəhəti də nəzərdə tutmalıyıq, qızımız Qətibənin gələcəyi haqqında düşünməliyik. Nə qədər ki, xəlifə ölməmişdir, o, qiymətli və əzəmətli bir qız kimi yaşayacaqdır. Xəlifə öləndən sonra isə işlər tamamilə dəyişəcəkdir. Gözəllik, nəcib bir xasiyyətə bağlı olmadan heç bir iş görə bilməz. Sən bilirsən ki, Bağdadda köhnə xəlifələrin minlərcə cariyələrdən minlərcə qızları və nəvələri vardır. Onlar hamısı da vaxtında xəlifə nəvəsi kimi şöhrət tapmışdılar. Lakin xəlifələr öləndən sonra kölələr, qatırçılar və sairələrlə yaşamağa məcbur oldular. Biz də fürsəti əlimizdən buraxsaq, qızımız haman qızların tayı olub qalacaqdır.

Safiyə xatun ərinin uzun-uzadı sözlərini eşidəndən sonra ona bu sualı verdi:

– De görüm, nə istəyirsən? Nə üçün açıq danışmırsan? Tutaq ki, sən dediyin sözlərin hamısı bir həqiqətdir. Mən nə edə bilərəm?!

Əmir təəccüblə onun üzünə baxaraq dedi:

– Necə yəni mən nə edə bilərəm?! Ana deyilsənmi?! Qızı bəzəndirib Atabəyə göstərə bilməzsənmi?!

– Mən qızı nə vasitə ilə Atabəyə göstərə bilərəm? Bu hərəkət yersiz düşməzmi?

Əmir öz-özünə mırıldandıqdan sonra Safiyə xatuna tərəf dönərək dedi:

– Heç də yersiz düşməz. Səni Bağdad sarayında mənə nə cür təqdim etdilərsə, sən də Qətibəni Gəncə sarayında Atabəyə o cür təqdim edərsən.



– Məsələnin çətin yeri burasındadır ki, qızının yanında ərə getmək adı çəkiləndə dünyanı dağıdır.

– Mən bilmirəm, buna hər nə ad qoyursan qoy, o sənin öz işindir. Amma gərək qızı Atabəyə göstərəsən. O ki qaldı qızın dünyanı dağıtmasına, o da ümumi haldır. Sən də mənə göstərildiyin zaman demişdin ki, Bağdadı dağıdaram. Amma heç köhnə bir damın kərpicini də yerindən tərpədə bilmədin.

– Qız şairdən ümidini kəsəndən bəri bütün kişilərə nifrət edir, onların üzünü görmək istəmir.

– Ağıllı ol, kişilər hamısı birdir. O bilsə ki, böyük Atabəy, doğrudan da, ona evlənəcəkdir, kişilərə olan nifrəti yadına da düşməz. Qız uşağı hiyləgər pişiklərə bənzər, əlinə gəlməyən hər bir şeyə nifrət bəslər, əlinə keçən şeyi isə heç kəsə verməz. Bunların hamısı sənin qıza nə cür yanaşmağından asılıdır.

Sən qızı inandırmalısan ki, bizim bütün müqəddəratımız onun bu görüşməyə razılıq verməsindən asılıdır. Burada taxt-tac məsələsi də vardır. Mənim qızımın bacarığı olsa, Azərbaycan taxt-tacını əlindən buraxmaz, bir neçə ildən sonra mən öz nəvəmi həqiqi bir varis kimi Azərbaycan taxtına çıxarmağı bacararam. Atabəy Eldəniz kim idi? Bir kölə idi. Bu gün isə onun oğlanları ucu-bucağı olmayan bir məmləkətin hökmdarlarıdır. Mənim nəvəm isə bir tərəfdən xəlifənin nəticəsi, o biri tərəfdən də mənim, Əmirin nəvəsi olacaqdır.

Mənim də başımı dəmirə tutmamışlar, mən də bu gün sabah öləsiyəm, lakin arzulara çatandan sonra ölmək o qədər də nisgilli və qorxulu bir ölüm deyildir. Dediyim kimi olarsa, mən arxayın öləröm, bilərəm ki, mənim övladımın gələcəyi təmin edilmişdir.

Əmirin son sözündə Qətibə də otağa daxil oldu. Əmir İnanc onu adəti üzrə öz yanına çağırdı:

– Gəl otur sevimli Qətibəm, gəl otur!

Qətibə oturdu, Əmir yenə də onun alnından öpüb saçlarını sığalladı və dedi:

– Atabəy şərəfinə verilən ziyafətdən o qədər də ümidverici bir təsir ala bilmədim. Atabəy hər bir sözündə Nizami ilə Qızıl Arslan arasında mövcud olan dostluğu qeyd etdi. Şübhəsiz ki, bu dostluğun içərisində mənə qarşı bir düşmənlik qoyulmuşdur. Yerlilərin bizim başımız üzərindən Qızıl Arslana müraciət etməsi, mənim Şimali Azərbaycanda nüfuzumun düşməsi deməkdir. Biz hər halda bu sui-

qəsdin qarşısını indidən almalıyıq. Atabəyin Əbül-Üla əleyhinə olan çıxışı və Xaqani şairi müdafiə etməsi də batində mənim əleyhimədir. Çünki Əbül-Ülaya mən xələt verib irəli çəkmişdim. Bunların hamısı mənim hökmranlığımın son günlərini yaxınlaşdırır. Görünür ki, Atabəy buradan müsbət bir fikirlə getməyəcəkdir. Atabəy hazırdakı əhval-rühiyyə ilə Təbrizə gedərsə bir aydan sonra Qızıl Arslan mənim yerimə təzə hakim göndərəcəkdir.

Atabəyin qəbul rəsmindəki sözləri də mənə yaxşı ümidlər vermədi. Xüsusən kənd və torpaq məsələlərində bizim adamlarımızın sükut etməyə məcbur olmaları, Fəxrəddinin isə çıxış etməsi mənim həyatımın dəyişməsi üçün qorxulu bir başlanğıcdır. Hərgah Atabəy buradan getməmiş onu ələ almazsaq, Gəncədə bizim düşmənlərimiz hakim olacaqdır.

Bu barədə anan da, sənin özün də düşünməlisən. Gələcəyin qeydinə qalınmazsa, əmr-vaqe bizi alt-üst edəcəkdir.

Qətibə başını atasının çiynindən qaldırıb soruşdu:

– Tutaq ki, dediklərinin hamısı doğrudur. Mənim əlimdən nə gələr?

– Sənin əlindən hər şey gələr. Bu işlərin mən istəyən məhvər üzərində davam etməsi üçün sənin böyük vəzifən vardır. Sən Şərqin birinci gözəlisən, Əmirin qızı, xəlifənin nəvəsisən. Bir az əvvəl anana danışdım. Bu gözəllik, bu şöhrət mənim və xəlifənin nüfuzuna əsaslanır. Lakin mən və xəlifə öləndən sonra bu gözəllik adi bir gözəllik olaraq qalacaqdır. Buna görə də sən öz gələcəyini möhkəm bir əsas üstündə qurmalısan. Atabəy də pis namizəd deyil. Sonrasını özün bilərsən, bunu heç vaxt atalar qızlarına öyrətmirlər. Ağıllı qızların özü bunu bacarmalıdır.

Qətibə artıq atasının nə demək istədiyini anladı və ciddi bir vəziyyət alaraq dedi:

– Mən birinci kərədir ki, qızların öz-özünə ərə vermək üçün elçi getdiklərini eşidirəm. Mən heç vaxt bunu bacarmaram. Mən gedib Atabəyə deyə bilərəm ki, bunu bacarmaram. Mən gedib Atabəyə deyə bilmərəm ki, "gəl mənə evlən". Bu təklif mənim də, ailəmizin də şərəfsizliyini göstərər.

Əmir gülərək onun saçlarını oxşadı və:

– Ağılsız qızım! – dedi. – Burada heç bir şərəfsizlik yoxdur. Bəzən şərəflər şərəfsizliyin içərisindən süzülüb çıxır. O ki qaldı sənin gedib



evlənmək üçün təklif edə bilmədiyinə, bunu mənə danışma, qızlar istədikləri zaman bu təklifi etmək üçün yol tapırlar, ən buna qadir olduğunu şairlə olan yazışmalarında göstərdin.

Bu söhbətlər əsnasında xacə Müfid daxil olub Atabəyin gəldiyini xəbər verdi. Safiyə xatun və Qətibə özlərini itirdilər, hansı tərəfdən çıxıb gedəcəklərini bilmədilər. Lakin Əmirin özü, çox soyuqqanlı hərəkət etdi, çünki xacə Müfid Əmirin tapşırığına görə Atabəyi qəfildən Əmirin ailəsi olan otağa gətirmişdi.

Qətibə və Safiyə xatun çıxmaq istərkən Atabəy içəri girdi, lakin o içəridə qadın və qız olduğunu görərkən qayıtmaq istədi, Əmir isə onu qarşılayaraq:

– Buyurun, əlahəzrət! – dedi və təzim etdi. – Yanımda yabançı adam yoxdur. Yanımda xəlifənin qızı və nəvəsidir. Əmirəlmöminin qızı və nəvəsi əlahəzrəti ziyarət etmək istəyirdilər.

Atabəy Əmir İnancın bu sözlərindən sonra bir an durub düşündü, sonra irəli gəlib xəlifənin qızının əlindən öpdü və:

– Biz də Əmirəlmöminin övladıyıq, – dedi. – Həzrət xəlifə bizim atamız olmaqla bərabər, eyni zamanda, bütün islam xalqının da ruhani və mənəvi atasıdır.

Əmir dərhal əlavə etdi:

– Mənim də xoşbəxtliyim xəlifə ailəsi üzvlərindən hesab olunduğumdur. Çünki xəlifənin ən uzaq bir qohumu belə peyğəmbər ailəsinə yaxın olmaq şərəfini daşımaqdadır. Dünyada və axirətdə mənim üçün də bu şərəf lazımdır.

Bu söhbət zamanı Safiyə xatun ilə Qətibə Atabəylə vidalaşıb getmişdilər. Atabəy isə zahirdə Əmir İnancı dinləyir, batində isə bir neçə dəqiqə əvvəl gördüyü gözəl afət haqqında düşünürdü. Onun canında sanki özünün hiss etmədiyi bir şey dolaşır və rahatlığını pozurdu. Əmir İnanc gözünün ucu ilə ona baxırdı. Atabəyi adi halında görməyərək oxunun hədəfə dəydiyini hiss edir və sevinirdi.

Atabəy isə şam süfrəsi başında da qızı düşünürdü. Onu ani olaraq gördüyü üçün şəklini tez-tez unudur, beynini və hissini səfərbər edərək Qətibənin çöhrəsinə qəlbində müəyyən bir biçim verirdi. Lakin cürbəcür düşüncələr, yenə də qızın çöhrəsini onun qəlbinin güzgüsündən silirdi.

Atabəy yediyini bilmirdi, hansı xörəyə əl uzatdığından xəbəri yox idi. O piyaləni gözünün qarşısında tutub içmək istədiyi zaman piyalədə Qətibənin çöhrəsini görüb diksinir və onu gözündən itirməmək

üçün piyaləni içməyə cəsarət etmirdi. Hər piyaləni içməsi uzun dəqiqələr çəkirdi, sonra yeməyə məşğul olurdusa, lakin bu uzun çəkmirdi, o yenə xəyala gedirdi.

Əmir süfrə başında Atabəyin aldığı vəziyyətdən mənəvi nəşə alır və qəlbində öz-özünə deyirdi:

– İndi mən öz məqsədimə yaxınlaşıram. Əleyhimə olan çıxışların hamısını sabun köpüyü kimi partladacağam. Dünyada qadın və şəhvət olmazsa, kişilərin qəlbindəki inad və müqaviməti heç bir qüvvə qıra bilməz.

Atabəy əlini şam süfrəsindən çəkdi, cariyələr və xidmətçilər şam süfrəsini yığdılar. Atabəy Əmirlə vidalaşıb öz yataq otağına getdi. Kənizlər, cariyələr və gözəl qızlar Atabəyi hamama aparıb çimdirdilər. Onu yatağına gətirib yuxulaması üçün püştmal etdilər. Lakin onu yuxu aparmadı. Nəhayət, belə bir əmr verdi:

– Xacə Müfiddən başqa hamı getsin!

Yataq otağı boşaldı. Xacə Müfid ayaq üstündə durur, Atabəyin sözü haradan başlayacağının intizarını çəkirdi, çünki onun qəlbinə bir ilan daxil olduğunu yəqin etmişdi.

Nəhayət, Atabəy, özünü ürək çırpıntılarının əlindən alıb xacə Müfidi səslədi:

– Otur, xacə Müfid, otur, görünür ki, bu gecə sənin də rahətini pozacağam, çünki məni yuxu aparmayacaqdır.

Xacə Müfid özünü bilməməzliyə vurub:

– Bəlkə əlahəzrətin səhhətini yoxlamaq üçün həkim gətirmək lazımdır? – dedi.

Atabəy də cavabında:

– Sən haman həkimi mənim yanıma çağırmaq qüdrətinə malik olsaydın, mənə böyük bir yaxşılıq etmiş olardın, lakin elə bilirəm ki, hələlik o həkimin bura çağırılması yersizdir. Bəlkə də tezdir. Otur, xacə Müfid, otur.

Xacə Müfid onun nə dediyini çox gözəl anlayırdı, onun həkim deyərkən Qətibəni qəsd etdiyini yaxşı bilirdi. Xacə Müfid əlini döşünə qoyub baş endirdi və kənarda qoyulan bir kürsünün üstündə oturdu.

Atabəy xacə Müfiddən soruşdu:

– Sən çoxdanmı Əmirin hərəmində xidmət edirsən?

– Mən Əmirin sarayına xəlifənin qızı ilə bərabər gəlmişəm, daha doğrusu xəlifə qızına verdiyi cehizlər içərisinə məni də daxil etmişdi. Safiyə xatunu da, onun gözəl qızı Qətibəni də mən böyütmüşəm.



– Sən ərəbmisən?

– Xeyr, mən ərəb deyiləm, Fərqanə şəhərindən alınmışam. Biz iki qardaş idik. Biz olduqca sağlam, gözəl və nadir təbiətli uşaqlar idik. Bizi Türküstan Əmiri alıb Xəlifə Müstərşidbillahın atası Əhməd ibn Müqtədi Əlmüztəzhərübillaha hədiyyə göndərdi. Biz çox gözəl olduğumuz üçün xəlifə sarayında yüzlərcə hərəm və cariyələr bizi öz ixtiyarına almağa və öz xidmətlərində saxlamağa çalışırdılar. Bizə olan bu rəğbət axırda bizim üçün bir fəlakətə çevrildi. Rəhmətlik xəlifə biz iki qardaşı öz qadınlarına və cariyələrinə qısqandı və bizi kişilikdən məhrum etmək qərarına gəldi. Həkimlər və cərrahlar çağırdı, onların hamısı dedilər ki, bu iş ancaq körpəlik zamanında mümkündür. Hazırda bunları axtalamaq yazıqları məhv etmək deməkdir.

Xəlifənin yaxın adamları da bunu məsləhət görmədilər. Dedilər ki, bunları hərəmxanadan çıxarıb başqa bir işə göndərmək lazımdır. Lakin xəlifə bunu qəbul etmədi. Kiçik qardaşım bunu eşidəndən sonra özünü öldürdü, lakin mən bədbəxtdə cəsarət olmadı. Bir neçə ay xəstə yatandan sonra səhhət tapdım, o zamandan bəridir ki, hərəmxanalarda qocalmışam. Əmirin qadınını və qızını böyütmüşəm, lakin qədrimi bilən kimdir?!

Atabəy saxta bir ah çəkərək dedi:

– Səni anlayıram, yazıq Müfid, dünyanın əziyyətlərindən sənin də payına böyük bir iztirab düşmüşdür. İndi mənə de görüm Əmirin qızı bir adama nişanlanmışdırmı?

– Xeyr əlahəzrət, o heç bir kəsə nişanlanmamışdır.

– Sən lütfən böyük bir ənam almaq üçün mənim sifarişimi o gözəl qıza yetirə bilməzsənmi?

Müfid boynunu çiyninə qoyaraq güldü və dedi:

– Mənim heç bir ənama ehtiyacım yoxdur, iqbalım məni ənamları sərf edəcək mənbələrdən məhrum etmişdir. Lakin əlahəzrət, Əmirin vəzirini görüb bu sifarişi ona tapşırsa, bu daha mənfəətli olar. Vəziri əlahəzrətin hüzuruna çağırmaq isə mənim vəzifəmdir.

– Elə isə gedib Toxtamışı mənim hüzuruma çağır.

Müfid qalxıb başı titrəyə-titrəyə getdi. Atabəy isə öz yatağına uzanıb Əmir İnancla qohum olmağın gələcək nəticələri barəsində düşünürdü. Əvvələ o, xəlifənin nəvəsinə evləndiyi zaman xəlifənin damadı sayılacaqdı. Bu şərəflə də o, xəlifə nüfuzunun bayrağı altında hökumət sürənlərə qarşı üstün gələcəkdi, bəlkə də bu münasibətlə öz məmləkətini genişləndirəcəkdi.

İkincisi də, qayınatasının Aranda hakim olması, onun məmləkətinin şimal hüdudunu təmin edəcəkdi.

Üçüncü isə Qətibə Şərqin ən məşhur gözəli idi. Belə bir qızı həm gözəlliyi, həm də nəsli, nəcabətilə hər bir hökmdar sevə bilər və evlənməyə can atardı.

Xacə Müfid gəlib Toxtamışın hazır olduğunu xəbər verdi. Atabəy onun otağa gəlməsinə icazə verdi. Toxtamış başı titrəyə-titrəyə içəri girdi və baş endirib salam verdi.

Atabəy onun salamının cavabını verərək:

– Əyləşin ağıllı və qoca vəzir! – dedi.

Toxtamış oturdu, lakin onun simasında sezilməyən bir şadlıq əlaməti vardı. Atabəy Müfidin vəzirin qulağına pıçıldadığını və nə üçün çağırıldığını əvvəlcədən ona bildirdiyini anladı və vəzirə sual verdi:

– Olmaya xacə Müfid sizə bəzi sözlər pıçıldamışdır? – dedi.

Müfid dişlərini ağardıb güldü, Toxtamış isə:

– Təəccüb ediləcək heç bir şey yoxdur. Təbiətin qanunu belədir – dedi. – Ay işığını günəşdən almalıdır. Ulduz isə ay ətrafında dolanmalıdır.

Əmir cənabları günəşdən işıq alan aydır. Biz nökərlər də ayın ətrafında dolanan ulduzlara bənzəyirik. Xudavəndi-aləm biz zəif olan ulduzları öz ay və öz günəşimizdən ayırmasın. İndi məsələ əlahəzrət üçün aydın oldumu? Hərgah əlahəzrətin bir əmri olsa, mən bu barədə Əmirlə, Əmirin qadını Safiyə xatunla da danışaram. O ki qaldı sahibkara, o barədə Müfidə tapşırıq vermişəm, bütün sifarişlərinizi ona etibar edə bilərsiniz.

## ATABƏYLƏ BİRİNCİ GÖRÜŞ

Atabəy yarım saatdan bəri tək-tənha oturub Qətibəni gözləyirdi. Birinci görüşün intizarı Atabəy üçün bir müharibənin qələbəsini əldə etməkdən də ağır idi. Qətibə Atabəyin görüşünə həddindən artıq bir təxirlə gəldi.

Nəhayət, Qətibə gözəl kənizlər və cariyələrin müşayiətilə daxil olub böyük salonun ortasında dayandı. Atabəy bu dayanışın mənasını dərhal anladı, o bildi ki, gözəl qız böyük bir məmləkətin hökmdarını öz ayağına gətirmək istəyir.

Atabəy bu fikirlə ayağa qalxdığı vaxt bir an qıza baxıb fikrə getdi, sonra öz-özünə:



– Buna layiqdir! – dedi və irəliləyib qızı salamladı.

Qətibə başını aşağı salıb durmuşdu. O indi ikinci bir kişi ilə görüşdüyü barəsində düşünürdü. Birinci görüşdüyü ilə o xoşbəxt olmadığı kimi, ikinci görüşdüyü ilə də xoşbəxt ola bilməyəcəyini fikirləşirdi.

Kənizlər və cariyələr artıq bir xəyal kimi gözdən yox olmuşdular, salonda Atabəy və Qətibədən başqa heç kəs yox idi; üçüncü adam isə Qətibəni hələ tək buraxmağın qeyri-mümkün olduğunu Atabəyə bildirmək üçün bu pərdənin dalından çıxıb o biri pərdənin dalına keçirdi: bu adam minlərcə bu kimi mənzərələrin tamaşaçısı olan xacə Müfid idi.

Atabəy sükutu pozmaq üçün bir neçə qədəm də irəli gəlib Qətibəyə dedi:

– Gözəl qız icazə versəydi, xoşbəxt əlini əlimə alardım.

– Siz bu əlin xoşbəxt olduğunu haradan bilirsiniz?!

– O əlin sahibi xoşbəxt olmasaydı, böyük bir məmləkət yerindən qopub onun ayağına gəlməzdi.

– O əl nəyinizə lazımdır?!

– Mən öz qəlbimi haman ələ tapşırmaq istəyirəm.

– Mən bilmək istərdim, əlahəzrətin neçə qəlbi vardır. Eşitdiyimə görə, əlahəzrət indiyə qədər qəlbini iki qadına tapşırmışdır. Mən üçüncü olmalıyam. Əcəba, bir nəfər üç qəlbə malik ola bilərmi?!

– Xeyr, gözəl qız, mənim bir qəlbim var, onu da bir nəfərə verirəm. Xəlifənin müqəddəs əmmaməsinə and içirəm, qəlbim bir kəsə verilmişdirsə, indi artıq geri alınmışdır. İndi o, gözəl qızın ixtiyarındadır.

– Zənnimcə, hələlik bu tezdir. Xüsusən böyük hökmdarlar hər bir işi gördükləri zaman düşünür və səbir ilə iş görürlər.

– Xoşbəxtliyi mənimsəmək üçün səbr etmək iqbala qiymət qoymamaqdır. Mən öz iqbalıma inanıram. Tanımadığım bir qızın əlini yox, Əmirin qızının, xəlifənin nəvəsinin, bütün varlığından bir nəcabət oxunan Qətibənin əlini istəyirəm.

Qətibə bir az da düşünərək, sual verdi:

– Mən bir məsələni aydınlaşdırmaq istərdim, əlahəzrət üçün qadınmı, yainki məmləkətin idarəsi işlərində çalışa bilən bir şərikmi lazımdır?

– Sizə and içirəm, Qətibəni öz taxt-tacımın şəriki kimi tanıyacağam. Gözəl qız mənim tacımın qiymətli cavahirini təşkil edəcəkdir. Mən onun iradəsi xaricində heç bir iş görməyəcəyəm. Siz əlinizi məndən əsirgəməyin, mən sizdən heç bir şey əsirgəməyəcəyəm.

– Siz mənim babamın tərəfdarlarının əlindən alınan malikanələrin özlərinə qaytarılması üçün heç bir qəti söz deməmişsiniz. Bunun üçün də mən əlimi sizə uzatmağa cürət etmirəm. Çünki kişilər daima qızlarla qarşı-qarşıya durduğu zaman başlarından, canlarından, varlarından keçməyə and içərlər. Lakin bu andlar kişilərin ağıl və etiqadlarından deyil, müvəqqəti hissiyyatından doğur. Lakin mən əlahəzrəti bu saydığım kişilərin cərgəsinə salmaq cəsarətinə malik deyiləm, eyni zamanda öz əlimin qiymətini də əlahəzrət Atabəyə deməkdən çəkinməyəcəyəm. Mən əlimi əlahəzrətə yeddi şərtlə verə biləcəyəm. Onlar bundan ibarətdir:

Birinci: Atabəy nə qədər sağdırsa, atam Şimali Azərbaycanın hökumətini idarə edəcəkdir.

Atabəy əlini döşünə qoyub dedi:

– Gözəl qız, bu təklifə nə kimi etirazım ola bilər?! Mən öz məmləkətimi öz möhtərəm qayınatama tapşırmaqdan boyun qaçıra bilərəmmi?! İkinci şərtiniz nədir, mənim həşəmətli mələkəm?

– İkinci şərtim bundan ibarətdir: məni qısqandırmayacaqsınız.

– İzah edin görüm, bununla nə demək istəyirsiniz?!

– Demək istəyirəm ki, bir neçə qadına evlənməyəcəksiniz.

– Sizin gözəlliyinizə and içirəm, qəlbimi heç bir kəsə verməyəcəyəm.

– Üçüncü şərtim budur: Şimali Azərbaycan Təbrizə yox, bilavasitə əlahəzrətinə özünə, yəni Həmədana tabe olmalıdır.

– Əcəba, Qızıl Arslan sizin atanıza qarşı bir hörmətsizlikmi etmişdirmi? Onunla öz aranızda düşmənçilik yaratmaqdan məqsədiniz nədir?! Hərgah siz Qızıl Arslanın nə qədər aqil, tədbirli, alim, mərhəmətli və əliaçıq bir hökmdar olduğunu bilsəydiniz, yəqin ki bu şərti irəli sürməzdiniz. O ki qaldı Şimali Azərbaycanın bilavasitə Həmədana tabe olması, onsuz da bütün məmləkətlər paytaxtımıza tabe olmalıdır. Gözəl Qətibə bundan əmin ola bilər.

– Dördüncü şərtim, Nizami şairə olan hörmətinizə təğyir verməkdən ibarətdir. Çünki haman şair mənim babam Əmirəlmöminin dostu deyildir.

– Mən onunla bir kərə görüşdüm, zənnimcə, daha görüşməyəcəyəm.

– Beşinci şərtim, mənim atamın şairi Əbül-Ülanı mükafatlandırmaqdan ibarətdir. Ancaq Nizami özü də mükafat verildiyi zaman məclisdə iştirak etməlidir.



– Heç bir etirazım yoxdur.

– Altıncı şərtim, istədiyim zaman Gəncədə yaşamaq ixtiyarına malik olmaqdır.

– Bu da qəbulumdur.

– Yeddinci şərtim bundan ibarətdir: Şimali Azərbaycan işlərinə baxıldığı zaman mən də iştirak etməliyəm.

Bu göstərdiyim şərtlər Atabəy tərəfindən qəbul olunarsa, mən əlimi də, qəlbimi də əlahəzrətin sərəncamına verməyə hazıram.

Atabəy qızın göstərdiyi şərtlərin heç birisini rədd edə bilmədi, çünki o, öz qarşısında yalnız sadə bir gözəl deyil, nadir bir möcüzə durduğunu hiss edirdi.

Qətibənin parlaq alnına tökülən səkinəvi[1] qara tellər və tellərin üzərinə taxılmış brilyantlı ay-ulduz[2] salonda yanmaqda olan yüzlərcə şamların işığını gözəl qızın çöhrəsində cəm edirdi.

Qətibə özünü düzəldərək bütün gözəlliyini Atabəyin qarşısında nümayiş etdirirdi. Atabəy özünü unudaraq ağzından bu sözləri çıxardı:

– Hamısını qəbul edirəm! Sözüm yoxdur, mənim mələkəm!

Qətibə əlini Atabəyin əlinə uzadırkən, Atabəyin titrək dodaqları da Qətibənin dodaqlarına tərəf uzanırdı.

Xacə Müfid pərdənin dalından öskürə-öskürə çıxdığı zaman əlahəzrət Atabəyin dodaqları Qətibənin dodaqlarından ayrıldı.

Yarım saatdan sonra Gəncə qazisi ilə Gəncə xətibinin salona daxil olması, onların vaxt ikən xeyir işi başlamaq üçün saraya dəvət olunduqlarını məlum edirdi.

Gecə saat birin yarısında, nişan rəsmi bitdi. Qətibənin barmağına Şərqin ən qiymətli cavahirini daşıyan bir üzük taxıldı, kəbin siğəsi oxundu, sonra da şam süfrəsinin başına keçdilər.

## TOY

Atabəyin Qətibəyə evlənməsi məmləkətin hər tərəfinə xəbər verilmişdi. Buna görə də bu şənliyi təbrik etmək və toy ziyafətində iştirak eləmək üçün hər tərəfdən nümayəndələr gəlmişdi. Birinci heyət

[1] Səkinəvi telləri – İraq-Ərəb hökmdarı Məsəb ibn Zubeyrin qadını Səkinə Hüseyin qızı ixtira etmişdir. "Əbülfəda", cild I.

[2] Xəlifə nəslinə mənsub qadınlar saçlarına brilyantlardan düzəlmiş ay-ulduz taxardılar.

Soltan Toğrulun tərəfindən gəlmişdi. Atabəyin özü isə Qızıl Arslandan heyət gözləyirdi. Qızıl Arslanın nə təbrik məktubu, nə də heyət göndərməməsindən kədərlənir və düşünürdü. O, Qızıl Arslanın bu izdivacdan razı qalmayaraq toya düşmən gözü ilə baxmasından qorxurdu. Çünki Qızıl Arslan məmləkətin idarəsi işində Toğrul kimi laqeyd deyildi. O, hansı məmləkəti idarə edərsə, orada asayiş və intizam olmalı idi.

Qızıl Arslanın etinasızlığından Atabəy Məhəmməd nə qədər kədərlənirsə, onun gənc mələkəsi Qətibə bir o qədər sevinirdi. Çünki Qətibə Nizami ilə dostluq əlaqəsi bəsləyən bu hökmdarı görmək istəmirdi. Qətibə, bu ixtilaf nəticəsində Qızıl Arslanın Azərbaycan hökumətindən götürüləcəyi və bununla da atasının Şimali Azərbaycan hökumətində yaşaya biləcəyini zənn edirdi. Bunun üçün Qətibə daima Atabəy Məhəmmədi gördüyü zaman deyirdi:

– Qaynım mənim bu xoşbəxtliyimə dostanə bir nəzərlə baxmaq istəmədi. Bilmirəm, bəlkə də mən Eldəniz xanədanının şərəfi üçün bir ləkə hesab olunurmuşam?

Qətibənin bu sözlərinə Atabəy Məhəmməd təskinedici cavablar verirdi. Lakin o, qəlbində yenə də Qızıl Arslanın bu işdən narazı qaldığını təyin edirdi. Çünki Atabəy Məhəmməd izdivac haqqında qardaşına göndərdiyi məktuba da cavab almamışdı. O, məktubunda bu izdivacın siyasi əhəmiyyətini qeyd etmişdisə də, lakin Qızıl Arslan bu əhəmiyyətə tamamilə mənfi bir nəzərlə baxırdı. O bilirdi ki, Atabəy Məhəmmədin bu izdivacı, Şimali Azərbaycanı təzədən qurmaq işinə və xəlifə nüfuzunun aradan qaldırılması məsələsinə əngəl törədəcəkdir. Qızıl Arslan bilirdi ki, xilafət məsələsi öz əhəmiyyətini itirdiyi bir zamanda, xəlifə ilə qohum olmağın heç bir siyasi əhəmiyyəti ola bilməz.

Lakin, Atabəy Məhəmməd böyük qardaşı olduğu üçün Qızıl Arslan onu bu izdivacdan çəkindirməyə cəsarət etmədi, vaxt da keçmişdi, çünki bu izdivacın xəbəri kəbin kəsiləndən sonra Qızıl Arslana verilmişdi.

Atabəy Məhəmməd Qızıl Arslana bu izdivacın siyasi əhəmiyyəti barəsində məktub göndərdiyi günlərdə, Nizami də Qızıl Arslana bir məktub göndərmiş və bu izdivacın siyasi bir əhəmiyyətə deyil, siyasi bir pozğunluğa səbəb olacağını qeyd etmişdi. Nizami məktubunda Azərbaycan üçün təzə bir bədbəxtlik üz verəcəyini qeyd etmiş və Qızıl Arslanın ehtiyatla hərəkət etməsini lazım bilmişdi.



Nizaminin dostanə nəsihətlərini nəzərə alaraq Qızıl Arslan qardaşına bir təbrik məktubu ilə bərabər, təzə mələkə üçün də bir cüt quş yumurtası böyüklüyündə zümrüd sırğaları hədiyyə göndərmişdi.

Qızıl Arslan təbrik heyətini hədiyyə ilə bərabər göndərdiyi zaman, Nizamiyə də bir məktub yazıb ondan heyətin sədrliyini öhdəsinə götürməyi və öz tərəfindən Atabəy Məhəmmədi və mələkəni təbrik etməyi rica etmişdi.

Lakin təsadüfi olaraq Azərbaycanda şiddətli yağışlar yağdığı və Naxçıvanlı Ziyadilmülk tərəfindən qayırılmış körpünün su altında qalması nəticəsində Qızıl Arslanın göndərdiyi heyət lazımi vaxtında Gəncəyə yetişə bilməmişdi.

Toy ziyafəti başlanmışdı. Gürcüstan, Şirvan, Xarəzmşah, Qazan xan, Qara xatay məmləkətləri tərəfindən göndərilən nümayəndələr hamısı vaxt ikən təyin olunmuş kürsülərdə oturmuşdu. Lakin Atabəyin sağ tərəfində qoyulan kürsülər boş idi. Onlar Atabəy Məhəmmədi, Qızıl Arslan əleyhinə hazırlamaq üçün Əmirin tapşırığı ilə boş buraxılmışdı. Sağ tərəfdə boş qalan kürsülər, Atabəy Məhəmmədin sağ əli olan Qızıl Arslanın etinasızlığını elan etmək demək idi. Boş kürsülərin dalında vurulmuş xalçanın üzərində "Azərbaycan nümayəndələri" yazılmışdı. Atabəy Məhəmməd Azərbaycan nümayəndələrinin kürsülərini boş gördüyü zaman Qızıl Arslanın bu cürətinə qarşı o qədər qəzəbləndi ki, qəlbi partlamaq dərəcəsinə gəldi. Musiqinin və xanəndənin səsi, qarşısında fırlanan zərif əndamlı rəqqasələr onun acığını daha da artırırdı. Atabəy qəlbində öz-özünə deyirdi: "Yox, artıq qardaşımla müştərək iş aparmaq imkan xaricində qaldı. Toy bitən kimi İraq, Rey və Fars qoşunlarını götürüb Azərbaycan üzərinə yürüyəcəyəm. Azərbaycanda hökumət təbəddülatı yaratmamış qəlbim sakit olmayacaqdır".

Əmir, Atabəyə göz qoymuşdu. O, məqsədə nail olduğunu zənn edərək, qəlbində başqa bir toyun nəşələri ilə əylənirdi. Eyni zamanda qızı Qətibə də Azərbaycan nümayəndələrinin gəlib-gəlməməsini yoxlamaq üçün öz adamları vasitəsilə tez-tez salonunu öyrənirdi, o da özünü qalib hesab edərək, məşşatənin əlindən qurtularaq anasını öpürdü.

Toy məclisinin vəziyyəti birdən-birə dəyişdi. Xidmətçi salona daxil olub ərz etdi:

– Cənubi Azərbaycandan və Şimali Azərbaycandan göndərilmiş heyət gəldi.

Atabəy şadlığından oturduğu taxtın üzərindən qalxdı, onun başında qaynaşan qara fikirlər, qəlbini sıxan ağır duyğular bir anda dağılıb getdi. Heyətin gəlməsi Atabəy üçün ikinci bir bayram oldu.

Atabəy və Əmir İnancın gözləmədiyi bir halda, qabaqca böyük şair Nizami, onun dalınca Qızıl Arslanın vəziri Şəmsəddin heyət üzvlərilə bərabər toy məclisinə daxil oldular. Şəmsəddin irəli gəlib baş endirdi və Qızıl Arslanın məktubunu təqdim etdi. Atabəy məktubda Cənubi və Şimali Azərbaycandan təbrik üçün vəkil edilmiş heyətin siyahısını oxuyandan sonra şad bir çöhrə ilə Nizamiyə tərəf baxıb dedi:

– Möhtərəm sədr, buyurub öz yerinizdə oturun!

Nizami və Şəmsəddin Atabəy Məhəmmədin sağ tərəfində, heyət üzvləri isə başqa kürsülərdə yer tutdular. Atabəy Məhəmməd heyət üzvlərinə müraciətlə:

– Mənim bu xoşbəxt günümü təbrik etmək üçün xoş gəlib səfa gətiribsiniz, – dedi və məclisə xitabla əlavə etdi: – Qardaşım Qızıl Arslan mənim bu xoşbəxtlik bayramımı təbrik üçün göndərdiyi heyətə böyük şair Nizamini sədr təyin etmişdir. Bu təyin, mənim üçün üçüncü bir xoşbəxtliyi təşkil edir. Bu vəzifəni iltifatla öhdəsinə götürmüş olan şairə təşəkkürlər edirəm.

Bu xəbər toy ziyafəti salonunda nə qədər şadlığa səbəb oldu isə bəzək otağında da o qədər həyəcan və heyrətə səbəb oldu. Qətibə bu xəbəri alan kimi saçlarını məşşatələrin əlindən alaraq iki əlləri ilə qarmaqarışıq etdi, üstündəki zinətləri dartıb qırdı, qarşısında içi qiymətli daşlar, cıqqalar, gərbəndlər, xalxallar, şəddə-şəddə incilər qoyulan gümüş tabağı götürüb xalçaların üzərinə səpdi, məşşatələrin əllərindəki ətir şüşələrini alıb otağın aynalı divarına çırpıb sındırdı. Saçlarının üstünə vurulmuş almaz cıqqanı çıxarıb bir tərəfə atdı, zinət verən qadınların hər birisini bir tərəfə itələyib öz yataq otağına qaçdı, üzü üstündə yatağına yıxılıb ağlamağa başladı. Vaxt keçirdi, bir saatdan sonra yengələr onu Atabəyin otağına aparmalı idi. Xacə Müfid toy salonuna girib Əmirin qulağına nə isə pıçıldadı, Əmir qonaqlara hiss etdirmədən qalxıb getdi.

Bir tərəfdən Əmir, o biri tərəfdən də Safiyə xatun Qətibəni sakit edərək deyirdilər:

– Birinci gündən bu cür şıltaqlıq etmiş olsan, öz ərinin məhəbbətini itirə bilərsən. Əvvəlcə onu öyrənməlisən, o nəyi sevirsə o cür hərəkət etməlisən. Bir çox ərlər vardır ki, şıltaqçı qadını sevməz, bir çox



ərlər də vardır ki, qadın şıltaqlığından nəşələnərlər. Hələlik Atabəyi öyrənmədən şıltaqlıq etsən, rüsvayçılığa səbəb ola bilərsən. Madam ki, Atabəy səni "mələkəm" deyə adlandırır, o zaman sən hər bir şeyi tədrici olaraq həyata keçirə bilərsən.

Qətibəni sakit edərək yatağından qaldırdılar. Ata və ana ona nəsihət verə-verə gətirib məşşatələrin sərəncamına verdilər.

Toy məclisindəki şadlıq davam edirdi, Atabəy Məhəmməd, Qızıl Arslan göndərən məktubu oxumaq üçün öz katibi Polada verdi. Polad ayağa qalxaraq məktubu oxumaq istərkən, bunu Qətibəyə xəbər verdilər, qız yenə məşşatə qadınların əlindən çıxıb, ziyafət salonundakı pərdələrin dalına qaçdı və məktuba qulaq asmağa başladı.

Polad məktubu oxudu:

"Əlahəzrətin izdivac xəbəri Cənubi Azərbaycan xalqının milli bayramı şəklini aldı. Şəhərlər, kəndlər xalq nəğmələri və musiqi tərənnümləri altında bayram edir, bazarlar, çarsular bəzənmiş və çırağbanlıq nəticəsində qaranlıq gecələr gündüz kimi işıqlanmışdır. Eldəniz xanədanının nəcib nəslinin davamına zəmin qoyan bu izdivac, bir tərəfdən də bizi Əmirəlmöminin ailəsinin şərəfilə əlaqələndirir. Yeddi gün, yeddi gecədir ki, bütün Təbriz xalqı bayram edir. Bütün məscidlərdə Təbriz fəqirlərinə ehsan paylanır. Xalq əlahəzrət Atabəyin və onun həşəmətli mələkəsinin ömrünə, dövlətinə dua edir. Çox təəssüf edirəm ki, şəxsən Atabəy və onun mələkəsini bu böyük şadlıq münasibətilə yaxından təbrik etmək səadətinə nail ola bilmədim. Buna görə də səmimi hisslərimi ülya və əlahəzrətə yaxından təqdim etmək vəkalətini böyük şairimiz Nizamiyə həvalə etdim və göndərdiyim kiçik hədiyyəni gənc mələkəyə öz əli ilə təqdim etməsini tapşırdım.

Kiçik qardaşınız *Qızıl Arslan*".

Atabəy Məhəmməd məktubun məzmunundan o qədər şad idi ki, yerə-göyə sığa bilmirdi. O bir saat əvvəl Qızıl Arslan haqqında düşündüklərinin əksini düşünür və öz-özünə deyirdi:

– Həm tədbirli, elmli, ədəbli, siyasətşünas bir hökmdar, həm də məhəbbətli və istəkli bir qardaşdır.

Qətibə də pərdənin dalında durub məktubu dinləmişdi. O indi Qızıl Arslan haqqında bəslədiyi nifrətin azaldığını hiss edirdisə də, lakin onun Nizamini heyət sədri təyin etməsindən razı qala bilmirdi.

İndi Qətibəyə təsəlli verəcək yalnız bu idi ki, onun tapşırığına görə Atabəy Məhəmməd Nizaminin qarşısında Əbül-Ülanı qiymətli bir xələtlə mükafatlandıracaq və keçmiş ziyafətdə xətibi təhqir edən Məhsəti xanım bu ziyafətdə təhqir ediləcəkdi. Qətibə pərdənin dalında durduğu müddətdə bu şadlıqla qanadlanıb uca aləmlərə uçurdu.

Lakin birdən Qətibənin yüksəklərdə çırpınan qanadları hərəkətsiz qaldı. Məhsəti xanım ziyafətə daxil olan zaman, vaxt ikən düşünülmüş tədbirlər tamamilə əhəmiyyətdən düşdü. Əmirin və Atabəyin tapşırığına görə Məhsəti xanım məclisə girdiyi zaman ona hörmət göstərməyəcək və yer verilməyəcəkdi. Lakin Məhsəti xanım ziyafət salonunun qapısında görünərkən, dərhal Nizami ayağa qalxıb onu istiqbal etdi. Nizaminin dalınca Qızıl Arslanın vəziri Şəmsəddin, Cənubi və Şimali Azərbaycan heyəti yerindən qalxdı. Buna görə də Azərbaycan heyətinə hörmət üçün bütün qonşu hökumətlərdən gələn heyətlər ayağa qalxdı və hamısı bir səslə sənətkar şairəni salamladı. Şübhə oyandırmamaq üçün Əbül-Üla və Gəncə xətibi də yerlərindən qalxmalı oldular.

Bu qədər böyük bir ehtiram Atabəyə qarşı bir nümayiş şəkli olmasın deyə, Atabəy ayağa qalxıb Məhsəti xanıma tərəf irəlilədi və onun əlini öpəndən sonra qolundan tutub sol tərəfində əyləşdirdi.

Qətibə pərdə dalından baxarkən, yenə də Atabəyin bir tərəfində Nizami və o biri tərəfində Məhsəti xanımı görüb əvvəlki oyunlarına başladı. Şıltaq və məğrur qız yenə də acığını zümrüdlərin, zəbərcədlərin, yaqutların, incilərin, almazların üzərinə tökdü. Boynundan qırıb havaya atdığı incilər insan yağışının damcıları kimi otağın tavanından məşşatələrin və cariyələrin başına töküldü.

Yüzlərcə şam işıqlarında bərq vuraraq, tavana dəyib, sonra aşağıya, ipək xalçaların üzərinə tökülən bu brilyantlar yerindən qopub fəzalarda fırlanan ulduzları andırırdı. Boynundan qırıb tulladığı qırmızı yaqutlar təzə gəlinin qürur və hirslə qızarmış çöhrəsindən rəng alırdı.

Ziyafət salonunda hamının nəzərini cəlb edən bir şey varsa, o da hamının öz yerində oturduğu zaman qazi, xətib və Əbül-Ülanın hələ də ayaq üstündə durmaları idi. Sanki ziyafət salonu mühüm bir hadisə qarşısında durmuşdu. Məclisdə toy mərasiminin bütün ənənələri həyata keçirilmişdi. Mərasimdə yetişməyən bir şey varsa, o da gənc mələkənin salona gəlməsi və Atabəylə birlikdə ətrafdan gələn heyətləri qəbul etməsindən ibarət idi. Lakin mələkənin gəlməsi çox uzun çəkdi, çünki hələlik onu adi halına gətirmək mümkün olmamışdı. Çox təxirdən



sonra mələkə yüzlərcə gözəl cariyələrin müşayiəti və musiqi tərənnümləri altında salona daxil oldu. Atabəy ayağa qalxıb mələkəyə yaxınlaşdı. Onun əlindən öpüb qolundan tutdu, yanında qoyulan kürsünün üstündə əyləşdirdi. Bir tərəfdə Səba xanım, o biri tərəfdə cariyələrdən Tuba xanım gənc mələkənin başı üstündə durub yelpazə çəkirdilər.

Heyət üzvləri bir-bir ayağa qalxıb Atabəyi və mələkəni təbrik etdilər. Nəhayət, Əbül-Üla ayağa qalxıb toya ithaf etdiyi şeri oxumaq istədikdə Atabəy əli ilə işarə edib Əbül-Ülanı dayandırdı, halbuki Atabəyin özü onun şeir oxumasına və sonra da xələt almasına razılıq vermişdi. Qətibənin bu vəziyyətdən halı dəyişdi və bu dəqiqədən etibarən təzə ailədə gələcəkdə baş verəcək böyük faciələrin zəminəsi qoyuldu. Qətibə Atabəydə gördüyü bu dönüşün intiqamını almağa həmən ziyafətdə and içdi. Bu şadlıq gecəsində Eldəniz xanədanının süqutuna əsas qoyuldu və hökmdarlara qarşı qoyulan sui-qəsdin müqəddiməsi başlandı.

Təbriklər davam edirdi. Qətibənin isə gözü Nizamidə idi. Qızın gözündə başqa bir aləm təcəssüm edirdi: gah meşənin ağacları arxasında gizlənib şairin şerlərini dinləyir, gah da böyrü üstə yıxılmış söyüd kötüyünün üstündə oturub eşq-məhəbbət dastanlarını əzbərləyirdi. Sonra birdən o, şairin son sözünü xatırlayır və qəlbi qəzəblə alışırdı:

– "Bir qəlbi tikmək üçün başqa bir qəlbi yıxmaq lazımdır..."

O zaman Qətibə Nizaminin nə cür ağır əzablarla məhv ediləcəyi haqqında dərin fikirlərə dalırdı. Gah onu dara çəkdirib özü də dar ağacı altında saçları ağarıncaya qədər ağlayırdı; gah da onu doğratdırıb son nəfəsində şairin başını dizi üstünə alır, qara saçlarını onun yaralı sinəsinə dağıdırdı; gah da onun qəlbini iti bir oxla deşdirib demək istəyirdi:

"Mənim məhəbbətim üçün çırpınmayan ürəklərin hərəkət etməyə ixtiyarı yoxdur. Mən yaşamayan ürəkdə başqaları da yaşamamalıdır".

Lakin Qətibə bu fikirlərindən sürətlə geri çəkilərək öz-özünə lənət edir və deyirdi:

"Əcəba, sən öz məhəbbətin üçün dünyalara işıq verən, şeirlər, incəliklər və bədii zövqlərlə dolun olan bir qəlbi məhv etmək ixtiyarına maliksənmi?!"

Mələkəni və Atabəyi təbrik etmək növbəti Gəncə xətibinə yetişdi. O, ərəbcə çox qəliz bir nitq deyərək, bu izdivacın Ayla Günəşin birləşməsi kimi nəticə verə biləcəyini qeyd etdi.

Atabəy bu nitqdən o qədər də razı qalmadı. Əvvəla, ziyafət salonunda oturanların əksəri azəri olduğundan, burada ərəbcə nitq söyləmək yerli dilə əhəmiyyət verməmək və burada ərəb hakimiyyəti nüfuzunun davam etdiyini göstərmək kimi idi. Atabəy buna görə də xətibə təşəkkür və iltifat göstərmədi.

Təbrik növbəti Azərbaycan heyətinə yetişərkən Nizami yerindən qalxdı. Şairin çıxışı ilə hər kəsdən artıq Qətibə maraqlanırdı, çünki o bu səsi son kərə eşidəcəkdi. Bir daha o, illər uzunu həsrətini çəkdiyi gənc şairlə bir məclisdə otura bilmək imkanına malik ola bilməyəcəkdi.

Atabəy, mələkə və bütün heyət üzvləri, hətta Əmir və onun hiyləgər vəziri Toxtamış da, Əbül-Üla və Gəncə ruhaniləri də Nizaminin nə demək istədiyilə maraqlanırdılar. Şair nitqini belə başladı:

– Altıncı əsr hicrinin ikinci yarısında, Şərqin üfüqlərində iki hadisə baş verdi. Bütün Yaxın Şərq məmləkətlərinə işıq salmış böyük bir ulduz kürəsindən qopub düşdü, onun yerində başqa bir işıqlı ulduz parlamağa başladı. Tarix səlcuq xanədanı əzəmətinə dair açdığı səhifələrini bükdü, Nizamülmülk "Siyasətnamə"sinin[1] son vərəqini yazıb bitirdikdən sonra, sizin qarşınızda duran Nizami tarixin yeni səhifəsini yazmağa başladı. Yuxarıda göstədiyim hadisələr, ali-səlcuqun süqutu, onun yerində gənc Eldəniz xanədanının siyasət səhnəsində baş qaldırması hadisələrdən ibarət idi. Mən bugünkü izdivacın Ay kürəsilə günəş kürəsinin bir-birinə qovuşması kimi nəticə verməsinə tərəfdar deyiləm. Bu təşbeh nə qədər gurultulu bir təşbeh olsa da nəticəsi bir xoşbəxtliyi doğura bilməz, çünki Ayla Günəş kürəsinin bir-birinə təsadüf etməsi kürələrdən birisinin dağılması ilə nəticələnə bilər.

Atabəy, Nizaminin bu sözündə yerindən qalxdı:

– Əhsən şairə! – deyərək, sonra yenə də öz yerində oturdu. Nizami isə sözünü davam etdirdi:

– Buna görə də mən Ayla Günəşin yaxınlaşmasına tamamilə başqa bir məna verməklə deyirəm: Ayın Günəşdən işıq alması nəticəsində, Azərbaycanın illərdən bəri kölgələrdə buraxılan üfüqləri işıqlanacaq və iki qəlbin ailə təşkil etməsi nəticəsində də Cənubi və Şimali Azərbaycan xalqı bir ailə kimi yenidən təşkil olunacaqdır.

[1] Nizamülmülk – Soltan Səncər və Məlik şah dövrünün siyasi simalarından birisi idi, səlcuq hökmdarlarının üsul-idarəsi haqqında "Siyasətnamə" adında bir əsər yazmışdı. Ömər Xəyyam ilə birlikdə təzə təqvim düzəltmişdi.



Bu gün bütün Şərq xalqları, Ayla Günəşin bu ailəvi dostluğu hadisəsindən Şərqdə yaşayan bütün millətlərin dostluğu nəticəsini gözləyir. Mən ümid edirəm ki, bu böyük və tarixi ziyafətdə ülya və əlahəzrət yaxın Şərq xalqlarının bu istəklərinə kömək etmək üçün söz verəcəklər.

Ancaq bununla da iş birliyi, söz birliyi və fikir birliyi yaradıla biləcəkdir. Ölkələrin xoşbəxtliyi naminə, ülya və əlahəzrətin bugünkü xoşbəxtliyini təbrik edirəm, Azərbaycan valisi Qızıl Arslan həzrətlərinin bu qiymətli təbrikini ülya və əlahəzrətlərə təqdim etmək səadətinə nail olduğum üçün özümü xoşbəxt hesab etməkdəyəm.

Nizami sözünü bitirdikdən sonra Qızıl Arslanın vəziri Şəmsəddin əlində qızıl bir tabaq olduğu halda ayağa qalxdı, Nizami tabaqdan zümrüd sırğaları götürüb Qətibəyə yaxınlaşaraq dedi:

– Qızıl Arslan həzrətləri ülyahəzrət gənc mələkəyə bir cüt sırğa hədiyyə göndərmişdir. Sırğa göndərməkdən yeganə məqsəd bundan ibarətdir:

"Nə qədər ki, bu sırğalar ülyahəzrət mələkənin qulağındadır, Azərbaycan əhalisinin istək və arzuları da onun qulağında daimi olaraq səslənməlidir".

Nizaminin nitqi salondakılar tərəfindən afərin və əhsən səsləri ilə qarşılandı. Nizami sırğaları Qətibənin əlinə tapşırdığı zaman Qətibə ayağa qalxdı və üzünü Nizami tərəfə çevirib dedi:

– Azərbaycan xalqı tərəfindən hədiyyə göndərilən bu sırğaları qəbul edirəm və söz verirəm:

"Azərbaycan xalqının istək və arzularını bu sırğalar kimi qulağımda daşıyacaq və onlara məhəbbət bəsləyəcəyəm". Möhtərəm şair, səndən rica edirəm ki, mənim səmimi salamımı Qızıl Arslana yetirəsən. Sənin özündən də razıyam. Səsin daima qulağımda qalacaq və bununla da mən fəxr edəcəyəm!

Qətibə bunu deyərək şiddətlə ağladı. Ziyafət salonundakıların hamısını heyrətə saldı, çünki onlar bu ağlamağın səbəbini bilmirdilər. Bunun səbəbini bilənlər bir şairin özü, bir də Qətibənin sirlərinə məhrəm olan Səba xanım ilə xacə Müfid idi.

Bir çoxları da elə düşünürdü ki, Qətibə Atabəy Məhəmmədi sevmədiyi üçün ağlayır.

– Qız şadlığından ağlayır, – deyə düşünənlər də var idi. Lakin bunların hamısı əsilsiz idi. Qətibə öz xoşbəxtliyinin unudulmaz bir ümidsizlik üzərində qurulduğuna ağlayırdı.

Gecə saat bir idi, yengələrlə xacə Müfid Atabəylə Qətibənin otağının dəhlizində gəzib Əmirin qadını Safiyə xatuna xoş bir xəbər aparmaq istəyirdilər.

## SEVGİ MƏKTUBLARI

Qətibənin qəlbi köhnə sevgilisi Hüsaməddindən əmin deyildi. Çünki Əmir Hüsaməddinə illərdən bəri vədlər verib, "Qətibə səninkidir" – demişdi. İndi Qətibə Atabəy Məhəmmədə ərə veriləndən sonra, Hüsaməddin aldandığını görərək Əmir İnanca ədavət bəsləyirdi, necə gündü ki, o, saray ətrafında belə görükmürdü. Qətibə bu işin intiqamsız həll olunmayacağını yəqin etmişdi. Çünki Hüsaməddinin inadlı olduğunu bilirdi və onun son kərə dediyi "Mənim olmasan da, heç bir kəsin də olmayacaqsan!" sözlərini yadından çıxarmamışdı. Buna görə də o, Hüsaməddini görmək, onun qəlbini ələ gətirmək və aldatmağı düşünürdü. O, Səbanı yanına çağırıb:

– Sənə bir iş tapşıracağam, – dedi. – Onu yerbəyer edə bilərsənmi?

Səba xanım Qətibənin bu sözündən şadlandı, çünki o, macərasız yaşamağı bacarmırdı, saçları kəsiləndən sonra isə ona heç bir vəzifə tapşırılmamışdı. Buna görə də sevinərək:

– Nə kimi bir vəzifə tapşıracaqsan? – deyə sual verdi.

Qətibə ona öz qəlbini açıb dedi:

– İndi artıq mənim nə qədər böyük bir mərtəbəyə nail olduğumu bilirsən. Mən sənin üçün hər bir şey edə bilərəm. Səni göylərə qaldırmağı da, məzara gömməyi də bacararam. Sən mənim anama qarşı böyük bir xəyanət etdin, atamın sərxoşluğundan istifadə edib şərəfləndin. Özün bilirsən ki, mən buradan çıxıb Həmədana gedəndən sonra sənin sarayda yaşamağın mümkün olmayacaqdır. Lakin əgər sən bir neçə günün içərisində özünü yaxşı aparsan, göstərdiyim vəzifələri yaxşı yerinə yetirə bilsən, mən səni özüm ilə bərabər Həmədana aparıb öz sarayımda yaşadacağam.

Səba xanım sevindiyindən ağladı, qalxıb Qətibənin əlindən öpdü və dedi:



– Mən nə zaman həşəmətli mələkənin sözündən çıxmışam ki, bu gün də cəsarət edib onun tapşırdığı vəzifədə səhlənkarlıq edə biləm?

– Sənin bacarığını bilməmiş deyiləm. Sənin əsas nöqsanın burasındadır ki, sənə tapşırılan vəzifəyə öz məqsədini də əlavə edirsən. Bundan sonra bu barədə mənə and içməlisən. Öz məqsədini tamamilə kənara ataraq tapşırdığım vəzifə ilə məşğul olacaqsan. Sən Fəxrəddin ilə başladığın oyunda öz məqsədini irəli sürməsəydin, çoxdan Fəxəddin saray həbsxanasında məhv edilmişdi. Bunların hamısı keçibdir. İndi doğrusunu de görüm, sən Hüsaməddinlə əlaqədə olmuşsanmı?

– Əlaqədə olmuşam, lakin bir qadın kimi yox. Onu Əbül-Ülanın qızı Mahtab ilə tanış etmək üçün əlaqə düzəltmişdim.

– Bunu Mahtab özü bilirdimi?

– Mahtab bu barədə heç bir şey bilmirdi, Hüsaməddin onu sevirdi, mən ondan sevgi məktubları alırdım, hamısını gizlətdikdən sonra özüm Mahtabın tərəfindən cavabını yazıb ona aparırdım. Yalnız Hüsaməddin deyildi, onun kimi bir neçəsi də mənim əlimdə oyuncaq idi.

– Sən bunu nə üçün edirdin?

– Əvvələ, mən kişiləri aldatmaqdan maraqlanıram, onların sevgi məktublarını oxumaq mənə hər şeydən çox nəşə verir. İkincisi də budur ki, mən bu oyunu müftə-müftəsinə oynamırdım. Mahtab xanımın adına aldığım hədiyyələr mənim zəhmət haqqım idi.

Qətibə güldü:

– Sənə yaxşı ad qoymuşam, dünyanın şeytanısan. Səni burada yetim qoyub gedəsi deyiləm. Ancaq şərtim budur ki, mənimlə Hüsaməddini görüşdürməlisən. Çünki o məndən incimişdir. Atabəylə olan bu izdivac onun ruhuna toxunmuşdur. Onu görmək və qəlbini ələ almaq lazımdır. Sən bilirsən ki, atam məni ona vədə vermişdi. Buna görə də o, atama qarşı intiqam hissi bəsləyə bilər. Məni anladınmı?

Səba xanım sevinərək dedi:

– Çox pakizə, çox da gözəl bir surətdə anladım, xanımı bu barədə təbrik edirəm, çünki ülyahəzrətin mənə tapşırmaq istədiyi vəzifəyə mən on gün bundan qabaq başlamışam.

Qətibə təəccüblə soruşdu:

– On gün bundan qabaq?!

– Bəli, düz on gün bundan qabaq.

– Əcəba, bu vəzifəni sənə kim tapşırmışdı?!

– Mənim sevgi macəralarına olan rəğbət və marağım.

– Ax şeytan qız, sənin bu nəyinə lazım idi?

– Bu macəra mənə həm mənəvi, həm də maddi cəhətdən mənfəət verəcəkdi. Mən bundan istifadə etməmiş yaşaya bilərdimmi?! Yoxsul bir şairi sevən və dövlətli bir sərkərdə tərəfindən sevilən qızın bir məmləkətin hökmdarına ərə getməsi ən maraqlı bir hadisədir. Əcəba, mən bu qədər əlverişli hadisəyə soyuqqanlılıqla baxa bilərdimmi?! İşə başlamağımın səbəbi budur. Əlbəttə, ülyahəzrətin adına Hüsaməddindən ən qiymətli şeylər, nə də qızıl istəyə bilməzdim. Lakin məktub gətirib, məktub aparmaq isə Hüsaməddin kimi adamlar üçün ucuz başa gəlməzdi, hər məktubu gətirib cavabını aparmaq üçün on qızıl lazımdır.

– İndiyə qədər Hüsaməddindən neçə qızıl almısan?

– Yüz qızıl almışam.

– Deməli ki, on kərə məktub gətirib cavabını aparmısan. Cavabını kim yazıbdır?

– Ülyahəzrət yazmamışsa, onun həqir kənizi Səba yazmışdır. Pis də yazmamışam. Məktubları və məktubların cavabını sənə göstərə bilərəm.

– Hazırda bu yazışmalar nə vəziyyətdədir?

– Vəziyyət son mərhələyə çatmışdır. Hazırda müzakirə sizinlə Hüsaməddinin görüşməniz üzərində gedir. Bilmirəm, ülyahəzrət buna razılıq verəcəkdirmi?!

– Mən özüm sənə elə bu vəzifəni tapşıracaqdım. İndi ki, sən bu işə başlamısan, onda gətirdiyin məktubları və yazdığın cavabları mənə verməlisən, çünki mənim onlarla tanış olmağım lazımdır. Sonra Hüsaməddinin Mahtab xanıma göndərdiyi sevgi məktublarını da mənə gətirməlisən, çünki o mənə sevgi elan etdiyi zaman Mahtab xanıma da sevgi məktubları yazırmış, bu gözəl bir vəsiqədir, mən ancaq bununla Hüsaməddini sakit edə bilərəm.

Səba xanım əllərini bir-birinə vuraraq güldü və dedi:

– Söz yoxdur ki, ülyahəzrət mənim bu zəhmətlərimi mükafatsız buraxmayacaqdır!

Qətibə onun nə demək istədiyini anladı və əlini yanındakı sandığa salıb yüz qızıl dirhəm Səbanın qabağına qoydu və dedi:

– Sənin böyük zəhmətlərin böyük bir mükafatla qarşılanacaqdır. Hələlik bu qızılları ad və tez səndən istədiyim məktubları mənə gətir.

Səba xanım qalxıb sevinə-sevinə otaqdan çıxdı, Qətibə isə oturub düşünürdü:



– Kim bilir bu şeytan balası cariyə mənim özümü nə qədər adamın arasında alış-verişə qoyub pul qazanıbdır?! Qoy olsun, mənim sarayım üçün belə bir bacarıqlı cariyə günəş və su kimi vacibdir. Mən indi bildim ki, hökmdara ərə getmək adi bir adama ərə getmək kimi deyildir, sən onun həm qadınısan, həm də rəiyyətisən. Bütün bu zinətlər, bu qiymətli daşlar isə sənin üçün yalnız çəkilməz bir yükdür.

Mən indi bildim ki, hökmdarların məhəbbəti daimi məhəbbət deyildir. O, birinci günlər dodaqlarımı dodaqlarından buraxmadığı halda, indi iki həftədir ki, mənim alnımdan belə öpməmişdir. Qadın hökmdarlar üçün bir gecəliyə lazımdır, o da uşaq doğurmaq məqsədilədir. Görünür, bu yaşayış daimi olmayacaqdır. Bunun üçün mən ətrafıma lazımlı və iş bacaran adamlar yığmalıyam, Hüsaməddin və Səba xanım Həmədanda mənə lazım olacaqlar.

Qətibə bunları düşünürkən Səba xanım əlində bir bağlama otağa daxil oldu, bağlamanı yerə qoyub içindən iki parça kağız götürdü, onlardan birisini Mahtab xanım Hüsaməddinə, o birisini isə Hüsaməddin Mahtaba yazırdı.

Səba xanım Mahtabın dilindən Hüsaməddinə düzəltdiyi məktubunda yazırdı:

"Möhtərəm Hüsaməddin!

Bir qızın sənin kimi bir qəhrəmanla tanış olmaqdan böyük bir arzusu ola bilərmi? Mən çoxdan bəridir ki, bu arzudayam, lakin səninlə bilavasitə görüşmək istəyirəm. Nəhayət, cariyəmlə sənə bir məktub göndərməyə cəsarət etdim. Hərgah Mahtabın bu arzularına rəğbət bəsləyirsənsə, məktubun cavabını yazıb Səba xanıma ver.

Səni qanı ilə, vicdanı ilə sevən *Mahtab*".

Qətibə başını bulayaraq dedi:

– Mənə lazım olan Hüsaməddinin Mahtaba göndərdiyi məktubdur. Onu mənim üçün oxu!

Səba xanım Hüsaməddinin Mahtaba göndərdiyi məktubu oxudu:

"Sevimli və məhəbbətli Mahtab!

Mən bütün ömrümdə bu qədər şad olmamışdım. Sənin məktubunu oxumaq mənə bir bayramın nəşəsini verdi. Özün təsəvvür et, gözəl

Mahtab, sevdiyin və kölgəsincə illər uzunu süründüyün bir qızdan məktub almaq nə şərəfli və unudulmaz bir bayram deyildirmi? Məgər meydanlarda, rəsmi-keçidlərdə, məscidlərdə, meşə və bağ səyahətlərində dalınca gəzən Hüsaməddini görməmisənmi? Lakin mən sənə yaxın gəlib salam verməyə cəsarət etmirdim. Bu cəsarətsizliyin bir səbəbi də mənim Əmirin qızı Qətibəyə bağlı olduğumdur. Çünki Əmir bir neçə kərə: "Qətibə sənindir" – deyə onu mənim boynuma bağlamışdır. Lakin o qız heç vaxt, mənim qəlbimin mülkündə soltanlıq edə bilməz, çünki qəlbimin poladdan möhkəm olan qala qapıları onun üzünə bağlıdır. Bir də burasını bilməlisən ki, o heç bir zaman Mahtabın gözəlliyini əvəz edə bilməz. Sənin sevgin sudan saf, çiçəkdən təmizdir. İcazə versəydin, mən öz adamlarımı razılıq almaq üçün atanın yanına göndərərdim.

Sənin *Hüsaməddinin*".

Qətibə məktubu Səba xanımdan alıb cibinə qoydu və dedi:

– Bu məktub mənimlə Hüsaməddin arasında başlanan ixtilafı həll etmək üçün yeganə vasitədir. Madam ki, o özü üçün bir sevimli qız axtarırdı, mənim də şairdən ümidimi kəsəndən sonra başqasına ərə getməyə ixtiyarım var. İndi Hüsaməddinin mənə yazdığı birinci məktubu oxu!

Səba xanım Hüsaməddinin Qətibəyə yazdığı məktubu çıxarıb oxudu:

"Möhtəşəm Mələkə!

Sən daima olduqca məğrur idin, bu gün xoşbəxtlik saydığın izdivac sənin üçün əbədi bir bədbəxtliyə səbəb olacaqdır. Mən sənə o zaman demişəm, yenə də deyirəm: sən mənim olmasan, heç kəsin də olmayacaqsan, sənin mələkəliyin də o qədər uzun çəkməyəcəkdir. Sən nəyə aldanıb, iki-üç qadını olan Atabəyə ərə getdin? İndi bütün həyatın qısqanclıq, kədər və göz yaşları içində keçməyəcəkdirmi? Sən şairdən məhrum olduğunu zaman mənə ümid vermişdinsə də, yenə də vəfasız çıxdın, vədələrə vəfa etmədin. Lakin bir gün sən məni axtaracaqsan. Mən nəinki tək sənə, elə də sənin atana lazım olan bir adam idim. Hər sözü məktubumda yaza bilmədim, üz-üzə görüşmək mümkün olsaydı, onların hamısını sənə deyərdim.

*Hüsaməddin*".



Məktub oxunub qurtarandan sonra Qətibə Səba xanımdan soruşdu:

– Sən onu tapıb mənim yanıma gətirə bilərsənmi?

Səba xanım bir az əzilib-büzüləndən sonra:

– Əlacım nədir? – dedi. – Mələkə buyurandan sonra göydə də olsa endirib gətirməliyəm.

– Elə isə daha dayanma. Atabəy Şirvandan qayıtmamış onu saraya – mənim hüzuruma çağırmalısan.

– Bəlkə sabah, ya birisi gün qayıtdı.

– Sabah, birisi gün nədir, bir saata Hüsaməddin burada olacaqdır.

– Bu tezlikdə onu sən haradan tapacaqsan?

– Axtarmaq lazım deyil, o mənim yalan xəbərlərimi almaq üçün bu gün Zərrabxana meydanındakı çinarların altında dolaşıb məni gözləyir.

Səba xanım qalxıb getdi, Qətibə isə məşşatələri çağırıb geyinməyə və bəzənməyə başladı. Bəzədilmə iki saatdan artıq çəkdi. Nəhayət, Səba xanım içəri daxil olub Hüsaməddinin dəhlizdə onu gözlədiyini xəbər verdi.

Qətibə qalxdı və:

– Atabəy burada yoxdur, hələlik bu da kifayətdir, – deyərək məşşatələri otaqdan çıxartdı.

Hüsaməddin içəri girdi, salam vermədi, Qətibə isə bunu aldırmayaraq:

– Əleykəssalam, möhtərəm Hüsaməddin, gəl otur! – dedi.

Hüsaməddin keçib bir tərəfdə oturdu, Qətibə isə onun Səba xanımla göndərdiyi məktubu ona göstərib nəsihətverici bir tövr ilə dedi:

– Bu kağızı Səba xanıma verən sənsənmi?

– Bəli, mən yazmışam.

– Belə bir məktubu ancaq adi qızlara yazmaq olar. Onu bir məmləkətin mələkəsinə yazmaq etinasızlıq və hörmətsizlikdir.

– İllər uzunu etina edib hörmətlər bəsləməyimə qarşı nə kimi bir mükafat aldım?

– Daima aldatdığın bir qızdan sən nə kimi bir mükafat gözləyirdin?!

– Mən kimi aldatmışam?

– Əmir İnanc qızı Qətibəni, sənin qarşında oturan qızı, hazırkı mələkəni.

Hüsaməddin etirazla dedi:

– Sən yenədəmi böhtan və iftiralardan əl çəkmədin?

– Mən heç bir vaxt böhtan və iftira deməyi sevmərəm, lakin əlimdə dəlil olduğu zaman həqiqəti hər kəsin üzünə söyləməkdən utanmaram.

– Sənin əlində nə kimi bir dəlil ola bilər?!

– Gəl keçmişlərdən danışmayaq, çünki sən mənim yanımda müqəssirsən. Mən səni bura təqsirləndirmək üçün yox, barışmaq üçün çağırmışam. Mən keçmiş dostluğun davam etdirilməsi üçün səninlə danışmaq istəyirəm. Sən gözəlcəsinə bilirsən ki, bu izdivac bir məhəbbətin yox, bir siyasətin nəticəsidir. Nə edə bilərdim? Şair mənim məhəbbətimə qiymət qoymadı. Sən də başqa oyun oynadın.

– Mən səninlə hansı oyunları oynadım?

– Sənin dilin mənə sevgi elan edir, qəlbin isə Mahtab xanımla oynayırdı.

– Mənim qəlbim Mahtab xanımla?!

– Bəli, Mahtab xanımla! Sən elə bilirdin ki, Mahtab xanıma göndərdiyin məktubları Cahanbanu xanım mənə göndərmirdi?!

Qətibə bu sözdən sonra əlini balaca sandığa tərəf aparıb onun Mahtab xanıma yazdığı məktubu çıxarıb özünə göstərdi.

– Bu məktub sənin öz əlinlə yazılmamışdırmı? Bu imza sənin imzan deyildirmi? Sən bu məktubu yazdığın zaman hələ Atabəy Gəncəyə gəlməmişdi, şair isə məni rədd eləmişdi. Mən səni yanıma çağırıb qəlbimi açmaq istərkən Mahtaba yazdığın məktub əlimə çatdı. İndi özün mühakimə et, məndən sənə qarşı bir haqsızlıq baş verdimi? De görüm, mən sənə arxalanıb Atabəyin təklifini rədd edə bilərdimmi? Sən mənim yerimdə olsaydın, bir daha məni yanına çağırıb danışmaq istərdinmi?

Hüsaməddin sakit oldu, daha danışmadı, çünki Mahtab xanıma yazdığı məktub onun təqsirlərini isbat edəcək böyük bir vəsiqə idi. Artıq Hüsaməddin öz qəlbində Səba xanıma lənət yağdıraraq deyirdi: "Allah Səbanın evini yıxsın, mənim xoşbəxtliyimi əlimdən aldı, mənim ilə Mahtab xanım arasındakı sevgi əlaqəsini düzəldən o haramzadə cariyə oldu".

Hüsaməddin utandığından başını qaldırıb Qətibənin üzünə baxa bilmirdi, nəhayət, Qətibə irəli gəlib onun əlini əlinə aldı və çox soyuqcasına dedi:

– Mənim dostum, mən səni keçmiş günahların üçün töhmətləndirməyə çağırmamışam. Səni, gələcəyimiz barəsində tədbir tökməyə çağırmışam. İndi məni dinləməyə rəğbətin vardırmı? Açıq söylə, mənə olan məhəbbətin bir zərrə də olsa qəlbində qalıbmı?



Hüsaməddin Qətibənin əlini döşünə basaraq səsləndi:

– Qətibə, sənin gözlərinə and içirəm, o məhəbbət yenə də qalır, o, mən ölənə qədər sönməyəcəkdir.

– Mən bunu bilirdim, bunun üçün də səni yanıma çağırmağa cəsarət etdim. Bizim ikimiz də gəncik, ümidin qapısı isə heç kəsin üzünə bağlı deyil, gəl əl-ələ verib çalışaq. Meydanımız olduqca genişdir, biz indi bir Gəncə miqyasında deyil, bütün Atabəy məmləkəti dairəsində iş görə bilərik. Sən onu bil ki, mən səni Həmədana aparmaq üçün Atabəydən icazə alacağam.

– Sən məni Həmədana bir məhbus kimi aparmaqmı istəyirsən? Sən bununla öz atanın yaxasını mənim əlimdən qurtarmaqmı istəyirsən?!

– Yox, səni bir məhbus kimi yox, bir adlı-sanlı sərkərdə kimi paytaxta aparmaq istəyirəm. Orada mən ancaq səni tanıyacağam və sənə arxa verəcəyəm. Atamın məsələsinə gəldikdə, sənin o barədə düşünməyin tamamilə yersizdir. Mən özüm riza verməsəydim, o məni heç kəsə ərə verə bilməzdi. Öz təqsirin səbəbinə baş verən hadisənin intiqamını başqalarından almağa haqlı deyilsən. Mahtab üçün yazdığın məktub mənim əlimə çatmasaydı, Atabəy deyil, Bağdad xəlifəsi də gəlsəydi, bu iş baş tutmayacaqdı. De görüm, indi mənə inandın ki?

Hüsaməddin bir az düşündükdən sonra:

– Bəli, inandım! – dedi.

Qətibə bu sözdən razı qaldığı üçün soruşdu:

– Sənə bir hədiyyə versəm qəbul edərsənmi?!

– Bu iltifat gözəl qızın özündən asılıdır.

Qətibə bunu deyərək dodaqlarını Hüsaməddinə uzatdı, sonra Hüsaməddin onu buraxmaq istəmədiyindən Qətibə geri çəkilib:

– Dalısı sonra! – dedi.

## QÜTLÜĞ İNANC

Qətibə xatun oğlan doğdu. Uşağın bir ayı tamam olan günü Atabəy paytaxtında böyük şənliklər başlanmışdı. Həmədan şəhəri başdan-başa çiçəklər və əlvan güllər ilə bəzənmişdi. Küləyin qalasının divarları üzərinə taxılan minlərcə fənərlər və alovlu məşəllər on səkkiz verstlik məsafəni əhatə edən eniş-yoxuşlu şəhəri gündüz kimi işıqlatmışdı. Şəhərin ortasındakı Baba Tahirin məqbərəsindən şəhərə baxıl-

dığı zaman insanın fikri uzaq tarixlərə qayıdırdı. Od içində parlayan şəhər, II Keyxosrovun Midiya imperatoru Astiyaqın paytaxtına girdiyi zamanı və tarixin məşhur Əkbatanını yandırdığını xatırladırdı. Əlvənd dağının ətəklərində yanan məşəllərin şöləsi iki fərsəng məsafədən imamzadə Hüseynin məqbərəsini işıqlandırır və dəmir şəbəkəli pəncərədən içəri girməklə mərmər sütunlar arasında uçuşan gecə quşlarının rahatlığını pozurdu. Şəhərin bu başından o biri başına çəkilən ipin bir ucu Dəccanə məqbərəsi, o biri ucu isə şəhərin cənubundakı İsmayıl məqbərəsindəki minarəyə bağlanmışdı. İpin üzərinə düzülən əlvan fənərlər, göydən yerə əlvan rəngli ulduzların axıb gəldiyini xatırladırdı.

Qətibə, Atabəy sarayının uca köşkündə oturub oğlunun doğulması gününün şərəfinə düzələn çırağbanlığa baxırdı. Lakin onu nə bu təntənə, nə də oğlunun doğulması şadlandırmırdı. Çünki o, özünün və oğlunun gələcəyindən əmin deyildi. Eyni zamanda Qətibə, Qızıl Arslanla Atabəy Məhəmməd arasında mövcud olan əlaqədən də razı qala bilmirdi. Çünki Qətibə Qızıl Arslandan Atabəyə gələn məktubları gizlincə götürüb oxuduğu zaman Qızıl Arslanın Atabəy Məhəmmədə müraciətlə yazdıqlarını xatırlayırdı:

"Xalqın ağzını yummaq olmur, sizin qayınatanızın hərəkətləri, Şimali Azərbaycanda dəhşətli üsyanların çıxmasına səbəb ola bilər. Hər kəsin ağzından məmləkətdə Atabəy Məhəmmədin deyil, Qətibə xatunun hökmdar olduğu sözünü eşitmək olur. Yaxşı olardı ki, qış girmədən bir daha Azərbaycan tərəflərinə səyahətə çıxaydınız, hazırda məmləkətdə islahat aparmaq üçün əlimizdə geniş imkanlar vardır. Lakin Cənubi Azərbaycanla Şimali Azərbaycan arasındakı əlaqəsizliyi heç bir vəchlə ləğv edə bilmirəm. Çünki Qətibə xatunun atası buna imkan vermir".

Qətibə həm atasının, həm də özünün gələcəyindən qorxu çəkirdi.

O, Qızıl Arslanın Atabəyə yazdığı tənqidlərdən razı qalmırdı. Atabəy Məhəmmədin bu kimi tənqidlərə qarşı soyuqqanlılıqla hərəkət etməsi və bunlardan acığı gəlməməsi də Qətibənin qəlbində cürbəcür şübhələrə və düşüncələrə səbəb olurdu.

Bəzən Atabəy Məhəmməd Qətibənin təkidi və tələbləri üzərinə Qızıl Arslana fərman göndərirdisə də, lakin bu, Qızıl Arslan tərəfindən həyata keçirilmirdi. Buna görə də Qətibə Atabəy Məhəmmədlə Qızıl Arslan arasında gizli bir razılaşma olduğundan və bu tənqidlərin Atabəyin öz tapşırığı ilə yazılmasından şübhələnirdi.



Qətibə çox dərdli idi, onun sərəncamında olan bütün imkanlar onu razı salmırdı. O əvvəllər doğmağını gözləyirdi, oğlan doğandan sonra öz tələblərini qəti və ciddi bir surətdə Atabəyin qarşısına qoymağı qərara almışdı.

Bu gecə Qətibə nə olursa olsun öz sözlərini Atabəy Məhəmmədə demək istəyirdi. Lakin Qətibənin tələbləri çox böyük idi, Atabəy tərəfindən qəbul ediləcəyinə özü də inana bilmirdi.

Gecədən çox keçmişdi. Qətibə xatun çırağbanlığın tamaşasından qalxıb Atabəy sarayının aynabənd salonuna girdi. Dərhal cariyələr onu aralığa alaraq libas otağına gətirdilər.

Atabəy isə salonda dolaşıb Həmədan qazisini və Həmədan əyanlarını gözləyirdi. Onlar Atabəyin oğluna ad qoymaq üçün saraya dəvət edilmişdilər. Bir azdan, qabaq qazi, onun dalınca da Həmədan əyanları və böyük rütbəli hökumət məmurları, – vəzirlər və vəkillər salona daxil oldular.

Atabəyin oğlunu salona gətirmək üçün lələnin otağına adam göndərildi. Az sonra yüz nəfərdən ibarət bir dəstə – cariyə və kənizlər salona daxil oldular. Lakin uşaq lələnin yox, Səba xanımın qucağında idi, çünki lələyə veriləcək hədiyyənin Səba xanıma verilməsi üçün Qətibə bir neçə saat əvvəl Atabəylə danışmışdı.

Hamı ayağa qalxdı. Səba xanım irəli gəlib uşağı qazinin qucağına verdi. Qazi dua oxuyub, əlini uşağın alnına çəkəndən və təzə mövludu təbrik etdikdən sonra irəli gəlib uşağı Atabəyin qucağına verdi və dedi:

– Təzə mövludun adı haqqında ixtiyar ata-ananındır!

Atabəy cavab verdi:

– Mən uşağa Qütlüğ adı vermişəm, mələkə də öz tayfalarının nəsilbənəsil daşıdığı İnanc adını əlavə etmişdir. Hərgah qazi cənabları da icazə versəydi, uşağı bundan sonra Qütlüğ İnanc səslərdik.

Qazi yenə dua oxudu:

– Xudavəndi-aləm Qütlüğ İnancı əlahəzrətə çox görməsin və Eldəniz xanədanının ömrünü min illərə yetirmək üçün doğulan mübarək mövludu öz hifz və himayətində yaşatsın!

Qazi bu duaları oxuduğu zaman Atabəy diqqətlə uşağın üzünə baxırdı. Uşaq çox kinli və qaşqabaqlı idi. Atabəy uşağın çöhrəsindən aldığı təsirdən o qədər də yaxşı fal vurmadı, öz-özünə:

"Tamamilə anasının yolunu gedəcəkdir. Barışmaz bir çöhrəsi vardır" – dedi.

Atabəy uşağı qaytarıb Səba xanımın qucağına verdiyi zaman ona bir kağız da verdi. Kağızda: "Səba xanıma xəzinədən beş yüz qızıl verilsin" – deyə yazılmışdı. Atabəyin əmrilə qazinin çiyninə böyük bir xələt salındı, sonra da bir kisənin içərisində ona min dirhəm qızıl pul verdilər.

Atabəy bundan əlavə Həmədan fəqirlərinə on beş min qızıl ehsan edilməsinə əmr verdi və təzə mövludun münasibətilə bir neçə camenin və məqbərənin təmir edilməsi üçün öz vəzirinə əmr verdi. Onlara: Əbüdcecanəyiin sarin, Musa Kazımın oğlu İsmayılın, Əliyyülnəğinin oğlu Həsənin, Baba Tahirin, Şeyxül Seyid Əli və Xacə Əbülyəqubun məqbərələrinin təmir edilməsini tapşırdı.

Salon boşaldı. Səba xanım yenə də uşağı götürüb cariyələrin və kənizlərin müşayiətilə beşik otağına apardı. Qətibə xatun dərhal Səba xanımı qarşılayıb onun qulağına pıçıldadı:

– Atabəy uşağı öpdümü?

Səba xanım yavaşdan cavab verdi:

– Uşağı öpmədi, lakin onun üzünə diqqət və təəccüblə baxdı.

Səba xanımın verdiyi bu xəbər Qətibənin Atabəy Məhəmmədə qarşı bəslədiyi şübhələrini bir daha qaynatdı. Yemək otağına keçmək lazım idi, çünki Atabəy onu gözləyirdi. Kənizlər, cariyələr onu yemək otağına yola saldığı zaman Atabəy ayaq üstündə durub Qətibəni gözləyirdi. Atabəy Qətibəni gördüyü zaman irəli gəlib əlindən öpdü:

– Mələkəni təbrik edirəm. Oğul doğduğun üçün atamızdan qalan məşhur malikanəmizi sənə bağışlayıram. Eldəniz malikanəsi Həmədan və Soltaniyyə arasında ən gözəl, ən səfalı bir yaylaqdır. Rəhmətlik atam Eldəniz Rübatını yazıq anamız üçün saldırmışdı. İndi isə atamızın nəslini davam etdirmək üçün bizi şadlandırmış Qütlüğ İnancın gözəl və nəcib anasına bağışlayıram. Qardaşım Qızıl Arslan Qütlüğ İnancın doğulduğunu eşidəndən sonra bir məktub göndərmişdir. Bax nə gözəl yazır:

"Eldəniz xanədanına təzə bir çiçək bağışlayan həşəmətli mələkəyə bütün Azərbaycanda çiçəkləri ilə məşhur olan Seyidabad kəndini bağışlayıram. Bu kənd öz havası ilə məşhurdur. Bu kənd Ucan yaylasının dörd fərsəng məsafəsindədir".

Atabəy bu sözləri deyəndən sonra iki qəbalə çıxarıb Qətibə xatunun qarşısına qoydu. Onlardan birisi Eldəniz Rübatının, ikincisi isə Qızıl Arslanın hədiyyə etdiyi Seyidabadın qəbaləsi idi.



Qətibə xatun qəbalələri alıb bir tərəfə atdı və heç bir söz demədən yemək süfrəsinin başına keçdi.

Qətibə xatunun bu etinasız hərəkəti Atabəyi təbii halından çıxardı. Lakin ona süfrə üstündə heç bir şey demək istəmədi. Yalnız Qətibənin acıqlı çöhrəsinə baxdığı zaman bir saat bundan əvvəl gördüyü uşağın acıqlı və kinli çöhrəsi də gəlib onun gözünün qarşısında dururdu. Şam yeməyi qurtardı. Qətibə durub getmək istərkən, hədiyyə verilmiş qəbalələrə əhəmiyyət vermədi, nəhayət, Atabəy Qətibəyə müraciət etdi:

– Mələkə iki hökmdar tərəfindən verilən hədiyyələri özü üçün layiq bilmədimi?!

Qətibə acıqlı qaşlarını bir-birinə çatışdırıb cavab verdi:

– Mən o hədiyyələri həqir hesab etmirəm, o hədiyyələr olduqca böyükdür. Lakin onlar mənim üçündür. Təzə doğulan uşaq üçün layiq deyildir. Madam ki, uşağın Eldəniz xanədanını davam etdirməyə səlahiyyəti vardır, o zaman bunu qeyd etmək lazım idi.

Atabəy Məhəmməd fikrə getmişdi. Bu qadınla yaşamaq mümkün olmadığını düşünürdü, çünki o, bu həyatdan razı deyildi, o özünə verilən səlahiyyət və hörməti kifayət hesab etmir və onunla qənaətlənmirdi. Atabəy qəlbində Qətibəyə evləndiyini böyük və siyasi bir səhv hesab edirdi. O öz qəlbində bu qadından və onun oğlundan məmləkətin böyük bədbəxtliyə düçar olacağını düşünür və öz-özünə lənət oxuyurdu.

Atabəy fikirli-fikirli Qətibədən soruşdu:

– Bir aylıq uşağı bundan artıq qeyd etmək mümkün idimi? Səncə, Həmədan fəqirlərinə veriləcək ehsanlar, müqəddəs məqbərələrin təmiri və sairələr uşağın hörmətini qeyd etmək deyilmidir?

– Sən onları uşaq üçün yox, öz şöhrətin üçün etdin.

– Uşaq üçün nə edə bilərdim?!

– Uşağın dodaqlarından öpərək, "vəliəhdimi al" deyə onu Səba xanıma qaytarmalı idin.

– Bu məsələni qaldırmaq tezdir. Vəliəhd təyin etmək işi Toğruldan asılıdır. Çünki məmləkətin qanuni hökmdarı Toğruldur. Vəliəhdlik hüququ mənim övladımın deyildir. Rica edirəm mələkə bu məsələni hələlik qaldırmasın. O ki uşağı öpmək məsələsidir, mənim qazinin və ruhanilərin hüzurunda bir körpəni öpməyim nəzakətsizlik olardı. Əbəs yerə bu sadə məsələdən ötrü narazılıq yaradırsan.

– Körpəni öpməmək mənə və oğluma qarşı bir hörmətsizlikdir.

– Onu, ancaq mənim şübhələr və düşüncələr əsiri olan mələkəm bu cür düşünə bilər.

– Mənim oğlum vəliəhd, mən özüm isə mələkə deyiləm. Mən mələkə olmadığımı çoxdan bilirəm. Çünki mənim dediklərimin və mənim tapşırıqlarımın heç birisi həyata keçirilmir. Lakin sən buna söz vermişdin, bu bizim izdivac şərtlərimizdən birisi idi.

– Sən Şimali Azərbaycan xalqının səadəti və məmləkətin abadlığı üçün hər nə ki istəyirsən həyata keçirmək mümkündür. Yaxşı fikir elə, sənin belə bir təklif etdiyin olubmu?

– Mən bir çox təkliflər etmişəm, sən də onları Qızıl Arslana yazmışdın, lakin Qızıl Arslan onların heç birisinə əməl etmədi. Sən bilirsən ki, Fəxrəddinlər, Nizamilər mənim atamın Azərbaycanda hökumət sürməsinə əngəl törədirlər. Sən bir neçə dəfə bu barədə Qızıl Arslana tapşırıq vermişdin, lakin yenə də onların atama qarşı olan ədavətləri davam edir. İndiyə qədər Qızıl Arslan istəsəydi, onları öz yerində oturtmuşdu.

– Çox əcəb, indi təklifin nədir?!

– Mən təklifimi sənə çoxdan bildirmişdim. Bu təklif xəlifədən sənə gətirdiyim məktubda da qeyd edilmişdi. Sən xəlifənin məktubuna da əhəmiyyət vermədin.

– Sənin nə demək istədiyini bilmirəm. Bilirsən Qətibə, dünyada bir çox qadınlar hökmranlıq etmişdir. Lakin onlar sənin getmək istədiyin yolu təqib etmiş olsaydılar, bir il belə hökmranlıq edə bilməzdilər. Sən öz atanın rahat yaşaması üçün bir məmləkəti viranə qoymaq istəyirsən. Hərgah Nizami kimi bir şair bu gün Azərbaycandan çıxıb Xarəzm şahı Əlaəddin Təkəşin yanına getmək istəsə, onun ayağının altına qızıl səpər və ipək xalçalar döşərlər. Lakin sənin atan hökmranlıq etdiyi bir məmləkətdə iki cahangir şair bir arıq inəyin südü ilə yaşayır. Fəxrəddin kimdir?! O, bir kərə üzünü Şimali Azərbaycan xalqına tutub "silahlanın" deyərsə, yüz minlərcə igid at belinə qalxar. Şimali azərbaycanlılar özlərini Börkiyarıq ilə qardaşı Məhəmməd arasında gedən müharibələrdə göstərmişlər. Fəxrəddin kimi qəhrəmanlar gələcəkdə, hətta yaxın gələcəkdə bizim ölkələrimiz üçün lazım olacaqdır.

Hərgah Qızıl Arslan Nizami və Fəxrəddini məhv etməmişsə, haman mən sənə burada dediyim səbəblər üçün məhv etməmişdir.

Mələkə bilməlidir ki, Fəxrəddinlə atanızın arasında mövcud olan ixtilaf heç bir çarə ilə həll ediləcək ixtilaflardan deyildir.



Qətibə acıqla Atabəydən soruşdu:

– Mənim atam ona nə etmişdir?! O kimdir ki, mənim atamın üzünə dursun, qapımızda minlərcə Fəxrəddin kimi nökər yoxdurmu?!

– Sənin atan onun qəlbinə sağalmaz bir yara vurubdur. Onun nişanlısını sarayda saxlayandan sonra xəlifəyə hədiyyə göndərmişdir. Sənin atan nə üçün xalqın başqasına nişanlanmış gənc qızını evindən çəkib gətirmiş?! Sən elə bilirsən ki, Fəxrəddin öz Dilşadını unudacaqdır? Sənin atanın başına nə fəlakət gəlsə, ancaq bu cəhətdən gələcəkdir.

İndi də sənin xəlifədən gətirdiyin məktubların məzmununa keçək. Xəlifə təklif edir ki, Qızıl Arslan Azərbaycan hökumətinin başından götürülsün.

*Əvvəla*, sənə məsləhət görürəm ki, hər ay başında Bağdada gedib xəlifədən mənə məktub gətirməkdənsə, Azərbaycana gedib mənim sifarişlərimi atana yetir. Ona mənim dilimdən salam yetirib söylə ki, onun hərəkətləri Şimali Azərbaycan xalqının üsyanına və ailənizin bədbəxtliyinə səbəb ola bilər.

Qoy sənin atan, Qızıl Arslanın bu məmləkətdə islahat aparmasına mane olmasın. Qızıl Arslan kimi ağıllı, tədbirli, alicənab və mərhəmətli hökmdar hələlik Şərq məmləkətlərinin heç birisində görünməmişdir. O, hökmdar olmaqla bərabər bir qəhrəmandır. Eyni zamanda bir alim və bir şairdir. O heç bir vaxt Fəxrəddin kimi qəhrəmanı, Nizami kimi bir şairi məhv etmək istəməz.

Qızıl Arslanın bir yaxşılığı da burasındadır ki, o öz yaşadığı məmləkəti beş barmağı kimi tanıyır, xalqının ruhunu ölçüb-biçir, idarə etdiyi xalqa özünü sevdirməyi bacarır. Lakin mənim qayınatam, içərisində yaşadığı xalqın etimadını itirmişdir. Bu gün Şimali Azərbaycan xalqına üzünü tutub "silah başına" deyərsə, beş nəfər nökər, on nəfər mülkədardan başqa bir kimsəni öz arxasında görə bilməz.

*İkincisi* budur ki, xəlifənin Qızıl Arslanın işdən götürülməsi barəsindəki əmri bizim üçün qanun deyil, xəlifə öz ixtiyarı xaricində heç bir iş görməməlidir. Sən heç bir vaxt xəlifənin nüfuzunu düşürə biləcək məktubları alıb gətirmə. Xəlifələrdən hökmdarlara əmr vermək, təyin və xaric işlərinə qarışmaq ixtiyarı çoxdan alınmışdır. İndi artıq Bağdad xəlifələrinin özünü də hökmdar təyin edir. Hökmdarlar istədiyi zaman onları taxtdan yerə salaraq gözlərinə mil çəkir və Bağdad küçələrinə buraxırlar.

*Üçüncüsü* də, mələkəm bilməlidir ki, Qızıl Arslanı Azərbaycan hökuməti başına nə mən, nə də Bağdad xəlifəsi təyin etməmişdir. Onu bu mövqeyə çatdıran öz bacarığı olmuşdur ki, bunun nəticəsində də rəhmətlik atam Eldəniz onu Azərbaycan hökumətinə təyin eləmişdir.

*Dördüncüsü*, ən mühüm bir məsələni mələkəyə anlatmalıyam. Qızıl Arslan çox da yazıq və qorxaq adam deyildir. O, üzünü Azərbaycan xalqına çevirib kömək istəsə, böyükdən kiçiyə qədər Azərbaycan xalqını at belində görərsən.

*Beşincisi*, o mənim gözümün işığı kiçik qardaşımdır. Kiçikdir, lakin böyük fikirləri həyata keçirmək işində çox böyük adamdır. Mən də və sənin atan da, hökmdarlıq etmək üçün ondan bir çox şeylər öyrənməliyik.

Qətibə bunları eşidəndən sonra:

– Mən də neçə müddətdir ki, səndən bu sözləri eşitmək istəyirdim, – deyərək qalxıb getdi.

## ELDƏNİZ RÜBATI

Yay istiləri düşdüyünə görə Atabəyin ailəsi Eldəniz Rübatı yaylasına köçmüşdü. Mələkə yaylaqda yaşadığı zaman təyin edilən mühafizə dəstəsinin başçılığını Atabəy Məhəmməd Hüsaməddinə tapşırmışdı.

Atabəy öz oğlunun həyatını və gənc qadınının namusunu ancaq Hüsaməddinə inanırdı. Çünki Qətibənin özü də Hüsaməddinin namuslu və sədaqətli bir zat olduğunu və onun Əmir İnancın nemətləri ilə böyüdüyünü Atabəyə dəfələrlə söyləyib inandırmışdı. Lakin Qətibənin özü şəxsən Hüsaməddinə inana bilmirdi, yenə də Hüsaməddinin intiqamlarından qorxurdu. Xüsusən, Qətibə yaylaqda yaşadığı zaman Hüsaməddin qəlbində bəslədiyi intiqamı asanlıqla həyata keçirə bilərdi. Buna görə də gecələrin birində Qətibə öz cariyəsi Səba xanımı Hüsaməddinin dalınca göndərib onu öz çadırına dəvət etdi. Qətibə daima bir məsələni bəhanə edərək Səba xanımı onun çadırına göndərirdi, çünki Hüsaməddin öz sirlərini ancaq Səba xanıma deyirdi. Səba xanım isə Qətibənin tapşırığına görə Hüsaməddinin bütün sevgi elanlarına müsbət cavab verir, rəsmiyyətə salınmasa belə onunla yaşayırdı. Hüsaməddinin fikrincə, Qətibənin bu macəradan xəbəri yox idi, çünki Səba xanım hər zaman onunla gecələdikdə, ona yalvarır, Qətibəyə xəbər verməməsini tapşırırdı.



Səba xanım Hüsaməddinin çadırının pərdəsini qaldırıb içəri girdi və çadırda başqa adam görmədiyi üçün Hüsaməddinin qucağına atılıb ağladı:

Hüsaməddin onun dodaqlarından öpərək soruşdu:

– Mənim ruhum, nə üçün ağladın? Hüsaməddin sənin göz yaşlarını görməyə tab edə bilərmi?!

Səba xanım onun boynuna sarılaraq deyirdi:

– Mənim göz yaşlarımın tökülməsinə səbəb sənin özün deyilsənmi?!

– Aman allahım! Mən buna razı ola bilərəmmi?! Söylə, hərgah buna bir səbəb varsa, o səbəbi qılınc gücünə məhv edərəm.

Səba xanım ağlaya-ağlaya dedi:

– Sən onu bacarmazsan, çünki onu sevirsən.

Hüsaməddin gülərək başını buladı:

– Sən məni Qətibəyəmi qısqanırsan? Sən bilirsən ki, o mənə xain çıxıbdır. Sən bilirsən ki, mən onun məhvinə çalışıram. Əcəba, məni sevməyən bir adamı mən sevə bilərəmmi?.. O məni aldadıb ərə getdiyi bəs deyildi, üstəlik aldadıb Həmədana da gətirdi. Atabəyi sevməyəcəyinə dəfələrlə and içib məni inandırdı, lakin ondan bir oğlan doğdu. İndi isə məndən nə istəyir?!

– Bilmirəm, səni öz çadırına çağırır, şam süfrəsi düzəltmişdir. O səni yanında saxlayacaqdır. Mən buna dözə bilmərəm. Bu axşam özümü hovuza atıb məhv edəcəyəm.

Səba xanım bunları deyəndən sonra yenə də hönkür-hönkür ağladı. Hüsaməddin onun sevgisinə inanırdı. Çünki o, saxta sevgi daşıyan bir qadının gözlərindən bu qədər yaş axıda bilməsinə inanmırdı. Lakin Hüsaməddin Səba xanımın bu işlərdə sənətkar olduğunu bilmirdi, o daima Səba xanıma yalvarın və deyirdi:

– Sənin hər bir qırıq tükünü dünyanın yüzlərcə mələkəsinə dəyişmərəm. Onun kölgəsincə illər uzunu süründüm; o gözəldir, lakin bir kərə olsa üzüm gülmədi. Mən belə bir qərara gəldim ki, onunla heç bir kəsin həyatı gülməz. Mənim iqbalım ancaq səninlə güləcəkdir. Buna görə də səni bu zəhərli qadının himayəsindən qurtarıb bir mələkə kimi yaşatmağı qərara almışam.

Qətibə Səba xanımın təxir etməsindən heç də acıqlanmırdı. Çünki o, Səba xanımın verdiyi tapşırıqlara əməl etdiyi üçün təxir elədiyni bilirdi.

Səba bir saatdan sonra Qətibənin çadırına girdi və qəhqəhələrlə gülməyə başladı. Bu gülüşlərdən Qətibə Səbanın nə demək istədiyini anladı. Səba xanım isə Hüsaməddinlə danışdıqlarını tamamilə Qətibəyə xəbər verdi. Qətibə başına hərəkət verərək dedi:

– Bütün işlər Hüsaməddin kimi adamların əlində olsaydı, hamısını bir saatın içərisində əlimə ala bilərdim.

Hüsaməddin Qətibənin çadırına yaxınlaşdığı zaman Qətibə də çadırın pərdəsini qaldırıb qara buludlarla qucaqlaşan on dörd gecəlik ayın kirşanlı çöhrəsini seyr edirdi.

Ucandan və Soltaniyyə çəmənindən qalxan gecə ruzigarı Əlvənd dağının lətif nəsimlərilə qucaqlaşdığı zaman, Qətibənin qara saçlarının bükümlərini dağıdır və aydan daha şəfəqli olan alnından öpürdü.

Qətibə bu gecə öz gözəlliyini artıra biləcək bütün vasitələrdən istifadə etmişdi. O, Hüsaməddini gördüyü zaman üzünə tökülən saçlarını bir daha çöhrəsindən kənara atdı, Hüsaməddin isə bu afətin gözəlliyini və gecəyə məxsus libasla ayın qarşısında nümayiş etdiyini görüncə onun varlığı, hissi, düşüncəsi və xatiri tamamilə keçmişlərə qayıtdı və o, qəlbində öz-özünə dedi:

– Sübhanallah, bir ay buludların arxasında gizlənmək istərkən, ikinci ay da qara saçların arasından çıxıb çadırı işıqlandırır.

Qətibə gözlərinin ucu ilə Hüsaməddinin baxışlarındakı mənanı oxuyurdu. Onun ehtirasının ağlına qalib gəldiyi dəqiqələrin yetişdiyini hiss edirdi. Lakin Qətibənin özü qəmgin və narazı bir vəziyyət almışdı. Hüsaməddin salam verib çadıra girdiyi zaman Qətibə sevgi və qısqanclığın əlində oyuncaq olan bir qız kimi, şikayətə başladı:

– Bir də mən o alçaq cariyəni, hər qədəmində mənə xəyanət edən Səba xanımı sənin yanına göndərməyəcəyəm. Buna and içirəm, artıq bu həqarət çəkilməz bir şəkil aldı. Mən bilirəm ki, sən onu sevirsən. Bir addım yoldan səni çağırmaq üçün saatlarca vaxtmı lazım idi?.. Sən bunu məni təhqir etmək üçünmü edirsən?

Qətibə bunu deyib şiddətlə ağladı. Hüsaməddin ayaq üstündə quruyub qalmışdı, onun ağlamasının həqiqi və yainki saxta olmasına diqqət verirdi. Hüsaməddin Qətibənin Səba xanımdan da şiddətli ağladığını və göz yaşları tökdüyünü görüncə öz-özünə belə fikirləşirdi:

– Mən nə qədər xoşbəxtəm. Eldəniz Rübatının lətif havaları ilə nəfəs alıram, özüm də Atabəyin inanılmış əzəmətli bir sərdarı, gənc və zəngin bir insanam. Bu mətin varlığım isə Şərqin iki nəfər məşhur



gözəlini özünə bağlamışdır. Həqiqətdə də bu göz yaşları ürəklərdə coşan sevgi yağışlarının damcılarıdır. Səba xanım da, mələkə də mənim eşqimin dəliləridir. Səba! Onun döşlərini qoxlarkən sanki səhər ruzigarları damağıma qərənfil qoxuları dağıdır, onun dodaqları dodaqlarıma dəyərkən xoşbəxtlik nəşəsi qanımı coşdurur. Onu qollarımın arasında gördüyüm zaman, özümü dünyanın varlığını mənimsəmiş bir hökmdardan daha yüksək zənn edirəm.

Bu isə mələkədir, mən bunun qarşısında durduğum zaman müqəddəs kitablarda oxuduğum möcüzələr gözümdə cilvələnməyə başlayır, özüm-özümə sual verirəm: əcəba, qarşımda oturan mələkədirmi?! Əcəba, mənim eşqim üçün bütün varlığı ilə ağlayan o məğrur Qətibədirmi?

Hüsaməddin bunları düşündüyü vaxt sevginin qanadlarına minib axmaqlığın ən yuxarı dərəcəsinə qalxmışdı. O ancaq Səbanı və Qətibəni düşünürdü. Lakin Hüsaməddin onların nə kimi işlər barəsində düşündüklərini öyrənməyə qabil deyildi.

Qətibənin səsi bir daha eşidildi:

– Gəl otur, lakin sən mənə söz verməlisən ki, bir daha Səba xanımla sevgi əlaqəsində olmayacaqsan; sən məni intihar ayağına sürükləməyəcəyinə and içməlisən.

Hüsaməddin nə deyəcəyini və sevindiyindən nə edəcəyini bilmirdi, ancaq bir kərə:

– Bu nə sözdür, gözəl mələkə, – dedi. – Əcəba, mən Səba xanımı sevəcək qədər alçaldımmı?! Bir cariyənimi? Əcəba, mələkə mənim nə cür izzət-nəfsə malik olduğumu unutdumu?!

– Qətibəni tanımamış deyilsən. Sən bilirsən ki, mən sevdiyim zaman dəli oluram. Nə edəydim? Sən də, mən də, ikimiz də haqlıyıq. Kübar ailələrdə yaşayan qızlar, heç bir zaman öz qəlbinə və öz sevgisinə malik ola bilməz. Sənə and içirəm, mən Nizamidən ümidimi kəsəndən sonra səni düşünürdüm. Lakin məmləkətin ehtiyacı və ailəmizin gələcəyi, məni bu qızıl qəfəsin içərisinə düşməyə və həbsxana həyatı keçirməyə məcbur etdi. Buna sən də səbəb oldun, çünki mən sənin Mahtab xanımla bağlandığını görəndən sonra səndən ümidimi kəsdim. Lakin burada adamsız qalmamaq üçün öz köhnə dostlarımı və sevgilərini hələ də ürəyimdə saxladığım adamları öz yanıma cəlb etməyə çalışdım. Bilmirəm sən bunu hiss etdinmi?

İnan mənə, Hüsaməddin! Hər dəfə sənin cariyə Səba xanımla olan əlaqəni hiss edərkən, özümü təhqir olunmuş hesab edirəm.

De görüm sən bu təhqirlərə nəhayət verəcəksənmi?! Bizim ikimiz də iqbalımızdan səadət görmədik. Mən səni bədbəxt etdim, iqbalım da mənim öz səadətimi əlimdən aldı.

Lakin mən səni yenə də unutmamışam. Mələkəlik məni qızlıq hisslərimi əlimdən ala bilməmişdir.

Hüsaməddinin də fikri Gəncəyə və gəncliyə qayıtmışdı: o hər axşam çağı çayın kənarındakı meşədə söyüd kötüyünün üstündə oturan qızı xatırladı və birdən özü belə hiss etmədən ah çəkib dedi:

– Ah, vətən.

Qətibə də başına hərəkət verərək:

– Bəli, vətən, – dedi. – Əziz dostum, gülünc düşməsəydi, mən o üstündə oturduğumuz söyüd kötüyünü Həmədana gətirdərdim. Çünki onun üzərində həyatımın qüssə və kədər bilmədiyim anları keçmişdir. De görüm, o kötüyün üstündə oturan zat öz Rənasilə xoşbəxt yaşaya bilirmi?

– Bəli, yaşayır. Məhəmməd adında bir oğlanları da vardır.

Qətibə ağladı:

– Qəlbimi yaraladın, – dedi.

O, çadırın qapısından içəri girdi, Hüsaməddin də onun icazəsini alandan sonra çadıra daxil oldu. Orada yüzlərcə ipək örtülü badgir içində yanan qızıl şamdanların işığı Qətibənin çöhrəsinə daha başqa bir gözəllik əlavə etdi. Hüsaməddinin nəzərində Qətibənin üzündə qızlığının məsum baxışları hələ də qalırdı. Bu baxışlar onu intiqam fikirlərindən geri qaytardığı kimi, onun köhnə sevgi hisslərini də təzələyirdi. Qətibə Hüsaməddinin fikirlərini dərhal onun gözündən oxudu və dedi:

– Elədir, əziz dostum, sənin dediyin sözlər daima qulaqlarımda cingildəyir: "Sən mənim olmasan, heç kəsin də olmayacaqsan". Çox doğru demişdin. Mən onu heç vaxt bir ər kimi sevməyəcəyəm, bunu mən sənə söz verirəm. Lakin müəyyən bir vaxta qədər həyatımız bu şəkildə davam edəcəkdir. Ancaq sən də aralıqdakı maneələri məhv etmək üçün mənə kömək etməlisən...

Hüsaməddin hərarətlə ona cavab verdi:

– Mələkə, mən sənə və anamın qəbrinə and içirəm ki, ölüncəyə qədər sənin sərəncamında olacağam. Sən mənim nə qədər sadiq və möhkəm iradəli bir zat olduğumu yaxşı bilirsən.

– Lakin sən hər bir cariyənin arzusunu yerinə yetirmək üçün məni təhqir etməməlisən, çünki sənin bu cür hərəkətlərin aramızda olan sevgi münasibətlərini poza bilər.



Hüsaməddin mələkənin canına and içərək onu inandırmağa başladı:

– Mələkə! Sənə and içirəm. Mənim əlim Səbanın tüklərinə belə toxunmamışdır. Mən mələkə üçün yaşayacağam, maneələr aralıqdan götürülüncəyə qədər yaşayacağam, mənim üçün mələkənin bir kəlmə "sevirəm" deməsi kifayətdir.

Hüsaməddin Qətibənin süfrəsində şam yeməyinə oturdu. Onlar vidalaşıb ayrılırkən Qətibə bir daha:

– Hüsaməddin, mənə inan, səni sevirəm, – dedi və dodaqlarını onun dodaqlarından çəkdiyi vaxt:

– Dalısı sonra, – deyə əlavə etdi.

Hüsaməddin getdi. Səba xanım çadıra girdiyi zaman Qətibə də güldü. Səba bu gülüşün mənasını dərhal anladı və dedi:

– Belədir, mələkə, kişilər and içə-içə günah etməyə öyrənmişlər. Onların ürəkləri gözlərinə tabedir, Gözlərinin qarşısında kimi görərsə, onu da sevəcəkdir.

Qətibə Səba xanıma tapşırığını bir daha təkrarladı:

– Sən onu məşğul etməlisən, biləks o buranı tərk edib Gəncəyə qayıda bilər. O burada mənə lazımdır.

## "LEYLİ VƏ MƏCNUN"

Ölkədəki bəzi narazılıqla əlaqədar olaraq Şirvan xaqanı öz sarayının sənətkar şairi Xaqanidən də şübhələnir və onun haqqında gizli təhqiqat aparılmasına fərman verirdi.

Xaqanın şairi təqib etmək təşəbbüsü bir neçə gün əvvəl Şirvandan qaçıb Gəncəyə gələnlər tərəfindən xəbər verilmişdi. Bu xəbəri Xaqaniyə yetirmək və onun təcili surətdə Şirvandan qaçmasını bildirmək üçün göndərilən qasid, Xaqaninin qayınanası Cahanbanu tərəfindən bu məzmunda bir məktub aparmışdı:

"Mahtab şiddətli xəstədir. Gəncəyə gəlməyin ladımdır.

*Cahanbanu*".

Xaqani məktubu alan kimi gecənin yarısında bir nəfər xidmətçisi ilə evindən çıxıb Beləqan[1] tərəfinə yola düşdü. Lakin o, Şirvan hüdudunu keçməyə müvəffəq olmadı. Onu xaqanın əmrinə görə həbsə aldılar.

[1] Beləqan – Şamaxı şəhərinin altındakı Ağsu kəndinin yerində balaca şəhər idi. Zaqatala Beləqanı başqadır.

Xaqani həbsə alınandan bir neçə həftə sonra Nizami Şirvan xaqanının sifariş verdiyi "Leyli və Məcnun" dastanını yazıb bitirmişdi. Nizami yazdığı dastanı xaqana aparıb vermək və əvəzində həbsə alınmış şairi azad etdirməyi düşünürdü. Buna görə də Nizami öz kiçik oğlu Məhəmmədi də yanınca götürüb xaqanın paytaxtı olan Şamaxı şəhərinə yola düşdü.

Şirvan şairləri, ziyalıları Nizaminin Şamaxıya gəlmək istədiyini eşidərkən, onu şəhərin ayağında təntənə ilə istiqbal etdilər. Onları belə qorxulu bir zamanda Nizaminin Şamaxıya nə cürətlə gəlməsi məsələsi düşündürdü.

Nizami bir gün istirahətdən sonra hamama getdi. Xaqanın sarayına getmək üçün təzə libaslar geyindi, oğlu ilə bərabər xaqanın yanına getdi.

Lakin, saray xalqı onu özünə layiq bir təntənə ilə qarşılamadı. O, xaqanın eyvanında bir saata kimi oturub gözlədi. Çünki xaqan nahar yeməyindən sonrakı istirahətindən qalxmamışdı. Nizami bu vəziyyəti gördüyü zaman Şirvana gəlməsindən peşman olmuşdu. Vaxtilə ona elçilər göndərib Şirvana dəvət edən xaqan, indi isə onu saatlarca eyvanda oturdub gözlədirdi.

Nizami "Leyli və Məcnun" dastanı qoltuğunda bir qədər oturub gözləyəndən sonra xaqanın hüzuruna dəvət olundu.

Şair otağa daxil olduğu zaman xaqanı öz vəzirləri və əyanları ilə bərabər oturan halda gördü, salam verib dayandı. Xaqan onun salamının cavabını da oturduğu yerində verdi və birinci sözü bundan ibarət oldu:

– Xoş gəlib səfa gətirdin, möhtərəm şair! – dedi və saxta bir təbəssümlə sözünə davam edib danışdı:

– Nə əcəb Şirvan xaqanından qorxmayaraq belə bir qorxulu zamanda bizim sərhədimizi keçdin? Eybi yoxdur, otur.

Şair isə təzim edib oturdu.

Xaqan Nizamiyə sual verdi:

– Sifariş verdiyim "Leyli və Məcnun" dastanını yazıb bitirdinmi?

– Bəli, bitirdim, xaqanın hüzuruna gətirmişəm. Hərgah xaqan nəzərində məqbul görülürsə, mən buradan böyük bir iftixarla qayıdacağam.

Nizami bu sözləri deyərək ipək bağlının içərisindən "Leyli və Məcnun" dastanını çıxarıb xaqana təqdim etdi. Xaqan dastanı açıb ancaq müqəddiməni ucadan oxumağa başladı. Lakin aşağıdakı dörd misranı oxuyub:



"Türki sifəti vəfayi mən nist,
Türkanə sifət səzayi mən nist,
Çün həlqəyi şah yaft guşəm
Əz dil bə dəmağ rəft cuşəm".

acıqla soruşdu:

– Bu nə deməkdir?.. Mən sənə elçilər vasitəsilə göndərdiyim sifarişləri nə üçün dastanına daxil etdin?! Bundan məqsədin nə idi? Sən bu misraları kitaba əlavə etməklə məni türk dilinin və türk xalqının düşmənimi göstərmək istədin? Demək ki, mənim göndərdiyim bu sifarişin nəticəsində mənə olan düşmənçiliyin odu qəlbindən beyninəmi sirayət etmişdir? Çünki sən fars dilində şeir yazmaqdan iyrənirsən, belədirmi?!

Nizami xaqanın sözünü cavabsız buraxmayaraq dedi:

– Mən özümdən heç bir şey əlavə etmədim. Hazırda xaqan nə cəhətə acıqlanırsa, mən də onun sifarişini aldığım zaman o cəhətə acıqlanmışdım. Çünki hər kəs üçün öz dili, öz xalqı və öz ədəbiyyatı müqəddəsdir.

Xaqan Nizaminin çöhrəsinə təəccüblə baxaraq:

– Səni də tanıdım. Sənin də qanını siyasi fikirlər zəhərləmişdir. Götür kitabını buradan get, bu kimi əsərlər mənim tərəfimdən heç bir mükafata nail ola bilməz. Əbəs yerə bu qədər zəhmət çəkmisən, – dedikdə Nizami ayağa qalxıb kitabı götürdü və dedi:

– Mən bu əsərimi mükafat almaq məqsədilə yazmamışam. Mən bu əsəri ondan ötrü fars dilində yazmışam ki, xaqan həzrətləri həqir hesab etdiyi azəri xalqının nə qədər mədəni, nə qədər qabil və sənətkar olduğunu bir daha bilsin və xaqan bir daha təsdiq etsin ki, belə bir xalq heç bir zaman əcnəbi boyunduruğu altında yaşamağı sevməz.

Nizami bu sözləri dedikdən sonra bir daha təzim edərək sarayı tərk etdi.

* * *

Şirvan xaqanı Əbülmüzəffərin vəliəhdi Bağdaddan qayıdıb Şirvana getmək üçün Təbrizə gələcək idi. Tam bu günlərdə Qızıl Arslan Nizaminin yazdığı məktubu almışdı. Nizami məktubunda yazırdı:

"Həşəmətli hökmdar!

Aran ölkəsinin hökumət mərkəzi ilə əlaqəsinin olmaması, Həmədan və Bağdadın isə Şimali Azərbaycandan uzaqda olması məmləkət daxilində olan haqsızlığı bir daha gücləndirmişdir. Bu vəziyyət Şirvan

xaqanının da özbaşınalığına imkan vermişdir. Bu saatda onun zindanında minlərcə günahsız azərbaycanlı yatır.

Bu günlərdə şair Xaqani həbs edilmişdir. Onu qurtarmaq üçün Şirvana getdim, xaqanın tapşırdığı "Leyli və Məcnun" dastanını da özümlə bərabər apardım. Əsərin müqəddiməsi xaqana xoş gəlmədiyindən məni təhqir edib qaytardı. Xaqanini qurtarmaq mümkün olmadı. Xaqan özünə qarşı təşkil edilən sui-qəsddə Xaqani şairin də iştirak etdiyini zənn edir.

Əmir İnanc şimali azərbaycanlıların Qızıl Arslan tərəfdarı olduqlarını əlində ünvan tutaraq aranlıların hüququnu müdafiə etməkdən boyun qaçırır".

Qızıl Arslan bu məktubu alandan iki gün sonra Şirvan xaqanının vəliəhdi Təbrizə varid oldu. Qızıl Arslan Şirvan vəliəhdinə Azərbaycanın silahlı qüvvəsini göstərmək üçün Cənubi Azərbaycan qoşunlarının Yanıq, Sərd-rud və Təbriz arasında yığışmasına əmr vermişdi.

Təbrizdən Yanığa qədər vəliəhdin keçəcəyi yollar qiymətli xalılarla döşənmişdi.

Vəliəhdə nahar yeməyi vermək üçün Yanıq çeşməsinin ətrafında yüzlərcə çadır qurulmuşdu. Vəliəhdə məxsus qırmızı ipəkdən qurulan çadırın başında qızıldan düzəlmiş böyük bir qübbə vurulmuşdu. Yüzlərcə qızıl kəmərli qulam çiyinlərində qızıl əmud çadırın sağ-solunda düzülmüşdü.

Urmiya, Xoy, Mərənd, Qaradağ və Xümsə mahalında yığılan yüz min nəfər gənc atlı, Şirvan vəliəhdini Kavkan şəhərindən gətirib Yanığa doğru müşayiət edirdi. Yanıqda Şirvan vəliəhdini Qızıl Arslanın veziri Şəmsəddin qarşıladı və Qızıl Arslanın salamını ona yetirdi.

Vəliəhd öz çadırında bir-iki saat istirahət etdikdən sonra, nahar etmək üçün böyük çadıra gəldi. Yüzlərcə ipək geyimli və zümrüd xalxallı cariyə vəliəhdin xidmətində idi. Nahar yeməyi bitdikdən sonra Təbrizə doğru hərəkət başlandı. Vəliəhd Təbriz ətrafını lazımınca səyahət etmək üçün taxt-rəvanla yox, at ilə getmək istədi. Ona dərhal bir Qarabağ atı təqdim etdilər. Vəliəhd və onun ətrafında gedənlərin atları ipək xalçaların üstündə gedirdi.

Qızıl Arslan vəliəhdi Təbriz altında istiqbal edib, gənc vəliəhdin alnından öpdü və onu öz sarayına gətirdi.

Qızıl Arslan vəliəhdi sarayda qonaq adına on beş gün saxlamağı qərara almışdı. Qızıl Arslan bu müddətdə Şirvan xaqanı Əbülmüzəffərə bu məzmunda bir məktub göndərdi:



"Əlahəzrət!

Əmir İnancın xəyanəti nəticəsində Şimali Azərbaycanın idarə işlərində ciddi bir qarışıqlıq yaradılmış, bunun nəticəsindədir ki, əlahəzrət xaqan da bir çox aranlıları həbsə aldırmışdır. Mən bu gündən etibarən Əmir İnancın özbaşınalığına imkan verməmək üçün Aran işlərini öz əlimə almağa və sizinlə Aran xalqı arasında mövcud olan ixtilafı həll etməyə başlamağı qərara alıram. Sizə məlumdur ki, Azərbaycanın rəsmi hökumət mərkəzi Təbrizdir. Hərgah əlahəzrət Əmir İnanca müraciət etməyərək hər bir ixtilaflı məsələdə Təbrizə müraciət etsəydi, iki hökumətin arasında bu qədər böyük ixtilaf çıxmaz, iki ölkənin xalqı da bu qədər zərərdidə olmazdı. Zənn edirəm ki, əlahəzrət hər iki hökumətin mənfəətlərini nəzərə alaraq aşağıda qeyd etdiyim bir neçə məsələnin həlli üçün iradə sadir buyurar.

*Əvvəla,* nə qədər ki, əlahəzrət vəliəhd Təbrizdə qonaqdır, ixtilaflı məsələləri həll etmək üçün vəkalətli bir heyət göndərəsiniz, əlahəzrət vəliəhd də məsələlərin həllində iştirak edə bilsin.

*İkinci,* Şirvanla Azərbaycan arasında mövcud olan torpaq və sərhəd məsələlərini danışmaq üçün göndərəcəyiniz heyətə tam bir vəkalətnamə əta buyurasınız.

*Üçüncü,* həbsə alınanların azad edilməsinə fərman sadir etməklə onların təqsirini və onlara dəyən zərərləri təyin etmək üçün göndərəcəyiniz nümayəndələrə tapşırıq verəsiniz.

*Dördüncü,* əlahəzrət lütfən Xaqani şairin səfər hazırlığını və istirahətini təmin etdirib Təbrizə göndərilməsinə icazə versin".

Əbülmüzəffər bu məktubu alan kimi Qızıl Arslanın nə demək istədiyini dərhal anladı. O, oğlunun qonaq deyil, girov saxlandığını təyin etdi. O heç bir kəslə məsləhətləşmədən dərhal azərbaycanlıların həbsdən azad edilməsinə əmr verdi. Xaqanini isə həbsxanadan azad etdirib xələt verdi və yol hazırlığını bitirib böyük bir təntənə ilə Qızıl Arslanın yanına göndərdi.

Sülh məsələlərini danışıb, sərhəd işlərini nizama salmaq üçün o, Təbrizə on nəfərdən ibarət bir heyət yola saldı.

Heyət Şirvandan hərəkət etmədən qabaq vəliəhdin qasidi Əbülmüzəffərə bu məzmunda bir məktub gətirdi:

"Əlahəzrət!

Dörd gündür ki, Təbrizdəyəm. Özümə göstərilən ehtiram və Təbrizdə gördüyüm istiqbal təntənəsi Şərq tarixində görüb oxumadığım yeganə bir hadisədir. Demək olar ki, Azərbaycan atabəyliyinin əsasını Həmədan şəhəri deyil, Təbriz təşkil edir. Burada gördüyüm sərvət, qoşun, təntənə, cəlal və əzəmət Həmədanda gözümə dəymədi. Hazırda mənə yüz nəfər qızıl kəmərli qulam və yüzlərcə zümrüd xalxallı və almaz gərdənbəndli cariyə xidmət edir. Mən Təbrizə varid olduğum gün əlahəzrətin və mənim ömrümə dua edilməsi üçün Qızıl Arslan xəzinənin ağzını açdırıb Təbriz fəqirlərinə hədd-hesaba gəlməyən sərvət payladı. Bir nəfər də olsa ehsan almayan yoxsul qalmadı. Mən Təbrizə axşam qaranlığında daxil oldum, bütün şəhər çırağban edilmişdi. Şəhər xalqı əllərində lalə şüşəli şamdanlar mənim istiqbalıma çıxmışdı. Mən indiyə qədər Qızıl Arslan qədər mərhəmətli, adil, müləyim, bilikli və elmli bir hökmdar görməmişəm. Mən Təbrizə gəldiyimin ikinci günü məşhur Şərq şairi və alimi Zəhir ibn Tahir, ibn Məhəmməd Fəryabi Qızıl Arslanı ziyarət etmək üçün Təbrizə gəldi, onu möhtəşəm bir hökmdar kimi istiqbal edib saraya gətirdilər. Mən bu gün nahar yeməyini Müciəddin Beləqanlı, xacə Cəlal Dərəkanı, həkim Suzəni Səmərqəndi, xacə Mahmud Şahsəncan, Rəşidəddin Vətvat və sair alimlər, filosoflar və şairlərlə birlikdə yedim. Qızıl Arslan məclisinin bir səmtində siyasətşünaslar, bir tərəfində filosoflar, o biri tərəfində alimlər və şairlər oturur, çünki hökmdar həm filosof, həm alim, həm siyasətşünas, həm də şeir və ədəbiyyat maraqlısıdır. Əlahəzrət icazə versəydi, bir neçə gün Qızıl Arslanın sarayındakı bu ruhani həyatdan həzz alardım. Mən dünyada elə bir şəxsiyyət bilmirəm ki, Qızıl Arslanla bir saat oturandan sonra onu sevməsin. O məni doğma oğlu kimi sevdi, rahətimi təmin etmək üçün görülən təşəbbüsləri şəxsən hökmdarın özü yoxlamaqdadır. Əlahəzrətə səmimi salam yazmaq üçün dəfələrlə mənə tapşırdı".

Əbülmüzəffər vəliəhdin məktubun alandan sonra Qızıl Arslanla əlaqənin tamamilə dəyişməsinə qərar verdi. Hətta Nizamini təltif etmək üçün Şirvana dəvət edərək "Leyli və Məcnun" dastanını dübarə gətirməsini rica etdi. Bu dəvətin cavabında isə Nizami:

"Xəstəyəm, yola çıxa bilmərəm", – deyərək dastanı oğlu Məhəmmədlə bərabər Şirvana göndərdi.



## QƏTİBƏ VƏ QIZIL ARSLAN

Şirvan həbsxanasından azad edilənlər Gəncəyə və Aran ölkəsinin hər tərəfinə yayılıb Qızıl Arslanın tələbi nəticəsində azad edildiklərini kəndlərə və şəhərlərə xəbər verdilər.

Hər yerdə Qızıl Arslanın ömrünə, dövlətinə dua etməyə və Əmir İnanca lənət oxunmağa başlandı. Gəncə küçələrində Əmir İnancın qulağının dibində Əmirə qarşı nifrət səsləri ucaldı.

Əmir İnancı hər şeydən artıq rahatsız edən Şirvan şahı Əbülmüzəffərin Təbrizə heyət göndərməsi idi.

Əmir İnancın başqa çarəsi yox idi, o yenə də Həmədana müraciət etməyə və qızına məktub göndərməyə qərar vermişdi. Qızına yazdığı məktubun əvvəlində, "mənim əziz qızım Qətibə" əvəzinə "Həşəmətli mələkə" – deyə yazırdı.

"Məktubumu alan kimi əlahəzrət Atabəyə Şimali Azərbaycanın düşdüyü təzə fəlakət barəsində danışarsan. Qızıl Arslan işləmək üçün mənə imkan vermir. İslahat aparmaq mümkün deyil, Şirvan – Aran məmləkəti arasında olan ixtilafı həll etmək üçün Təbrizdə müşavirə çağırmışdır. Şirvandan hazırda Təbrizə nümayəndələr gedir.

Qızıl Arslanın təşəbbüsü baş tutarsa, mənim Azərbaycanda yaşamağım mümkün olmayacaqdır. Hərgah əlahəzrət Atabəy bu məsələlərə əhəmiyyət verməzsə, təcili surətdə Bağdada gedib Əmirəlmöminin həzrətlərinə məlumat verərsən.

Əlahəzrət Atabəyə qandırmalısan ki, Qızıl Arslanın əmri ilə Şirvan həbsxanalarından buraxılanların hamısı Azərbaycan atabəylərinin düşmənidir. Əlahəzrət icazə versəydi, Şirvan həbsxanasından buraxılanları biz burada təzədən tutub həbsə alardıq. Çünki onların hamısı üsyançılar və xain fikirlər daşıyan adamlardır.

Mənim bu yazdıqlarımı Atabəy həzrətlərinə xəbər verəndən sonra nə cavab verdiyi barəsində mənə sürətlə məlumat göndərərsən".

* * *

Atabəy Məhəmməd nahar yeməyindən sonra sərxoş idi. O yenə də əvvəlki adətini davam etdirirdi. Başını Qətibənin döşlərinə qoyub yatmışdı. Səba xanım otağa daxil oldu, Əmir İnancdan gələn məktubu Qətibəyə verib yenə də barmaqları üstündə yavaş-yavaş geriyə dönüb otaqdan çıxdı.

Qətibə məktubu açıb oxudu. Qızıl Arslanın nə Bağdad, nə də Həmədanla hesablaşmadığını və Azərbaycanı özü bildiyi kimi idarə etdiyini oxuyub hönkür-hönkür ağladı, çıldırmaq, qışqırmaq dərəcəsinə gəldi. Qəlbi tam bir sürətlə çırpınırdı. Ürək çırpıntısının qeyri-adiliyi zərif və ağ döşlərində nazlanan qulaqların rahatını pozmadı.

Atabəy oyanıb sərxoş gözlərilə Qətibəyə baxdı. O, Qətibədə yenə bir gənclik şəhvətinin coşmaq istədiyini hiss edərək, gənc qadının şəhvətinə təkan vermək istədi və yaşlı Atabəy dodaqlarını bir çocuq kimi Qətibənin döşlərinə söykədi. Sonra qalxıb gərnəşdi, gözlərini ovub yuxunun tozunu göz bəbəklərindən sildi və diqqətlə Qətibənin üzünə baxaraq:

– Gözəl Qətibə, bu nə vaxtın ağlamağıdır? – deyə soruşdu.

Qətibə ağlaya-ağalya Atabəyə sual verdi:

– Sən indiyə qədər bir həqiqəti mənə aydın etmədin.

– Hansı həqiqəti?

– Mən bilmirəm bu məmləkətin hakimi sənmisən, Qızıl Arslanmıdır?

Atabəy Qətibənin bu sualından nə demək istədiyini dərhal anladı. Qətibə səhv etmişdi, çünki sərxoşluğun xumarlıq dəqiqələrini keçirən hökmdara bu cür sualı vermək böyük bir cəsarət idi. Atabəy Məhəmməd Şimali Azərbaycanın vəziyyətindən xəbərsiz deyildi. Qızıl Arslan vəziyyəti ona öz vaxtında xəbər vermişdi. O, Şirvan şahı ilə Qızıl Arslan arasında başlanan müzakirənin əsasından xəbərdar idi.

Şirvan vəliəhdinin Təbrizdə qonaq adı ilə girov saxlandığını da bilirdi. Qızıl Arslan Şirvanda həbsə alınanların siyahısını çoxdan əldə edib Atabəy Məhəmmədə göndərmişdi.

Bu işdə Əmir İnancın nə qədər xain və ikiüzlü bir siyasət apardığını və başını saxlamaq üçün bir məmləkətin və xalqın mənafeyini satdığını Qızıl Arslan Atabəyə yazıb bildirmişdi. Buna görə də Atabəy Məhəmməd Qətibənin verdiyi suala cavab verərək dedi:

– Qətibə bilməlidir ki, bu məmləkətin sahibləri Eldəniz oğlanlarıdır. Bunlar da məmləkətin yaşdan quruya qədər hər nə işi varsa həll etməlidirlər. Başqaları isə bunların tikmələri, əlaltıları və rəiyyətləridir.

Qətibə özünü düzəldib bir sual daha verdi:

– Bəs mən nəçiyəm?!

– Qadınımsan, möhtərəmimsən, səni sevib almışam, lakin sənə evlənməklə bir məmləkəti ərə verə bilmərəm. Məmləkətin şərikisən, xalqımın, məmləkətimin xoşbəxtliyi üçün göstərdiyin tədbirləri mən də, Qızıl Arslan da təqdir edəcəyik.



Eyni zamanda bilməlisən ki, Azərbaycanda yeganə bir xanədan vardır ki, o da Eldəniz xanədanıdır. Sənin oğlun da bu xanədanın övladıdır. Lakin bu məmləkətdə Əmir İnanc xanədanı adında bir xanədan yoxdur. Sənin atan kimi mənim məmləkətimdə minlərcə hakimlər vardır. Onun yüksəkliyi orasındadır ki, Qətibənin atasıdır. Hərgah o da atabəylik xəyalına düşərsə, mən Atabəy onu da Rey hakimi İnanc kimi məhv edərəm.

İndi nə sualın vardır?

Qətibə başına hərəkət verərək aldanmış qadınlar kimi dedi:

– Mən tək deyiləm. Bədbəxt qadınların hamısı öz taleyində aldanır. Çünki biz adamları içərisindən yox, dışarısından yoxlayırıq. Kişilər isə ikinci simalarını qızlara evlənəndən sonra dışarı çıxarırlar. Hərgah mən məmləkətin şərikiyəmsə, Atabəyə deyirəm ki, onun qardaşının Azərbaycanda apardığı siyasət doğru bir siyasət deyil. Onun Şirvan şahı ilə başladığı oyun Azərbaycanın gələcəyi üçün qorxuludur.

Qızıl Arslanın Şirvan həbsxanasından buraxdığı adamlar əqidə və fikir cəhətcə yalnız Şirvan və Azərbaycan hökmdarları üçün deyil, ümumiyyətlə hökmdarlar əleyhinə işləyən adamlardır.

Atabəy yenə də Qətibəyə etiraz edərək dedi:

– Qızıl Arslan çox ağıllı iş görmüşdür. Qızıl Arslan görən tədbirlərin düşmənləri, mənim rəiyyətlərimin düşmənidir. Lakin sən Qətibə, təşəkkür etməlisən ki, Qızıl Arslan indiyə qədər sənin atanın bu qədər açıq xəyanətlərini nəzərə almayaraq, hökumət başında qoymuşdur. Sən ağlını başına yığ, yaxşı bir düşün, bu qədər hörmətsizlik nəticəsində Qızıl Arslan sənin atanı tutub boğazından asdırarsa, kimin danışmağa ixtiyarı vardır? Kim bunun üçün Qızıl Arslanı cəzalandıra bilər?! Hərgah sən özünü bu məmləkətin qanunu mələkəsi hesab edirsənsə, atanın adını çəkməkdən utanmalısan, çünki onun məmləkətə etdiyi xəyanətləri heç bir kimsə edə bilməz.

Sənin atan Azərbaycan xalqının dərisini soğan kimi soymuşdur.

Lakin bunların hamısı ilə bərabər Qızıl Arslan sənin hörmətini nəzərə alaraq onu öz yerindən tərpətmir. Amma bu da bizim tərəfimizdən xalqa qarşı bir xəyanətdir, çünki biz milyonlarca xalqı, bir nəfərin kef-mayişasına tapşırmışıq.

Mən, yainki Qızıl Arslan bir həftə himayət nəzərimizi sənin atanın üstündən çəkərsək, azərbaycanlılar onu gəldiyi yerə qədər qovar.

Zənnimcə, bu qədər kifayətdir. O çox qocadır, artıq o həyatda öz vəzifəsini bitirmişdir. Ona daimi bir rahatlıq lazımdır. Məmləkətin gözəl bir tərəfində ona malikanə verəcəyəm, böyük və təminedici

maaş təxsis edəcəyəm. Hərgah Bağdadda yaşamaq istəyirsə, onun üçün şahanə bir saray düzəldilməsinə əmr edəcəyəm, zənnimcə, bu qədər kifayətdir.

Qətibə atasının Gəncə hökumətindən götürüləcəyini eşidərkən hər şeyi unutdu, atasının göndərdiyi məktubu bir kərə xatırından çıxarıb ağladı və Atabəyin əlindən tutub yalvarıcı bir halda dedi:

– Rica edirəm, mənim qoca atamın qəlbinə toxunmayın, qoyun istədiyi qədər apardığı vəzifəsində yaşasın. Hərgah atamın özü istirahətə çəkilməyi arzu edərsə, o zaman yerinə başqasını təyin edərsiniz.

– Onun hərəkətləri özünə qarşı böyük bədbəxtlik hazırlığıdır. Onu bilirsənmi?! – Atabəy Qətibəyə acıqlanmışdı. Ayağa qalxıb otağı səbirsizliklə dolaşırdı. Qətibə isə atasının vəziyyətini fikirləşərək gözünün suyunu sıxırdı. Qətibə nə qədər yalvarırdısa, atasının öz yerində qalması üçün razılıq almaq istəyirdisə, yenə də Atabəy razılıq cavabı vermirdi.

Səba xanım bu söhbətlərin hamısını qapının dalısından eşidirdi. O, vəziyyəti dərhal hiss etdi, barışılmaz vəziyyəti təyin edərkən dərhal Qətibənin oğlu Qütlüğün otağına yüyürdü. Daima Qətibə ilə Atabəy barışmaz vəziyyət aldığı zaman Səba xanım Qütlüğü onların otağına buraxırdı, çünki Atabəyin uşağı sevdiyini bilirdi.

Qütlüğ pərdəni qaldırıb otağa girdi, girən kimi də yüyürüb Atabəyin boynuna sarılıb onu öpdüyü zaman Atabəy də Qətibəyə tərəf dönərək:

– Razıyam, Qətibə, – dedi.

## ÜSYAN

Xəlifə Müstərşidbillahın ölüm xəbərini gizlətdilər. Aran ölkəsində Əmir İnanca qarşı üsyan qalxmasın deyə ölüm xəbərinin gizlədilməsi üçün Əmir İnanc ciddi tədbirlər görmüşdü ki, bu tapşırığı da Qətibə Həmədandan öz atasına göndərmişdi. Lakin bu xəbəri çox uzun bir müddət gizlətmək mümkün olmadı, çünki Şirvan həbsxanasından buraxılıb Gəncəyə gələnlər, Şirvan saraylarında ölmüş xəlifəyə matəm saxlanılması xəbərlərini Azərbaycanın hər tərəfinə yaymışdı.

Bir neçə günün içərisində, Əmir İnancın düşmənləri Gəncəyə yığışmağa başladı. Əmir İnanc isə bundan qorxuya düşərək hər tərəfdən öz atlılarını Gəncəyə çağırdı. Əmir İnancın evinə tezlikdə hücum ediləcəyi şayiələri hər yerdə danışılırdı. Bu xəbəri buraxan Əmir İnancın öz adamları idi. Əmir şəhərdə böyük həbslərə başlamaq üçün bu xəbəri əlində bəhanə etmək istəyirdi.



Yavaş-yavaş həbslər başlanırdı. Həbs xəbərləri Gəncədə böyük həyəcana səbəb oldu. Xalq üsyana qalxmaq və Əmiri Gəncədən qovmaq üçün küçədə və bazarlarda açıq-açığına danışırdı. Nizami Fəxrəddinin öz yoldaşları ilə bərabər xalqı Əmirin əleyhinə qaldırmaq istədiyni eşidərək, onları öz yanına çağırıb nəsihət verdi və dedi:

– Məsələ yalnız Əmir İnancı buradan rədd etməyin başındadırsa, bunun üçün heç bir üsyan lazım deyildir. Biz xalqın tərəfindən Qızıl Arslanın yanına bir heyət göndərib xalqın iradəsini ona bildirərik. Mən bilirəm ki, Qızıl Arslanın özü də Əmir İnancın burada qalmasından razı deyildir. Hərgah Qızıl Arslan bu təklifi rədd edərsə, o zaman üsyan etməyə haqqımız vardır.

Fəxrəddin bu fikirlə razılaşmadı və dedi:

– Biz göndərdiyimiz heyət Gəncədən Təbrizə gedib qayıdana qədər Əmir İnanc Aran xalqının yarısını, hətta səni və məni də həbsxanaya salar.

– Onda biz Təbrizə heyət göndərməklə bərabər Əmir İnanca da məktub göndərib həbslərin dayandırılmasını təklif edərik.

– O buna inanarmı?

– İnanmazsa, biz ona, evinə heç bir hücum edilməsi üçün təminat verərik.

Nizaminin bu fikri ilə hamı razılaşdı. Əmir İnanca göndəriləcək məktub yazıldı.

"Həşəmətli Əmir!

Xəlifənin ölüm xəbəri ilə əlaqədar olaraq Aran ölkəsində buraxılan şayiələr tamamilə əsassızdır. Gəncə xalqının heç bir zaman Əmirin evinə hücum etmək fikri yoxdur. Üsyan təşkilatında iştirak etmələri bəhanə edilərək həbsə alınanların heç bir təqsiri yoxdur. İxtilafı böyütməmək üçün həbsləri dayandırmaq və həbs edilənləri azad etməyiniz məsləhətdir. Gəncəyə yığışan xalqın tələblərini ödəmək heç bir zaman həşəmətli Əmirin şərəfini azaltmaz. Siz beş-on nəfər mülkədarın qəsb etdiyi torpaqları alıb sahiblərinə qaytarmaqla minlərcə qəlbi öz lehinizə çevirə bilərsiniz. Sizin üçün şəhərlərdən zülmkar və soyğunçu hakimləri götürüb yerlərinə insaflı, rəiyyətpərvər adamlardan təyin etmək heç də şərəfsizlik deyildir. Siz əlahəzrət Atabəyin qayınatası olduğunuz üçün məmləkətdə üsyan və ixtişaş çıxarılmasına imkan verməməlisiniz. Sizin hər tərəfdən Gəncəyə qoşun yığmağınız xalqın ruhundakı şübhələri daha da artırar və bu şübhələr bir üsyanla

nəticələnmiş olar. Buna görə də həşəmətli Əmirdən rica olunur ki, Gəncəyə yığdığı qoşunların yerlərinə qayıtmasına əmr versin.

Bunun müqabilində də biz Əmirin malının, canının, övladının və sarayının toxunulmazlığını təmin edirik.

Aşağıda imza qoyanlar öz başlarilə bu təminata məsuldurlar".

Yazılan məktuba iyirmi nəfər imza atıb möhürünü basdı və məktub bir nəfər nümayəndə ilə Əmir İnanca göndərildi. Hər kəs Əmirin bu təminata inanaraq fitnədən-fəsaddan əl götürəcəyinə inanırdı. Lakin bütün bu fikirlər boşa çıxdı. Məktub aparan nümayəndənin sarayda həbs olunaraq boynu vurulduğu xəbəri eşidildi. Hətta məktuba imza qoyanlardan bir neçəsi də həbsə alındı. Əksinə olaraq, məktub yazılandan sonra Əmir öz ədavət və qəzəbini bir daha artırdı, əlinə keçəni, hər kəs olursa olsun, sarayda başını kəsdirməyə və saray zirzəmilərində boğdurmağa və zəhərli şərbət içirməyə başladı. Qoşun gəlməsi davam edirdi. Əhali böyük bir qorxu qarşısında idi. Fəxrəddin öz yoldaşları ilə bərabər Gəncədən çıxıb Ağsivan çayı ilə Yam arasında olan keçidləri möhkəmlətmək və Tiflisdən Gəncəyə kömək gəlməsinə imkan verməmək üçün çalışırdı.

Fəxrəddinin başqa bir dəstəsi Seyid Əlaəddinin rəhbərliyi altında Şirvan hüdudlarını kəsib Əmir İnancın köməyinə gələnlərə mane olmaq üçün hazırlıq aparırdı.

Fəxrəddinin Şimali Azərbaycan şəhərlərinə göndərdiyi sifarişlərdən on gün sonra Bazarcuq və Xorsunəng kəndlərinin arasında minlərcə silahlı və atlı gənc yığılmışdı. Gəncə ilə Şirvan və Gürcüstanın əlaqəsi kəsiləndən sonra Əmir İnanc vəziyyətin ağır olduğunu dərhal anladı və vəziri Toxtamışın məsləhətinə görə Gəncənin ziyalı və əyanlarını girov götürüb saxlamağa qərar verib, Fəxrəddinə bu məzmunda bir məktub göndərməyi qərara aldı:

"Gəncəyə hücum etdiyin zaman girov götürdüyüm adamların hamısını məhv etdirəcəyəm".

Lakin bu məktubu göndərmək mümkün olmadı. Gecədən bir neçə saat keçmiş Fəxrəddinin dəstələri üç tərəfdən şəhərə hücum etdi.

Səhər açılıncaya qədər Gəncə altında qanlı müharibə davam edirdi. Günəş Xanəgah kəndinin bağçaları dalından üzünü göstərdiyi zaman qalibiyyət də üsyançı dəstələrin üzünə gülməyə başladı.

Fəxrəddinin qalib dəstələri şəhərə girdiyi zaman Gəncə qadınları qalib dəstələrin başına damlardan gül səpirdi. Atların dırnaqları gül



dəstələrinin üzərində oynayır və Əmir İnanc adamlarının meyitləri üzərindən keçib irəli yüyürürdü.

Küçələrdə gedən müharibə axşamın qaranlığına qədər davam etdi. Gecədən bir saat keçəndə dəstələr Əmirin sarayını mühasirəyə aldılar. Lakin sarayın içərisinə girmək mümkün deyildi. Çünki Əmir bir aydan bəri sarayı bərkidib alınmaz bir qala halına gətirmişdi. Əmirin adamları üsyanın üçüncü günü də axşama qədər vuruşdular. Saraydan atılan oxlardan bir çoxları yaralanıb öldü. Nəhayət, qaranlıq düşərkən Əmir özünə ətrafdan kömək gəlmədiyini görüb qələbədən ümidin kəsdi. Lakin vəziri Toxtamış:

– Hələlik sarayda bir neçə həftəlik azuqə vardır. NƏ üçün təslim olursan? Bərzənd, Bacerəvan və sair şəhərlərə xəbər vermək lazımdır. O tərəflərdən, şübhəsiz ki, bizə kömək göndərərlər, – deyə Əmiri müqavimət göstərməyə məcbur etdi.

Əmir iki gün daha müqavimət göstərdi. Altıncı gün üsyançılar Əmirin bağça divarlarından birisini söküb içəri girdilər. Müharibə bağçanın içində gedirdi. Vəziyyət qorxulu və ciddi bir şəkil alınca Nizami Fəxrəddinə sifariş göndərdi:

"Rica edirəm xalqını intizama çağır. Qandınlara toxunulmasın, dövlətə məxsus varidata əl vurulmasın, təslim olanlara aman verilsin. Müqavimət göstərməyənlər üzərində silah işlədilməsin. Qulamlara, kənizlərə və cariyələrə mərhəmət göstərilsin. Əmirin özünü və ailəsini həbsə almaqla kifayətlənin. Bacardıqca üsyanın qarətçiliyə çevrilməməsinə çalışın, tək-tək adamların intiqam almaq fikirlərinə imkan verməyin. Hər yol ilə olursa olsun Əmir sarayına tökülmüş xalq malının müəyyən bir dəstənin əlinə deyil, ümumi xalqa yetişməsi üçün imkan yaradın. Mühakiməsiz bir nəfərin də burnunu qanatmayın. Qoyun saraydakıları xalqın özü yığılıb mühakimə etsin. Əmirin qadını və kiçik qızını mühafizə edin, rüsvayçılığa yol verməyin".

Fəxrəddin Nizamidən aldığı sifarişi tamamilə təqdir etdi və bunu öz adamlarına anlatdı. Lakin sifarişləri həyata keçirmək məsələsi saraya girildiyi zaman çətinləşdi. Fəxrəddin əlində qılınc Əmir hərəmxanasının dəhlizinə girdiyi zaman xacə Müfidin yenə də dəhlizdə boynunu çiyninə qoyub gəzdiyini gördü. Xacə Müfid Fəxrəddini görərkən salam verdi, o qorxusundan əsirdi. Fəxrəddin ondan soruşdu:

– Nə üçün qorxursan?.. De görüm, həbsə alınanlar haradadır?

Xacə Müfid qabağa düşüb Fəxrəddini Əmirin zirzəmisinə gətirdi və:

– Məhbuslar buradadır, oğlum, – dedikdə Fəxrəddin qapını açıb içəri baxdı. İnsan meyitlərinin qoxusundan insanın ruhu, beyni zəhərlənirdi.

Zirzəmidə bir nəfər də olsa diri insan yox idi, həbsə alınanların hamısı öldürülmüşdü.

Fəxrəddin qayıtdı, özü ilə bərabər on nəfər götürüb, saray dəhlizinə daxil oldu, qapıda adamlar qoyub heç kimsənin içəri buraxılmamasına əmr verdi. Xacə Müfid qabaqda gedirdi. O, kiçik bir qapıya yetişirkən:

– Vəzir buradadır, – dedi.

Fəxrəddin iki nəfərlə bərabər içəri girdi, Toxtamışın yaxasından tutub adamlarına tapşırdı:

– Həbsxanaya!

Xacə Müfid başqa bir otağı göstərib:

– Əmirin özü bu otaqdadır, – deyib boynunu çiyninə qoydu. Bir azdan sonra Əmir öz adamları ilə bərabər qolları bağlanmış bir halda həbsxanaya göndərildi.

Hərəm otağına kimsə daxil olmadı. Fəxrəddinin əmri ilə xacə Müfid içəri daxil olub Əmirin qadını Safiyə xatuna baş əydi və:

– Xanımı Fəxrəddin dəhlizdə gözləyir, – dedi. Bir azdan sonra Safiyə xatun qucağında kiçik bir qız uşağı otaqdan dışarı çıxdı. Qadın qorxusundan titrəyir və ağlayırdı. Fəxrəddin onun həyəcanını təskin etmək üçün tez-tez deyirdi:

– Qorxmayın. Nə etmək olar? Bu hadisəyə ərinizin özü səbəb oldu.

Safiyə xatun yalvarıcı bir səslə:

– Rica edirəm, bizi Nizaminin mərhəmətinə tapşırın. O, mərhəmətlidir. O bizi ölümdən və təcavüzdən saxlar, – deyirdi. Fəxrəddin onları mühafizə etmək üçün öz yaxın adamlarına tapşırıb – böyük şair Nizaminin evinə aparın, – dedi.

Üsyançı xalqı sakit etmək mümkün deyildi. Mülkü əlindən alınan, oğlu, qardaşı öldürülən və qızları alınıb Bağdada göndərilənlər bir ağızdan cəza tələb edirdilər. Əmirin sarayındakı beş yüz nəfərdən ibarət cariyə, kəniz və xidmətçini bir yerə yığıb məscidə doldurdular. Saraydan hökumətə məxsus olan şeylər və vəsiqələr vaxt ikən köçürüldü, ondan sonra saray xalqın ixtiyarına buraxıldı. Kənizlərin və qarovulların əlinə azadlıq kağızları verilib buraxıldı. Cariyələrin hamısına evlərinə və ailələrinə qayıtmaq üçün yol xərci verilib yola salındı.

Üsyandan bir həftə keçmiş Əmirin vəziri Toxtamışı edam etmək üçün Məlikşah meydanında dar ağacı qurulmuşdu. Minlərcə adamın



gözü qarşısında Toxtamışı dar ağacının altına gətirdilər. Fəxrəddin bir səkinin üstünə çıxıb meydana yığılan xalqa müraciət edib dedi:

– Aran xalqı! Nəhayət, intiqam almaq növbəti, illərdən bəri əzilənlərin, həqarətlər və işgəncələr görənlərin əlinə yetişmişdir. Həmin bu dar ağacında asılacaq zat qırx ildən bəri bizim minlərcə günahsız qardaşlarımızı və əziz vətəndaşlarımızı dar ağacına çəkmişdir.

Din və şəriət pərdəsi altında işləyən bu dinsizlər, xəlifə, Allah və peyğəmbərlər adından danışaraq pula, mala, var və dövlətə, insan zəhmətinin bol-bol istismarına qənaət etmədilər. Hər şeyi aldılar. Kişiləri dar ağacının altına, qadın və qızlarımızı isə hərəmxanalara götürdülər. Şəbran, Beləqan, Bərzənd, Kəştasəfi qızları Bağdad xəlifələrinin sarayına hədiyyə göndərildi. Xalqın əziz və gözəl qızlarını qoyun sürüsü kimi saraylara sürüb bir-birlərinə bağışladılar. bu gün Əmirin sarayında olan minlərcə qızlar, kənizlər, cariyələr, xidmətçi qadınlar azad edilmişdir. Hazırda Əmir İnancın yaxası bizim əlimizə keçmiş, ondan Bağdada göndərilən qızları tələb edirik. Bu gün zalimlərdən haqq-hesab çəkməyə səlahiyyətimiz vardır. Biz heç kəsdən qorxmuruq. Qoy bu intiqam üçün bizi cəzalandırmaq istəyən atabəylər də öz qoşununu götürüb bizim üstümüzə gəlsin. Biz azərbaycanlılar yabançıların istilasına qarşı apardığımız mübarizədə çox düşməni əzmişik. Bu mübarizə və üsyan davam edəcəkdir. Azərbaycanlılar, indi işə başlamalısınız!

Fəxrəddinin bu sözündən sonra Toxtamışı dar ağacına qaldırdılar. Lakin əhali sakit olmamışdı. Onlar "Əmir, Əmir!" – deyə qışqırırdı. Həyəcana gəlmiş xalqın qarşısını almaq mümkün olmadı. Adamlar həbsxanaya hücum etdilər. Yarım saatdan sonra Əmirin bədəni də Toxtamışın yanından asılmışdı.

Gəncə xətibi və Gəncə qazisinin evləri qarət edildiyi zaman onların evlərindən hər cür musiqi alətləri, şərab ilə dolu küplər, kasalar və piyalələr çıxırdı. Gəncə camaatı bunları gördüyü zaman vaxtilə şairə Məhsəti xanımı çalıb-oxumaq üstündə Gəncədən sürgün etdirən qaziyə və xətibə lənət oxudular.

Gizli vəsiqələr yoxlandığı zaman bir çox mühüm və gizli məktubla bərabər, xəlifənin Əmir İnanca göndərdiyi bir neçə məktub da tapıldı. Azərbaycanın vəziyyətinə dair yazılmış məktubların birisində xəlifə Əmir İnanca belə bir göstəriş verirdi:

"Əhalisi ərəb olmayan məmləkətlərdə xəlifə nüfuzunu bərpa etmək üçün silah işlətmənin vaxtı keçmişdir. Belə məmləkətlərdə

dinin nüfuzunu qaldırmaq, xəlifənin nüfuzunu müdafiə etmək deməkdir. Siz xəlifənin nüfuzdan düşməsi səbəblərini ancaq dinin nüfuzundan düşməsində aparmalısınız.

Buna görə də çalışmalısınız ki, azərbaycanlılar ərəblərin onlara qəbul etdirdiyi dini geri qaytarmasın və başını dini hökmləri altından çəkib çıxarmasın.

Tarixdən aldığımız təcrübələr göstərir ki, islam dini hələlik Azərbaycan xalqının milli xüsusiyyətlərini yeyib məhv edə bilməmişdir. Babəkin və sairlərin üsyanları göstərdi ki, azərbaycanlılar islam dininin qanunlarını həzm edə bilməzlər. Çalışmalısınız ki, xalq bu dinə yabançı və məcburi bir din kimi baxmasın.

Siz əbəs yerə tək-tək ərəblərin Azərbaycanda yaşaya bilməsi üçün açıqdan-açığa ixtilaf çıxarırsınız. Bu çox sadə və faydasız bir mübarizədir. Onu bilməlisiniz ki, dini olduğu kimi saxlamaq ərəbi bütünlüklə saxlamaq kimidir. Məktubda Məhsəti xanım kimi şairənin köçürüldüyünü yazırsan. Bu mübarizə deyil, siz yalnız çalışaraq Məhsətiləri yaradan mühiti və şəraiti zəhərləyib məhv etməlisiniz.

Yazdığınız məktublar göstərir ki, din, təriqət və məzhəb işləri ilə xalq o qədər də maraqlanmır. Buna görə də vaxtlarını şerə, musiqiyə və milli mədəniyyət işlərinin inkişafına sərf edirlər.

Bunun üçün də mən keçən məktublarda sizə məsləhət görmüşdüm ki, ətrafdan din və təriqət alimlərini çağırıb dini mübahisələri xalqın arasına salın. Möcüzələr və xariqüladə hadisələr yaradılmasına çalışın.

Bilmirəm nə üçün Şimali Azərbaycanın dağlıq hissələrində olan müridbazlığı inkişaf etdirmirsiniz... Müridbazlıq yalnız xalqın şüurunu din ətrafında bir yerə yığmaqla kifayətlənmir. Müridlərdən düzələn dəstələri lazım gəldiyi zaman silahlı qüvvə yerinə işlətmək mümkündür".

Əldə edilən məktubların içərisində başqa məktublar da var idi. O məktubların bəzisində xəlifə maddi yardım tələb edir, ipəklər, qumaşlar, xalçalar göndərilməsinə əmr verirdi. Məktubların birisində:

"Sənə on nəfər qara qul göndərdim. Əvəzində ağ bənizli cariyələr göndərməlisən. Hazırda hədiyyə vermək üçün Bağdadda gözəl cariyələr çox azdır", – deyilirdi.

Məktubların birisində Qətibənin Qızıl Arslanla apardığı mübarizə və Qətibənin ona sui-qəsd hazırlamasına dair qısa cümlələr var idi. Məktubda Atabəy Məhəmmədin Şimali Azərbaycanda islahat aparmasına qarşı əngəl törədilməsi də tapşırılırdı.



Üsyan qurtarandan sonra Əmirin zirzəmilərində olan meyitlər çıxarılıb kim olduqları yoxlandı. Meyitlər içərisində beş-altı nəfər üsyançı vardısa da, qalanların hamısı üsyan heç bir əlaqəsi olmayan adamlar idi. Çünki əmirin əlinə hər kəs düşmüşdüsə: "Aranlıdır, məhv etmək lazımdır" – deyə edam etdirmişdi. Ölənlərin içərisində tacirdən başlayaraq saraya şey daşıyan hamballara qədər var idi.

Bunlardan əlavə, sarayın zirzəmilərində qırx ildən bəri harada məhv olduğu məlum olmayan bir çox üsyançıların və Əmirin sevmədiyi adamların sümükləri və nişanələri tapıldı. Qəbiristan şəkli almış zirzəmilərdə basdırılanların kimlər olduqlarını xacə Müfid bir-bir göstərirdi.

Zirzəmiləri öyrənmək işi bir aydan artıq davam etdi. Hər kəs, Aranın hər yerindən xəbər tutanlar Gəncəyə gələrək öz ölülərinin sümüklərini axtarırdı. Xacə Müfid ancaq bu vəzifəni ifa etmək üçün ölümdən qurtardı.

## MATƏM

Gəncə üsyanının xəbəri və Əmirin Toxtamışla bərabər dar ağacına çəkilməsi hadisəsi Həmədan saraylarında böyük bir matəmə səbəb oldu. Qətibənin sarayında qara rəngdən başqa bir şey görmək olmazdı. Atasına və onun qoca vəzirinə ehsan verildi. Qətibə bu hadisədə Qızıl Arslanı təqsirləndirir, Atabəy Məhəmməddən müqəssirlərə cəza verilməsini tələb edir və deyirdi:

– Qızıl Arslan istəsəydi, Gəncədə üsyan yaradılmaz və mənim ata-anamın başına bu fəlakət gəlməzdi.

Atabəy Məhəmməd də buna etiraz edərək deyirdi:

– Fikrində yanılırsan. Bu faciənin əsas səbəbi sənin öz atandır. Bunu mən çoxdan bəri sənə demişdim. Bu hadisə mütləq baş verəcəkdi. Aran və ümumiyyətlə Şimali Azərbaycan xalqında üsyan ruhunun əsası çox qədimdir.

Mən birkərəlik buna nəhayət verəcəyəm, müqəssirləri cəzalandıracağam, ona əmin ola bilərsiniz.

Nə etmək olar? Hadisələr ancaq insanlar üçündür. Xüsusən böyük adamlar ətrafında baş verən hadisələr onların öz böyüklükləri qədər böyük olur.

Qətibə Atabəyin sözlərindən heç bir qənaət əldə edə bilmirdi. O, Qızıl Arslandan intiqam almaq və Fəxrəddinlə Nizamini məhv etdirmək üçün gecə-gündüz düşünürdü.

Safiyə xatunla xırda qızı Talie Həmədana gələndən sonra üsyanın nə cür başlandığını və kimlərin orada iştirak etdiyi məsələləri tamamilə aydınlaşdı.

Safiyə xatun həm ərini, həm də Qızıl Arslanı təqsirləndirdi. O deyirdi ki:

– Hərgah Qızıl Arslan istəsəydi, bu üsyanın qabağını ala bilərdi. Çünki bu üsyanın zəminəsi xəlifənin ölüm xəbəri çıxan gündən qoyulmuşdu. Bu qədər böyük bir üsyan bir günün içərisində düzəlməmişdi. Ay yarımdan bəri üsyançılar Gəncəyə yığışırdı. Fəxrəddin Aranın hər tərəfinə adamlar göndərir və öz dəstələrini düzəldirdi. Qızıl Arslan bu hadisəni bilməmiş deyildi. O istəsəydi, bir həftənin içərisində Cənubi Azərbaycandan Araz çayını keçib üsyanı boğa bilərdi.

Atabəy Safiyə xatuna sual verdi:

– Əmir bu vəziyyət haqqında Qızıl Arslana xəbər verdimi?

– Xeyr, bizim heç bir vaxt Təbrizlə əlaqəmiz olmamışdı. Ancaq iki nəfər qasidi təcili məktubla Həmədana göndərmişdik. Onların ikisini də yolda tutub məktublarını əllərindən almışdılar.

– Faciəni həmin bu nöqtə qoymuşdur. Mən bunu bilirdim. Sizin rəhmətlik ərinizə Təbrizi tanıması üçün bir neçə kərə məsləhət görmüşdüm. Böyük bir xoşbəxtlikdir ki, Safiyə xatun və bu uşaq ölümdən xilas olmuşdur.

– Biz bu barədə Nizamiyə minnətdar olmalıyıq. Bizi mühafizə edən və evində yedirib saxlayan o şair oldu. Bunu biz özümüz Fəxrəddindən xahiş etdik, o da buna etiraz etmədi. Onun bu qədər alicənab bir zat olduğunu bilmirdim. Onun qadını bu yetim qızı öz oğlu Məhəmməd kimi sevirdi. Ərimin təqsirlərinə gəldikdə, çox böyük idi. Üsyana bir neçə gün qalmış üsyançılar Əmirə məktub göndərmişdilər. Onlar həbsə alınanların azad edilməsi şərtilə saray və saray xalqına əmniyyət verəcəklərini bildirmişdilər. Şübhəsiz ki, bu da Nizaminin təşəbbüsü ilə düzələn bir işi idi. Hərgah bu təklif qəbul edilsəydi, bizim hamımız Gəncədən salamat köçüb istədiyimiz şeyləri də özümüzlə bərabər çıxara bilərdik.

Atabəy sürətlə bir sual verdi:

– Nə üçün o təklifi qəbul etmədiniz?

– Mümkün deyildi. Çünki bir ay müddətində həbs olunanların hamısını sarayda edam etmişdilər. Zirzəmilər insan meyitləri ilə dolu idi.



Atabəy başına hərəkət verib:

– Nə qədər böyük bir xəta! Məmləkət beləliklə idarə olunarmı?! Mən onları cəzalandıracağam, lakin bir üsyançı kimi yox, hökumət əmrlərinə qarşı itaətsizlik göstərənlər kimi.

Atabəy Məhəmməd dərhal İraq və Fars ölkələrinə fərmanlar göndərib qoşun yığılmasına əmr verdi və eyni zamanda Qızıl Arslana da məktub yazıb göndərdi:

"Əziz qardaşım!

Mən belə zənn edirəm aranlılarla Əmir İnanc arasında mövcud olan ixtilafı qansız və üsyansız həll edə bilərdik. Lakin iş-işdən keçmişdir, məmləkəti başlı-başına buraxmaq olmaz. Dikbaşları öz yerində oturtmaq lazımdır. İraq, Fars və Rey qoşunları hər tərəfdən axıb Həmədana gəlir. Sən də Cənubi Azərbaycan qoşununu hazırlamalısan. Bu günlər Şimali Azərbaycan və Aran ölkəsinə qulaqburması vermək üçün Həmədandan böyük qoşunla hərəkət edəcəyəm".

Qızıl Arslan Atabəy Məhəmməddən bu qədər yersiz məktubu aldığı zaman kədərləndi. Məmləkətdə hədər qanlar töküləcəyini yəqin etdi. Buna görə də Atabəy Məhəmmədə təcili bir məktub yazdı:

"Əlahəzrət!

Göndərilən məktub əlahəzrətə səmimi qardaşlıq məhəbbəti bəsləyən bu həqiri qənaətləndirmədi. Mən elə bilirəm ki, Əmir İnancla aranlılar arasında mövcud olan ixtilafın mahiyyətini bilən hər bir kəs məni təqsirləndirməz. Vəziyyət barışılmaz bir şəkil almışdı. Məncə, yenə də vəziyyətin ağırlığına baxmayaraq hadisənin qarşısını almaq mümkün idi. Lakin Əmir İnancın mənə müraciət etməməsi, Təbriz hökumətini tanımaq istəməməsi, Həmədan şəhərinin isə uzaqda olması vəziyyəti dayandırmaq üçün mənə imkan vermədi. Ancaq əlahəzrətə ərz etmək istəyirəm ki, Aranda çıxan üsyan mərkəzi hökumətə qarşı düzəlmiş bir üsyan deyildi. O üsyan ancaq Əmir İnancın özünə və onun zalım olan və heç bir qanuna tabe olmayan nümayəndələrinə qarşı düzəlmişdi.

Şimali azərbaycanlılara qulaqburması üçün əlahəzrətin qoşun yığması tamamilə yersizdir. Bu səfər hər iki tərəfdən böyük qanlar tökülməsinə səbəb ola bilər. Şəxsən mən, bir Azərbaycan hökmdarı olmaq sifətilə bu səfərdə iştirak etməyəcəyəm. Nə üçün və kimlərə qulaqburması verək?! Kimlərdən ötrü? Əcəba, bu üsyanın səbəbini xalqda

aramağa haqqımız vardırmı?! Bu məktubla bərabər Gəncə xalqı tərəfindən göndərilmiş məktubu məlumat üçün əlahəzrətə göndərirəm".

Atabəy Məhəmməd Qızıl Arslanın məktubunu alıb acıqlandı, onun üsyançılar tərəfində durduğunu zənn etdi və Şimali Azərbaycan xalqı tərəfindən Qızıl Arslana göndərilən məktubu oxudu.

"Əlahəzrət!

Gəncədə baş verən hadisə ətrafında yaradılan şübhələri dağıtmaq üçün Gəncə xalqı əlahəzrətə məlum edir: Gəncədə və eləcə də Aranın başqa şəhərlərində başlanan üsyan mərkəzi hökumətin əleyhinə deyildir.

Aran xalqı Əmir İnancın etdiyi xəyanətin barəsində əlahəzrətə bir neçə kərə müraciət etmişdi. Lakin verilən ərizələrin heç birisinə cavab verilməmişdi. Buna görə də təngə gəlmiş xalq öz qüvvətilə düşməni məhv etmək qərarına gəldi. Hazırda Aran məmləkətində tamamilə bir dinclik hökm sürməkdədir. Bütün xalq böyük bir intizarla əlahəzrət Qızıl Arslan tərəfindən məmləkətə adil bir hakim göndərilməsini gözləyir. Əmir İnanc sarayı qarət edildiyi vaxt hökumətə məxsus vəsiqələrin və qiymətli şeylərin heç birisinə əl vurulmamışdır. Bu da göstərir ki, üsyan hökumət əleyhinə deyil, müəyyən zalimlərin əleyhinə düzəlmişdi. Hər halda əmr, həzrət vəliyyül əmridir".

Atabəy bu məktubla da qənaətlənmədi. O, bu məktubun Qızıl Arslanın məsləhəti üzərinə aranlılar tərəfindən düzəldiyini zənn etdi və öz-özünə "üsyan edərək üzr istəyən rəiyyətin məhv olması lazımdır. Yerli hökumətə qarşı üsyan çıxaranlar mərkəzi hökumətin əleyhinə də üsyan qaldıra bilərlər" deyirdi.

Qoşunlar hər tərəfdən Həmədana gəlirdi. Sarayda Atabəy Məhəmməd üçün səfər hazırlığı görülürdü. Yaxında ordu Azərbaycan tərəfinə hərəkət edəcək idi.

## SUİ-QƏSD

Qətibə Atabəy Məhəmmədlə Qızıl Arslanın yazışmalarından və Qızıl Arslanın Azərbaycan səfəri haqqındakı narazılığından tamamilə xəbərdar idi. Qətibə Qızıl Arslan ilə Atabəy Məhəmməd arasında ixtilaf törətmək üçün bundan da əlverişli bir məqam tapa bilməyəcəkdi.

Azərbaycan səfərinin başlanmasına o qədər də qalmırdı. Atabəy Məhəmməd qoşunu gözdən keçirmək və onun keyfiyyətini təyin



etmək üçün Keykur-Əsədabad və Səhnə[1] tərəflərinə getmişdi. Qətibə Səba xanımı çağırıb Hüsaməddinin evinə göndərdi və ona tapşırdı:

– Səni yalnız onu mənim yanıma dəvət etmək üçün göndərirəm. Onunla bir qadın kimi əlaqədə olmağına icazə vermirəm. Sən bu gündən öz xanımının xatirəsi üçün onun qadına olan ehtiras və iştahasını söndürməməlisən. Bu gün Hüsaməddinin qadına olan ehtirasını coşdurmaq və ona təslim olmamaq vəzifəsini sənə tapşırıram. Bunun üçün də səni mükafatlandıracağam. Oğlumun canına and içirəm, hərgah mənim tapşırığımın əleyhinə olaraq ona təslim olduğunu anlasam, nəinki sən bu sarayın üzünü görməyəcəksən, eyni zamanda səni diri qoymayacağam.

Səba xanım üçün Qətibənin dediyi sözlərin heç birisi əhəmiyyətli deyildi. O heç də qorxmurdu. Çünki o, Qətibəni bir kərə deyil, yüz dəfələrlə aldatmışdı. Ona xoş gələn ancaq Qətibənin dediyi:

"Bu gün Hüsaməddinin qadına olan ehtirasını coşdurmaq və ona təslim olmamaq vəzifəsini sənə tapşırıram. Bunun üçün də səni mükafatlandıracağam" sözləri idi.

Bu sözlər onun qulağında nəşəli bir surətdə cingildəyirdi. O adəti üzrə Qətibəni öz sədaqətinə inandıraraq dedi:

– Xanım çox yaxşı bilir ki, mənim üçün anamın qəbri hər müqəddəsdən müqəddəsdir. Anamın qəbrinə and içirəm, dünyada kişi namına tək bir Hüsaməddin qalsa belə, xanımın icazəsi olmadan mən onun üzünə baxmaram. Nə olubdur ki?! Yəni mən elə bir alçaq qadın oldum ki, Hüsaməddin kimi adamlar istədiyi zaman məni özünə təslim edəcəkdir?! Əcəba, mən xanım üçün öz həyatımı qurban etməyə hazır olduğum zaman öz ehtirasımı ona fəda etməyi bacarmayacağammı?! Mən beş dəqiqəlik bir nəşədən ötrü əbədi səadəti itirəcək ağılsız bir qız deyiləm. Mələkə bir kərə bunu bilməlidir, mən belə qızam.

Qətibə onun üzündən öpərək yüz qızıl bağışladı və sonra da:

– Mən elə bir iş düşünürəm ki, sən də və mənim başqa dostlarım da hədsiz-hesabsız sərvət sahibi olacaqdır. İndi get Hüsaməddini mənim yanıma çağır.

Səba xanım Hüsaməddini Qətibənin yanına çağırmaq üçün yola düşdüyü zaman həddindən artıq sevinir və ayağını hara qoyduğunu bilmirdi, çünki o, Qətibənin çox böyük bir macəraya hazırlandığını təyin edirdi. Səbanın özü də şəxsən macərasız yaşaya bilməzdi.

[1] Həmədan ilə Bisütun arasında şəhərlərdir.

Səba, Hüsaməddinin qapısında duran qarovula üzünü göstərən kimi qarovul onun Hüsaməddinin məşuqəsi olduğunu bilərək yol verdi. O, eyvana çıxıb Hüsaməddinin yazı otağının qapısını yavaşdan vurdu. Bir azdan sonra Hüsaməddin qapını açıb Səba xanımı gördü və onu içəri buraxdığı zaman:

– Xoş gəldin mənim ruhum, – deyərək qollarını onun boynuna salmaq istərkən, Səba xanım təhqir olunmuş namuslu bir qadın kimi dala çəkilib dedi:

– Səbirli ol. Sənin yanına gələn mələkənin möhtərəm və inanılmış cariyəsidir, bir nəfər küçə fahişəsi deyildir.

Hüsaməddin geri çəkilərək əlini-əlinə çalıb güldü, yenə də irəli gəlib əlini Səba xanımın çiyninə qoyub dedi:

– Əcəba, sən daima mənə ruhum deyərək boynuma sarılan Səba xanım deyilsənmi?

– Bəli, mən həmin Səba xanımam, lakin sən bunu bilməlisən ki, gənc qızların ruhu daima bir nöqtə ətrafında fırlanmağı sevməz. Dünən səni öz təmiz ruhu şəklində görən və boynuna sarılan bir qız, bu gün səni görmək istəməzsə heç də darılmamalısan. Gözəllərin bir xasiyyəti də kişiləri sevgisinə bağlamaq, sonra da atmaq, yalvartmaq və qaçmaqdır.

– Əcəba, biz bir ruh kimi bir-birimizə aşılandığımız zaman bu cür fəlsəfələri danışmışıqmı?

– Danışmadan qovuşmağın özü də bir fəlsəfədir. Bu sirləri qoy bizim təbiətimiz həll etsin. Fəlsəfələrlə məşğul olaraq gözəlliyimi boş düşüncələr içərisində soldurmağa vaxtım yoxdur. Ancaq bunu deyə bilərəm ki, mələkə sizi hüzuruna dəvət edir.

Səba xanım bunu deyərək otaqdan çıxmaq istədikdə Hüsaməddin təəccüblə baxaraq onu səslədi:

– A qız, dayan, dur, bir məni eşit!

Səba xanım çiyninin üstündən ona baxaraq cavab verdi:

– Ağıllı qızlar hər bir şəhvətpərəst kişini yox, ancaq öz qəlbini eşitməlidir. Bu gün mənim heç kəsi eşitməyə vaxtım yoxdur. Qulağım təzə söz eşitmək və gözüm isə yeni çöhrə görmək istəyir.

Hüsaməddin Səba xanımda baş vermiş bu ani dönüşə heç bir səbəb görə bilmirdi. Buna görə də onu qolları arasına alaraq öpmək istərkən Səba xanım da qoynundan kiçik bir şüşə zəhər çıxarıb:

– Mən iradəmin xaricində olan hər bir işə ölüm kimi baxıram. Sən mənim diri qalmağımı istəyirsənsə özünü saxla. Mənim nifrətimə səbəb olan həqarətli işlərdən əl çək.



Hüsaməddin təlaşla yalvarıb dedi:

– Amandır, yalvarıram, zəhəri qoy yerinə, sən özünü zəhərləməklə məni də məhv edə bilərsən. De görüm, axır məndən nə kimi bir həqarət gördün? Olmaya mənim dilimdən sənə bir iyrənc sözmü dedilər?! Dünənə qədər sənin özün dəfələrlə: "Mən sənin üçün yaşayacağam, mən dünyada kişi namına ancaq səni tanıyıram"deyirdin, bu gün sənə nə oldu?! Gəl otur, mənim ruhum, bəlkə də səni kədərləndirən bir başqasıdır. Sən özgələrin acığını mənim üstümə tökmə. Sən bilirsən ki, mən Həmədanda sənin eşqinlə yaşamaqdayam. Məni bu qürbət vilayətdə bəndə vurub saxlayan sənin saçların deyilmi? Sən nə üçün mənim qətlimə fitva verirsən?! Sən mənim Səbasız yaşaya bilməyəcəyimi bilirsən ki...

Səba xanım zəhəri döşlərinin arasına qoyduğu vaxt gülümsəyərək:

– Get bu cür qəzəllərini kişiləri tanımayan ağılsız və təzə-təzə gözünü açan qızlara oxu. Məni aldada bilməzsən. Daha yetər, çünki qızlar həyat məktəbini aldana-aldana bitirir. Mən daha o məktəbi bitirmişəm, – dedikdə Hüsaməddin:

– De görüm axı bu ani çəkilmənin səbəbi nədir?

– Mən hər sənin kimi qadın düşkünlərinə öz qəlbimin açarını versəydim, Səba xanım ola bilməzdim. Onu bilirsən ki, dünyada səbəbsiz heç bir iş yoxdur, lakin hər kəs də səbəblər haqqında bir-birinə izahat verməyə borclu deyil.

– Səba xanım, heç bir şey istəmirəm, yalnız o dodaqlarını bir kərə mənə uzat...

– Dodaq ki var qəlbin qapısıdır. Hələlik o qapı sənin üzünə bağlıdır. Bildin ki... Daha dayana bilmərəm, hələlik!

Səba xanım qapını örtüb çıxdı. Hüsaməddin nə edəcəyini bilmirdi. Bu dönüşə mühüm bir hadisənin səbəb olduğunu düşünür və rahatsız olurdu. Doğrudan da o, Səba xanıma vurulmuşdu. Doğrudan da onu Həmədanda bağlayıb saxlayan səbəblərin birisi də Səba xanıma olan eşqi idi...

...Səba xanım şad və razıqalıcı bir hərəkətlə Qətibənin otağına daxil oldu və:

– Mələkənin tapşırdığı vəzifəni ifa etdim. İndi bu saatda o sizin hüzurunuza gələcəkdir. Mən onun qapısını örtüb dışarı çıxarkən o, başına vurub kürsünün üstündə oturdu. O məni bu gün gözləyirdi, axşamdan iki saat keçəndə onun yanına getməli idim. O böyük hazırlıq görmüşdü, lakin o məndə bu ani dönüşü gördüyü zaman dəli olmaq istəyirdi...

Hüsaməddin bu sözü eşidəndə qorxusundan oturduğu yerdən qalxdı:
– Əcəba biz Atabəyi öldürməliyikmi?! – deyə soruşduqda, Qətibə cavabında dedi:
– Burada qorxulu bir məsələ yoxdur. Vaxtı gəlirsə, bu ölümün barəsində də düşünməliyik. Lakin hələlik bir sui-qəsd hazırlamalı və bunu da Qızıl Arslanın ünvanına bağlamalıyıq. Ancaq bu sui-qəsdi ustalıqla başa çatdırsaq, Atabəy Məhəmməd öz qardaşının düşmənliyinə inana bilər. Buna görə də mən Atabəyin səni öz yanında Azərbaycana aparmasına zəminə hazırlamışam. Sən heç də qorxma, səfər zamanı, xüsusən müharibə vaxtı mənim sənə tapşırdığım vəzifələri həyata keçirmək heç bir çətinlik istəmir.
İkinci vəzifə, mənim atamın qatillərini cəzalarına çatdırmaqdan ibarətdir. Sən Fəxrəddinin başını mənə gətirəndən sonra artıq Atabəy Məhəmmədin sağlığında belə Qətibəni öz qollarının arasında görəcəksən. Çünki mən ancaq atamın qatilinin başını görəndən sonra yasdan çıxa biləcəyəm.
Hüsaməddinin şadlığından vücudu titrədi, o, dəli kimi sözə başladı və:
– Mələkə buna and içməlidir, – dedikdə, Qətibə də:
– Oğlum Qütlüğün canına and içirəm. İnandın ki?!
– İnandım, mənim ruhum! İnandım. Mələkənin dediklərini öz həyatımın qiymətinə olsa da yerinə yetirəcəyəm. Mən Fəxrəddindən əskik qəhrəman deyiləm. Çoxdan bəri mən onunla qarşı-qarşıya gəlmək istəyirdim.
Qətibə yerindən qalxıb Hüsaməddinin yanına gəldi və əlini onun əlinə uzadıb dedi:
– Demək ki, biz danışıb razılaşdıq.
Hüsaməddinin vücudu əsirdi, ehtiras onu tamamilə özlüyündən uzaqlaşdırmışdı. Qətibə öz fikirlərini onun qəlbində möhürləmək və onun heyvani düşüncələrinə uzun bir ömür vermək üçün dodaqlarını Hüsaməddinə uzatdı. Hüsaməddin onun dodaqlarını güclə buraxdığı zaman bu sözləri eşitdi:
– Mənim sevimli dostum, dalısı sonra.

## HÜCUM

Atabəy Məhəmmədin böyük bir ordu ilə Şimali Azərbaycana hücum etmək xəbəri hər tərəfi qorxu altına almışdı. Gürcüstan və Şirvan məmləkətləri bu hücumun pərdəsi altında iki qonşu əleyhinə siyasi bir məqsəd gizlənə bilər deyərək ciddi bir hazırlığa başlamışdı. Onlar öz sərhədlərinə güclü qoşun yığırdı. Bu xəbər Aranda və Şimali Azərbaycanın başqa tərəflərində təşviş və həyəcana səbəb olmuşdu.



Xüsusən aranlılar fars və ərəb qoşununun Azərbaycana gətirildiyini eşidən zaman Qızıl Arslana məktub göndərməyi və özlərinin onlara təslim olmayacaqlarını xəbər verməyi lazım bildilər.
Aranlılar tərəfindən Qızıl Arslana yazılan uzun məktubun qısa məzmunu bundan ibarət idi:

"Həşəmətli hökmdar!
Atabəy Məhəmmədin Şimali Azərbaycana böyük bir ordu gətirməsi xalqın həyəcanına səbəb olmuşdur. Şimali azərbaycanlılar ikinci kərə əlahəzrətlərə bildirir ki, hazırda hökumətə qarşı məmləkətdə heç bir üsyan yoxdur. Əlahəzrətlər məmləkətə adil və iş bilən bir hökmdar göndərərsə, məmləkətin mərkəzlə olan əlaqəsi əvvəlkindən daha artıq möhkəm olacaqdır. Böyük bir ordunu məmləkətə gətirmək, xüsusən əkin və biçin zamanı xalqın tarlalarını basdırmaq, məmləkəti böyük bir aclıq fəlakətinə sala bilər. Əlahəzrətlərin hər ikisinə məlumdur ki, Azərbaycan xalqının təbiəti bam-başqadır. Onlar heç bir zaman çətin vəziyyətin altından təslim və yalvarmaqla çıxmaq istəməzlər. Buna görə də əlahəzrətlər Azərbaycanda qan tökülməsinə razı olmasınlar".

Qızıl Arslan bu məktubu aldığı zaman Atabəy Məhəmmədin ordusu Təbrizin səkkiz verstlik məsafəsində olan Ucan və Seyidabad şəhərlərində yerləşmişdi. Atabəy ordusunun Ucan və Seyidabad tərəflərində yerləşməsi Qızıl Arslanın paytaxtını arxadan mühasirəyə almaq nümayişi demək idi. Buna görə də Qızıl Arslan "Təbriz istidir" – deyə Azərbaycan qoşunlarını Atabəy Məhəmmədin Şimali Azərbaycana girmək istədiyi kimi yolun ətrafına yerləşdirmişdi.
Qızıl Arslanın on min nəfərdən ibarət atlı ordusu Səhənd dağının və Siyahuhun ətrafında və Mərənd ilə Xoy şəhərləri arasında yerləşmişdi. Bu qoşun Qızıl Arslanın qorxuya salacaq bir hadisə nəticəsində Atabəy Məhəmmədin Ziyaülmülk körpüsü vasitəsilə Araz çayından keçib Culfa və Naxçıvan şəhərlərini əldə etməsinə manеə törədəcək idi.
On mindən ibarət başqa bir ordu da Atabəy Məhəmməd ordusunun arxasına keçmək və onun qayıdacaq yollarını kəsməkdən ötrü Dehxarqan, Ərğan və Marağa mahallarında yerləşmişdi.

Qızıl Arslanın böyük ordusu Atabəy Məhəmmədin Şimali Azərbaycanın Qarabağ ölkəsinə girə biləcəyi yolların arxasında idi. Bu yollar Araz çayının üstündəki Xudafərin körpüsünə gedəcək yollardan ibarət idi.

Qızıl Arslanın bu ordusu Kuleybər və Əhər şəhərlərində dayanmışdı. Bunlar istədiyi zaman körpünü kəsəcək və Atabəy ordusunun gedib-gəlməsinə imkan verməyəcək idi.

Qızıl Arslanın bu qədər böyük hazırlığına səbəb Atabəy Məhəmmədə inanmaması idi. Əvvəla o, Atabəy Məhəmmədin Qətibənin təsirinə düşməsindən şübhələnirdi. İkinci də, Atabəy Məhəmməd Gəncə üsyanının səbəblərini Qızıl Arslanın etinasızlığında görürdü. Atabəy Məhəmməd fürsət əldə etdiyi zaman qardaşı olduğuna baxmayaraq onu Azərbaycan hökumətindən götürər və bəlkə də onun gözlərinə mil çəkdirə bilərdi.

Qızıl Arslan hazırlığını görüb, özünü təmin etdikdən sonra dörd minlik bir atlı ordu ilə Atabəy Məhəmmədi Gavəkan şəhərində istiqbal edib Təbrizə gətirmək üçün yola düşdü.

* * *

Atabəy Məhəmməd yenə də Qızıl Arslanın Şimali Azərbaycan haqqındakı fikirləri ilə hesablaşmadı, hətta Qızıl Arslan aranlıların son məktubunu ona göstərdiyi zaman Atabəy gülərək dedi:

– Hüsaməddini min nəfər atlı ilə göndərərəm, Şimali Azərbaycanın altını üstünə çevirər. Sən ya azərbaycanlılardan qorxur və yainki məni qorxudursan. Yenə də deyirəm, sən istəsəydin, aranlılar bu cəsarəti etməzdilər. Əmir İnanc hər nə idi, biz bilirik. Lakin o mənim qayınatam idi. Həm də xəlifənin damadı idi. Üç günün içərisində Qarabağ ölkəsinə on min atlı tökə bilərdin. Görünür ki, mənim kiçik qardaşım müştərək iş yolundan boyun qaçırmaq istəyir.

Buna görə də mən Şimali Azərbaycana türk dilində danışan bir nəfər də qoşun aparmayacağam, sən də bu səfərdə iştirak etməyəcəksən. Mən rəiyyətin dikbaşını sevmərəm. Qoy şimali azərbaycanlılar öz Fəxrəddin və Əlaəddinlərinə güvənsinlər. Onların hər birisinin qabağına minlərcə Fəxrəddin və Əlaəddinlər qoyacağam. İki gündən sonra Araz çayının Şimal tərəfini odlar, tüstülər, dumanlar və at dırnaqlarının altında qoyacağam.

Qızıl Arslan etiraz edərək dedi:



– Bu yaramaz, əlahəzrət. Azərbaycan xalqını qarət etmək, yandırıb və öldürmək üçün fars və ərəbləri yığıb gətirmək sənin ədalətinə yaraşmaz. Bunlar hər cəhətcə bizimdir. Biz bunlara arxalanıb hökmdarlıq edə bilərik. Mən şimali azərbaycanlıları müdafiə etmirəm. Lakin üsyan edən hər bir məmləkətə əvvəlcə üsyançıların verilməsi, zərərlərin ödənməsi və başqa-başqa tələblər vermək lazımdır. Hərgah onlar bu tələbləri rədd edərlərsə, Atabəy ordu və qoşun qüvvətilə iş görməyə haqlıdır. Lakin mən heç bir zaman gələcəkdə idarə edəcəyim məmləkətin qarət edilməsinə imkan verə bilmərəm.

Qızıl Arslan son təklifi Atabəyə qəbul etdirə bildi. O, bu təklifin şimali azərbaycanlılar tərəfindən qəbul edilməyəcəyini, üsyançıların verilməyəcəyini yəqin edirdi. Lakin onun bu təşəbbüsü şimali azərbaycanlılara vaxt qazandırmaq üçün idi.

Atabəy Məhəmməd mirzəsini çağırıb bu məzmunda bir məktub yazdırdı:

"Azərbaycanlılar!

Xanədanımızın nemət və mərhəmətini hökmdarlığımızın rəiyyətpərvərliyini nəzərə almayaraq əleyhimizə üsyan edənləri cəzalandırmaq üçün gələn ordum, hər iki tərəfdən Araz çayına yaxınlaşıbdır. Bunun üçün sizə aşağıdakı tələbləri verirəm:

*Birincisi* – Üsyan başçılarını göndərilən siyahı üzrə həbsə alıb hüzuruma göndərəsiniz.

*İkincisi* – Dağılan malları bir dinarına qədər bir yerə yığıb göndərməlisiniz.

*Üçüncüsü* – Üsyan zamanında ölənlərin qan bahalarını verməlisiniz.

*Dördüncüsü* – Əmirin sarayından aparılan sərvəti qaytarmalısınız.

*Beşincisi* – Gətirdiyim ordunun bütün məsarifini ödəməlisiniz.

Bu şərtlər qəbul edilmədiyi təqdirdə ordum Şimali Azərbaycanın daşını daş üstündə qoymayacaqdır. Bu şərtlərin qəbul edilməsi üçün sizə on gün möhlət verirəm".

Atabəy Məhəmmədin aranlılara verdiyi tələblərə müsbət cavab verilmədi. Məktubu aparan qasid cavabını gətirmişdi. Cavabda belə yazılırdı:

"*Əvvəla*, üsyan başçılarını vermək mümkün deyildir. O zaman bütün Şimali Azərbaycan xalqını həbsə alıb Atabəyin hüzuruna göndərmək lazımdır.

*İkincisi* – Əmirin sarayından aparılan mallar Əmirin özünə məxsus deyildi, xalqdan qamçı gücü ilə alınan mallar idi.

*Üçüncüsü* – Üsyanda ölənlərin qan bahasını üsyana səbəb olanlar verməlidir.

*Dördüncüsü* – Əmirin sarayından aparılan və hökumətə məxsus olan sərvətə əl vurulmamışdır, onu hər zaman Atabəyin hüzuruna təqdim edə bilərik.

*Beşincisi* – Gətirdiyiniz ordunun məsarifini sizin ölən qayınatanız Əmirin malikanələrini satıb ödəməlisiniz. Çünki gətirdiyiniz ordunu onun intiqamını almaq üçün gətirirsiniz. Bundan başqa cavab ola bilməz. Atabəy həzrətləri nə məqsədlə Şimali Azərbaycana gəlirsə, biz də haman məqsədlə əlahəzrəti qarşılamağa hazırıq".

Atabəy Məhəmməd Şimali Azərbaycan xalqı tərəfindən göndərilən bu cavabı oxuduğu zaman başının tükləri qabardı. O, artıq şimali azərbaycanlıların qılınc və qüvvətə təslim olmaq istəmədiyini təyin etdi. O, tez-tez Qızıl Arslanın üzünə baxaraq:

"Atabəy həzrətləri nə məqsədlə Şimali Azərbaycana gəlirsə, biz də haman məqsədlə əlahəzrəti qarşılamağa hazırıq" – deyirdi.

Məktubu alan günün axşamı Atabəy Məhəmməd, Hüsaməddin və İbn-İddari yanına çağırıb əmr verdi:

– Sabahdan başlayaraq ordunun hərəkəti üçün hazırlıq aparmalısınız. Ən əvvəl dörd min nəfər atlı ilə Hüsaməddin Xudafərin körpüsünü keçib bir an dayanmadan Qarabağa hücum etməlidir.

İbn-İddar on min nəfərdən ibarət atlı qoşun ilə Sofiyan və Mərənd şəhərlərindən keçib Ziyaülmülk körpüsü vasitəsilə Naxçıvan və Culfa şəhərlərini işğal etməlidir. Silahla müqavimət göstərənləri qırıb ailələrini İrana köçürməlisiniz. Onların yerlərinə başqa yerin xalqını köçürəcəyəm.

Duz və çörəyə etina etməməlisiniz, təslim yalnız qılınclar və oxlar vasitəsilə olmalıdır. Evlər, tarlalar və xırmanlar yandırılmalıdır. Yanan kəndlərin və tüstüləyən binaların içərisindən keçib Gəncəyə girməlisiniz. Üsyanda iştirak etməyən şəhərlərə və kəndlərə toxunmamalısınız.

Təslim etdiyiniz yerlərdə hakimlər təyin edəndən sonra irəli hərəkət edərsiniz.

Atabəy hər nə ki, lazım idi tapşırdı. Bu tapşırıq üzərinə ordu iki tərəfdən Araz çayını keçmək üçün hərəkət etdi. Qarabağ və Gəncə üzərinə hücum edən ordu Xudafərin körpüsünü keçəndən sonra bir an belə dayanmayaraq Aranın birinci şəhəri olan Bacerəvan şəhərinə doğru at



sürürdü. Ordu yorulmuşdu. Aranda şiddətli quraqlıq keçdiyi üçün hər yanda susuzluq idi. Düzlər, dərələr yanırdı. Muğandan əsən isti və isitməli ruzigar Atabəyin qələbə və intiqam ümidləri ilə yürüyən ordusunu istiqbal edirdi. Bunsuz da Hüsaməddinin ordusu süni cəhənnəmlər yaradırdı. Araz kənarından başlayaraq Bacerəvan şəhərinə qədər ev-eşiyini, tarlasını, əkinini buraxıb çəkilən kəndlər, xırmanlar, əkinlər, evlər yandırılırdı.

Hüsaməddinin atlıları Araz kənarından Bacerəvan şəhərinə qədər odlar, tüstülər, tozlar və dumanlar içərisi ilə irəliləyirdi.

Ordu yorulmuşdu. Bacerəvan altında qoşuna bir neçə gün rahatlıq verməklə birbaşa Arana girmək üçün Hüsaməddin orduya əmr vermişdi.

Ordunun çadırları kiçik çayın kənarında qurulmuşdu. Yüzlərcə qoç və qoyun boğazlayıb qoşuna ziyafət verilirdi. Hüsaməddin öz çadırında oturub iki gündən sonra böyük bir qələbə ilə Gəncəyə girəcəyini düşünürdü. Onun arzuları yenə də içmək üçün əlinə aldığı piyaləsində təcəssüm edirdi. Piyaləsində o, Fəxrəddinlə vuruşurdu. O, kəməndini atıb onu atından düşürür, onun qollarını bağlayıb Qətibənin hüzuruna gətirir və nəticədə bu qələbənin mükafatı olaraq Qətibə qollarını açıb Hüsaməddini qucaqlayır, Hüsaməddin dodaqlarını uzadıb Qətibənin yaqut kimi dodaqlarını dişləmək istərkən sərxoş sərkərdənin dişləri şüşə piyaləni qırır və dodaqlarından qan tökülür.

Hüsaməddinin ordusu iki gün istirahət etdi. Farslar, ərəblər və iraqlılar səbirsizliklə hücumu gözləyirdi. Onlar zəngin şəhərlərin və Gəncənin üstünə getməyə tələsirdilər. Onların qənimət daşımaq üçün yedəklərində gətirdikləri atlar və çuvallar boş-boşuna dururdu. Çünki köçüb gedən kəndlərdə əllərinə qənimət adına heç bir şey keçməmişdi.

Ordu başçıları bunun üçün də qoşunun adından Hüsaməddinə sifariş göndərib hücum əmri verilməsini rica etdilər. Sərkərdə razı oldu. Ordu bir gün sonra hərəkət edəcəkdi.

## QƏLƏBƏ

Atabəy Məhəmmədin Gəncə üsyançılarını cəzalandırmaq üçün Təbrizdən Qarabağa hərəkət etməsi xəbəri Gəncədə eşidilən kimi Aran şəhərlərinin hamısına hazır olmaları üçün xəbər verildi. Bir həftənin içərisində altı minə qədər müharibə təcrübələri görmüş atlı Fəx-

Cariyə daxil olub Hüsaməddinin gəldiyini xəbər verdi. Səba xanım Qətibəyə təzim edərək otaqdan çıxdı.

Hüsaməddin içəri girib salam verdikdə Qətibə onun üzünə diqqətdə baxaraq Səba xanımın özünə sadiq qalıb-qalmadığını yoxlamağa başladı. Hüsaməddinin boynunun damarları tez-tez atırdı. Vücudundakı qan sanki tamamilə gicgahlarında olan kiçik damarlara dolmuşdu. Gözlərinin ağındakı qırmızılıq artmış, göz bəbəkləri isə bulanıq bir şəkil almışdı. O nə qədər özünü ələ almaq istəsə də varlığını əhatə etmiş ehtirasın əlindən yaxasını qurtara bilmirdi:

Qətibə Səba xanıma inandı və məhzun bir halda:

– Otur, mənim səmimi dostum, – dedi.

Hüsaməddin oturdu. Qətibə onun kefini xəbər alaraq soruşdu:

– Bu gün sənə nə olmuşdur? Varlığında böyük kədər və həcəyan görürəm.

Hüsaməddin məhrumiyyət qarşısında aciz qalanların vəziyyətinə düşərək danışdı:

– Ah möhtəşəm mələkə, hansı günümə şadlanım?! Madam ki, mənim şadlıq və fərəh aldığım gözəl mələkə başından ayağına qədər qaralara bürünmüşdür, mən nə cür şad ola bilərəm?! Əcəba, mələkə elə bilir ki, Əmirin başına gətirilən faciə mənim xatirimdən çıxmışdırmı? Mələkə elə bilir onun gözlərinə baxdığım zaman qəlbindəki tükənməz matəm duyğularını oxumurammı?

Qətibə ciddi bir vəziyyət alıb dedi:

– İnanıram, mənim ruhum! Artıq bizim bir-birimizə bağlı olduğumuz müəyyəndir. Bu fikri heç bir zaman dəyişdirmək olmaz, çünki bu fikir bizim illərdən bəri davam etdirdiyimiz dostluğun məhsuludur. Rəhmətlik atamın səhvləri bizi bu qədər uzun bir müddətin ayrılığı və anlaşılmazlığı içərisində əzdi. Artıq atam yoxdur. Anam da ağlını itirmiş bir fəlakətzadədir ki, güşənişinliyi sevir. İndi biz ikimiz qalmışıq. Bu saray da, saraydakılar da, hətta sarayın sahibi də bizə yabançıdır. İndi gərək biz bir-birimizin qeydinə qalaq.

Sən elə bilirsən ki, mən sənin bu naməüyyən həyat içərisində gənc ikən qocaldığını görmürəm?! Lakin nə edə bilərəm? Sən elə düşünürsən ki, Qətibə öz sevdiyi adamla bir evdə, bir yaşayışda və bir donda yaşamağı istəmir?! Sən elə bilirsən ki, Atabəyi görmək və onu bir ər kimi tanımaq mənim üçün cəhənnəm əzabından çətin deyildir? Sən elə bilirsən ki, mən sevdiyim adamın qolları arasında nazlanmağı və həyatın mənəvi ləzzətlərini dadmağı istəmirəm?! Lakin nə edim, bir zamanda iki kişinin



qadını olmaq namussuzluqdur. Gərək sənin özün də buna imkan verməyəsən. Hələ mən adi bir qadın olsaydım, bəlkə də belə bir xətaya imkan verə bilərdim. Halbuki mən bir məmləkətin mələkəsiyəm.

Burada həm xalqın tənəsi, həm də Atabəyin qorxusu vardır. Nə qədər ki, Qızıl Arslan Atabəyin fikirlərinə hakimdir, bizim səadətimizin baş tuta biləcəyinə inanma. Qızıl Arslanla Atabəyin arasında ixtilaf çıxmazsa, o, Azərbaycan hökuməti başından götürülməzsə, bizim birləşməyimizə ümid bağlama.

Sən Qətibənin varlığını mənimsəmək istəyirsənsə, bu barədə düşünməlisən. Həyata mən dediyim şəkli verə bilmədiyin zaman düşündüyümüz gözəl dünyaya qayıda bilməyəcəksən.

Sənə səmimiyyətlə söz verirəm, Qətibə başqasını sevmir, səni Səba xanıma qısqandığım da bunun üçündür. Sən bir mələkəyə sahiblənmək istəyirsənsə, bu cariyədən əl çək, çünki belə hərəkət mənim üçün təhqirdir. Bu rəftarınla məni itirə də bilərsən.

Hüsaməddin yenə də müqəddəslərə and içərək dedi:

– Mənim qəlbimdə mələkənin sevgiləri doğduğu zamandan bəri, mələkəni təhqir edə biləcək heç bir fəna hərəkətdə bulunmamışam. Mələkənin hər bir əmri mənim üçün qanundur. Lakin Qızıl Arslanla Atabəyin arasında ixtilaf yaratmaq barəsində daha dərindən düşünmək lazımdır. Çünki hər kiçik bir ixtilaf nəticəsində Qızıl Arslan kimi bir hökmdarın Azərbaycan hökumətindən götürülməsini əldə etmək olmaz.

Qətibə:

– Elədir, dediklərin doğrudur, – dedi. – Dərindən düşünmək lazımdır. Lakin hazırkı fürsəti də əldən buraxmaq olmaz, çünki Atabəyin Azərbaycan səfərinə çıxması iki-üç günün işidir.

Qətibə sakit dayanıb Hüsaməddinin cavabını gözlədi.

Hüsaməddin düşünürdü, kifayətverici və Qətibəni qaneedici bir cavab tapa bilmirdi. Nəhayət, Qətibə sükutu pozub onu çətinlikdən qurtarmaq üçün dedi:

– Mən sənin çətinlik çəkdiyini hiss edirəm, buna görə də sənə tapşırmaq istədiyim vəzifələr barəsində izahat vermək istəyirəm. Atabəy Məhəmməd öz ordusu ilə Şimali Azərbaycana gedir. Sən özün də bilirsən ki, Qızıl Arslan bu səfərdən razı deyil, orada iştirak etmək istəməyəcəkdir. Bu xırda ixtilafı böyüdə bilsək, bütün məqsədlərimiz ələ gəlmiş olacaqdır. İxtilafı böyüdüb barışmaz bir şəklə salmaq üçün, yeganə bir çarə vardır ki, o da Qızıl Arslan tərəfindən Atabəyə qarşı suiqəsd hazırlamaqdan ibarətdir.

rəddin və Seyid Əlaəddinin ətrafına yığışdı. Bu qoşundan dörd min nəfəri Seyi Əlaəddinlə bərabər Naxçıvan qalasını işğal edəcək və Atabəyin sərkərdəsi İbn-İddarın Ziyaülmülk körpüsündən Şimali Azərbaycana keçməsinə mane olacaqdı. Yerdə qalan iki min nəfər isə Fəxrəddinlə bərabər Kür çayının sahillərində durub Atabəyin əsas qüvvələrinin Gəncəyə girməsinə imkan verməyəcəkdi.

Fəxrəddinin sərkərdəliyi altında gedən bu qoşun vaxtilə Atabəy ordusunda – Xarəzm, Rey, İraq müharibələrində təcrübə görmüş adamlardan düzəlmişdi.

Atabəyin yanında gələn qoşunun sərkərdəliyi vaxtilə Aran qoşunun sərkərdəsi Hüsaməddinə tapşırılmışdı. Bu xətlə dörd mindən ibarət fars və ərəb atlıları Araz çayından Xudafərin körpüsünü keçib Qarabağdan Bacerəvan tərəflərinə qədər irəliləyirdi.

Fəxrəddin Atabəy və Hüsaməddinlə gələn qoşunun vəziyyətini öyrəndikdən sonra Əlibəyli kəndi ilə Əbubəkr[1] kəndlərinin arasındakı düzdə düşmənə qarşı bir meydan müharibəsi verməyi qərara almışdı. Buna görə də Xudafərin körpüsündən başlayaraq bütün xalqın kəndləri və şəhərləri boşaldıb Bacerəvana qədər çəkilmələrinə əmr verilmişdi.

Hüsaməddinin ordusu Araz çayından keçdiyi gün Fəxrəddinin ordusu da Gəncədən cəbhəyə yola düşdü. Ordu Gəncədən İsfahan kəndinə qədər olan on iki fərsəng yolu xalqın şadlıq səsləri, musiqi nəğmələri altında keçirdi. Ordunu cəbhəyə yola salmaq üçün Aran şəhərlərinin hamısından xalq dəstələri axıb Gəncəyə gəlmişdi.

Xalqda baş verən bu qədər ruh yüksəkliyi ordu xalqının mənəvi qüvvətini bir daha artırır və düşmənlə üz-üzə gəlmək üçün tələsdirirdi. Arası kəsilmədən dəstə-dəstə atlılar gəlib Fəxrəddinin ordusuna qoşulur və ordunun sayını artırırdı.

Artıq İsfahan kəndində qoşuna san verildiyi zaman ordunun üç min nəfər atlıdan ibarət olduğu məlum oldu.

Uzun yolun hər tərəfində qızlar və gəlinlərin dəstələri əllərində güllər, çiçəklər və əlvan-əlvan yeməklər müharibəyə gedən qəhrəmanları qarşılayırdı. Onlara cürbəcür tapşırıqlar verirdilər.

– Sizə yaxşı yol, qələbə və zəfərlər diləyirik, sizi ancaq zəfərlə döndüyünüz zaman çiçəklərlə qarşılayacaq və öpəcəyik, – deyirdilər.

[1] Əbubəkr kəndi Atabəy Məhəmmədin oğlu Əbubəkr tərəfindən salınmışdı (*Qəzvini*).



Ordunu yola salmaq üçün Gəncənin əyan və ziyalıları İsfahan kəndinə qədər gəlmişdi. Burada cəbhəyə gedən qoşunun şərəfinə təntənəli bir ziyafət veriləcəkdi. Bütün düzlər və təpələr, qoşunun tamaşasına çıxan kəndli qızlar, kəndli gəlinlərlə bəzənmişdi. Çayın kənarında yüzlərcə tonqal qalanmışdı. Kəndlərdən qəhrəman Fəxrəddinin atının dırnağında qurban kəsmək üçün gətirilən sürü-sürü qoyunlar kəsilib soyulur və təmizlənmiş qoyun cəmdəkləri ağaclara taxılıb közlərdə qızardılırdı.

Yüzlərcə aşıq sazlarının tərənnümləri eşidilir, yüzlərcə gəlin və qız rəqs edir və oxuyurdu.

Yedilər, oynayıb çaldılar, nəhayət, gün batan zamanı görüşüb, vidalaşıb ayrıldılar. Qızlar nişanlıları və gəlinlər gənc ərləri ilə vidalaşdığı zaman deyirdilər.

– İndi baxıb görüm mənim başımı uca eləmək üçün nə iş görəcəksən!

– Ancaq qələbə ilə gəldiyin zaman səni qucaqlayıb öpəcəyəm!

– Nizəndə düşmən başı görməsəm, istiqbalına çıxmayacağam!

– Mənə verəcəyin birinci hədiyyən, qələbən olmalıdır. Düşməni sərhəddən içəri buraxsan evə qayıtma!

Nizami Fəxrəddinlə öpüşüb vidalaşdığı zaman ona belə tapşırıqlar verirdi:

– Vuruşma zamanı özünü qoşunun arxasında gizləmə, çünki durna öz başçısını qabaqda görməsə havada uça bilməz. Sənin mindiyin at hər bir atdan qabaqda və sürətlə yürüməlidir. Hücum etdiyin zaman sənin atın dalınca gələn ordudan çox qabaqda getməlidir, çünki düşmən ox atdığı zaman tək atlını yox, dəstələri hədəfə alır. Düşmənin adlı-sanlı pəhləvanının qabağına adsız, sansız və təcrübəsiz adamların çıxmasına imkan vermə. Düşmən sənin özünü müharibəyə çağırdığı zaman meydana çıxmaqdan boyun qaçırma, çünki sərkərdəsini qorxaq görən ordu çətin müharibələrdə iş görə bilməz. Düşməni Araz çayına qədər qovandan sonra Cənuba hücum etmə. Ordunu uzaq səfərə aparıb yorma, çünki bir gün Atabəyin böyük qüvvəsilə üz-üzə gəlməyə məcbur olacaqsan.

Nizaminin böyük tapşırıqlarından sonra Fəxrəddin atını məhmizləyib yola düşdü.

* * *

...Səhər idi. Ay dağın başından naməhrəm qadına baxan kişilər kimi başını uzadıb Hüsaməddinin ordusu düşən qərargaha boylanırdı.

Əlibəyli kəndi ilə Əbubəkr kəndi arasındakı düzdə yerləşən çadırlara baxıldığı zaman geniş düzlərə ağ kəpənək qonduğu zənn olunurdu.

Müxtəlif dillərdə danışan ordu nəfərləri atlarını kiçik çayın kənarında tumarlayır, çimdirir, hər kəs öz dilində oxuyurdu. Uzaqda çadırların qarşısındakı nizə çatmalarına baxıldığı zaman Əlibəyli kəndinin düzlərində gənc bir meşəlik salındığı zənn olunurdu.

Çadırların qabağında dolaşan keşikçi, Əlibəyli kəndinin şimalında düşən dağ silsilələrinin arasından düzəngaha qarşı dəhşətli bir selin axdığını gördü. Bu sel, Hüsaməddinin ordusu üzərinə hücum edən qalın toz təbəqələrindən ibarət idi. Keşikçi dərhal Hüsaməddinin çadırına qaçdı. Çadırın qapısındakı qarovul onu içəri buraxmadı və:

– Sərkərdə yatmışdır. Oyatmağa icazə verməmişdir, – deyə onu rədd etdi.

Qarovul fars idi, o, təhlükənin yaxınlaşdığını görüb qışqırdı:

– Baba, çi vəkti xabidənəst, düşmən miyayəd bezudi pədəri məra dər miarəd hey[1].

Fars keşikçisi qorxusundan o qədər ucadan qışqırdı ki, Hüsaməddin sərxoşluğun şirin yuxusundan ayıldı, tirmə xələtini üstünə salıb çadırdan dışarı çıxdı, əlini alnına qoyub toz axınına baxınca, əlini-əlinə vurub:

– Düşmən gəlir! – dedi və fars keşikçisindən daha ucadan qışqırdı:

– Ordu hazır ol! – dedikdən sonra yüzlərcə şeypurun səsi birdən eşidildi. Çayın kənarındakılar çılpaq atların üzərinə sıçrayıb çadırlara üz qoydular. Çadırdakılar da dərhal silahlanıb atın belinə atıldı. Hüsaməddin geyinib yəhərin üstünə qalxdı, toz təbəqəsinə qarşı iki yüz nəfər inanılmış atlı ilə hücum etdi.

Yüzlərcə at ağzını açıb bir-birinə yaxınlaşırdı. Qaçan atların geniş açılmış burun deşiklərindən çıxan şiddətli nəfəslər toz təbəqələrini yarıb qılınc və mizraq oynatmaq üçün fəzanı təmizləyirdi.

Bir anda "hey! hey!" səsləri düzləri və dağ-dərələri ağzına aldı. Qəhrəmanların qışqırıqları Qarabağ və Aranın dağ silsilələrinə əks edərkən, dağlardan:

– Qəmər at, sağa dön!

– Sona day, geriyə atıl!

– Kürən at, irəliyə!

– Əbləğ, irəliyə! – səsləri eşidilirdi.

[1] Baba, bu nə yatmaq zamanıdır, düşmən gəlir, tezliklə bizim atamızı qəbirdən çıxaracaqdır ey!..



Qılınc müharibəsi idi. Qılıncların ağzında çeynənən qalxan qırıntıları havadan axıb atların ayaqları altına tökülürdü. Günəş ucalmışdı, lakin o, dəhşətli qırğın davam edən Əlibəyli düzünü işıqlandırmağı bacarmırdı. Bir-birini qarşılayan yeddi min qılıncdan havada keçilməz bir hasar çəkilmişdi.

Hüsaməddinin ordusunun vəziyyəti ağırlaşdı, çünki Fəxrəddinin ordusunun mühüm bir hissəsi Əbubəkr kəndinin Şərq tərəfindən onun arxasına hücuma başlamışdı.

Hüsaməddin, ordusunun mühasirə vəziyyətində olduğunu hiss edərək nicat yolu axtarırdı. Buna görə də ölüm-dirim müharibəsinə başlayıb vuruşurdu.

Fəxrəddin, əlində siyirmə qılınc atlının qabağında göründü və Hüsaməddini səslədi:

– Hanı bu ordunun qəhrəmanı? Hanı Hüsaməddin? – dedikdə, Hüsaməddin atını məhmizləyib Fəxrəddinə qarşı sürdü.

Düzlər və təpələr, yəhərləri qarınlarının altına düşən və cilovları qollarına dolaşaraq, qılınc yarasından inləyən atlarla dolmuşdu.

Hüsaməddinin ordusunu mühasirəyə almış Aran atlıları qiyamət qoparmışdı. Düzlərdən və təpələrdən ərəb və fars atlılarının:

– Vay madər!

– Vaveyla! – səslərindən başqa bir səs eşidilmirdi.

Mühasirə xəttini yarıb qaçmağı bacarmayanlar nicatını qılıncda və mizraqda arayırdı.

Hüsaməddinin atı vuruşan dəstələrin arasından qızmış şir kimi çıxdı. Onun gözləri qarşısını görmürdü. O ancaq öz qəlbindəkiləri görürdü. Onun qəlbində Qətibənin dodaqları danışır və ondan Fəxrəddinin başını tələb edirdi. Bunun üçün Fəxrəddin kimi şöhrətli bir pəhləvanın qarşısına çıxmaq o qədər də çətin deyildi. O daima qəlbində Qətibənin səsini dinləyirdi. Sanki o səs Hüsaməddini xoşbəxt bir həyata doğru cəlb edirdi. O, dördminlik bir ordunu itirdiyini və özünün məğlublar cərgəsində durduğunu nəzərə almayaraq atını bir qalib pəhləvan kimi irəli sürürdü. Nəhayət, o, Fəxrəddin duran yerə yaxınlaşınca başını qaldırıb öz qarşısında Fəxrəddini gördü, atının cilovunu çəkdi. Bir neçə dəqiqə onlar bir-birinə diqqətlə baxdılar. Nəhayət, Fəxrəddin sözə başlayaraq Hüsaməddini məzəmmət etməyə başladı:

– Bir ordunun başçısı kimi səni öldürmək mənim üçün ən vacib işlərdən biridir. Lakin sənə qılınc vurmaqdan utanıram, çünki qılıncımın namussuz və həyasız bir adamın qanına batmasını özüm üçün həqarət

hesab edirəm. Alçaqsan, çünki dörd mindən ibarət fars və ərəb qoşununu dalına salıb öz vətənini qarət etməyə və öz vətəndaşlarını qırmağa gəlmisən.

Şimali Azərbaycanı talamaq və məhv etmək üçün gələn ordunun içərisində səndən başqa bir nəfər də azərbaycanlı olsaydı, mən sənə alçaq deməyə cəsarət etməzdim. Alçaqsan! De görüm, sən Nizaminin evində verdiyin əhd və peymanı unutdunmu?! Sən Azərbaycan xalqının rəhbərlərinə qarşı düşmən hərəkətdə bulunmamağa söz verməmişdinmi?!

De görüm, Araz çayından bura qədər yandırdığın kəndlərin günahı nə idi? İndi isə öz cəzanı almağa hazır ol!..

Hüsaməddin cavab verməyə macal tapmadı, çünki Fəxrəddin atını məhmizləyib onun ətrafında dolaşırdı.

Hüsaməddin qılıncını siyirib Fəxrəddinə qarşı atını məhmizlədiyi zaman Fəxrəddinin kəməndi onun qılıncını qolları ilə bərabər bədəninə sarımışdı.

Fəxrəddin atını məhmizləyərək geri dönərkən Hüsaməddini yəhərdən çıxardı. Hüsaməddinin əsir düşdüyünü görən iraqlılar onu qurtarmaq üçün ümumi hücuma keçdilər. Qanlı müharibə oldu. Nəhayət, Hüsaməddini əsirlikdən qurtarıb aradan çıxara bildilər.

Müharibə gün batana qədər davam etdi. Atabəy ordusunun yarıdan çoxu qılıncdan keçirilir və minlərcə insan meyitləri at dırnaqlarında çeynənirdi. Qaranlıq düşəndə Hüsaməddin sağ qalan yaralı və yorğun adamları ilə bərabər üzünü Araz çayına tərəf çevirib qaçdı. Qərargah Aran ordusunun əlinə keçdi. Qənimətin hesabı yox idi.

## ŞAHMAT

Axşam idi. Sərin və lətif ruzigar yay fəzasının çöhrəsinə düşən ləkələri silib təmizləyirdi. Ucan və Savalan dağlarından qopub gələn küləklər Qızıl Arslanın sarayının bağçasına yayıldıqca yasəmənləri təzə yuxudan qalxmış gəlinin saçları kimi dağıdırdı.

Qoca bağban yayın istisindən qorunmaq üçün yarpaqların çətiri altına girib yatan güllərin çöhrəsinə su çiləyirdi.

Ruzigardan və sudan təzə həyat alan qönçələr pərdəsini ataraq yenə bir həyata atılmağa hazırlanırdı.

Küsmüş qızlar kimi kirpiklərini bir-biri üzərinə tökən nərgiz gülü və şəhla gözlərini açıb qızıl gülün çöhrəsindəki qırmızılığa baxırdı.



Yetim qızlar kimi bir guşədə unudulub qalan bənövşə boynunu çiyninə qoyub yarpağın yaşıl xalçası üzərində oturmuşdu.

Hovuzun kənarında al qətifələrə bürünüb duran ördəklər günəşin Sərdrüd təpələrinin dalında gizləndiyini görərək axşam nəğməsinə başlamışdı.

Atabəy Məhəmmədlə Qızıl Arslan otaqdan çıxıb eyvanda qoyulmuş kürsülərin ətrafında dolanır və danışırdılar. Atabəy Qarabağ xəttilə Gəncəyə girmək üçün göndərilən ordunun vəziyyətindən xəbərdar deyildi.

Mərənd xəttilə Naxçıvanı işğal etmək istəyən İbn-İddarın dəstəsindən də ümidverici xəbərlər alınmamışdı. Onları Seyid Əlaəddinin atlıları döyüb Ziyaülmülk körpüsü vasitəsilə Araz çayının cənubi-qərb sahilinə sıxışdırmışdı.

Atabəyin bütün ümidi, Hüsaməddinin riyasəti altında gedən orduya idi. Çünki Atabəy Hüsaməddinin şimali azərbaycanlılarla tanış olduğuna və sınanmış bir sərkərdə sayıldığına inanırdı.

Atabəy Məhəmməd Hüsaməddinin qələbə qazanıb-qazanmadığına fal vurmaq üçün şahmat taxtasına yanaşıb Qızıl Arslana:

– Gəl otur bir əl şahmat oynayaq, – dedikdə, Qızıl Arslan oturdu. Heç bir söz demədən şahmat cəbhəsini bölüşdürməyə başladılar, piyadalar, atlılar və şahlar iki tərəfə ayrıldı. Atabəy oyuna başlar-başlamaz, atları irəli sürməyə çalışırdı, Qızıl Arslan Atabəyin nə etmək istədiyini bilir və onun irəli sürdüyü atlının Hüsaməddinlə bərabər Gəncə üzərinə gedən atlı ordudan ibarət olduğunu anlayırdı.

Qızıl Arslan düşünə-düşünə oynayırdı. O qarşı-qarşıya duran atlıları müqayisə edirdi. O, Fəxrəddinin Hüsaməddinə qələbə çala biləcəyinə heç də şübhə etmirdi. Buna görə də Fəxrəddin deyə fal vurduğu atı irəli sürürdü.

Oyun çox da uzun çəkmədi. Hökmdarın əmri ilə irəli yürüyən atlı, artıq şahmat taxtasının üzərində görünmürdü.

Şah, mat olunca, Atabəy bir ah çəkib şahmat taxtasının yanından qalxdı, yenə də Qızıl Arslanla eyvanı dolaşmağa başladı.

Qızıl Arslan qəlbində müvəffəq olduğu faldan sevinirdi.

Qızıl Arslan azərbaycanlıların məğlubiyyətini Eldəniz xanədanının məğlubiyyəti kimi hesab edirdi. Qızıl Arslan Azərbaycan mədəniyyətinin, Azərbaycan ədəbiyyat və sənətinin bütün Yaxın Şərq ölkələrinə işıq sala biləcəyinə inanırdı.

Xidmətçi daxil olub baş endirdi və Atabəyə müraciətlə:

– Həşəmətli Hüsaməddin gəlib hüzura yetişmək arzusundadır, – dedikdə, Atabəy diksindi, şahmatda uduzduğu atlının gəlməsindən şübhələndi və istər-istəməz:

– Qoy gəlsin, – dedi.

Hüsaməddin eyvana daxil olub, baş endirib dayandı. Qızıl Arslan və Atabəy Məhəmməd onun üzünə baxan kimi qalib çıxmış sərkərdəyə bənzəmədiyini dərhal hiss etdilər. Atabəy Məhəmməd ona sual verdi:

– Ordunun vəziyyəti necədir? Ordumuz hara qədər irəliləmişdir?

Hüsaməddin çox təxirlə cavab verdi, çünki o, vəziyyəti olduğu kimi Atabəyə danışmaqdan qorxurdu. Atabəy cavab gözləyirdi, nəhayət, Hüsaməddin başını yuxarı qaldırıb cavab verdi:

– Əlahəzrətin tapşırıqları yerinə yetirilmişdir. Biz Araz çayını keçən kimi Bacərəvan altına qədər yol üzərində və yoldan kənarda nə qədər kənd varsa hamısını yandırdıq. Bütün kəndlər, bütün tarlalar və əkinlər at dırnağında tapdalanıb tələf oldu. Xudafərindən, Əlibəyli və Əbubəkr kəndlərinə qədər yaşıllıqdan bir əsər də yoxdur. Lakin körpüdən Bacərəvan altına qədər heç bir kəs rastımıza çıxmadı, əhali kəndləri və yurdları boşaldıb köçmüşdü.

Hüsaməddin sözünü burada saxladı. Atabəy isə tələsik və həyəcanlı bir sual da verdi:

– Sonra?!

– Nəhayət, Əbubəkr kəndi ilə Əlibəyli kəndləri arasında olan düzəngahda düşmənin təxminən üç min atlıdan ibarət bir dəstəsinə rast gəldik, onlar bizə heç gözləmədiyimiz tərəfdən hücum etdilər.

– Sonra necə oldu?

– Sonra da gün çıxandan başlayıb gecənin qaranlığına qədər qılınc davası davam etdi. Hər iki tərəf böyük tələfat verdi.

Atabəyin səbri tükəndi və bədəni titrəyə-titrəyə soruşdu:

– Qərargah kimin əlində qaldı?!

– Qərargahda insan meyitlərindən başqa nə var idi ki?! Bir də burasını nəzərə almaq lazımdır ki, bu qədər az bir qüvvətlə irəli hərəkət etmək mümkün ola bilməzdi. Buna görə də dəyərli bir qüvvə aparmaq üçün əlahəzrətin hüzuruna gəldim.

Atabəy acıqlandı:

– De görüm hazırda sənin ordun haradadır?!

– Müharibə edə-edə çəkildik. Başqa cür ola bilməzdi. Hazırda ordudan salamat qalanlarla yüngül yaralıların Araz çayının cənub sahilindədir.

– Demək ki, aranlılar sizi Araz çayına qədər döyə-döyə qaçırıbdır?



– Bəli, vuruşa-vuruşa çəkilmişik.

Atabəy öz-özünə?

– "Bəli, vuruşa-vuruşa çəkilmişik" – dedikdən sonra Hüsaməddinə tərəf dönüb qışqırdı:

– Rədd ol gözümdən, get əmrimi gözlə! – dedi.

Hüsaməddin təzim edib dalı-dalı çəkildi, pilləkənlərdən düşüb getdi. Atabəyin "rədd ol!" – deyə qışqırması Qətibənin tapşırdığı gizli vəzifəni ona xatırlatdı. İndi o, Atabəy Məhəmmədə qarşı yalançı bir sui-qəsd deyil, həqiqi bir sui-qəsd hazırlamaq qərarına gəldi.

## GÖZƏL

Payız idi, yaşıl yarpaqların rəngi ölümə gülən və son dəqiqələrini keçirən bir xəstənin yanaqları kimi saralırdı. Qızıl güllərin tac qoyub bahar taxtına əyləşdiyi yaşıl budaqlarda acı tikanlardan başqa bir şey görünmürdü.

Daima gül budaqlarının kölgəsində nazlanan yuvasız bülbüllər xəzan yağışlarının acısını hiss edir və laqeydanə həyatın zəhərlərini içməyə və tənhalıqdan inləməyə başlamışdı. Şaxəsindən qopan yarpaqlar öz müqəddəratını xəzan küləklərinə tapşırıb heçliyə doğru uçub gedirdi. Çiçəklərin zərif yarpaqları, heyvanların dırnaqları altında çeynənirdi. Çinardan fırlanıb ayaq altına düşən yarpaqlar bir dilənçinin əli kimi beş barmağını açıb yalvarırdı.

Xəzan fəslinin bu kədərli günlərində Atabəy Məhəmmədin böyük ordusu Araz çayından keçib Şimali Azərbaycana doğru irəliləyirdi.

"Cahan Pəhləvan" ləqəbini daşıyan bu hökmdarın dəhşətli bir ordu ilə Təbrizdən hərəkət edib çayı keçməsi, Şimali Azərbaycana ciddi bir təsir bağışlamışdı.

Aranlılar Atabəy Məhəmmədi Kür çayının kənarında qarşılayıb bir meydan müharibəsi verməyi qərara almışdılar.

Atabəy qədəm qoyacağı hər qarış yeri öyrənə-öyrənə və tam bir ehtiyatla hərəkət edirdi. Payızın şiddətli yağışları Atabəy ordusunun sürətlə hərəkətinə imkan vermirdi.

Ordu Qarabağdan hərəkət edərək on iki fərsəng məsafədə olan Canpolad kəndinin ətrafında qərargah qurmuşdu. Yağışların şiddəti Atabəyin çadırda yaşamasına imkan vermirdi. Buna görə də Atabəy üçün Canpolad kəndində gözəl və iki mərtəbəli bir binada mənzil hazırlamışdılar.

Atabəy Canpolad kəndinə gəldiyi zaman təəccüb edirdi, çünki Qarabağdan Arana gedən yolun şərq tərəfində düşən bu kənd Atabəyin hökm sürdüyü məmləkətlərdə yeganə bir kənd idi. Kəndin diqqəti cəlb edəcək cəhətlərindən birisi də bütün binaların iki mərtəbəli olması və bir quruluşda tikilməsi idi. Küçələr olduqca təmiz, daş döşəməli, iki tərəfdən axan suların üstü örtülü idi. Küçələrdəki iki cərgə söyüd ağacları bir biçim və bir ölçüdə idi. Atabəy kəndə girdiyi zaman onu çiçək və reyhan qoxuları qarşıladı. Hətta onun qarşısına çıxan kəndlilər də başqa kəndlərdə təsadüf etdiyi kəndlilərə bənzəmirdi. Xüsusən qadınların kişilərdən qaçmaması və onların tamamilə bir-birinə bənzər libasda olması da Atabəyin diqqətini cəlb edirdi.

Ordunun böyük bir hissəsi Canpolad kəndindən keçib Bazarcuq və Bərdə tərəflərinə qədər irəlilədiyinə baxmayaraq, Atabəyin bhü Canpolad kəndində istirahətə məşğul olub, Gəncəyə hərəkət etmək üçün yağışların dayanmasını gözləyirdi.

İyirmi gündü ki, Atabəy Canpoladın evində idi. O, hər gün öz xidmətində təzə adamlar görürdü. Hər gün süfrəni başqa qızlar və başqa gəlinlər hazırlayırdı. Eyni zamanda bunların hamısı da, gözəl, təmiz və mədəni idi, bir biçim, bir keyfiyyətli libas geyirdilər.

Atabəyin fikrincə, onun süfrəsinin yeməyini hər gün bir evdən gətirirdilər. Hətta Atabəy elə düşünürdü ki, yekrəng və yeknəsəq libaslar da Atabəyə xidmət edən qadınlar üçün xüsusi olaraq tikdirilmişdir.

Atabəy naharda və şamda cürbəcür adamlar gördüyü üçün iyirmi gündən bəri kimin evində yaşadığını bilmirdi.

Kənddə Atabəyin diqqət nəzərini cəlb edən bu mədəniyyət, kəndin talandan xilas edilməsinə səbəb olmuşdu. Atabəyin əmrinə görə qoşunun kəndə girməsi qadağan edilmişdi.

Atabəy xəbərdar olmasa belə, yaşadığı evin sahibi Canpolad adında yaşlı bir kişidən, bir qız, bir də qadından ibarət idi.

Ailə Atabəy yaşadığı evin qarşısındakı bağçanın axırındakı bir mərtəbəli üç otaqda yaşayırdı. Bu da göstərirdi ki, bu müəmmalı kəndin əsas adətlərindən birisi də ailə başına bir otağın mövcud olmasıdır.

Atabəy tez-tez yaşadığı evin qarşısındakı bağçaya çıxıb gəzirdi. Həyətin xiyabanlarında cərgə ilə bitən ağacların hamısı payızda yetişən meyvələrdən ibarət idi.

Həyətdəki payızı armud, heyva və cürbəcür meyvələr Atabəyin heyrətinə səbəb olurdu. Hər gün nahar süfrəsinə verilən üzümlər otaqların qabağındakı meynələrin torbaya tikilmiş üzümlərindən idi.



Atabəyin yaşadığı binada insanın ehtiyacı üçün hər nə lazımsa var idi, onlar zəngin olmasa belə təmiz və mədəni idi.

Atabəy kimin evində və nə şəraitdə yaşadığını öyrənməyə çalışırdı, çünki iyirmi gündən bəri onun özü və adamları burada yeyib içirdi. Buna görə də kimi mükafatlandırmaq lazım gəldiyini bilmək lazım idi.

...Gecə idi. Ev sahibinin qızı daş döşəməli xiyabanla gəlib odun anbarından odun götürmək istəyirdi. Hamı yatmışdı, cınqırını çəkən yox idi. Bağçada bir səs varsa, o da xəzan yağışlarının yarpaqlara düşüb səslənməsindən və kədərli bir musiqi tərənnümü təşkil etməsindən ibarət idi. Arabir su ilə dolmuş yarpaqlar qopub qızın başına düşür və qızın açıq saçlarını isladırdı.

Bağçada, hətta Atabəyin yatdığı binanın həyətində bir kimsə görünmürdü. Atabəyin keşikçiləri də yağışdan qorunmaq üçün öz otaqlarına girib uyumuşdular.

Ev sahibinin qızı Atabəyin yatdığı binanı keşikçisiz görüncə mat qaldı, öz-özünə: – nə qədər böyük ehtiyatsızlıq! – dedi.

Əcəba, böyük bir ordu ilə böyük xalqın müharibəsinə gedən hökmdarı keşikçisiz buraxmaq yararmı? Bu vəziyyət qızı düşündürürdü. O, tut ağacının altında durub həyətə baxırdı. Qız əvvəlcə Atabəyin köçüb getdiyini zənn etdi və qayıdıb atasına xəbər vermək istədi. Bir ayaq səsi eşidib dərhal tut ağacının arxasında gizləndi. Keşikçilərin otağından bir nəfər əlində qılınc dışarı çıxıb bir neçə baş o tərəf bu tərəfə gedib boylandı və kimsəni görmədiyindən yenə də qayıdıb keşikçilərin otağına getmək istədi. O, odun anbarının yanından keçdiyi zaman, anbardan üç nəfər çıxıb daldan keşikçinin başına palaz atıb anbara çəkdilər.

Onlar keşikçini anbara çəkdikdən sonra birisi dışarı çıxıb keşikçilər yatan otağın qapısını dışarıdan bağlayıb yenə də anbara qayıtdı. Qız bu hadisəni görüncə başında tükləri qabardı, vücudunun damarları çəkişməyə başladı. O yaxın dəqiqələrdə bir təhlükə baş verəcəyini təyin edərək bir an düşündü, özünü heç də şaşırmadı. Öz-özünə: nədən qorxursan? – deyərək əlində iti balta olduğu halda tələsik gəlib odun anbarının qapısını daldan bağladı və Atabəyin yatdığı otağın qapısına gəlib dəli adamlar kimi qapını döyməyə başladı.

Atabəyin otağında işıqlar yandı. Lakin Atabəy qapıya gəlməkdən çəkindi, çünki qapını adi bir surətdə döymürdülər. Atabəy dayanıb düşünürdü, orduya şəbxun vurulduğunu xəyalına gətirmirdi, çünki Xudafərin körpüsündən Bərdəyə qədər onun qoşunlarının əlində idi.

Qapı bir daha dəhşətlə vuruldu. Atabəy qılıncını siyirib qapının dalısına gəldi və soruşdu:

– Qapını döyən kimdir?

– Hökmdar, qapını açın.

– Sən kimsən?

– Ev sahibinin qızıyam.

– Nə üçün gəldin?

– Hökmdar, sizi bir təhlükə gözləməkdədir. Qorxmayın, qapını açın.

– Nə kimi təhlükə?

– Təfsilat verməyə vaxt yoxdur. Nədən qorxursunuz? Mən bir nəfər qızam. Aç qapını. Vaxt keçir, təhlükə burnunun ucundadır.

Atabəy siyirmə qılınc qapını həyəcanla açdı. Qapıda uzunboylu bir qızı əlində balta görürkən təkan yedi, qızın onu öldürmək üçün gəldiyini zənn edərək qılıncını qaldırıb vurmaq istədikdə qız baltanı qılıncın qarşısına tutub vüqarla dedi:

– Tələsmə hökmdar, yaxşılığa qarşı yamanlıq böyük adamlar üçün nöqsandır. Mən səni öldürmək üçün yox, ölümdən qurtarmaq üçün gəlmişəm.

Atabəy əlini saxlayıb təəccüblə soruşdu:

– Məni ölümdən qurtarmaq?!

– Bəli, ölümdən qurtarmaq. Uzun danışmağa vaxt yoxdur. Keşikçinin başına palaz atıb odun anbarına apardılar. Qapını dışarıdan bağlamışam, canilər anbardadır. Keşikçilər yatan otağın qapısını eşikdən bağlayıblar.

Atabəy yenə də eşiyə çıxmağa tərəddüd edirdi.

Nəhayət, qız acıqlanaraq:

– Nə üçün dalımca gəlmirsiniz?! Siz elə zənn etməyin ki, ev sahibi öz qonağına xəyanət etmək istəyir.

Atabəy dışarı çıxmaq istəmirdi, onun fikrincə, qız onu aldadıb həyətə çıxaracaq, onu həyətdəkilər tutub istədikləri tərəfə aparacaqlar. Atabəy bu hadisənin aranlılar tərəfindən düzəldilmiş bir sui-qəsd olduğunu zənn edirdi. Atabəy keşikçilərin həyətdə görünməməsini və öz otaqlarına qapanıb yatmalarını müəyyən bir tapşırıqla əlaqədar hesab edirdi. Atabəy bu fikirlə də içəri qayıdıb qapını daldan bağlamaq üçün hazırlanırdı.

Qızın səbri tükəndi və bir daha:

– Nə üçün öz həyatınızın təhlükədən qurtarmasına çalışmırsınız? İndi onlar anbarı yarıb həyətə çıxar və sizi burada məhv edərlər, – dedikdə Atabəy:



– Sən get keşikçilərə xəbər ver, – dedi. Qız da onun üzünə tərs-tərs baxıb istehza ilə söylədi:

– "Cahan Pəhləvan!.." Bilmirəm hansı bir cəsarətiniz üçün Cahan Pəhləvan adını daşıyırsınız.

Qız bu sözləri deyib qayıtmaq istərkən Atabəy də qızın sözlərindən utanıb onunla bərabər dışarı çıxdı. Onlar əvvəlcə keşikçilərin otağının qapısını açıb ayağa qaldırdılar, keşikçilər Atabəyi görərkən özlərini şaşırdılar. Atabəy isə:

– Tez olun odun anbarını mühasirəyə alın, orada hər kəs varsa, həbsə alıb mənə xəbər verin, – deyib otağına qayıtdı.

Atabəy yenə bu hadisədə qızın iştirak etdiyini və bu hadisəni törətməklə onu evdən köçürməyə çalışdıqlarını zənn edirdi. Buna görə də keşikçibaşıya belə bir əmr verdi:

– Qızı da, ata-anasını da həbsə alarsınız, sabah anbardakılarla bir yerdə hüzura gətirərsiniz, – dedikdə qızı həbsə aldılar. Lakin onu həbsə aparırkən Atabəyə tərəf dönüb acı bir tərzdə dedi:

– Ürəyimi bir padşah ürəyi kimi ölçəcəyinizi bilsəydim, sizi bu ölümdən qurtarmazdım, – deyərək keşikçinin qarşısına düşüb getdi.

Atabəy gənc qızda gördüyü bu cəsarətdən heyrətə düşmüşdü. Bir nəfər kəndli qızının hökmdara "Bilmirəm hansı bir cəsarətiniz üçün Cahan Pəhləvan adını daşıyırsınız"... – deməsi hökmdarın ömründə birinci kərə eşitdiyi sözlərdən idi. Hökmdarı sonra da qızın "Ürəyimi bir padşah ürəyi kimi ölçəcəyinizi bilsəydim, sizi bu ölümdən qurtarmazdım" – deməsi düşündürürdü. Hökmdar o qızın adi bir qız deyil, qəhrəman bir qız olduğunu öz-özünə söylədi. Lakin Atabəy onu qaranlıqda görmüşdü. Qızın yalnız səsini və boy-buxununu xatırlaya bildi. O, qəlbində: bu qız qəhrəmanlığı qədər gözəlliyə malik olsaydı, bir kəndli qızı olduğuna baxmayaraq mən buna evlənərdim – deyirdi. Yarım saatdan sonra, keşikçibaşı gəlib Atabəyə hadisə barəsində məlumat verib dedi:

– Anbardakılar səkkiz nəfər idi. Keşikçini anbara gətirən kimi öldürmüşlər. Əvvəlcə bizə təslim olmadılar, qaranlıqda qanlı vuruşma başlandı. Nəhayət, onlardan beş nəfər öldü, bizdən isə yeddi nəfər ölüb, beş nəfər yaralandı. Onlardan diri qalan üç nəfər həbsə alınmışdır.

– Gedib yanıma gətirin!

Beş dəqiqədən sonra üç nəfəri gətirdilər. Onların birisi əlindən, ikincisi boynundan, üçüncüsü başından yaralı idi. Atabəy onları bu şəkildə görüncə keşikçibaşıya əmr etdi:

– Bunların yaralarını bağlamaq lazımdır. Aparıb yaralarını bağlayın, libaslarını dəyişdirin, sonra da istintaq üçün hüzuruma gətirin.

Yaralıları apardılar. Atabəy fikrini dəyişdi və bu sui-qəsdi öz-özlüyündə təhlil edərək: "Bu sui-qəsdi ancaq azərbaycanlılar düzəldə bilər. Hərgah Arana girə bilərsəm, ölkənin daşını daş üstündə qoymayacağam" – deyirdi. Caniləri gətirdilər. Atabəy onlara sual verdi:

– Hara adamısınız?

Onların ikisi danışa bilmirdi, çünki yaraları olduqca ağır idi. Bunun üçün də Atabəy onların yerə oturmalarına əmr verdi. Yalnız əlindən yaralanmış olan Atabəyin sualına cavab verdi:

– Bizim üçümüz də Nəhavənd mahalından Bidustan şəhərinin Ağqələ kəndindənik.

– Hansı bölükdənsiniz?

– Nəhavənd focundan.

– Atlısınız, ya piyada?

– Xeyr, üçümüz də atlıyıq.

– Beş nəfər ölən yoldaşınızı da tanıyırsınızmı?

– Beş nəfər ölənin üçü yenə də Nəhavənd focundandır, lakin iki nəfərin haradan olduğunu bilmirik.

– Nə üçün bura gəlmişdiniz?

– Focumuzun rəisi bizi həmin ölən yoldaşlardan birisinin sərəncamına vermişdi.

– Rəis sizə nə kimi vəzifə tapşırmışdı?

– O bizə demişdi ki, bu adam hər nə əmr edərsə yerinə yetirməlisiniz.

– Siz ondan heç bir şey eşitmədinizmi?

– Eşitdik. Dedi ki, Atabəyin düşmənlərini öldürməyə gedirik.

– Atabəy kimdir?!

– Qızıl Arslan.

– Sizin hər birinizə nə qədər pul verdilər?

– Heç bir şey vermədilər, dedilər ki, Qızıl Arslan hər birinizə bir kənd verəcəkdir.

Atabəy dərhal atlı göndərib Nəhavənd focunun rəisini yanına çağırmaq əmrini verdi. Lakin Nəhavənd focunun harada olduğu məlum deyildi. Atabəy dərhal Hüsaməddini hüzuruna çağırıb focun harada durduğunu soruşdu. Hüsaməddin focun Qarabağdan üç fərsəng məsafədə olan Mir kəndində yerləşdiyini xəbər verdi. Atlılar sürətlə yola düşüb Mir kəndinə getdilər.



Atabəy müqəssirləri danışdırdıqdan sonra qızın və ailəsinin bu hadisədə təsirli olmadığını təyin edib onları həbs etdirdiyindən utandı və keşikçibaşından soruşdu:

– Qız və onun ailəsi haradadır?

– Öz evlərindədir. Qapıda adam qoyub dışarı buraxılmamalarını tapşırmışam.

– Onları azad buraxın, müqəssirləri saxlayın, yaralıların ölmələrinə imkan verməməyə çalışın, bununla xəyanətin izini itirə də bilərsiniz.

Otaq boşaldı. Atabəy yorğan-döşəyə girdi, lakin o, heç bir zaman o cəsarətli qızı və onun dediklərini unuda bilmirdi. Xüsusən o qaranlıqda qızın çöhrəsini görə bilmədiyi üçün ona cürbəcür şəkil verir, lakin yenə də qəti bir qərara gələ bilmirdi. O gözəldirmi? Çirkindirmi? – deyə düşünürdü. Lakin qızın səsi daima onun qulaqlarında cingildəyir, sanki tez-tez:

"Bilmirəm hansı bir cəsarətiniz üçün Cahan Pəhləvan adını daşıyırsınız" – deyirdi. Atabəy bu düşüncələrdən sonra yenə də öz-özünə: – "Hərgah azərbaycanlıları bu kimi qəhrəman analar doğmuşdursa, mən onlara qalib gələ bilməyəcəyəm" – deyirdi.

Gecə yarıdan səhərə qədər Atabəy bu fikirlərlə yatağın içində o tərəf bu tərəfə dönür və tez-tez pəncərəyə baxaraq səhərin nə vaxt açılmasını gözləyirdi. O qızı bir daha görmək üçün tələsirdi. Lakin buna ümid yox idi. Çünki qızın yaxşılığına qarşı yamanlıq etmişdi.

Gündəki vaxtında yatağından durdu, yıxanıb qurtaran kimi qapı açıldı. Atabəy üçün səhər yeməyi gətirildi. Qız yenə də adət üzrə Atabəyə xidmət etməyə başladı. Atabəy gözünün guşəsi ilə qızı diqqətlə süzürdü. Atabəy qızın acıqlı olmadığına güvənərək ona sual verdi:

– Sənin adını soruşmaq mümkündürmü?

Qız başını yuxarı qaldırıb Atabəyin üzünə baxıb cavab verdi:

– Hərgah hökmdar, məmləkətində yaşayan bütün qızların adını öyrənməyə başlarsa, başqa işlərə vaxtı çatmaz.

– Səni başqaları ilə müqayisə etmək yaramaz. Əvvəla, mən burada iyirmi gündən bəri yaşayıram, sizdən hesaba gəlməz məhəbbətlər görmüşəm, ikincisi də budur ki, sən məni ölümdən xilas edibsən.

– Adımla özümün arasında böyük bir fərq vardır. Özüm adıma oxşamadığım üçün adımı deməkdən utanıram.

– Yəqin ki, adın çirkindir. Çünki özün olduqca gözəlsən.

Qız başını divara tərəf çevirib utana-utana dedi:

– Adım Gözəldir.

Atabəy qıza bir daha diqqətlə baxaraq yavaşdan:
– Doğrudan da gözəlsən, – dedi.
Gözəl səhər yeməklərini süfrəyə düzərək Atabəyin xidmətində durmuşdu. Atabəy əlini yeməkdən çəkərək:
– Sən o kürsünün üstündə oturmasan, mən yemək yeməyəcəyəm, – dedikdə, Gözəl birinci təklifdə kənarda qoyulan kürsünün üstündə oturdu.
Atabəy bacardıqca yeməyin uzun çəkməsinə çalışırdı, çünki yemək qurtaran kimi qız süfrəni yığıb gedəcəkdi, o bir də qızı ancaq nahar yeməyi vaxtında görəcəkdi. Səhər yeməyindən sonra Atabəy qoşun sərkərdələrini qəbul edəcəkdi, buna görə də qızı öz yanında çox saxlamağa çalışırdı. Qızın özü də bunu anlamışdı, çünki Atabəyin gözü qızda olduğu üçün nə yeyib, nə içdiyini şaşırmışdı. O, şirin və dadlı xörəkdən götürmək istərkən əlini duz qabına, istiota uzadırdı. Gözəl isə Atabəyin bu vəziyyətini gördüyü zaman qəlbən gülürdü. Atabəy bütün qüvvətini gözlərinə yığıb qızı ölçüb-biçirdi. Gah qızın uca boyuna, nazik və eyni zamanda mütənasib əndamına, gah da nar gülünün yarpağından incə və qırmızı dodaqlarına, dar ağzına, yumru gözlərinə, ağlı-qırmızı və ətli yanaqlarına, ənbər və şəvədən qara saçlarına, kiçik və ətli əllərinə baxaraq varlığını uduzmağa başlayırdı.
Atabəy ona sual verdi:
– Sən gecə o qorxulu zamanda bu həyətə nə üçün gəlmişdin?
– Anbardan odun aparmaq üçün gəlmişdim. Atam xəstə idi, evi qızdırmaq lazım idi.
– İndi necədir? Atanın səhhəti yerindədirmi?
– Atabəyin dövlətindən, həbsə alındığı saatdan bəri səhhəti düzəlmişdir.
– Hadisə insanlar üçündür. Lakin səndən çox razıyam. Məni ölüm təhlükəsindən xilas etdin.
– Bu barədə heç bir razılıq lazım deyil. Çünki bu mənim borcum idi. Bu borc padşahla əlaqədar deyildir. Burası elin adətləri ilə əlaqədardır. Çünki adətimizə görə qonağın müdafiəsi ev sahibinin vəzifəsidir. Hərgah başqa evdə olsaydınız, bəlkə də sizi müdafiə etməzdim.
– Nə üçün, siz hökmdarı sevməyirsinizmi?
– Çünki hökmdar da bizim xalqımızı sevmir.
– Bunu sənə kim söylədi?
– Bunu mənə dağılan kəndlər, yandırılan evlər, tüstüləyən xanımanlar, talan olan şəhərlər, ayaqlanan tarlalar anlatdı. Bunların hamısı hökmdarın azərbaycanlıları sevmədiyini göstərir. Mən sizi ölümdən qurtardığım üçün özüm və ata-anam həbsə alındı.



Atabəy qızın qəlbini ələ gətirmək üçün dedi:
– İncimək lazım deyil. Hökmdar hər kəsə inana bilməz. Bir qızın vasitəsilə məni həyətə çağırıb öldürə də bilərdilər. Həyat məsələlərində diqqətli olmaq lazımdır. Lakin bunu sənə də məsləhət görürəm. Bir yaxşılığa qarşı göstərdiyim nəzakətsizliyi unut. Sənin atanı da, ananı da çağırıb üzr istəyəcəyəm. Evinizdən aldığım gözəl xatirələr mənim həyat tariximdə unudulmayacaqdır. Xüsusən, mən gözəl qızı heç də unuda bilməyəcəyəm. Bu qədər gözəl qızdan və bu mədəni mənzərədən ayrılmaq mənim üçün bir taxt-tacdan ayrılmaq qədər çətin olacaqdır.
Qız heç də danışmırdı. Hökmdar sanki sözlərini divar və divardakı pərdələrə deyirdi. Buna görə də padşah qıza sual verdi:
– Əcəba, mənim sənə vədə verdiyim böyük bir mükafat səni razı salarmı? Sən dünyanın məşhur bir xanımı olmağı istərsənmi?
Qız yemək şeylərini yığmaq istərkən, etinasız bir tövr alaraq dedi:
– Hər kəs öz damının altında xanımlıq qurmaqla xoşbəxt ola bilər, hər kəs öz qazandığı ilə mükafatlansa daha yaxşıdır.
– Sən mükafatı qazanmışsan.
– Mən bir mükafata səlahiyyətdar olsam belə, siz mənə verəcəyiniz mükafatı özünüz qazanmamışsınız.
Hökmdar bilməlidir ki, mükafat almaq olar, lakin hər kəsdən yox. Bir az əvvəl xain və qatil hesab etdiyiniz qız, hansı bir vicdanla sizin mükafatınızı qəbul edə bilər?!
Önünüzdə duran qız sizin qapınızı elə bir xain fikirlə döysəydi, hökmdarı həyətə çağırmaq lazım deyildi. Siz qapını açan kimi mən sizi öldürərdim. Heç kəs də bilməzdi.
– Sən dünən gecə mənə dediyin sözlərindən indi peşman olursanmı?
– İnsan düşünərək deyilən sözdən peşman olmaz.
– Sənə Gözəl adını kim qoyubdur? Bu ad sənin üçün nə qədər uyğundur. Körpə ikən onlar sənin bu qədər gözəl qız olacağını haradan bilmişlər?
– Atam və anam qoymuşdur. Burada bir çətinlik yoxdur. Onlar kəndlidir, nə əkib, nə biçdiklərini bilirlər.
– Sən olduqca gözəlsən. Xasiyyətin daha gözəldir. Söylə, mən səni nə ilə mükafatlandırım? Nə üçün öz hökmdarını şadlandırmaq istəmirsən?
– Elə bilirəm ki, hökmdar mənim istədiyim mükafatı verməyə qadir deyildir. Çünki mən istədiyim hökmdarlığın əsas arzularının əleyhinədir.
– Mənim hər bir şeyə qüdrətim vardır. Hər nə istəyirsən istə, mən öz arzularımı da sənə qurban verə bilərəm.

– Mən istəyirəm ki, hökmdar qayıdıb öz yerinə getsin, qabaqda qış gəlir, xalqa rahatlıq versin. Bu ikinci kərədir ki, sizin ordunuz bu məmləkəti dağıdır. Bu xalqa rəhm etmək, həm xalqı, həm də məni mükafatlandırmaq deməkdir. Hökmdar buna qadirdirmi?!

– Mən xalqa rahatlıq vermək məqsədilə nadinc adamları cəzalandırmaq üçün gedirəm.

– O zaman hökmdar nadinc adamları öz ətrafına yığıb getməlidir. Siz nadinclərə də o qədər böyük ixtiyar veribsiniz ki, özünüzü öldürməyə qədər cəsarət ediblər. Hökmdarını öldürə bilənlər, rəiyyətlə dinc yola gedə bilərmi?!

Qızın sözləri Atabəyi düşündürdü, özünün nə kimi bir xalq içində olduğunu və nə kimi bir mühitin insanları ilə qarşı-qarşıya durduğunu təyin etdi. Uzun dəqiqələr aralığı sükut bürüdü, nəhayət, Atabəy qıza müraciətlə:

– Səndən üzr istəmək üçün yanıma çağırmışdım, çünki səni və ailəni rahatsız etmişdim. Eyni zamanda sənin bu qədər gözəl olduğunu bilmirdim.

Gözəl gözünün yanı ilə ona baxaraq gülümsündü və:

– Elədir hökmdar, hər şeyi bilmək bilməməkdən yaxşıdır, – dedikdə, Atabəy də:

– Bilmədiyin zaman maraqlanır, biləndən sonra da dərdlənirsən.

– Tək bir qız üçün dərd çəkməkdənsə, hökmdar öz məmləkətinin dərdini çəkməlidir. Yalnız bir qızın gözəlliyi ilə bir məmləkəti gözəlləndirmək olmaz. Bütün məmləkətin gözəl olmasının qeydinə qalın. Əlahəzrət, siz ki, gözəlliyin əleyhinəsiniz? Gözəl təbiətə malik olan Azərbaycanı dağıtmaq gözəlliyə qarşı xəyanət deyildirmi?! Araz çayı ilə Kür çayının arasındakı cənnəti at dırnaqlarında çeynədən bir hökmdar, gözəllik tərəfdarı olduğunu iddia edə bilərmi?!

– Mən atanı yanıma çağırıb məsələni ona aça bilərəmmi?

– Hansı məsələni? Azərbaycanı dağıtmaq məsələsinimi?

– Xeyr, gözəl qızın məsələsini.

– Mənə aid məsələni atamla həll etməyin nə mənası vardır? Əcəba, hökmdar mənim məsələmi həll etmək üçünmü ordu çəkib gəlmişdir?

– Sənin bu məsələni şəxsən həll etmək üçün səlahiyyətin vardırmı?

– İnsanların hamısında öz məsələsini həll etmək üçün səlahiyyət vardır. Bəzən bu səlahiyyəti insan azadlığının əleyhinə düzəlmiş qanunlar insanlardan alır.

– Kimdən tərbiyə aldın?



– Anamdan.

– Anan elmlidirmi?

– Həm elmli, həm də tərbiyəlidir.

– Anan hansı ailədəndir?

– Bilmirəm sizə nəyi deyim və kimləri anladım. Siz Azərbaycanda hansı ailəni tanıyırsınız? Şairlərdən, ədiblərdən, ziyalılardan və məşhur qəhrəmanlardan tanıdığınız adamlar vardırmı?

– Mən Azərbaycanda mötəbər şairlərdən Nizamini, Xaqanini, Əbül-Ülanı tanıyıram. Ruhanilərdən xətib Gəncəvini, əyanlardan Süleyman ibni Bərəkəti, qəhrəmanlardan isə Fəxrəddini tanıyıram.

– Son adını çəkdiyiniz zat mənim doğma dayımdır.

– Elə isə səni təbrik edirəm, xoşbəxt qızsan, səni bir daha xoşbəxt etmək istəyirəm.

– Hökmdar məni nə kimi bir şeylə xoşbəxt edə bilər?!

– Keyqubad və Firidunların tacından qiymətli olan tacımla.

Qız gülümsünərək hökmdara dedi:

– Bəlkə də hökmdar tacı çox qiymətli hesab edir, lakin məncə, onun baş üçün vediyi ağırlıq qiymətindən daha ağırdır.

– Səni Cümşidin taxtına meydan oxuyan uca taxtımla sərəfraz edərəm.

– Böyük şair Nizaminin padşahlara həsr etdiyi şeir əlahəzrətin nəzərinə çatmadımı?

Atabəy təəccüblə soruşdu:

– Hansı şeri?!

– Nizami padşahları qəflət yuxusundan ayıltmaq üçün yazdığı şeirdə deyir ki: – "Ey hökmdar, çox da taxtım-taxtım deyərək məğrur olma, əcəlin atı daima yəhərli halda durur. Hər taxtın kölgəsində bir də bir tabut vardır".

– Səni dünyanı öz ovcunun içində saxlayan bir hökmdar sevərsə, onunla iftixar etməzsənmi?

– Hansı şərtlə iftixar edərəm? Dünyanı ovcunun içərisində saxlayan qüvvət elin qüvvəti deyil, öz şəxsi qüvvəti olsaydı, iftixar edərdim. Lakin xalqın qanı və canı ilə əldə edilən qələbəyə tək-tək şəxslərin iftixar etməsi düzgün deyildir. Hökmdar xalqın qüvvətinə güvənir.

– Mən özüm də pəhləvanam. İndiyə qədər mənimlə tək-tək qarşı-qarşıya çıxanların qalib gəldiyini görməmişəm. Səni sevən zat hələlik öz qılıncını bir kimsəyə təslim etməmişdir. Mən bir ölkənin və bir məmləkətin pəhləvanı deyiləm, cahanın pəhləvanıyam.

– Məni sevməyin şərtləri vardır. Yalnız pəhləvanlıqla məsələ bitmir.

– Nə kimi şərt? Gözəl qız, onu söylə, hökmdar bu gözəlliyə qarşı bəndəlik etməyə hazırdır.

– Məni sevən, xalqımı sevməlidir. Mənim sevdiyim zat, bu xalqın düşməni olmamalıdır. Çünki mən bu torpaqda və bu xalqın içərisində doğulmuşam.

– And içirəm.

– Hökmdar bilməlidlir ki, bizim elin adətində and içib andını sındıran adamdan da düşmən adam yoxdur. Hərgah andı sındırsanız, onda necə olsun?!

– O zaman məni cəzalandırmağa haqqın vardır. İndi de görüm, atanı çağırıb danışımmı?

Atabəyin bu təklifindən sonra Gözəl heç bir söz demədi, bu sükut onun razılığı demək idi. Gözə öz qəlbində Atabəyin bu sevgisindən istifadə edib, Aran xalqını qətl-qarətdən qurtarmağı və öz xalqını xoşbəxt etməyi düşünürdü. Buna görə də Atabəyin təklifini rədd etmədi.

Qabları da, süfrəni də yığışdırıb getdi.

Atabəy öz katibi kiçik Buğanı çağırıb tapşırdı:

– Həbsə alınan caniləri möhkəm saxlayın. Mən bu sui-qəsdin Qızıl Arslan tərəfindən düzəldiyinə inana bilmirəm... Burada başqa əllərin işləməsi ehtimalı vardır. Mənim həyatımı təhlükədən qurtaran qızın xidmətini ən uca bir mükafatla qarşılamaq istəyirəm. O, həm gözəldir, həm də bir igiddir. Onun bütün varlığı hökmdara layiq bir qız olduğunu oxuyur. Qəhrəman bir nəsil yaranması üçün belə bir qadın lazımdır.

Buğa bu sözlərdən gülümsünərək hökmdara sual verdi:

– Bəs mələkə?!

– Mələkə yenə də öz mələkəliyində qalır, bu qız mələkəlik düşkünü deyildir. Elə zənn edirəm ki, mən ailə xoşbəxtliyini ancaq bu qızda tapa biləcəyəm. Bu, sözü çox açıq danışır. Bu cür qadınlarla anlaşmaq çox da çətin deyildir. Mənim mələkəm isə şübhəli bir qadındır, nə istədiyini öyrənmək mümkün deyildir. Doğrusu ki, mən mələkədən qorxuram. O mənim üçün bir təhlükədir.

İndi, gedib qızın atasını mənim yanıma çağır.

Kiçik Buğa getdi. Atabəy özünün qız haqqında fikirlərini mühakimə etməyə başladı. "Doğrudur, o bir kəndli qızıdır, lakin ədəb və mərifətcə yüzlərcə qətibələrdən üstündür.

Mənim taxt-tacım vardırsa, o da yüzlərcə taxtın zinətidir. Əgər mən dünyanın məşhur pəhləvanıyamsa, o da dünyanın adlı-sanlı gözəlidir.



Mən bütün dünyanı öz kəməndimə sala bilərəmsə, o da dünyaları kəməndinə salan bir pəhləvanı öz kəməndinə salmaq hünərinə malikdir. Əgər mənim oxumdan can qurtarmaq mümkün deyilsə, onun da qəmzəsinin oxundan qurtara bilmədim. Mənim qılınc vurmağım bütün İraq və Ərəbdə şöhrət qazanmışdırsa, onun qılıncdan kəskin dili də, daş qəlbləri deşə bilər. Onun da kaman qaşları və ox qədər iti kirpikləri vardır. Mən dünyanın qanını tökdürmüşəmsə, lakin o da öz gözəlliyi ilə böyük qanlara səbəb ola bilər...

Onun dişləri kimi inci və dodaqları kimi yaqut hansı padşahın xəzinəsində tapıla bilər?! Onun ağlı-qırmızılı çöhrəsilə müqabilə dura biləcək almaq hansı bir bağçanın ağacında bitə bilər?".

Hökmdar bu barədə çox düşündü və nəhayət, bir fal vuraraq: – "Kim bilir, bəlkə də bu təsadüf bir qələbənin başlanğıcıdır" – dedi və qalxıb otağı dolaşmağa başladı.

Kiçik Buğa ilə Gözəlin atası Canpolad otağa daxil oldu və baş endirib durdu:

Atabəy onun salamını alaraq:

– Otur, qoca, – dedi.

Canpolad qapının qabağında oturmaq istərkən Atabəy onun qolundan tutub bir az əvvəl Gözəlin oturduğu kürsünün üstündə əyləşdirdi.

Kiçik Buğa çıxıb getdi. Atabəy sözə başladı:

– Mən sizi iki işdən ötrü yanıma çağırmışam. Onlardan birisi razılıq izhar etmək, ikincisi də üzr istəməkdir. Qızın mənim həyatımı təhlükədən qurtardı, buna görə təşəkkür edirəm. Hazırda mənim həyatım sizin ailənizə minnətdardır. Eyni zamanda bu hadisədən ötrü sizi həbs etdirməyimdən üzr istəyirəm. Özünüz dünyanı görübsünüz, sizdə yaxşının və yamanın təcrübəsi vardır. Bilirsiniz ki, insana bir fəlakət üz verdiyi zaman öz mühakimə qüvvəsini itirir, dostunu düşmənindən ayırd edə bilmir. Gecənin vaxtında baş verən bu hadisə məni təbii halımdan çıxartdı, nə edəcəyimi bilmədim. Canpolad hökmdarın sözlərini təsdiq edərək dedi:

– Padşah doğru buyurdu. Lakin bu barədə üzr istəməyə gəlməz. Ola bilər ki, bizim həbs edilməyimiz padşah üçün ağır gəlir, çünki o, həbsxananın nədən ibarət olduğunu bilmir. Lakin biz kəndlilər buna öyrənmişik; çünki hökmdarın təyin etdiyi məmurlar bizi hər ayın başında həbsxanalara göndərirlər. O ki qaldı möhtərəm qonağın həyatını təhlükədən qurtarmaq, o da bizim ata-babamızdan qalmış bir vəzifədir.

Hökmdar həzrətləri, bizim xalqımızın içərisində belə bir adət vardır: hər kəsin qonağının başına bir fəlakət gələrsə, o adam öz etibarını itirər. Elə bir adamın qapısının başından tikan asmaq lazımdır. Buna görə də tikan asılan qapıdan içəri qonaq girməz. Qonaqsız adam kəndin vətəndaşlıq hüququnu itirər, onu müştərək həyata buraxmazlar, cəmiyyət içərisində nüfuzunu itirər.

Atabəy bu sözlərdən öz məqsədi üçün giriş əldə edərək Canpolada dedi:

– Mən neçə gündən bəri sizin nə qədər alicənab və nəcib xalq olduğunuzu təyin etdim. Mən sizin kimi qonaqcanlı adamlar məmləkətimin heç bir tərəfində görməmişəm. Bu hörmətə müqabil qızınızı Eldəniz ailəsinə daxil etmək və xoşbəxt eləmək istəyirəm.

Canpolad Atabəyin nə dediyini anladı və Atabəyi Canpolad kəndinin bəzi adətləri ilə xəbərdar etməklə öz arzusundan daşındırmağı düşündü:

– Böyük hökmdar! Malımızın, canımızın ixtiyarı sizdədir. Biz nökərlərin nə cürəti vardır ki, sizin əmrinizdən boyun qaçırsın, lakin mən qızın barəsində danışmaq səlahiyyətini daşımıram.

Atabəy təəccüblə sual verdi:

– Nə üçün? Məgər sən ata deyilsənmi?

– Malımızın, canımızın sahibi! Nə qədər övlad həddi-buluğa yetişməmişdir, onun tərbiyəsi bizim öhdəmizdədir. Lakin həddi-buluğa yetişəndən sonra, səlahiyyət cəmiyyətimizin ixtiyarına keçir.

– Nə kimi cəmiyyət?

– Kəndin dörd nəfər ağsaqqalı vardır. Hər ixtiyar onların əlindədir.

– Ağsaqqallar hökumət tərəfindənmi seçilmişdir?

– Xeyr, onları cəmiyyətimiz seçibdir.

– Əcəba, sizin hökumətiniz yoxdurmu?!

– Hökumətin vergilərini də haman ağsaqqallar verir.

– Bəs divan və cəza işləri kimin əlindədir?

– Bir yerdə ki, haqsızlıq, oğurluq, yalançılıq, təcavüz, adam öldürmək, bir-birini incitmək olmasın, daha orada kimlərə cəza verilə bilər?

– Biri-birinin mülkünü zorlarsa və yaxud suyunu kəsib öz bağına apararsa, onu cəzalandırmaq vəzifəsi kimin öhdəsinə düşəcəkdir?

– Burada tək-tək adamların mülkü yoxdur. Sular da, bağ-bağçalar da, zəmilər də – nə ki var, – bütün xalqın malıdır.

– Necə yəni xalqın malı?!



– Bəli, xalqınkıdır; çünki burada bağların, bağçaların sərhədi yoxdur, hər kəs torpaqda işləməlidir.

– Bəs məhsulunu kim aparır?

– Məhsul elliyindir. Hər kəs bir anbardan yeyir, bir kisədən xərcləyir, bir biçim, bir ölçüdə olan binalarda yaşayır. Mənim evimdə gördüyünüz şeylər hər kəsin evində vardır.

– Bu otaqlar ki, mən yaşayıram, kimə məxsusdur?

– Xalqındır, eyni zamanda mənimkidir. Ailədə nə qədər adam varsa, adam başına bir otağı olmalıdır. Biz üç nəfərik, üç də otağımız vardır. Eyni zamanda hər ailədə qonaq üçün əlavə iki otaq vardır.

Buradan qürbət ölkəyə qız verməк qadağandır. Kəndin qızları kəndin oğlanlarına ərə getməlidirlər. Hərgah qız oğlandan artıq olarsa və yainki qız başqa kəndin oğlunu sevərsə, o zaman oğlan gəlib bu kəndin adətini qəbul etməklə kəndin vətəndaşlığına girməlidir. Lakin bu da asan iş deyil. Ağsaqqallar haman adamın əsil-nəsəbini lazımınca öyrənməlidir. Hərgah olduğu yerində ondan və tayfasından bir yamanlıq baş verməmişsə, o zaman ağsaqqallar onun bu kəndin qızına evlənməsinə və kəndin vətəndaşı sayılmasına icazə verərlər.

Oğlanlar da bunun kimidir. Hərgah oğlan başqa yerdən bir qız sevib kəndə gətirmək istəyirsə, ağsaqqallar qızın namuslu və tərbiyəli bir qız olmasını yoxladıqdan sonra bu kəndin cəmiyyətinə daxil olmasına icazə verərlər.

Buna görə də mən elimizin adətini pozub qızımı əlahəzrətə vədə verə bilmərəm. O zaman kənddə vətəndaşlıq hüququnu itirmiş olacağam. Mən elə bilirəm ki, əlahəzrət mənim ömrümün sonlarında bədbəxt olmağıma razı olmaz.

Atabəy dərindən düşünməyə başladı. Onun görüb və eşitdiklərinin yaşadığı dünyada deyil, gözəgörünməz başqa bir aləmdə yarandığını zənn etdi. O bu xalq ilə daha artıq maraqlandı və öyrənmək istəyərək soruşdu:

– Sizin uşaqlarınız təhsilini kimdən alır? Kəndinizdə neçə nəfər ruhani vardır?

– Bizim kəndimizdə ruhani tapılmaz; çünki onlara ehtiyac yoxdur, onların deyəcəyi sözü bir kərə qədim babalarımız bizə demişdir. Bizdə günah edənlər də yoxdur ki, onları cəhənnəm əzabından qorumaq lazım gəlsin. Hərgah doğrudan da behişt vardırsa, biz ondan məhrum olmayacağıq, çünki içimizdə günah edən adamlar çox az tapılar.

Atabəy bunların müsəlman olmaları barəsində şübhələndi. Buna görə də sual verdi:

– Din məsələləri üçün başınız kimə bağlıdır?

– Biz din cəhətdən ancaq qardaşlığı tanıyırıq. Bu barədə əxlaq tərbiyəmizi Əxi Fərrux[1] Zəncani həzrətlərindən alırıq.

– Siz müsəlman deyilmisiniz?

– Bizim xalqımızın içərisində din ancaq əxlaqdan ibarətdir. Əxlaq dərsinin əsası isə Əxi Fərrux göstərən qardaşlıq yolundan ibarətdir. Bizim bütün diqqətimiz dünya işlərinədir. Sənət, musiqi, şeir, təmizlik, sədaqət, doğruluq ən sevdiyimiz işlərdəndir.

Atabəy yenə də bunların nə din və nə əqidədə olduqlarını təyin edə bilmədi. Lakin bu cəhət onun məqsədinə manea törədə biləcək cəhətlərdən deyildi. Buna görə də o, söhbəti yenə də Gözəl məsələsinin üzərinə çəkib dedi:

– Bunların heç birisi, mənim sizin ailənizi şərəfləndirmək məqsədlərimə bir manea törətməyi bacarmaz. Mən sizin həyatınızla maraqlanıram, buna görə də icazə verin mən də bu həyatda sizinlə bərabər iştirak edim.

Canpolad yenə də Atabəyin arzularından boyun qaçırmaq məqsədilə dedi:

– Mən elə bilirəm ki, əlahəzrət qızın xasiyyəti ilə tanış olursa, öz fikrindən daşınar. Doğrudur, qız gözəldir. Lakin onunla bir ailə düzəldib yaşamaq mümkün deyil. O heç bir zaman kişiyə itaət etməz. Doğrudur, qızdır, lakin kişilik iddiasındadır. Peşəsi at minmək, qılınc, nizə oynatmaq, ox atmaq, mizraq işlətməkdir. Nədənsə, cəmiyyətimiz ona qadınlıqdan tələb olunacaq şəkli verə bilmir.

Zənnimcə, qızın burdan getməsinə kəndimizin xalqı da razı olmaz; çünki bu qız ərsəyə gələndən bəri bu kəndə bir nəfər də olsa oğru ayaq basa bilməmişdir. Bu igid qızın səbəbinə bizim yaylağımızdan bir quzu aparan olmaz. Bunun üçün də əlahəzrət məni həbsə aldığı zaman o dedi ki, bu həyatə azərbaycanlı girməz, bu evə girənlər yabançılardır.

Atabəyin marağı daha da artdı və qəlbində:

"Belə bir qızı əldə etmək zəngin bir məmləkət əldə etməkdən daha qiymətlidir", – dedi.

Canpolad da, Atabəyin özü də oturub düşünürdülər.

[1] Əxi Fərrux böyük şair Nizami ilə müasirdir. O məşhur bir təriqət rəhbəridir. Onun başqa bir adı vardır. Əxi sözü qardaş deməkdir. Fərrux isə onun daşıdığı təriqətin adıdır. Babəkin yolunu davam etdirənlərə "fərruxiyyə təriqətini daşıyanlar" adı verilirdi. Çünki Babəkin ləqəbi "Babək-Fərrux" idi (*"Atəşgədəyi" Lütfəli bəy Azər*).



Atabəy qəlbində deyirdi ki: "Əsası çürümüş xəlifə ilə qohum olmaqdansa, gözəl, igid, dilli, mərifətli bir kəndli qızına evlənmək daha yaxşıdır. Bir halda ki, qızın dayısı da Fəxrəddindir. Mən onunla qohum olandan sonra Aran məsələsini həll etmiş olacağam".

Atabəy çox düşüncədən sonra bir daha Canpolada müraciət edib dedi:

– Mən sizin adət və əqidənizi qəlbən sevirəm. Sizin qızınızı xoşbəxt edəcəyimə and içirəm.

– Mənim qızım onsuz da xoşbəxtdir. Gözəlin canına yalandan and içən hər kəs olursa olsun, bu kənddə yaşaya bilməz. Bir kəsi inandırmaq üçün ancaq Gözəlin canına and içmək lazımdır. Mən bilmirəm, Gözəlin özü hökmdardan belə bir andı tələb etdimi?

– Bəli, Gözəl özü bu andı məndən tələb etdi, mən də and içdim.

– Əcəba, böyük məmləkətin padşahı, bu kiçik kənddə yaşamağa və buranın vətəndaşlığına girməyə razı olacaqmı?!

– Mən bu kəndin vətəndaşı olandan sonra kənd tamamilə dəyişəcəkdir. Mən hər yerə getsəm, yenə də bura qayıdacağam. Gözəli bu kəndin əlindən almamağa söz verirəm və onun canına and içirəm.

– Mənim etirazım yoxdur, məsələni qızın özü və ağsaqqallar həll etməlidir.

– Elə isə siz ağsaqqalları mənim yanıma çağırın. Qoy onlar bura gəlsinlər, mən onlarla danışaram, sonra qızı da çağırarsınız. Zənn edirəm ki, qızın razılığı vardır.

– Bilmirəm qıza evlənmək üçün bizim adətləri qəbul edə biləcəksinizmi?

– Qəbul edəcəyəm.

– Qəbul etsəniz belə, yerinə yetirə bilməyəcəksiniz. Hərgah siz bir kəndli və bir sadə rəiyyət olsa idiniz, bəlkə də adəti-şərtlərimizi yerinə yetirə bilərdiniz. Şərtlərimizdən birisi budur ki, xaricdən bura evlənmək və kəndin vətəndaşlığını qəbul etmək üçün gələn adam bizim müqəddəs mirasa belə bir and içməlidir:

"Mən and içirəm ki, nə qədər ömrüm və həyatım varsa, dünyada heç bir kəs nə əlimdən, nə dilimdən və nə də fikrimdən inciməyəcəkdir".

Əcəba, padşah olan bir adam belə bir anda əməl edə bilərmi?

Atabəy heç də düşünmədən:

– Edə bilərəm. Mən öz nəslimi bu nəslə calamaq üçün hər bir çətinliyə qatlaşa bilərəm, – dedikdə Canpolad da:

– Nəslimiz Atabəyi razı sala biləcək bir nəsil deyildir. Bəlkə də siz bizim keçmişimizi öyrənərkən bizə nifrət bəsləyəcəksiniz.

– Əcəba, bu qədər nəcib və alicənab adamların nəslinə nifrət bəsləmək üçün kimə icazə verirlər? Danışın, məndən çəkinməyin, hər kəs nə dində olursa olsun, yenə də mənim rəiyyətimdir.

Canpolad qorxa-qorxa öz kəndinin və nəsillərinin keçmişi haqqında danışmağa başladı:

– Bilmirəm, bu kəndin şərqindəki dağla əlahəzrət məşğul olmuşdurmu? O dağa qədimdən "Çoban-Qaya" dağı deyirlər. Bu dağ suları, çəmənləri, otlaqları və bulaqları ilə məşhurdur. Bələqandan Qarabağa gedən karvanlar həmin bu dağdan aşıb getməlidir. Yaxın kəndlərin mal-qarası yayı başa-baş burada bəslənirlər. Vaxtilə bu dağlarda Qaya adlı bir çoban qoyun otararmış. Günlərin birində Qaya öz qoyunlarını suvarmaq üçün Nəsib çeşməsinin başına gətirdiyi zaman çeşmənin yaxınlığında bir ağlamaq səsi eşidir. O səs Qayanın fikrini məşğul edir, qoyunlarını buraxıb səs gələn tərəfi axtarır və o hiss edir ki, bu səs uşaq səsidir.

Qaya çoban bu cür hadisələrə tez-tez təsadüf edərmiş; çünki el köçdüyü zaman uşaqların köçdən düşüb qalması çox da təəccüblü iş deyildi. Qaya bir neçə saat gəzəndən sonra daşların arasında təmiz yorğana bürünmüş bir uşaq qoyulduğunu görür. Çoban uşağı götürürkən hər şeyi unudur, qoyunları çeşmənin başında buraxıb karvana yetişib uşağı vermək üçün tələsir. O, dağdan düşüb həmin bu kəndin yerində olan dörd evli binəyə gəlir, uşağı qadınına göstərir. Qadını uşağı yorğandan açıb baxdığı zaman, uşağın belinə bağlanmış qırmızı bir ipək dəsmal və dəsmalın içərisində bir qədər qızıl, bir çox da qiymətli daşlar olduğunu görürlər. Qaya bu qızılları və daş-qaşı gördüyü zaman uşağı karvana yetirmək fikrindən daşınır. Qızılları və qiymətli daşları, hətta dəsmalda olan yazılı bir kağızı haman ipək dəsmala bağlayıb balaca bir qutuda gizlədirlər.

Onlar bu sirri bir kimsəyə bildirməmək üçün kağızı da heç bir kəsə oxutmaq istəmirlər. Onlar uşağın adını Canpolad qoyub bəsləyirlər.

Uşaq on səkkiz yaşına çatdığı zaman öz Gözəl adında qızlarını da Canpolada verirlər.

İllər uzunu oğlanla qız qocalmış çobanı əvəz edib dağlarda qoyun otarırlar. Onların bir neçə uşaqları da olur. Qaya çobanın yaşadığı kiçik binə böyüməyə başlayıb bir kənd şəklinə düşür.

Qaya ölür. Canpolatla Gözəl, gözəl bir həyat düzəldib yaşamağa başlayırlar.

Günün birində axşamçağı Canpoladın qapısı vurulur. Canpolad qapını açdığı zaman beli bükülmüş və tükləri ağarmış bir qoca içəri girir. O:



– Qonaq istəyirsinizmi? – deyə soruşduqda Canpolad və Gözəl onu çox hörmətlə qəbul edirlər.

Qoca onların evində bir neçə vaxt yaşayır. Canpolat və gənc qadını qocanı öz ataları kimi sevməyə başlayırlar. Nəhayət, gecələrin birində qoca onların atasından, anasından danışır və atalarının öz sağlığında nə işlə məşğul olduğunu soruşur. Canpolad deyir ki, mənim atam Qaya adlı bir çoban imiş. O məni bəsləmiş və bu boya çatdırmışdır. Lakin həqiqi atam məlum deyil, Qaya çoban məni dağdan tapıb böyütmüşdür. Qadınım Gözəl də haman Qaya çobanın qızıdır.

Naməlum qoca bu söhbətdən sonra bir az düşünərək:

– Sən öz atanın kim olduğunu bilmək istəyirsənmi? – dedikdə, Canpolad diqqətlə qocanın üzünə baxır, "yəqin ki, qoca mənim atamdır" – deyə qəlbində bir həyəcan başlayır və qocaya sual verir:

– Söylə, qoca, sən mənim atammısan?

– Yox, mən sənin atan deyiləm, lakin atanın kim olduğunu bilirəm. Lakin çobandan sizə qalan mirası mənim yanıma gətirsən, atanın kim olduğunu sənə deyə bilərəm.

– O mirasdan xəbərim yoxdur.

– Axtarmaq lazımdır.

Naməlum qocanın bu sözündən sonra Canpolad hər yeri axtarır. Nəhayət, odunların altından bir qutu çıxarıb gətirir. Qoca qutunu açıb əvvəlcə kağızı Canpolada oxuyur və sonra da qiymətli şeyləri ona qaytarıb deyir ki, bunları yaxşı saxlayın. Bunlar gələcək üçün müqəddəs bir mirasdır.

Bu hadisədən sonra, qoca bir neçə ay orada qalıb Gözələ və Canpolada dərs verib yazı öyrədir və onların atasının yolunu və qoyduğu qanunları nə ki var onlara və uşaqlarına tanıdır. Qoca bu vəzifəni bitirəndən sonra Canpolad və qadını evdə olmadığı zaman birdən-birə yox olur. Hansı tərəfə getdiyi məlum olmur.

Canpolad bu hekayəni Atabəy Məhəmmədə danışandan sonra bir daha əlavə edir:

– Haman miras nəsildən-nəslə, atadan oğula keçə-keçə, nəhayət, mənim atamın əlinə çatıbdır. Hazırda sizin bəyəndiyiniz Gözəl qız haman çobanın qızı Gözəlin adını daşıyan qızdır. Hüzurunuzda oturan Canpolad isə haman Qaya çobanın dağdan tapdığı Canpoladın nəvəsidir.

Atabəy bu sözləri eşitdiyi zaman qocanın ona nağıl dediyini zənn etdi və onun dediklərinin doğru olub-olmadığını yoxlamaq üçün soruşdu:

– Hazırda haman müqəddəs dediyin miras haradadır?

– Bizim kəndimizdədir.

– Onları mənə göstərə bilərsinizmi?
– Mənim ixtiyarımda deyil.
– Kimin ixtiyarındadır?
– Kəndin ağsaqqallarının əlindədir. Çünki bu şeylər kənddə yaşayan xalqın babalarına məxsusdur. Onun üçün ağsaqqalların ixtiyarında olmalıdır.
– Gedib ağsaqqalları mənim yanıma çağır. Onlar haman mirası mənə göstərmək üçün gətirsinlər. Həm də onlar üçün qızınız Gözəlin məsələsini danışın. İndi ki, ixtiyar ağsaqqallardadır, qoy onlar bu məsələni də həll etsinlər.
Canpolad baş əyib getdi. Atabəy isə hər fikri buraxıb, ancaq bu məsələ ətrafında düşünürdü. O, Gəncə üstünə hücum etmək kimi qorxulu və çətin bir hadisəni tamamilə xatırından çıxarmışdı. O öz qəlbində bu hadisəni tarixi bir kəşfiyyat hesab edərək axıra qədər çalışmaq və yazılı kağızı oxumaq istəyirdi. Yarım saat keçəndən sonra Canpolad içəri girdi:
– Əlahəzrət, ağsaqqallar hüzurunuza gəlmişdir, – deyərkən Atabəy sevindi və:
– Qoy içəri buyursunlar, – dedi.
Atabəyin fikrincə, ağsaqqallar xariqülادə bir qiyafətə malik olan şəxsiyyətlər idi. Lakin bir azdan sonra adi kəndli paltarında dörd nəfər qoca içəri girdi və salam verib ayaq üstündə durdular. Atabəy onların salamlarını alıb oturmaları üçün yer göstərdi:
– Əyləşin, möhtərəm ağsaqqallar, – dedi. Qocalar oturdular, ipək bağlıya bükdükləri qutunu Atabəyin qarşısında yerə qoydular. Böyük ağsaqqal ipək bağlıdan qutunu çıxardığı zaman:
– Qutu, Qaya çobanın öz əli ilə qayırılmış qutudur, – dedi, əlini uzadıb qutunu açdı və qırmızı ipək dəsmalı oradan çıxartdı, oradakı qızılları, qiymətli daşları göstərdi, sonra dəri üstünə yazılmış məktubu Atabəyə verdi.
Atabəy yazılı dəri parçasını alıb üstündəkiləri oxudu:
"Ey bu körpəyə sahiblik edən insan! Xəlifə bu uşağın atasını və bütün nəslini məhv etdi. Hazırda qətl edilmək üçün xəlifənin adamları son qafiləni Bağdada sürməkdədir.
Böyük bir nəsli davam etdirmək üçün bu körpəni dağda buraxıb getdik. Canavarların əlindən qurtarmaq istədik. Şübhə yoxdur ki, körpə ya canavar ağzına düşəcək, yainki bir insan tərəfindən tapılıb



başlənəcəkdir. Uşağın yanında qoyulan qızıl və cavahirləri xərcləyib bu uşağı böyüdün. Bu körpə, Babəkin son yadigarı və son uşağıdır".
Atabəy kağızı oxuyandan sonra qızıllara və qiymətli daşlara nəzər saldı. Sikkələrin xəlifə Məmun və xəlifə Mötəsimin vaxtında vurulan sikkələr olduğu məlum oldu.
Atabəy yazılı dərini, qızılları və qiymətli daşları ipək dəsmala qoyub ağsaqqala qaytarıb:
– Aparıb saxlayın, qiymətli və tarixi bir mirasdır, – dedi.
Ağsaqqal şeyləri qutuya qoyub qurtarandan sonra Atabəy əsil məqsədinə keçərək:
– Mən sizi ikinci bir məqsəd üçün bura çağırmışdım. O məqsəd, mənim bu nəcib və bu tarixi ailə ilə qohum olmaq məqsədimdən ibarətdir. Mən bu barədə qızın özü və atasilə danışmışam. Yerli adətlərə görə bu izdivacın icazəsi siz ağsaqqallardan asılıdır, – dedikdə, ağsaqqallardan biri ayağa qalxıb baş endirib danışdı:
– Hökmdar canımızın, malımızın sahibidir, lakin o bizim ata-baba adətlərimizə toxunmamalıdır. Bizim başqa yerdən qız almağa ixtiyarımız vardır. Başqasının da gəlib yerlimiz olmasına inandığımız zaman qız verə bilərik. Kəndimiz heç bir zaman Gözəlin buradan çıxarılmasına razı ola bilməz, bu mümkün deyil.
Atabəy Canpolada dediklərini təkrar edərək dedi:
– Mən Gözəlin canına and içmişəm, o andı heç vaxt sındırmayacağam. Mən Gözəli bu kənddən heç bir tərəfə aparmayacağam. Bu barədə ona söz verirəm. Kəbin kağızında da bunu qeyd edə bilərsiniz.
Ağsaqqal gülümsəyərək Atabəyə cavab verdi:
– Atabəy bilməlidir ki, bizdə kəbin qanunu yoxdur. Evlənənlərdən qız bu müqəddəs mirasa, kişi isə qızın canına and içməlidir. Verilən andı sındırmaq isə boşanıb və boşamaq deməkdir. Hərgah bu şərtlər qızın və oğlanın tərəfindən qəbul olunubdursa, ağsaqqalların etirazı yoxdur. İndi qızın bura çağırılması və atasının razılıq verməsi lazımdır.
Canpolad razılıq verdi, qızın dalınca adam göndərildi. İyirmi dəqiqədən sonra başından ayağına qədər ağ ipəklərə bürünmüş bir qız başını əyib qapıdan otağa daxil oldu və təzim edib otağın bir tərəfində dayandı.
Ağsaqqal Gözələ müraciət edərək:
– Sən bu başqa yerlinin Canpolad kəndinin vətəndaşı olmasına razısanmı? – dedikdə Gözəl başını qaldırıb cavab verdi:
– Elin adətinin mühafizə edilməsi şərtilə razıyam.

Ağsaqqal Atabəyə müraciət edərək dedi:

– Əlahəzrət Atabəy zəhmət çəkib qızın yanında durmalıdır.

Atabəy qalxıb Gözəlin yanında durdu, ağsaqqalın verdiyi təlim üzrə and içdi:

– Yerli adətə xəyanət etməyəcəyəm. Gözələ verdiyim vədələrə vəfa edəcəyəm. Bunun üçün də Gözəlin canına and içirəm!

Atabəy bu andı verəndən sonra Gözəl də tarixi miras saxlanan qutunun yanına gələrək yerə oturdu və:

– Ərim mənə verdiyi andı sındırmayınca ondan üz çevirməmək və ona xəyanət etməmək üçün bu böyük mirasa and içirəm! – dedi və yenə də qalxıb geri çəkildi, Atabəyin yanında durub ağsaqqalın cavabını gözlədi. Ağsaqqal tarixi miras saxlanan qutudan bir kitab çıxarıb bir səhifəyə qızın, başqa bir səhifəyə də Atabəyin verdikləri andı yazaraq dedi:

– İzdivacınızın tarixini bu səhifələrə yazdım. Çalışın ki, bu tarixin altından boşanmağınızın tarixi yazılmasın.

Gözəl:

– Andımı sındırmamağa söz verirəm! – dedikdə, Atabəy də bunu təkrar etdi. Ağsaqqalların dördü də birdən:

– Mübarək olsun! – deyərkən Gözəl əlini Atabəyin əlinə uzatdı. Atabəy onun əlini əlinə alıb durdu. Nə olacağından xəbəri yox idi. Yalnız Gözəl dodaqlarını onun dodaqlarına uzadıb öpəndən sonra, elin belə bir adəti də olduğunu anladı.

Ağsaqqallar qalxıb getmək istərkən Atabəy katibi çağırıb hər birisinə yüz qızıl verməsini əmr etdi. Ağsaqqallar isə bu mükafata qarşı təşəkkür edərək:

– Əlahəzrətin ömrü uzun olsun, lakin bizdə pul almaq adətləri yoxdur, – dedilər.

Atabəy katibinə toy hazırlığı görmək üçün əmr verdiyi zaman Canpolad da:

– Əlahəzrət, hər şey burada qurtardı, bizdə toy adəti yoxdur, – deyə otaqdan çıxdı.

## AND

Atabəy bir ay beş gün Canpolad kəndində vaxt keçirdikdən sonra payız yağışları sakit olmuşdu. Atabəy bir axşam yenə də aranlılardan məktub aldı.



Məktubda yenə də aranlılar Atabəyin Həmədana qayıtmasını və Arana hakim göndərməsini, nahaq qanların tökülməsinə imkan verilməməsini təklif edirdilər. Gözəl bu təklifdən sevindi. O, Atabəyin aranlılara qarşı müharibə açmayacağına inandı.

Atabəy həqiqətən aranlılara qarşı müharibə açmadı. Aranlılar ilə dostluq, qardaşlıq əlaqəsi yaratmaq, sülh bərpa etmək üçün qoşunu düşərgələrdə yerləşdirib az bir qüvvə ilə Nizaminin ayağına getməli oldu.

Atabəy başındakı atlıları ilə Gəncəyə hərəkət etməzdən əvvəl Gözəlin dodaqlarından öpüb vidalaşarkən, Gözəl ona and içdiyini xatırladaraq dedi:

– Sən and içdiyini unutma. Madam ki, aranlılar sülh istəyir, sən onlara qarşı müharibə açma.

Atabəy onun saçlarını oxşayıb:

– Mən müharibəyə getmirəm, orada sülh və əmniyyəti bərpa etmək üçün gedirəm, – dedi.

Gözəl isə cavabında:

– Mən buna inanıram, – dedi. – Amma bununla belə, mən sənə bir şeyi də xatırlatmaq istəyirəm. Aranlıların göndərdikləri məktubun son cümləsini xatırla! Onlar yazmışdılar: "Atabəy Aranın üstünə ordu və qılınc ilə gələrsə, biz də onu ordu və qılınc ilə qarşılayacağıq".

– Mən elə düşünürəm ki, onlar bu cürəti edə bilməzlər.

– Mən də elə düşünürəm ki, nə Fəxrəddin, nə də onun yoldaşları əl-ayaqlarını boş qoyub deməyəcəklər ki, "Gəl bizi öldür". Bu olmaz! Atabəy, yaxşı düşün, əgər sən onları təslim etmək üçün gedirsənsə, onlar sənə təslim əvəzinə qılınclarını və nizələrini uzadacaqlar. Onlar tək deyil, onların arxasında bütün Şimali Azərbaycan durur.

Atabəy Gözəli inandırıb yola düşdü.

Atabəy Gəncədə Nizamini yanına çağırıb aranlılar ilə əbədi sülh və qardaşlıq əlaqəsini bərpa etmək üçün tədbirlər tökdü. İşlər düzələndən və ölkədə asayişi bərpa edəndən sonra qoşuna geri çəkilmək üçün əmr verib ölkəni səyahətə çıxdı.

* * *

Atabəy Qızıl Arslanın göndərdiyi məktuba görə Həmədana hərəkət etməli idi. O, qadını Gözəlin əkiz doğduğunu eşitmişdi, buna görə də yol üstündə Canpolad kəndinə yanaşmaq və uşaqlarını görmək, Gözəlin sevimli əllərindən öpməyə tələsdi.

Günortadan bir az keçmiş Atabəyin xasa alayı Canpolad kəndinin qabağından keçirdi. Atabəy öz adamları ilə bərabər dəstədən ayrılıb atlarını kəndə sürdülər.

Kəndin gəncləri, gəlin və qızları Atabəyi görən kimi Canpolad kişinin evinə tərəf qaçıb qışqırdılar:

– Padşah gəldi! Padşah gəldi!

Səsə, Canpolad və onun qonşuları küçəyə çıxdılar.

Bu anda Atabəy öz adamları ilə Canpoladın qapısında dayandı. Dərhal, Gözəl həyətə çıxdı. Həyətə yığışan adamlar atları tutdular.

Həyətdə başqa atlar da var idi. Atabəy bu atların kimin olduğuna əhəmiyyət verməyib qonaq otağına daxil oldu.

Gözəl və kəndin ağsaqqalları öz andına sadiq qaldığına görə Atabəyi alqışladılar. Bu sözdən sonra süfrə açıldı. Süfrənin üstünə sərin şərbət, toyuq qızartması düzüldü, meyvələr və əlvan yeməklər qoyuldu.

Süfrə yığışdıqdan sonra bir qadın və bir kişi içəri daxil oldu. Onların hər birisinin qucağında bir uşaq vardı. Uşaqların ikisi də bir-birinə oxşayırdı və hər ikisi oğlan idi... Uşaqları gətirənlərdən birisi Gözəlin anası, o birisi də dayısı Fəxrəddin idi.

Atabəy bu evlə Fəxrəddinin nə əlaqəsi olduğunu və onun nə münasibətlə bura gəldiyini bilmək üçün təəccüblə ağsaqqallardan soruşdu:

– Möhtərəm ağsaqqalların icazəsi ilə Fəxrəddinin bu evlə nə əlaqəsi olduğunu öyrənmək istəyirəm, – dedi. Ağsaqqallardan biri təzim edib:

– Əlahəzrətin təşrif gətirməsi münasibətilə uşaqlara ad qoyulacaqdır. Ona görə Gözəlin dayısı Fəxrəddin də bu təntənədə iştirak etmək üçün gəlmişdir.

Atabəy "Gözəlin dayısı" sözlərini eşidən kimi təəccüblə soruşdu:

– Əcəba, Fəxrəddin Gözəlin dayısıdırmı?

– Bəli, əlahəzrət, dayısıdır, görünür Atabəy bunu unutmuşdur, – deyə həmin kişi cavab verdi. Bundan sonra Atabəy irəli yeriyib Fəxrəddinin boynunu qucaqlayıb dedi:

– Gözəlin dayısı olmağınız münasibətilə özümü dünyada ən xoşbəxt və məsud bir adam hesab edirəm.

Qucağında uşaq olduğuna görə Fəxrəddin Atabəyi qucaqlaya bilmədi, lakin cavabında:

– Sizin kimi bir zatın bacım qızına evlənməsi münasibətilə mən də özümü xoşbəxt və məsud hesab edirəm, – dedi.



Bundan sonra əkizlərdən əvvəl doğulan uşağı Gözəl Fəxrəddindən alıb Atabəyə verdi və dedi:

– Hərgah öz evladın olduğuna inanırsansa, dodaqlarından öp, adını ver.

Atabəy uşağı bağrına basıb öpdü:

– Bu mənim sevimli oğlum Əbubəkrdir[1] – dedi və bu sözdən sonra Gözəl uşağı alıb ağsaqqalların birisinə verdi.

Atabəy sonra əlavə etdi: – Həm də o, mənim varisim və vəliəhdimdir, – dedi.

Gözəl sonra ikinci uşağı Atabəyə verdi, yenə qabaqkı sözünü təkrar etdi.

Atabəy uşağı bağrına basıb dodaqlarından öpdü. Böyük ağsaqqalın müqəddəs miras qoyulan qutudan çıxartdığı dəsmalı uşağın belinə bağlayıb:

– Bu mənim sevimli oğlum Özbəkdir, – dedi.

Böyük ağsaqqal dəsmalı açıb Atabəyə verdi.

Bununla da adqoydu mərasimi bitdi.

Atabəy bir neçə gün Canpolatın evində qonaq qalandan sonra vidalaşmaq istədi. Gözəl uşaqları gətirdi. Atabəy uşaqları alıb öpdü və anasına qaytardı.

Fəxrəddin Atabəyin üzəngisini tutub ata mindirdiyi zaman o:

– Mən, Atabəy Məhəmməd olmasa idim, Fəxrəddin olmaqla fəxr edərdim. Zənn edirəm ki, bu tanışlıq həm daimi, həm də dostanə olacaqdır.

Fəxrəddin Atabəyə cavab olaraq:

– Həm də bu dostluq xalqımızın istiqlaliyyətini daimi olaraq qoruyacaq və xalqımızın milli mədəniyyətinin artmasına zəminə yaradacaqdır.

Atabəy isə Canpolada müraciətlə belə bir əmr verdi:

– Mən bu kəndin adını oğlanlarımın yadigarı olaraq Püsəran[2] kəndi qoyuram, – deyərək atını məhmizləyib kənddən uzaqlaşdı.

Birinci hissənin sonu

---

[1] Əbubəkr İbn Məhəmməd – Qızıl Arslandan sonra Azərbaycanda hökmdar olmuşdur. Nizami "İskəndərnamə"ni Əbubəkr İbn Məhəmməd adına yazmışdır. Azərbaycanda Əbubəkr adına bir neçə kənd də var idi (Qəzvini).

[2] Hazırda Püsəran kəndi Ağdam ilə Bərdə arasında bir neçə evdən ibarətdir.

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Emil Məmmədov*

Korrektorlar: *Fərida Səmədova*

Yığılmağa verilmişdir 14.11.2004. Çapa imzalanmışdır 30.05.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 21,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 141.

Kitab "PROMAT" mətbəəsində çap olunmuşdur.

Ш6
О-49